ŞAHİN FAZİL

# ÜÇÜNCÜ DİVAN

B a k ı – 2008

***Redaktor***: *Ənvər Nəzərli*

Şahin Fazil. **ÜÇÜNCÜ DİVAN**
Bakı: Təknur – 2008, 1399 s.

Tarix elmləri doktoru, profesor, Azərbaycan Yazıçılar Birliyinin üzvü, «Məcməüş-şüəra» ədəbi məclisinin sədri Şahin Fazil 1990-cı ildən e'tibarən müasir dövrdə divan yaratmaq təşəbbüsünə başlayaraq divanlar bağlamaqdadır. Sayca üçüncü olan bu divan müəllifin çap olunmuş kitablarının iyirmi dördüncüsüdür. Ş.Fazilin birinci (1996) və ikinci (2005) divanları kimi «Üçüncü Divan»ı da klassik ədəbi ən'ənəni özündə əks etdirməklə yanaşı başqa divanlardan müasirlik baxımından seçilir.

«Üçüncü Divan»a şairin son iki ildə yazdığı iki poeması da daxil edilmişdir.

## *REDAKTORDAN*

*Möhtərəm oxuculara şair Şahin Fazil haqqında ətraflı məlumat verməyə lüzum yoxdur. Onun yaradıcılığı barədə akademik Bəkir Nəbiyev kimi görkəmli alimlər, ədəbiyyatşünaslar dəyərli fikirlər söyləmiş, yüksək qiymət vermişlər. Şahin Fazil son on səkkiz ildə işıq üzü görmüş bədii, elmi və publisist əsərləri ilə özünü tanıtdıra bilmişdir. Atalar demişkən «görünən yola nə bələdçi?».*

*Mən hələ Şahin Fazillə şəxsən tanış olmazdan əvvəl qəzəllərilə tanış idim. Ötən əsrin 93-cü ilinin baharı idi. Kitab mağazalarının birində «Qəzəllər» adlı kitab gördüm və dərhal aldım. Müəllif o zamana qədər adını eşitmədiyim Şahin Fazil idi. O dövr şairlərinin ağsaqqallarından gənclərinə kimi hamısı ilə şəxsən tanış idim, lakin bu ada rast gəlməmişdim. Kitabın ön sözündən öyrəndim ki, müəllif Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsini bitirmiş, on üç il Əfqanıstanda çalışmışdır. Qəzəlləri böyük maraqla oxudum. Həsənoğludan müasirlərimizə qədər şairlərin, demək olar ki, hamısının qəzəl yaradıcılığına az-çox bələd idim. Şahin Fazilin qəzəlləri öz sadəliyi və mövzu dairəsilə onlardan kəskin surətdə seçilirdi. Onlarda ərəb-fars söz və ifadələri, izafət tərkibləri, anlaşılmazlıq yox idi. Diqqətimi cəlb edən cəhətlərdən biri də klassiklərdən tutmuş müasir şairlərə qədər əksəriyyətinin, hətta indiki oxucuya az bəlli olanların da şe’rlərindən epiqraf kimi istifadə olunmasına, onların fəlsəfi düşüncələrindən qidalanmasına baxmayaraq Şahin qəzəllərinin deyim və məzmunca onlardan fərqlənməsi, təqliddən uzaqlığı idi.*

*Bir neçə gündən sonra Respublika Mədəniyyət fondunda Şahin Fazillə tanış oldum. Onun katib olduğu «Məcməüş-şüəra» ədəbi məclisi o zamanlar həmin fondun nəzdində fəaliyyət göstərirdi. Tanışlığımız tezliklə dostluğa çevrildi. Dərc olunan bütün şe’rlərini, elmi və publisist əsərlərinin çoxunu, ədəbi məclis*

*üzvləri haqqında yazdığı məqalələrini oxudum və onun görkəmli elm və qələm sahibi olduğuna yəqinim daha da artdı. Tarix elmləri doktoru elmi dərəcəsi almaq üçün yazdığı dissertasiya işi məni heyrətə saldı. Şah ismayıl Xətai və digər Səfəvi şahlarının müxtəlif dövlət başçılarına farsca yazdıqları beş mindən artıq diplomatik məktubları araşdırıb təhlil etmək inanılmaz dərəcədə gərgin əməyin məhsulu idi. Bu fikri müdafiə zamanı tarix elmimizin ən görkəmli nümayəndələri də dönə-dönə qeyd etdilər. Bunları deməkdə məqsədim Şahin Fazilin gecə-gündüz çalışan, yazıb-yaradan zəhmətkeş bir ziyalı olduğunu vurğulamaqdır. Belə olmasaydı Şahin iyirmi dörd kitab, o cümlədən üç şe'rlər divanı, beş elmi monoqrafiya, üç yüzdən artıq elmi məqalə, habelə «Məcməüş şüəra» ədəbi məclisinin tarixi olan «Təzkireyi-Şahin» kimi əsərləri hasilə gətirə bilməzdi.*

*Şahin Fazili həm də xeyrxah, Böyük Yaradana ürəkdən inanan bir insan kimi tanıyıram. Allah-təalanın vəsfində bir neçə minasatı, Peyğəmbər həzrətləri haqqında nə'tləri, müqəddəs imamlara həsr olunmuş qəzəl və qəsidələri onun pak iman sahibi olmasının təkzibedilməz sübutudur. Divanlarını da, iri həcmli əsərlərini də «Bismillah»la başlayır, şükrlə bitirir. Özü demişkən*

*«Bismillah»ı yazmasa qələm gər,*
*Şahində qələm ələm göyərdər.*

*Şahin Fazil klassik poeziyamızın, həm də tək türkdilli deyil, farsdilli poeziyamızın da bilicisi olmaqla yanaşı, klassik Azərbaycan ədəbi ən'ənələrini özünəməxsus təfəkkür tərzi ilə davam etdirən novator şairdir. Bir çox şe'rlərində klassik şairlərə dərin ehtiramını ifadə edən Şahin müasir dövrümüzdə qəliz dildə qəzəl yazanlarla barışmır, onları xalqın anlayacağı tərzdə yazmağa çağırır.*

*Şahin Fazilin əruzun bütün bəhr və janrlarında qəzəl, qəsidə, mürəbbe', müxəmməs, müsəddəs, nəzirə, təzmin, qitə,*

*rübai, məsnəvi, mərsiyələrilə yanaşı, bir-birindən gözəl, böyük ustalıqla yazılmış xeyli heca şe'rləri də vardır. Cəsarətlə demək olar ki, bu şe'rlər çox şairlər üçün nümunə ola bilər.*

*Hörmətli oxucu! Qarşındakı min səhifədən artıq olan bu kitab şahin Fazilin sayca üçüncü «Divanıdır». Burada da şair əvvəlki divanlarında olduğu kimi klassik divanlara xas ədəbi janrlardan bəhrələnmiş, üstəlik oraya heca və sərbəst janrlarda yazdığı şe'rlərini də daxil etmişdir. Bu böyük həcmli divan haqqında böyük məqalə yazmaq fikrində deyiləm. Bu, inşallah gələcəyin işidir. Odur ki, şairin «Divan»dakı şe'rlərindən onun özünəməxsus orijinal şairanə fikir və düşüncələrini əks etdirən misra və beytlərini nəzərə çatdırmaqla kifayətlənirəm.*

*Qeyd etdiyim kimi, qələm Şahin Fazilin əlindən yerə düşmür. O, qələmə elə bağlıdır ki, bir qəzəlində öz gələcək məzarının baş daşını şairanə (Şahinanə) surətdə qələmlə əlaqələndirir:*

*Əlimdə hər zaman tutdum qələm, Şahin, mən öldükdə*
*Görərlər seyr edən kəslər məzarımdan qələm qalxıb.*

*Şair xalqın ruhunu oxşayan sadə dildə qəzəl yazan müasirlərinin uğurlarına sevinir, onları təbliğ edir:*

*Yazırıq xəlqi qəzəllər, öz dilimiz var bizim,*
*Həmi Ənvərdə bu istək görünür, həm məndə.*

*Şahinin qəzəllərində nikbinlik də, bədbinlik də, incə yumor və zarafat da vardır. Lakin o, əsasən nikbin şairdir, hətta ölüm mələyi Əzrayılı da gülə-gülə, rəqslə qarşılamaq istəyir:*

*İstərəm qarşılayım Əzrayılı rəqsimlə,*
*Nə gərəkdir ki, verim canı pərişan uzanıb.*

*Bir gözələ zarafatla, -*

*Aşiqlərə çəkdin o qədər dağ bu şəhərdə,*
*Bir kəs gələn il qalmayacaq sağ bu şəhərdə, -*

*deyə müraciət edən şair, başqa bir qəzəlində sevgilisinin etdiyi qarğışın duadan daha yaxşı olduğunu söyləyir:*

*Dedi: «Yansın ciyərin eşqə düşüb, ey Şahin»,*
*Qarğışı dilbərimin məncə duadan yaxşı.*

*Şahin Fazil heca vəznində yazdığı bir şe'rində aşiq olmaq istəyini bildirir, lakin adi bir aşiq yox, Məcnun kimi dəli-divanə aşiq olmaq diləyir:*

*Yol gəlmişəm getmək üçün,*
*Tapılmışam itmək üçün…*
*Leyli, sənə yetmək üçün*
*İstəyirəm dəli olum.*

*Bir varsağısında yarsız qalmağın (əfsuslar ki, şair dostum çox erkən yarsız qalmışdır) nə qədər ağır olduğunu ürək yanqısı ilə belə ifadə edir:*

*Yar sızlar,*
*Yar ölübsə, yar sızlar.*
*Yarsızlığın dərdini*
*Yalnız bilər yarsızlar.*

*Həm mə'na, həm bədii gözəllik, həm cinas, həm də «yar» sözünün müxtəlif forma və mə'nalarda təkrarı poetik ustadlıq nümunəsidir.*

*Şahin poeziyası, söz yox ki, nöqsanlardan da xali deyil. Şair özü də bunu boynuna alır və təvazökarcasına deyir:*

*Bəndəyəm, əlbəttə ki, səhvim də var,*
*Mən dəxi nöqsan eləyənlərdənəm.*

*Yəqin ki, bəzi nöqsanlar barədə danışsam dostum məndən inciməz. Bir sıra nöqsanları əvvəllər də söhbət arası ona bildirmişəm. Dahi Nizami Gəncəvi demişkən «Yaxşı görünsə də eybi gizləmək, dost dostun eybini örtməsin gərək». Şahin sayı üç mini keçən qəzəllərinin bəlkə də əksəriyyətində sadə qəzəl uğrunda mübarizə aparmasını vurğulayır, mövzudan asılı olmayaraq bəzi qəzəllərinə mütləq bu haqda bir beyt də olsa salır. Aydın məsələdir ki, bir fikir, ya söz çox təkrarlananda tə'sir gücünü itirər. Hər şeyin müəyyən həddi-hüdudu olmalıdır. Böyük Füzulinin xəbərdarlıq etdiyi kimi:*

*Gər çox istərsən, Füzuli, izzətin, az et sözü,*
*Kim çox olaqdan qılıbdır çox əzizi xar söz.*

*Möhtərəm dostuma məsləhət görərdim ki, sadə qəzəllər yazmaqda davam etsin, lakin bu sahədə xidmətini, sə'yini vurğulamadan qəliz yazanlara əyani nümunə göstərməklə kifayətlənsin. Qəzəldə dil sadəliyinin özünün də həddini gözləmək lazımdır. Əks təqdirdə sadəlik bayağılığa çevrilə bilər. Ümidvaram ki, Şahin Fazil indiki sadəlik həddində qalacaqdır.*

*Dilimizdə vətəndaşlıq hüququ qazanmış, bizimkiləşmiş ərəb-fars mənşəli sözlər olduğu kimi, poeziyamızda da belə sözlər, ifadələr, izafət birləşmələri mövcuddur. Onların hamısının əleyhinə çıxmaq düzgün deyil. «Şeyda bülbül» və ya bəhrin, qafiyənin, ən'ənənin tələb etdiyi məqamlarda «bülbülu-şeyda» izafət birləşməsinin şe'rdə işlənməsini mənfi hal kimi pisləmək nə dərəcədə düzgündür? «Şeyda» dəli (eşq dəlisi) deməkdir. Məncə*

*«dəli bülbül» əvəzinə «şeyda bülbül» işlətmək daha düzgündür, necə ki «dəli keçi» yerinə «şeyda keçi» demək cayiz deyildir. Əgər Şahin Fazil «Təzkireyi-Şahin» kimi dəyərli kitabını izafət birləşməsilə deyil, «Şahinin təzkirəsi» adlandırsaydı həm ən'ənə pozular, həm də mə'na dolğunluğu itərdi.*

*Şahin Fazilin sərbəst üslubda («vəzn» sözünü bilərəkdən işlətmirəm, çünki sərbəst şe'rdə vəzn, yəni ölçü yoxdur) yazdığı şe'rlərini «Divan»a salmasını müsbət hal kimi dəyərləndirmirəm. Ədəbiyyatımıza sovet hakimiyyəti illərində gətirilmiş bu üslub milli üslubumuz deyildir. İndiki qloballaşma dövründə bu üsluba aludə olanların sayı nə qədər artır-artsın, milli şe'r vəznlərimiz də digər əxlaqi-mənəvi dəyərlərimiz kimi yaşayacaq, adını vaxtaşırı dəyişən sərbəst «şe'r»in milliləşməsinə imkan verilməyəcək ümidindəyəm. Bu, mənim şəxsi əqidəmdir.*

*Bu yazını Şahinin bir beyti ilə bitirirəm:*

*Şahin, yazıram çoxlu qəzəl mən o səbəbdən,*
*Qoy xalqıma çatsın barı bir danə nişanə.*

*Əziz dostum! Səndən xalqına «bir danə» deyil, «min bir danə» nişanə qalacaq. Buna şübhəm yoxdur.*

*Şair-publisist, «Ustad sənətkar»*
*diplomu laureatı* *Ə.Nəzərli*

*Şe'rimi Qur'an oxuyub yazmışam,*
*Rəmzimi irfan oxuyub yazmışam.*

*Heç kimə qəsdim-qərəzim yox mənim,*
*Nöqsanı nöqsan oxuyub, yazmışam.*

*Yazmamışam «Divan»ı birdən-birə,*
*Bir neçə «Divan» oxuyub yazmışam.*

*Bircə gün ömrümdə hədər keçmədi,*
*Şahina, hər an oxuyub-yazmışam!*

## DİBAÇƏ

Bismillahir-rəhmanir-rəhim!

Ey Ulu Pərvərdigar! Sənə şükr edirəm. Sənə minnətdaram ki, ömrümü bir qədər də uzatdın, məni bir qədər də yaşatdın və yaradıcılıq yolumu işıqlatdın. Bu yola elə bir nur səpdin və arabir mürgüləyən ilhamımı elə tərpətdin ki, canımda yenidən gur bir məşəl yandı, şe'rlərim durna qatarı kimi sıralandı və «Üçüncü Divan»ım yarandı.

Pərvərdigara! Təbii ki, Səni əhsən qələmi ilə alqışladım və bu divan kitabımı da «Bismillah»la başladım:

*«Bismillah»ı yazmasa qələm gər,*
*Şahində qələm ələm göyərdər.*

*…«Bismillah» ilə sözüm şəkərli,*
*«Bismillah» ilə şe'r dəyərli.*

*…Var kimdə ki, intizar behiştə*
*«Bismillah» olar açar behiştə.*

*Sözlər sözüdür bu söz – cəvahir!*
*Allahın adı bu sözdə zahir!*

*«Bismillah»ı yazmasa qələm gər,*
*Şahində qələm ələm göyərdər.*

Pərvərdigara! Sən müqəddəslər müqəddəsisən! Amma, Səndən sonrakı müqəddəs zat Sənin rəsulun olan mənim peyğəmbərimdir. Mən bu növbəti divanımda dönə-dönə Məhəmməd salavatullahı andım, şahin quşu kimi şe'r simasına havalandım və öz söz xəzinəmi daha da varlandırmaq naminə yeni bir «Nə't» qazandım:

*Ey dilimin əzbəri peyğəmbərim,*
*Yer üzünün sərvəri peyğəmbərim.*

*Nə’tə Məhəmməd adı ünvandır,*
*Nə’t yazanlar sənə heyrandır.*

*Gözlərim aydın, doğulub divanım,*
*Say iki idi, üç olub divanım.*

Pərvərdigara! Başı aşağı qələmim hal-hazırda üç divanımın üçüncü dibaçəsini yazmaqdadır. Başım fikirlərimlə baş-başadır. Çoxlu suallarım var Sənə: Niyə gətirdin məni dünyaya? Azərbaycan ölkəsinin Quba şəhərində mənim doğulmağım zərurət idimi? Sonra neçin məni Bakıya yolladın? Daha sonra niyə məni daha uzaqlara atdın və neçin mənə 13 qürbət ili yaşatdın? Sonralar niyə qədəmlərimi dəfələrlə Əfqanıstana, Türkiyəyə, İrana, Rusiyaya və başqa ölkələrə istiqamətləndirdin və məni səfər atlarına mindirdin? Neçin mütərcim oldum, müəllim oldum, şair oldum, alim oldum. Niyə üç divan yazdırdın mənə? Neçin «Divan» divanəsi etdin məni? Bütün bunların səbəbini Sən gözəl bilirsən! Əgər İlyas Nizami doğulmasaydı «Xəmsə» doğulardımı? Əgər Məhəmməd Füzuli dünyaya gəlməsəydi məhz onun qələmindən çıxan «Leyli və Məcnun»u kimsə yazardımı? Demək, hər bir yaranışın mövcudluğu zərurətdir. Elə mənim özümün də dünyaya gəlməyim zərurətmiş…

## ***Q ə z ə l***

*«Məndə tövfiq olsa bu düşvarı asan eylərəm»*
*Məhəmməd Füzuli*

*Əhvalımı zikrinlə xumar etməyə gəldim,*
*Yarəb, səni mən qəlbimə yar etməyə gəldim.*

*Dərvişliyi atdım və yaratdım neçə divan,*
*Barmağımı cəbr ilə qabar etməyə gəldim.*

*Üzgün eləmək düzgünü qəsdim deyil, amma*
*Əğyar olan adəmləri zar etməyə gəldim.*

*Me'yarım olubdur sözümün saflığı dildə,*
*Me'yarımı dillərdə şüar etməyə gəldim.*

*Nəzmin dili «düşvar» idi, eyvah, qəzəldə,*
*«Düşvar» o dili mənsə hamar etməyə gəldim.*

*Mən doğmalara doğma adam, yadlara yadəm,*
*Yad sözləri şe'r içrə kənar etməyə gəldim.*

*Şahin, cahana bəlkə də heç gəlməyəcəkdim,*
*Xəlqi qəzəli ölkədə var etməyə gəldim.*

Pərvərdigara! Mən həqiqətənmi ölkəmdə xəlqi qəzəli «var etmək» üçün doğulmuşam? Bəs məndən əvvəlki qəzəlxan şairlərimiz? Bəs Əliağa Vahid, Süleyman Rüstəm, Mir Mehdi Seyidzadə, Bəxtiyar Vahabzadə, Ənvər Nəzərli, Gülarə Munis? Axı, qəzəl dilimizin xəlqiləşməsində onların böyük əməyi olmuşdur. Demək, xəlqi qəzəlimizi «var etmək» uğrunda illərlə qələm yonmuş sənətkarlarımız böyük təşəkkürlərə layiqdirlər. Axı, onlar xalqımızın safdilli qəzəlini yaşatmışlar. Yaşatdıqları üçün də yaşayırlar və yaşayacaqlar.

Pərvərdigara! Bilirsən ki, çoxdan yazıram qəzəl. Mən də əvvəllər bu günümüzün əksər qəzəlxanları kimi qəliz dilli

qəzəllər yazmağın təşnəsi idim. Uymuşdum Məhəmməd Füzulinin, Seyid Əzim Şirvaninin, Mirzə Əli Əkbər Sabirin yazdıqları qəliz, qəliz olduğu qədər də dərin, dərindən-dərin qəzəllərinə və təqlid eləyirdim onları. Heyrət içindəydim və onların cazibə dairəsindən kənara çıxa bilmirdim:

*Bir zərrə bizim qafiyəpərdazlığımız var,*
*Bizlər nəçiyik Seyyidü Sabir qabağında?*

*Şe'r aləminin sərvəridir şir Füzuli,*
*Şahin quşu heyrətdə qalıb şir qabağında.*

Yaxşı yadımdadır. Keçən əsrin 63-cü iliydi. Əfqanıstanda işləyirdim. Özümlə Bakıdan bir neçə kitab aparmışdım o diyara. Vaxtımın azlığına baxmayaraq çoxlu kitab mütaliə edirdim, xəyalən adlarını indicə çəkdiyim bəzi şairlərin yanına gedirdim. Günlərin bir günü onların biri gəldi yanıma. Əlbəttə, yuxuda gəldi. Füzuli girdi yuxuma. Dayandı qabağımda. Nə yazdığımı soruşdu. Əlim əsə-əsə bir neçə varaq qəzəlimi verdim ona. Tez oxudu və tez də qaytardı, dedi: «Mənim çəkməmi geyə bilərsən, amma yerişimi yeriyə bilməzsən». Böyük şairin dediyi zərbül-məsəli eştimişdim. Dedi və bir anda qeyb oldu. Çaşıb qalmışdım. Necə yəni çəkməsini geyə bilərəm, yerişini yeriyə bilmərəm. İncimişdim Füzulidən. Necə yəni yerişini yeriyə bilmərəm? Nə üçün? Nədən? Niyə?..

Gənc idim. 23 yaşım vardı. Elə sanırdım ki, Füzuli kimi «xətmi-kəlam» etmişəm və savad mərtəbəsinə yetmişəm. Vurulmuşdum qəzələ. Elə bilirdim mən də nəsə yazıram. Hətta qəzəl dəryasında üzmək xəyalına düşmüşdüm. Sanırdım ki, artıq üzürəm də. Arabir özümə «qərq olmaram ki?» sualını verirdim. Tərəddüddəydim. Sonralar həmin tərəddüd hissim belə bir beytdə öz ifadəsini tapdı:

*Dəryası bu eşqin məni qorxutmada, Şahin,*

*Düşdümsə bu dəryayə nicatım necə olsun?*

İllər ötdü. Ondan çox şe'rlər kitabım çıxdı. Beş elmi, iki tərcümə, bir təzkirə və üç divan kitabı yazdım, qələmim minlərlə qəzəl cızdı. Amma yenə kiçik olaraq qaldım. Məgər böyük şairlərin müqabilində kiçik görünmürükmü? Şir Füzulilərin qarşısında şahin quşları nədir ki?

Pərvərdigara! Keçmişlər önündə ehtiramla baş əysəm də, mən müasirlik tərəfdarıyam. Bəzən divanlarım haqqında elmi məqalələr, dissertasiya və monoqrafiya yazmış alimlərdən akademik Bəkir Nəbiyev, professorlar Sabir Əliyev, Tərlan Quliyev, Teymur Əhmədov, yazıçı publisist Hacı Rafiq Şirvani, şair-tədqiqatçı Qiymət Məhərrəmli barəmdə məhz bu fikri xüsusi vurğulamışlar: Şahin Fazilin qələmindən çıxan divanlar müasir divanlardır!

Məgər belə deyilmi? Müasir dövrdə yaşayan, müasir düşüncə tərzi ilə düşünən, müasir ədəbi mühitin nümayəndəsi olan və müasir divan şövqü ilə qələmlər əridən şair müasir divan bağlamaya bilərmi? Çox-çox təəssüflər ki, müasirimiz olan, lakin fars-ərəb söz və çoxmərtəbəli izafət tərkibləri ilə dolu əruz şe'rləri yazan bəzi «qeyri-müasir» qəzəlxanlarımız varlar. Məcər onlar bilmirlərmi ki, müasir oxucu keçmiş qəzəlxanların qəliz şe'r dilini başa düşmür? Yanlarında lüğətmi gəzdirsinlər? Məsələn, müasir oxucu müasir dövrdən çox da uzaq olmayan bir əsrdə (XIX) yaşamış Məşədi Mürtəza Qarabağinin bu beytinin mə'nasını necə başa düşsün:

*«Qoyub əl piçi-nafə bir yavaş növ ilə təprədsən,*
*Ze sər ta pa həmə əza, libasü həm bədən titrər».*

Müasir oxucu axı nə bilsin ki, «piç» - qırış, «naf» - göbək, «ze» - dan, dən şəkilçisi, «pa» - ayaq, «ə'za» - bədən üzvləri deməkdir. Mən məhz bu çətinliyi nəzərə alıb qəzəlimin

dilini tam sadələşdirdim. Mən elə buna görə də müasir divanda qəzələ üstünlük verib onu «tənha və yetim» qoymadım, heca, sərbəst vəznli şe'rlərimi də qəzəllərimə əlavə edib divan bağladım, hətta yapon haykularının təsiri ilə yazdığım «Azərbaycan haykuları»mı da «Üçüncü Divan»ımda əks etdirdim:

*Təzə bir səslə yüyürdüm qəzəlin bağçasına,*
*Təzə səsli neçə divanda səsim mə'lumdur.*

*Köhnə güllər məni hərçənd ki, məst eylərdi,*
*Yeni gül səmtə tələshatələsim mə'lumdur.*

*Dil baxımdan qəzələ tazə nəfəs lazımdı,*
*Mən isə tazəçiyəm ki, nəfəsim mə'lumdur.*

Amma, qəzəllərimi sadə dillə yazmağım yenə də bəzi mühafizəkar qəzəlxanların qəzəbinə səbəb olur və hərdənbir qulağıma onların «tənqidanə» sözləri gəlib-çatır. Pərt olmuram. Çünki mən düzgün yoldayam. Qoy yorsunlar öz qəliz dillərini:

***Q ə z ə l***

*Üstümə tullama daş, da'va-dalaş istəmədim.*
*Ürəyim gül yağışı istədi, daş istəmədim.*

*Bilir Allah-taala ki, xeyirxahəm mən,*
*Qəlbə qəm, çöhrəyə matəm, gözə yaş istəmədim.*

*Sən qəliz şe'rini təqdim eləmə, ey cahil,*
*Qəlbi salma təlaşa, mən ki təlaş istəmədim.*

*Bil ki, «Məcməş-şüəra» məclisi sultan yeridir,*

*Bu gözəl məclisə mən qul-qaravaş istəmədim.*

*Deyibən «sadə yazaq» mən nə günah eyləmişəm?*
*Mən sizinlə, bilin, heç və'də savaş istəmədim.*

*Bəli, baş şairi olmaq dilədim dövranın,*
*Varmı şair ki deyə «olmağı baş istəmədim»?*

*Addımım şe'r yolunda olacaq sürətli,*
*Şahin, addımlamağı çünki yavaş istəmədim.*

Bəli, mənim qəzəl bostanıma daş atanlar varsa da, bu bostanın tər-təzə ətrindən sərməst olanlar da az deyil, məsələn mənim birinci divanıma həsr olunan «Şahin Fazil «Divan»ı və klassik ədəbi ənənələr» adlı dissertasiya müdafiə edən və monoqrafiya çap etdirən Qiymət Məhərrəmli. Qiymətli şair və tədqiqatçı. «Məcməüş-şüəra» ədəbi məclisinin katibi. Barəmdə «şairin dili hamı tərəfindən qəbul edildi, sevildi» yazan Qiymət Məhərrəmli; «o, əsl söz adamı, söz xiridarı kimi özü üçün bitməz-tükənməz varidata malikdir» qənaətinə gələn Qiymət Məhərrəmli (Qiymət Məhərrəmli. Şahin Fazil «Divan»ı və klassik ədəbi ənənələr, Bakı, 2007, s.91). Üç divanım olduğu üçün mən həqiqətən də varlı, çox varlı adamam və sanki qızıldan dirəyim var:

*Vahidlərə hər dəm deyirəm rəhmət oxunsun,*
*Saf şe'ri yaratmaqda mənim həm əməyim var.*

*İllərlə döyüşdüm o qəlizdillilər ilə,*
*Zənn eyləmirəm mən hələ möhkəm biləyim var.*

*...Vardır deyə «Divan» varı çox varlıdı Şahin,*
*Yoxsul deyiləm, sanki qızıldan dirəyim var.*

«Məcməüş-şüəra» iclaslarının birində qəzəl oxuyurdum. Misramın birində işlətdiyim «şam» sözünün üstündə sanki qiyamət qopdu. Bir şe'rimdə dediyim kimi

*Əlimi sıxsa da illər boyu mərdanə əli,*
*Mənə daş atmada hərdən neçə divanə əli –*

özündən razı qəzəlxanların biri dedi ki, «şam yox, şə'm yaz». Səbəbini soruşdum, söylədi ki, klassik qəzəlxanlarımız «şam»ı «şə'm» yazıblar. Dedim «mən müasir qəzəlxanam». Dedilər «sən müasirsənsə də, «şə'm» köhnədir və köhnə mirasa ehtiram gərəkdir». Elə həmin gün bir qəzəlimin bir neçə beyti yarandı:

*Kim deyir «şə'm» yazılsın qəzələ «şam» olmaz?*
*Yazıram «şam», mənə öylə sərəncam olmaz!*

*Bilirəm qiymətini xəlqi sözün, sərrafəm,*
*Xəlqi sözlərlə yazan şe'rini bədnam olmaz.*

*Dilimin qədrini bilmək mənə amal olmuş,*
*Arifəm, arif olan kimsənələr xam olmaz.*

Özümlə bağlı bir «hadisə»dən bəhs etmək yerinə düşərdi. Qəzəli sadə dillə yazdığım və dilimizdə vətəndaşlıq hüququ qazanmayan əcnəbi sözlər işlətmədiyim üçün bəzi qəzəlxanlar mənim birinci divanımda gedən şe'rlər arasında mə'naları oxuculara tanış olmayan söz və ifadələr axtarmağa cəhd etsələr də, tapa bilməyərək pərişanlandılar. Onlardan biri jurnalların birində dərc etdiyi bir cızmaqarasında mənim Məcnunun aşiqliyindən bəhs edən qəzəlimin

*«Yoxdur aşiq, - dedilər, - Qeys ibn-Amir tək»,*
*Çox gözəl, varmı məgər Şahin ibn-Fazildən? –*

beytindəki «ibn» («oğlu») sözünü guya Azərbaycan dilinə yad kəlmə kimi «taparaq» bunu mənə irad tutdu. Lakin o, ərəb-fars dillərindən tam uzaq bir adam olduğundan «ibn» sözünün tərcümə olunmadığından xəbərdar deyildi (məsələn, ibn-Sina, ibn-Xəldun, ibn-Mülcəm və s.). Mənim elə «Üçüncü Divan»ımda da «Şahin ibn-Fazil» ifadəsi vardır ki, şübhəsiz yenə həmin «tənqidçi»nin tənqidinə məruz qalacaqdır:

*Ey ibn-Salam, Şahin ibn-Fazilə bax ki,*
*Məcnunə dönüb söylədi: Leyla, gözüm aydın!*

Ana dili! Anamızın dili!! Mən dilimi sidq-ürəkdən sevən adamam. Şe'rlərimdən xəbərdar hər adam bunu təsdiqləyər. Dəyərli alimimiz akademik Bəkir Nəbiyev mənim «İkinci Divan» və «Təzkireyi-Şahin» kitablarıma həsr etdiyi «Şahinin qanadları» adlı məqaləsində «Şahinin poeziya və elm qanadları hələ möhkəmdir» deyir, «qəzəl yazanlarımızın çoxundan fərqli olaraq, Ş.Fazil əsərlərində Ana dilimizin zəngin daxili imkanlarından maksimum dərəcədə istifadə etməyə üstünlük verir. Çağdaş oxucular üçün mə'nası aydın olmayan ibarəli ərəb ifadələri, mürəkkəb, çoxmərtəbələi fars izafət tərkibləri onun qəzəllərinə yaddır» yazır (Bəkir Nəbiyev, Şahinin qanadları, «Azərbaycan» jurnalı, № 11, Bakı, 2006, s.175).

2007-ci ilin noyabr ayının 23-də Azərbaycan Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurasında Qiymət Məhərrəmli mənim birinci divanım əsasında yazdığı dissertasiyasını müdafiə etdi:

*Yazmışam «Divan»ımı, zəhmət olubdur yaxşı*
*Və mənim zəhmətimə qiymət olubdur yaxşı.*

*Neçə xoşxah adama qismət olub xoşbəxtlik,*
*Neçə bədxah adama lə'nət olubdur yaxşı.*

Əlbəttə, mən birinci divan kitabımın yüksək qiymətləndirilməsindən çox məmnunam. İkinci divan isə yavaş-yavaş dəyərləndirilməkdədir. Üçüncü divana gəldikdə isə onun tədqiqi gələcəyin işidir. Gələcək isə hökmən gələcək! İnanıram ki, xoş gələcək gələcək. Xoş gələcək xoş gələcək!

*Cismimi eyləsə də dərdü ələm darmadağın,*
*Olacaqdır daha bundan belə qəm darmadağın.*

İki gözlü evimdə iki yazı masam var. Hər masanın üstü qələm, varaq, kitab, dəftərlə doludur. Mütəmadi olaraq elmi məqalələr, publisistik yazılar, tərcümələr, səfərnamələr yazmaq kimi yaradıcılıq işlərimlə məşğulam. Elmlər Akademiyasının elmi qrup rəhbəri, Bakı, Sumqayıt, Lənkəran Dövlət Universitetlərinin professoruyam. Şakərim işdir. İş isə vərdişdir. Gözəl vərdişdir! Məni işsiz qoyma, İlahi! Zəhmətkeşəm. Tez-tez deyirəm özümə:

*Kaş zəhmət hər zaman olsun sənə zərbülməsəl,*
*Zəhməti təlqin elə, zəhmət misal olsun sənə.*

*Öylə əmr etsin gərək Şahin bu gündən sonra ki,*
*Söyləsin Allah ona: Cənnət halal olsun sənə!*

Şe'rə gəldikdəsə, onu yazmadığım gün yoxdur: heç olmasa bir beyt, heç olmasa bircə misra.

Əlim uzundur. Əl atmadığım ədəbi janr qalmayıb. Allah qüvvət versin.

Vətənsevənəm. Çox yazmışam vətənim haqda. Azala-azala balacalaşan böyük vətənim barədə müxtəlif vəznlərdə çoxlu şe'rim vardır. Bir qəzəlimdən nümunə:

*Ey atəş yurdum, od yurdum, alov yurdum, ocaq yurdum,*
*İşıq yurdum mənim, ey çilçıraq yurdum, çıraq yurdum.*

*Sən əslimsən və nəslimsən və vəslimsən əzəl gündən,*
*Əsl yurdum, nəsl yurdum, vəsl yurdum, fəraq yurdum.*

*Neçin Şah İsmayıl dövründəki vüsət görünməzdir?*
*Neçin səndən kənar olmuş əzəlki təmtəraq, yurdum?*

*İzim çox yerdə qalmışdır, gözüm çox yurdu görmüşdür,*
*Mənə yardım sən olmuşsan, sən olmuşsan dayaq, yurdum.*

*Mənə baldan da şirindir şoranlıq torpağım hətta,*
*Mənim gülzarü bağ yurdum, mənim ormanü dağ yurdum.*

*Üzərrik yandırım tay-tay gərək göz dəyməsin hüsnə,*
*Yaman gözlər uzaq olsun, yaman dillər iraq, yurdum.*

*Əgər şahin təkin gərsəm qanad, arzum müyəssərdir,*
*Mənim Təbriz, Şuşa yurdum, yaxın yurdum, uzaq yurdum.*

Çox yazıram. İlhamıma minnətdaram, İlahi. Sənə minnətdaram, Allahım. Qələmi də, varağı da, ilhamı da, gözümün işığını da, sözümün yaraşığını da mənə bəxş edən Sənsən. Çox yazmağımın səbəbi:

*Şahin, yazıram çoxlu qəzəl mən o səbəbdən,*
*Qoy xalqıma qalsın barı bir danə nişanə.*

Dərdim, kədərim, qəmim, qüssəm, sitəmim:

*Eşq dərdi şirindir və şirindir mənə dərdim,*
*İmkan eləsəydim hamını dərdli edərdim.*
* * *
*Kim ki bilmir kədərin ləzzətini, ey Şahin,*
*Kədəri ver ona bilsin kədərin ləzzətini.*
* * *
*Qüssə gedir, qəm bürüyür qəlbini,*
*Yox xəbərin var nələri Şahinin.*
* * *
*Şənliyim qeybə çəkilmişsə də tənha deyiləm,*
*Ayrılıqdan gecə-gündüz sitəmim var mənim.*

Nikbinliyim:

*Şahin, deyər idim ki, baharım daha gəlməz,*
*Ömrün qışıdır, amma baharım yenə gəldi.*

Mən özümdən əvvəllər yaşayıb-yaratmış şairlərin qədrini həmişə bilmiş, zəhmətini dəyərləndirmiş, qiymətini vermişəm. «Üçüncü Divan»ımda M.Füzuli, Şeyx Əttar, Seydi Tehrani, Saib Təbrizi, Sədi Şirazi, Kamal Xocəndi, Əbül-Vase Cəbəli, İmadəddin Nəsimi, Mə’sud Sə’d Lahuri, Şəms Təbrizi, Əbülqasim Firdovsi, Taleb Ameli, Səlim Tehrani, Salman Saveci, Əfzələddin Xaqani, Mirzə Ələkbər Sabir, Seyid Əzim Şirvani, Ruhi Bağdadi, Məhəmməd ibn-Bəzzaz Ərdəbili, Hidayətullah Hidayət, Akif Ərsoy, Mirzə İsmayıl Qasir, Əbülfət xan Tuti, Vaiz Şirvani, Molla Vəli Vidadi, Mirzə Möhsün Xəyali, Mirzə Əli Möcüz, Qasım bəy Zakir, Abbas Səhhət, Məhəmmədəli bəy Məxfi, Seyid Nigari, Hacı Rza Sərrf Təbrizi, Əndəlib Qaracadaği, Məmo bəy Məmai, Məhəmməd Əmin Dilsuz, Namiq Şəfai, Cəlal Məhəmmədi Təbrizi,

Mahmud Dəstpiş Valeh, Şəfi Əzhər Ərdəbili, Süleyman Rüstəm, Bəhram Əsədi, Sədr Məhəmmədi Sədri, Həkim Qəni, Mirhaşim Müsafir Talışlı, Hamidi, Kərimi, Fəxrəddin Salim, Vidadi Arif, Əlibala Səyyah, Gülarə Munis və s. kimi klassik və müasir şairlərin qəzəllərinə təzminlər yazmış, onlara xətir-hörmətimi izhar etmişəm. Mənə elə gəlir ki, bu belə də olmalıdır. Lakin indi bəzi şairlərdə arzuolunmaz xüsusiyyət seyr etməkdəyəm. Onlar Ənvər Nəzərli və mənim qəzəllərimdən istifadə etməklə yanaşı (halalları olsun), oğurluq etməklə məşğul olur, misra və beytlərimizi olduğu kimi köçürür, necə deyərlər «özününküləşdirirlər» (haramları olsun). Onların adlarını çəkmirəm, amma yenə belə əməllərindən əl çəkməsələr, «Dördüncü Divan»ımda barələrində yazacağam, inşallah.

*Yandırıblar məni dünyadə, İlahi, o qədər,*
*Daha heç varmı bir hacət ki, cəhənnəmdə yanım?*

Pərvərdigara! Bitirdim üçüncü divanımı da. Əlbəttə, Sənin köməyinlə bitirdim. Üç divanın üçüncüsü! Bu yaxınlarda Cənnət xanımı gördüm. Filologiya elmləri doktoru Cənnət xanım Nağıyevanı. Söhbət mənim yeni divanımdan düşdü. Soruşdu: «Əlişir Nəvai bir neçə divan bağlayıb və hər birinə ad qoyub. Sən niyə öz divanlarına ad qoymursan?». Dedim: «Əvvəla, bu sahədə məni Əlişir Nəvai ilə müqayisə etdiyinizə görə sizə təşəkkür edirəm. İkincisi isə, taleyimə sanki müəyyən işlərdə birincilik yazılıb. Məsələn, XX əsrin ilk mətbu divan kitabı mənim kitabım oldu. XXI yüzilliyin ilk divanını da («İkinci Divan») mən çap etdirdim. XX əsrdə yazılan ilk təzkirə də («Təzkireyi-Şahin») mənim adımla bağlıdır. Divanlara ad qoyulma məsələsinə gəldikdəsə, yenə də birincilik iddiasında oldum. Hələ heç bir şair öz divanlarını sayla adlandırmayıb».

*Yazıb üç divanı məqsudimə yetdim, Tanrım,*

*Görəsən qismət olarmı mənə dördüncüsü də?*

Amma, bu barədə çox düşündükdən sonra gəldiyim qənaət belədir: İlhamım Qudyal çayı kimi coşğunsa da, Şahin Fazil artıq yorğundur.

*Nəyəsə bir daha nail olasan müşkildir,*
*Kamalın varsa da, kamil olasan müşkildir.*

*Bizi ağuşinə almış fələyin girdabı,*
*Dəlisov sellərə sahil olasan müşkildir.*

*Kimi Şahin, kimi Fazil adına sahib olub,*
*Həmi Şahin, həmi Fazil olasan müşkildir.*

Və düşünürəm ki:

*İlhamıma, ey Şahin, qüvvəm hərəkət versin,*
*Layiqli olan şəxsə tale əzəmət versin.*
*Minlərlə qəzəl yazdım, xeyli kitab, üç divan,*
*Zənnimcə kifayətdir, Allah bərəkət versin!*

7-9 yanvar, 2008

## MİNACAT

*«Bəla, mən əsləmə vəchəhu lillahi və huvə muhsinun fələhu əcruhu ində rəbbihi və la xəvfun əleyhim və la hum yəhzənun».*

*Tərcüməsi:*

*«Bəli, hər kəs xalis niyyətlə üzünü Allaha tərəf çevirsə və yaxşı işlər görən olsa, Rəbbindən mükafat alacaqdır. Onun üçün qorxu və kədər yoxdur».*

*Qur'ani-Kərim, Bəqərə surəsi, 112-ci ayə.*

Bismillahir-rəhmanir-rəhim!

«Bismillah»ı yazmasa qələm gər,
Şahində qələm ələm göyərdər.
«Bismillah»ı yazmasam dübarə,
Olmazmı varaq əlimdə parə?
«Bismillah»ı yazmasam sebarə,
Təb'im qəzəb eyləsə nə çarə?
Olmazsa bu söz dilimdə əzbər,
Misralər ilə dolarmı dəftər?
«Bismillah» ilə sözüm şəkərli,
«Bismillah» ilə şe'r dəyərli!
Olmazsa bu kəlmənin səvabı,
Təkmil edərəmmi mən kitabı?
«Bismillah»a olmasa inamım,
İcra olunarmı arzu-kamım?
Bel bağlamasam bu istilahə,
Biçarə ürək dözərmi ahə?
Olmazsa bu kəlmədən könül şad,
Heç məndən itərmi ahü fəryad?

Var kimdə ki, intizar behiştə,
«Bismillah» olar açar behiştə.
Sözlər sözüdür, bu söz – cəvahir!
Allahın adı bu sözdə zahir!
«Bismillah»ı yazmasa qələm gər,
Şahində qələm ələm göyərdər.

### ***Q ə z ə l***

Cəlb etmədə hər lərzə aqilləri «Bismillah»,
Sövq etmədimi fəzlə fazilləri «Bismillah»?

Olmazsa kömək hərdən, sızlarsa ürək hərdən,
Silməzmi ürəklərdən niskilləri «Bismillah»?

Qarə günü ağ eylər, təlx ovqatı çağ eylər,
Qəflətdən uzaq eylər qafilləri «Bismillah».

Qurtardı ətalətdən, bəd-bəd neçə halətdən,
Yan etdi cəhalətdən cahilləri «Bismillah».

Zidd getmədi heç və'də, zar etmədi heç vədə,
Xar etmədi heç və'də adilləri «Bismillah».

Çox dildə əzizləndi, çox sinədə gizləndi…
Aşsın bərəni, bəndi, sahilləri «Bismillah».

Əzm etmədimi təlqin? Nəzm etmədimi təlqin?
Öyrətdi mənə, Şahin,  çox dilləri «Bismillah».

Ey varlığı var edən İlahi,
Ey yoxluğu xar edən İlahi,
Şadəm ki, yeri, göyü yaratdın,

Şadəm ki, məni həyatə atdın.
Şadəm ki, cocuqluğum yetişdi,
Şadəm ki, cavanlığım da keçdi.
Şadəm ki, o dövrdən uzağəm,
Şadəm ki, ahıl çağımda sağəm.
Şadəm hələ ömrümə davam var,
Şadəm ki, ömür yolum davamdar.
Şadəm iki «Divan»ı bitirdim,
Həm tazəsini başa yetirdim.
Şadəm ki, üçüncü qismət oldu,
Şadəm ki, bəyanə fürsət oldu.
Əlbəttə, müəllifi özünsən,
Sən söyləmisən, köçürmüşəm mən.
Şadəm qəbul eyləsən duamı,
Sənsən mənə yazdıran kəlamı.
Sənsən mənə yazdıran minacat,
Sənsən əlimə qələm verən zat.
Sənsən mənə bəxş edən bu tabı,
Sənsən mənə yazdıran kitabı.

### *Q ə z ə l*

Rəbbim, Sənə Allah da deyirlər, Yaradan da,
Yox Səndəki ecaz fəqət hər yaradanda.

Əlbət, «yaradan» kəlməsi yalnız Sənə məxsus,
Sənsən yaradan daş da və gövhər yaradan da.

Torpaq, Su Hava, Od yaradan qüvvət özünsən,
Sənsən yaradan qətrə də, Tərtər yaradan da.

Məhkum eləyən, qəhr eləyən, hifz eləyən – Sən,
Sənsən yaradan güllə də, səngər yaradan da.

Sənsiz elə kəs varmı yaratsın nəsə, Tanrım,
Sənsən yaradan çarə də, xəncər yaradan da.

Rəbbim, acı da, şirni də hökmünlə nəsibdir.
Sənsən yaradan ağu da, şəkkər yaradan da.

İzninlədi hər bir bəşərin tutduğu mövqe,
Sənsən yaradan fəhlə də, rəhbər yaradan da.

Sənsən yaradan şe'rə Nizami kimi bir şah,
Sənsən ona Şahin kimi əsgər yaradan da.

Ey xəlq eləyən yeri, göyü zat,
İsminlə bəzəndi hər minacat.
Gərçi Sənə çox minacatım var,
Ver təb' bu həm olunsun izhar.
Hərçənd bu həm bəyanə hazır,
Örtükdə hələ, əyanə hazır.
Ey Tanrı, bu sözlərə səbəb var,
Ey hər səbəbi bilən səbəbkar.
Divanları ki, mən etdim inşa,
Hiss eyləmədim çətinlik əsla.
Əvvəlki iki divan basıldı,
Nətim və minacatım yazıldı.
İndi bu – kitabdır üçüncü,
Zənnimcə, savabdır üçüncü.
Çün lütfün ilə edib tərəqqi
Mədh eyləmişəm cənab Həqqi.
Lakin hələ onda yox minacat,
Nətim də yazılmayıbdı, heyhat.
Ver qüvvə edim Səni tərənnüm,
Etsin bu minacatım təcəssüm.

Çünki, neçə gün xəyal içində
Əlləşmədəyəm məlal içində.
Amma yaza bilmirəm bu nəzmi,
Çatmırmı buna bu Şahin əzmi?
Gərçi Sənə çox minacatım var,
Ver təb' bu həm olunsun izhar.

### *Q i t 'ə*

Varağım bir neçə gündür ki, qalıb ağ tamam,
Qələmim sınmayıb, amma yaza bilmir sözümü.

Mən nizam arzulayan gərçi adam olsam da,
Qatmışam bir-birinə hər gecəmi, gündüzümü.

Yenə ilhamımı artır ki, görünsün lütfün,
Tutmuşam mən Sənə, ey Tanrı, bu məhzun üzümü.

Məqsədim bəllidi, amma hələ yox əncamı,
Hanı söz, qafiyə, mə'na, hanı misra düzümü?

Aşağı baxmadadır çoxları qafillikdən,
Yuxarı zilləmişəm mənsə, İlahi, gözümü.

Mənə güc ver qara dilli qələmim ağ yazsın,
Əhrimənlər yoxa çıxsın və yaşat Hörmüzümü.

Hələ ki, köz sayağı qalmışam altında külün,
Külü yan eylə közümdən, ocaq eylə közümü.

Ey gözlərimə ziya verən zat,

Ey sözlərimə cila verən zat,
Dilsizlərə ey səda verən zat,
Əlsizlərə ey əsa verən zat,
Zalimlərə ey bəla verən zat,
Məzlumlara ey səfa verən zat,
Möminlərə ey dua verən zat,
Miskinlərə ey dəva verən zat,
Cövr əhlinə ey cəfa verən zat,
Qövr əhlinə ey şəfa verən zat,
Cahillərə ey cəza verən zat,
Aqillərə aşina verən zat.
Dünya Sənə aşina deyilmi?
Çərxi fələyin fəna deyilmi?

### *Q ə z ə l*

Əhsən Sənə, ey zat, dünya da yaratdın,
Dünya da yaratdın, üqba da yaratdın.

Torpaq da yaratdın, torpaqda bəşər də,
Adəm də yaratdın, Həvva da yaratdın.

Səhra da yaratdın dəryalərə möhtac,
Dəryalərə möhtac səhra da yaratdın.

İnsan da yox idi, əşya da yox idi.
İnsan da yaratdın, əşya da yaratdın.

Qabil də yaratdın, Habil ilə birgə,
Qabillərə məxsus qovğa da yaratdın.

Sən Zeyd elədin xəlq ibni-Salam ilə,
Məcnun da yaratdın, Leyla da yaratdın.

Peymanda sədaqət, sevdadə vəfa var,
Peyman da yaratdın, sevda da yaratdın.

Alim də yaratdın gerçəkliyə məftun,
Şair də yaratdın, xülya da yaratdın.

Hər şe'ri alaqdan pak eyləmək üçün
Şahin də yaratdın, misra da yaratdın.

20-25 aprel, 2005[1]

---

[1] Mən «İkinci Divan» kitabımı, onun «Xatimə» hissəsindən göründüyü kimi (bax: İkinci Divan, Bakı, 2005, səh.1221), 2002-ci ilin sentyabr ayının 13-də («13» rəqəmi nəhs sayılsa belə) bitirmişəm. Lakin hələ ikinci divanımı bitirməzdən əvvəl 2000-2002-ci illərdən başlayaraq «Üçüncü Divan»ın bəzi şe'rləri üzərində çalışırdım. Üçüncü divanımın minacat və nət şe'rlərinin yazılışına isə 2005-ci ilin aprel ayının sonuna yaxın cəhd etdim və Allah-taalanın köməyi ilə onları bititdim.

## NƏ’T

*«Bismillahir-rəhmanir-rəhim. Əlif, lam, mim».*
*Qur’ani-Kərim, Bəqərə surəsi, 1-ci ayə*
*«Ləqəd kanə ləkum fi rəsulillahi usvətun həsənətun-limən kanə yər-cullahə vəl-yovməl-axirə və zəkərəllahə kəsira».*
*Tərcüməsi:*
*«Allahın peyğəmbərində sizin üçün və Allahı, qiyamət gününü və Allahın zikrini istəyənlər üçün gözəl örnək vardır».*
*Qur’ani-Kərim, Əhzab surəsi,*
*21-ci ayə.*
*«Öncədən görürəm və indidən onun nişanələri görünməkdədir ki, Məhəmmədin imanı sabahkı Avropa tərəfindən qəbul ediləcəkdir və mənim etiqadıma görə onun kimi bir adam yeni dünyanın ixtiyar sahibi olsa, dünya problemlərinin həllində elə müvəffəqiyyət qazanacaqdır ki, bəşərin arzusu, sülhü və səadəti təmin olunacaqdır»*
Bernard Şou.
Bu cümlə Şəhid Mürtəza Mütəhərrinin «Peyğəmbərin davranışına bir baxış» (1372 hicri-şəmsi ili = 1994 miladi ili, səh.17-18) adlı kitabından götürülmüşdür.

«Bismillahir-rəhmanir-rəhim»,
Sonra isə gəldi əlif, lam, mim.
Mö’cüzə Qur’ani-Kərim, ey həkim,
Bismillahir-rəhmanir-rəhim.
Açmasını bilməyirik müstəqim,
Bəs nədədir sirr – Əlif, lam, mim.

Mən «ələm»ə türkicə «bayraq» dedim,
Bəlkə «ələm»dir o əlif, lam, mim?
Kim açacaq Şahinə üç hərfi, kim?
Bismillahir-rəhmanir-rəhim!!!
Yazmadayam sözlərimi şövq ilə,
Həzzimə mən dalmadayam zövq ilə.
Ey dilimin əzbəri peyğəmbərim,
Yer üzünün sərvəri peyğəmbərim,
Çünki adın oldu bəzək şe'rimə,
İzn əlini lütf ilə çək şe'rimə.
Nə'tə Məhəmməd adı ünvandır,
Nə't yazanlar sənə heyrandır.
Gözlərim aydın doğulur divanım,
Say iki idi, üç olur divanım.
Əsmədəyəm şe'rimin üstündə mən,
Qoy deməsinlər yazıram gündə mən;
Qoy deməsinlər qoca Şahin kişi
Eyləməyir tərk neçin vərdişi?
Tutmayalar udduruban qan mənə
Gündə şe'r yazmağı nöqsan mənə.
Eyləməsinlər o paxıl kimsələr
Gündə şe'r yazmağımı dərdisər.
Kaş könül təb'ini qeyb etməsin,
Təb'i zəiflər mənə eyb etməsin.
Yazmadayam sözlərimi anbaan,
İstəmirəm fərdi təqaüd-filan.
İstəyirəm ömrümü, bilsin hərə
Həsr eləyim sevgili peyğəmbərə.
İstəmirəm təltifə can atmağı,
Alqışa, ya tə'rifə can atmağı.
İstəyirəm Qur'ana heyran olum.
Sidq ilə peyğəmbərə qurban olum.
İstəmirəm heykəlim hazırlana,

Büt deyiləm mən, nə də Yer bütxana!
İstəyirəm Qur'ana tə'rif deyim,
Nə't ilə peyğəmbəri tə'rifləyim:

### *Q ə z ə l*

Peyğəmbərimin hikməti Qur'ani-Kərimdir,
Həm ecazı, həm qüdrəti Qur'ani-Kərimdir.

Sərvətli deyildir o adam ki, zəri vardır,
Sərvətli kəsin sərvəti Qur'ani-Kərimdir.

Allah ki, nazil eyləyib xəlqə kitablar,
Hər dörd kitabın zinyəti Qur'ani-Kərimdir.

Qur'anımızın şöhrəti hər yanə yayılmış,
İslamımızın şöhrəti Qur'ani-Kərimdir.

Qur'ani-Kərimdən uzaq olmaq bizə olmaz,
Qüdrətli edən dövləti Qur'ani-kərimdir.

Qur'anı tutub əldə şəhid olmağa hazır
İmanlı kəsin cü'rəti Qur'ani-Kərimdir.

«Bismillah»ı təqdir eləyib, cənnətə doğru
Tərğib eləyən xilqəti Qur'ani-Kərimdir.

Hər ayədə, hər surədə heyrət izi vardır,
Şahin, bəşərin heyrəti Qur'ani-Kərimdir.

Ey ulu peyğəmbərimiz, ey rəsul,
Növbəti nə'timdi sənə, et qəbul.
Nə'timin hər beytinə zər bağladım,

Şə’ninə mən tazə əsər bağladım.
Qəlbimə qüvvət gətirənsən mənim,
Şe’rimə şöhrət gətirənsən mənim.
Söyləmirəm sərvətə aludəyəm,
Səndə olan hikmətə aludəyəm!
Qur’anı öyrənmədəyəm gündə mən,
Sə’y edirəm daima vəsfində mən.
Bütlərə qarşı eləyib sən qiyam,
İslama bəxş eyləmisən ehtişam .
Səcdə edib Allaha, ey Mustafa,
Gözlü olan korlara etdin şəfa.
Eyləyibən çox kəsi Qur’anla şad,
Küfrə və kafərlərə etdin cihad.
Ey ulu peyğəmbərimiz, ey rəsul,
Növbəti nə’timdi sənə, et qəbul.

## ***Q ə z ə l***

İslamımızın ülvi ey sərvəri peyğəmbər,
Bərbad eləyən küfrü, həm kafəri peyğəmbər.

Qiymət verib Allahım Qur’ani-Kərim içrə,
Qiymətdə salan gözdən hər gövhəri – peyğəmbər!

Bənzərsiz olan qüdrət Allah-taaladır,
Hər yerdə o, zərgərsə, zərgər zəri – peyğəmbər!

Hərra dağına getdi, sirdaş elədi qəlbə
Həzrət Əli isminde bir heydəri peyğəmbər.

Zar eylədi namərdi Xeybər və Bədir hərbi,
Qərq etdi fəna içrə çox ləşkəri peyğəmbər.

Səsləndi döyüş zəngi, başlandı Uhud cəngi,
Xar etdi savaşlarda cəngavəri peyğəmbər.

Əshabə qəbul etdi Osmanı, Əbubəkri,
Həm də Öməri bildi öz yavəri peyğəmbər.

Cənnətdə qərar etdi üqbayə gedən dəmdən.
Layiq ora bilmişmi İskəndəri peyğəmbər?

Əlbəttə, Nizami həm peyğəmbər idi nəzmə,
Tə'riflədi vəcd ilə peyğəmbəri peyğəmbər.

Şahinmi kitab yazdı? Allah müəllifdir!
Yazdırdı mənə amma hər dəftəri peyğəmbər.

26-30 aprel, 2005

## XƏZANİYYƏ

Şaxta yenidən gəldi, cəfa eylədi canə,
Gücləndi soyuq isti kimi çəkdi zəbanə.

Var amma «cəfa» söylədiyim sözdə təzadım,
Əlbəttə, bu söz nisbidi gəldikdə bəyanə.

Var öylə adam şaxtaya var rəğbəti öylə,
Doğduqca buludlar dedi doğmaqda təranə.

Var öyləsi də mən kimi yox şaxtaya tabı,
İstər ki, soyuq gəlməyə heç və'də cahanə.

Var öyləsi də yox ona iqlimdə təfavüt,
Yaz fəslinə həm meyl eləyir, həm də xəzanə.

Yay fəsli isə çoxlarının zövqünü oxşar,
Qovlar soyuğu getsə əgər hansı məkanə.

Qış fəslini ondan ötəri sevməyirəm ki,
Düşməkdədi qaçqınlarımız qışda fəğanə.

Amma ki, bütün fəsllərin öz yeri vardır,
İllah xəzan fəsli ki, çox fəslə nişanə.

Gəldikdə xəzan sanki gəlir aləmə bolluq,
Bolluq harada var isə yer yoxdu ziyanə.

Dad etmə xəzandan, a qəzəlxan, daha bir də,
Şad ol ki, sənin sinnini çatdırdı xəzanə.

Söz yox ki, xəzan canə səfa, qanə şəfadır,

Birbaşə nüfuz etmədə hər ne'məti qanə.

Dərs mövsümü dövründə xəzan fəsli gözəldir,
Üstün gələ bilmiş bu zəman qeyri zəmanə.

Məhsul o qədər bol ki, dolandırmada ərzi,
Nə şəkkə səbəbdir bu fikirlər, nə gümanə.

İnsanlara çox yaxşılığı dəydi xəzanın,
Üstünlük edibdir həmişə yaxşı yamanə.

Görsəndi «Xəzaniyyə» yazan indi də, Şahin,
Bundan belə «yoxdur» deməyə yoxdu bəhanə.
2.03.2004

## QƏSİDƏLƏR

*«Ensaf nihan şod-o vəfa həm,*
*Həmcens nəmand-o aşina həm»*[1]
*Əfzələddin Xaqani*

### I

Yoxdur daha şur da, nəva da,
Qeyb olmada nur da, ziya da.

Hicran da görmüşəm vəsl də,
Əfğan da etmişəm, səda da.

Tək yığmamışam əzabı qəlbə,
Zillət də götürmüşəm, səfa da.

İllərlə ömür burulğanında
Təltif də görmüşəm, cəza da.

Şe’rimdə əruz vəzni üstün,
Sərbəst də yazmışam, heca da.

Ziddiyyət içində keçdi ömrüm,
Ağ gün də olub, olub qəra da.

Şahin nəzərim cahanı gəzdi,
Bağdad da göründü, Neynəva da[2].

---

[1] «İnsaf da qalmada, vəfa da,
Həmcins də yoxdur, aşina da»
(beytin tərcüməsi bu sətirlər müəllifinindir)
[2] İraqda Mosul yaxınlığında tarixi bir şəhər.

Kabul da göründü, Qəndəhar da,
Məşhəd də göründü, Kərbəla da.

Vurğun nəzərim Düşənbə gəzdi,
Daşkənd də göründü, Astana da.

İstanbul içində nə’şə buldum,
İzmir də göründü, Ankara da.

Əfqan eli olsa da mehrli,
Var idi o ölkədə xəta da.

Allah evidir gözümdə hər yer,
Kə’bəm də əziz mənə, Quba da.

Məddahlığa düşmənəm əzəldən,
Birdir mənə şah da, gəda da.

Yoxdur nəzərimdə ləlü mərcan,
Mirvari də heçdi, kəhrəba da.

Əmmamə də saxlaram baş üstdə,
Geysəm geyərəm hələ əba da.

İstəkli nigarımı itirdim,
Üz verdi mənə bu macəra da.

Qəm ləşkəri həmlə eyləməkdə,
Etməkdə yürüş hələ bəla da.

Tale təkərim elə dönüb ki,
Təsir eləmir daha dua da.

Şahin, mənə cövr edir bu dövran,
«İnsaf da qalmadı, vəfa da».

2.07.2002

## II

Asi könlüm o qədər naləvü əfğan elədi,
Dilim-ağzım qurusun, Rəbbə də üsyan elədi.

Söylədim: «Ey bizi insan eləyən zat, neçin
Bu qədər cövrü cəfa insana insan elədi?

Qarabağ torpağımı zəbt eləyib bir qonşu,
Qana dönsün ürəyi, gör nə təhər qan elədi?»

Dedi: «Şükr et buna da, şe'rini yaz, ey qaragün,
Mənə ağ oldusa hər kimsə, o, nöqsan elədi.

Sən siyasətçi deyilsən ki, siyasət yazasan,
Nə işin var ki, İlahi nəyə fərman elədi.

Günəhi olmasa bir kimsə günəhkar olmaz,
Bir də gördün ki qiyam – Azəribaycan elədi.

Bir də gördün ki, zəlil eylədi düşmənlərini,
Neçə illər yığılan müşkili asan elədi».

Gileyim bitdi… Düşüb bağə təmaşa elədim,
Mənə öz mehrini hər laləvü reyhan elədi.

Dönmək üçün gülə qönçə cırıban paltarını
Özünü bağda Züleyxa kimi üryan elədi.

Dedim Allahə təvəkkül ki, yanır ilhamım,
Məni, əlbəttə ki, Həqq ümdə qəzəlxan elədi.

Hərənin öz işi var, Tanrımızın da öz işi,
Kim nə bilsin nəyi açdı, nəyi pünhan elədi.

Bir də gördün qurudub bağçanı gülsüz qoydu,
Bir də gördün quru səhranı gülüstan elədi.

Bir də gördün qara qum üstünə orman çıxdı,
Bir də gördün neçə ormanı biyaban elədi.

Bir də gördün gecənin köksü işıqlandı gecə,
Onu gündüz kimi nurlatdı, çıraqban elədi.

Bir də gördün ki, məhəbbət gülünü açdırdı,
Bir də gördün ki, vüsalı acı hicran elədi.

Şahina, şe'rini yaz, Haqq işinə baş qoşma,
Qoy desinlər ki, bu şair bizi heyran elədi.

26.05.2003

**III**

*Fatimeyi-Zəhra səlamullahi-*
*aleyhaya ithaf*

Bəlli olandan bəri xisləti Fatimənin,
Artdı cəvahir kimi qiyməti Fatimənin.

Ya Əli! Ya Fatimə! Ya Hüseyn! Ya Həsən!
Oldu imamzadələr qüvvəti Fatimənin.

Elm ilə sərvətlənib, əql ilə dövlətlənib!

Olmadı dünya malı dövləti Fatimənin.

Açdı nəcabət gülü, eşqü məhəbbət gülü,
Oldu sədaqət gülü qisməti Fatimənin.

Bilmədi ziynət nədir, bildi ləyaqət nədir!
Dinə sədaqətdədir ziynəti Fatimənin.

Məsləki uğrunda məhz etdi fəda canını,
Oldu səbəb heyrətə cürəti Fatimənin.

Qeyz ilə lə'nətlədi cahili, cahilliyi,
Yetdimi kafərlərə lə'nəti Fatimənin?

Yaş iki on olmadı, baş o qədər çəkdi ki,
Qalmadı ömr etməyə taqəti Fatimənin.

Əymədi baş nakəsə, oldu əyan hər kəsə
Nadana, nadanlığa nifrəti Fatimənin.

İzzəti dağ boydadır, iffəti dağdan böyük,
Dağladı çox sinəni həsrəti Fatimənin.

Şöhrətinin vüsəti vüsət olub vüsətə,
Şöhrət olub şöhrətə şöhrəti Fatimənin.

Gül qızı peyğəmbərin öylə şərəfləndi ki,
Üstün olub cümlədən hörməti Fatimənin.

Kufədə seyr eylədim mənzilini onların –
Həzrət Əli ilə mən həzrəti – Fatimənin.

Sadə bir ev, bir neçə xırda, darısqal otaq…

Qane idi bunlara külfəti Fatimənin.

Qadir imamlar təki oldu şəhid, amma ki,
Zərrəcə əksilmədi qüdrəti Fatimənin.

Göydə deyil Yerdədir bəzisinin cənnəti,
Yerdə deyil, Göydədir cənnəti Fatimənin.

Agəh olub Şahinə: Öylə qadındır ki o,
Çox kişini mat edir qeyrəti Fatimənin!
15.08.2003

## IV

*İranlı diplomat dostum Pərviz Qasiminin*
*vətənə dönüşü münasibətilə*

Ey Qasimi, dostum, yenə İranə gedirsən,
Sən döndürübən qəlbimizi qanə gedirsən.

Sən şahdən əskik deyilsən nəzərimdə,
Şahanə gəlibsən bura, şahanə gedirsən.

Bir şəmə dönüb eşqinə yandın bu diyarın,
İndi vətənə olmağa pərvanə gedirsən.

Xaqaniyi-Şirvani gəzən mülkü gəzib də,
Ərz eyləyibən mehrini Şirvanə, gedirsən.

Hal əhlini meyxanəyə çəkməkdə Nizami,
Saqi səni məst eylədi, məstanə gedirsən.

Tuti burada yoxsa da, amma ki, şəkər – var!

Yoxdurmu şəkər ki, şəkəristanə gedirsən?

Elm əhli ilə bir neçə il burda görüşdün,
Əsla demsərəm onlara biganə gedirsən.

Şirinləri gördünsə əgər me'mara döndün,
Leylayə gözün düşdüsə divanə gedirsən.

Şirvan ilə, Ərranı, Mili tərk eyləyib də,
Sən Ərdəbilə, Təbrizə, Tehranə gedirsən.

Seyyid Əli Əkbər ağanı[1] burda qoyub da,
Vəslin yerini tərk edib hicranə, gedirsən.

Movlayi[2] ilə Mirzə Rəsul[3] ah edəcəklər,
Onları salıb ah ilə əfğanə, gedirsən.

Sənsiz olacaq Musəvi[4] dostun da ciyərxun,
Abadı edib gör necə viranə, gedirsən.

İndi bu Rəşadi[5] nə rəşadət edəcəkdir?
Tənha buraxıb sən onu meydanə, gedirsən.

Nuri[6] səni öz nurinə qərq etməyəcəkdir,

---

[1] Ocaqnejad
[2] Adil Movlayi – iranlı şair və filosof
[3] Mirzə Rəsul İsmayılzadə – iranlı şair və Qur'an mütərcimi
[4] Mir Vəli Musəvi –İran Mədəniyyət Mərkəzinin müşaviri
[5] Hüccətül – islam və-l müslimin, iranlı müşavir
[6] İran Mədəniyyət Mərkəzi sədrinin müavini
[7] Həkim Qəni – qəzəlxan, «Vahid poeziya məclisi»nin sədri
[8] Ənvər Nəzərli - şair

Rəhm eyləməyib sən elə mehmanə, gedirsən.

Nəzm ilə gözəlliklərə heyran Qəni[7] ilə
Əzm eyləməyib seyrə və seyranə, gedirsən.

«Getmə» dedi, zar oldu Nəzərli bizim Ənvər[8],
Getmə, nəzər et sən o qəzəlxanə, gedirsən.

Şad idi ağa Mir Cəlalın[1] könlü səninlə,
Qəmləndi, verib qüssə həzin canə, gedirsən.

İskəndər olan E'tibarın[2] e'tibarından
Sən vəcdə gəlib gör necə şadyanə gedirsən.

Sənsiz darıxıb qəmlənəcək Əlbala[3] dostun,
Rəhm eyləməyib sən o pərişanə, gedirsən.

Etməkdədi xiffət neçə gündür Hacı Rafiq[4],
Həsrət qalacaqsan elə insanə, gedirsən.

Ey Qasimi, get İrana, bir gün də deyərlər:
Şahin çağırır, Azəribaycanə gedirsən!!!

24.10.2003

V

*«Həqiqətən bu Qur'an ən doğru yola yönəldir, yaxşı işlər görən mömünlərə böyük bir mükafata nail olacaqları ilə müjdə verir»*

---

[1] Mir Cəlal Zəki – şair və mütərcim
[2] İskəndər E'tibar – şair
[2] Əlibala Hacızadə – yazıçı və şair
[4] Hacı Rafiq Şirvani – yazıçı, publisist, «Say» qəzetinin baş redaktoru

*Qur'ani Kərim, İqra surəsi, 9-cu ayə*

Qüvvət və mətanət bizə Qur'ani-Kərimdir,
Şöhrət və şərafət bizə Qur'ani-Kərimdir.

Layiqli nə söz var ki, edim Qur'anı tə'rif?
Söz yox ki, ləyaqət bizə Qur'ani-Kərimdir.

Me'yarımız oldu, olacaqdır yenə me'yar,
Fəxr oldu, fəxarət bizə Qur'ani-Kərimdir.

Ey qüvvəli, ey güclü, dəyanətli adamlar,
Qəlb içrə dəyanət bizə Qur'ani-Kərimdir.

Peyğəmbərimizdirsə əgər sevgili rəhbər,
Eşq, sevgi, məhəbbət bizə Qur'ani-Kərimdir.

Tövranla, Zəbur ilə o İncil də səmavi,
Amma ki, ibadət bizə Qur'ani-Kərimdir.

İmanlı müsəlmanlara qiymətli hədiyyə,
Ən dürlü inayət bizə Qur'ani-Kərimdir.

Göz gördü, könül sevdi, ürək yandı günəştək,
Nur ilə hərarət bizə Qur'ani-Kərimdir.

Təlqin eləyir adəmə ədl ilə ədalət,
Fəzl ilə fəzilət bizə Qur'ani-Kərimdir.

Adilliyimiz var isə tə'rifləməsinlər,
Ədl ilə ədalət bizə Qur'ani-Kərimdir.

Pərvaz edirik göylərə Qur'an oxuyanda,

İrfani səyahət bizə Qur'ani-Kərimdir.

Qur'anı qiraət eləyəndən təzələndik,
Günlərlə qiraət bizə Qur'ani-Kərimdir.

Hadi və hidayət bizə Allah-təala,
Dəstək və himayət bizə Qur'ani-Kərimdir.

Qur'anı tutub əldə cəhad etməliyik biz,
Əlbəttə, cəsarət bizə Qur'ani-Kərimdir.

Vardırsa xurafatə uyan kəs, olub agah
Bilsin ki, həqiqət bizə Qur'ani-Kərimdir.

İnsanə qənim olmalıdır batsa günahə,
Ən güclü nəzarət bizə Qur'ani-Kərimdir.

Şahin, gəlirəm ruhə, kəramətlidi Qur'an,
Ruhani kəramət bizə Qur'ani-Kərimdir.

10.11.2003.

VI

Deyirəm canana «ey sevgili canan, can-can»,
Mənə qoç qurban ola, mən sənə qurban, can-can.

Olur heyran kimə güllər, kiməsə bülbüllər,
Yerdə Yer, göydə Günəş hüsnünə heyran, can-can.

Qucağından gözümü çəkməyə haqqım yoxdur,
Neçə bağ var, neçə dağ var, neçə orman, can-can.

Bir yanın mavi Xəzər, bir tərəfin Gürcüstan,
Bir yanın Türkiyədir, bir yanın İran, can-can.

Bir neçə qonşu da vardır adını çəkməyirəm,
Adını çəkmək olar şe’rimə nöqsan, can-can.

Mərkəzi Təbriz olan Azəribaycan həm var,
Ayırıblar canı candan, vətənim, can, can, can!..

Təbrizin xiffətini çəkmədə niskilli Bakı,
Onların qisməti olmuş acı hicran, can-can!..

Neçə ildir ki, qalıblar aralı məskənlər,
Ərdəbil Ərrana həsrət, Milə Zəncan, can-can!..

Gəncəli Yusifi şe’r əhli Nizami tanıyır
Ki, olub şe’rdə şairlərə xaqan, can-can.

Gəncənin Məhsəti adlı xanımı çoxdan yox,
Xan qızı Natəvanım yox, hanı Heyran, can-can!..

Hanı Möcüz ki, onun ecazı məşhur idi,
Hanı Saib, Hanı Qövsi, hanı Qətran, can, can!..

Neçə şair, neçə alim qucağından qopmuş,
Neçə arifsə gəlib öyrənib irfan, can-can.

Biri Xaqani, Bahar başqası, Seyyid biri –
Neçə Şirvani veribdir sənə Şirvan, can-can.

Biri Mirzə Əli Əkbər, biri Abbas Səhhət,
Biri Bixud kimi qüdrətli qəzəlxan, can-can.

Nə qədər şah sənin mehmanın olmuş, getmiş…

Neçə şirvanşah olubdur sənə sultan, can-can.

Biri ən'am sənə, başqası bəxşiş verir,
Şahinəm, can verirəm, Azəribaycan, can, can!

2.12.2003

VII

*Bu gün orucluq girdi.*
*Ramazan ayıdır…*

Sanki azalır cəng ilə qovğa ramazanda,
Aram dəyir gözlərə dünya ramazanda

Nahəqq əməlin tövbəsi vacibdi bu ayda,
İnsan eləyir Həqq ilə sevda ramazanda.

Nazil eləyibdir bizə Qur'ani-Kərimi
İkram ilə Allah-taala ramazanda.

Dərk olmada başlarda, beyinlərdə həqiqət,
Tərk olmada amma neçə xülya ramazanda.

Qalmır acılıqdan bir əsər dildə də sanki,
Artırmada şirinliyi halva ramazanda.

Yardım və səxavət əlinin açmadadır xəlq,
Əl tutmayanı görmədim əsla ramazanda.

Həzrət Əlini yad eləyənlərdə göz ağlar,
Əhya gecəsi olmada əhya ramazanda.

Ar etmədə eyb işlərə iqdam eləyənlər,
İslah eləyir eybini dünya ramazanda.

Gözlər bu ayın hər gününü şövq ilə gözlər,
Bəzən qapamır gözləri rö'ya ramazanda.

Çəkmir məni bir ləhzə belə surətə baxmaq,
Məğlub eləyir surəti mə'na ramazanda.

Bir ləhzədə yazdı «Ramazannamə»ni Şahin,
Rahət düzülür şe'rinə misra ramazanda.

16.10.2004

## VIII

*«Kim ramazan ayı boyunca oruc tutarsa, sonrakı aydan da (şəvval ayından) buna altı gün əlavə edərsə, o, bütün ili oruc tutmuş olur»*
*Məhəmməd (s.) peyğəmbərin hədislərindən*

Sanki səpələndi cahana zər ramazanda,
Göndərdi kəfarət[1] yerə göylər ramazanda.

Aydın ki, mələklər yemək-içmək nədi bilməz,
İnsan mələyə bəlkə də bənzər ramazanda.

İştahını ram eyləməyə qadir olub da,
Nəfsin quluna dönmə, nəfəs dər ramazanda.

Allah-təala orucu fərz bilibdir,
Qur'an yerə göndərdi o sərvər ramazanda.

---

[1] Kəfarət – günahın yüngülləşdirilməsi.

Əlbət ki, bu ay bizlərə tə'limdi ruhi,
Keçməkdə «Oruc tə'limi» əskər ramazanda.

İnsanlarımız sülhə tərəf meyl eləsinlər,
Qoy qında qalıb səbr edə xəncər ramazanda.

Qovğa və dalaşdan və savaşdan olaq ayrı,
Sülh olmalıdır müslimə rəhbər ramazanda.

Yaddan çıxarıb qeyzi təsənnünlə təşəyyö,
Yağdırmayalar bir-birinə şər ramazanda.

«Ruhin sınağı» söyləyirəm mən ramazanə,
Yox şəkk ki, ruh tazələnir hər ramazanda.

Hər nəfsini, zər nəfsini ram etməli adəm,
Hətta zərə möhtacsa zərgər ramazanda.

Cismani olan həzzə qənaət elə, Şahin,
Amma, dola qoy şe'rlə dəftər ramazanda.

5.10.2005

IX

Gəldi, yanıma nigar gəldi,
Gəldi, o gözü xumar gəldi.

Qış mövsümü çal-çağırda idi,
Sandım mən isə bahar gəldi.

Şadəm ki, bu gün nə əsdi xəzri,
Şadəm ki, bu gün nə qar gəldi.

Şadəm ki, qarışdı həzz vüsalə,
Hicranəsə ahüzar gəldi.

Qul var idi, hökmdar yox idi,
Şadəm, qula hökmdar gəldi.

Sevda evi şəhriyarsız idi,
Eşq şəhrinə şəhriyar gəldi.

Eşq əhlinə var yar iləndir,
Yarım görünübsə, var gəldi.

Halım bəd olan bir halda ikən
Hallanmalı ruzigar gəldi.

Çox vədə gözündə qəm görürdüm,
Gəldi, necə bəxtiyar gəldi.

Də'vət eləyib bu gün sevinci
Etdi kədəri kənar, gəldi.

Şad oldu bu aşiqin məzacı,
Dərd ovlağına şikar gəldi.

Nə naz görünür, nə işvə vardı,
Birdən-birə işvəkar gəldi.

Eşq ilə müxalifətdə idim,
Can mülkünə iqtidar gəldi.

Eşq mə'bədi bağlı idi çoxdan,
Eşq mə'bədinə açar gəldi.

Əlbəttə ki, ölmədi inamım,
Əlbəttə ki, e’tibar gəldi.

Yoxkən yer üzündə meylim eyşə,
Göydən buna ixtiyar gəldi.

Səbrü qərarım tükənmiş idi.
Səbrim yetişir, qərar gəldi.

Fəxr eyləməyə səbəb gəzirdim,
Fəxrimdi ki, iftixar gəldi.

Ey təkcə qalıb üzülmüş aşiq,
Şax tut başını, vüqar gəldi.

Şahin, nə gözəl gün oldu, qışda
«Gül bitdi və laləzar gəldi»[1].

7.02.2006

## X

Gözlərimdən bu gecə ley kimi rö’ya qaçdı,
Haraya getdi qoyub aşiqi tənha, qaçdı.

Səslədim mehr ilə sirdaşlarımı, gəlmədilər,
Elə sandım ayağım altdakı dünya qaçdı.

İstədim halımı şe’rimlə bir az şad eləyim,
Söz sürüşdü qələmimdən, neçə misra qaçdı.

---

[1] Misra Şah İsmayıl Xətainindir.

Ciyərim yandı… Təmamən içəcəkdim suyunu,
Görübən məndəki su meylini dərya, qaçdı.

Qəzəlimdə həmi surət, həmi mə’na var idi,
Sözlərim qeyb elədi mə’nanı, əmna qaçdı.

Gərçi Məcnun kimi divanəyə bənd olmuşdu,
Gördü divanəliyi məndəki Leyla qaçdı.

Aldadıb mollanı meyxanəyə etdim də’vət,
Dedi: «Həlva hanı?», yoxdur deyə molla qaçdı.

Qəni adlı bir həkim var, onu də’vət elədim,
O da fəryadimə səs vermədi, heyfa, qaçdı.

Harada qaldı Nəzərli? Hacı Rafiq hanı bəs?
Götürüldü Əli Nur, Şöhrəti-Fərda qaçdı.

O Məhərrəm deyilən Mahi ki var, tez gəldi,
Elə ki gördü məni dərd ilə həmta, qaçdı.

Bir Ələkbər kişi vardır ki, böyük alimdir,
Etməyib məndəki alimliyi peyda, qaçdı.

Pünhanı eylər əvəz indi Əvəz Qurbanlı,
O da rəhm eyləmədi halıma əsla, qaçdı.

Əşrəfi səsləməmişdim yanıma Xanlar tək,
Osa bica gəlibən yanıma bica qaçdı.

Mir Cəlal adlı Zəki məclisə çoxdan gəlmir,
Bilmirəm ya aradan çıxdı o kəs, ya qaçdı.

İki Əkrəm – biri Ne'man, o biri Şamxaldır,
Eləyib qaçmamağı hər biri xülya, qaçdı.

Adı Çingiz, ləqəbi isə Talıstan var ki,
Məsləhət eyləmədi qaçmağı, amma qaçdı.

Həc Ələmdar ilə Tacəddinə bax, hər ikisi
«Cəngi»tək musiqini eylədi ifa, qaçdı.

Hacı Məmməd xanımı Duyğu ilə görsəndi
Və mənim halətimə etdi təmaşa, qaçdı.

O qadınlar ki, bizim məclisə üzv olmuşlar,
Heç biri eyləməyib sədri təmənna, qaçdı.

Qaçhaqaç düşdü yönəldimsə hara mən bəlbəxt,
Gözlərimdən bu gecə, Şahina, rö'ya qaçdı.
1.05.2006

XI

*Şeyxülislam Allahşükür Paşazadə bu gün məni və Ənvər Nəzərlini öz evinə də'vət elədi. İrandan yüksək məqamlı qonaqlar təşrif gətirmişdilər. Onların içərisində Ərdəbilli şair və alim dostum Əsğər Şahi qardaşımı gördüm.*

Şahi gəldi təzədən Şirvanə,
Az qalır qəlb fərəhdən yanə.

Dolanaq başına pərvanə kimi,
O ki şə'm oldu, bizik pərvanə.

Səsi çatsın Savalandan Qafə,
Sorağı qoy yayıla hər yanə.

Diləyir gəlməyi tez-tez Bakıya,
Diləmir getməyi Hindistanə.

Burda vardır, - dedilər, - cananı,
Salmasınlar kişini böhtanə.

Vurulub ölkəmizə, ey qafil,
Şahini zənn eləmə biganə.

Çox təsəvvüfçü ona meyl eylər,
Osa meyl eyləmədə irfanə.

Keçən il gördüm onu Təbrizdə,
Gələn il getməliyik Zəncanə.

Dərdliyə şe'r ilə dərman eylər,
Onu mən bənzədirəm loğmanə.

Ona kim söyləməsə arifdir,
Başlaram asi olub üsyanə.

Şövqü – yazmaq, oxumaqdır – meyli,
Heyranam Şahidəki imkanə.

Dikəlir ilhamı fəvvarə kimi,
Təb'ini bənzədirəm ümmanə.

Çox adam, məncə, deyildir insan,
Qoy adamlar baxa bu İnsanə.

Şe'ri divanəni aqil eyləyir,
Eləyir aqilisə divanə.

Özünün oxşarı var sərrafə,
Sözünün bənzəri var mərcanə.

Hafizin şe'rini şərh etmişdir,
Gözləyir növbəsini Mövlanə.

Onu tez-tez Bakıda görmək olar
Qələbə çalsa vüsal hicranə.

Heç yapışqan da yapışmaz böylə,
Neçə ildir yapışıb Qur'anə.

Şahi də Həccə gedib, ey hacılar,
Kə'bədə daşlar atıb şeytanə.

Şahdır, amma qələm tutmuşdur,
Şe'r ilə basdı qədəm meydanə.

Saqi, əl çək, gözə görsənmə, bizi
Şahinin şe'ri edir məstanə.

Şahi gəldi yenə də, ey Şahin,
Gedərəm mən də yenə İranə.

3.06.2006

XII

Mən canı qurban eləyənlərdənəm,
Aləmi heyran eləyənlərdənəm.

Azmı yetən vəslə qovub hicranı?
Vəslini hicran eləyənlərdənəm.

Həzzini əfğan eləyən çoxmudur?
Həzzini əfğan eləyənlərdənəm.

Asiliyim var və üsyançıyam,
Əğyara üsyan eləyənlərdənəm.

Gör necə viran elədim qəlbimi!..
Abadı viran eləyənlərdənəm.

Zülm edirəm zülmə ki, zülm eyləyir,
Zülmü ciyərqan eləyənlərdənəm.

Badəyə süzməklə üzüm qanını
Qan tökürəm, qan eləyənlərdənəm.

Söz gəlinindən çıxarıb paltarı
Cananı üryan eləyənlərdənəm.

Zənn edirəm var qəzəlim bəs qədər,
İsmi qəzəlxan eləyənlərdənəm.

Nə'tü minacat varımdır neçə…
Şe'rini «Divan» eləyənlərdənəm.

Mərsiyə də, növhə də yazdım fəqət,
Xəlqi pərişan eləyənlərdənəm.

Sönməyəcək çınqılı ilhamımın,
Çınqılı vulkan eləyənlərdənəm.

Bəndəyəm, əlbəttə ki, səhvim də var,
Mən dəxi nöqsan eləyənlərdənəm.

Gizli deyil, Haqqa da bəzən çaşıb
Qeyz ilə tüğyan eləyənlərdənəm.

Bəlli, şəhid sinəsi əlvan olar,
Sinəni əlvan eləyənlərdənəm.

Dilbərimin şad eləyib könlünü,
Hüsnü çıraqban eləyənlərdənəm.

«Meyl eləmə eşqə» deyən var mənə,
Meylimə imkan eləyənlərdənəm.

Qırmayıram, rəhm edirəm daşə də,
Mən daşı mərcan eləyənlərdənəm.

Söyləmirəm Azəribaycanımı
Azəribaycan eləyənlərdənəm.

Amma, bu gün iftixarım var ki,
«Öl» sözünə can eləyənlərdənəm.

Qurban ola canı yara Şahinin,
Mən canı qurban eləyənlərdənəm.

26.07.2006

## XIII

*Lənkəran bölgəsində ilk pedaqoji elmlər namizədi alimlik dərəcəsi alan qadına – Tükəzban xanıma*

*professor adına layiq görülməsi münasibəti ilə*

Gəlsəm də fəğanə bu həzin can ilə birgə,
Ömr eyləyirəm mən yenə hicran ilə birgə.

Gəzsəm də əgər aləmi imkanimə rəğmən,
Dəymir nəzərim çarəyə imkan ilə birgə.

Göz yaşımı görcək deməsinlər «neçin ağlar?»,
Vicdanımı pak eyləyirəm qan ilə birgə.

Yarəb, niyə dünya evi könlüm kimi qəmgin?
Zarəm yenə çox halı pərişan ilə birgə.

Dövrəmdəki haqsızlığı gördükdə, qəzəbdən
Üsyan edirəm hər şeyə dövran ilə birgə.

Dilbər Qarabağ torpağı əldən niyə çıxdı?
Qan ağlayıram Azəribaycan ilə birgə.

Bir halda ki, gündüz-gecə dərd-qəm üyüdürsə,
Yanmazmı dəyirmançı dəyirman ilə birgə.

Rəna bu gözəllərdə pərişanlığı görcək
Tez-tez çəkirəm naləmi əfğan ilə birgə.

Şövqü var olan insana şaiq desələr də,
Hər şaiqə şaiq demə nadan ilə birgə.

İmkan ilə meylin arasında görübən fərq,
Uyğun elədim meylimi imkan ilə birgə.

Yerlərdəki qanlar kimi güllər qızaranda
Qəlbim qızarıb – yandı gülüstan ilə birgə.

Çox yerdə tikan var deyə, ey Tanrı, coşub da,
Qulluq edirəm güllərə bağban ilə birgə.

Əhsən ki, görünməkdə Tükəzbanlara qayğı,
Məğlub elədi şübhəni böhtan ilə birgə.

Şadəm ki, mətinlik qanı qaynar bu qadında,
Nail olacaq şöhrətə ad-san ilə birgə.

Eykaş, hamının hər diləyi gül-çiçək açsın,
Şahin, sevinək biz də Tükəzban ilə birgə.

20.05.2007
Lənkəran

## MƏRSİYƏLƏR

### I

*Bu gün aşura günüdür!..*

Tədqiq eləyib də hər bəlanı,
Yad etməli gündə Kərbəlanı!

Hərçənd cəfa Hüseynə gəldi,
Amma ki, səfa Hüseynə gəldi,
Mə'nalı bəla Hüseynə gəldi,
Yad etməli gündə Kərbəlanı!

Yığdı cana dərdü qəm Səkinə,
Qan ağladı möhtərəm Səkinə,
Şad olmadı bircə dəm Səkinə,
Yad etməli gündə Kərbəlanı!

Vardı Yezidin dərin günahı,
Nəydi Əli Əkbərin günahı?
Nəydi Əli Əsğərin günahı?
Yad etməli gündə Kərbəlanı!

Çox əhlü əyal lərzan oldu,
Körpə balalar ciyərqan oldu,
Zeynəb bacı zarü giryan oldu,
Yad etməli gündə Kərbəlanı!

Xoş günlərini bitirdi Leyla,
Aslan kimi cəngə girdi Leyla,
Oğlanlarını itirdi Leyla,
Yad etməli gündə Kərbəlanı!

Ulduz sanı bəlkə vardı kafər,
Meydanda həşir qopardı kafər,
Sağ kimsə – əsir apardı kafər,
Yad etməli gündə Kərbəlanı!

Müslimi itirdik oğlu ilə,
Fəzl həm şəhid oldu arzu ilə,
Olmaz bu qanı yumaq su ilə,
Yad etməli gündə Kərbəlanı!

Qalmışsa da hər kimin qisası
Hər dəm ola yad din qisası!
Abbas ilə Qasimin qisası!
Yad etməli gündə Kərbəlanı!

Vəqqasü Ömər şəhid olundu,
Seyf ilə Cəfər şəhid olundu,
Yetmiş iki ər şəhid olundu,
Yad etməli gündə Kərbəlanı!

Vallah o təhər müsibət olmaz,
Billah o qədər rəzalət olmaz!
Aşura günü kifayət olmaz –
Yad etməli gündə Kərbəlanı!

Çəkdim nə qədər çəpər bəlayə,
Etdim neçə yol səfər bəlayə,
Getdim iki yol da Kərbəlayə,
Yad etməli gündə Kərbəlanı!

Bağdadə iki səyahət etdim,
Mən Kufəni həm ziyarət etdim,
Həzrət Əliyə ibadət etdim,

Yad etməli gündə Kərbəlanı!

Həzrət Əlitək şah eşqi ilə,
Qatillərə ikrah eşqi ilə,
Peyğəmbərü Allah eşqi ilə,
Yad etməli gündə Kərbəlanı!

Zahirdi bu gün də çox savaşlar…
Hətta bu gün ağlayırsa daşlar,
Qalmırsa əgər bədəndə başlar
Yad etməli gündə Kərbəlanı!

Ey can, qocalırmısan? Qocalma!
Şairlik edib xəyalə dalma!
Şahin, daha şe'ri yadə salma,
Yad etməli gündə Kərbəlanı!

30.01.2007

## II

## **Q i t 'ə**

*Aşura münasibətilə*

Kərbəladə nə bəla oldu o gün!..
Nizədir əldə, qılınc-xəncərdir.

Elə bil gəldi qiyamət dövrü!
Və kiçik yerdə böyük məhşərdir!

Bir tərəfdə Hüseyndir qana qərq,
Başqa bir yanda Əli Əkbərdir.

Qeyri bir səmtdəsə qeyri bəla,

Can verən indi Əli Əsğərdir…

Ölməyibdir, diridir yetmiş iki
Şühəda – hər bir dinpərvərdir.

«Yarpaq üstü quruyur əvvəl-axır,
Gözümüz amma həmişə tərdir»[1].

Kərbəla şe'rini hər kəs yazsa,
Deməyin şair ona – əskərdir!

Unudulmaz o müsibət heç vaxt,
Unudulmaz o şe'r, əzbərdir.

31.01.2007

## III

*Aşura günü yad edilirsə də, bu müsibətin nəticəsi yaddan çıxmaz*

Canım yenə coşdu, həyəcanım yenə coşdu,
Aşura günü şur ilə qanım yenə coşdu.

Gördüm yuxuda: Cəng gedir Kərbi-bəladə,
Qalmış neçə aşiq bədəni hərbi bəladə,
Amma, boşa çıxmırdı əlin zərbi bəladə,
Aşura günü şur ilə qanım yenə coşdu.

Gördüm ki, Yezid əsgərinin sayı qədərsiz,
Gördüm ki, rəzil, sərsəri, hərcayi qədərsiz,

---

[1] «Bərgi-tər xoşk mişəvəd bezəman,
Bərgi-çeşmani-ma həmişe tər əsr»
Sədi Şirazi

Gördüm ki, müsəlmanə ölüm payi qədərsiz,
Aşura günü şur ilə qanım yenə coşdu.

Gördüm ki, uzanmış yerə qardaşı Hüseynin,
Gördüm ki, yıxılmış neçə sirdaşı Hüseynin,
Gördüm ki, əlindəydi kəsik başı Hüseynin,
Aşura günü şur ilə qanım yenə coşdu.

Gördüm ki, alıb yarə verir can Əli Əkbər,
Leyla ana fəryad eləyir: «Can Əli Əkbər!..»,
Olmuş idi al qanına qəltan Əli Əkbər…
Aşura günü şur ilə qanım yenə coşdu.

Gördüm itirib huşunu hüşyar Əli Əsğər,
Yox çarəsi, olmuş idi naçar Əli Əsğər,
Qılmış idi Leyla ananı zar Əli Əsğər…
Aşura günü şur ilə qanım yenə coşdu.

Gördüm ki, Hüseynin neçə yoldaşı göründü,
Çərxi-fələyin gürzü, oxu daşı göründü,
Çox seyr edənin gözlərinin yaşı göründü,
Aşura günü şur ilə qanım yenə coşdu.

Olmuşdu bənizlərdə şəhadət gülü zahir,
Sidq ilə şəhid oldu Yezid ibni-Mühacir,
Cəng etdi məharətlə Həbib ibni-Müzahir…
Aşura günü şur ilə qanım yenə coşdu.

Ol vəqt şəhadətdi o yar-yoldaşa məlhəm,
Ol dəmdə vəfa eylər idi adəmə adəm,
Qovğadə Züheyr öldü, Bərir öldü, Ömər həm…
Aşura günü şur ilə qanım yenə coşdu.

Köhnə qəzəbin bir yeni ahəngi göründü,
Şahin, gözə mərdanələrin cəngi göründü,
Qıpqırmızı olmuş qürubun rəngi göründü,
Aşura günü şur ilə qanım yenə coşdu.

1.02.2007

## QƏZƏLLƏR

Həm yar yaşar, həm də ki, əğyar cahanda,
Vahidsə də, minlərlə təzad var cahanda.

Hərçənd cahanı yaradıbdır özü, amma
Rahətliyi xəlq etmədi me'mar cahanda.

Söz yox ki, onun həzzini saymaq ilə bitməz,
Kimdir ki edən həzzini inkar cahanda?

Çoxdur qəmimiz, amma bizim şənliyimizdən
Azdırmı məgər dərdə giriftar cahanda?

Lakin deyirəm mən yenə: Bədbinliyə ziddəm,
Nikbinliyimiz olmalı me'yar cahanda.

Eşq öylə bir oddur ki, yanır sönsə də hərdən,
Yoxdur bu odu söndürən, ey yar, cahanda.

Gəlmişsə də ömrün qışı yox qorxusu qışdan,
Şahin kimi bir qəlbibahar var cahanda.

28.07.2002

* * *

Qüvvəm tükənib, tabü təvan yoxdu canımda,
Xəlq öylə sanır ahü fəğan yoxdu canımda.

Yoxsa dəyişib rəngini, qan qırmızıdırmı?
Yarəb, deyəsən qırmızı qan yoxdu canımda.

Etdim nəzər ətrafıma – minlərlə göz ağlar,

Bir göz yaşına dözməyə can yoxdu canımda.

Sağ idi canım sevgili cananədən ötrü,
Sağ qalmağıma indi güman yoxdu canımda.

Bədbinliyimin çoxlu əlamətləri vardır,
Nikbinlik hanı canda, nişan yoxdu canımda.

Olmazsa canın sağlığı olmaz vətən eşqi,
Şirvanü Muğan ilə Aran yoxdu canımda.

Gəlməkdə əcəl, çatdı həyatın sonu, Şahin,
Yol cənnətədir ki, həyəcan yoxdu canımda.
11.08.2002

* * *

Lal oldu dilim bir neçə təqsir qabağında,
Heyrətlə dayandım nə qədər sirr qabağında.

Zəncir kimi əymiş belimi zənciri zülfün,
Mən neyləyə billəm axı zəncir qabağında?

Qürbətdə qaçan çöllərə dərvişləri gördüm,
Dərviş nə edər şahü cahangir qabağında?

Dünya qazanı kəfkirə möhtac əzəldən,
Əlbəttə, köpüklər nədi kəfkir qabağında.

Bir zərrə bizim qafiyəpərdazlığımız var,
Bizlər nəçiyik Seyyidü Sabir qabağında?

Şe’r aləminin sərvəridir şir Füzuli,

Şahin quşu heyrətdə qalıb şir qabağında.

22.06.2003

* * *

*«Mən öləndən sonra» rədifli qəzəlin müəllifi mərhum Ələkbər Şahidə!*

Cismimizdə üzülüb can sən öləndən sonra,
Olmuşuq zarü pərişan sən öləndən sonra.

Nə ağır gərdişi vardır fələyin, cövr eləyir,
Qalmışam gərdişə heyran sən öləndən sonra.

Sağlığın vaxtı sənin qiymətini bilməyərək
Sənə yas saxladı dövran sən öləndən sonra.

Neçə canan gəlib yanıma tez-tez soruşur:
«Hanı Şahid, o qəzəlxan?» sən öləndən sonra.

«Ölməyibdir, deyirəm onlara, - sağdır ruhi»,
Edirəm yoxluğa üsyan sən öləndən sonra.

Yaşasın sevgili «Məcməş-şüəra» üzvləri,
Səni yad etmədə hər an sən öləndən sonra.

Saqqalı yoxsa da, ağsaqqalımızdır Qənimiz,
Ənvəri üzmədə əfğan sən öləndən sonra.

Dağlamışdı neçə yol gərçi acı hicranı,
Şahini dağladı hicran sən öləndən sonra.

20.07.2003

* * *

İllərlə düşündüm ki, zəfər var qabaqda,
Gördüm neçə məftilli çəpər var qabaqda.

Gördüm ki, müsibət görünür ön tərəfimdə,
Əmniyyətə biganə xətər var qabaqda.

Artdıqca, çoxaldıqca şəkər meyli canımda
Gördüm ki, şəkər yoxdu, zəhər var qabaqda.

İlğım kimi görsəndiyi anda mənə həzzim
Gördüm ki, sevinci itdi, qəhər var qabaqda.

Şənlik nəzərə bir gilə görsəndiyi və’də
Gördüm ki, Xəzər boyda kədər var qabaqda.

Amma, bilirəm, Həzrəti-Mehdi gələcəkdir,
Ey dil, xəbərim var ki, xəbər var qabaqda.

Şahin, daha dünya evini tərk elə, bəsdir,
Üqba evinə indi səfər var qabaqda.

26.10.2003

* * *

Mənə öz lütfünü ol şah edər Allah qoysa,
Sevgisindən məni agah edər Allah qoysa.

Arifə cövr eləyən kəs çox olub aləmdə,
Arifə cövr eləyən ah edər Allah qoysa.

Səhv edən var mənə qarşı düşünüb – eyləmədən,

Düşünb səhvini islah edər Allah qoysa.

Mənə naz oxları atmaqda olanlar bir gün
Sinəmi eşqə nişangah edər Allah qoysa.

Xeyrimə cəhd edən adəm ki xeyrxah olmuş,
Özünü bir də xeyrxah edər Allah qoysa.

Aşiqə fənd eləyən, fe'l edən insan tapılır,
Etdiyi fe'lini izah edər Allah qoysa.

Mərhəmət eyləyən olmazsa mənə, yox zərəri,
Şahinə mərhəmət Allah edər Allah qoysa.

7.10.2004

* * *

Vəsl üçün səndə, gülüm, olmadı imkan quruca,
Məndəsə indi qalıbdır o çevik can quruca.

Elədik gör nə qədər fürsəti fövt dövranda,
Bizə zülm eyləmədə indi bu dövran quruca.

Gözlərim gündə sənin hüsnünü seyr eylərdi,
İndisə olmadayam şəklinə heyran quruca.

Bir dəyirmandı fələk, hər kəsi dən tək üyüdür,
Nə qədər firlanacaqdır bu dəyirman quruca?

Elə zənn eyləyirəm ki, ölüyəm, sağ deyiləm,
Qalmayıb candan əlamət və axır qan quruca.

Dərdimiz öylə böyükdür ki, günahkarı bizik,

Mən quru, sən də quru, bizdə olan can quruca.

Qeyrilər dilbəri divanə çəkir şövq ilə,
Sənsə, Şahin, elə «Divan» yaradırsan quruca.

16.04.2005

* * *

Eşq vardı ki Adəm ilə Həvva arasında
Sevda gülü düldü iki sevda arasında.

Hər kəsdə məhəbbət güləcəkmi? Yenə fikrim
Avarə qalıbdır neçə xülya arasında.

Baş açmayıram hərb ilə sülh məs'ələsindən,
Qalmaqda həyatım neçə qovğa arasında.

Mə'şuq ilə aşiq arasında hanı birlik?
Vəhdət ilə surət ilə mə'na arasında?

Biçarədi cismim!.. İki sirdaq dalaşırsa
Ya tapdağı altında qalır, ya arasında.

Əlbəttə ki, dünya evi bərbad olacaqdır
Sülh olmasa Allah ilə dünya arasında.

Fərhad dağa, Məcnun isə səhrayə yönəldi,
Şahinsə qalıb dağ ilə səhra arasında.

30.08.2005

* * *

Gənclik tütəyin ki, füləyirsən qocalıqda,

Çalmır deyə, ölmək diləyirsən qocalıqda.

«Gəl, gəl» demə, «tez gəl» demə, ey yaşlı qəzəlxan,
Bədnam olacaqsan, nə deyirsən qocalıqda?

Bığ-saqqalına bir də fərəh yaşları axmaz,
Gözdən yerə qan-yaş çiləyirsən qocalıqda.

Boldursa da, kişmiş-noğulun ləzzəti olmaz,
Bildim ki, fəqət qüssə yeyirsən qocalıqda.

Rüsvay olacaqsan qoca aşiq kimi bir gün,
Şahin, nə cavanlıq eləyirsən qocalıqda?

22.07.2006

* * *

*Ərəbşünas dostum V.T.-ya!*

Aşiq, nə durubsan belə lərzan bu yağışda?
Divanə edibdir səni canan bu yağışda.

Dilbər gözə çoxdandı görünmür açıq-aşkar,
Dikdin gözünü yollara pünhan bu yağışda.

Hicranı yağışsız havada eyləmədən rədd,
Öldürdü sənin vəslini hicran bu yağışda.

Zənn eyləmiş idin ki, yetib kamə sönərsən.
Yağmur səni söndürmədi, yan, yan bu yağışda.

Çiynində mələklər də gülürlər sənə indi,
Yoldan çıxarıbdır səni şeytan bu yağışda.

Al badəni, iç mey, nə oyunbazlıq edirsən?

Qaldın çəpər üstündə pərişan bu yağışda.

Tofiq dedi «şorgözlük edirsən qoca yaşda,
Güldürməyəcək meylini imkan bu yağışda».

Aşiq, bu qəbahətli əməl ki eləyirsən,
Nə Vasim edərdi, nə də Elxan bu yağışda[1].

Billah səni gördükdə utandı qoca Şahin,
Aşiq, nə durubsan belə lərzan bu yağışda?

20.09.2006

* * *

Ayrılıq atəşinə yanmada canım, yarəb,
Ucalır tüstü kimi ərşə fəğanım, yarəb.

Bitdi sevda qumarı… Faidə etmişdim mən,
Faidəm olmadadır indi ziyanım, yarəb.

Munisim var idi, hər yanda hayan idi mənə,
Hayanım yox, hayana getdi hayanım, yarəb?

Novbahardır, təzələnməkdə bu aləm təzədən,
Təzələnməkdən uzaqdır niyə qanım, yarəb?

Neyləyim mən, bu məkanım məni bezdirmişdir,
Hazır olmuşmu görən tazə məkanım, yarəb?

Torpağın üstü mənim üstümə qəm yağdırdı,
Torpağın altınadır indi gümanım, yarəb.

---

[1] Bizim şərqşünas dostlarımızdırlar.

Yandı pərvanə yox oldu, yanır amma Şahin,
Nə qədər şə'm kimi mən hələ yanım, yarəb?

20.05.2003

* * *

Ey pəri, naləm də yadımdan çıxıb!..
Sən görünən dəmdə yadımdan çıxıb.

Qəmlərə qəmxarı unutdurmusan,
Dəmlərə həmdəm də yadımdan çıxıb.

Sən elə zəbt eyləmisən qəlbi ki,
Bəslədiyim qəm də yadımdan çıxıb.

Ah ilə əfğanı da bülbüllərin,
Güldəki şəbnəm də yadımdan çıxıb.

Şad ilə naşad yada düşməyir,
Qəmli də, xürrəm də yadımdan çıxıb.

Kəlmələrin öylə şirin nəğmə ki,
«Şur» da, «Dilqəm» də yadımdan çıxıb.

Təşnəsiyəm hər sözünün Qur'anın,
Kövsərü Zəmzəm də yadımdan çıxıb.

Şahina, ruhani bir aləmdəyəm,
İndi bu aləm də yadımdan çıxıb.

8.10.2003

* * *

Sözünü söyləyə bilmirsə əgər dil, qocalıb,
Yanağın rəngini vermirsə qərənfil, qocalıb.

Çox günün qədrini, əfsus ki, mən bilməmişəm,
Günləri qətl eləyibdir deyə qatil qocalıb.

Vaxt var idi cavan idi hər ilim, indi isə
Ömrümü təşkil edən gör nə qədər il qocalıb.

Bu həyat aləmimin bir gülü vardı, yoxdur,
Gül nə tez soldu gülüstandə, bülbül qocalıb.

Ürəyim tə'nə selindən dağılır sahiltək,
O selə tab edə bilmir deyə sahil qocalıb.

Sevər idi gecə-cündüz, daha əvvəlki təki
Sevə bilmirsə yarı Şahini–Fazil qocalıb.

12.11.2003

* * *

*Dostum Hacı Rafiq Şirvaniyə!*

O gündən ki, vətən torpağı içrə nalə, qəm qalxıb,
Canımdan ləhzə-ləhzə qüssə qopmuşdur, ələm qalxıb.

Laçın uçmuş əlimdən, xan Şuşa şişmiş müsibətdən,
Mənim kirpiklərim örtülməyir, gözlərdə nəm qalxıb.

Görüb bir rö'ya şad oldum ki, birləşmiş müsəlmanlar,
Bəlayə sinə gərməkçin bütün türkü əcəm qalxıb.

Daha səhv eyləməz aşiq Kərəm bir də, haçan görrəm
Qisas almaqdan ötrü bir keşişdən yüz Kərəm qalxıb.

Gəhi tədrisə, gah elmi işə, gəh şe'rə qurşandım,
Həmi yatmış mənim təbim bu vurhavurda, həm qalxıb.

Hanı Şirvanı məşhur eyləmiş kəslər, bu torpaqdan
Böyük Seyyid kimi, Sabir kimi çox möhtərəm qalxıb.

Əlimdə hər zaman tutdum qələm, Şahin, mən öldükdə
Görərlər seyr edən kəslər məzarımdan qələm qalxıb.

18.11.2003

* * *

Qabırğa ağrısın çəkdim, onu var eyləmə, yarəb,
Məni bundan betər dərdə giriftar eyləmə, yarəb.

Günahım var idi, bir Sən bilirsən, bir də bir dilbər,
Xəbərdar olmasın kimsə, xəbərdar eyləmə, yarəb.

Cəza verdin mənə, əlbət, səbəbsiz olmayır tənbeh,
Günah etdim, məni bir də günəhkar eyləmə, yarəb.

Əlimdən tut, qolumdan tut, yolumdan çıxmayım bir də,
Bu gün dünyanı, lütf eylə, mənə dar eyləmə, yarəb.

Sədaqət əhdini qırdım sümük sındı həmin ləhzə,
Qabırğa sındıran şəxsi daha zar eyləmə, yarəb.

Əgər sən verməsəydin yol düçar olmaz idim səhvə,
Xəta etmiş qulu bir də xətakar eyləmə, yarəb.

İlahi, varsa da Şahində əğyarə qəzəb, amma
Qabırğa dərdini əğyarə də yar eyləmə, yarəb.

24.02.2004

Qabırğamın sınmasının
17-ci günü

* * *

İstəyim yoxdu daha, söyləməyin var… Gedib!
Heç kəsi istəmirəm, istədiyim yar gedib.

Qaldırıb baş neçə dərdim, o idi dərdimə yar,
Eləyib sevdiyni dərdə giriftar, gedib.

O xeyirxah görünmür gözümə, xeyrim yox,
Ürəyi sınmağa qoymazdı, o me'mar gedib.

Çevrə tək dövrələyən nöqtəni pərgarım idi,
Hanı dövrəmdə o çevrə, hanı pərgar? Gedib!

Başımın hər tükünə qondu bu il qar mənim,
Başdakı qar qalıb, yerdə olan qar gedib.

Eləyibdir məni huşim ilə tərk, yox əsəri,
Gəlməyir başıma huşim ki, o hüşyar gedib.

Sevgi sevdasına düşmür niyə Şahin Fazil?
Səbəbi bircədi: sevdayə səbəbkar gedib.

20.04.2004

* * *

İstinad etməyə yer yoxdu, dayağım dağılıb,

Yaşayım indi nə cür mən ki, tifağım dağılıb.

Əl zəifdir döyə bilmirsə əgər əğyarı!
Əzə bilmirsə əgər qurdu – çomağım dağılıb.

Bir zamanlar çıxar idi ocağımdan tüstü,
İndi çıxmaqda başımdan ki, ocağım dağılıb.

«Səbrini topla» deyirlər mənə, lakin nə təhər?
Səbrimi toplamağa varmı marağım? Dağılıb.

Əllərimdən yapışıb saxla məni, ey Leyli,
Gəzirəm çölləri Qeys ilə, ayağım dağılıb.

Cırılar pərdəsi, az nalə edin məsciddə,
Bu nə fəryadü fəğan oldu, qulağım dağılıb.

Şahini zənn eləyirlər dəli Qeysin əvəzi,
Dəliyəm, bəlkə də hər yanə sonrağım dağılıb.
11.11.2004

* * *

Düşünürdüm qısalıbdır, yenə imkan uzanıb,
Giley etmir daha dil vəslə ki, «hicran uzanıb».

Başını yastığa qoymuşsa məgər aşiqmi
Bir kəsin ki, yatağında belə canan uzanıb.

Elə nikbinliyə bəndəm ki, qəbul eyləmirəm
Hər şirin an qısalıbdır, acı hər an uzanıb.

Dedi bir molla ki, cənnət nə gözəldir, orada

Neçə huri uzanıbdır, neçə qılman uzanıb.

Qarabağ məsələsi, ah, uzandı neçə il…
Nə üçün müxtəsər olmur, niyə fərman uzanıb?

İstərəm qarşılayım Əzrayılı rəqsimlə,
Nə gərəkdir ki, verim canı pərişan uzanıb.

Necə qan ağlamasın indi gözüm, ey Şahin,
Ayaq üstündədi kafər və müsəlman uzanıb.

16.10.2006

* * *

Eyvah, sarıbdır yenə cananı tərəddüd,
Əldən çıxarıbdır neçə imkanı tərəddüd.

Qət'iyyətə maliksə də eşq aləmi, amma
Bir yanı onün şübhədi, bir yanı tərəddüd.

Qət'iyyəti insanların, əlbəttə, məziyyət!
İnsanların, əlbəttə ki, nöqsanı tərəddüd.

Qətiyyəti olmazdısa, olmazdı müvəffəq!
Qaldırmaz idi zirvəyə Loğmanı tərəddüd.

Eşq aləminin sultanı sənsənsə, hücum et,
Fateh eləməz, yoxsa ki, sultanı tərəddüd.

Meydanı görürsənsə əgər əzm elə, yoxsa
Təslim eləyər şeytana meydanı tərəddüd.

Şahin, sən özün etmə tərəddüd, de o yarə:

Nakam eləyibdir neçə insanı tərəddüd.

27.11.2004

* * *

Aşiqlərə çəkdin elə bir dağ bu şəhərdə,
Bir kəs gələn il qalmayağaq sağ bu şəhərdə.

Geyməzsə riya paltarı çılpaqdı həqiqət,
Fikrim olacaqdır sənə çılpaq bu şəhərdə.

Çıx get bu şəhərdən ki, gülün qiyməti artsın,
Yoxsa solacaqdır nə qədər bağ bu şəhərdə.

Dilbər Qarabağ torpağı getmiş deyə əldən,
Məntək saralıb-solmada yarpaq bu şəhərdə.

Saf idi şəhər, indisə çirk olmada hər gün,
Dol bir buluda, sonra isə yağ bu şəhərdə.

Nikbinliyə bəndəm deyə bədbinliyə ziddəm,
Hökmən olacaq qarə fikir ağ bu şəhərdə.

Sərbəstü heca vəzni, əruz vəznimə şahdır,
Vardırmı görən Şahinə ortaq bu şəhərdə?

13.06.2002

* * *

Elə ki, gözlərini dikmədi sirdaş üzümə,
Gözlərimdən süzülüb axdı o dəm yaş üzümə.

Görürəm gözlərini gündə o gündən kədərin,

Qüssə-qəm gözlərini zillədi birbaş üzümə.

Başladı qarə şe’r yazmağa günlərlə qələm,
Qapadı ağ günümü çünki qələmqaş üzümə.

Daş atan Məcnunu gördüm yuxuda, dəydi gəlib
Dəlinin hikkə ilə tulladığı daş üzümə.

Daha bağbandı kitabım bu cahanda, Şahin,
Açılaydı qapısı cənnətin, eykaş üzümə.

28.08.2002

* * *

Almaqla canı sevgili canana nişanə,
İstər ki, qala eşqin oxu canə nişanə.

Aqilləri eşqin çox olubdursa da, amma
Qalmış bizə Məcnun kimi divanə nişanə.

Sevda odum odlanmada, meylim hələ ölmür,
Meylimdi mənim bəlkə də imkanə nişanə.

Meyxanəni tərk eylədi bir molla təmamən,
- Din gülləsinə, - söylədi, - meyxanə nişanə.

Tənqid oxuna etdi nişan ismimi yarım,
Yar qorxu ki, alsın məni biganə nişanə.

Şahin, yazıram çoxlu qəzəl mən o səbəbdən
Qoy xalqıma qalsın barı bir danə nişanə.

14.11.2002

* * *

Qismətsə vüsal aşiqə hicran ilə birgə
Sanki yaşayır həzzini əfğan ilə birgə.

Qəlbim elə yumşaq ki, solan gülləri görcək
Çox göz yaşı tökdüm yerə bağban ilə birgə.

Gər olsa meyl, olmasa imkan isə, yarəb,
Qoy qeyb eləyim meylimi imkan ilə birgə.

Tanrım, niyə iblis ilə şeytanı yaratdın?
Məhv eyləməli iblisi şeytan ilə birgə.

Amma, bütün aşiqlərə bol sevgi bağışla,
Cənnətdə görək hurini qılman ilə birgə.

Kafər dəxi hökmünlə sənin düz yola gəlsin,
Dünyamızı var eylə müsəlman ilə birgə.

Şahin, yanına yarı çağır xəstələnərkən,
Loğmanı kənar etməli dərman ilə birgə.

21.04.2003

* * *

Qismət olsan Şahinə, qismət – vüsal olsun sənə,
Qalmasın bir zərrə də, möhnət – xəyal olsun sənə.

Hər əzabın gendə qalsın, müşkülat – olsun kənar,
Ayrılıq – olsun çətin, firqət – məhal olsun sənə.

Kaş üzündə cilvələnsin daima qüdsiyyətin,

Şöhrət – olsun qoy zəka, şövkət – kəmal olsun sənə.

Kaş zəhmət hər zaman olsun sənə zərbülməsəl,
Zəhməti təlqin elə, zəhmət misal olsun sənə.

Öylə ömr etsin gərək Şahin bu gündən sonra ki,
Söyləsin Allah ona: Cənnət həlal olsun sənə!
24.07.2003

* * *

Bu bağın meyvəsi bir cür, o bağın başqa cürə,
Bulağın nəğməsi bir cür, qovağın başqa cürə.

Artırır həzzimi, ey yar, kitablar daim,
Qələmin ləzzəti bir cür, varağın başqa cürə.

Yaxın olduqda mənə təbimi coşdur, deməyim
Yaxının zilləti bir cür, uzağın başqa cürə.

Qoyma eyhamı yaxın, qov qınağı qəlbindən,
Eyhamın tə'siri bir cür, qınağın başqa cürə.

Tə'nəni saxla, əzizim, kəsəcək tənə məni,
Tə'nənin kəsməsi bir cür, bıçağın başqa cürə.

Dodağından qoy ürək sözləri çıxsın, deməyim
Ürəyin kəlməsi bir cür, dodağın başqa cürə.

Sevginin şö'ləsi çəkməkdə məni, ey Şahin,
Sevginin şö'ləsi bir cür, çırağın başqa cürə.
22.08.2003

* * *

*Bu gün İran Mədəniyyət Mərkəzində İrandan gələn 35 şair və alimlə görüş olacaq. Bu qəzəli yazdım:*

Xoş gəliblər yurduma istəkli qarlaşlar yenə,
Təb'imin şahin quşu pərvazinə başlar yenə.

Gözlər idi gözlərim şairləri, şad olmuşam,
Gözlər aydın ki, axır gözlərdəki yaşlar yenə.

Şad olanlar, sizləri görcək, tək insanlar deyil,
Şad olubdur bağlər, həm dağlər-daşlar yenə.

«Məxzənül-əsrar» yurdu çox görüb sirdaşını,
Sirrimə sirdaş olar, əlbəttə, sirdaşlar yenə.

Nəqşinizdən birbəbir tarixdə iz qalsın gərək,
Hardadır heykəltəraş, rəssamü nəqqaşlar yenə?

Şahina, pərvazı təb'in dəyməyirdi gözlərə,
Təb'imin şahin quşu pərvazinə başlar yenə.

22.09.2003

* * *

*Əsgər Şahi üçün*

Ölkəmizə Şahi gəlibdir yenə,
Şahi kimi dahi gəlibdir yenə.

Ərdəbilin seyrinə çox getmişəm,
Gör necə səyyahi gəlibdir yenə.

Kaş çox olsun Bakıya get-gəli,
Gahi gedib, gahi gəlibdir yenə.

Orda o ah eylər idi, burda mən,
Tərk eləyib ahi, gəlibdir yenə.

Görməyə «Məcməş-şüəra» əhlini
Bir də, xeyrxahi gəlibdir yenə.

Şe'r evinin bəndəsiyəm mən fəqət,
Şe'r evinin şahi gəlibdir yenə.

Bəlli ona bir neçə elmin dili,
Çox şeyin agahi gəlibdir yenə.

Yazdı qəzəl surəni təfsir edib,
Ayənin izahi gəlibdir yenə.

Vəcdə gəlir Adili-Movlayitək,
Bir ağa[1] xoşxahi gəlibdir yenə.

Eşq oxu yağdırmalıyıq biz ona,
Eşq nişangahi gəlibdir yenə.

Şahinə bax, şe'ri yemək istəyir,
Şairin iştahi gəlibdir yenə.

7.10.2003

* * *

İstəsə bir də fələk aləmə Leyla gətirə,

[1] Əli Əkbər Ocaqnejad ağa

İnana bilməyirəm öylə dilara gətirə.

Ya da, Məcnuni gətirmək diləsə bir də zaman,
Necə mümkün olacaq ki, elə sima gətirə?

Ya, Nizamim kimi şair gələcəkmi təzədən?
Köhnə dünya bacararmı təzə İsa gətirə?

Gətirə bilsə də gər surətini Sinanın,
Yox gümanım ki, o surət ilə mə'na gətirə.

Yaranarmı görəsən Sə'di kimi gerçəklik?
Gətirə bilsə fələk bəlkə də xülya gətirə.

Eşq əlifbasını çıxdım başa mən, ustadım
İnana bilməyirəm tazə əlifba gətirə.

Söyləmişlər ki, hər insan doğulur bir neçə yol,
Çətin işdir ki, məni bir də bu dünya gətirə.

Qapanıbdır üzümə bir neçə sevda qapısı,
Könlümə bir çoxu istər yenə sevda gətirə.

Eşqimə etdi həvəs bir təzə gül, ey Şahin,
Qorxuram ki, o həvəs başıma qovğa gətirə.

* * *

Yarəb, nə qədər arzu, dilək var ürəyimdə,
Əncamına isə hələ şəkk var ürəyimdə.

Sakitləşə bilmirsə, onun tufanı vardır,

Aram ola bilmirsə, külək var ürəyimdə.

Yanğınları var, odları, vulkanları vardır,
Atəş kimi atəşli bəzək var ürəyimdə.

Zənn eyləməsinlər ki, onun var odu təkcə,
Açdıqda görərlər ki, mələk var ürəyimdə.

Bir kuzəyə oxşar ki, şərab ilə dolubdur,
Bir güldana bənzər ki, çiçək var ürəyimdə.

Sən qəlbimi gündüz-gecə çaldıqca çalırsan,
Bildin haradan sən ki, tütək var ürəyimdə.

Şahin, hamıya rəhm elə əğyardən özgə,
Daş parçası yoxdur ki!.. Ürək var ürəyimdə.

* * *

*Əsgər Şahi Ərdəbiliyə ithaf*

Səhvim hanı, islah oluram Şahi gələndə,
Çox sirrdən agah oluram Şahi gələndə.

Movlayi görünmür gözümə Şahi gedəndən,
Movlayiyə həmrah oluram Şahi gələndə.

Kim «Şahi gəlir» söyləsə xeyrin görəcəkdir,
Əlbəttə, xeyrxah oluram Şahi gələndə.

Sərməst eləyir şe’ri məni öylə, özümdə
Gah olmayıram, gah oluram Şahi gələndə.

Vallah ki, xoşhallığımın həddi görünmür,
Billah ki, xoşxah oluram Şahi gələndə.

Gərçi qəzəlin bəndəsiyəm şe’rdə, Şahin,
Mən Şahi kimi şah oluram Şahi gələndə.
1.03.2004

* * *

***«Qəbirdən məktublar» adlı audio-kaset üçün möhtərəm Hacı Ramilin xahişi ilə yazılan iki qəzəl***

**I**

Cismim, düşünürdür ola rahət qəbir içrə,
Eyvah, anacan, gördüm əziyyət qəbir içrə.

Oğlun ki, sənin cahil olubdur, necə dözsün
Olmursa əgər tab ilə taqət qəbir içrə.

Üstündə yerin küfrə dalıb eyş eyləyənlər
Altında yerin çəkmədə zillət qəbir içrə.

Dünyadə qəbahətlərə cür’ət eyləyən kəs
Əlbəttə, bacarmaz edə cür’ət qəbir içrə.

Sağlıqda günah eyləməsəydi sənin oğlun,
Öldükdə görünməzdi müsibət qəbir içrə.

Bilsin və eşitsin bəşərə cövr eyləlvalənlər:
Yoxdur daha cövr etməyə qüdrət qəbir içrə.

Fürsət var ikən Yerdə savab etməliyik biz,
Yoxdur buna bir zərrə də fürsət qəbir içrə.

Şahin kimi uçmaq göyə olmur daha qismət,
Olmaqda cəza qafilə qismət qəbir içrə.

2.03.2004

**II**

Olmuşam orda ölüb, burda giriftar, anacan,
Halıma ağla, məzar içrə qəmim var, anacan.

Mənə hər ləhzə əzab olmada bərzəx dövrü,
Qəmimə olmayacaqdır daha qəmxar, anacan.

Ayağım odlar içində, əlimin yox dözümü,
Başıma gündə çalırlar neçə mismar, anacan,

Bir cəza bircə kərə olsa dözərdim bəlkə,
Hər cəza olmada gündən-günə təkrar, anacan.

Zənn edirdim olaram dinc öləndən sonra,
Nə biləydim ki, olurlar ölülər zar, anacan.

Günahı olmayan insanə zaval yox burada,
Mən çəkən zülmü çəkir cümlə günahkar, anacan.

İstədim ki, atamı burda görüm, qoymadılar,
Görüşü eylədilər oğluna inkar, anacan.

Vermişəm fürsəti əldən, daha imkanım yox,
Sən savab eyləməyi et bəşərə car, anacan.

Gəl məzarıstana tez-tez məni yad etmək üçün,
Oğlunun əfvi üçün Allaha yalvar, anacan.

Əcəlim gəldi məni ovladı şahin quşutək
Halıma ağla, məzar içrə qəmim var, anacan.
3.03.2004

* * *

Sevda alovu öylə işıqlandı gözündə,
Yandırdı məni, sanki günəş yandı gözündə.

Hərdən gözün ağ rənginə bənzərsə də, hərdən
Dünya üfüqün rəngi kimi qandı gözündə.

Hərdən görürəm aləmi alıqşlamaq istər,
Hərdən görürəm Rəbbə də üsyandı gözündə.

Bədbinliyə uyma bu qədər, ağlama bəsdir,
Nəmləndi yenə yaylığın, islandı gözündə.

Zülmət gecədirmi ağı rədd eyləmək istər?
Dan ulduzudurmu qaranı dandı gözündə?

Hərdən baxıram öylə pərişan oluram ki,
Sanki bütün aləm qana qəltandı gözündə.

Mey nuş eləmirsən, niyə sərxoş kimi oldun?
Yoxsa fələyin çərximi fırlandı gözündə?

Bədbinliyə uyma, yenə Şahin görəcək ki,
Dünya evi, ey yar, çıraqbandı gözündə.
15.03.2004

* * *

Tərk oldu sədəf, yox daha, ümmanını gəzmə,
Bülbüllər uçub getdi, gülüstanını gəzmə.

Aşiq, daha axtarma Züleyxa təki bir yar,
Eşqin daha Yusif kimi sultanını gəzmə.

Gəzmə, arama ceyranı Ceyranbatan içrə,
Ceyranbatana batdısa, ceyranını gəzmə.

Məcnundu şərəf, şan idi Leyla bizə, indi
Əvvəlki şərəf yoxsa əgər şanını gəzmə.

Axtarma vüsalın özü yoxdursa cahanda,
İmkanı müyəssərmi ki? İmkanını gəzmə.

Bir halda ki, cananəyə can nəzri halaldır,
Gər canı itirsən də itir, canını gəzmə.

Şahin, sənə eşq dərdini bəxş eylədi Allah,
Dərdin səni məhv etsə də, dərmanını gəzmə.

2.04.2004

* * *

*Bu gün Tamridanın vəfatının üç ilidir. Qəbir üstünə getdik. Nəvəm Sevda bərk ağladı…*

Üç ildir ki, qoyub getdin məni, ey yar, təklikdə,
Üzüm gülməz, sözüm gülməz, gözüm ağlar təklikdə.

Üç ildir ki, yığılmış köksümə dərdim, görən yoxdur,
Görəydim kaş bir ləhzə səni, dildar, təklikdə.

Üç ildir ki, səfa altdan səfalər boylanır bivec,
Üç ildir ki, cəfa üstdən cəfalər var təklikdə.

Dəmadəm qəlb evin abad edən me’mar idin, əfsus,
Onu abad edən yoxdur, yatır me’mar təklikdə.

Üç ildir ki, bozumtul saçlarım ağ rəngə qərq olmuş,
Başa hər ləhzə, hər dəmdə yağarmış qar təklikdə.

Üç ildir ki, mənim bağrım közərmiş lalətək qəmdən,
Hanı munis təklikdə, hanı qəmxar təklikdə?

Üç ildir ki, günüm qarə, könül yarə, ciyər parə,
Görünmür Şahinə çarə, qalıb naçar təklikdə.
30.04.2004

* * *

Çoxdursa gözəllər, gözəlim, gər yer üzündə,
Olmaz sənə bənzər daha dilbər yer üzündə.

Vardırsa yer altında dəqiq bilməyirəm mən,
Səndən bahalı görməyirəm zər yer üzündə.

Eşq məşəli gündüz-gecə hər yerdə alışsın,
Sönsün gecə-gündüz, deyirəm, şər yer üzündə.

Zabitlərimiz dinc işə iqdam eləsinlər,
Nadinc əməli bilməyə əskər yer üzündə.

Yarəb, yer üzü gör neçə İskəndəri gördü,
Bir vəqt var idi neçə Səncər yer üzündə.

«Cəng» kəlməsi, «qovğa» sözü yaddan çıxarılsın,
Qoy sülh şüarı ola əzbər yer üzündə.

Dəftər və qələmlər ola Şahinlərə qismət,
Yarəb, elə et qalmaya xəncər yer üzündə.

21.05.2004

* * *

Bu nə həzzdir ki, yığılmış bu qədər qəm məndə?
Bəs nə qəmdir bu ki, həzz artmada hər dəm məndə?

Neçə peyğəmbəri öyrəndi bu aşiq oxuyub,
Mustafa məndədi, Nuh məndədi, Adəm məndə.

Məndədir Qeys ilə, Fərhad ilə, Leylavü Şirin,
Özünü hiss eləyir hər biri xürrəm məndə.

Əfqanıstandakı çox sirrimi bilmir kimsə,
Nə qədər sirr qalıbdır hələ mübhəm məndə.

Qalmışam mat-məəttəl, niyə kiprik çürümür?
Göl qədər, bəlkə də, yarəb, yığılıb nəm məndə.

Eşq oxu, qəmzə oxu, tənə oxu – yarəm çox!..
Yerləşibdir neçə ox yarəsi möhkəm məndə.

Həm əruz, həm də heca cövhəri var canımda,
Neçə elmin odu yanmaqda dəmadəm məndə.

Yazırıq xəlqi qəzəllər, dilimiz var bizim,
Həmi Ənvərdə[1] bu istək görünür, həm məndə.

Varlığımdan xəbərim yoxdu mənim, ey Şahin,
Mənmi aləmdə varam, yoxsa ki, aləm məndə?

6.07.2004

* * *

Yarım, üzünü seyr edirəm, yanə çevirmə,
Gəl şad olan insanı pərişanə çevirmə.

E'cazın ilə sən yenə kimyagər olursan,
Qurbanın olum, göz yaşımı qanə çevirmə.

Yol vermə düşüm mən təzədən qürbətə sənsiz,
Vüslət dəmimi, ey pəri, hicranə çevirmə.

Rəbbim, Qarabağ pis günə düşmüş neçə ildir,
Rəhm eylə, gülüstanı biyabanə çevirmə.

Məscidə gedim, qov məni meyxanədən artıq,
Bəsdir daha, meyxanəni zindanə çevirmə.

«Göz» kəlməsini «çeşm» eləmə, ey yeni şair,
Bundan belə «kipriklər»i «müjgan»ə çevirmə.

Şahin, daha bəsdir ki, çəkibsən çox əziyyət,
Yazdıqlarını gəl daha «Divan»ə çevirmə.

1.08.2004

---

[1] Qəzəlxan Ənvər Nəzərli

* * *

Şirinim, getməyirəm mən daha ovlağlərə,
Şahini qovlama Fərhad sanıb dağlərə.

Nəzərim gərdənə düşməkdə, kəmərbənd nədir?
Gözlərim qollara baxmaqda, nə qolbaqlərə.

Feyziyab eylə məni sən yenə əvvəlki təki,
Qoy xəyalım uça hərdən o gözəl çağlərə.

Aşiqəm, taqəti yoxdur canımın bir də dözə
Sinəmin dağları üstdən çəkilən dağlərə.

E'tina eyləmişik ömr uzunu comərdə,
E'tinasızlığımız bəllidi qorxağlərə,

Sün'ilikdək uzağam, sün'i tapança nə gərək?
Mən uşağəmmi salım meyli oyuncağlərə?

Ən təbii sayılan aşiqiyəm yer və göyün,
Hündürəm mən, məni bənzətməyin alçaqlərə.

Qələmim etdi düyün barmağımı, ey Şahin,
Çox düyünlər düşəcəkdir hələ barmaqlərə.

8.08.2004

* * *

Ayağım badə qabağında, əlim dəftərdə,
Dodağım saqi dodağında, dilim şəkkərdə.

Kim desə «yerdə mələk yox» gözü görmür məncə,

Nə məlahət görürəm mən bu mələkmənzərdə!..

Üzü gül, sinəsi güldür, əli güldür, gül-ayaq,
Allah-Allah, nə qədər gül görürəm dilbərdə.

Sanki Qudyalda deyil, naz ilə Zəmzəmdə çimib,
Sanki Tərtərdə deyildir, yuyunub Kövsərdə.

Nəzəri mə'lumatı düzsə də gövhərşünasın,
Gövhərin qiymətini axtarıram gövhərdə.

Baxıram göydə günə, yerdə sənə, gün – solğun,
Qamaşır gözlərim, ey zər, bu nə e'caz zərdə?

Dedi dilbər: - Hə dəqiq sən məni təsvir elədin,
Şahina, böylə dəqiqlik görünür zərgərdə!

13.08.2004

* * *

Bir zərrə azalmır kədərü qəm, belə getsə
Əlbət, çoxalar niskilim,ölləm belə getsə.

Çox qəmli adam var idi, hicranı qovubdur,
Hicranı qovub mən dəxi gülləm belə getsə.

Məmmədbağırın[1] təsnifi var şe'rimə çoxlu,
Artmaqda yenə… Mən də sevilləm belə getsə.

Bir qəlbə yar eşqi, diyar eşqi… çox eşq var,
Bir qəlbimi çox parəyə bölləm belə getsə.

---

[1] Bəstəkar və xanəndə Məmmədbağır Bağırzadə.

Çox məsləhət etdimsə də cahil – adam olmur,
Möhkəm tutacaq cahili şilləm belə getsə.

Məcnun ilə birlikdə çəkilməkdədi ismim,
Eşq aləminin qədrini billəm belə getsə.

Şahin, o qədər eşq varımdır bu həyatə,
Vardır ümid ölsəm də dirilləm belə getsə.

20.08.2004

* * *

Yol gözləyirəm, ey pəri, zarəm, xəbər eylə,
Gəlsən sağalar bəlkə də yarəm, səfər eylə.

Görsən tanımazsan məni, hicrində qocaldım,
Qəmdən əridim şə'm kimi, gəl nəzər eylə.

Ey köhnə qəzəlxan, daha yad kəlmədən əl çək,
Söz gülşəninin dövrəsini hör, çəpər eylə.

Yarəb, qara saç qoy qara qalsın, üz ağarsın…
Amma, qara zülmətləri gülgün səhər eylə.

Əğyarı gözüm gördü və görməzliyə vurdu,
Əlbət, betər idi halı, ondan betər eylə.

Bir mətləbi ərz etməyə beş beyt yazıldı,
Şair, çox uzatdın sözünü, müxtəsər eylə.

Çərxt-fələyin doldu qulağı gileyindən,
Kim söylədi ki, sən fələyi dəngəsər eylə.

Şahin, göyə uç get, daha yer əhli deyilsən,
Yox Yerdə yerin, yerdəkilərdən həzər eylə.

5.09.2004

* * *

Vardırmı səmimi o səmimanədən özgə?
Kim lütf edəcək indi ətr nanədən özgə?

Bir yox, iki yox, bağlamışam üç iri «Divan»,
Divanə olan varmı bu divanədən özgə?

Canan evi tərk eylədi, dönməz geri bir də,
Qurban olacaq kim mənə pərvanədən özgə?

Mən saqipərəstəm daha, meyxanəpərəstəm,
Xoş yer gözümə dəymədi meyxanədən özgə.

Artırdı mənim naləmi məsciddə olanlar,
Söz söyləməyir heç biri əfsanədən özgə.

Gəlmir yanıma doğma adamlar neçə vaxtdır,
Kim yad edəcəkdir məni biganədən özgə?

Əfsus ki, Şahin, o səmimi yarım öldü,
Vardırmı səmimi o səmimanədən özgə?

1.11.2004

* * *

Çərx əlindən o qədər zərbə dəyib başlərə,
Bərkiyib başlarımız dönmədədir daşlərə.

Fələyin, zənn edirəm, gözləri öyrəncəlidir,
E'tina eyləməyir gözdən axan yaşlərə.

Qələmin qiyməti yoxmuş, bunu gər bilsəydim
Şe'rimi yazmaz idim mən o qələmqaşlərə.

Gizləyirdim nə qədər sirri… Xəcil olmazdım
Deməsəydim mən əgər sirrimi sirdaşlərə.

Üzməyəydim əlimi kaş neçə fürsətdən,
Ehtiyac olmaz idi onda bu «eykaş»lərə.

Mey gətirdin gələrək Şahinə, ey saqi, eşit,
Mən səni istəyirəm, ver meyi əyyaşlərə.

10.01.2005

* * *

Sən ki məni qoydun bu qədər xiffət içində,
Varmı görəsən sən kimisi millət içində?

Gəldin yanıma, mən özümü öylə itirdim,
Fürsət tapa bildimmi məgər fürsət içində?

Rəbbim, bu nə qiymətli cəvahirdi cahanda?
Mən tapmayıram qiymətini qiymət içində.

Baxcaq ona hər üzvünə yüz qafiyə tapdım,
Heyrətdə qalıb qafiyə şe'riyyət içində.

Rəbbim, bəşərin sərvəti, əlbəttə, qadındır,
Heç kimsəni möhtac eləmə sərvət içində.

Rəbbim, bu nə surət ki alır əqlimi başdan?
Yoxdur elə surət bu qədər surət içində.

Rəbbim, bu nə ismət və həyadır bu gözəldə?!.
İsmət və həya varmı belə xilqət içində.

Şahin, bu nə qamət ki, çatır bəlkə də Rəbbə?!.
Hey dişləyirəm barmağımı heyrət içində.

21.07.2005

* * *

Qorxuram təzə məhəbbət mənə dərd-qəm gətirə,
Sözümə ah ilə nalə, gözümə nəm gətirə.

Tərk edib bir neçə ildir məni həmdəm getmiş,
Hanı bəxtim ki, çəkib yanıma həmdəm gətirə.

Məncə, aramımı Allah aparıb biryolluq,
İnana bilməyirəm həm apara, həm gətirə.

O qədər döydü mənim cismimi tale küləyi
Qorxuram şaxta dolub cismə sətəlcəm gətirə.

Gözlərəm cənnətimi yer qucağında, amma
Qorxuram ki, bu təzə sevgi cəhənnəm gətirə.

Başım onsuz da mənim çox çənə düşmüş, lakin
Vay o gündən ki, İlahi çəni möhkəm gətirə.

Qorxubilməz eləyirlər məni zənn, ey Şahin,
Qorxuram təzə məhəbbət mənə dərd-qəm gətirə.

25.01.2006

* * *

Dərd fırlanır ətrafıma dildar əvəzində,
Əğyar dəyir gözlərimə yar əvəzində.

Hərçənd yaranıb varlığımız yoxluğumuzdan,
Heyhat, bu gün yoxluğumuz var əvəzində.

Me’mar kəsin kürsüsü boşdur neçə ildir,
Amma, oturub bir dəli me’mar əvəzində.

Hal əhlini qal əhli edibdir əvəz indi,
Qafil görürəm ah ki, hüşyar əvəzində.

Üç-dörd adamın sərvəti çox, varı qədərsiz,
Varsızlığa getməkdə elim var əvəzində.

Dərd bəxş eləyən, qüssə verən, qəm gətirən var,
Qəmxar isə yoxdur daha qəmxar əvəzində.

Şonqar təki pərvaz eləyərdi qoca Şahin,
Pərvaz eləyən varmı o şonqar əvəzində?

05.03.2006

* * *

Neçə gündür ki, o canana görünmür gözümə,
Dönəcəkdir ciyərim qanə, görünmür gözümə.

Köhnə imkanımı çox sərf eləyib qeyb etdim,
Gəlirəm mən təzə imkanə, görünmür gözümə.

Gətirərdim təzədən əqlə keçib Eşq dərsin,
Niyə Məcnun kimi divanə görünmür gözümə.

Baxıram nərgizə amma gözümə görsənmir,
Nanə qarşımdasa da, nanə görünmür gözümə.

Bu nə güldür görəsən, bəs nə çiçəkdir görəsən?
Nəzərim düşsə də reyhanə, görünmür gözümə.

Harada ülviliyim, bəs hanı şahanəliyim?
Yenə Ülviyyə və Şahanə görünmür gözümə.

Niyə bica yerə yandırmalıyam mən cismi?
Yanıram şam ki, pərvanə görünmür gözümə.

Ovqatım öylə olub təlx bu gün, ey Şahin,
Dən gəzən quş kimiyəm, danə görünmür gözümə.

18.08.2006
Quba

* * *

Mən duman-çən görürəm Şahdağın üstündə yenə,
Parlayarmı görəsən gün bağın üstündə yenə?

Qarabağ yurdumu işğal elədi alçaqlar,
Ləkələr var nə qədər alçağın üstündə yenə.

Alarıqmı alınan mülkümüzü biz bir də?
Qalacaqdırmı qəra rəng ağın üstündə yenə?

Qorxağa rəğbət olubmu görəsən dünyada?
Xəncəri görməyirik qorxağın üstündə yenə.

Daha bezdirdi siyasət, hanı eşq mövzusu?
Qala qoy busə yeri dırnağın üstündə yenə.

Hanı göyqurşağı rəngində olan qolbağın?
Görməyirsən qolumu qolbağın üstündə yenə.

Əlimi tutma, tutum mən ətəyindən, ey şux,
Ətəyintək sürünüm torpağın üstündə yenə.

Hey yazır, dincələ bilmir əli Şahin qocanın,
Mən qabar görmədəyəm barmağın üstündə yenə.

18.10.2006

* * *

Varsa iki sevgi bir baş içrə,
Yoldaşın olarmı yoldaş içrə?

Dostun sənə e'tibar edərmi?
Nəqşin görünərmi nəqqaş içrə?

Hər sirdaşa sirr olarmı açmaq?
Sirrim qalacaqmı sirdaş içrə?

Billah, qələm düşür əlimdən
Vardırsa ələm qələmqaş içrə.

Gözlər çürümür gözün nəmindən,
Bilməm nə təhər qalır yaş içrə?

Şahin qoca bir adamdır, amma
Yüzlərlə məlalı var baş içrə.

16.12.2006

* * *

Mey nuş edirəmsə yenə canan ilə birgə,
Küfr eyləmirəm mən bu müsəlman ilə birgə.

Mən vəsli sevəndən bəri hicranı da sevdim,
Var məndə vüsal atəşi hicran ilə birgə.

İnsaf elə, qaldırma mənim meylimi, Rəbbim,
Meylim mütənasib ola imkan ilə birgə.

Düzlük var isə, bəlli ki, nöqsan da deyil yox,
Mən gəzdirirəm düzlüyü nöqsan ilə birgə.

«Şahindir adı, amma ki, pərvazı görünmür»,
Arxamca deyirlər sözü hədyan ilə birgə.

Me'rac eləsəydim göyə peyğəmbər olardım,
Bilmir bunu cahil neçə nadan ilə birgə.

«Ləbbeyk» deyib, Şahina, pərvaz eləyərdim
Ruhim uça bilsəydi əgər can ilə birgə.

18.12.2006

* * *

Gəldin yanıma getdi fərağım, daha getmə,
Söndürmüş idin, yandı çırağım, daha getmə.

Hərçənd qocayam, ağlamışam amma uşaqtək,
Bilməm, sənə çatmışmı sorağım, daha getmə.

Ceyran da batıb, lök də batıb göz yaşım içrə[1],
Getsən daşacaq gözdə bulağım, daha getmə.

Vəslin yolu, sandım ki, uzaqdan da uzaqdır,
Gəldin, yaxına gəldi uzağım, daha getmə.

Mən doğma bilirdim səni yarım, neçə vaxtdır,
Olmaz daha yaddan umacağım, daha getmə.

Odlanmasını sanma asandır bu ocağın,
Getsən, sönəcək bir də ocağım, daha getmə.

Tutmaz əlini əl, görə bilməz gözünü göz,
Getməz yanına bir də ayağım, daha getmə.

Yazsın adını gündə qələm, şəklini çəksin,
Dolsun yenə şe'rinlə varağım, daha getmə.

Lal oldu dilim dad eləməkdən gecə-gündüz,
Fəryad elədim batdı qulağım, daha getmə.

Qıpçaqdın, oğuzdun, gücünə arxalanırdım,
Süst oldu mənim güclü dayağım, daha getmə.

Od yurdunun atəşli qızı tək səni gördüm,
Bir qeyrisinə varmı marağım, daha getmə.

Ey canlı gülüm, bil, necə cansızdı bu Şahin,

---

[1] Göllərimiz «Ceyranbatan»a və «Lökbatan»a işarədir.

Bir bağ kimi gülləndi otağım, daha getmə.

24.01.2007

* * *

Olmaz mənə həmdəm biganə içində,
Mərdanəyə dönnəm mərdanə içində.

Yer Kürrəsi hərçənd bir danədi göydə,
Vardır neçə danə bir danə içində.

Oddan qaçan adəm çox görmüşük, amma
Od qorxusu varmı pərvanə içində?

Bir dürr gəzirkən çox dürr arasında
Tapdım səni, yarım, dürdanə içində.

Aqillə olub yar aqilliyə vardım,
Divanə görünnəm divanə içində.

Meyxanədə saqi, məsciddə – molla,
Bildinmi nə həzz var meyxanə içində?

Gerçəksə də eşqin, əfsanələşibdir,
Şahin, yaşayırsan əfsanə içində.

18.06.2007

* * *

Gər qova şənliyi Rəbbim bu pərişanə tərəf,
Baxmaram zərrə qədər mən acı hicranə tərəf.

Aşiqin dərdi vəsldir, onu loğman bilməz,

Aşiqi yollamayın bir daha loğmanə tərəf.

Hanı cananım olan sevgili ilham pərisi
Ki, dikim gözlərimi mən yenə cananə tərəf.

Mən ki sülh istəmişəm daima hər insanə,
Rəğbətim olmayacaq cəngə tərəf, qanə tərəf.

Əcnəbi ölkələrin əksəri çəkmir özünə,
İrana baxmadayam həm, həmi Turanə tərəf.

Həm səyahətdə keçir gün, həmi söz yazmaqda,
Meylimi sövq edirəm mən neçə imkanə tərəf.

Artacaqdır sayı, əlbəttə, səfərnamələrin
Şahini göndərən olsa yenə İranə tərəf.

20.06.2003
*«İran səfərnamələri» adlı kitabımın
təqdimat mərasimində*

* * *

Eşidən vəqt həmən «La ilahə illəllah»,
Deyirəm «Əşhədu ən la ilahə illəllah».

Var idi həzrəti-Peyğəmbərimiztək dahi,
Diridir indiyəcən… La ilahə illəllah.

Var idi Osman, Əbubəkrü Ömər, həzrət Əli,
Hüseyn vardı, Həsən… La ilahə illəllah.

Canü dil ilə qəbul eyləyibən islamı
Belə hökm etdi vətən: La ilahə illəllah.

Oxuyur bülbül, ötür qumru, dinir qartallar,
Söyləyir lalə, süsən «la ilahə illəllah».

Car edir aləmə Qəçreş bulağı, mavi Xəzər,
Qoca Şahdağ, Göyəzən «la ilahə illəllah».

Şahini dəfn edəcəklərsə də hey dillənəcək
Bir məzar içrə kəfən «la ilahə illəllah».

14.10.2002

* * *

Yazmışam «Divan»ımı, zəhmət olubdur yaxşı
Və mənim zəhmətimə qiymət olubdur yaxşı.

Neçə xoşxah adama qismət olub xoşbəxtlik,
Neçə bədxah adama lə’nət olunbur yaxşı.

Xoşagəlməz iki-üç söhbəti, ey yar, unut,
Aramızda nə qədər söhbət olubdur yaxşı.

Hamının taleinə, bəxtinə fürsət düşmür,
Bizə ulduz qədəri fürsət olubdur yaxşı.

Görübən pis günü pərt olmamalı, bizlərdə
Ulu əcdadıma xas qeyrət olubdur yaxşı.

Ölkəmin tarixi cəncallı olub çox, amma
Neçə Şirvan sayağı dövlət olubdur yaxşı.

Elimiz eyləyəcək pis günü xoş günlə əvəz,
Elə qismət nə qədər şöhrət olubdur yaxşı.

Şahina, pislərə baş qoşma qətiyyən, bir gün
Görərik ki, yer üzü cənnət olubdur yaxşı.

27.11.2002

* * *

Dedilər gərçi şəfa cövrü cəfadən yaxşı,
Aşiqə amma cəfa oldu şəfadən yaxşı.

Ey qaranlıq diləyən kəs, nə görübsən qarada?
Görmürəm mənsə işıqdan və ziyadan yaxşı.

Saçıma, saqqalıma sanki yağıb qar mənim,
Məgər ağ rəng deyildirmi qəradən yaxşı?

Qoy bürünsün hamı dünyadə həya pərdəsinə,
İnsana heç nə deyil yaxşı həyadən yaxşı.

Hanı Musanın əsası ki, tutum mən, ya Rəbb,
Qocaya yaxşı nə vardır ki əsadən yaxşı?

Hey bəla görmədəyəm çərxi-fələkdən, sanki
Mən görə bilməyirəm heç nə bəladən yaxşı.

Dedi: «Yansın ciyərin eşqə düşüb, ey Şahin»,
Qarğışı dilbərimin oldu duadən yaxşı.

21.06.2003

* * *

*Bağdad yanır…*

Ah eylədi sevdayə düşüb, dad ilə yandı,
Aşiqlərimiz Qeys ilə, Fərhad ilə yandı.

Ustad alışıb yansa da, şagirdinə qıymaz,
Gördüm elə şagirdi ki, ustad ilə yandı.

Sən gördüyün övlad alışmaqdan uzaqdır,
Mən gördüyüm övlad isə əcdad ilə yandı.

Dünya evinin çoxlu zülmkarı olumdur,
Zöhhak ilə dad eylədi, Şəddad ilə yandı.

Qal əhli əgər yansa təəccüblü deyildir,
Gördüm elə hal əhlini fəryad ilə yandı.

Fərq etməyir ataş – nədi abad, nədi bərbad,
Kaşanə ki, abad idi bərbad ilə yandı.

Şahin, ciyərim yanmış idi bir neçə dəf’ə,
Biçarə ciyər indi də Bağdad ilə yandı.

27.06.2003

* * *

*Tamrida ilə görüşdüm…Yuxuda…*
*Məni çağırırdı…*

Gəl yanıma ləğv elə hicranımı
Mən sənə qurban eləyim canımı.

Gəldi qeybdən qulağa sözləri:
«Aldı əlimdən fələk imkanımı.

Yerdə əlac eyləmədin dərdimə,
Göydə gəlib lütf elə dərmanımı.

Qeyr ilə vardırmı vüsalın sənin?
Burda fərağın bürüyüb yanımı.

Bağiban oldunmu gülüstanıma?
Hifz edə bildinmi gülüstanımı?

Bir yolu vardır yanıma gəlməyin,
Tez tapacaqsan mənim ünvanımı.

Huri və qılman olarıq biz yenə,
Gəl ki, görüm sevgili qılmanımı.

Gəl, gələcəksən yanıma, Şahinim,
Gözləyirəm sən kimi sultanımı».

27.03.2004

* * *

Özün getdin, gözümdə cilvələndi surətin qaldı,
Sevincin rəngi qəmdən laləlləndi, həsrətin qaldı.

Gözüm rö'yanı tərk etdi, sözüm mə'nanı tərk etdi,
Ürək sevdanı tərk etdi, könüldə xiffətin qaldı.

Nəsib oldu mənə həsrət… Gümanım yox bitə xiffət,
Yetim arzu, yetim niyyət, çox arzu-niyyətin qaldı.

Gömülmüş yerdə ilqarım, görünməz bir də ilqarım,
Həzin xatirdə, dildarım, sənin qüdsiyyətin qaldı.

Vəfatından üç il keçdi, həyatımda üç il qarə,
Bu Şahin gərçi sağ qaldı, bilir Tanrı, çətin qaldı.

1.05.2004

* * *

Elə yaxşı tanıdım mən o qədər cananı,
Oluram mən mənə heyran olanın heyranı.

Eşqdən özxoşuma birkərəlik əl çəkdim,
Çünki qalxır göyə aşiq olanın əfğanı.

Eşq üzür cismi, çəkir əqli, edir divanə,
Düz deyildir ki deyirlər yaşadır insanı.

Hələ öz qiymətimi almamışam mən bədbəxt,
Nə qədər eyləmişəm vəsf Azərbaycanı.

Çoxalır bağda alağlar, sürünür gürzə kimi,
Necə olmuş, hara getmiş bu bağın bağbanı?

Ağqoyunlu Həsənin diqqətinə möhtacəm,
Neçə diqqətsizə qarşı edirəm üsyanı.

On üç ildə qələmim yazdı mənim üç «Divan»,
Şahina, varmı kəs indi yaza bir «Divan»ı?
16.09.2004

* * *

Gəlməyirsən, yad ilə mən işrət etsəm, yaxşımı?
Ah ilə, fəryad ilə ünsiyyət etsəm, yaxşımı?

«Heyrət, ey büt!..» söyləmiş şair babam heyrətlənib,
Heyrətim sən səmtədir ki, heyrət etsəm yaxşımı?

Fürsəti fövt etməyib ram eyləyir çox quşları,
Dərs alıb şahin quşundan fürsət etsəm, yaxşımı?

Diqqətim, Allah bilir ki, qonmayır diqqətsizə,
İndisə bir qeyri yarə diqqət etsəm, yaxşımı?

Mən ki cür'ətsiz deyildim, hey qucaqlardım səni,
Cür'ətim az-çox qalıbdır, cür'ət etsəm, yaxşımı?

Gülşən içrə az deyil gül, ey gülüm, mənsizləmiş…
Sənsizəm, mənsizləyənlə vəhdət etsəm, yaxşımı?

Şahinə lütf etməyirsən, ey müsəlman nazənin,
Mən cuhud bir nazəninlə ülfət etsəm, yaxşımı?

19.11.2006

* * *

Aşiqlər içində yenə biçarə tapıldı,
Köynək kimi, yarəb, ciyəri parə tapıldı.

Ey köhnə münəccim, nə baxırsan göyə mat-mat?
Söylə, orada Yer kimi səyyarə tapıldı?

Ağsaç deməsinlər mənə, aynayə baxanda
Min zülfün içində birisi qarə tapıldı.

Yox çarə daha, istəyirəm Həccə gedim ki,
Bəlkə belə bir çarəsizə çarə tapıldı.

Yarsızlığımın yarəsi…Söz yarəsi…Şahin,
Cismimdə mənim gör nə qədər yarə tapıldı.

11.01.2007

* * *

Misgər dedilər zərgərə, zərgər yaralandı,
Kəsmək dilədi boynumu xəncər yaralandı.

Vurma başıma qənbəri, vursan görəcəksən
Baş qaldı səlamət, yenə qənbər yaralandı.

Tarix boyu çox zillətə tab eylədi torpaq –
Çöl yandı, çəmən partladı, səngər yaralandı.

Olmuş elə qovğa ki, olub xar, uduzduq,
Zabit döyüşə bilmədi, əskər yaralandı.

Min zəhmətə qatlaşdı, xeyir görmədi bağban,
Bağbanı görüb qəmli, sənubər yaralandı.

İnsanları güldürmək ilə istədi gülsün,
Zar oldu fəqət, Mirzə Ələkbər yaralandı.

Yazdım bu zəif şe'rimi küskün qələmimlə,
Üsyan elədi Şahinə, dəftər yaralandı.

26.02.2007

* * *

Hiddətlə döyüşmək yerinə düşmənə qarşı
Əfsus ki, cəng etmədə «mən»lər mənə qarşı.

Bir cismə yığışmış nə üçün bir belə «mən»lər?
Sakin niyə tüğyan eləyir məskənə qarşı?

Bir «mən» səni təsdiq eləyir, bir çoxu inkar,
«Mən»lər məni, ey Eşq, çevirirlər sənə qarşı.

Cismimdəki «mən»lər niyə vahidləşə bilmir?
«Mən»lər nə üçün hərbə çıxır «əhsən»ə qarşı?

Şahin, neçə «mən» birləşibən bircə «Mən» olsun,
Yumruq kimi birlik yaradaq düşmənə qarşı.

17.03.2007

* * *

Yarım ki, yar oldu yaxşı-yaxşı,
Zarım kənar oldu yaxşı-yaxşı.

Şəksiz ki, yox oldu iztirabım,
Həzzimsə var oldu yaxşı-yaxşı.

Çox yaxşı ki, yaxşılıqla gəldi,
Yaxşı qərar oldu yaxşı-yaxşı.

Əlbət onu göndərən bu səmtə
Pərvərdigar oldu yaxşı-yaxşı.

Qış mövsümü bitdi qəlbim içrə,
Mövsüm bahar oldu yaxşı-yaxşı.

Dağ intizar idi xoş həvayə,
Bağ laləzar oldu yaxşı-yaxşı.

Göydən başıma ələndi ruzi,
Xoş ruzigar oldu yaxşı-yaxşı.

Eşq ovçusuna giriftar oldum,
Halım xumar oldu yaxşı-yaxşı.

Hər vəqt şikar edərdi Şahin,
İndi şikar oldu yaxşı-yaxşı.

4.06.2007

* * *

Eyvah, neçin küsdü o dilbər aralandı,
Döndüm təzədən ağuya, şəkkər aralandı.

Mən zabit idim sanki o əskər, elədim səhv,
Zabit elə davrandı ki, əskər aralandı.

Sevda zər idi biz iki zərgər, xətər oldu,
Zər çıxdı aradən iki zərgər aralandı.

Tərk eylədi təb'im məni, yoxdur daha şe'rim,
Göyçək bu qələmdən yenə dəftər aralandı.

Tər tökdü canım, eylədi Tərtər ona qibtə,
Şahin, bədənimdən nə qədər tər aralandı!..

3.08.2007

* * *

Verələr gər cahanı aşiqə canan əvəzi
İstəməz, çünki cahan olmayacaq can əvəzi.

Çünki canan elə candır, can isə canandır,
Alalar canı fəqət Azəribaycan əvəzi.

Bir nəfər var idi, yoxdur daha, itmiş gözdən,
Bir yarım var idi mən xəstəyə loğman əvəzi.

Tapmayıb çarə bu gün bəxtimə üsyan edirəm,
Bəxtimə bilməyirəm neyləyim üsyan əvəzi?

Zəqquma bənzədən olmuş acı hicranı əbəs,
Ola bilməz acı, zəqqum da bu hicran əvəzi.

Amma, Allah deyibdir mənə ki, səbr eləyim,
Mən gərək şükr eləyim Rəbbimə tüğyan əvəzi.

İndi bir damcı səbr istəyirəm Tanrımdan,
İndi bir qətrə kifayət mənə ümman əvəzi.

Bir kitab var ki, öyrənməliyəm hər və'də,
Hərfinin hər biri yaqut ilə mərcan əvəzi.

Hər kitab ilə fəxr eyləmə, Şahin Fazil,
Heç kitab olmayacaqdır bizə Qur'an əvəzi!

12.07.2002

* * *

Vardırsa da aləmdə əgər çox kərəm əhli,
Billah ki, yox mən sayağı dərdü qəm əhli.

İslampərəstəm və müsəlmanpərəstəm,
Birdir mənə türk əhli, ərəb, ya əcəm əhli.

Çaylar quruyursa, qurumur göz yaşı məndə,
Etdin məni, ey nəmli gözüm, indi nəm əhli.

Saf sözlərimə zülm eləmə, sən də təmiz yaz,
Şair, sənə qoy söyləməsinlər sitəm əhli.

Azər dilinin qədrini bilməkdə həmişə,
Yarəb, ola Şahin kimi hər bir qələm əhli!!!

12.11.2002

* * *

*Bu gün Bakıya bərk qar yağdı.*

Görüş üçün elə ki oldu nigarın meyli,
Canımı məst elədi sevgili yarın meyli.

Nə qərar oldu mübarək, nə qərar oldu gözəl!..
Bərqərar oldu ürəkdə bu qərarın meyli.

Yağmağa başladı qar amma dünəndən, yarəb,
Qorxuram mən çoxalar get-gedə qarın meyli.

Şairəm, şeyx olaram gəlməsə yarım yanıma,
Məni Sən'an eləyər nazlı Xumarın meyli.

Yar nübar olmasa hərgah bu qış fəsli mənə,
Edəcəkdir məni divanə nübarın meyli.

Getsə qış bir gecədə, olsa bahar, mümkünmü?
Çulğayıb könlümü şövq ilə baharın meyli.

Şahinəm, bəxt qıfıllanmayacaqdır, ey qar,
Səndə vardır qıfılın, məndə açarın meyli.

13.12.2002

* * *

*Yeni baharın gəlişi münasibətilə*

Getmişdi uçub, durna qatarım yenə gəldi,
Gül mövsümü başlandı, nübarım yenə gəldi.

Bağlanmış idi göz görə bəxtim keçən ildən,
Bəxtim açılıb, çünki açarım yenə gəldi.

Həm saqiyə, həm badəyə şövqüm çoxalırdı,
Ey saqi, gətir badə, xumarım yenə gəldi.

İlham pərisi, zənn eləyirdim daha gəlməz,
Yar oldu mənə, getmədi, yarım yenə gəldi.

«Bir güllə bahar oldu» demişdim, yenə olsun,
Gül tə’rifinə köhnə şüarım yenə gəldi.

Bir bağibanam mən ki, çoxalmaqdadı ruzim,
Varsız deyiləm, var idi varım, yenə gəldi.

Şahin, deyər idim ki, baharım daha gəlməz,
Ömrün qışıdır, amma baharım yenə gəldi.

18.03.2003

* * *

İtirib faydanı gördüm zərərin ləzzətini,
Daha tuti dada bilmir şəkərin ləzzətini.

Varı çoxdur, hələ yoxdur Xəzərin bir xeyri,
Qeyb edibdir daha zərgər də zərin ləzzətini.

Fərəhin ləzzətini çoxları çəkmiş amma
Yad edib yarımı çəkdim qəhərin ləzzətini.

Yaşamaq şəxsə hünərdirsə əgər qürbətdə,
On üç il dadmışam, ey dil, hünərin ləzzətini.

Razıyam çox ki, səyahətdə keçibdir ömrüm,
Oturan evdə nə bilsin səfərin ləzzətini.

Heyf olsun ki, səni duymadı əğyar, ey Eşq,
Necə bilsin o dəyərsiz dəyərin ləzzətini.

Kim ki, bilmir kədərin ləzzətini, ey Şahin,
Kədəri ver ona bilsin kədərin ləzzətini.

20.03.2003

* * *

*Ərdəbildən Bakıya təşrif gətirən Əsğər Şahi qardaşıma böyük eşq, sevgi və məhəbbətlə*

Eşq eyləməyə şəm'ə pərvanə gəlib Şahi,
Əncamı üçün meylin imkanə gəlib Şahi.

Yox şübhə ki var fərqi məstanə ilə məstin,
Saqi, ona mey vermə, məstanə gəlib Şahi.

Sən mehrü məhəbbətlə sevda eləsən – qaçmaz,
Zənn eyləmə sevdayə biganə gəlib Şahi.

Var şe'ri də – şairdir, var elmi də – mahirdir,
Əzm ilə, cəsarətlə meydanə gəlib Şahi.

Ülfətdəsə mərdlərlə, namərd ona neylər ki?
Mərd ölkəyə, ey mərdlər, mərdanə gəlib Şahi.

Əhdində səbat əhli, peymanı da göyçəkdir,
Mövlayi bu Adiltək peymanə gəlib Şahi.

Vardır yeri göz üstdə, gəlmiş Bakıya bir də,
Şahanə qədəmlərlə şahanə gəlib Şahi.

Peymanı sədaqətdir, loğmanı şəfəqqətdir,
Dərmanı məhəbbətdir, dərmanə gəlib Şahi.

Şahin, dəli bir başqa, divanəsə bir başqa,
Leyla gəzən aşiqtək divanə gəlib Şahi.

15.07.2003

* * *

*Şair və filosof dostum Ərdəbilli Adil Movlayi üçün kiçik bir şe’r töhfəsi, yaxud «Bərge-səbzist tohfeyi-dərviş», yəni «Dərviişin töhfəsi bir yarpaqdır»*

Tutub ox əldə şövq ilə çəkəndə yayi Movlayi
Şikar eylər budur qorxum ki, göydə ayi Movlayi.

Çəkibdir çiyni üstündə dəmadəm tay-tay yüklər,
Çəkir hazırda da sevda yükündən tayi Movlayi.

Gözəl kəslərlə ünsiyyət ona amil olub gerçək,
Gözəl birmi, gözəl beşmi?.. İtirmiş sayi Movlayi.

Əgər meyxanəyə gəlsən, meyi, lütf eylə, göstərmə,

Gətir nuş eyləsin, saqi, bizimlə çayi Movlayi.

Qənimətdir bizə hər söhbəti, var isə, canından
Deyin tərk eyləsin ahi, yox etsin vayi Movlayi.

Dili hər dəm vətən söylər, vətən söylər, vətən söylər,
Vətən təkdir, vətən vahid, deyil hərcayi Movlayi.

Bakını tərk edib bir gün gedəndə Ərdəbil səmtə
Dilim təkrar edər daim: «Hanı Movlayi, Movlayi?».
19.07.2003

* * *

Saxlasın Pərvərdigar əqlin bəlasından məni,
Etməsin bir dəm kənar eşqin ziyasından məni.

Ey məhəbbət göylərində parlayan bəxt ulduzum,
Sönmə, yan. Yan eylə dövranın qəzasından məni.

Ey günəşdən nur içənlər, nuri həqqin var ola!
Kimsə məhrum etməsin həqqin şüasından məni.

Qum sanı ondan məhəbbət, həm şəfa görmüş könül,
Saxlasın Rəbbim o dildarın cəfasından məni.

Əllərim göylərdə, hər dəm «qülhüvallah» oldu söz,
Kimsə təcrid etməsin Rəbbin duasından məni.

Şahina, mətlədəki[1] misranı təkrar eylədim:
Saxlasın Pərvərdigar əqlin bəlasından məni.

---

[1] Mətlə – qəzəlin ilk misrası, yaxud beyti.

23.07.2003

* * *

Cəhli görcək öylə çəkdi ah Əli,
Eylidi naqisləri islah Əli.

Yaxşı çəkdi zülfüqarı bədlərə,
Xoş əməldən xoşlanan xoşxah Əli.

Osman etdi, həm Əbubəkrü Ömər,
Dinə etdi həm də «bismillah» Əli.

Əhli-beytin hər biri bir möcüzə,
Hər biri bir dahidir, illah Əli.

Mustəfadən, Mürtəzadən ad çəkən
Gəh «Məhəmməd» söyləyibdir, gah «Əli».

Heç nə bilmir bilməyən Eşq elmini,
Oldu amma eşqdən agah Əli.

Şahini ey eyləyənlər şe'rə şah,
Şah Əlidir, şah Əlidir, şah Əli!

30.08.2003

* * *

*Şair dostum Adil Movlayinin Ərdəbildən Bakıya dönməsi münasibətilə*

Qədim İran diyarında keçirdi yayi, xoş gəldi,
Qədim Şirvanə şövq ilə yenə Movlayi xoş gəldi.

Apardı eşq elindən töhfətək saf eşqi, xoş getdi,
Gətirdi sevgi yurdundan məhəbbət payi, xoş gəldi.

Belə mə'lum olur ki, Ərdəbildə yaxşı dincəlmiş,
Yanağı dağ gülündən də olub çəhrayi, xoş gəldi.

Qübar itdi, bizim şairlərin qəlbi xumar oldu,
Dili şirin, sözü şəkkər, gözü xurmayi xoş gəldi.

«Cavan oğlan» deyirlər indi dilbərlər sənə, Adil,
Qoca vaxtı gələrkən sən deyərlər «dayi xoş gəldi».

Gözüm axtarmadaydı şairi daim, bilir Pərviz[1],
Görüş sayca azalmışdı, çoxaldıb sayi xoş gəldi.

Çox olsun get-gəlin, qardaş, təki sən gəl desin Şahin:
Qədim Şirvanə şövq ilə yenə Movlayi xoş gəldi!

17.09.2003

* * *

*Nizami Gəncəvinin məzarı önündə*

Gəncə ona şöhrət, ora şan oldu Nizami,
Fəxr eylədi millət ki, əyan oldu Nizami.

Zülmətdə işıq mənbəyi, zülmətdə nur oldu,
Zülmətdə yanıb şö'ləfəşan oldu Nizami.

Dünya evinin xəlqi Nizami tanımırdı,
Bir «Xəmsə» yazıb xəlqə əyan oldu Nizami.

---

[1] Bakıdakı İran Mədəniyyət Mərkəzinin məsul işçisi Pərviz Qasimi

Göz yumsa da şair cahana, amma qocalmır,
Tarix yaşa dolduqca cavan oldu Nizami.

Çox şair olub, qalmayıb aləmdə nişanı,
Şöhrət tacı üstündə nişan oldu Nizami.

İnsanda cahan olma xüsusiyyətləri varmış,
Şahin, bu cahan içrə cahan oldu Nizami.

30.09.2003
Gəncə

* * *

Əzməyə cəhd eləyibdirsə də çox pəncə məni,
Bilməyibdir özünə tabe edə, məncə, məni.

Qarışıbdır neçə illər boyu baş elmi işə,
Bilməyibdir özünə cəlb edə əyləncə məni.

Evimin küncü olubdur, neçə dəftər və qələm…
Sanki qaynaq elədi şe’rə həvəs küncə məni.

Kipriyimlə götürüb od neçə atəş gördüm,
Yanmadım cumsa da yandırmağa işkəncə məni.

Nə lətif yerdi bu Gəncə, nə gözəl Gəncəlilər!..
Burda gül cəzb eləyir hər gələni, qönçə məni.

Neçə gündür qocalıq sanki canımdan çıxmış,
Gəncə döndərmədə, Şahin, elə bil Gəncə məni.

2.10.2003
Gəncə

* * *

*Əsgər Şahi iki aylıq ayrılıqdan sonra yenə Ərdəbildən Bakıya təşrif gətirdi.*

Şah olmaq üçün şe'rə dövranə gəlib Şahi,
Şah olması mümkündür, imkanə gəlib Şahi.

Şahi gözə əvvəldən şahanə görünmüşdü,
Getmiş idi şahanə, şahanə gəlib Şahi.

Səhv eyləmə, ey saqi, mey şişəsini gizlət,
Meyxanəyə görmürsən məstanə gəlib Şahi?

Kim söylədi şairlər güllə ata bilməzlər?
Öldürməyə əğyarı mərdanə gəlib Şahi.

Biganə tərəf getməz, biganəyə meyl etməz,
Biganəyə, əlbəttə, biganə gəlib Şahi.

Yandırmağa mail kəs söndürməyə mailmi?
Yandırmaq üçün şəm'i pərvanə gəlib Şahi.

Şahi elə atəş ki, dərya onu söndürməz,
Bir öylə nəhəngdir ki, ümmanə gəlib Şahi.

Arifsə əgər çatsın, etməz ki, zərər, çatsın,
Leylayə xəbər çatsın divanə gəlib Şahi.

Şahiylə görüş üçün İranə səfər lazım,
Şahinlə görüşməkçin Şirvanə gəlib Şahi.

6.10.2003

* * *

*«Sən orda səfa eylə dilculər arasında,*
*Mənsə qalım avarə gürculər arasında»*
*Abbasqulu ağa Bakıxanov Qüdsi*

Şəm'tək ağlar bu Şahin, sən gülürsən gül kimi,
Sən – səfa etdin dəmadəm, mən fəğan bülbül kimi.

Oldu çöhrəm həsrətindən sapsarı sünbül sayaq,
Sənsə hördün zülfünü, ey sevdiyim, sünbül kimi.

Yox soyuqluq istilikdə, istilik möhtacıyam,
İstiyəm mən köz misalı, sən soyuqsan kül kimi.

Çox gözəl dağ görmüşəm, Şahdağdən yoxdur fəqət,
Ağ duvaqdır ağ duman, sanki çəkilmiş tül kimi.

Olsa gər yarın qəmi dağdan ağır, Şahin çəkər,
Mən çəkən gündən ağırlıq olmuşam yüngül kimi.
9.10.2003

* * *

Fəryadə salan aşiqi hicran deyilmi?
Olsun ciyəri qan, ciyərim qan deyilmi?

Təqdim eləmə ərzini xahiş kimi, canan,
Hər söylədiyin söz mənə fərman deyilmi?

Dərya kimi coşmaqdadı qəlbimdə məhəbbət,
Dərya deməsən aşiqə, nöqsan deyilmi?

Asilik edən varsa sənə sən də ol asi,

Asi olanın niyyəti üsyan deyilmi?

Sən tək məni yox, aləmi heyran eləyibsən,
Aləm sənə gündən-günə heyran deyilmi?

Yoldan çıxanı qoy yoluna, çıxma yolundan,
Yoldan çıxaran hər kəsi şeytan deyilmi?

«Can, can» deyirəm sevgili cananıma, Şahin,
«Can, can» dediyim Azəribaycan deyilmi?

10.10.2003

* * *

Eşqi başa düşmürdüm, Adəm mənə öyrətdi,
Dərs keçdi mənə Həvva, möhkəm mənə öyrətdi.

Bildim nə deməк Şirin, duydum nə demək Leyla,
Fərhad ilə Məcnuntək həmdəm mənə öyrətdi.

Aləmdə xəbərsizdim mə'nadakı surət nə,
Surətdəki mə'nanı aləm mənə öyrətdi.

Aşiqliyə müştaqəm, eşq aləminin sirrin
Ahim elədi təlqin, naləm mənə öyrətdi.

Aşiq çəkən ah imiş qalxan bacadan tüstü,
Şeh göz yaşıdır, ey eşq, şəbnəm mənə öyrətdi.

Rüstəm[1] mənə öyrətdi, müşküldü əruz vəzni,
Mübhəmdi əruz elmi, Rüstəm mənə öyrətdi.

---

[1] Görkəmli şərqşünas – alim prof. Rüstəm Əliyev.

Dərd ilə qəmin həzzi xoşdur mənə, ey Şahin,
Dərdim mənə həzz verdi, həzz qəm mənə öyrətdi.
8.11.2003

* * *

Əlimi sıxsa da illər boyu mərdanə əli,
Mənə daş atmada hərdən neçə divanə əli.

Bilmirəm onlara mən neyləmişəm, neyləmişəm,
Niyə döyməkdə mənim cismimi biganə əli?

Məni, əlbəttə, cəsarətlə xilas eylərdi
Gələ bilsəydi bu əsnadə bu meydanə Əli.

Əli hər və'də açıqdır ölümün, yar öldü,
Onu bir yanə atıbdır, məni bir yanə – əli.

Şairin kaş əli sınsın ki, tutub saxlamadı,
Aparıb atdı nigarı məzarıstanə əli.

Gözlərim gəzməkdədir gözlərini dildarın,
Evimi eylədi bir gör necə viranə – əli.

İki ildən yarım il çoxdu ki, mən bədbəxtin
Dəyməyibdir əlinə sevgili cananə əli.

Arabir Şahini gördüm ki, bıçaqdan yapışır,
Günlərin bir günü batmaqmı dilər qanə əli?
27.11.2003

* * *

Öyrədənlər bizə qəm, qüssə, qubar öyrətdi,
Sənə mən bilməyirəm kim, mənə yar öyrətdi.

Söyləsəm eşqə elm, eyləmərəm məncə qələt,
Mənə eşq elmini səbr ilə nigar öyrətdi.

Bitdi yalqızlığımız, başladı sevda oyunu,
Açdı nərdtaxtanı, zər verdi, qumar öyrətdi.

Təb'imi mən ki, təbiətdən alan insanəm,
Sanıram şairə ilhamı bahar öyrətdi.

Mənə sərv eylədi yüksəlməyi təlqin hər dəm,
Mənə möhkəmliyi yüz yaşlı çinar öyrətdi.

Bizə güllərmi, çiçəklərmi zəriflik rəmzi?
Üzüağ olmağı insanlara qar öyrətdi.

Elə şairlərimiz var ki, şe'r yazmaqda,
Elə şair dəxi vardır ki, şüar öyrətdi.

Mən muğamatımı ustad bilən şagirdəm,
«Rast»ı sevdirdi mənə, «Şur»ü «Qatar» öyrətdi.

Üzə gülmür daha aləm, məni tənha qoydun,
Taleyi şairə cövr etdi, qübar öyrətdi.

Sən məzar içrə bu gün, Şahin isə zar içrə,
Ona zar olmağı, ey yar, məzar öyrətdi.

27.12.2003

* * *

Faidəm yoxdu bu dünyadə zərərdən qeyri,
Aşina görməyirəm qəlbə kədərdən qeyri.

Görəsən göydəki boşqabda gələnlər kimdir?
Bəşərin düşməni vardırmı bəşərdən qeyri?

Bağiban, əllərinə baltanı al yıx çəpəri,
Bu bağın hər yanı əlvandı çəpərdən qeyri.

Halımız xeyli pərişansa da, fikr eyləyirəm
Ki, nələr verməliyik xəlqə nələrdən qeyri.

Görmürəm yerdə işıq Eşq işığından başqa,
Göydə ulduzlar ilə gün və qəmərdən qeyri.

Səpirik torpağa göz yaşlarını yağmur tək,
Əlimizdən nə gəlir indi qəhərdən qeyri.

Qələmi süngüyə göndərməliyik, şe'ri oda,
Hamıda olmalı xəncər südəmərdən qeyri.

Qarabağ müşkilinin həlli fəqət hərb ilədir,
Şahina, varmı məgər çarə zəfərdən qeyri?

28.04.2004

* * *

Kim ki, qapına gəldi, fəğan eylədi – getdi,
Yaxşı günü, ey saqi, yaman eylədi – getdi.

Meyxanəyə gəlməzdən əzəl dincliyi vardı,

Aram idi, qəlbi nigəran eylədi – getdi.

Meyxanəçini mollaya bənzətdi içib mey,
Məscidisə meyxanə güman eylədi – getdi.

Evdə özünün sevgili cananəsi varkən
Sevdasını saqiyə bəyan eylədi – getdi.

Qan rəngi təki qırmızı meydən eləyib nuş
Qaldırdı neçə mə’rəkə, qan eylədi – getdi.

Bir yol dəxi meyxanəyə düşməz yolu bir də,
Yox xeyri, bu Şahin də ziyan eylədi – getdi.
14.05.2004

* * *

Yarım gözünü yumdu, fəğan oldu, İlahi,
Yaxşı günümüz gör nə yaman oldu, İlahi.

Şe’rimdə əyan idi ürək şənliyi, indi
Qəlbin qəmi şe’rimdə bəyan oldu, İlahi.

Dərdim yaxamı cırdı və köksüm qana batdı,
Qüssəm, kədərim şö’ləfəşan oldu, İlahi.

Asudəliyim var idi, rahət yaşayırdım,
Asudə bu aşiq nigəran oldu, İlahi.

Təşvişə bir hacət yox idi yar ilə, indi
Hər ləhzə həyatım həyəcan oldu, İlahi.

Qoy güllələsinlər məni, bədbəxtliyimizdən

Xoşbəxtliyimiz gülləbaran oldu, İlahi.

Qum boyda belə yoxdu əzab Şahinə, amma
Yar itkisi dağ boyda ziyan oldu, İlahi.

4.06.2004

* * *

Busəndi, - dedim, - dərdimə dərman, nə dedim ki?
Küsdünmü sözümdən yenə, canan, nə dedim ki?

Gəl, gəl ki, səni yandırım eşqin şamı ilə,
Pərvanəlik eylə mənə hər an, nə dedim ki?

Qurbanlığa qoç olsa da, hərçənd münasib,
Olmaq dilərəm mən sənə qurban, nə dedim ki?

Həvvalıq elə Adəmə, Həvva, havalandım,
Çıx qönçədən, ol gün kimi üryan, nə dedim ki?

Tuti kimi şəkkər sevənəm, şirnini göstər,
Ey sevdiciyim, ol şəkəristan, nə dedim ki?

Əllər də, dodaqlar da, qucaqlar da qovuşsun,
Birlik gərək olsun, a müsəlman, nə dedim ki?

Hicrinlə bayılsam da, vüsalınla ayıllam,
İmdad elə, oldun mənə loğman, nə dedim ki?

Bir dəm də ürəkdən gedə bilməz daha eşqin,
Aşiq sənə dəmdən-dəmə heyran, nə dedim ki?

Küsdürsən əgər Şahini, vəslinlə barışdır,

Küsdünmü sözümdən yenə, canan, nə dedim ki?
10.08.2004

* * *

Bizi tərk eyləyər bir gün kədər vallahi-billahi,
Parıldar al üfüqlərdən səhər vallahi-billahi.

- Bəla ver düşmənə, yarəb, - deyib qeyz ilə qışqırram
Edərsəm Kərbəla səmtə səfər vallahi-billahi.

Bu əsrə islamın əsri deyirlər, öylə gər olsa,
Acıqdan cümlə kəfərlər ölər vallahi-billahi.

Xəyalə düşməsin düşmən ki, haqsızlıq qalar pünhan,
Edir Allahımız daim nəzər vallahi-billahi.

Ulu əcdadımız çox-çox hünərpərvərlik etmişdir,
Bizə həm yar olar bir gün hünər vallahi-billahi.

Mənim qəmgin sözümdən bir zaman əsla əsər qalmaz,
Mənim ağlar gözüm bir gün gülər vallahi-billahi.

Dikilmişdir müdam ümmid gözüm Allahə, ey Şahin,
O torpaqlar ki getmişdir, gələr vallahi-billahi.
13.10.2004

* * *

Gətirən yoxdu bu aləmdə neçin halə məni?
Gözəlim, öldürəcəkdir deyəsən nalə məni.

Fikrimi cəlb eləmir bağda nə nərgiz, nə süsən,
Nə də dilləndirə bilmir lal olan lalə məni.

Gah kədər cummadadır üstümə, gah dərdü bəla,
Kim salıbdır görəsən bir belə cəncalə məni?

Görürəm ki, günü-gündən pozulur əhvalım,
Mübtəla kim eləyibdir belə əhvalə məni?

Qiylü qal istəmirəm, amma rəzalət çoxdur,
Dəli könlüm salacaq əvvəl-axır qalə məni.

Sürünür səmtimə hicrin ayağı gürzə kimi,
Qorxuram mən ki, o gürzə yetişib çalə məni.

Yetirin Kə'bəyə yox, Şahini yalnız Qubaya,
Yetirin, - istəmirəm Zəmzəmi, - Qudyalə məni.

6.11.2004

* * *

Görsənməli idi, niyə dildar gecikdi?
Vardırsa səbəb gər, nə səbəb var, gecikdi.

Məğrur adamam, amma ki, xahiş eləmişdim,
Etmişdi dilim şövq ilə israr, gecikdi.

Hər dəm onu andıqca təbəssümlənər idim,
Ağlatdı mənim qəlbimi zar-zar, gecikdi.

Hərçənd əlim tellərini oxşayacaqdı…
Hərçənd dilim sevgi pıçıldar, gecikdi.

Könlüm ki sınıq idi, gəlib etmədi tə’mir,
Xahişlərimi eylədi inkar, gecikdi.

Tə’kid eləsəydim neçə me’mar gələrdi,
Əlbəttə, sevindim ki, o me’mar gecikdi.

Eşq eyləmək istər qoca Şahin ramazanda,
Şadəm ki, günah etmədi, ol yar gecikdi.

9.11.2004

* * *

Məhəbbət rəsmini insanlara əfsanə göstərdi,
Cəsarət əzmini eşq əhlinə pərvanə göstərdi.

Hər övladın məqamı möhtərəmdir! Varmıdır şübhə?
Əcəb şövqüm qanadlandı, məni imkanə göstərdi.

Qız övladındakı mehri mənə Ülviyyə bildirdi,
Qız övladındakı sehri mənə Şahanə göstərdi.

Sual etdim: - Hanı məscidə yol? – Dilləndi ustadım:
- Yeri, düzgün yolu ariflərə meyxanə göstərdi.

İlahi, Leylimi gördüm, əlində güzgü tutmuşdu,
Həmin güzgü məni Məcnun kimi divanə göstərdi.

Vüsal aləmdə vardırmı? Fələk inkar edib coşdu,
Vüsalı daşqalaq etdi, onu hicranə göstərdi.

Yuxumda Şəhriyarə təqdim etdim şe’rimi, Şahin,
Ona mən dürr göstərdim, osa dürdanə göstərdi.

29.01.2005

* * *

Cam sındı və Cəm də keçdi – getdi,
Qeys ilə Kərəm də keçdi – getdi.

Leyla hanı, harda qaldı Şirin?
Minlərlə sənəm də keçdi - getdi.

Var idi nənəm Sona adında,
Göyçək o nənəm də keçdi – getdi.

Amma demərəm ürəkdə niskil,
Gözlərdəki nəm də keçdi – getdi.

Aşiq eləyərmi heç təsəvvür
Köks içrə ələm də keçdi – getdi.

Sərvət əbədi qalan deyildir,
Dinarü dirəm də keçdi – getdi.

Şahin, geri qalma, eylə təkrar:
Qeys ilə Kərəm də keçdi – getdi.

21.08.2005

* * *

*Dostum Adil Əlizadəyə*

Ramazan gəldi, nə xoş gəldi, orucluq gəldi,
Fərəhim göylərə yüksəldi, orucluq gəldi.

Söndürən yanğısını nəş'ədi dindarımızın,
Yandıran dinsizi məş'əldi, orucluq gəldi.

On bir ay idi mənim halıma dinclik yoxdu,
Halətim gör necə dincəldi, orucluq gəldi.

İldə bir ay nə mühüm fərzə biz olduq tabe,
İntizamım nə mükəmməldi, orucluq gəldi.

Həzzi rədd etməliyik olsa əgər cismani,
Ədəbə, ərkana «gəl-gəl»di, orucluq gəldi.

Saqiyə baxma, meyə etmə nəzər pünhani,
Saqi əngəldi, mey əngəldi, orucluq gəldi.

Sülh elə, nəfsinə qul olma, günahdan həzər et,
Təfsili gör nə müfəssəldi, orucluq gəldi.

Şahina, bir də salamla ramazan günlərini:
Ramazan gəldi, nə xoş gəldi, orucluq gəldi.
13.10.2005

* * *

Elə ki gəldi şirin vəsl, acı hicran getdi,
Nə şirin dəmdi bu, yarəb, acı hər an getdi.

Sanki vermişdi bizə kimsə hicr fərmanı,
Kim veribmişsə əgər fərman, o fərman getdi.

Asi idim qara bəxtim sarıdan, dinc oldum,
Nə qiyam qaldı canımda, nə də üsyan, getdi.

Eşqə meylim də olub daima imkanım da,
Deməyin var idi imkanı o imkan getdi.

Yaşımın çoxluğu hərçənd onu çaşdırmışdı,
Məni təsdiq edib aşiqlərə sultan, getdi.

Qəmgin idin bizə gəldikdə, səni seyr eləyən
Görəcək ki, o pərişan necə heyran getdi.

Şahinin qədrini bil, ah edəcəksən yoxsa,
Deyəcəksən ki, əlimdən o qəzəlxan getdi.

29.032006

* * *

Aranı, mən demirəm ki, yenə hicran kəsdi,
İşdi – şayəd, - deyirəm, - bəlkə də imkan kəsdi.

Deyirəm yoxsa o imkanımı Allah aldı?
Deyirəm bəlkə cismdən tükənən can kəsdi?

Düşünürdüm belə mən, amma göründün təzədən,
Ürəyinlə ürəyim əhd ilə peyman kəsdi.

Səbrimi gərçi kəsərdi həmişə cananım,
Dözmədim, səbrimi, əlbət, yenə canan kəsdi.

Aranı bir də soyuq eyləməyək, gəl tez-tez,
Ola bilsin aranı bir daha şeytan kəsdi.

Nə təhər bənd eləmişdin məni, bənd et yenə də,
Canımı süst eləyən bir kərə tufan, kəsdi.

İmkanı olmasa qurbanlıq ala, öz başını
Bir də gördün sənə Şahin özü qurban kəsdi.

23.07.2006

* * *

Öyrədilmişsə də az-çox o namaz məs’ələsi,
Bəllidir aşiqə eşqin hələ az məs’ələsi.

Qışıdır ömrümün, eyvah, yaz əlimdən çıxdı,
Yenidən qismət olarmı mənə yaz məs’ələsi?

Oxuya bilməyirəm mən daha əvvəlki təki,
Qocalıqda məni xar etdi boğaz məs’ələsi.

Sevgi ümmanı dərin olsa da gər, üzməliyəm,
Qane etmir məni heç yerdə dayaz məs’ələsi.

Birləşərdi iki yar timsalı Azərbaycan,
Olmasaydı arada gərçi Araz məs’ələsi.

Şövqünü artırıban nazını sən az elə ki,
Çox alır vaxtımızı, ey pəri, naz məs’ələsi.

Mən namaz qılmamışam ömr uzunu, Allahım,
Fikrimi cəlb eləyir indi namaz məs’ələsi.

Huri ver Şahinə cənnətdə fəqət, qılman yox,
Yaraşarmı mənə Mahmudü Ayaz məsələsi?

28.10.2006

* * *

Arazın bir tərəfində vətənin bir tərəfi,
Gülşənin bir yanı orda, çəmənin bir tərəfi.

Bir ləyən göz yaşı yığdım yumaq üçün kədəri,
Sürüşb çıxdı əlimdən ləyənin bir tərəfi.

Nə həşirdir, düzəni fəth eləyibdir Məcnun,
Nə olar, qoy mənə qalsın düzənin bir tərəfi.

O gözəl düşdü bağa, odlanacaqdır lalə,
Həsədindən yanacaqdır süsənin bir tərəfi.

Niyə sıxdın döşünə nərgizi, qısqandım mən,
Qurudu sanki, əzizim, bədənin bir tərəfi.

Qismət olmur hamıya, şad olaram, ey Şahin,
Mənə qismət ola bilsə kəfənin bir tərəfi.

9.01.2007

* * *

Məclisdə nigar olmasa, cam olsa nə xeyri?
Mey məclisi işrətlə tamam olsa, nə xeyri?

Yarım ki yoxumdur, bu məqamım nəyə lazım?
Onsuz mənə ən ali məqam olsa, nə xeyri?

Mahmuda Ayaz lazım idi tapdı Ayazı,
Ondan da hərarətli qulam olsa, nə xeyri?

Sağkən sənə eşq əhli salam etməyəcəksə,
Ölcək, adına gündə salam olsa, nə xeyri?

Cənnət diləyirsənsə, halal işlərə qurşan,
Etdiklərin, ey şeyx, haram olsa, nə xeyri?

Şe'rin dili xəlqin dili olsun gərək, ey dil.
Şe'r içrə qəliz cümlə, kəlam olsa, nə xeyri?

Şahin, hacı ol, Həqqə dua eylə, namaz qıl,
Hər gün yenə işrətlə tamam olsa, nə xeyri?

6.03.2007

* * *

Məni, ey qəlb, nə tənə, nə silah öldürəcək,
O qədər çəkmədəyəm ah ki, ah öldürəcək.

Çox günah eyləmişəm mən, biri – ifrat sevgi!..
Məni öldürsə əgər bir bu günah öldürəcək.

Bəndəlik eyləmişəm yarıma səhv eyləmədən,
Bəndənin varsa qüsuru onu şah öldürəcək.

O, dünən yarələdi cismimi, qan tökdü bu gün,
Belə mə'lum elədim mən ki, sabah öldürəcək.

Bilirəm, qeyri gözəllər kimi yoxdur rəhmi,
Etməyib Şahinə imdadü pənah öldürəcək.

4.07.2002

* * *

*Me'mar bir mələyə!*

Ey məlahətli, mətanətli mələk,
Ey ləyaqətli, lətafətli mələk,

Söyləyirlər ki mələk görsənməz,

Görməyib kimsə səxavətli mələk.

Olmasa eşq evinin me'marı
Ola bilməz ki fərasətli mələk.

Sən məhəbbətdə siyasət gəzmə,
Mələyim, olma siyasətli mələk.

Ver şəfa eşqə düşən aşiqinə,
Olasan bəlkə şəfaətli mələk.

Hər mələk göydə məhəbbətli olur,
Olmadın yerdə məhəbbətli mələk.

Sərvətin qoy sənin eşq olsun ki,
Olasan mən kimi sərvətli, mələk.

Qoy tovuz quşlarını heyrətdə,
Heyrət ol heyrətə, heyrətli mələk.

Yerə şahin kimi düş göylərdən,
Məgər olmurmu cəsarətli mələk?

13.11.2003

* * *

Pakizə olsun deyə yarım kimi gülşən, gərək
Bağibanlıq eyləyim yar bağına hərdən gərək.

Dağ seyri dağdən qorxan kəsə qəm bəxş edər,
Dağ başında gər duman olmazsa, olsun çən gərək.

Eşqdə hər aşiqin üstünlüyü çox yaxşıdır,

Üstün olmazsa əgər kimsə, qoy olsun tən gərək.

Gərçi cənnət və’d edənlər var bu dünyadə, fəqət
Aşiqə cənnətdə olsun daimi məskən gərək.

Nərdivanla birbaşa yetmək ona mümkün deyil,
Pillə-pillə Allahın yanına qalxım gərək.

Barəkallah, Şahina, «əhsən» yağıştək yağmada,
Öylə işlər gör ki, yağsın daima «əhsən» gərək.
25.10.2005

* * *

Diqqətlə baxıb gör var xülyadə dəyişkənlik!
Dəymirmi gözə hətta rö’yadə dəyişkənlik?

Bülbüllə gül eşqindən yazmaq daha bezdirdi,
Şair, gözə dəymirmi dünyadə dəyişkənlik?

Məcnun da dəyişmişdir, Vamiq də, ey aşiqlər,
Leyladə dəyişkənlik, Əzradə dəyişkənlik!

Surət yeni surətdir, mə’na təzə mə’nadır,
Surətdə dəyişkənlik! Mə’nadə dəyişkənlik!

Qum danələri hətta bir yerdə dayanmırsa,
Dərviş, gözə dəymirmi səhradə dəyişkənlik?

İcad olunubdursa yüzlərlə silah, indi
Var qolda dəyişkənlik, qovğadə dəyişkənlik.

Hər ləhzə dəyiş, amma sevdadə dəyişməz qal,

Şahin, eləmək olmaz sevdadə dəyişkənlik.
18.05.2006

* * *

Ey dil, mənə vacibdir dildar ilə dil tapmaq,
Sevdalı, sədaqətli bir yar ilə dil tapmaq.

Mən həm bilirəm çox dil dilbər də bilir, bə'zən
Həmkarə nəsib olmur həmkar ilə dil tapmaq.

Qəm qəlbimi üzməkdə, qəmxar isə görsənmir,
Eyvah, məhal işdir qəmxar ilə dil tapmaq.

Hər yanı dağılmaqda, virandı könül mülküm,
Vacib mənə tezliklə me'mar ilə dil tapmaq!

Kim həndəsə bilməzsə mümkünmü mühəndislik?
Ey çevrə, nə müşkülmüş pərgar ilə dil tapmaq!

Aşiqlərə, ey Məcnun, sərdar özümü bildim,
Hər fərdə şərafətdir sərdar ilə dil tapmaq.

Dildar ilə dil tapmaq asan deyil, Şahin,
Asan deyil, Şahin, dildar ilə dil tapmaq!!!
4.10.2003

* * *

Bürüyübdür elə mən xəstəni yorğanə soyuq,
Elə bil getməyəcək bir daha heç yanə soyuq.

Günlərin bir günü qüsl etməyimin vaxtı idi,

Bir soyuq gündü, nüfuz eylər idi qanə soyuq.

Elə dəydim yerə zərb ilə qabırğam sındı,
İsti hammamda sirayət elədi canə soyuq.

Fikrimi gündə çəkir isti-soyuq məsələsi,
İsti olmazsa əziyyət verər insanə soyuq.

İşdi-şayəd bürüsə hər kəsi Şahdağ soyuğu,
Ola bilməz mənə Ülviyyə və Şahanə soyuq.

Molla olmazsa donar göz görə məsciddəkilər,
Saqi olmazsa olar, bəlli ki, meyxanə soyuq.

Qeysi eylərdi sətəlcəm, buna şəkk yoxdur ki,
Yaradan versə idi isti biyabanə soyuq.

Bu müsəlman nə üçün isti deyil bir-birinə?
Yoluxubdur niyə sür'ətlə müsəlmanə soyuq?

Şahina, Tanrıya şükr eylə ki, istərsə əgər
Sibirə göndərər isti, Ərəbistanə soyuq.

23.02.2004
Qabırğamın sınmasının
16-cı günü

* * *

*«Say» qəzetinin redaktoru Hacı Rafiq Şirvaniyə ithaf*

Çoxdursa yaman, yaxşı adamdır Hacı Rafiq,
Pərvanələrin eşqinə şamdır Hacı Rafiq.

«Şirvani» təxəllüslü bir insandı vəfalı,
Əlbəttə, inandım ki, inamdır Hacı Rafiq.

Sahmanı, nizam-intizamı yerli-yerində,
Sahmandı təmamən və nizamdır Hacı Rafiq.

Fərhad deyildirsə də, me'marlığı vardır,
Divanə deyil, ibni-Salamdır Hacı Rafiq.

Xudbinlik edən şəxsə hücum etmədə şahdır,
Kim sadəlik eylərsə qulamdır Hacı Rafiq.

Çay ver ki sənin yanına gəlsin, meyi gizlət,
Ey saqi, güman etmə ki, xamdır Hacı Rafiq.

Saymış ki sayırlar, sayılır ki sayılandır,
Çox naşirə baş püxtə adamdır Hacı Rafiq.

Söz yox ki, yarımçıq görünən xeyli yazar var,
Şahin, buna yox şübhə ki tamdır Hacı Rafiq!

15.04.2004

* * *

*Bu şe'r Urmiyə şəhərində başlandı,*
*Bakıda tamamlandı*

Getsə vəslin dəmi, ey yar, fəğan başlayacaq,
Gəlsə hicrin nəmi, ah-zar yaman başlayacaq.

Ürəyimdən gözümə dolmada qəm qətrələri,
İndi gözdən üzümə axmağa qan başlayacaq.

Eybi yoxdur, əvəzində Bakımın vəsli gözəl!

Mənə qüdrət, mənə şöhrət, mənə şan başlayacaq.

Olacaqdırmı görüşlər yenə, ya olmayacaq?
Bəli, bundan belə fərziyyə, güman başlayacaq.

Urmiyə ilə vüsalım mənə ilham verdi,
Neçə gün Urmiyə haqqında bəyan başlayacaq.

Qələmim eyləyəcək hüsnünü tə'rif neçə gün,
Neçə gün sonrasa hicran, həyəcan baaşlayacaq.

Bakı da, Urmiyə də fəxridi Odlar elinin,
Şahina, birliyimiz bir də haçan başlayacaq?
Urmiyə – Bakı,
26 may – 6 iyun, 2005

* * *

Elə bir gün gələcəkdirmi kədər qalmayacaq?
Əldə ox, beldə qılınc, dildə zəhər qalmayacaq?

Hələ də bağda çəpər, dağda çəpər mövcuddur,
Görəcəkdirmi bunu xəlq çəpər qalmayacaq?

Göl var idi Aral adlı, adı qalmış təkcə,
Ola bilsin ki, sabah mavi Xəzər qalmayacaq.

Su kəsifdir, hava çirkdir, bu təhər ötsə əgər,
Qorxuram mən ki, ağaclarda bəhər qalmayacaq.

Neçə mə'mur neçə ildir ki, haram faydalanır,
Faidə onda olar var ki, zərər qalmayacaq.

Günbəgün qüvvəm azalmaqdadı cəng artdıqca,
Bu təhər etsə davam məndə təpər qalmayacaq.

Yaxşı gündür hələ, yazmış əsər ardınca əsər,
Gələcək gün dəxi Şahindən əsər qalmayacaq.
23.09.2006

* * *

*«Söz deyil» rədifli qəzəlin müəllifi Munisə xitabən söz*

Bildirirsən meylini sözlə, xətadır, söz deyil,
Sən şəfa zənn etdiyin çox söz cəzadır, söz deyil.

Sözlərin guya duadır söylədin, şəkk eylədim,
Gər duadan bir səmər yoxsa, riyadır, söz deyil.

Təsiri çoxdur sözün həssas olan aşiqlərə,
Artırırsa gər bəla bir söz, bəladır, söz deyil.

Söz çıxarsa zülmkardan dərd gələr dərd üstünə,
Gər sözü loğman desə, dərdə dəvadır, söz deyil.

Mən sənə çox söz dedim, amma neçin kar etmədi?
Söz ki, təsir etməyir, boş bir sədadır, söz deyil.

Bir sözümlə həll olur çox istəyim, çünki sözüm
Həzrəti – Musa əsası tək əsadır, söz deyil.

Öylə söz vardır eşitcək göz yaşı cari olur,
Söz də var ki, gözlərə nurdur, ziyadır, söz deyil.

Mən bu gün tənqidimi, söz yox ki, ifrat eylədim,
Adəmin hərdən kəlamı iftiradır, söz deyil.

Şahinin, əfv et, yalanmış sözləri bə'zən, gülüm,
Sözlərin mirvaridən, dürdən bəhadır, söz deyil.

2.07.2004

* * *

*Şərqşünas dostum Tofiq Cahangirə!*

Şah olan bir yerdə fərman eyləmək mümkün deyil,
Mümkünat olmazsa, imkan eyləmək mümkün deyil.

Yusifi-Sərrac dövrü arxada qalmış daha,
Hər gədanı xəlqə sultan eyləmək mümkün deyil.

«Mən də Məcnunəm» deyib əfğan edən bilsin bunu:
Qeys olan bir yerdə əfğan eyləmək mümkün deyil.

Ey Nəsimi, söyləmə «Həqq məndədir, Həqq söylərəm»,
Neyləyirsən? Həqqə üsyan eyləmək mümkün deyil!

Səbr ilə, tədric ilə islamı təbliğ etməli!
Kafəri asan müsəlman eyləmək mümkün deyil.

Kim desə «əcdadımız meymun olub», eylər qələt,
Meymunu, billah, insan eyləmək mümkün deyil.

Eşq dərdindən xilas etmək əbəsdir Şahini,
Köhnələn bir dərdə dərman eyləmək mümkün deyil.

14.12.2006

* * *

Ey atəş yurdum, od yurdum, alov yurdum, ocaq yurdum,
İşıq yurdum mənim, ey çilçıraq yurdum, çıraq yurdum.

Sən əslimsən və nəslimsən və vəslimsən əzəl gündən,
Əsl yurdum, nəsl yurdum, vəsl yurdum, fəraq yurdum.

Neçin Şah İsmayıl dövründəki vüsət görünməzdir?
Neçin səndən kənar olmuş əzəlki təmtəraq, yurdum?

İzim çox yerdə qalmışdır, gözüm çox yurdu görmüşdür,
Mənə yardım sən olmuşsan, sən olmuşsan dayaq, yurdum.

Mənə baldan da şirindir şoranlıq torpağım hətta,
Mənim gülzarü bağ yurdum, mənim ormanü dağ yurdum.

Üzərrik yandırım tay-tay gərək göz dəyməsin hüsnə,
Yaman gözlər uzaq olsun, yaman dillər iraq, yurdum.

Əgər şahin təkin gərsəm qanad, arzum müyəssərdir,
Mənim Təbriz, Şuşa yurdum, yaxın yurdum, uzaq yurdum.
21.07.2002

* * *

*Tamridaya!*

Məni tək qoymamısan heç də, qəmim var mənim,
Mənə yalqız demək olmaz, ələmim var mənim.

Üzüb hicran dənizində sürürəm dərd gəmisi,
Gəmiçi olmuşam, ey yar, gəmim var mənim.

Şənliyim qeybə çəkilmişsə də, tənha deyiləm,
Ayrılıqdan gecə-gündüz sitəmim var mənim.

Zati-aliləri vardır sinəmin nalə kimi,
Qüssətək mö'təbərim, möhtərəmim var mənim.

Məni Fərhad ilə Sən'an yoluxurlar tez-tez,
Ölməyiblər, neçə Qeysim, Kərəmim var mənim.

Ruhini görmədəyəm pərvaz edir göylərdə,
Görürəm hər tərəfi, Cami-Cəmim var mənim.

Görünürsən gözümə sən elə aydın, amma
Bəbəyimdə, nəzərə al ki, nəmim var mənim.

Rahət ol, bil ki, daha qəlbimə dilbər girməz,
Orda Tamrida adında hərəmim var mənim.

İki matəm kitabı yazdı qələm hicrindən,
Yazaram mən yenə, min bir qələmim var mənim.

Şahinəm, eşqdə, yarım, yenə sabitqədəməm,
Ülvi sabitlik içində qədəmim var mənim.

3.01.2003

* * *

Yaşadım ki, yaşamaq ləzzətini bəlkə görüm,
Fələyin şəkkərini, şərbətini bəlkə görüm.

Zövqünü şövq ilə zövq əhli kimi hiss eləyim,
Saf məhəbbət təki bir ne'mətini bəlkə görüm.

Olmuşam şahidi illərlə unutqanlığının,
Xəlqimin yağılara lə'nətini bəlkə görüm.

Yurduma daima «Od Yurdu» deyirlər, odunu,
Şanını, şöhrətini, şövkətini bəlkə görüm.

Qarabağ mülkünü düşmənlərə tərk eyləmişik,
Elimin, millətimin qeyrətini bəlkə görüm.

Gözüm, ey yar, nə müddətdi işıqdan düşmüş,
Gəl yetiş dadə ki, gül surətini bəlkə görüm.

Görmədim mən dirilər hörmətini, ey Şahin,
Ölürəm ki, ölülər hörmətini bəlkə görüm.

17.03.2003

* * *

*«Məcməüş-şüəra»nın bir mühafizəkar üzvünə*

Üstümə tullama daş, dava-dalaş istəmədim,
Ürəyim gül yağışı istədi, daş istəmədim.

Bilir Allah-təala ki, xeyrxahəm mən,
Qəlbə qəm, çöhrəyə matəm, gözə yaş istəmədim.

Sən qəliz şe'rini təqdim eləmə, ey cahil,
Qəlbi salma təlaşa, mən ki təlaş istəmədim.

Bil ki, «Məcməş-şüəra» məclisi sultan yeridir,
Bu gözəl məclisə mən qul-qaravaş istəmədim.

Deyibən «sadə yazaq» mən nə günah eyləmişəm?

Mən sizinlə, bilin, heç vədə savaş istəmədim.

Bəli, baş şairi olmaq dilədim dövranın,
Varmı şair ki deyə «olmağı baş istəmədim?».

Addımım şe'r yolunda olacaq sürətli,
Şahin, addımlamağı çünki yavaş istəmədim.
6.04.2003

* * *

Etdin elə ki aşiqi inkar, yıxıldım,
Sən durdun üzə, mən isə, ey yar, yıxıldım.

Mən yıxmağı hərçənd ki, çox yaxşı bilirdim,
Yıxdın məni amma, elədin zar, yıxıldım.

Saf eşqimi aşiq kimi təqdim eləmişdim,
Sən təsdiqimi eylədin inkar, yıxıldım.

Gücsüz deyiləm, bilmədə aləm bunu, məndə
Hərçənd ki, qüvvət və dözüm var, yıxıldım.

Əvvəlki səmimiyyəti əvvəlki sevəntək
Sən zahir elə, mən isə izhar, yıxıldım.

Qaldır məni yerdən və sütun et yenə eşqə,
Elminlə dayaq ol mənə, me'mar, yıxıldım.

Şahin kimi uçmaqdadı sevdayə düşən kəs,
Sevdayə olub mənsə giriftar, yıxıldım.
24.06.2003

* * *

Şe'rimi Qur'an oxuyub yazmışam,
Rəmzimi irfan oxuyub yazmışam.

Yazmamışam mən səni «can», ey pəri,
Mən səni «canan» oxuyub-yazmışam.

Heç kimə qəsdim-qərəzim yox mənim,
Nöqsanı nöqsan oxuyub, yazmışam.

Söyməmişəm sultanı bica yerə,
Bir neçə fərman oxuyub, yazmışam.

Ayrılığı vəsf eləyə bilmərəm,
Hicranı hicran oxuyub yazmışam.

Yazmamışam «Divan»ı birdən-birə,
Bir neçə «Divan» oxuyub yazmışam.

Bircə gün ömrümdə hədər keçmədi,
Şahina, hər an oxuyub-yazmışam.

23.11.2003

* * *

Sanmasınlar ürəyimdə əsir olmuş sevgim,
Yayılıb aləmə aləmlə bir olmuş sevgim.

Qonmayır bir kəsə könlüm quşu, sərgərdandır,
Axtarır hey səni, yarım, yesir olmuş sevgim.

Gecə-gündüz səni yad etmədədir Allahtək,

Bənzəri yoxdur onun, binəzir olmuş sevgim.

Sanıram üstünə düşməkdədi hər qar dənəsi,
Yağışın qətrəsi altda çətir olmuş sevgim.

«Yeri cənnətlik ola kaş», bu təmənna ilə
Yollanır yanına Rəbbin, səfir olmuş sevgim.

Şahinin sevgisi sandıq kimi bağlandı daha,
Səni dəfn etdi özündə, qəbir olmuş sevgim.

26.01.2004

* * *

*«Məndə tovfiq olsa, bu düşvarı*
*asan eylərəm»*
*Məhəmməd Füzuli*

Əhvalımı zikrinlə xumar etməyə gəldim,
Yarəb, səni mən qəlbimə yar etməyə gəldim.

Dərvişliyi atdım və yaratdım neçə «Divan»,
Barmağımı cəbr ilə qabar etməyə gəldim.

Üzgün eləmək düzgünü qəsdim deyil, amma
Əğyar olan adəmləri zar etməyə gəldim.

Me'yarım olubdur sözümün saflığı dildə,
Me'yarımı dillərdə şüar etməyə gəldim.

Nəzmin dili «düşvar» idi, eyvah, qəzəldə,
«Düşvar» o dili mənsə hamar etməyə gəldim.

Mən doğmalara doğma adam, yadlara yadəm,

Yad sözləri şe’r içrə kənar etməyə gəldim.

Şahin, cahana bəlkə də heç gəlməyəcəkdim,
Xəlqi qəzəli ölkədə var etməyə gəldim.

29.03.2004

* * *

*Tamridanı xatırladım…*

Çatdı növbəm, təzə cəmiyyətə getmək lazım,
Düz yola, düzgün olan niyyətə getmək lazım.

İndi fikrimdə fəqət qarşıdakı hicrətdir,
Hicri tərk eyləyibən hicrətə getmək lazım.

Neçə ildir eşidə bilməyirəm mən səsini,
Sevgili yarım ilə söhbətə getmək lazım.

Tapmıram mən hanı xəlvət, hanı xəlvətxanə?
Xəlvəti söhbət üçün xəlvətə getmək lazım.

Qurtuluş yox, məni boğmaqda kədər girdabı,
Tərk edib qüssəni eyş-işrətə getmək lazım.

Gəzdiyim yol sona yetməkdə tamam, indi yolum
Tanrı dərgahınadır, minnətə getmək lazım.

Bu cəhənnəm məni bezdirdi fəna dünyadə,
Şahina, yığ köçünü, cənnətə getmək lazım.

16.04.2004

* * *

Yox mən təhəri hüsnünə heyran, yenə gəldim,
Ağuşinə, ey Azəribaycan, yenə gəldim.

Səndən bu kəsi ayrı salır ayrılq hərdən,
Mən ayrılığıa eyləyib üsyan, yenə gəldim.

İran məni mehman kimi də’vət eləmişdi,
Oldum neçə gün İrana mehman, yenə gəldim.

Var şübhə ki, loğmanlığa hər kəs yetə bilsin,
Yox şübhə ki, sənsən mənə loğman, yenə gəldim.

Qurban eləmək istəyən insan səni vardır,
Olmaq diləyib mən sənə qurban, yenə gəldim.

Aşiq canı cananəyə verməzsə günahdır,
Verrəm canı cananəyə, ey can, yenə gəldim.

«Gəl-gəl» dedi, «qal-qal» dedi tə’kid ilə hər gün,
«Get-get» demədi Şahinə İran, yenə gəldim.

Bakı,
13.05.2004

* * *

*Əruzşünas alim, fəsahətli insan,*
*bəlağətli natiq Ramiz Fasehə!*

Müasir bir qəzəlxanəm, özüm billəm, özüm billəm,
Bu gün saf şe’rə sultanəm, özüm billəm, özüm billəm.

Görüb məcnun söyüdlərdə pərişanlıq, fəğan etdim,

Söyüdlərtək pərişanəm, özüm billəm, özüm billəm.

Mənim dərdim Vətən dərdi, çəkən yox mən çəkən dərdi,
Dəmadəm ahü əfğanəm, özüm billəm, özüm billəm.

Gözüm yoxdur bu gün yad torpağında az da, ey kafər,
Tamahsız bir müsəlmanəm, özüm billəm, özüm billəm.

Günah etsəm, günahımdan əgər bir zərrə həm qalsa,
Cəhənnəmdə gərək yanəm, özüm billəm, özüm billəm.

Mənim qeyzimdə var üsyan odu sönmək nədir bilməz,
Sərasər qeyzü üsyanəm, özüm billəm, özüm billəm.

Nədir surət, nədir mə'na – təmiz şe'rimdə zahirdir,
Məcazəm, rəmzü irfanəm, özüm billəm, özüm billəm.

Mənə irad edirlər ki, qəlizlikdən uzaq oldum,
Qəlizlik içrə asanəm, özüm billəm, özüm billəm.

Alaqsız bir gülüstandır mənim «Divan»ım, ey Şahin,
Bu gün saf şe'rə sultanəm, özüm billəm, özüm billəm.

26.06.2004

* * *

Daha meyxanəyə qaçmaqda çətinlik çəkirəm,
Şişənin ağzını açmaqda çətinlik çəkirəm.

Düşünürdüm qocalanda olaram asudə,
Allah-Allah, qocalan çağda çətinlik çəkirəm.

İstiqamət nə sol olmuş, nə də sağ, düz gedirəm.
Sola meyl eyləmirəm, sağda çətinlik çəkirəm.

Zahidin dinləmirəm mən daha əfsanəsini,
Hey deyir fani ömür haqda, çətinlik çəkirəm.

Görmüşəm çox qara günlər, ağa öyrənməmişəm,
Qara bezdirdi məni, ağda çətinlik çəkirəm.

Gətirən yoxdu bu aləmdə neçin hələ məni?
Bağda bihal oluram, dağda çətinlik çəkirəm.

Yerim ovlaq idi, Şahindi adım, mən yenə də
Şahinəm, amma ki ovlaqda çətinlik çəkirəm.

23.09.2004

* * *

Eşq dərdi şirindir və şirindir mənə dərdim,
İmkan eləsəydim hamını dərdli edərdim.

İnsan olanın qədrini bildim yer üzündə,
Çox naxələfi qeyz ilə tutdum yerə sərdim.

Əkdim neçə eşq danəsini oldum əkinçi,
Sevda toxumundan nə qədər sevgi becərdim.

Yaş üstünə yaş gəldi və çöhrəm sarı oldu,
Olsun ki, yaşıl yonca kimi bir də cücərdim.

Yar oldu məhəbbət mənə, fəxr eyləyirəm ki,
Həvva anaya Adəm olan mən dəxi ərdim.

Şadəm bu şirin aləmi sevdim neçə müddət,
İndi o biri aləmə, Şahin, nə gedərdim!

22.10.2004

* * *

Dərdi fəqət həmdəmə bildirmişəm,
Həzzi isə aləmə bildirmişəm.

Mə'lumu namə'luma mə'lum edib
Gerçəyi çox mübhəmə bildirmişəm.

Var idi məhşər gününə şübhələr,
Məhşəri hər xürrəmə bildirmişəm.

Hikmətini Cəm nə bilirdi camın,
Camda nə varsa Cəmə bildirmişəm.

Gördü axan göz yaşımı, ağladı,
Göz yaşımı şəbnəmə bildirmişəm.

Məhkəməsiz ötməyəcəkdir bu iş,
Olmalıdır məhkəmə, bildirmişəm.

Saf qəzəli, saf sözü sev, Şahina,
Mən bunu hər adəmə bildirmişəm.

2.11.2005

* * *

Nə gözəl saqi, nə badə, nə də cam istəyirəm,
Binizam məmləkətim içrə nizam istəyirəm.

Niyyətim çünki nə meydir, nə də ki meyxanə,
Özgə niyyət diləyib özgə nizam istəyirəm.

Yenə Kabuldakı dərvişləri görmək dilərəm,
Nə badam gözlü bir afət, nə badam istəyirəm.

İndi vardırsa şərafətli igidlər, gəlsin,
Haraya getdi adamlar ki, adam istəyirəm.

Olsa da az, hələ şadəm ki, halal insan var,
Nə haramzadəni görmək, nə haram istəyirəm.

Bütün eşq əhlinə aşiqliyi təlqin eləyib,
Bütün əğyarlərə qarşı qiyam istəyirəm.

Tam bərabərliyə məftun olanam, qəlbimdə
Nə şahın sevgisi vardır, nə qulam istəyirəm.

Bir kəlam ilə edib şad yanımdan ötmə,
Mən kəlam içrə, kəlam içrə, kəlam istəyirəm.

Gündə gəl yanıma şövq ilə, ey ilham pərisi,
De «salam», söylə salam, gündə salam istəyirəm.

Şahina, istəyini qoyma yarımçıq qalsın,
Mən yarımçıq görülən hər işi tam istəyirəm.

4.01.2006

* * *

Şadlığa biganə olan Şahinəm,
Dərd ilə məstanə olan Şahinəm.

Saqisi yox, bağlıdı meyxanəsi,
Məscidi viranə olan Şahinəm.

Gündüzü axşam eləyib əql ilə,
Mən gecə divanə olan Şahinəm.

Varmı ümid kəndirə, zəncirləyin,
Meyli biyabanə olan Şahinəm.

Bilməsələr də həlalik qədrimi
Sözləri dürdanə olan Şahinəm.

Bir qızı Ülviyyə olan bir kişi,
Bir qızı Şahanə olan Şahinəm.

Nəzm elədim əzm ilə üç «Divan»ı,
Sevgisi «Divan»ə olan Şahinəm.

19.08.2006

* * *

Yağdı qar, bağlar ağardı, qara bağ istəyirəm,
Qarabağ istəyirəm mən, Qarabağ istəyirəm.

Yığılıb odlu silahlar deyə odsuzlandıq,
Yox silahım ki, heç olmazsa bıçaq istəyirəm.

Arxada qaldı sapand dövrü – uşaqlıq vaxtım,
Ey çobanlar, canavar var, çomaq istəyirəm.

Hələ yaddan çıxa işrət və dodaq məsələsi,
Oxuyan himnimi minlərlə dodaq istəyirəm.

Ey xəyalın quşu, cananəyə qonmaq daha bəs,
Qarabağ səmtinə yollan ki, soraq istəyirəm.

Şura dövründə dedik düşmənə dost, indi isə
Çəkilə düşmənimin köksünə dağ, istəyirəm.

Top-tüfəng dövlətə məxsus bu gün, ey dövlət,
Şahinəm, ambarını aç ki, yaraq istəyirəm.

26.01.2007

* * *

Heç bilməyirəm indi həyatım necə olsun?
Matəmli günüm varsa, büsatım necə olsun?

Ahəngi bu eşqin məni məftun edəcəkmi?
Nəğməm təzədirsə nəqəratım necə olsun?

Eşqiylə o yarın gecə-gündüz yazı yazdım,
Minlərlə qəzəl, qoşma, bayatım necə olsun?

İllərlə nişat oldu nəsibim, hanı saqi?
Vardırmı nişat öndə, nişatım necə olsun?

Hər məs'ələdə mən ki, səbat aşiqi idim,
Əldən gedəcəkdirmi səbatım, necə olsun?

Dəryası bu eşqin məni qorxutmada, Şahin,
Düşdümsə bu dəryayə nicatım necə olsun?

19.06.2002

* * *

İstəmir heç də geniş yer, bucaq istər Şahin,
Çəkilib bir bucağa ağlamaq istər Şahin.

Daima bağrına basmaq diləyir qüssə-qəmi,
Eləmək həzzi isə daşqalaq istər Şahin.

Aqil insan ilə bir dəm yaxın olmaq diləmir,
Dəli insanlar ilə təmtəraq istər Şahin.

Cəlb edərdi onu meyxanədə meyxanəçilər,
Daha meyxanəçilərlə nifaq istər Şahin.

Meyi tökmək yerə, mey kuzəsini sındırmaq,
Saqini saqiliyindən uzaq istər Şahin.

Bir gilə, üç gilə, beş damcı kifayət eləmir,
Çiləmək torpağa gözdən bulaq istər Şahin.

Əli yarmır başını, dırnağı cırmır üzünü,
Özünü öyməyə əl yox, çomaq istər Şahin.

İstəmir bir də günəş nuri görünsün gözünə
Gözünün qarəsini çünki ağ istər Şahin.

Onu çəkmir daha bal dadlı dodaq məs’ələsi,
Dərdinə ağı deyən dil-dodaq istər Şahin.

Necədir halı, İlahi, o biri dünyadə?
Qeyb olan sevgilisindən soraq istər Şahin.

10.10.2002

* * *

Sən ki vəslin yolunu indi hamar eyləmisən,
Bu kəsin varlığı yoxdu, yoxu var eyləmisən.

Neçə müddətdi xumarın izi görsənmirdi,
Bu pərişan ürəyi gör nə xumar eyləmisən.

Kölgə almışdı məni altına, zülmətdəydim,
Sevginin kölgəsi üstündə qərar eyləmisən.

Hicranın zirvəsi üstündə havam çatmırdı,
Özünü sən mənə, ey gül, havadar eyləmisən.

Ömrümün şaxtalı əyyamı fəğan eylərkən,
Qar yağan üstünə bir fəsli bahar eyləmisən.

Mən ki, eşqin quşunu qeyb eləmişdim çoxdan,
Onu, yarım, nə ləyaqətlə şikar eyləmisən.

Sevginin varlığına şəkk eləyən, ey Şahin,
Sevginin varlığını sən yenə car eyləmisən.

16.01.2003

* * *

Kim şe'r yazsa əgər Fatimeyi-Zəhradən,
Ona rəhmət yetişər Fatimeyi-Zəhradən.

Çox qadın gəlsə də dünya üzünə illərlə
Yerə gəlmişmi məgər Fatimeyi-Zəradən?

Bənzəmək naminə hər qız o nəcib möhtərəmə

Oxuyur şamü səhər Fatimeyi-Zəhradən.

Övliyalər, üləmalər və seyidlər var ki,
Bəhs edir sübhə qədər Fatimeyi-Zəhradən.

Elə ad qoydu ki, peyğəmbərimin gül balası
Söz demir kimsə hədər Fatimeyi-Zəhradən.

Od alır sanki Sürəyya, alışır sanki Günəş,
Danışır göydə Qəmər Fatimeyi-Zəhradən.

O müqəddəs Ananın tə'rifini eyləmə az,
Şahina, çəkmə nəzər Fatimeyi-Zəhradən.

31.01.2003

* * *

Saqi, mey süz, gözə göylərdə nə var görsənsin,
Elə mey ver ki, bu dünya mənə da görsənsin.

Elə mey ver ki, edib nuş qopum torpaqdan,
Gözümə Yer Kürəsi xeyli kənar görsənsin.

Gözlədik yerdə İmamı neçə il, barı gözə
Havada Mehdi kimi bir havadar görsənsin.

Nə gözə erməni Əsli nəzər etsin, nə də ki,
Şeyxi laməzhəb edən gürcü Xumar görsənsin.

Nə görünsün bizə idbar üzü əğyarlərin,
Nə bir azar, nə bir mərdiməzar görsənsin.

Nə vüsal istəyirəm mən nə fəraq, ey saqi,

Nə gözü sürmələsin qəm, nə qübar görsənsin.

Adi mey vermə ki, ondan çox içibdir Şahin,
Elə mey süz, gözə göylərdə nə var görsənsin.

4.03.2003

* * *

Həddən aşıbdır kədəri Şahinin,
Yox xəbərindən xəbəri Şahinin.

Gəldi əcəl, dərdi bağımdan gülü,
Çünki yıxılmış çəpəri Şahinin.

Gərçi həyat eşqini söndürmüsən,
Yanmada amma ciyəri Şahinin.

Gör neçə aydır qaralıbdır günü,
Həm də batıbdır qəməri Şahinin.

Qüssə gedir, qəm bürüyür qəlbini,
Yox xəbərin var nələri Şahinin.

Qapqara olsun gecəsi daima,
Andıra qalsın səhəri Şahinin.

Hüsnünü görmək diləyir bircə dəm,
Gəzmədə hər dəm nəzəri Şahinin.

Öylə ki, getdin məni tərk eyləyib,
Oldu görünməz təpəri Şahinin.

Mən də səfər gözləyirəm, Allahım,

Söylə, haçandır səfəri Şahinin?

Lənkəran,
8.03.2003

* * *

Bilirəm mən o qədər qədrini meyxanələrin,
Qoymaram dəysin ora addımı biganələrin.

Məni məst eylədi saqi, daha bundan sonra
Eşqi məst eyləyə bilməz məni məstanələrin.

Sən kitabsan mənə, ey köksü – qəzəl divanı,
Artacaqdır belə getsə sayı divanələrin.

Oxumaq istəyirəm mən səni, ey canlı kitab,
Həsədindən yanacaq bağrı kitabxanələrin.

Qorxdun, ey xacə, görüb xəncəri, neylərsən bəs
Üzünə batsa əgər kipriyi cananələrin.

Şahinəm, al qələmə eşqimi, ey dastançı,
Yarana qoy təzə əfsanəsi əfsanələrin.

8.09.2003

* * *

Sən ki, zənginliyi, ey qəlb, hədər bilmişsən,
Dediyin hər qəzəli bəs niyə zər bilmişsən?

Niyə tənhalığa aludə olubsan, şair,
Niyə yalqızlığı ondan da betər bilmişsən?

Olmayırsan niyə aşiq daha dildarlərə?
Eşqə biganəliyi sən ki zərər bilmişşən.

Guya meyxanəyə heç getməmisən, ey zahid,
Bəs meyin ləzzətini sən nə təhər bilmişşən?

Yardən bixəbər idim, xəbər aldım mehdən:
Necədir sevgilim, ey meh, nə xəbər bilmişşən?

Ey zavallı qoca alim, hünərin görsənmir,
Alimin zəhmətini sən ki, hünər bilmişşən.

Sən səfərnamə yazardın səfərə əzm eləyib,
Ey hünərvər, səfəri yoxsa xətər bilmişşən?

Niyə dərvişliyi tərk eyləmisən sən böylə?
Dərvişin etdiyi sevdanı hədər bilmişşən?

Qaibanə mənə səs gəldi bu dəm göylərdən:
Bilməyibdir hələ aləm ki, nələr bilmişşən.

Qubanın sevgisi qəlbində coşan, ey Şahin,
Qubaya hər səfəri həccə səfər bilmişşən.

9.09.2003

* * *

*Şahin, dəli bir başqa, divanəsə bir başqa*
*(Köhnə bir qəzəlimdən)*

Mən ki yanıram şamtək, pərvanə də kaş olsun,
Mey şişəsi var evdə, canənə də kaş olsun.

Yəni bu saat, heyhat, dəymir gözümə saqi,

Məst aşiqə bax, təkdir, məstanə də kaş olsun.

Ölkəmdə fəğan çoxdur, qorxaq nə yaman çoxdur,
Yaltaq nə yaman çoxdur, şahanə də kaş olsun.

Daş-qaş o qədərdir ki!.. Artıb o qədər dürr ki,
Dəymir gözə dürdanə, dürdanə də kaş olsun.

Mən türkə ərəb Məcnun biganədi əslində,
Xoşdur elə biganə! Biganə də kaş olsun!

Yaddaşlara həkk oldu əfsanəvi aşiqlər,
Əfsanə bu gün yoxdur, əfsanə də kaş olsun.

Şahin kimi divanə tək-tək gözə dəyməkdə,
Yarəb, dəli dünyadə divanə də kaş olsun.

21.09.2003

* * *

Cismimi eyləsə də dərdü ələm darmadağın,
Olacaqdır daha bundan belə qəm darmadağın.

Açа gül kaş könül bağçası əvvəlki kimi,
Kaş ola birkərəlik rəncü sitəm darmadağın.

Daha əvvəlki müsibət çəkən aşiq deyiləm,
Qəlbdə qüssə olur, gözdəsə nəm darmadağın.

Dağıla bilməyir amma hələ zülmün qalası,

Mancanaq[1] ilə onu etməliyəm darmadağın.

Hicranın başına kaş dağdan ağır daş düşsün,
Ola həm tarimar, ey Həqq, ola həm darmadağın.

Kafərə qarşı müsəlmanlarımız birləşsin,
Ərəbi etməyə qoy türkü əcəm darmadağın[2].

Aşiqin dərdi böyük, Şahinə şükr olsun ki,
Qeys divanə olub, oldu Kərəm darmadağın.

18.10.2003

* * *

Üsyan eləyib qüssə-qəmə, şən gələcəksən,
Olsun gözüm aydın ki, bu gün sən gələcəksən.

Bildim ki, yağış-qar, gözəlim, qarşını kəsməz,
Mane ola bilməz ki duman, çən, gələcəksən.

Üstünlüyə nail ola bilmək diləyin var,
Leyla kimi cananəyə sən tən gələcəksən.

Ağ günləri bir kimsə əlindən ala bilməz,
Qarə saçına düşsə də ağ dən, gələcəksən.

Yaddan çıxara bilməyəcəksən məni bir də,
Hərdən gedəcəksən, yenə hərdən gələcəksən.

---

[1] Mancanaq – Orta əsrlərdə qala fəthi zamanı bu hərb alətinə daş qoyulub atılır, qala divarlarını uçururdular.
[2] Amerika-İraq müharibəsində Azərbaycanın Amerikanı dəstəkləməsinə və İraqa qoşun göndərməsinə işarədir.

Təkrar eləyir öndəki misrasını Şahin:
Üsyan eləyib qüssə-qəmə, şən gələcəksən.

11.01.2004

* * *

*Dekabrın 7-də Füzulinin hamama həsr etdiyi qəzəlini bir daha oxudum və təsadüfən hamamımda yıxıldım…*

Şahina, şirin canımdan gərçi bizarəm bu gün,
Tanrıya olsun şükürlər, ölmədim, varəm bu gün.

Günlərin bəd bir günündə qəflətən dəydim yerə,
Qalmadı huşim başımda gərçi hüşyarəm bu gün.

Parələndi bir sümük, hər parədə vəsl istəyi,
Sanki yüz fəryad edir cismimdə hər parəm bu gün.

Olmasaydı gər günahım çəkməz idim mən cəza,
İllətə, əlbət, səbəb vardır, günəhkarəm bu gün.

Çox görübdür Eşq qəsri eşqdə sərdarlər,
Ey ərəb sərdarı Məcnun, mən də sərdarəm bu gün.

Çat var idi Eşq mülkümdə qabırğam timsalı,
Tə’mir etdim Eşq mülkün, böylə me’marəm bu gün.

Amma, yoxdur yar, yox dildar, bir biçarəyəm,
Allaha şükr eyləməkdir dəmbədəm çarəm bu gün.

Qaçsa idim yar ardınca yıxılsaydım yerə,
Heç təəssüf eyləməzdim, Şahina, zarəm bu gün.

19.02.2004

*Qabırğamın sınmasının*
*12-ci günü*

* * *

Qum qədəri yarəsi var Şahinin,
Sanmayıram çarəsi var Şahinin.

Varmı məgər, yox ciyərindən əsər,
İndi ciyərparəsi var Şahinin.

Çırpı kimi sındı qabırğası da,
Sağlam olan harəsi var Şahinin?

Su isə fəvvarəni var eyləyən,
Qan dolu fəvvarəsi var Şahinin.

Günlərinin ağı itib, qeyb olub,
Günlərinin qarəsi var Şahinin.

21.02.2004
*Qabırğamın sınmasından*
*14 gün sonra*

* * *

Var deyən «Bir neçə İskəndər olub məndə əyan,
Elə bir padşaham Səncər olub məndə əyan».

Var deyən «Çağlamada çay sayağı ilhamım,
Elə dərya kimiyəm Kövsər olub məndə əyan».

Var deyən «Molla Füzuli nəçidir nəzm içrə?
Elə söz zərgəriyəm zərgər olub məndə əyan».

Var deyən «Varmı qılınc oynadan olsun məntək?
Kəsirəm hər kəsəni, xəncər olub məndə əyan».

Var deyən «Qüdrətimin bənzəri yoxdur Yerdə,
Varmı əskər mənə tay, ləşkər olub məndə əyan».

Var deyən «Zülfüqarım var əlimin altında,
Əliyəm mən, Vəliyəm, Heydər olub məndə əyan».

Var deyən «Cəngdə Rüstəm-Zala qalib gələrəm,
Gər təkəm, amma olubdur neçə ər mən əyan».

Var deyən «Tən gələ bilməz mənə Şahin Fazil,
Mir Cəlal ilə Qəni, Ənvər olub məndə əyan».

Şahina, küfr deyildirmi Nəbati söylər:
«Möcüzate-həme peyğəmbər olub məndə əyan».

30.03.2004

* * *

*Tamridanı yad edərək*

Mehrabına eşqin qara bağlar qoca Şahin,
Fəryad ilə gündüz-gecə ağlar qoca Şahin.

Axdıqca-axır göz yaşı gözlər bulağından,
Dərdiylə bulaqlar kimi çağlar qoca Şahin.

Vaxt var idi əğyarə çəkərdi dağı, indi
Çəkməkdədi öz köksünə dağlar qoca Şahin.

Getmişsə də vəslin səsi çoxdan qulağından,

Hicranı tutub gündə qucaqlar qoca Şahin.

Fərman eləyibdir qara bəxti… Qara bəxtin
Fərmanını hiddətlə ayaqlar qoca Şahin.

Əfsus, fərağı tutuban öldürə bilmir,
Hərçənd onu hər ləhzə bıçaqlar qoca Şahin.

Öz yarını dəfn eyləsə də öz əli ilə,
Amma onu hər ləhzə soraqlar qoca Şahin.

1.04.2004

* * *

Bilmirəm çox şeyi, Allah, nədən indiyəcən?
Oxudum bəs neçə elmi niyə mən indiyəcən?

Ey müəllim, necə tədris eləyibsən dərsi?
Açmıram baş axı mən həndəsədən indiyəcən.

Xəlqimin faciəsindən ürəyim parələnib,
Neçə ildir ki, qalıb parə Vətən indiyəcən.

«Hanı çöl sərsərisi, ya hanı səhra dəlisi?»
Xəbər almaqdadı, ey Qeys, düzən indiyəcən.

Məni, ey yar, neçin möhnətə saldın böylə?
Ovqatım ötmədi bir ləhzə də şən indiyəcən.

Sən gedəndən bəri gülzardə seyrim yoxdur,
Müntəzir oldu mənə bağü çəmən indiyəcən.

Şahina, gözləyirəm mən zamanın sahibini,

Hanı Mehdi, niyə gəlmir o gedən indiyəcən?
12.06.2007

* * *

Eşqini eyləyərəm car sənin
Gər desən «ixtiyarın var sənin».

Dodağım qeyb eləyib nəğməsini,
Dodağın nəğmə pıçıldar sənin.

Sən əyaq ilə məni məst eylə,
Dolanım başına, ey yar, sənin.

Məni rəssam elədin, həm me'mar,
Elədim meylini iqrar sənin.

Şəklini çəkdi bu rəssam, gülüm,
Büstünü yondu bu me'mar sənin.

Qələmim düşdü əlimdən, amma
Varağın «yaz,-dedi,-təkrar» sənin.

Şahinin eşqini inkar eləmə
Etməsin eşqini inkar sənin.
24.01.2007

* * *

Sil göz yaşını yarın, dəsmalına od düşsün,
Öp xalını dildarın, qoy xalına od düşsün.

Solmur kədərin rəngi, dərdü qəhərin rəngi,

Bitmir fələyin cəngi, cəncalına od düşsün.

Hicran gülünü dərdim, qəlbi qana döndərdim.
Batman olacaq dərdim, misqalına od düşsün.

Xoşluqsa da amalım, hər dəm bəd olur halım,
Ey bəd edən əhvalım, əhvalına od düşsün.

Çəkdikcə fəraq, Şahin, oldun sinədağ, Şahin,
Ey saqqalı ağ Şahin, saqqalına od düşsün.

11.08.2004

* * *

Pünhan elədin dərdini, yarım, nə səbəbdən?
Faş eyləmədin sirri, nigarım, nə səbəbdən?

Zənn eyləyər idim ki, qübarım daha olmaz,
Canlanmadadır köhnə qübarım nə səbəbdən?

Dadmaq dilədim meyvəsini tazə baharın,
Ey tazə bahar, yoxdu nübarım nə səbəbdən?

İcra olunar idi qərarım ürəyimcə,
Yetmir yerinə indi qərarım nə səbəbdən?

Hər bir sözümü qəlbinə sən həkk eləyərdin,
Yoxdur daha qəlbində şüarım nə səbəbdən?

Ey yar, xəyal adlı çaparım ki var idi,
Çatmır yanına indi çaparım nə səbəbdən?

Bir çox qıfılı açmış ikən səbr açarıyla,

Açmır qıfılı indi açarım nə səbəbdən?

Şah idi bu Şahin, bağının çox gülü vardı,
Gülsüzdü bu gün Eşq diyarım nə səbəbdən?

7.09.2004

* * *

Sən mənimtək ahü əfğan eyləyən görmüşmüsən?
Ya, canı canană qurban eyləyən görmüşmüsən?

Dərmək üçün bir qızılgül min tikanla çarpışıb
Köksünü al qanə qəltan eyləyən görmüşmüsən?

Mən görən kəslərdə var «üsyanə – sülh» uydurması,
Sevgilim, üsyanə üsyan eyləyən görmüşmüsən?

Döndərən gördüm asan bir mətləbi müşkilliyə,
Müşkili sən amma asan eyləyən görmüşmüsən?

Sünnilikdən, şiəlikdən çox kəsi yan eyləyib
Heç müsəlmanı müsəlman eyləyən görmüşmüsən?

Çox yazanlar görmüşəm olmaq qəzəlxan istəyir,
İsmini zorən «qəzəlxan» eyləyən görmüşmüsən?

Dərmanından əl çəkib tibb əhlinin, Şahin kimi
Dərdinə şe'r ilə dərman eyləyən görmüşmüsən?

9.09.2004

* * *

Demirəm ovqatını şad eləyənlər gəlsin,

Demirəm naləvü fəryad eləyənlər gəlsin.

Ucalır ərşə qədər naləsi biçarələrin,
Çarəsiz kəslərə imdad eləyənlər gəlsin.

Mən pəsənd eyləmirəm Xosrova bənzər sevəni,
Özünü eşqdə Fərhad eləyənlər gəlsin.

Ovu fənd ilə giriıtar eləyənlər getsin,
Ovu tədbir ilə azad eləyənlər gəlsin.

Şe’ri indi neçə kəs qafiyəsiz yazmaqda,
Seyyidü Sabirimi yad eləyənlər gəlsin.

Yamayıb yad sözü bərbad eləyirlər qəzəli,
Qəzəlin qəsrini abad eləyənlər gəlsin.

Gəlməsin yanıma əğyarsifətlər, Şahin,
Eşqdə mən sayağı ad eləyənlər gəlsin.

13.11.2004

* * *

Elə ki çıxdı küsüb nazlı Züleyxa qapıdan,
Yusifə sanki vida eylədi sevda qapıdan.

Mənə dünya idi yarım bu darısqallıqda,
İçəri girməyəcəkdir daha dünya qapıdan.

Yenə boylanmadadır qüssə-kədər pəncərədən,
Üzümə eyləmədə dərd təmaşa qapıdan.

Evimə gəlməyəcəkdir o səadət günəşi,

Daha boylanmayacaqdır üzə, heyfa, qapıdan.

Mən məhəbbətdəki mə’nanı görürdüm onda,
Ay aman, çıxdı məhəbbətdəki mə’na qapıdan.

Bu gecə göz qapağım örtülə bilmir, Rəbbim,
Gözümü tərk eləyib getdimi rö’ya qapıdan?

Göz yaşım axdı sərasər otağı doldurdu,
Axacaqdır çölə indi yeni dərya qapıdan.

«Pərt olub kaş dönəydi yanıma, ey Şahin!»
Arxasınca yarımın çıxdı bu misra qapıdan.

1.01.2005

* * *

Qürbətə əzm elədikdə məni zar içrə bilin,
İftixar içrə deyil, dərdü qübar içrə bilin.

O qərib durnaları seyr eləyərkən hərdən,
Məni durna quşutək siz də qatar içrə bilin.

Bişməmiş kəslərə qəlbimdə soyuqluq vardır,
Məni xamlarla deyil, siz peşəkar içrə bilin.

Gəlməsəm şövq ilə meyxanəyə üzrüm vardır,
Üzülən cismimi ol dəmdə azar içrə bilin.

Şahini gözləriniz görməyəcəkdir ölsəm,
Sizi Şahin görəcək amma məzar içrə, bilin.

23.02.2005

* * *

Yarım gələcəkdir yenə, dünya, gözüm aydın,
Ey söz, gözüm aydın ola, misra, gözüm aydın.

Tənhalığa qərqəm neçə gündür, bu gün isə
Göz görməyəcək aşiqi tənha, gözüm aydın.

Xülyanı həqiqət edəcəkdir əvəz indi,
Bənd olma bu gün sənə mənə xülya, gözüm aydın.

Cari olacaq torpağa şadlıq seli gözdən,
Tərk eyləyəcəkdir gözü dərya, gözüm aydın.

Surət dəyəcəkdir gözə mə'na ilə birgə,
Surət, gözüm aydın yenə, mə'na, gözüm aydın.

Meyxanə də, məscid də bu gün şairi görməz,
Saqi, gözüm aydın ola, molla, gözüm aydın.

Ey ibn-Salam, Şahin ibn-Fazilə bax ki,
Məcnunə dönüb söylədi: Leyla, gözüm aydın!

31.03.2005

* * *

Hicranı qoyub gendə gələn yarıma əhsən,
Söz verdi vəfa etdi, vəfadarıma əhsən.

Gəlməzsə əgər, qalmağı inkar eləyib də,
İsrar edərəm ölməyi, israrıma əhsən.

Dünya məni sərt etmiş idi, indi həlıməm,

Yar ilə olan pakizə rəftarıma əhsən.

Sevda gülümün solması şəksiz idi, gəldi,
Sevdamı xilas etdi, xilaskarıma əhsən.

Bir halda ki, sevda qədəhi vardır əlimdə,
İnkar edirəm badəni, inkarıma əhsən.

Varsız deyiləm, yoxsa da zər, varlıyam amma,
Var sevgi varı məndə fəqət, varıma əhsən.

Şahin ki qəzəl bağına bağban ola bildi,
Açmaqda qəzəl gülləri, gülzarıma əhsən.

14.04.2005

* * *

*Əliağa Vahidin vəfatının 40 ili münasibətilə*

Masazır kəndi ki, tapmış belə şan Vahiddən,
Tapacaq həşrə kimi namü nişan Vahiddən.

Masazır var idi onsuz da, fəxr məchuldu,
Bu fəxarət və şərəf oldu əyan Vahiddən.

Bir xeyrxah, gülərüz, baməzə ağsaqqaldı,
Kim görübdürsə desin zərrə ziyan Vahiddən.

Özü saf idi, şe’r mülkünü saflaşdırdı,
Nə qədər sadə qəzəl oldu bəyan Vahiddən.

Cavanın ehtiyacı varsa da arif qocaya,
Qocalar çox şeyi öyrəndi cavan Vahiddən.

Etsə də tərk cahanı, canı bizlərlə qalıb,
Elə zənn eyləyirəm çıxmadı can Vahiddən.

Şahina, sən də yazırsan və yazıb Vahid də,
Qələmin qır, varağın cır və utan Vahiddən.
29.09.2005

* * *

Ey sevgili canana, qəm etmə, gələrəm mən,
Kipriklərini, bəsdi, nəm etmə, gələrəm mən.

Aşiqlərə onsuz da çəkir dağ sitəmlər,
Gül cisminə mənsiz sitəm etmə, gələrəm mən

Qov dərdi, uzaq et ələmi vəsl ümidiylə,
Az həm kədəri möhtərəm etmə, gələrəm mən.

Səbr eylə, Ərəbzəngi deyilsən, otur evdə,
Meydanə, əzizim, qədəm etmə, gələrəm mən.

İlham da gətirrəm sənə, dəftər də, qələm də,
Durna lələyindən qələm etmə, gələrəm mən.

Yandırma, ey Əsli, məni vəslin həvəsiylə,
Sən Şahini, bəsdir, Kərəm etmə, gələrəm mən.
2.10.2005

* * *

Canıma xəta yetişdi xətərin əta əlindən,
Necə bəs sağam, İlahi, bu qədər xəta əlindən?

O qədər ələm çəkibdir fərəhə qələm çəkibdir,
Bu sevən sitəm çəkibdir neçə macəra əlindən.

Zərəri zərərdən artıq, qədəri qədərdən artıq…
Nə qədər bəlayə düşdüm nə qədər bəla əlindən.

Gülümü əlimdən aldı, əlinə əlim yetişmir,
Qaça bilmədim, İlahi, fələyin cəza əlindən.

Evimə gətirdi təşrif, ayağı düşümlü idi,
Sözümə şəkər dolurdu, gözümə ziya, əlindən.

Neçə il mənimlə oldu, neçə ildi indi yoxdur,
Qaça bilmədi nigarım əcəlin qəza əlindən.

Edibən vida həyatə özü getdi, qaldı Şahin,
Ona bivəfalıq etdim, ölürəm həya əlindən.

5.12.2005

* * *

Demişəm: Birləşəcək Azəribaycan bir gün!
Yenə vahid olacaqdır o iki can bir gün!

Küləyi ayrılığın əsməyəcək üstümüzə,
Vüsala çevriləcəkdir acı hicran bir gün.

Cəhli, cahilliyi inkar edəcək hər müslim,
Əlvida eyləyəcək küfrə müsəlman bir gün.

Sərhədin müşkili baş verməyəcək. Maniəsiz
Bakıdan yollanacaq Təbrizə karvan bir gün.

«Verdilər Söhraba dərmanı öləndən sonra»[1],
Sağ ikən bəxş olacaq Söhraba dərman bir gün.

Bakı-Təbriz arasından itəcəkdir hicran,
Mənə «can-can» deyəcəkdir yenə Zəncan bir gün.

Qayıdır bir də bu Şahin sözünün əvvəlinə:
Demişəm: Birləşəcək Azəribaycan bir gün!

13.03.2006

* * *

*Fevralın 16-da, hər il olduğu kimi, bu il də Həkim Qəninin təvəllüd ilini qeyd etdik. Məndə onun öz xətti ilə yazılan tərcümeyi-halı var (1918). İnstitutda həmkarım olan professor Məzahir Abbasov isə deyərdi ki, Qəni ilə yaşıdıq (16 fevral, 1916). Nə isə… Həkim Qəninin 90 yaşı gəlmir ki, gəlmir.*

Gəncliyin təntənəsi şövqünə yardır Həkimin,
Çöldə qış fəslisə də, qəlbi bahardır Həkimin.

Danışıb-gülsə də, əvvəlki həkimdən yox əsər,
Qarabağsız deyə könlündə qübardır Həkimin.

Fikrini eyləsə də cəlb Füzuli, amma
Fikri gündüz-gecə əlbəttə ki, yardır Həkimin.

Hər şüar əhlinə yoxdursa da rəğbət onda,

---

[1] «Nuşdaru-ra pəs əz mərg be Sohrab dehənd» (bir fars şe'rindən)

Vahidin aşiqidir, eşqi şüardır Həkimin.

O qədər yazdı gözəlliklərə yüzlərlə qəzəl
Şakəri şe'rü muğam, həm də nigardır Həkimin.

Elə bağlandı «Çahargah»ə ki, mat oldu, sözü
«Şur»dur, «Rast»ü «Segah», «Bəstənigar»dır Həkimin.

Şahinin gər kəsələr başını bitməz şəkki,
İnana bilməyirəm «90»ı vardır Həkimin.

22.03.2006

* * *

*Fatimeyi-Zəhra səlamullahi-əleyhanın anım günü münasibətilə*

Elə boldur ki, şanı Fatimeyi-Zəhranın,
Bürüyübdür cahanı Fatimeyi-Zəhranın.

Ulu peyğəmbərimin gül balası Zəhradır,
Atadır cismü canı Fatimeyi-Zəhranın.

Üç imam oldu evində yaraşıq ol dürrə,
Üç imamdır gümanı Fatimeyi-Zəhranın.

Həmi izzət, həmi iffət, həmi qeyrət rəmzi!
Bənzəri varsa hanı Fatimeyi-Zəhranın?

Nə üçün tazə gül ikən bağı gülsüz qoydu?
Kimə dəymiş ziyanı Fatimeyi-Zəhranın?

Yaradan cənnəti üçün onu yerdən çəkdi,
Allahın nərdivanı – Fatimeyi Zəhranın.

Şahina, dan yerinin rəngi neçin qırmızıdır?
Qızarır göydə qanı Fatimeyi-Zəhranın!

15.07.2006

* * *

*On ikinci imam Əbülqasim Məhəmməd ibn Həsən Əsqəri sahibəz-zaman İmam Mehdidən rica*

Sən harda qalıbsan ki, soraqlar yenə Şahin,
«Tez gəl» deyə fəryad ilə ağlar yenə Şahin.

Haqsızlıq edənlər çoxalıbdır göbələk tək,
Hiddətlə bulaqlar kimi çağlar yenə Şahin.

Ya Mehdi, müsəlmanı qırır kafər olanlar,
Atəşlənibən qəlbini dağlar yenə Şahin.

Sən gəlməsən hərgah ədalət gülü açmaz,
Gülməz üzü və dərdi qucaqlar yenə Şahin.

Söylər ki «Qalıb darda Fələstin və Livanlar»,
Söylər ki «Fəlakətdir İraqlar» yenə Şahin.

Əlbət, Qarabağtək neçə məhzun Qarabağ var,
Söylər ki «həzindir Qarabağlar» yenə Şahin.

İlham pərisindən ala bilməz deyə busə,
Qəm zülfünü hüzn ilə daraqlar yenə Şahin.

Nikbin yazı yazmaz, küsər ilhamı təmamən,

Qəm dəftərini gündə varaqlar yenə Şahin.

Şahinliyi olmaz ucalıq asimanında,
Ya Mehdi, yetiş dadə ki, ağlar yenə Şahin.

* * *

*Bu gün Nardaran kəndində mərhum Hacı Mailin oğlanları Məhəmməd peyğəmbərin doğum günü münasibətilə süfrə açdılar. Bu ənənəvi mərasim Hacı Mail tərəfindən hər il keçirilirdi. Övladlar əcdadların işini davam etdirirlər. Allah razı olsun.*

Belə ki, mən görürəm əzmini oğlanlarının,
Şahina, sönməyəcəkdir Hacı Mail işığı.

İmdad elədin çox kəsə, imdadına əhsən!
Əhsən, sənə əhsən, həmi əcdadına əhsən!

Kim qoydu sənin ismini Mail? Ona alqış!
Sən maili oldu vətənin, adına əhsən!

Ustad Füzuli səni sövq eylədi şe'rə,
Kamilliyə yetdin deyə, ustadına əhsən!

Fəryad eləyərdin ki, bilək qədrini dinin,
Qüvvətli edən dinimi fəryadına əhsən!

Peyğəmbərə sidq ilə hər il süfrə bəzərdin,
İrşad yoluydu yolun, irşadına əhsən!

Sənsiz, açılır indi də peyğəmbərə süfrə,

Mail, sənə Şahin deyir: Övladına əhsən!
6.04.2007

* * *

Vəsfini mən o qədər eyləmişəm dildarın,
Eşidənlər dedilər vəsfdə yox oxşarın.

Bəli, hər kəs əməlində özünə bənzəməli!
Yar yardırsa əgər vəsfini eylər yarın.

Me'yar olmuş mənə daim «Yaşasın Eşq!» sözü,
Qədrini bilməli hər şair olan me'yarın.

Yarı əğyarə edən yar hələ şairlər var,
O mənəm həcv eləyən hər birini əğyarın.

Qədrimi bilməyənin bilməyirəm qədrini mən,
Adıma söyləməsinlər «biridir qəddarın».

Şahin, islamə Məhəmmədsə əgər peyğəmbər,
Səni Eşq dininə peyğəmbər edib dildarın.
18.04.2007

* * *

Ayrıyıq bir-birimizdən necə də canan – mən,
Durmuşuq üzbəüz aləmdə bugün, hicran – mən.

Mənə rəhm eyləməyir, neyləmişəm loğmanə?
Etməyir dərdimə bir çarə yenə, loğman – mən.

İstərəm meydana gəlsin mənə xəncər çəksin,

Hara yollandı Ərəbzəngi axı, meydan – mən.

Söyləyirlər mənə qurbanlıq alım «Qurban»da,
Hazıram olmağa qurbanlığıma qurban mən.

Bir fəqir bəndəsiyəm Azəribaycan elinin,
Verələr istəmərəm lap ola Hindistan – mən.

Bir zaman Qeys idi eşq ordusunun sultanı,
Elə zənn eyləyirəm ki, oluram sultan mən.

Mənə mehr eyləyənə mehriban oldum daim,
Asiyəm, eyləyirəm zülm edənə üsyan mən.

Bir divan almağa çatmırsa gücüm, ey Şahin,
Yazmışam vəcdə gəlib amma ki üç divan mən.

23.06.2007

* * *

Nəyəsə bir daha nail olasan müşkildir,
Kamalın varsa da kamil olasan müşkildir.

Biliyin varsa da yoxdur əhəmiyyət biliyə,
Güvənib əqlinə aqil olasan müşkildir.

Bizi ağuşinə almış fələyin girdabı,
Dəlisov sellərə sahil olasan müşkildir.

Elə əyyam gəlibdir ki, ədalət yoxdur,
Belə əyyamdə adil olasan müşkildir.

Varmı, yoxdur sənə bənzər daha aşiq, ey Qeys,

Bir də Leylalərə mail olasan müşkildir.

Kimi Şahin, kimi Fazil adına sahib olub,
Həmi Şahin, həmi Fazil olasan müşkildir.

11.06.2002

* * *

Yandım o təhər eşqə, səməndər dedi: Bəsdir!
Tökdüm o qədər göz yaşı, Tərtər dedi: Bəsdir!

Küsdürmüş idim, könlünü almaq diləyib mən
Dil tökdüm elə, dözmədi dilbər, dedi: Bəsdir!

Dərdim ona çox gül qovuban bağbanı bağdan,
Bağbanə dedim: Gəl yenə gül dər. Dedi: Bəsdir!

Əğyarə bizim rəğbətimiz olmayacaqdır,
Kafərlik o cür etdi ki, kafər dedi: Bəsdir!

Çox sərvəri mən vəsf elədim, söylədi: Azdır!
Amma ki, o sərvərlərə sərvər dedi: Bəsdir!

Zövq ilə düşüb şövqünə yazdım gecə-gündüz,
Çox cızdı qələm dəftəri, dəftər dedi: Bəsdir!

Zər qədrini zərgər ki bilir, dözmədi, Şahin,
Yazdın o qədər incə ki, zərgər dedi: Bəsdir!

24.06.2002

* * *

Qəlbim elə dağlandı ki, dağ içrə qalıbdır,

Can yanmadadır, çünki ocaq içrə qalıbdır.

Bağ çoxsa da, biz gəzdiyimiz bağdən olmaz,
Qəmgin nəzərim təkcə o bağ içrə qalıbdır.

Dindir məni bakir sözümü ərz eləyim mən,
Bir nazlı gəlindir ki, duvağ içrə qalıbdır.

Bir vəqt deyərdik sözü biz üzbəüz, ey yar,
Amma sözümüz indi qulaq içrə qalıbdır.

Bəxtim mənə zülm etdi, fəraq uddu vüsalı,
Eyvah vüsal indi fəraq içrə qalıbdır.

Pərvanə çıraq üstünə cumdu olub aşiq,
Üstündə idi, indi çıraq içrə qalıbdır.

Söz gülşənimin gülləri məşhurdu, Şahin,
Söz gülşənisə var ki, alağ içrə qalıbdır.

16.07.2002

* * *

Şahinə duzlu yarın hər sözü şəkkər kimidir,
Acıdil söyləməsinlər, elə söz şər kimidir.

Bəd nəzərdən nəzərə gəldiyi üçün daha mən
Demirəm dilbərimin gözləri ülkər kimidir.

Demirəm çöhrəsinin bənzəri yox dünyadə,
Demirəm hüsnü gözəllikdə sənubər kimidir.

Nə zərin qiyməti vardır, nə də mirvarilərin,

Demirəm qiyməti mirvari kimi, zər kimidir.

«Heyrət, ey büt!..» dedi şair babamız heyrətlə,
Demirəm mən ki, bütün bütlərə sərvər kimidir.

Acı hicranına yarın o qədər dözdüm ki,
Deyəsən vəsli bu günlərdə müyəssər kimidir.

Əcəba, tutiyə dönmüş yenə Şahin Fazil,
Dodağında yenə «yar» kəlməsi əzbər kimidir.

23.07.2002

* * *

Müsəlman ki sevər «Allahu əkbər»,
Deyər şamü səhər «Allahu əkbər».

Alıb ilhamını göyçək bu sözdən
Desin daim bəşər «Allahu əkbər».

Kimin imanı varsa kafər olmaz,
Deyilsin müxtəsər «Allahu əkbər».

Yox olsun ayrılıq dindarlərdə,
Yıxılsın sədd, çəpər, «Allahu əkbər»!

Gümanım var ki, təkrar eyləyər xəlq,
Çalar hökmən zəfər «Allahu əkbər».

Asılmışdır bir ipdən sanki qəlbim,
Verər hökmən təpər «Allahu əkbər».

Nə çoxdur Allahın səbri, a Şahin,

Eşitmirmi məgər «Allahu əkbər»?

13.08.2002

***Eyni vəzn, qafiyə və rədifli iki qəzəl***

**I**

Sən kimi xoşxəbərə xoş da xəbər vacibdir,
Qarşıla, gəlmədəyəm mən, bu səfər vacibdir.

Uçuram! Mən yanına, ey pəri, göydən gəlirəm,
Sənə göyqurşağı rəngində kəmər vacibdir.

Demə hicrin kədərindən üzülürsən arabir,
Arabir qoy sənin olsun o kədər, vacibdir.

Şadlığından yerə axsın gözünün qətrələri,
Görüşərkən mənə bildinmi nələr vacibdir?

İxtisasım dəyişibdir, daha şair deyiləm,
Zərgərəm, sən mənə zərsən, mənə zər vacibdir.

Gülə dönmək diləyirsənsə, soyun paltarını,
Gözünü qönçə kimi aç ki, nəzər vacibdir.

Gözəlim, tutiyə hər vədə şəkər ver, yeyəcək,
Şahinin tutiyə dönmüşsə, şəkər – vacibdir!

20.10.2002

**II**

Bizə göz nuri kimi indi zəfər vacibdir,
Qalibiyyətdən əsər yoxsa qəhər vacibdir.

Çal-çağır vaxtı deyil, zurnanı sındırsınlar,
Nağara susmalıdır, çünki kədər vacibdir.

Ehtiyac yoxdu göbək rəqsinə, ey rəqqasə,
Bizə hazırda Nigar ilə Həcər vacibdir.

Nallasın atları nalbənd, yürüş vaxtı çatıb.
Elə Düldül sayağı indi kəhər vacibdir.

Bağiban, «sök çəpəri» söyləmərəm bir də sənə,
Naxələfdirsə əgər qonşu, çəpər – vacibdir.

İgid oğlan, sinəni sıxma sənəm sinəsinə,
Sinəni, köksünü səngərlərə gər, vacibdir.

Şahina, sonraya qalsın neçə sevda səfəri,
Qarabağ səmtinə yollan, bu səfər vacibdir!!!

21.10.2002

* * *

Qələmim var mənim, indi bıçaq lazımdır,
Yaxın insanı yaman gün sınamaq lazımdır.

Zəbt edibdir nə qədər torpağımı namərdlər,
Dözmək üçün bu qədər qüssəyə dağ lazımdır.

Ya, başa indi ləçək çəkməliyik arvadtək,
Kişilik rəmzi kimi ya da papaq lazımdır.

Təkcə Xankəndimi tutmaq eləmir bəs, vətənə
Zəngəzur, Göyçə gərəkdir, Qarabağ lazımdır.

Bəsdi torpaqlarımı etdi şoranlıq gözlər,
Ağlayan kəsləri, varsa, qınamaq lazımdır.

Ağlayıb sən su tökürsən çırağa, ey dilbər,
Çırağın yanması üçün ona yağ lazımdır.

Hər qəzəlxan olanın çağlamalı ilhamı,
Şahinin təb’i kimi təb’i oyaq lazımdır.

24.10.2002

* * *

Dən böyüyüb sünbülə dönməkdədir,
Qönçə güləndə gülə dönməkdədir.

Bağda çiçəklər duvağa dönmədə,
Dağda dumanlar tülə dönməkdədir.

Sel deməsin «yoxdu bərabər mənə»,
Göz yaşı hərdən selə dönməkdədir.

Dalğanı öldürsə də sahil, neçin
Dalğa yenə sahilə dönməkdədir?

Yaxşımı çöl, yoxsa şəhər yaxşıdır?
Qeys şəhərdən çölə dönməkdədir.

Varlığını eylədi yox yanmağı,
Tonqala bir bax külə dönməkdədir.

Varmı məgər bülbülü şahin görən?
Şahin isə bülbülə dönməkdədir.

12.12.2002

* * *

Daralır hövsələ, ey dil, yenə dilbər gecikir,
Zərgərin gözləri yollarda qalıb, zər gecikir.

Niyə cövhərşünasın cövhəri görsənməz olub?
Niyə gövhərşünasın yanına gövhər gecikir?

«Dəqiq adəmlərə bir qeyri-dəqiqlik yaramaz»,
Etsə də gər bu dəqiq sözləri əzbər, gecikir.

Acılıqdan elə bezdim ki, şirinlik gəzirəm,
Tutiyəm, şirni gərəkdir mənə, şəkkər gecikir.

Hanı Zəmzəm çayı, Kövsər suyu ki, nuş eləyək?
Bizə Zəmzəm hələ çatmır, hələ Kövsər gecikir.

Etiqad eyləmişik gəh bütə, gəh atəşə çox,
Biz müsəlman ola bildiksə də, kafər gecikir.

Tələsik mülkümü işğal elədi namərdlər,
Qarabağ torpağı yad əldədi, əsgər gecikir.

Mən bu xülyadə ikən gəldi o dildar, dedim:
- Hicri öldürməyə cəhd eylə ki, xəncər gecikir.

Necə xoşdur yenə sevda alovu, ey Şahin,
Neçə ildir yanıram odda, səməndər gecikir.

20.12.2002

* * *

Yar getmək niyyətində… Ortaya hicran düşür…
Neyləyim ki, tutimin yadına Hindistan düşür.

Kim ki, aşiqdir, müdam etməkdədir məntək fəğan,
Aşiqin iqbalına, Rəbbim, neçin əfğan düşür?

«Gəl» desə, xahiş deyil, fərmanını gözlər könül,
Hökmdardan bəndəyə xahiş deyil, fərman düşür.

Ağlamaqdan qorxuram, çünki gözümdən torpağa
Göz yaşımdırmı, deyildir, qətrə-qətrə qan düşür.

Bəxtiyar ollam o dəm, görsəm ki, əllərdən yerə
Ox düşür, nizə düşür, xəncər düşür, qalxan düşür.

Çölgəzənlər görmüşəm qaçmış çölündən, amma ki,
Qeyslər Məcnun olub çöllərdə sərgərdan gəzir.

Fəth edibdir Eşq meydanını Şahin bugün,
Düz deyiblər «hər zaman bir aşiqə meydan düşür».
23.04.2003

* * *

Nə saqi varımdır, nə də qarşımda meyim var,
Yoxdur deyə bunlar gecə-gündüz gileyim var.

Var idi kömək – yar idi, quş timsalı uçdu,
Yoxdur köməyim, qəmdən üzülmüş ürəyim var.

Ümmid edirəm yarımı üqbadə görüm mən,

Dünya, mənim Allah kimi bir köməyim var.

Vahidlərə hər dəm deyirəm rəhmət oxunsun,
Saf şe’ri yaratmaqda mənim həm əməyim var.

İllərlə döyüşdüm o qəlizdillilər ilə,
Zənn eyləyirəm mən hələ möhkəm biləyim var.

Allahın evi Kə’bəsə, göstər mənə, ey yar,
Ev sahibini Kə’bədə görmək diləyim var.

Vardır deyə «Divan» varı çox varlıdı Şahin,
Yoxsul deyiləm, sanki qızıldan dirəyim var.

14.05.2003

* * *

Sülh eşqi ürəklərdəsə, qovğa nə deməkdir?
Qovğayə olan bir belə sevda nə deməkdir?

Gənclikdə də eşq olmadı mə’lum mənə, ey dil,
Baş açmayıram indi də əsla, nə deməkdir?

Leylayə məgər çatdımı məcnuni məhəbbət?
Məcnun görəsən bildimi Leyla nə deməkdir?

Yan-yanə deyildir niyə dərya ilə səhra?
Dərya qabarıb söylədi «səhra nə deməkdir»?

Mə’na nədi, mə’nadəki surət kimə mə’lum?
Surət nədi, surətdəki mə’na nə deməkdir?

Öyrənməyə irfanı müdam cəhd eləsəm də,

Dərk eyləmədim rəmzü müəmma nə deməkdir.

Şahin, neçə il adladı, ay ötdü ömürdən,
Heç bilməyirəm indi də dünya nə deməkdir?

4.06.2003

* * *

*«Qarabağın gülləri*
*Bülbüllərə naz etmir»*
*Ayaz Arabaçı*

Küskündü gözəllər, qışı yaz eyləməyirlər,
Güllər daha bülbüllərə naz eyləməyirlər.

Aşiqlərimiz qüssəyə aludə olublar,
Getdikcə çoxaldır, qəmi az eyləməyirlər.

Əllər niyə vəcd ilə bugün göylərə qalxmır,
Dillər niyə şövq ilə namaz eyləməyirlər?

Köynəkdə qalıb saz, aşıqlar Qarabağda
Ovqatımızı bir daha saz eyləməyirlər.

Şahin də görür, sən də, gözəllər yenə çoxdur,
Onlar məni məftun, ey Ayaz, eyləməyirlər.

28.06.2003

* * *

*Fatimeyi-Zəhra səlamullahi-*
*əleyhanı düşünərək*

Gəlmiş elə bir qətrə dərya kimi getmişdir,
Surət kimi görsənmiş, mə’na kimi getmişdir.

Tarix boyu seyr etdim gördüm elə adəm ki,
Gerçək kimi xəlq olmuş, xülya kimi getmişdir.

İnsanlar olubdur ki, ilğım kimi görsənmiş,
Rö'ya təki ömr etmiş, rö'ya kimi getmişdir.

Gəlmiş elə Leyla ki, getmiş elə Əzra ki,
Sevda ilə var olmuş, sevda kimi getmişdir.

Bə'zən elə dövr olmuş qan ilə qalıb yadda,
Qovğatək olub zahir, dava kimi getmişdir.

Sözlərdə ki hikmət var, söz divan olur bə'zən,
Sözlər dəxi vardır ki, misra kimi getmişdir.

Alqış ola, ey Şahin, əhsən elə simayə
Fatimə kimi gəlmiş, Zəhra kimi getmişdir.

19.08.2003

* * *

Sağ qalmağıma yoxdu gümanım, tükənibdir,
Güc saxlamayır cismdə canım, tükənibdir.

Qan qoymadı canımda mənim qansız adamlar,
Qan azlığı var məndə ki, qanım tükənibdir.

Fəryad eləyə bilməyirəm mən daha, çünki
Ey yar, mənim tabü təvanım tükənibdir.

Yaş çoxluğunun yaxşı əlamətləri həm var,
«Üqba evi» haqqında bəyanım tükənibdir.

«Üqba evi»nə eyləmirəm mən daha şübhə,
Əvvəl var idi, indi gümanım tükənibdir.

Meyxanəyə yox, məscidə getməkdəyəm indi,
Xeyrim çoxalıb indi, ziyanım tükənibdir.

Görməkdə bəsirət gözüm Allahı da, Şahin,
Gün var başım üstündə, dumanım tükənibdir.

8.04.2004

* * *

Getsə əgər hicranı canlandırar,
Getməsə gər cananı canlandırar.

Söylədi eşq əhli «vüsal» isminə,
Gəlsə üzülmüş canı canlandırar.

Eşq ilə vəslin işi birlikdədir,
Birlik işi insanı canlandırar.

Olmasa vəsl atəşi atəş sönər,
Olsa əgər hər yanı canlandırar.

Eşqə bəla söyləməsinlər daha,
Öylə bəla dövranı canlandırar.

Versə şəfa xəstəyə Pərvərdigar,
Xəstə durub loğmanı canlandırar.

Söz deməyə şairə imkan verin,
Şahin Azərbaycanı canlandırar.

23.04.2004

* * *

Nə savabım bitir, ey gül, nə günahım kəsilir,
Nə fəğanım tükənibdir, nə də ahım kəsilir.

Məni tərk eylədiyin gün elədim tərk həzzi,
Yox pənah eyləyən adəm ki, pənahım kəsilir.

Sağ cinahımda fərəh sakin idi, solda sevinc,
Hər tərəfdən görürəm indi cinahım kəsilir.

Məni sənsiz daha çəkmirsə ziyafət, gözəlim,
Nə gərək nuş eləyim badə? Tamahım kəsilir.

Gər bu gün sağ adamam, amma sabahım məchul,
Ola bilsin ki, sabah bəlkə sabahım kəsilir.

Eybi yox, Şahina, hərçənd subay qalsam da,
Görərəm bir gün o dünyadə nikahım kəsilir.

15.05.2004

* * *

Yaş əllini aşdı, hələ çox yaş gərəkdir,
Sirrim yenə daşdı, mənə sirdaş gərəkdir.

Bilməz nədi zivər, nədi zər, ya nədi gövhər,
Dərvişlərin paltarı nimdaş gərəkdir.

Başdan xaraba eylə əlac, söyləmə, loğman:
Divanəyə zəncir, dəliyə daş gərəkdir.

Kim verdi mənə dərdi? Başım şişdi kədərdən,
Tab etməyə baş ağrısına baş gərəkdir.

Sınmış qələmim, yazmaq üçün şe’r qələm yox…
Olmazsa qələm, onda qələmqaş gərəkdir.

Çünki dediyim sözləri yazsın qabağımda,
Çəksin sözü bir-bir, mənə maqqaş gərəkdir.

Göz yaşlarını səpdi yenə, Şahin utanmır,
Aşiq olanın gözlərinə yaş gərəkdir.

25.05.2004

* * *

Kim var deyə sevdadə mənimtək dəli vardır?
Qəlbimdə məhəbbətlərimin məş’əli vardır!

Dünyadə siyasətçilərin heykəli hədsiz!..
Məcnunlərin görməmişəm heykəli vardır.

Bir çoxlarının qəbri bilinmir haralarda…
Məndə ulu aşiqlərimin cədvəli vardır.

Əfsus, ey adəm, bəni-adəm arasında
Adəm donu geymiş qaniçən çox zəli vardır.

Yarəb, niyə dünya evi şeytan ilə dolmuş?
Hər bəd əməl içrə neçə şeytan əli vardır…

Eşq ordusunun rəhbəri olsam da axırda,
Düşdüm başa: Hər bir axırın əvvəli vardır.

Aşiqliyi eyb eyləməsinlər mənə, Şahin,
Bülbül gülü sevmirsə əgər əngəli vardır.

27.05.2005

* * *

*Tamridanı andım*

Ey xoş ol günlər ki, yarı bəxtiyar eylərdi yar,
Ey xoş ol sevda ki, xoş sevdanı var eylərdi yar.

Xatirimdən çıxmayır, son günləriydi yarımın,
Tam ümidsizlik içində ahüzar eylərdi yar.

Var ikən Rəbbin qərarı, ümmidi həm kəsməyib.
Qəlbini hər ləhzə, hər dəm biqərar eylərdi yar.

Qarşısında üzbəüzdü Yer ilən Göy aləmi,
Yerdə qalmaq şövqün amma aşikar eylərdi yar.

Əzrayıldan naəlac almışdı də'vətnaməni,
Tanrı ilən gərçi hər dəm iftixar eylərdi yar.

Canını can aldığı canana vermək fərz ikən
Səbri yoxdu, amma ki, səbrü qərar eylərdi yar.

Xeyli müddətdir ki, Şahin Fazili tənha qoyub…
Ey xoş ol günlər ki, yarı bəxtiyar eylərdi yar.

10.06.2004

* * *

Səcdəyə gərçi müsəlman yerə min-min əyilir,

Şiə nə, sünni nədir, qoymayınız, din əyilir.

Məscidi seyr edibən mən neçə mö’mün gördüm,
Düzlüyü eyləyərək hər kəsə təlqin, əyilir.

Gərçi dünyadə çox insanda qəzəb, kin varsa,
Xeyli şadəm qəzəbin qəddi sınır, kin əyilir.

Görünür bəzi polardlarda dəmirlik meyli,
Nə poladdır bu ki, sınmırsa da, lakin əyilir.

Kişinin təmkini vardırsa bu xislət sınmaz,
Sanmasınlar ki sınır xisləti, təmkin əyilir.

Üstünə qondu gülün, yoxdu həya bülbüldə,
Qarşısında gülün, amma ki, bu Şahin əyilir.

4.07.2004

* * *

Gələcəkdir yanıma şövq ilə ol yar səhər,
Verəcək gün kimi şö’lə evə təkrar səhər.

Ya İlahi, bu gecə sardı məni bihuşluq,
Kömək etsən olaram mən yenə hüşyar səhər.

Sanki cismimdəki şuxluq məni tərk etmişdir,
Olaram mən yenə, əlbəttə ki, pərgar səhər.

Təb’imin şahini bir həftədi pərvaz eləmir,
Təbi dillәndirəcəkdir yenə dildar səhər.

Dodağımtək dodağı indi möhürlənmişdir,

Eybi yoxdur, dodağı sevgi pıçıldar səhər.

Eşqini yeddi gecə etmədi izhar, gedib,
Edəcək aşiqinə eşqini izhar səhər.

İndi yay olsa da, sanki məni dondurmuş qar,
Əriyib, canda qərar etməycək qar səhər.

Dözümüm eyləməyibdir məni heç vəqt xəcil,
Dözürəm mən gecə, çünki görüşüm var səhər.

Gecə təsdiq eləyir yar zərürətliyimi,
Təsdiqi etməyəcəkdir daha inkar səhər.

Ehtiyacım var ona, qəlbi sınıqdır bu kəsin,
Qəlbi tə'mir edəcəkdir yenə me'mar səhər.

Sevgi azarı yoluxmuş sənə, Şahin Fazil,
Səni zar etməyəcəkdir elə azar səhər.

25.07.2004

* * *

Nə zaman ki gözümüz bir gözüşəhlayə dəyər,
Qəddimiz şadlığımızdan ucalıb ayə dəyər.

Hər qəzəlxanə xəyal aləmi xoşdur, mənsə
Yazıram öylə həqiqət neçə xülyayə dəyər.

Başbilənlər ki, deyirlər iki dünya vardır,
Bir dəmim sənlə mənim hər iki dünyayə dəyər.

Ayağım gündə gedir sevgili dilbər tərəfə,

Bəs haçan Qeysin əli şövq ilə Leylayə dəyər?

Hərə peyğəmbərini tə’rif edir, mən də deyim:
Bir Məhəmməd neçə Musa ilə İsayə dəyər!

Dörd səmavi kitabın təkmili – Qur’anımdır,
Onda mə’na görürəm mən neçə mə’nayə dəyər.

Nə gözəldir ulu Şirvan ilə Azərbaycan,
Şahina, gözlərini aç ki, təmaşayə dəyər!

18.08.2004

* * *

Gah sülh izhar edir, hərdən də qovğa göstərir,
Gəh gülür, gah ağlayır, yarım təmaşa göstərir.

Qeyri bir yar etdilər təklif razı olmadı,
Bir baxın Məcnunə ki, şövq ilə Leyla göstərir.

Bir münəccimdən soruşdum «əksilərmi göz yaşım?»,
Söylədi «Qoç bürcüsən, qoç bürcü dərya göstərir».

Umduğumdan zərrəcə dünya xəbərdar olmadı,
Umduğum çox mətləbi amma ki, rö’ya – göstərir.

Bilmirəm mümkünmüdür cəhl aləmindən gen düşək?
Bir kitablıq söz dedim, cahilsə misra göstərir.

Rahət olmaq niyyətim baş tutmadan ilğım olur,
Şahinə zalım fələk hər dəm qasırğa göstərir.

26.08.2004

* * *

Onda ki, oxdanda ox, əldə kaman görsənər,
Üzlərə matəm qonar, gözlərə qan görsənər.

Gəl ki, görünsün gözə yaxşılığın, ey pəri,
Yaxşını göstərməsən, onda yaman görsənər.

Göz qoyuram hey sənə, Leyli nədir, Əsli nə?
Müntəzirəm vəslinə, vəslin haçan görsənər?

Sevgi cəbr, həndəsə! Rəhm eləsən mən kəsə
Səndə təpər, məndəsə tabü təvan görsənər.

İmkana «dirçəl» desən, hicrana «əngəl» desən,
Mən qocaya «gəl» desən, xeyli cavan görsənər.

Əhdini bərkitməsən, qeyzini tərk etməsən,
Xeyrini dərk etməsən, bil ki, ziyan görsənər.

Şahina, görsənmədi yerdə ədalətli şah,
Mehdi əleyhüssalam bəs nə zaman görsənər?

30.08.2004

* * *

Var elə eşq atəşi qüvvət verir,
Öyləsi də var ki əziyyət verir.

Amma, əziyyət ki, gəlir eşqdən,
Dözmək üçün aşiqə taqət verir.

Eşq verir dövləti, zənn etməyin

Dövləti dövlətsizə dövlət verir.

Eşq elmdir, deyirəm elmə eşq,
Eşq gözəllikdi ki ziynət verir.

Yar oxuyur halə gəlib eşqdən,
Haləti hal əhlinə ləzzət verir.

Daima öyrənmədəyəm eşqi mən,
Eşqi bilənlər mənə qiymət verir.

Şahina, öyrən, ulu Pərvərdigar
İnsana öyrənməyə fürsət verir.

11.09.2004

* * *

Yarəb, yenə də gözlərimə yar görünmür,
Zarəm, bu işə e'tirazım var, görünmür.

Hər illətə aləmdə səbəb var isə şəksiz,
Gördüm səbəbi amma səbəbkar görünmür.

Gündüz günə baxdım, gecə etdim aya diqqət,
\- Ey gün – dedim, – ey ay, niyə dildar görünmür?

Əlbəttə, cavab olmadı göydən bu sualə,
Amma, elədim mən yenə israr: Görünmür!

Me'yarım idi, bais idi şənliyə məndə,
Şad olmağıma indi o me'yar görünmür.

Tə'mir eləyən olmayacaqdır səni, eyvah,

Ey qəlb, dağıldın yenə, me’mar görünmür.

Aləm başıma dar idi, dildar göründü,
Şahin, daha aləm başıma dar görünmür.

25.11.2004

* * *

Elə söz söyləmişəm göz görə əğyar əriyir,
Ərisin qoy, əriməkçün səbəbi var, əriyir.

Nə işim, meyl eləsin qoy özütək əğyarə,
Etməsin bir daha dilbərlərə iqrar, əriyir.

Gər səvab etsə idi bəlkə də xar olmazdı,
Günəhi olduğu üçün o günəhkar əriyir.

Ürəyi daş kimidir, mən bilən, əğyar olanın,
Çarəsi yox deyə, mum timsalı naçar əriyir.

Elə insanları görcək ərimək məndə də var,
Qoca şair necə dözsün ki, olub zar, əriyir.

Saçlarım erkən ağarmış acığımdan, neylim,
Eləyib gəncliyimi qəlb də inkar, əriyir.

Deməyin Şahinə ki, ağlamasın körpə kimi
Göz yaşımdırmı? Deyil! Başda olan qar əriyir.

11.03.2005

* * *

Sən ki yoxsan, donuram, çünki otaq odlanmır,

Odlu busən hanı? Çoxdandı dodaq odlanmır,

Telinin yox sığalı gör neçə gündür, gözəlim,
Lalələnmir o yanaqlar və buxaq odlanmır.

Sanki şam, sanki çıraq, sanki ocaq hökm almış,
Söndü şam, söndü çıraq, söndü ocaq, odlanmır.

O alaq sözlərə ziddəm qəzəlin bağında,
Bağibanəm nə təhər mən ki, alaq odlanmır?..

Papağın başdadı, amma Qarabağ yad əldə,
Ey papaqlı, nə üçün başda papaq odlanmır?

Əllərin yoxmu, gücün yoxmu açılmır şillən?
Şapalaq yox deyə düşməndə qulaq odlanmır.

Şahinəm, bilməyirəm, məndə ki od var bu qədər,
Nə üçün əldə qələm, öndə varaq odlanmır?
6.05.2005

* * *

Ey şux, üfüqdə qızaran dan yeri vardır,
Sanki ora həm qan çilənib, qan yeri vardır.

İmkanı yox etdin deyə meylim də yox oldu,
Qəlb içrə fəqət naləvü əfğan yeri vardır.

- İmkan yeri yoxdur, – deyər idim mən ümidsiz,
Sənsə deyər idin mənə: – İmkan yeri vardır.

Məqsudini dərk eyləmədim indiyəcən mən,

Zənnində sənin bəlkə də nöqsan yeri vardır.

Yoxdur bir əlamət bu kəsin hövsələsindən,
Çoxdan tükənibdir səbr, üsyan yeri vardır.

Aşiq yeri yoxdur ürəyində sənin əsla,
Yoxsa orada, ey pəri, şeytan yeri vardır?

Əfsus, vüsalın yeri boş görsənir indi,
Şahin, sinən içrə yenə hicran yeri vardır.

11.12.2005

* * *

Kədərim azca idi, indi müsəlsəl[1] görünür,
Şairin haləti, yarəb, mütəhəvvəl[2] görünür.

Mən yazardım qəzəli həzzü sevinc hissiylə,
Sevinim bir də çətin, iş mütəğəlğəl[3] görünür.

Sevgi taxtında oturmaqda idim yarımla,
Fəxr edirdim ki məqamım nə mücəlləl[4] görünür.

Tac da yoxdur daha, təxtim də əlimdən getmiş,
Halətim gör nə təhər indi mübəddəl[5] görünür.

Necə şad idi bu aşiq, şən idi, indi isə
Qəlbinə zəlzələ düşmüş, mütəzəlzəl[1] görünür.

---

[1] Silsiləli.
[2] Dəyişkən, əvəzlənmiş.
[3] Çətin.
[4] Cah-cəlallı.
[5] Dəyişilmiş.

Dostlarım var idi sadiqdi əməl mülkündə,
Az adam var ki, görürsən mütəəmməl[2] görünür.

Əxlaqı, mərifəti eyləmirəm mən inkar,
Çoxunun əxlaqı amma mütəbəddəl[3] görünür.

Gəmimin yelkəni var idi, çəkirdi qəzəli,
Yelkənim, əsdi küləklər, mütəxəlxəl[4] görünür.

Bu nə sözlərdi düzürsən zor ilən qafiyəyə?
Şahina, əqlin itibdir, bu nə əngəl görünür?

9.01.2006

* * *

Canıma cövr eylədi, canan əlindən əlhəzər,
Canana meyl eyləyərsə, can əlindən əlhəzər.

Dərman isə dərdə, ey dərdim, var ol dərmansız,
Loğman isə gər mənə, loğman əlindən əlhəzər.

Zülfü yorğan timsalı örtülməsin qoy sinəmə,
Qoy soyuq dəysin mənə, yorğan əlindən əlhəzər.

Ağ buxaq gər qarə etmişsə günü, gün görməyim,
Mərcan isə gər dodaq, mərcan əlindən əlhəzər.

E'tibarı qalmayıbdır, sultan insafsız olur,

---

[1] Zəlzələli.
[2] Düşüncəli, dəqiq fikir verən, əməl sahibi.
[3] Əvəz olunmuş.
[4] Deşik-deşik.

Neynirəm sultanı mən, sultan əlindən əlhəzər.

Rəhmi Qur'ani-Kərim vacib bilib hər insana,
Rəhmdil olmaz isə insan, əlindən əlhəzər.

Çoxsa da sinnim, vüsal imkanı əsla az deyil,
Şahina, imkanı boğ, imkan əlindən əlhəzər.

11.01.2006

* * *

Kim bilməsə eşqi ona sevda qadağandır,
Öyrənməyənə üzməyi dərya qadağandır.

Qur'anı oxu, boynuna xaç salma, amandır,
E-yyy, getmə, müsəlmanə kəlisa qadağandır.

Mən surəti mə'na ilə vəhdətdə bəyəndim,
Kim bilməsə surət nədi, mə'na qadağandır.

Cırdı özü öz paltarını, sənsə – günahsız,
Yusif, sənə, əl çək ki, Züleyxa qadağandır.

Bilmirsə əgər qafiyəni, vəzni qəzəlxan,
Vallahi, o cür kimsəyə misra qadağandır.

Həlvanı görüb, surəni bilmərrə unutdu,
Ya Şeyx, de ki, mollaya həlva qadağandır.

Səhrayə gedib orda məkan etməyəcəksə,
Şahin, elə aşiqlərə səhra qadağandır.

2.02.2006

* * *

Ömrümün illəri hərçənd ələklənmədədir,
Görürəm amma yenə ömr çiçəklənmədədir.

Yetsə də qış çağı, qəlbimdə baharım vardır,
Eşq bostanımı seyr et, çiyələklənmədədir.

Yazıram sadə qəzəllər qıcıyan var dişini,
Qəzəlim qeyz ilə hərdən dəyənəklənmədədir.

Gah Ələmdar eləyir həmlə, gəhi Tacəddin,
Soruşan varmı bu şair niyə təklənmədədir?

Yenə artır qəzəl içrə sözü farsın, ərəbin,
Şe'rimiz güya o sözlərlə bəzəklənmədədir.

Azalır məndə qəzəb-kin ramazan gəldikdə,
Sanki insan ramazan vatxtı mələklənmədədir.

Bələyə ehtiyacı yox böyüdükdə cocuğun,
Qocalar var ki, yaş artdıqca bələklənmədədir.

Düşünürdüm qocalıb baxmaram afətlərə mən,
Şahinə bax ki, qocaldıqca ürəklənmədədir.
11.03.2006

* * *

Şamı pərvanə və pərvanəni şam yaxşı bilir,
Şərabın tə'sirini bəlkə də cam yaxşı bilir.

Ustadın dərdini ustad, şahın dərdini şah,

Qulamın dərdini, əlbəttə, qulam yaxşı bilir.

İnanar kim buna ki, eşqü məhəbbət yoxdur,
Sevginin varlığını hətta avam yaxşı bilir.

Bir uşaqdan xəbər aldım ki, nədir eşq, - dedi:
- Bunu mən bilməyirəm, bilsə atam yaxşı bilir.

Aşiqəm, eşqdə qalib oluram inşallah,
İnanar kim buna aşiqliyi xam yaxşı bilir.

Barəkallah o cür aşiqə ki arifdir!
Leylinin xiffətini ibni-Salam yaxşı bilir.

«Qəzəli sadə yazın» yazdı Füzuli ki, bunu
O qəzəlxan kimi bir aliməqam yaxşı bilir.

Gərçi bilsəm də ərəb-farsı, qəliz yazmayıram,
Tanıyanlar məni məqsudimi tam yaxşı bilir.

Şahinəm, xəlqi qəzəl yazmadayam mən daim,
Qəzəli namixuda ki, bu adam yaxşı bilir.

26.03.2006

* * *

Yarədir könlüm mənim, gündüz-gecə yar istəyir,
Bəs qədər vardır vəfasız kəs, vəfadar istəyir.

Mən ki yarın şadiman ovqatını var istərəm,
Yar isə, bilməm, neçin ovqatımı zar istəyir.

Bir qayıqtək sınmışam, dəryadə qərq olmaqdayam,

Varmı me'marım ki gəlsin, qəlb me'mar istəyir.

Dərd əliylə mən ki yağdırdım başa qar, ey könül,
Donmağından qorxmayırmı, başə bax, qar istəyir.

Hüşyarlıq dövrüdür, tərk etməsin hüş heç kimi,
Asi könlüm daima hüşyarı hüşyar istəyir.

Leylisiz çöllərdə qalmaq istəmir biçarə Qeys,
Əqlini bənd eyləməkçin başə mismar istəyir.

Şahininsə əqli çıxmışdır başından mənbilən,
«Yahu, yahu» söyləyir, Mənsurtək dar istəyir.

14.05.2006

* * *

Yerdə, zənn eyləyirəm, indi müqəddəs yoxdur,
Etiraz eyləyəcək kim bu sözə? Səs yoxdur!

Ey Xətai, necə asudədi Eşq meydanı!
Yox Ərəbzəngi bu meydanda, kəsakəs yoxdur.

Bağiban, qoxlayıram bir gülü gündüz və gecə,
Mənə «bəsdir» deməsinlər ki, mənə «bəs» yoxdur.

Elə bir gün gələcəkdirmi deyim dünyayə:
«Görmürəm mən daha nakəsləri, nakəs yoxdur».

Necə xoşdur mənə, ey gül, yenə «qal» söylərsən,
Mən kimi aşiqə «qal» varsa, mürəxxəs yoxdur.

Özümü həbs edirəm mən sən olan yerdə fəqət,

Axı, bundan da gözəl aşiqə məhbəs yoxdur.

Gözəlim, bir daha sən getmə müəllim yanına,
Eşqi Şahin kimi tədris eləyən kəs yoxdur!

4.11.2006

* * *

Yarəb, niyə sultanlar kaşanədən əl çəkmir?
Gerçəkliyə bağlanmır, əfsanədən əl çəkmir?

Bilmirmi məgər yoxdur dünya varına ümmid?
Sən zərgərə bir bax ki, dürdanədən əl çəkmir.

Pərvanə yaxır cismi odlara neçin? Yoxsa
Şəm'in qərəzi var ki, pərvanədən əl çkmir?

Əqli sürüşüb başdan, Qeysin yeri səhradır,
Amma, nə üçün Leyli divanədən əl çəkmir?

Meyxanəyə imanı təkmilü mükəmməldir,
Şahin kimi aşiqlər meyxanədən əl çəkmir.

18.11.2006

* * *

Ürəyimdə üzünün xiffəti başlanmışdır,
Gözlərimdə gözünün həsrəti başlanmışdır.

Gündə minlərlə nəzər həmləsinə tuş oldun,
Sanki monqol köçünün qarəti başlanmışdır.

El bilir, ölkə bilir, qit'ə bilir eşqimizi,

Bu açıq ülfətimiz xəlvəti başlanmışdır.

Niyə səndən yazı yazmır bu qədər şairlər?
Yenə Leyla və Şirin söhbəti başlanmışdır.

Yuxu gördüm ki, daha qiymətimi şah bilir,
Mənə Şah İsmayılın rəğbəti başlanmışdır.

Köhnə sözlərlə şe'r yazmağı qoydum qırağa,
Təzə söz söyləməyin fürsəti başlanmışdır.

Çağırırlar məni alim kimi çox məmləkətə,
Tehranın, Ankaranın də'vəti başlanmışdır.

İki divanı bitirdim və üçüncü – hazır,
Şahinin həm deyəsən şöhrəti başlanmışdır.

* * *

Çoxalıbdırsa da ulduz qədəri gər dilbər,
Görmədim mən bu şəhərdə sənə bənzər dilbər.

Öpürəm, oxşayıram, qoxlayıram hər çiçəyi,
Şairə indi fəqət lalə – sənubər dilbər.

Gül də dilbər kimidir, bağdə dilbər yetişir,
Bağiban inciyəcəkdir, deməram «dər dilbər».

Soruşurlar «belə tənha yaşayırsan nə üçün?»,
Görmürəm mən yarıma çünki bərabər dilbər.

Qeyb edib dilbərimi yerdə, münəccim sayağı

Gəzirəm göydə onu, ulduza bənzər dilbər.

Var qəzəlxan ki, yazır dilbərə üç-dörd misra,
Yazdırıb amma mənə bir neçə dəftər, dilbər.

Sordular: «Son nəfəsində nə desin aşiqlər?»,
Eləyib nalə bu Şahin dedi: «Dilbər, dilbər!».

4.12.2006

* * *

Nə oyağəm, nə ayıq mən, nə gözə rö’ya var,
Yenə beynimdə bu gün fırtına var, qovğa var.

Nə varam mən, nə də yox, var ilə yox məndə yaşar,
Deməsinlər ki, başında bu kəsin əmma var.

Deyirəm daima hicranü məhəbbət və vüsal,
Qəzəlimdə belə məzmunlu nə çox misra var?..

Mən ki, məntiqdən uzaq söz demirəm heç və’də,
Surət haqqında nə yazsam orada mə’na var.

Hanı əvvəlki sevənlər ki, vəsldən qaçsın?
Nə bu gün Vamiqi görrük, nə bu gün Əzra var.

Səni salcaq yada, yarım, yadıma şirni düşür,
Mollanın ordadı fikri harada həlva var.

Şahina, tək yaşayırsan nə üçün Məcnun tək?
Görməyirsənmi şəhərdə nə qədər Leyla var?

6.12.2006

* * *

Nə təzad oldu belə: Vamiqi Əzra aparır,
Əllərindən yapışıb Məcnunu Leyla aparır.

Yay kimi qəddi əyilmiş qoca bir gənc gördüm,
Dedilər: Aşiq idi, qəlbdə sevda aparır.

Açıram gözlərimi mən neçə əğyar görürəm,
Yumuram fikrimi Yusiflə Züleyxa aparır.

Bekar insanları gördükdə təəccüblənirəm,
Mən qarışqa görürəm, ya gətirir, ya aparır.

Zövq ilə ömr sürürdüm bu qoca dünyadə,
Məni şövq ilə çəkib indi o dünya aparır.

Saqidən olmaq uzaq meylinə düşdüm amma
Əl çəkə bilməyirəm, meyli təmənna aparır.

Bilmədən üzməyi tullanma çaya, ey Şahin,
Üzməyi bilməyənin cismini dərya aparır.

10.12.2006

* * *

Qaranı gər qova bilsək, qara ağ olmalıdır,
Qovmuşuq, bizdən o ağ rəng qaçaq olmalıdır.

Ucunu biz qələmin bəlkə də sındırmalıyıq,
Mənbilən, beldə qılınc, əldə bıçaq olmalıdır.

Saqi də bir neçə müddət qələmi gizlətsin,

Mey də, meyxanə də bizlərdən uzaq olmalıdır.

Qolumuz yar qoluna qoy hələ həsrət qalsın,
Qolda, əlbəttə, tüfəng, başda papaq olmalıdır.

Dil-dodaq əmr eləsin cəngə gedək, başqa cürə
Nə dodaq söhbəti olmaz, nə qucaq olmalıdır.

Əgər Allah-taala qələbə bəxş eləsə,
O zaman bizlərə ən nəş'əli çağ olmalıdır.

Şahina, olmasa niyyət Qarabağ, ölməliyik,
Qarabağ olmalıdırsa, Qarabağ olmalıdır!!!

7.01.2007

* * *

Bağıban, bağ-bağatından yenə yar ətri gəlir,
Qoxladım ətrini günlərlə, nigar ətri gəlir.

Xəzəri sevməyənin həddi ötübdür həddən,
Xəzərin zümzüməsindən giləvar ətri gəlir.

Qızınıbdır hava könlüm kimi, amma ki yenə
Şahdağın zirvəsi üstdən mənə qar ətri gəlir.

Canı sərməst eləyibdir kamanın fəlsəfəsi,
Tarın ecazına bax, «Şur»ü «Qatar» ətri gəlir.

Deməsinlər mənə heç vədə: «Sözündən, şair,
Ermən Əsli ilə, gürcü Xumar ətri gəlir».

Ürəyim daima görmək diləyir öz yarımı,

Qoy desinlər ki «gedək gülşənə, yar ətri gəlir».

Ömrümün, Şahina, qış fəsli gəlibdir, amma
Şe'rimin kəlmələrindənsə bahar ətri gəlir.

10.03.2007

* * *

*Bu gün Tamridanın vəfatı günüdür. Altı il ötdü…*

Xanəm məzar oldu altı ildir,
Şahinsə zar oldu altı ildir.

Aləmlərə dərdimin sədası
Naləmlə car oldu altı ildir.

Hərçənd, bilirəm ki, dönməz oldu,
Göz intizar oldu altı ildir.

Həzzim yoxa çıxdı sevgilim tək,
Qəm-qüssə var oldu altı ildir.

Yay fəsli də can donur, isinmir,
Qəlbimdə qar oldu altı ildir.

Eyvah, ölə bilmirəm mən amma,
Ölmək qərar oldu altı ildir.

Ey Tanrı, apar məni cahandan
Şahin bezar oldu altı ildir.

30.04.2007

* * *

Dünyaya məhəbbət mənə yar ilə gəlibmiş,
Sevdaya sədaqət o nigar ilə gəlibmiş.

Qovğa şüarı sonra yaranmış yer üzündə,
Həvva nənə «Eşq!» adlı şüar ilə gəlibmiş.

Yer pak idi, şeytanlara yer olmamalıymış,
Adəm yerə, söz yox ki, qərar ilə gəlibmiş.

Bağ belləyən hər kimsənədən bağiban olmaz,
Bağban bağa barmaqda qabar ilə gəlibmiş.

Mey gəldiyi dəm artdı xumarım, hanı saqi?
Saqi həvəsi canə xumar ilə gəlibmiş.

Mənsur xumar olmadımı dar ağacında?
Meyxanə xumarı ona dar ilə gəlibmiş.

Gül mövsümü başlandı, qanım qaynadı billah,
Eşq əhlinə yar eşqi bahar ilə gəlibmiş.

Pərvazın ilə fəxr eləmə şe'rdə, Şahin,
Şahin kimilər bəlkə qatar ilə gəlibmiş.

20.08.2002

* * *

Bir çoxları tədric ilə cananə vurulmuş,
Şahin isə birdən-birə İranə vurulmuş.

Əfrasiyabın taxtı olan ölkəyə getmiş,

Şah İsmayılın girdiyi meydanə vurulmuş.

Məcnuni məhəbbətlə olub Təbrizə aşiq,
Sevdalı xəyalat ilə Tehranə vurulmuş.

Uçmuş Həmədan səmtinə, Urmiyyəni gəzmiş,
Şövq ilə Quma, vəcd ilə Zəncanə vurulmuş.

Qəzvin ilə ünsiyyət edib Yəzdə tələsmiş,
Kaşan ilə, Şiraz ilə Kirmanə vurulmuş.

Mərdanələri öylə ediblər onu məftun,
Mərdanələri var deyə mərdanə vurulmuş.

Şairlərinin fəzlini dərk eylədiyindən
İrfanı sevibdir deyə irfanə vurulmuş.

İllərlə İmam[1] ölkədə haqsızlığa qarşı
Üsyan eləyibdir deyə üsyanə vurulmuş.

Vurğunluq üçün bir yerə çox vəqt gərəkdir,
Şahin isə birdən-birə İranə vurulmuş.

7.02.2003

* * *

Kim söyləsə eşq aləmi zillətli olurmuş,
Zənnimcə o kəs təkliyə həsrətli olurmuş.

Eşqin dadını bilməyənə şəkkər apar ver,
Bilsin o ki, şəkkər necə ləzzətli olurmuş.

---

[1] İmam Xomeyni

Bildim baxıb aqillərə mən əfv gözüylə
Məcnun kimilər eşq ilə şöhrətli olurmuş.

Leylayə tutub üz «Məni ağlat» dedi Məcnun,
Ağlarsa kişi, sanma ki, töhmətli olurmuş.

Göz yaşlarımı yığ, qurudub as qulağından,
Mirvariləşən göz yaşı qiymətli olurmuş.

Yar ilə ömür-gün sürən adəm necə bilsin
Yarsız yaşamaq xeyli əziyyətli olurmuş.

Şahin, elə hicrət bu cahandan ki, desinlər:
Şahin kimilər yarə sədaqətli olurmuş.

11.10.2006

* * *

Eşq oxları bir-bir bata qoy canə, gözəlmiş,
Eşq oxlarını yağdıra cananə, gözəlmiş.

Bir barmağı yandıqda «canım çıxdı» deyən var,
Şövq ilə yanan atəşə pərvanə gözəlmiş.

İmkan ilə meylin arası xeyli sərindi,
Meyl eyləyirəm mən yenə imkanə, gözəlmiş.

Bədbin olan aşiqdə itərmiş gülə həm şövq,
Verdim təzədən şövqü gülüstanə, gözəlmiş.

Dünyadə vüsal həzzinə yetmək yalan imiş,
Qurban eləyən vəslini hicranə gözəlmiş.

Saqqalı böyük, zülfü uzun, dərdi qədərsiz,
İstəklisi Leyla idi, divanə gözəlmiş.

Meyxanəyə dəysə qədəmi, Şahina, şeyxin
Qur'anə içər and ki, meyxanə gözəlmiş!

12.12.2006

* * *

Şe'rimin zövqü səfası mənə olmuş qismət,
Əruzu, həm də hecası mənə olmuş qismət.

«Qulhuvallahu əhəd» söyləyirəm hər ləhzə,
Tanrımın xeyrü duası mənə olmuş qismət.

O, qəmərdir ki, ziyası mənə bəxş olmuşdur,
O, günəşdir ki, şüası mənə olmuş qismət.

«Rəbbi ərni»[1] dedilər, dağ elədi əksi-səda,
O sədanınmı səfası mənə olmuş qismət?

Qur'anı bilməyə, öyrənməyə cəhd eyləmişəm,
Bu səbəbdən də şəfası mənə olmuş qismət.

Çox təəssüf bugün əğyar ilə dünya dolmuş,
Aləmin böylə cəfası mənə olmuş qismət.

Adi bir Şahinəm, ey büt, nə adım Musadır,
Nə də Musanın əsası mənə olmuş qismət.

14.07.2002

---

[1] «Allahım, özünü mənə göstər» (Qur'ani-Kərimdən)

* * *

Şadəm, yığışıbdır o qədər canə məhəbbət
Bir gün edəcəkdir məni divanə məhəbbət.

Kim ziynəti sərvətdə gəzirsə deyirəm ki,
Ziynətdir əzəldən bəri insanə məhəbbət.

Yoxdur buna şəkk-şübhə ki, naqisdir o aşiq
Etmirsə əgər sevgili cananə məhəbbət.

Zülmətlərə qərq eyləyəcək aləmi sönsə,
Qoy gün kimi daim alışıb – yanə məhəbbət.

Olsam da həlim, amma ki haqsızlığı görcək
Sövq etmədə hərdən məni üsyanə məhəbbət.

Hökm eyləsə də, coşsa da, qışqırsa da, amma
Qalib gələcəkdir dəli hicranə məhəbbət.

Əfqan elinə varsa da atəş dolu sevgi,
Köksümdə yanır Azəribaycanə məhəbbət.

Məcnunə məhəbbətlə ərəb mülkünü gəzdim,
Var məndə o gündən Ərəbistanə məhəbbət.

İstanbula getdim neçə yol, qəlbim içində
Türkiyyəyə sevda dolu, turanə məhəbbət.

Eylərsə məhəbbət çoxu iranlı nigarə,
Şahinsə edibdir bütün İranə məhəbbət.

3.12.2002

* * *

Qışdan uzadıbdır əlini yazə məhəbbət,
Qəlbimdə çiçəklənmədə bir tazə məhəbbət.

Billah, tükənməkdə daha səbri vüsalın,
Hicranlərin qəbrini qoy qazə məhəbbət.

Zənn eyləyirəm ki, üşüməz bir də soyuqdan,
Başlar təzədən isti bir avazə məhəbbət.

Eşq ummada gündüz-gecə dünya yekəlikdə,
Qane ola bilmir deyəsən azə məhəbbət.

Fikr eyləyirəm bəxş edəcəkdir təzə ahəng
Rasta, Rahaba, Şüştərə, Şahnazə məhəbbət.

Əvvəlki sehr-möcüzə eylər yenə icad,
Başlar təzədən sehr ilə e'cazə məhəbbət.

Şahin, o təhər sev ki, yaransın təzə dastan,
Qoy şövq ilə bir tazə nağıl yazə məhəbbət.

30.06.2003

* * *

*«Bəsirət» dini icmasının sədri*
*Dilarə xanıma ithaf*

Heç kəs deyə bilməz ki, nə hikmətdi bəsirət[1],

[1] Bəsirət – müqəddəs nur ilə işıqlanan qəlb qüvvəsinə (qəlbin gözünə, qəlbin sözünə) deyilir (Bax: Fərhənge-Moin, I cild, Tehran, 1378, s.46).

Bir möcüzədi, rəmzü kəramətdi bəsirət.

Ömrümdə mənim görmədiyim sirli görüntü,
Mən bilmədiyim bəlkə də hicrətdi bəsirət.

E’cazdı ürəklərdəki xəlvətxana içrə,
Xəlvətxanada xəlvəti xəlvətdi bəsirət.

Mə’na ilə surətdi edən şairi heyran,
Mə’nadı bəsirət, demə surətdi bəsirət!

«Heyran» ilə «heyrət»də təfavüt məgər azmı?
«Heyrət» dedilər çoxları, heyrətdi bəsirət.

Gördümsə də, hər zinətə zinət demədim mən,
Hər kimdə var isə, ona, zinətdi bəsirət.

Bildim ki bəsirət nəsə, ariflərə bəlli,
Aşiqlərə mə’lum ki nə sərvətdi bəsirət.

Kim söyləsə «yoxdur», ona «vardır» deyirəm mən,
Gerçəkdi bəsirət və həqiqətdi bəsirət.

Hər kəsdə bəsirət gözü yoxdur, qoca Şahin!
Qəlbin gözü, əlbəttə, bəsirətdi, bəsirət!!!

23.10.2003

* * *

Mey süzüb büllur qədəhdən eyləyirlər yarı məst,
Mənsə sevda dərsim ilə etmişəm dildarı məst.

Qərq olub rö’yayə gördüm sakinəm meyxanədə,

Eyləmişdi tarzən mizrabı sərxoş, tarı məst.

Vardı tövbə badədən, meydən, şərabdan, camdən,
Mey verib, ey saqi, etdin mən kimi hüşyarı məst.

Dəf döyüldü, başladı rəqqasələr rəqs etməyə,
Qolda qolbağ məst oldu, sinədə mirvari məst.

Şövq ilən məscidə üz tutdum çıxıb meyxanədən,
Məscidi abad gördüm… olmamış me'marı məst.

Birbəbir divarı sanki həmlə etdi üstümə,
Mənmi məst idim bu gün, ya məscidin divarı məst?

Məst edirdi surələr, həm ayələr möminləri,
Şeyxlər məst, mollalar məst, zahidü zəvvarı məst.

Mən çıxıb məsciddən yazdım bu şe'ri dəftərə,
Bidar oldum… Görməmiş heç kimsə bir bidarı məst.

Biədəbdir, məst olub güldən-gülə qonmaqdadır,
Nazəninlər etməsinlər bir daha əğyarı məst.

Badə məsti olmasınlar heç zaman qəmxarlər,
Qəmçəkəndir, görməyək heç bir zaman qəmxarı məst.

Xoş təbiət badəsiz həm məst edir aşiqləri,
Bülbülü xummar gördüm, gülşəni, gülzarı məst.

Məst adamdan kim görübdür düzgün iş icra ola?
Bəllidir ki, düz yeritməz taxtaya mismarı məst.

Məndə tam hüşyarlıq yox, tam məstlik, Şahina,

Bir qəzəlxanəm ki, yazdım yarı hüşyar, yarı məst.
22.01.2004

* * *

*Jurnalist və şair Mirvari*
*xanım Rəhimzadəyə*

Sanmaqda könül təkcə o dildarı kifayət,
Hər aşiqə, əlbəttə ki, bir yarı kifayət.

Şan-şöhrəti az bildi çoxu cəhd eyləyib çox,
Bildim özümə mən isə ilqarı kifayət.

Abad edərəm qəsrini eşqin izn olsa,
Sevda evinin mən kimi me'marı kifayət.

Bəsdir, qədəhi bir də mənə eyləmə təklif,
Saqi, qədəhi saxlama, inkarı kifayət.

Çəng ilə, rübab ilə, kaman ilə öyünnəm,
Zənn eyləmirəm məclisimə tarı kifayət.

Mən yarımı xoş söhbətə cəlb eyləyə bilsəm,
Yarın mənə xoş söhbəti, rəftarı kifayət.

Olmur çoxu dərya dolu mərcan ilə qane,
Şahin, sənə bir xırdaca mirvari kifayət.
28.03.2004

* * *

Hərdən soruşan olsa «Nə adətdi ibadət»,
Ərz eyləyirəm böylə: «Səadətdi ibadət!».

Bir cüz'i işarət, – dedilər, – aşiqə bəsdir,
Ey qafil olan bəndə, işarətdi ibadət.

Əlbəttə, yönəlməkdə ibadət ulu Həqqə,
Peyğəmbərə sidq ilə itaətdi ibadət.

Cismani məhəbbət tükənər vaxtı gələndə,
Amma bizə ruhani məhəbbətdi ibadət.

Kafər elə kəsdir ki, ibadət nədi bilmir,
Gər şəxs şərifdirsə, şərafətdi ibadət.

Yetdikdə əcəl yerdən ibadətlə uzaqlaş,
Həqq aləminə doğru səyahətdi ibadət.

Şahin, oxuma şe'ri kifayətlənə bilsən,
Amma, demə heç və'də kifayətdi ibadət.

2.12.2005

* * *

Qalxır su göyə, dalğanı ümman eləyir məst,
Qəlbimdəki sakitliyi tufan eləyir məst.

İmkansızı gündən-günə imkansız edirsə,
İmkanlını dəmdən-dəmə imkan eləyir məst.

Şeytanı neçin qəhr ilə öldürməyir Allah,
Allahı məgər yerdəki şeytan eləyir məst?

Məstanə edir sultanı, əlbəttə ki, bəndə,
Mən görməmişəm bəndəni sultan eləyir məst.

Bəd kəlmə deyib qəlbimi sındırma, amandır,
Xoş sözlər ilə bimarı loğman eləyir məst.

Mən canımı ruhani olan eşqə verəndən,
Ruhi, elə zənn eyləyirəm, can eləyir məst.

Bir molla demiş Şahinə ki «gündə namaz qıl»,
Vaxtım hanı, saqi məni hər an eləyir məst.

29.06.2007

* * *

Dildar deyil o, mənə dildar budur, bu,
Bir qeyrisi mümkünmü məgər, yar budur, bu.

Var etmə tələb, çünki yoxumdur vara şövqüm,
Varım qəzəlimdir, gözəlim, var budur, bu.

Aşiqlərin «Eşq» oldu sözü, eşq ola eşqə,
Rədd eyləsə kim eşqi xətakar budur, bu.

İnkar eləyən varsa da, təsdiq bu sözdür,
Təsdiq eləyən varsa da, inkar budur, bu.

Sabitqədəməm hər əməlimdə, buna yox şəkk,
Sabitdi qərarım yenə, iqrar budur, bu.

Vacibdi əməldə kişilik, sözdə bütövlük,
Fikrimdə müdam eylərəm israr, budur, bu.

Şahin kimilər qeyri qazanc fikrinə düşməz,
Eşq oldu qazancım, mənə me'yar budur, bu!

14.01.2003

* * *

Gördüm dilini dilim tutuldu,
Gözdən tökülən selim tutuldu.

Tərk etməyirəm səni bir an da,
Sanki ayağım, əlim tutuldu.

Açmır gözünü səni görəndən,
Qönçə dedi ki, gülüm tutuldu.

Görcək üzünü qaraldı şə'm həm,
Yanmır daha qəndilim, tutuldu.

Sən ki, belə cəh-cəh eyləyirsən,
Bənd oldu bəmim, zilim tutuldu.

Sanki fərəhin ayağı varmış,
Gəldi elə mənzilim tutuldu.

Şahin çölə üz tutanda, qorxub
Məcnun dedi ki, çölüm tutuldu.

21.02.2003

* * *

Hamını tərk eləyib qəm mənə mehman oldu,
Ürəyi qan ola, yarəb, ürəyim qan oldu.

Nikbin idim mən əzəllər, deyiləm indi isə,
Bu sevən tapmayıban həzzi pərişan oldu.

Geriyə dönməyinə qaldımı imkan, ey can,
Nə göründü buna tədbir, nə imkan oldu.

Mən xəyalınla xoşam indi Şəfai[1] sayağı,
Səni andıqca çətinlik mənə asan oldu.

Mənzilimdə səni gördüm yenə əvvəlki təki,
Sanki aşiq yenə hallandı, xuraman oldu.

Çırağı söndürübən bax mənə, yandır gözünü
Ki, deyim mən «otağım gör nə çıraqban oldu».

«Gözə görsənmə» deyib hökm elədim hicranə,
Kölə olmuşdu bu Şahin, yenə sultan oldu.

5.03.2003

* * *

Olmayacaqsa alağın qorxusu,
Qalmayacaqdır bu bağın qorxusu.

Çox gülü var şe'r gülüstanının,
Yan ola ondan bıçağın qorxusu.

Qıymayıram güllərə də hicranı,
Qəlbi sarıbdır fərağın qorxusu.

Altına düşməz qələmin dəmbədəm
Olsa qələmdən fərağın qorxusu.

---

[1] «Hər çətin asan olur, amma çətin asan olur»
Məmmədəli Şəfai

Sirrimizi özgəyə faş etməsə
Olmayacaqdır dodağın qorxusu.

Başda papaqlar çoxalıbdır yenə,
Çıxdı başımdan papağın qorxusu.

Gözləyirəm mən əcəli, Şahina,
Gəldi yaxından uzağın qorxusu.

31.12.2003

* * *

Beynimdə neçin qalmadı xülya, göyə uçdu,
Etməkmi dilər ərşə təmaşa, göyə uçdu.

Qəlb içrə dəmadəm neçə sevda yaşadırdım,
Amma ki, qərar etmədi sevda, göyə uçdu.

Mə’nadəki surət nədi, surətdəki mə’na?
Surət gözümə dəysə də, mə’na göyə uçdu.

Dünyayə yer üstündə gəlibdirsə də şəksiz,
Mehdi yerə bənd olmadı amma, göyə uçdu.

Eyb eyləməyin yerdə görüb zülmünü, bir gün
Yerdən götürüb cismini İsa göyə uçdu.

Axtardım İraq içrə gəzib, yoxdu məzarı,
Yox şübhə ki, Məcnun ilə Leyla göyə uçdu.

Yer yerdi, nədir göy, bunu anlat, qoca Şahin,
Bir gün görəcəklər ki, bu dünya göyə uçdu.

17.08.2004

* * *

Qəlb içrə sevinc var idi, lakin necə oldu?
Arzum-diləyim bəlkə də min-min, necə oldu?

Xülyalarımız var idi yüz-yüz, yoxa çıxdı,
Misralarımız var idi rəngin, necə oldu?

Güldən və çiçəkdən və küləkdən səni sordum,
Agah elə, aşiqdəki təmkin necə oldu?

Reyhan ilə, zanbaq ilə tez-tez danışardım,
Dəymir gözə, nərgiz ilə nəsrin necə oldu?

Məktub aparan var idi, yoxdur nə zamandır,
Gəlmir daha, qeyb oldu, göyərçin necə oldu?

Gördüm yuxu, ümmid elədim çin olacaqdır,
Ey Rəbb, yuxum oldu məgər çin, necə oldu?

Sən Şahini bir gün itirib tapmayacaqsan,
Tez-tez baxacaqsan göyə «Şahin necə oldu?»

26.10.2004

* * *

Dil yarı soraqlar yenə, sevdayə nə oldu?
Boş qaldı varaqlar yenə, misrayə nə oldu?

Təb'in quşu cəh-cəh ki edərdi, dilə gəlmir,
İfa eləmir nəğməmi, ifayə nə oldu?

Surət çəmənində yenə mə'na gülü yoxdur,
Surət görünür gözlərə, mə'nayə nə oldu?

Təb tutisi gündüz-gecə həlva diləyirdi,
Həlva diləyən quş hanı, həlvayə nə oldu?

Dəymir gözümə dağ, dərə, dəryavü biyaban,
Ey dadi-bidad, çöl hanı, səhrayə nə oldu?

Bir gündü qalıbdır yenə yar yarə tamarzı,
Məcnunə nə oldu, axı Leylayə nə oldu?

Cananı çağır yanına, dünya boşalıbdır,
Şahin, daha söylənmə ki, dünyayə nə oldu?

2.04.2005

* * *

Torpağın altı qızıl qanlara qəltan oldu,
Bu səbəbdənmi onun üstü gülüstan oldu?

Qırmızı gülləri gördükcə gözüm dincəldi,
Qırmızı qanlara baxdıqca ciyər qan oldu.

Əfqanıstan, Ərəbistan, Çeçenistan qanlı…
Həm də al qanına qərq Azəribaycan oldu.

Bu müsəlman arasında niyə yoxdur birlik?
Nə bəla gəldi müsəlmanə pərişan oldu?

Mirzə Sabir harada gördü müsəlman, qorxdu,
Mirzə Şahin də onun timsalı peşman oldu.

Görürəm yurdumu bəd gündə, fəğan eyləyirəm,
Bizi urcah eləyən zülmə nə nöqsan oldu?

Yandırın cismimi hindu kimi, ey yoldaşlar,
Sağ ikən Şahinə bəsdir ki, müsəlman oldu.

28.02.2006

* * *

Sənsən ki, sevəndən məni qəm-qüssə yan oldu,
Sənsən ki, yanında qoca aşiq cavan oldu.

Öldüm və dirildim neçə yol sevgi yolunda,
Ustadıma əhsən, bu da bir imtahan oldu.

Rəftar ki, sərt idi, təəccüb eləyənlər
Heyrətlə deyirlər «nə yaman mehriban oldu».

Məndən sənə qəlbimdəki atəş dolu sevgi,
Səndən mənə, şadəm ki, məhəbbət qalan oldu.

Bir vəsl dəmində neçə min faidə gördüm,
Sənsiz mənə, günlər ki keçirdim, ziyan oldu.

Ömr etmədəyəm indisə şan-şöhrət içində,
Şöhrət mənə eşq oldu bugün, sevgi şan oldu.

Vallah, Ərəbistandakı aşiq mənə çatmaz,
Şahin elə divanə ki, Məcnun yalan oldu.

21.03.2006

* * *

Deməyin «eyləmə tə’rif kədər üstünlüyünü»,
Tuti bilməkdədi, əlbət şəkər üstünlüyünü.

Qəzəlim çox zərə layiqdi, bilir fazillər,
Zərgərəm, bilməyirəm mənsə zər üstünlüyünü.

Bağımın yox çəpəri, gül diləyənlər gəlsin,
Bağibansa tutur üstün çəpər üstünlüyünü.

«Aşiq olmaq, - deməsinlər ki, - zərərdir qəlbə»,
Görmədim faidə, bildim zərər üstünlüyünü.

Düşdü səhrayə ərəb Qeys Ərəbistan içrə,
Mənsə isbat edə bildim şəhər üstünlüyünü.

Əfqanıstanə səfərdə neçə dərviş gördüm,
Oturan evdə nə bilsin səfər üstünlüyünü.

Hünərimdan nə deyim, Şahina, üç «Divan»la
Elədim çox kəsə isbat hünər üstünlüyünü.
25.09.2004

* * *

Nə üçün düşmənə qarşı yeni qovğa olmaz?
Şah Xətai kimi şahım niyə peyda olmaz?

Niyə çox çəkdi, İlahi, Qarabağ məsələsi?
Niyə yurdumda elin dincliyi bərpa olmaz?

Tökürəm göz yaşımı mən yerə dərya-dərya,

Kim deyir «bir nəfərin göz yaşı dərya olmaz»?

Bir qəzəlxan mənə bir «gizli müəmma» yazdı,
Bisavad bilmədi ki, «gizli müəmma» olmaz.

Saqi içmək diləyir badəni məntək, amma
Bilməyir ki, buna tab onda olar, ya olmaz.

Bu xəyallar ilə səhrayə tərəf üz tutdum,
Dedilər «gerçəyi axtar, daha xülya olmaz».

Güldü Məcnun ki, qayıt get şəhərə, ey Şahin,
Hər kəsin məskəni, səhv eyləmə, səhra olmaz.

15.06.2002

* * *

Kim deyir «şəm'» yazılsın qəzələ, «şam» olmaz?
Yazıram «şam», mənə öylə sərəncam olmaz!

Bilirəm qiymətini xəlqi sözün, sərrafəm,
Xəlqi sözlərlə yazan şe'rini bədnam olmaz.

Dilimin qədrini bilmək mənə amal olmuş,
Arifəm, arif olan kimsənələr xam olmaz.

Adıma həm də ki, aşiq dedilər illərlə,
Mənə eyham eləmə, aşiqə eyham olmaz.

Məqsədim dərdimə əncam eləməkdirsə əgər,
Yetməsəm məqsədimə dərdimə əncam olmaz.

Cırmasa köynəyimi gərçi Züleyxanın əli,

Şahina, həşrə qədər məndə can aram olmaz.
4.09.2003

* * *

İnsanə cəza gəlsə, kədərdən qaça bilməz,
Hərgah qəza gəlsə, qədərdən qaça bilməz.

Onsuz da görən var hamını, pisliyə cumma,
Kim yaxşılıq eylərsə nəzərdən qaça bilməz.

Bağbanı fərasətlidi, əlbəttə, bu bağın,
Oğru elə aciz ki, çəpərdən qaça bilməz.

Əfqan elinə göndərən olsaydı gedərdim,
Dərviş səfərbərsə, səfərdən qaça bilməz.

Şərçi, səni həm şərləyəcəklər, şərə qaçma,
Hər kim şərə aludəsə şərdən qaça bilməz.

Heç kimsəyə aləmdə zərər vurma, ey adəm,
Kim düşsə bu sevdayə zərərdən qaça bilməz.

Divanə olan Qeysə nə vermiş axı səhra?
Divanə bu Şahinsə şəhərdən qaça bilməz.
15.09.2003

* * *

Ey Eşq, camalın üzə gülsün gecə-gündüz,
Vəsfində gərək şe’r deyilsin gecə-gündüz.

Rəhbərlərə yaltaqlıq edən başlar üzülsün,

Başlar yerə qarşında əyilsin gecə-gündüz.

Bir saət, iki saət ilən qədr bilinməz,
Qoy yar yarın qədrini bilsin gecə-gündüz.

Gül, gül, gülübən gülləri güldür gülüşünlə,
Gülşəndəki güllər gözə gülsün gecə-gündüz.

Bir ləhzədə yummaq gözü, ölmək – acı olmaz,
Şahin acı hicran ilə ölsun gecə-gündüz.

3.12.2003

* * *

Mən nələr yazmadayam!.. Eh, bu camaət bilməz,
Qəzəlimdən nədi məqsəd, nədi niyyət, bilməz.

İnana bilməyirəm amma bunu bilməyələr,
Yazmayan xəlqi qəzəl dərdimi, əlbət, bilməz.

Dilimi sevdiyim üçün məni sevmirlərsə,
Elə kəslər nədi köks içrə məhəbbət, bilməz.

Mən sədaqətdən uzaq olmamışam heç və'də,
Amma vardır elə şair ki, sədaqət bilməz.

Deyirəm yazmalıyıq öz sözümüzlən qəzəli,
Bunu inkar eləyənlərsə xəcalət bilməz.

Gəncliyimdən ürəyimdə belə sevda oturub,
Ürəyim heç də bu sevdanı kifayət bilməz.

Neçə müddətdi ki, rahət nədi bilmir Şahin,

İstirahətdən uzaq kəs nədi rahət, bilməz.

15.08.2004

* * *

*Tamridanı düşünərək*

Ölmüşsə də gər yar, ürəyim yarı unutmaz,
Kim mən kimi aşiq isə, ilqarı unutmaz.

Layiq ona, layiq mənə rəftar eləyərdi,
Aşiqdə vəfa varsa, o rəftarı unutmaz.

Ah eylədiyim istədiyimdəndi o yarı,
Qoy söyləməsinlər bu adam zarı unutmaz.

Tək qoymayacaqdır onu mənsiz, məni onsuz,
Allah-taala bu vəfadarı unutmaz.

Hərdənbir olur məndə asılmaq kimi arzu,
Hər kimdə belə arzu ola, darı unutmaz.

Onsuz da həyat fanidi, hər kəs öləcəkdir,
İsrar eləyən kəs elə israrı unutmaz.

Qoy söyləməsinlər ki «müdam yarını səslər»,
Kim Şahinə bənzərsə əgər, yarı unutmaz.

25.08.2004

* * *

Qocayam, amma başımdan hələ sevda getməz,
Bilmirəm mən nə səbəb var ki, bu xülya getməz.

Hələ əldən, deyəsən, bir o qədər düşməmişəm,
Ürəyimdən, gözəlim, vəslə təmənna getməz.

Çəkməsə Yusifi eşqin ipi, qaçmaz Misrə,
Eşq göndərməsə, sevdayə Züleyxa getməz.

Məni surət də düşündürmədədir, mə’na da,
Surətin cazibəsi olmasa, mə’na getməz.

Rəbbimiz nazil edibdir, oxuyan Qur’anı
Düz kişi əyri yola bir daha əsla getməz.

Olmasa əmr eləyən, yerlərə ulduz düşməz,
Pozularsa qatarı, göylərə durna getməz.

Dedilər Şahinə dünya hərəkət etməkdə!
Çəkəni olmasa, əlbəttə ki, dünya getməz!!!

8.12.2006

## MÜXTƏLİF VƏZNLİ ŞE’RLƏR

### *Ağac*

Ağaca bax gəl indi,
Güldü ağacın üstü.
Ağ duvaqlı gəlindi!..
Tüldü ağacın üstü.

Hər bağın qürurudu,
Bağban, su tök, qurudu…
Altında kök qurudu,
Öldü ağacın üstü.

Quba, 26.06.2002

### *Açılmayan qönçə*

Xülyanın
    gerçəklik mərhələsinə
    dönən dəmiydi,
Ağ ümid üstündən
    qara pərdənin
    enən dəmiydi,
Tənha bir ulduzun,
Tək bir ulduzun
Başqa tək ulduzla
    ünsiyyət üçün
danışan dəmiydi, dinən dəmiydi,
Gör ki, nə oldu…

Hələ ülfətimiz, ünsiyyətimiz
    qönçə kimiydi,
    örtülü idi,

bükülü idi,
açılmalıydı,
gül olmalıydı,
olmadı, soldu.
Gör ki, nə oldu…

Hələ iki ürək
biri-birinə
verilməmişdi,
Hələ qanadımız
sevgi göyündə
qoşa uçmaq üçün
gərilməmişdi,
Hələ eşq bağında
məhəbbət gülü
dərilməmişdi,
Hələ
belə sevgi
görülməmişdi,
Gör ki, nə oldu…

İtirdin məni,
İtirdin gizlicə
səni
sevəni,
Sən görə bilmədin
görülməyəni,
Gör ki, nə oldu…

Hələ ülfətimiz, ünsiyyətimiz
qönçə kimiydi…

29.06.2002

### *Düyün*

Ayırmasın
　　günlər bizi,
　　aylar bizi,
　　illər bizi,
Gün üstünə qoy gün düşə,
Hicran bizdən,
　　evimizdən,
　　məhləmizdən,
　　ölkəmizdən,
　　qit'əmizdən,
　　Yer kürəsi
　　dediyimiz
　　kürəmizdən
　　kənar ola,
　　sürgün düşə.
Başlayanda biz görüşə
　　elə tutaq,
　　elə sıxaq,
　　elə çəkək,
　　elə bükək
　　qolumuzu, əlimizi
　　bir-birinə,
　　qoy ömürlük ayrılmaya,
　　qola, ələ düyün düşə.

6.07.2002

### *Bir əğyar deyirdi*

Alın, yığın yarağı,
Yaraqdan çıxa bildim.
İtirdim Qarabağı,

Papaqdan çıxa bildim.

Mollanın sözü qəm ki!..
Aşiqin gözü nəm ki!..
Pərvanə deyiləm ki –
Çıraqdan çıxa bildim.

Ətri – gülün sınağı,
Nitqi – dilin sınağı,
Sevgi – əlin sınağı,
Sınaqdan çıxa bildim.

25.07.2002

### *Təklik*

Ətrafım doludur adamlar ilə,
Çoxluqda
  tənhayam, amma təkəm mən.
Çoxluğu eləyib əvəz yar ilə
Cənnətə görüşə gedəcəyəm mən.

Təklik
  bimar edib canımı mənim,
canını səlamət qoymayacağam.
Tənhayam, təklikdir mənim düşmənim,
Təklikdən əlamət qoymayacağam!

Quba, 2.08.2006

### *Hər od məgər su sayandı?*

Qəlbimdə od, gözümdə su,
Nə od söndü, nə su yandı.
Suyun olmadı qorxusu,

Hər od məgər su sayandı?

Şahin sevir divanətək,
Sevgisinə ol müştərək,
Ona sevgi meyi gərək,
Sanma suya susayandı.

Quba, 4.08.2002

### *Mən*

Gündüzdən ötəri
        ürəyim gedir,
Nura qərq eləyir məni
        nuram mən.
Gecənin qayçısı
        əllərimdədir,
Onun libasını
        gərək cıram mən.
Gecə qaranlıqla,
Gündüz işıqla
Danışıram mən.

9.08.2002

### *Düşməni olmuşam özüm özümün*

*«Düzlüyü çox sevir taleyi yazan,*
*Görmədim düz yolda yolunu azan».*
*Şeyx Müslihiddin Sədi Şirazi*

Təzad içindədir Şahin bədəni,
Sanıram döyüşkən yoxdur mən qədər.
Cavabsız suallar incidir məni,
Sualsız cavablar incidən qədər.

Xəlqilik olubdur əzəl məramım,
Şair var ögeytək ömür sürmədə.
Dilə xor baxana yox ehtiramım,
Məni xəlqi qəzəl düşündürmədə.

Həvənglə kölgəmi döyəcləyən var,
Döysünlər, poladtək bərkiyib bu can.
Eyhamla, tənəylə mənə deyən var
«Köhnə dəyirmana təzə nırx qoyan».

Azdır təəssübkeş indi mən qədər,
Qəzəl pis gündədir nə üçün, niyə?
Məni heç də düşmən zənn etməsinlər,
Əzəldən qənimən düşmənçiliyə.

Həll edə bilmirəm çox sualı mən,
Qələmi qılınctək almışam ələ.
Düz yolun sahibi kimdir görəsən?
Kim haqlı, kim haqsız, budur məsələ!

Siqləti bəllidir hər bir sözümün,
Kimin nə işinə nəçiyəm, nəyəm.
Düşməni olmuşam özüm özümün,
Özüm özüm ilə döyüşməkdəyəm.

14.08.2002

### *Məndə mənlər yaşar, neçə mən mənəm*

Dostum düşmənimdən dəfələrlə çox,
Düşmən dostlarımla bacara bilməz.
Elə ağıram ki, yüngüllüyüm yox,
Məni nər dəvə də apara bilməz.

Qoy kimsə sözümə şəkk eləməsin,
Məndə mənlər yaşar, neçə mən mənəm.
Boş yerə dalımca danışan kəsin
Sözünü dalına yükləyən mənəm.

Səmtimə daş gəlsə dəyər mənlərə,
Mən tənha deyiləm, demək çoxmuşam.
Həlim görünsəm də əgər nəzərə,
İynə batırana qıyıq soxmuşam.

Dayanıb başımla başlar yanaşı,
Çoxbaşlı əjdaha desinlər mənə.
Əgər kəsilərsə bir mənin başı,
Beş baş cücərəcək bir baş yerinə.

16.08.2002

### *Ağardır üzümə gözlərini qəm*

*(qoşmavari)*

Gözüm bir gözələ mat-mat baxardı,
İndisə mat qalır selimə mənim.
Şirin dəmlərimi əldən çıxardı,
Nə deyim bu acı dilimə mənim.

Ağardır üzümə gözlərini qəm,
«Günəşim qaralır necə…» deyirəm,
Sanki dəyirmanda gecələyirəm,
Ağappaq un yağır telimə mənim.

Nə ola «gözəldir» deyib həyata
Hicranlı hər aşiq vüsala çata!
Ey Şahin, razıyam yüz tikan bata

Bir güldən ötəri əlimə mənim.
23.08.2002

### *Ümid*

Məhəbbət ağacı
quruya bilər,
Ağla,
Torpağına
gözdən yaş çilə,
Ağacın kökünə
su çatsa əgər
yaşıllaşmasına
ümid var hələ.
27.08.2002

### *Bəhər verən quru ağac*

Əlimdə qələm var,
önümdə varaq,
canımı qurudub,
sözə can verib
qəzəl yaradıram,
əsər verirəm.
Elə ağacam ki,
mən quruyaraq
bəhər verirəm.
Quba, 29.08.2002

### *Qara da yaxşı rəngdir*

Qara bəniz, qara bağ,
Qara dəniz, qara dağ…

Qara da yaxşı rəngdir,
amma ki, adət olub
qaranı qaralamaq.

Ağ bulud doğa bilməz,
Yoxdur onda yağış, qar.
Bu buludsa qaralıb…
Bu buludda yağış var…
Qara da yaxşı rəngdir…

3.09.2002

### *Aça bilməyəcəksən*

Ürəyimin qapısını
döyüldü əllərinlə,
Ürəyim dedi: Dinlə,
bu qapı sənin deyil,
bu qapı mənimkidir,
açılmayacaq sənə,
başqa bir qapı aç, gir.
Sən özün öz əlinlə
bağladığın qapını
açmaqmı diləyirsən,
əgər bacarsan di aç,
bu mən, bu qapı, bu sən.
Aça bilməyəcəksən,
yerin yoxdur içində,
Dinlə, ürək qapımın
qıfılı özümdədir,
açarı özgəsində.

20.09.2002

### *Həssaslıq*

Yoxdur həssaslığın sənin, ey pəri,
Mən eşidirəm
                necə yeriyir dərd,
                necə gəlir qəm.
Axan göz yaşından gələn səsləri
eşitmisənmi?
Mən eşitmişəm!

22.09.2002

### *Qəm*

Hər şey köhnəlir…
Köhnəlir köynəyim,
köhnəlir meyim,
köhnəlir imkanım,
köhnəlir neyim,
evim-eşiyim də,
xanimanım da…
Qəm niyə köhnəlmir
mənim canımda?
Axı, ey Allahım,
hər şey köhnəlir…

24.09.2002

### *Sual*

Məgər səni tapmaq
                tapıntıdırmı?
Tapıntı deyilsə, söylə, nədir bəs?
Özünü itirir səni tapan kəs.

26.09.2002

### *Çörəkyapan qarı*

Fələk tənzimləyib öz gərdişini,
Dünyanın olmayır bilmək işini:
Bir qarı yaparkən çörək, sürüşdü,
Çörəktək təndirin dibinə düşdü.
Təknə də, əlinin izi də yandı,
Çörəyi də yandı, özü də yandı.
Bir nadan bu halı seyr eləyərək
Başını buladı müdrik adamtək,
Aşiqanə tərzdə dedi bunları:
Çörək yapmazdısa yanmazdı qarı.

30.09.2002

### *Qan və su*

Nə mey təmənna edir,
nə nuş edir şərabı.
Yaxınlaşır deyəsən
ömür sona, İlahi.
Şahinə içirib qəm
məhəbbət iztirabı,
bezibdir daha qandan,
su ver ona, İlahi.

31.09.2002

### *Nəyimə gərək?*

Şığıyır iztirab, hücum edir qəm…
Mən səni bir daha görməyəcəyəm.
Gözümün işığı sönür get-gedə,
Həyatım zillətə dönür get-gedə…
Mən daha sanmıram göz işığını

göz yaraşığı,
Səni görməyirsə, nəyimə gərək
gözün işığı?

6.10.2002

### *Ona!*

Yanıma gəlmə daha!
Laqeyd məzarçı kimi
basdır məhəbbətimi.
Bir daha sən özünə
Şahini zənn etmə yar,
məhəbbətim ölübdür,
ölünü basdırarlar.

Yanıma gəlmə daha!

8.10.2002

### *Sevgi çəməni və ümid suyu*

Sevgi çəmənimi
yenə göyərtmək
Sinəmdə
ən şirin,
ən xoş bir istək.
Gəldin, ağlamıram,
gözlərim gülür,
Yağmurlu gün oldu,
əzizim, bu gün,
Gözümdə yaş deyil,
ümid suyudur –
yerə tökülür
Sevgi çəmənimi

göyərtmək üçün

17.10.2002

### *Xəbərdarlıq*

Yerində dinc otur,
    cırnatma məni,
Allahdan
    canının dincliyin istə.
Əlimə götürüb tullaram səni
Nərdin zəri kimi
    nərdtaxta üstə!

22.10.2002

### *Yarəb, göz dəyməsin bu məhəbbətə*

Çoxalıb işığı gözümün yenə,
Yarəb, göz dəyməsin bu məhəbbətə.
Artıb yaraşığı sözümün yenə,
Yarəb, göz dəyməsin bu məhəbbətə.

Eşqi kim bu sayaq gözləyə bilər?
Üstündə əsirəm, söz dəyə bilər,
Onu qorumasam göz dəyə bilər,
Yarəb, göz dəyməsin bu məhəbbətə.

Nəzəri olanın nəzəri yansın,
Ürəyi partlasın, ciyəri yansın…
Bu eşqə həmişə o pəri yansın,
Yarəb, göz dəyməsin bu məhəbbətə.

Eşqim nə qədər ki sağdır, mən sağam,
Sevda odu ilə yanan ocağam,

Mən hər gün üzərrik yandıracağam,
Yarəb, göz dəyməsin bu məhəbbətə.

Bu məhəbbət ilə necə xoşam mən,
Olmasa isti eşq, soyuq qışam mən,
Mollaya dua da yazdırmışam mən,
Yarəb, göz dəyməsin bu məhəbbətə!

28.10.2002

### *Pərvanə yandı, öldü*

*Bu gün Tamridanın 60 yaşıdır*

Dərdimi kimə deyim,
Dərdim haçandı ölmür.
Cana doyan ürəyim
Candan usandı, ölmür.

Cahan cahandı, ölür,
Zaman zamandı, ölür,
Həyat hamandı, ölür,
Ölüm hamandı, ölmür.

Hicran yamandı, öldü,
Zülmü əyandı, öldü,
Pərvanə yandı, öldü,
Şahinsə yandı, ölmür.

30.10.2002

### *Kül*

Elə ki, yarımı ayırdı məndən
Dünyaya qəzəbim coşdu-çağladı.
Qənaət etmədim göz yaşına mən,

Canda hər hüceyrəm zar-zar ağladı.

Sinəmə dağ çəkdi cəfa eləyib,
Yatan qəzəbimi elə oyatdım,
«Dünyanın başına kül olsun» deyib
Şahdağa qalxaraq yerə kül atdım.

31.10.2002

### *Kül və külək*

Minnətdaram sənə, ey kül,
Nə yaxşı ki varsan,
Odum sönübsə də,
Közümü saxlarsan.
Külək odumu söndürdü
«sön» deyə-deyə,
Sən külsən,
Közümü
qoymursan sönməyə.

Minnətdaram sənə, ey kül.

10.11.2002

### *Haçansa bir güllə dəyəcək mənə*

Cavid də uyudu, Müşfiq də öldü,
Öldü şairlərin qatilləri də…
Günəş yenə çıxdı, gün yenə gəldi,
Qalmadı güllə də, güllə yeri də.
Həyat müəmmadır, ölüm müəmma,
Şair öldüsə də, yaşadı amma.

Yenə də şairə güllə atan var,

Pusquya durubdur güllə atanlar…

Mən şahin quşuyam,
bəllidir ismim,
Qarğaya, bayquşa güllə atan kim?

Haçansa bir güllə dəyəcək mənə,
Bir mübhəm adamın əlindən çıxan,
Öz qüvvəti ilə, qüdrəti ilə
göylərə uculan şahin quşunu
yerlərə yıxan
haçansa bir güllə dəyəcək mənə,
el gülləsimi,
gül gülləsimi,
söz gülləsimi,
göz gülləsimi,
tüfəng gülləsimi
deyə bilmərəm,
Güllə gözləyirəm, ey bəni-adəm!

Haçansa bir güllə dəyəcək mənə…

2.11.2002

### *Ağlayır*

Aşiqi duyan
niskil ağlayır,
Suyu quruyan
sahil ağlayır.

Kaman çalanda,
Yaman çalanda
həm bəm ağlayır,

həm zil ağlayır.

Hicran gələndə
əfğan gələndə,
Şahin güləndə,
Fazil ağlayır.

4.11.2002

## *Ya Allah!*

Məsciddə də gözlər sulanır,
meyxanədə də –
birində təsbeh,
birində badə.
Məsciddə də üzlər alışıb yanır,
meyxanədə də,
Yolunu sal hərdən –
birində sevincdən,
birində kədərdən…
Birində mey,
birində meydən giley,
birində gül,
birində gülab,
birində saqi,
birində molla,
birində həzz,
birində ah…
Ey Allah bəndəsi,
Gəl gedək,
Ya Allah!..

Lənkəran, 6.11.2002

### *Çağırış*

Qaraldı torpağımız,
Ağar, qaya, ağar, dağ!
Qara oldu bağımız,
Qarabağı ağardaq!

Ölkə rahat olmayır,
Yaman olaq yamanla.
Su ilə yuyulmayır,
Yumalı qanı qanla!!!

10.11.2002

### *Allah bilir!*

Mən gül istəyirəm,
gül bülbül istəyir,
Görəsən
bu istəklərə
Allah nə deyir?
Həyata keçirəcəkmi
bu istəkləri Allah?
Bunu Allah bilir!

13.11.2002

### *Dəliyə marağın olsa*
*(gəraylı)*

Girmərəm gülüstanına
Bağbanım, alağın olsa.
Gəlmərəm daha yanına
Ey saqi, arağın olsa.

Sevgiyə nifrət edərəm,
Rəbbə şikayət edərəm,
Sənlə çox söhbət edərəm
Dinləyən qulağın olsa.

Bu Məcnunun meyli səni
Şad edəcək xeyli səni,
Edəcəyəm Leyli səni
Dəliyə marağın olsa.

17.11.2002

### *Daşlar və adamlar*

Daşlar
dözürlər adamların cəbrinə,
Adamlar
daşların üstündə otururlar.
Adamlar
divarlara hörürlər daşları,
min bir zülm edirlər
fələyin daşlarına…
Adamlar öləndə
daşlar sevinirlər,
çünki
adamların əlləri torpaq altda qalır,
daşlar çıxırlar
adamların başlarına.

18.11.2002

### *Ecazkar sirr*

Açıq olanda gözüm cahili,
nadanı görmür,

insanlıqdan uzaq insanı görmür.
Göz bağlı olanda səni görürsə,
bu nə deməkdir?
Görüntüdə e'caz,
görüntüdə sirr…

30.11.2002

### *Səsini eşidirəm…*

Səsini eşidirəm,
dilin pıçıldar «salam»,
Bakıdan Lənkərana
neçə gündür var salam,
Səsini eşidirəm…

Əgər eşitməsəydim
tükənərdi hövsələ…
Aramızda məsafə
uzaq olsa da belə
Səsini eşidirəm…

Bu səs, bu mən, bu fəraq…
Qulağımdadır səsin…
Qızılgül qoxuyaraq
mənə çatır nəfəsin,
Səsini eşidirəm…

Səsin yaxını varmış,
Səsin uzağı varmış,
Gəlib belə ki çatır
Səs sür'ətli bu səsin
əli-ayağı varmış,
Səsini eşidirəm…

Qurban olum səsinə,
Səsin nə göyçək imiş.
Səsin bəzəkdir sənə,
Səslər içrə tək imiş,
Səsini eşidirəm…

Yanımda səsin itməz,
Məst oluram səsindən.
Onu kimsə eşitməz,
onu eşidirəm mən,
Səsini eşidirəm…

Mənə elə gəlir ki,
səsimə möhtac kimi,
sən də mənimtək, gülüm,
eşidirsən səsimi,
Səsini eşidirəm…

Ey gözəl səsi ilə
«vəfa, e'tibar» deyən,
İsti nəfəsi ilə
«bitər intizar» deyən,
«Gözləyənim yox» dedim,
«Gözləyənin var» deyən
Səsini eşidirəm…

Dözməyib hicranına,
Ayrılıq əfğanına,
Təkcə eşitmək deyil
səsini görmək üçün
gələcəyəm yanına,
Səsini eşidirəm…

Səsini eşidirəm…
Lənkəran, 8.12.2002

### *Ağlayacağam*
### *(qoşmavari)*

Dostum yetməyəndə dadıma mənim
Bunu bilə-bilə ağlayacağam.
Pərvanə yananda oduma mənim
Şamtək gilə-gilə ağlayacağam.

Daim döyüşdəyəm ahüzar ilə,
Saçım bəhsə girib mənim qar ilə,
Bölməyib kədəri, dərdi yar ilə,
Həzzi bölə-bölə ağlayacağam.

Şahin, bitirəndə biz savaşları,
Daha gəlməyəndə düşmən daşları,
Gözümdən axacaq sevinc yaşları,
Vətən, gülə-gülə ağlayacağam.

16.12.2002

### *Çətinlik*

Ölmək – çətin iş…
Ölmək – çətinmiş…
Mən də
«öləərəm» dedim,
«yanına gələrəm» dedim,
amma,
sən mənsiz öldüyüntək
mən sənsiz ölə bilmədim.
Bütöv idim,

tam idim,
yarım qaldım, yarımçıq qaldım,
yarım öldü,
Sənə olan
nəcib hisslərim öldü,
arzularım öldü,
xəyallarım öldü.
Özüm də,
yəqin ki,
«ölərəm» dedim,
amma, ölə bilmədim,
ölə bilmədim sənsiz,
niyə ölmədim sənsiz?
Ölmək – çətin iş…
Ölmək – çətinmiş…

17.12.2002

### *Arı*

Arı bal yeyirdi,
Öz yaratdığını, öz balını yeyirdi.
Amma,
sən almışdın o balı,
pul vermişdin o bala,
sənin olmuşdu o bal.
Qovdun arını
«uç, uç» deyə-deyə,
onu qoymadın
öz yaratdığını yeməyə.
Arı üçdü,
çünki bala pul vermişdin,
arının balını almışdın
və bal sənin olmuşdu,

Arı uçdu,
sənsə yedin
arının halal malını –
balını.

23.12.2002

### *Qüvvədən düşüb*
*(qoşmavari)*

Tüfəngi açılmır, qılıncı kəsmir,
Bu elin yarağı qüvvədən düşüb.
Düşməni tələsdi, özü tələsmir,
Dağılır tifaqı, qüvvədən düşüb.

Qapını qapayır nişatın əli,
Əsir söyüd kimi səbatın əli,
Məni qucmur daha həyatın əli,
Ömrümün ayağı qüvvədən düşüb.

Nə sola göz qoyur, nə sağı görür,
Nə zülfü, nə də ki, darağı görür,
Şahin nə qaranı, nə ağı görür,
Gözünün çırağı qüvvədən düşüb.

24.12.2002

### *Əlimi çəksəm də mən bu dünyadan*
*(qoşmavari)*

Sinəmə dağ basıb Qarabağ dərdi,
Hələ ağlayıram, gülmürəm hələ.
Önümdə görəndə neçə namərdi
Neçin yaşayıram, ölmürəm hələ.

Haçan qovacağam candan təlaşı?
Nə zaman bitəcək vətən savaşı?
Muncuq tək düzülüb gözə göz yaşı,
Gözümün yaşını silmirəm hələ.

Şahin, usanmışam ulu dünyadan,
Fitnəylə, fəsadla dolu dünyadan.
Əlimi çəksəm də mən bu dünyadan
Ayağımı çəkə bilmirəm hələ.

25.12.2002

***Ustad***

*Mir Cəlal Zəkiyə!*

Ustad,
əgər bacarsan
öyrət mənə qafiyə elmini,
misranı, beyti, bəndi,
demə hövsələm tükəndi,
Öyrət şe'ri,
qoy artsın şairin biri…
Öyrət ki, söz olsun sözüm,
Amma,
Sevməyi öyrətmə mənə,
Sevməyi bacarıram özüm.

26.12.2002

***İstək***

Mən – Sən,
Mən məni istəmirəm,
Sən səni istəmirsən,
İstəyir bu iki sevən

başqa sevəni:
Məni səni istəyirəm,
Sən – məni.

27.12.2002

***Çubuq və nağara***

Fələyin əli çubuq,
mənim başım nağara.
Döyülməməkdən ötrü
bilmirəm gedim hara.
Fəqət
mümkünmü harasa çıxıb gedəm?
Nağara olmaq istəmirəm,
Fələk də ola bilmirəm.

28.12.2002.

***Divardan tuta-tuta***

Yaş yetib altmışa
Rüzgardan tuta-tuta.
Gəlib çatmışam qışa
Bahardan tuta-tuta.

«Dərdə tabla, döz» dedim,
«Cəngi» çaldım, söz dedim,
Koroğluluq elədim
Nigardan tuta-tuta.

Sözlərimi basır qəm,
Gözlərimi yuyur nəm,
Şahin Fazil, gəzirəm
Divardan tuta-tuta.

29.12.2002.

### *Son köynək*

Yaşadı iqbalınca –
bütün adamlar kimi
gah ağladı, gah güldü,
söyündü Faziloğlu.
Altmış yaşında da
iyirmi yaşlılartək
özünə güvənərək
qocalığın dalınca
deyindi Faziloğlu.

Vüsal ilə görüşdü,
hicran ilə görüşdü,
həzzə, möhnətə düşdü,
neçə qürbətə düşdü.
Ömrünün baharında
saçına qar ələndi,
şe’rə də yiyələndi,
tanıyanlar deyirlər:
«Elmində də şe’ritək
yeyindi Faziloğlu».

Qisməti hərdən fərəh,
hərdən isə ah, kədər,
Tamahı dərvişlərə
xas olan tamah qədər.
Ötmədi günü hədər,
keçmədi ömrü hədər,
tanıyanlar, bilənlər
bir gün söyləyəcəklər:

«Qəbri son köynəyitək
geyindi Faziloğlu».

30.12.2002

### *Belə ki uçuram…*

Rəhmim, mərhəmətim hamıya bəlli,
Sizlərə ey ata, ey ana, rəhmət.
Şahinəm, amma ki, sözlü, qəzəlli,
Mənə «Şahin» adı qoyana rəhmət.

Ürəyim kimsəyə əzab istəməz,
Arabir sərt olur mülayimliyim.
«Sən kimsən?» sualı cavab istəməz,
Mənim şahinliyim – mənim kimliyim.

Şahinəm, şahintək bir quş olub mən
Şe'r səmasında uçdum quş sayaq.
Belə ki uçuram çiyinlərimdən
Nə vaxtsa çırtdayıb qanad çıxacaq.

O zaman sür'ətim çoxala gərək,
Məni istəyənlər batsa da qəmə,
O zaman bu göyü tərk eləyərək
Uçub gedəcəyəm başqa aləmə.

Yerdə əzəlkitək yenə qan, qada,
Riya da qalacaq, şər də qalacaq.
Göydəki əzabım mübhəm olsa da,
Yerdəki əzabım yerdə qalacaq.

O zaman iqbala ümid eləyib
Geridə qoyaraq odu, atəşi,

Bütün şahinlərə uçuş diləyib
Ötüb gedəcəyəm neçə günəşi.

Pərvaz edəcəyəm nə qədər sağam,
Fəqət, Yaradanın əmrinə rəğmən
O, «dayan» deyəndə dayanacağam,
O, «dur» söyləyəndə duracağam mən.

Əlbəttə, hər kəsə hökm edən Odur,
İcazə verməsə uçarammı heç?
Bizi alışdıran Onun odudur,
Bu yerdən, bu göydən qaçarammı heç?

Şahinəm, şahintək bir quş olub mən
Şe'r səmasında uçdum quş sayaq.
Belə ki uçuram, çiyinlərimdən
Nə vaxtsa çırtdayıb qanad çıxacaq.

2.01.2003

### *Necə öyrədim?*

Eşqin niskili var, sənə, ey nigar,
Eşqin niskilini necə öyrədim?
Kəlmənin dodağı, sözün dili var,
Mən sözün dilini necə öyrədim?

Sevən mühəndisdir, sevgi – həndəsə,
Məni anlamadın, duymadın nəsə…
Fərəh dəryasında üzən hər kəsə
İztirab selini necə öyrədim?

Leyli duyumu yox canında sənin,
Məcnuna dönmürəm yanında sənin,

Sevgi təranədir, bu tərananin
Bəmini, zilini necə öyrədim?

Çoxdandı açılmır gülü bu bağın,
Canım, nə acıymış dili bu bağın,
Bağbanı qınayır gili bu bağın,
Bu bağın gilini necə öyrədim?

Şahin, hələ qalıb bəndin birisi,
Özümə aiddir sözün gerisi:
Çoxdandı görünmür ilham pərisi,
Mən bu sevgilini necə öyrədim?

4.01.2003

## *Əkinçi*

*Tamridaya*

Nə vaxt öləcəyəm mən də, kim bilir…
Dərdim bulaq kimi coşub-çağlayır…
Yenə qəbrin üstdə şe'r deyilir,
Yenə qədrin üstdə şair ağlayır.

Sən bir dünya idin, əzizim, mənə
Fələk az vermişdi, niyə çox aldı?
Səni itirdiyim gündən bu günə
Mərsiyə şe'rimin sayı çoxaldı.

Məni tək qoyubsan, ağırdır dağın,
Qənaət etmirəm göz yaşına mən.
Şe'rimə zəmidir qəbir torpağın,
Sözümü əkirəm baş daşına mən.

5.01.2003

## *Qoca Odun*

Mən
Qoca Odunam,
Qurumuş Odunam,
Yandırın məni,
səsim çıxmayacaq.
Amma,
Cavan Odunu,
Yaş Odunu
yandırsanız – oxuyacaq.
Ürəyimə toxunub
mahnını yandırmayın,
yandırmayın nəğməni
ürəyimə toxunub.
Mən
Qoca Odunam,
Yandırın məni,
mənim mahnım,
mənim nəğməm

Oxunub!

6.01.2003

## *Ona!*

Sən
yanıma gəlibsən,
İşıqladıbsan məni
Gündən çıxan şüatək.
Yağır xeyir-duatək
üstümə sevinc yaşı,
(Ey rəhmli Allahım,

bol elə bu yağışı).
Sən
yanıma gəlibsən…

7.01.2003

### *Tamridaya!*

Ölüm
sənə «gəl» dedi,
Razılaşdın onunla,
nə səs etdin, nə səmir.
Ölüm
        səni istədi.
Ölüm
        məni istəmir.

Öldüyün neçə aydı…
Orda nə yoxdur, nə var?
Ölüm
        cavana qıydı,
Ölüm qocadan bezar.

Sən
        məndən cavan idin.

8.01.2003

### *Bağlı qəbir qapım*

Dad həyat qapısından!
Yarım
        onu qapayıb.
Qapanıbdır bu qapı,
Açılıb başqa qapı…

Mən
    bezdim bu qapıdan,
dad həyat qapısından…

Dad həyat qapısından,
Bu qapı xışıltıyla,
bu qapı cırıltıyla
hər gün bir neçə dəfə
açılır səslə, küylə:
    Taq-taraq…
    Taq-taraq…
Bəs
    bağlı qəbir qapım
    nə zaman açılacaq?

10.01.2003

### *Alın yazım haqqında yazı*

Altmış yaşımacan
oxuya bilməmişəm
öz Alın yazımı mən,
görünür savadsızam.
Gərək mollalıq edib
ağlıma dua yazam.

17.01.2003

### *Cənnət*

Eşşəyə minmək ayıb,
Eşşəkdən düşmək ayıb.
Ümid
    çürük diş kimi laxlayıb.
Heç zaman xoş olmadım

Heç kəsin minnətindən,
Əgər düşsəm cənnətə
Allah birdən qovlayar
məni öz cənnətindən,
Biganəyəm cənnətə.

18.01.2003

### *Mən niyə çağırdım, sən niyə gəldin*

Kaş ki, görüşümüz tutmayaydı baş,
Mən niyə çağırdım, sən niyə gəldin?
Bu kövrək suala səmimi yanaş:
Mən niyə çağırdım, sən niyə gəldin?

Gəldi, gözəllərin nadiri gəldi,
Bakirə bir hissin şairi gəldi,
Biri «gəl» söylədi, o biri gəldi,
Mən niyə çağırdım, sən niyə gəldin?

Elə bil şeytanın nəzəri bizdə,
Sevginin qəzavü qədəri bizdə…
İstək yox idisə hər birimizdə
Mən niyə çağırdım, sən niyə gəldin?

Gərək Pərvərdigar köməyə çata,
Dilimi bağlaya, əlimi tuta…
Çağırış da xata, gəliş də xata,
Mən niyə çağırdım, sən niyə gəldin?

Fələk rəva gördü bu halı niyə?
Hicran üstələdi vüsalı niyə?
İnsanın əbədi sualı: Niyə?
Mən niyə çağırdım, sən niyə gəldin?

20.01.2003

### *Oynaya-oynaya*

O da əvəz etdi öz dünyasını,
Sirdaşım var idi mənim yar kimi.
Yığıb kəfəninə təmənnasını
Getdi, o da getdi Həvvalar kimi.

Yaşatmaqdan ötrü cahanı müdam
Həyat də zəruri, ölüm də haqdır.
Şəkk yox, bu dünyada yatan hər adam
O biri dünyada oyanacaqdır.

Daha güvəncim yox, mənə arxa yox,
Hərdən öz kölgəmi silmək istərəm.
Əzrayıl gələndə qorxa-qorxa yox,
Oynaya-oynaya ölmək istərəm.

20.01.2003

### *Narahatlıq*

*Dünən Bakıda 4 bal gücündə zəlzələ oldu… Zəlzələlər bəlkə də ölülərin qəbirdə tərpənişləridir… Narahat dünya… Narahat yer… Narahat adamlar… Narahat mən…*

Əziyyət verməde bu həyat mənə,
Qüssə xalvar-xalvar, dərd qalaq-qalaq.
Tək-tənha qalmışam, bu saat mənə
Yaxın da uzaqdır, uzaq da uzaq.

Bağırıb-hayqırıb deyə bilmədim

Qəlbdə qaynasa da söz buğum-buğum.
Özümü yalandan öyə bilmədim,
Uğurdan çox oldu uğursuzluğum.

Hücum etdi xəbis niyyətli kəslər,
Başımın üstünü boran, qar aldı.
Mənim taqətimi taqətli kəslər,
Səbrimi səbirli adamlar aldı.

Tay-tay yük daşıdım mən hambal kimi,
Sevincim yenmədi iztirabları.
Dövrün ağırlığı əydi qəddimi,
Ağartdı saçımı qürbətin qarı.

İndi iqbalımın batan məqamı,
İndi günəşimin batan vaxtıdır.
Dünya həbs edərək qəlbimdə kamı
Ömür sarayımı vurub dağıdır.

Ümidim tükənir gözümdə nur tək,
Məni diri deyil, bir ölü sayın.
Özümü dünyadan boşayım gərək,
Onunla küsmüşəm, barışdırmayın.

Bəqa aləminə üz tutmuşam mən,
Köçümü gərəkdir vaxtında yığım.
Daha rahatlığı unutmuşam mən,
Ərşə ucalıbdır narahatlığım.

Canı süst etsə də çərxin gərdişi,
«Əlvida» söyləyib doğmaya, yada
Quş adı daşıyan bu Şahin kişi
Rahat yatmayacaq məzarında da.

Büsbütün taqəti vermişəm yelə,
Dözüm də qalmayıb səbrim içində.
Əgər dəfnim günü olsa zəlzələ
Deməк, çevrilirəm qəbrim içndə.

21.01.2003

### *Tar, dəf, nağara…*

Tarçı – çalır tar,
Dəf – dəfçiyə hədəf,
Nağara – döyülməkdən qaralıb.
Tarçıya,
dəfçiyə,
nağaraçıya
        nə ağ, nə qara?
Toxunulmasalar, döyülməsələr
qalacaqlar susa-susa
        tar, dəf, nağara…

Döydürürsən onları
dönə-dönə, ey fələk,
Səsimiz çıxsın deyə
Biz də gərək döyülək?

22.01.2003

### *Soyuq adam*

Sevsəm də adamları
Hər adam adam məgər?
Soyuq adam görəndə
Baxmıram ona sarı,
Gözümə soyuq dəyər.

Ey soyuq adam, mənə
Görünmə! Sənə nə var,
Sən – soyuğun vərdişi
soyuqqanlı bir kişi…
Soyuq dəyər gözümə
gözüm sətəlcəm olar.

23.01.2003

### *Allaha!*

Səni dərk eləmək çətindir mənə,
Sən necə mürəkkəb, sən necə adi…
Məni yaratdığın gündən bu günə
Səni düşünürəm mən mütəmadi.

Səni dərk eləmək elə asan ki!..
Qüdrətin əbədi bərqərar Sənin.
İlahi, Sən özün nə boydasan ki,
Yer Kürəsi boyda zərrən var Sənin.

Təzadın əlində girinc bu naşı,
Deyəsən təzaddan yoğrulub mayam.
Çətin ilə asan durub yanaşı,
Çətinlə asanın arasındayam.

25.01.2003

### *Mələk ağırlığı*

Mələk sərnişindir, çiynimiz kətil,
Sağda bir mələk var, solda bir mələk.
Canımız bu yükdən inciyən deyil,
Yüngül heç nə yoxmuş, yarəb, mələktək.

Heç kimi deyildir bu yük bezdirən,
Ağır hiss etmirik əsla bunu biz.
İnsana desinlər «Mələk gəzdirən»,
Mələk gəzdiririk ömr uzunu biz.

Etmişəm mələyə yəhər çiynimi,
Nə yordu, nə də ki, qəddimi əydi.
Dünyada kaş hamı mələklər kimi
Heç kimi, heç zaman incitməyəydi.

28.01.2003

### *Tamridaya!*

Çatdırım dərdimi sənə necə mən?
Ağlayır baxıb dağ mənim dağıma.
Əzizim, çırpıram gündüz-gecə mən
Kədər əllərimi
dərd ayağıma.

29.01.2003

### *Aşağı, yuxarı, yaxud mövzusuzluq*

Köklər aşağı işləyir,
budaqlar yuxarı.
Dərələr aşağı gedir,
bu dağlar yuxarı.
Göz yaşları aşağı axar,
bulaqlar yuxarı.
Qocalar aşağı baxır,
uşaqlar yuxarı.
Dünyamız ləngər vurur

aşağı, yuxarı.
Məgər bu da mövzudur
aşağı, yuxarı?

30.01.2003

### *Vəfasızlıq*

Pəncərədən daş gəlmir,
Daşın vəfasız çıxıb.
Hanı sevinc yaşları,
xumar gözdən yaş gəlmir,
Yaşın vəfasız çıxıb.

Köməyimdin, hayandın,
Qəlbimi oxuyandın.
Neçin tələsdin belə,
Sən ki, məndən cavandın,
Yaşın vəfasız çıxıb?

Qismətim – acı hicran,
Mənzilim – gülsüz güldan.
Yastığın bir tərəfi
sənsiz darıxıb yaman,
başın vəfasız çıxıb.

1.02.2003

### *Külək və kül*

Külək külü
qova-qova
dağa, daşa sovurdu,
görünməyən
görünəni qovurdu.

2.02.2003

### ***Şeytan, kələk ver mənə***

Varağı yandırdılar,
Yarəb, ürək ver mənə.
Qələmi sındırdılar,
Durna, lələk ver mənə.

Haqq azdı, nahaq nə çox?..
Ney azdı, yaraq nə çox?..
Bu bağda alaq nə çox,
Bağban, çiçək ver mənə.

Neçin, ey fələk, sönüb –
Canda çox dilək sönüb,
Göz görmür, bəbək sönüb,
Göz ver, bəbək ver mənə.

Yazılmaqdadı növhəm,
Alnımda – sadə lövhəm…
Yamanca sadəlövhəm,
Şeytan, kələk ver mənə.

3.02.2003

### ***Necə?***

Dünya adlı qəfəsin
Mili sınmayır necə?
Ürək sındıran kəsin
Dili sınmayır necə?

Nəzmi itir nizamın,
Qəddi sınır inamın,

Əliəyri adamın
Əli sinmayır necə?

Məğrur birdir, yaltaq – min,
Səslən, ey səs, ey söz, din,
Bu qədər əyilənin
Beli sınmayır necə?

4.02.2003

## *Qeyrətin ətəyi hanı?*

Səhər neçin açılmayır,
Zülmətin ətəyi hanı?
Möhnət neçin qaçılmayır,
Möhnətin ətəyi hanı?

Dünyadan qaça bilmirəm,
Səmaya uça bilmirəm,
Dilimi aça bilmirəm,
Söhbətin ətəyi hanı?

İmkan neçə daşa tuşdu,
Uğur bizdən yan olmuşdu…
Fürsət uçan quşdu, uçdu,
Fürsətin ətəyi hanı?

Bir savaş da başa yetdi,
Ağdam qurda, quşa yetdi,
Laçın uçdu, Şuşa getdi,
Qeyrətin ətəyi hanı?

5.02.2003

### *Həyat və ölüm*

Həyatı öyrənəndən
Ölümlə sazdır aram.
Sevirəm həyatı mən,
Ölümdən də qorxmuram.

Bir ömür var hərədə,
Ölüm heçlikdir məgər?
Elə buna görə də
Hər an ölməyə dəyər.

Mən hara, qorxu hara?
Ruh uçanda bədəndən
O mübhəm ulduzlara
Yaxın olacağam mən.

6.02.2003

### *Ürəkyeyən*

«Yemsən, yemim ol» deyir,
Sən dərdi nə bilirsən?
Məndədir, məni yeyir,
Namərdi nə bilirsən?

Daraşıb ürəyimə,
Dərdin ağzı, dili var.
Mən deyirəm, sən demə,
Dərdin də mənzili var.

Ürəyim dərdin yemi,
Gördünmü mən deyəndi?
Dərd yedi ürəyimi,

Dərdim ürəkyeyəndi.

Sən dərdi nə bilirsən?

9.02.2003

***Bu gül niyə qurudu?***

*«Hər illətə gərçi bir səbəb var,*
*Aya, səbəbi kim etdi izhar?»*
*Məhəmməd Füzuli*

Günlə yanaşı deyil,
Bu gül niyə qurudu?
Bağbanı naşı deyil,
Bu gül niyə qurudu?

Susuz qalıb yandımı?
Bülbülə qısqandımı?
Gül gülə qısqandımı
Bu gül niyə qurudu?

Zəhər verən olmadı,
Xətər verən olmadı,
Onu dərən olmadı,
Bu gül niyə qurudu?

Deyib böyük sənətkar:
Hər illətə səbəb var,
Ey səbəb, ey sənətkar,
Bu gül niyə qurudu?

10.02.2003

### *Sandıq, qapı, pərdə*

Dərdim
          işdi-şayəd bezsə,
ürəyimdən çıxmaq istəsə,
ürəyimi
nənəmin sandığı kimi
aça bilmərəm heç kəsə,
çünki
sandığın içindəki
dərdim ağrıdar birdən
                              kimisə.

Dərdsiz günümdə
dərdsizliyimə əgər
şərik olmaq istəsələr
açaram ürəyimi
taybatay, qapı kimi,
şəriklərə birbəbir
paylaram şənliyimi.

Yox, əgər kiməsə
dərdimi qıysam –
sandığı açsam,
Ya əgər kimdənsə
şənliyimi əsirgəsəm –
qapını qapasam,
cəza kəndiri ilə boğazımdan çəkərək
asın məni pərdətək.

Dözmüşəm,
dözürəm,
dözməliyəm dərdə…

Sandıq…
Qapı…
Pərdə…

11.02.2003

### ***Oldu***
*(qoşmavari)*

Yoxsan ki, var deyil qəlbimin tabı,
Yoxluğun Tanrının sınağı oldu.
Qapanan – vüsalın açıq kitabı,
Açılan – hicranın qucağı oldu.

Eşqin acılaşdı şərbət bulağı,
Ay aman, nə oldu ülfət bulağı?
Yanan – canımdakı həsrət bulağı,
Yanmayan – sevgimin çırağı oldu.

Şahindim, qırıldı qanadım mənim,
Uçuşa qalmadı səbatım mənim,
Gözümə nur verən həyatım mənim
Gözüm baxa-baxa göz dağı oldu.

13.02.2006

### ***Bir zaman evimdə sevgi yaşardı***

Sevgisiz bu aşiq hədər yaşayır,
Bir zaman evimdə sevgi yaşardı.
İndi dərd yaşayır, kədər yaşayır,
Bir zaman evimdə sevgi yaşardı.

Sevgi sərvət idi, sevgi – mənə var,

Hamıya deyərdi dönə-dönə: Var!
Dilim yalan deyər desə «Yenə var»,
Bir zaman evimdə sevgi yaşardı.

Görərdim bir gülü – mən həmin gülü,
İndisə görmürəm hətta min gülü…
Qurudu, yox oldu sevgimin gülü,
Bir zaman evimdə sevgi yaşardı.

O isti sevgini anıb deyirəm,
Alışıb deyirəm, yanıb deyirəm,
Sevgisiz günləri danıb deyirəm:
Bir zaman evimdə sevgi yaşardı.

Şahinəm, qalmayıb güman, İlahi,
Üstümü bürüyüb duman, İlahi,
Nə pis zaman oldu zaman, İlahi,
Bir zaman evimdə sevgi yaşardı.

15.02.2003

### *Nəsimi*

Tanındım Şahin kimi…
Nəsimi kimi olum!
Qoy soysunlar dərimi,
Şe'rdə, əqidədə
Təki Nəsimi olum!

19.02.2003

### *Amin!*

Mən öləndən sonra
Yaşayası olsa şe'rlərim,

Deyəcəklər «Allah qoysa
yaşayacaq Şahin»…
Amin!

20.02.2003

### *Yer və biz*

Təpik atana
təpik çəkirik,
beləyik biz…
Amma,
Yeri hər gün təpikləyirik,
Yer dözür.
Yer səbirli,
Biz səbirsiz…

25.02.2003

### *Doğuş*

Gecə –
gündüz doğur,
Gündüz –
gecə.
Milyon-milyon illərdi
doğhadoğdu necə…
Gecə – Gündüz,
Gündüz – Gecə…

27.02.2003

### *Canavar, quzu və şair*

Bir canavar
bir şairin gözü qabağında

bir quzunu
dağıdıb yeyirdi…
Şairsə
coşa-coşa şe’r deyirdi…
28.02.2003

### *Asılılıq*

Hərə kimdənsə asılıdır,
Hərə nədənsə asılıdır…
Yarpaq
saplağından,
Meyvə budağından,
Rəiyyət
işindən-gücündən,
Padşah
tacından,
Mənsur Həllac
dar ağacından,
Mən
Səndən!
1.03.2003

### *Qeyri-dəqiqlik*

Azərbaycanlıyam!
Şadam ki,
«azərbaycanlıyam» deyirəm.
Amma,
həmvətənlərimdə
qeyri-dəqiqlik görəndə
alman olmaq istəyirəm.
2.03.2003

## ***Ey vətən!***

*«Vətənimdir, vətənimdir,*
*vətənimdir, vətənim»*
*Məhəmməd Füzuli*

Niyə zülm eləyir zaman yaxşıya?
Yamanı görürəm cuman yaxşıya,
Yaman – eyham ilə süzür yaxşını,
Qələbə çalmada yaman – yaxşıya,
Ey vətən!

Yaxşı gün qeyb olur, pis gün gəlmədə,
Önümə nə qədər küskün gəlmədə.
Torpağa hopduqca insanın qanı,
Qırmızı yaşıla üstün gəlmədə,
Ey vətən!

Cismimi dərd öpür, qəm qucaqlayır,
Ömür sarayımın daşı laxlayır,
Dirinin abrını paltar saxlayır,
Ölünün abrını kəfən, ey vətən.

Şahin «Geri dönmür ötən» söyləyir,
«Koroğlu olmayır Rövşən» söyləyir,
Füzuli dörd dəfə «vətənim» dedi,
Şahinsə dörd dəfə «vətən» söyləyir:
Ey vətən, ey vətən, vətən, ey vətən!

3.03.2003

## ***«Tək səbir»***

*«Oxu, oxu «Tək səbir»i,*
*Qoxu, qoxu «Tək səbir»i,*

*söz gülüdü»*
*İskəndər E'tibar*

Bir qəzet var,
adı «Tək səbir».
Bir az zarafatdı,
bir az ciddiyyətdi,
bir az ziddiyyətdi,
bir az qovğadı «Tək səbir».
Bir az iynədi,
bir az qıyıqdı,
bir az bizdi «Tək səbir»,
adam-adam,
ev-ev,
kənd-kənd,
şəhər-şəhər,
ölkə-ölkə gəzdi «Tək səbir».
Yəqin ki,
tək olduğu üçün
          səbirsizdi «Tək səbir».
Mən «Tək səbir»i
doğmada da gördüm,
yadda da gördüm,
Təbrizdə də gördüm,
Bağdadda da gördüm.
Dözə bilmir,
sinələrə sinə gərir «Tək səbir»,
Gerçəkliyi güzgü kimi
          göstərir «tək səbir»,
Aynalıdı, güzgülüdü «Tək səbir»,
Qıpqırmızı atəş gülüdü,
alov gülüdü,
köz gülüdü «Tək səbir».

Cəsarət meydanının öz qılıncı,
Məhəbbə gülüstanının öz gülüdü
«Tək səbir»,
İskəndər E'tibar demişkən
«Söz gülüdü «Tək səbir»».

6.03.2003

### *Cəza*

Səndən
gileyləndim ağaca –
yam-yaşıl çətri altında
görüşdüyümüz ağaca.
Nə deyim,
gileyim
xoşuna gəlmədi ağacın,
yarpaq-yarpaq göz yaşı tökdü,
sonra
coşdu birdən-birə
Və
öz budaq əlləri ilə
üzümü şapalaqladı.
Xəcalət çəkdim gileyimdən,
Səndən
gileylənmək olmazmış azca da,
hətta
ağaca da.
Bu mən,
Bu giley,
Bu cəza…

13.03.2003

### *Nəvəm Püstəxanım deyir*

Budaq qönçə bitirdi,
Qönçə çiçək çıxardı.
O qönçəni bitirən,
O çiçəyi çıxaran
Bahardı.

O çiçəkdən nə çıxdı?
Şipşirin meyvə çıxdı,
Meyvə indi nübardı,
O meyvəni çıxarıb
Püstəyə nübar edən
Bahardı.

21.03.2003

### *Əgər…*

Ey tarix boyu
    qılınc ilə
    qəhrəmanlıq tarixi yazan,
    ey düşmən səflərini pozan
    sabiq qəhrəmanlar,
    igidlər,
    bahadırlar,
    pəhlivanlar,
Əgər canımda
    sizdəki qə'tilik olsaydı,
şahin baxışlarımda
    qılıncdan iti
    itilik olsaydı,
bircə gülləm də
    boşa getməzdi.

Əgər Koroğlunun əli kimi
əlim olsadı,
Əgər yeddi yüz yetmiş yeddi
dəlim olsaydı,
Xocalı döyüşü
bədnamlıqla bitməzdi,
Şuşa getməzdi.
Əgər niskilimi
sevgilim bilsəydi,
Əgər vüsalım gəlsəydi
ərşə uculardımı əfğanım?
Fərağım ilə hicranım
mənə acıq verə-verə
qoşa getməzdi.

24.03.2003

### *Diri daşlar*

Qəbristandayam.
Daşlar
ölülərin başlarına
çıxıblar…
Daşlar
dirilərin
başlarına çıxa bilməzdilər,
dirilər götürüb atardılar daşları
başlarından kənara,
diri hara,
baş hara,
daş hara?
Ölülər
dirilərin başlarına çıxa bilməzdilər…
Qəbristandayam.

Sabiq dirilər
artıq ölüblər,
gömülüblər torpağa,
sabiq ölü daşlar isə
sanki diriliblər
Və
qart-qart oturublar
Ölülərin
başları üstdə.
25.03.2003

### *Bu gecə*

Bu gecə
gedəcəyəm meyxanəyə,
deyəcəyəm saqiyə
mənə acı mey yox,
qoy şirin şərbət gətirsin,
şərbətini içmək istəyirəm.
Şərbətinə
gilə-gilə
şirin söhbətini qatsın,
söhbətini içmək istəyirəm.
Sonra
meyxanədən çıxıb
düşəcəyəm
səmavilik sorağına,
gedəcəyəm
dəniz qırağına,
öpəcəyəm
duzlu sahil daşlarını,
çağıracacam qağayıları –
sahil quşlarını

tez açılsın deyə səhər,
ağarsın deyə göy üzü,
görünsün deyə ləpələr,
gözüm görsün deyə gündüzü,
Fəryad edib Fərhad kimi,
Məcnun kimi,
Ayrılığa məftun kimi,
oyaqlığa vurğun kimi,
Şirin-şirin yatanları,
qayğısızlıq yuxusuna batanları –
huşa gedənləri
bihuş edəcəyəm,
bu qaranlıq gecənin,
bu Şirin gecənin,
bu Leyli gecənin
zülmətini
nuş edəcəyəm.

Bu gecə
gedəcəyəm meyxanəyə…

26.03.2003

### *Nə sünni, nə şiə?*

Nə sünni, nə şiə?
əgər biz
müsəlman kişiləriksə
və bu kişilər
vahid İslama şəriksə,
nə sünni, nə təsənnün?
nə şiə, nə təşəyyö?
Nə o, nə bu?
Nə onlar, nə bunlar?

Düşmənə lazım bu ayrılıq,
Yağıya gərək bu oyunlar,
Ayrılıq yaraşmaz İslama,
ayrılıq yaraşmaz kişiyə!
Nə sünni, nə şiə?
Ayrılıq bədlərin əməlidi.
İslamı
          məzhəbə
          ayıran
          müsəlman
havalıdı, divanədi, dəlidi!
İslamın
          dörd sütunu var,
Onlar
Ömərdi,
Əbubəkrdi,
Osmandı,
Əlidi!
Onlar
peyğəmbərin səhabələridi,
Onların hər biri
          İslama dirəkdi,
Onlara ehtiram gərəkdir!
Onlar
          İslamı qorudular,
Onlar
          Qur'anı qorudular,
Onlar müsəlmanlığın
          atəşi, odu, qorudular,
Onlar
          müqəddəs dinimizi qorudular,
          ayinimizi qorudular,
          elə indi də qoruyurlar,

elə indi də durublar keşiyə!
Ayrılıq yaraşmaş kişiyə!
Nə sünni, nə şiə?

27.03.2003

### *Xəzəri əyninə geyinən Şahin*
*(qoşmavari)*

Ram etmək istədim ovu qəfildən,
Ahutək o nigar qaçdı yanımdan.
Məcnuntək sərgərdan, indi səfil – mən,
Leyliyə bənzər yar qaçdı yanımdan.

Göz sevda bağında gördü min gülü…
Ey aşiq, görəndə danış, din – gülü…
Yenicə açırdı eşqimin gülü,
Qış gəldi, novbahar qaçdı yanımdan.

Köynəktək kədəri geydim əynimə,
Günəş doğdu, zəri geydim əynimə,
Soyunub Xəzəri geydim əynimə,
Utanıb balıqlar qaçdı yanımdan.

28.03.2003

### *Yorğan və torpaq*

*Tamridaya*

Mənim üstümdə yorğan,
Sənin üstündə torpaq.
Gecə
üstüm açıldı…
Sən ölüsən, mənsə sağ,
Sənin üstün açılmaz,

Sənin üstündə torpaq.

Gecə
          üstüm açıldı…

29.03.2003

### *Yehayedi dünyada…*

Yehayedi dünyada…
Balığı yeyir adam,
Dənizdə batandasa
Balıq yeyir adamı,
Bu dünyadan qorxuram.

Mənə bir qoca dedi
«Yehayedi dünyada,
Bu dünyaya az güvən,
Dünyanı
          yaxşı tanı,
Həvva buğdanı yedi,
Dünya isə Həvvanı.
Sən də yeyiləcəksən,
Yehayedi dünyada…»

30.03.2003

### *Bir durna bəyəndim göy üzündə mən*

Bu qara dünyanın bir guşəsində
Dərdini daşıyan dərviş kimiydim.
Rəmz hücrəsində, sirr guşəsində
Qara ovqatıma vərdiş kimiydim.

Bu yan məhəbbətdən, o yan sevgidən

Dilləndi kamanda, səsləndi sazda.
Məni qara günə qoyan sevgidən
Saçımın ağlığı artdı bir az da.

Əvvəldə qaraydı, ağardı bir az,
Dünyam tərk etmişdi bir müddət yası.
Mənim qara dünyam daha ağarmaz –
Ağsaç bir adamın qara dünyası.

Bir durna bəyəndim göy üzündə mən,
Açdı qanadını çala bilmədi.
O durna yıxıldı mənim göyümdən,
O dünya göyümdə qala bilmədi.

Uçuşa dözmədi qol-qanad yeri,
Uçmadı arxamca arxadaş kimi.
Göyümdə tapmadı istinad yeri,
Quşcığaz torpağa düşdü daş kimi.

Baxışında kədər, nəzərimdə qəm,
Ürək son anacan onu unutmaz.
Mən indi bilmişəm, indi bilmişəm
Şahinlə durnanın dostluğu tutmaz.

1.04.2003

### *Allahım, bu əyri dünyanı düzəlt*

Gərək əyriliyi düz kimi danam,
Allahım, bu əyri dünyanı düzəlt.
Özün bilirsən ki, düzdanışanam,
Allahım, bu əyri dünyanı düzəlt.

Əyrilik düzlüyə qənim kəsilib,

Ruzim tükənibdir, dənim kəsilib,
Ümidim qüvvəmtək mənim kəsilib,
Allahım, bu əyri dünyanı düzəlt.

Gözə düz görünməz əyri mənzərə,
Əyri işlər görür bəşər min kərə,
Nə yaman uymuşuq əyriliklərə,
Allahım, bu əyri dünyanı düzəlt.

Elə doğru var ki, kişi – düppədüz,
Elə oğru var ki, işi – düppədüz,
Minlərin içində beşi düppədüz,
Allahım, bu əyri dünyanı düzəlt.

Əyrinin əlini düzəltməsən də,
Fəndini, felini düzəltməsən də,
Dəvənin belini düzəltməsən də,
Allahım, bu əyri dünyanı düzəlt.

Şair var şe'rində mə'na əyridi,
Aşiq var qəlbində sevda əyridi…
Axı, sən görürsən dünya əyridi?
Allahım, bu əyri dünyanı düzəlt.

Şahin Fazil adlı bir kişi vardır,
Qəlbinin düzlüklə sazişi vardır,
Səndən bir balaca xahişi vardır:
Allahım, bu əyri dünyanı düzəlt.

3.04.2003

### *Başlandı təzə bir sevgi nağılı*

Bu təzə nağıla daha tay çətin,

Başlandı təzə bir sevgi nağılı.
Goru çatlayacaq Məlikməmmədin,
Başlandı təzə bir sevgi nağılı.

Tənhalıq canımda qorxu, hədəydi,
Eşq oxu hədəfə dəydi, nə dəydi…
Sevgi nağılları tükənmədəydi,
Başlandı təzə bir sevgi nağılı.

Geridə qalıbdır daha o çağlar,
Məni bir nazənin sevgi qucaqlar…
Köhə nağılları unudacaqlar,
Başlandı təzə bir sevgi nağılı.

Bu sevgi, bu ürək, bu təzə nağıl!..
Bağımda tər çiçək bu təzə nağıl,
Mən ölsəm bitəcək bu təzə nağıl,
Başlandı təzə bir sevgi nağılı.

Gərək çap edilə bu təzə nağıl,
Düşə dildən-dilə bu təzə nağıl,
Gəzə eldən-elə bu təzə nağıl,
Başlandı təzə bir sevgi nağılı.

Ülvi eşq havası çalar bu nağıl,
Elin yaddaşında qalar bu nağıl,
Nağıllar nağılı olar bu nağıl,
Başlandı təzə bir sevgi nağılı.

Şahin, son qoyuldu daha əzaba,
Eşqim gülablandı batıb gülaba…
Məndən danışacaq nağılçı baba,
Başlandı təzə bir sevgi nağılı.

5.04.2003

***Şah İsmayıl və mən***

Onun əllərində
qılıncı vardır…
Qırmaq qırmaq isə
mən həm qırıram.
Babam Şah İsmayıl
düşmən qırardı,
Mən isə, mən isə
dərd-qəm qırıram…
Düşmən də düşməndir,
dərd-qəm də düşmən,
Neçin tükənməyir
aləmdə düşmən?

7.04.2003

***Yanıq Kərəm, bir «Kərəmi» çal, şirin…***
*(qoşmavari)*

Yarın bir də gəlməsinə ümid var,
Könül, şirin xəyallara dal şirin.
Son düyməyə olmusansa ümidvar,
Yanıq Kərəm, bir «Kərəmi» çal, şirin.

Hər birimiz bir gözəlin yarıyıq,
Sudan duru, aydan isə arıyıq,
Bu çiçəyin şəkərini arı, yığ,
Gözəl şirin, şəkər şirin, bal şirin.

Gələcəksən bir də haçan, ey vüsal,
Gedişindən üzüldü can, ey vüsal,

Çıxıb getsin acı hicran, ey vüsal,
Sən Şahinin yaddaşında qal şirin.

8.04.2003

### *Mələk daşıyan hamballar*

Canlı hüceyrələr
birər-birər
    ölür beynimdə…
Ömrüm
    yana-yana yoxalmaqda olan
    qara şam…
Bir mələk oturub hər çiynimdə,
Ömrüm boyu
    hey mələk daşımışam.
Mələk daşıyacağıq
    nə qədər varıq,
Biz
    mələk daşıyan
    hamballarıq.

9.04.2003

### *Ayı parçalayıb düşmüsən yerə*

*Köhnə şairlərin şe'ri tərzində*

Gözəl görünməyin harası asan?
Gözəllik ummada Tanrıdan hərə.
Gözəlim, elə bil ay parasısan,
Ayı parçalayıb düşmüsən yerə.

Qeyri sənəmlərə bənzəməyirsən,
Sün'i gözəlliyə ehtiyacın yox.
Şahsan, qabağında baş əyirəm mən,

Gözəllər şahısan, amma tacın yox.

Şahsan, qılıncın var, yayın da vardır,
Kipriyin qılıncdır, qaşın yay sənin,
Tac – parçaladığın ayında vardır,
Taxtın – yer kürəsi, tacın – ay sənin.

Üzünün şö'ləsi üzümdə işıq,
Gözünün işığı gözlərimdə nur.
Dağıtma çöhrənə, tellərini yığ,
Çöhrəndə bir aləm ziya uyuyur.

Boynundan o rəngin göyqurşağını
Asmısan səmanın təsbehi kimi.
Günə bənzədirəm parlaqlığını
Köhnə şairlərin təşbehi kimi.

12.04.2003

### *Hətta sükutumda səsim olacaq*

*(qoşmavari)*

Sənə yenə baxsam lal-dinməz kimi,
Hətta sükutumda səsim olacaq.
Qış küləyi ötsə, bahar nəsimi
Başımın üstündə nəsim olacaq.

Sönəcək canımda nəfəs haçansa,
Sınacaq cam adlı qəfəs haçansa,
Yadırğasa məni bir kəs haçansa,
Sanıram ki, səntək kəsim olacaq.

Gözümü tutub nəm, sənəm, ey sənəm,
Üzümə çöküb qəm, sənəm, ey sənəm,

Mən vüsal təmənna eləməyirəm,
Bircə təbəssümün bəsim olacaq.

13.04.2003

### *Səndən sonra*

*Tamridaya*

Sevincimi bitirmişəm,
Dərd almışam səndən sonra.
Qoşalığı itirmişəm,
Tək qalmışam səndən sonra.

Eşqin vardı, mən də vardım,
Eşqin ilə ucalardım…
Sənin üçün tar çalardım
Qəm çalmışam səndən sonra.

«Donaram donsan» deyərdin,
«Yanaram yansan» deyərdin,
Mənə «cavansan» deyərdin,
Qocalmışam səndən sonra.

14.04.2003

### *Xitab*

Ehe-e-y, qəzəldaşlarım,
əruzçu sirdaşlarım,
əruzçu qardaşlarım!
Qəzəldə yad deyimin
bezikmişik səsindən,
Xilas edin qəzəli
fars-ərəb kəlməsindən,
xəlqi sözümüz olsun,

xəlqi sözünüz olsun,
yazın,
          iziniz olsun.
Ey doğmalar, əzizlər,
Məndən sonra
                izimin
yanında iz salsanız
yol olacaq
          o izlər!

15.04.2003

### *Sənsizliyim*

Bizi
yaman ayırdı fəraq,
Aprelin 30-da
                iki il olacaq.
Mən taleyi kəm
neçə-neçə gündür ki,
tənhayam, təkəm,
neçə-neçə aydır ki,
sənli günlərim yox olub.
Səni itirən gündən
sənsizliyim doğulub.
Sənli günlərim
gözəl bir nağıldı,
nəvazişdi, sığaldı…
Sənli günlərim
                yox olub,
sənsizliyim doğulub,
qalmışam
sənsiz günlərimlə
                baş-başa,

düşmür gözaydınlığı
bu doğuşa –
Gözün aydın olmasın, ey doğuş!
16.04.2003

### *Üzük elə girsin barmağınıza…*

Bu gün bir əhd günü, bir nişan günü,
Bu gün iki xoşbəxt cavan günüdür.
Sevincin odlanıb şadlanan günü,
Kədərin meydandan qaçan günüdür.

Bu gün bir sevginin əhatəsində
Yar əhdi, peymanı, bu gün yar andı.
Bu gün iki evin məsafəsində
Bir yeni, bir möhkəm körpü yarandı.

Körpü uçmayacaq tüğyan da olsa,
Körpüyə nə qədər qədəm dəyəcək.
Qasırğa da qopsa, tufan da olsa
Körpünün təməli titrəməyəcək.

Şadlanın, sevinin növrağınıza,
Sevinci iztirab yıxa bilməsin,
Üzük elə girsin barmağınıza
Heç zaman oradan çıxa bilməsin.
17.04.2003

### *Qocalmışam*

Ey dünya,
nə var, nə yox,
nə yox, nə var?

Səni də qocaltdılar,
Məni də qocaltdılar.
Ey dünya,
sən qoca, mən qoca,
qocanın qocaya işi düşər:
göndər məni o biri dünyaya –
                    üqbaya.

Sənə «qoca dünya» deyirlər,
Kim verdi sənə «qoca» adı?
Sənin haran qocadı,
Sənin nəyin qocadı?
Qocanın başı ağarar,
qocanın dişi düşər…

Kim verdi sənə «qoca» adı?
Mənəm qoca –
cavanlıq canımdan gen düşüb,
üz bürüşüb,
diş tökülüb,
bel bükülüb,
barmaqlarım yumruğa dönə bilmir,
yumruğum düşmən başına enə bilmir…

Ey dünya,
Kim verdi sənə «qoca» adı?
Qocasansa, niyə ölmürsən?
Niyə o biri dünyanın –
                    üqbanın,
o göyçək dünyanın,
o qəşəng dünyanın,
hurinin, qılmanın
qədir-qiymətini bilmirsən,

qocasansa niyə ölmürsən?

Neçə-neçə cavanı yola salmısan,
                    qocanı yola salmısan,
Neçə-neçə üləmanı,
                    xocanı yola salmısan,
qocasansa niyə ölmürsən?

Ey dünya,
düz demirlər qocalmısan.
Neçə-neçə hökmranı yola salmısan,
yola salanı yola salmısan,
qocasansa niyə ölmürsən?

Ey dünya,
qocanın başı ağarar,
qocanın dişi düşər,
Əgər
sən də
mən kimi qocasansa,
qocanın qocaya işi düşər:
Göndər məni o biri dünyaya,
Qocalmışam!

20.04.2003

### *Allahı var*

Kainatda nizam olmaz,
Allahı var, Allahı var.
Allahı yox adam olmaz,
Allahı var, Allahı var.

Tanrısız kəhkəşan varmı?

Məkan varmı, zaman varmı?
Yaradansız cahan varmı?
Allahı var, Allahı var.

Yerlərdəki mövcudatın,
Göylərdəki neçə qatın,
Bu həyatın, o həyatın
Allahı var, Allahı var.

Elə güc var biləyində
Ələnirik ətəyində,
Fələyin də, mələyin də
Allahı var, Allahı var.

Dodağında neyi yoxdur,
Qabağında meyi yoxdur,
Şahinin heç nəyi yoxdur,
Allahı var, Allahı var.

25.04.2003

***Dərd, şəkər, qaşıq, su…***

«Əriyəcək» demişik –
dərdimizi
          şəkərtək
səbir qaşığı ilə
qəlbimizin suyunda
əritmək istəmişik…
Fəqət su – o su deyil,
deyil qaşıq – o qaşıq,
dərd də şəkər deyilmiş,
Yamanca yanılmışıq.

27.04.2003

### *Qızıl və söz*

Torpağın içində qızıl,
köksümün içində söz.
Qızılı çıxarırlar,
torpaq dözür.
Dözümsüzlük hanı?
Ey köksüm,
səni doğduracağam,
Səndən
söz çıxaracağam,
Sən də döz,
Söz
qızıllatsın dünyanı.

29.04.2006

### *Yazığım gəlir*

*Tamridanın vəfatından iki il keçdi*

Şərab acı olana,
Kitab acı olmayana
yazığım gəlir.
Həccə gedib
hacı olmayana
yazığım gəlir.

Meymuna dönən insan çoxdur,
İnsana dönən meymun yoxdur,
İnsana dönməyən meymuna yazığım gəlir.
Məcnunsuz Leyliyə,
Leylisiz Məcnuna

yazığım gəlir.

Ey ömür asimanımda
aytək çıxıb,
güntək batanım mənim,
ey günü qaraldıb
qara torpaqda
yatanım mənim,
Mənsiz sənə,
Sənsiz mənə,
yazığım gəlir,
yazığım gəlir.

30.04.2006

***Vəfasızlar***

Dərdin əli əlimdə…
Dərd isti, əlim soyuq.
Qəmin qolu boynumda…
Qolboyunuq.
Dərdin əli
əlimi isidəcək,
qəmin qolu
boynumu.
Niyə məni tərk etdin,
niyə o dünyaya getdin,
yarım,
«Vəfalıyam» deyirdin,
vəfan bumu?
Eh, elə mən də vəfasızam,
Sənsiz
iki il də qocaldım.
Sən – vəfasız oldun, getdin…
Mən – vəfasız oldum, qaldım…

1.05.2003

### *Hədə-qorxu*

Yenə üzüm sənədir,
Yenə sözüm sənədir:
Şe'ri ey qəliz yazan,
Əcnəbi söz sənə «dürr»
Ey qəzəli pis yazan,

Canavar dişi kimi
Sözlərimin dişi var,
Deyirəm kişi kimi:
Əl çəkməsən şe'rdən
Əllərini dağıdar!

Dolama bu xəlqi, yaz,
Yazırsansa xəlqi yaz!

2.05.2003

### *Gözlərimiz güzgüdür*

Gözlərimiz güzgüdür –
Məni sənə göstərir,
Səni mənə göstərir…

O güzgülərə baxıb
Gördük bir-birimizi.
Gözlərin güzgüləri
Kaş ciladan düşməyib
Daim əks etsin bizi,
Gözlərimiz güzgüdür.
Gözəlim, gözünü sən

bütün həyatın boyu
yayındırma gözümdən,
axı gözü göz güdür,
        Gözlərimiz güzgüdür.

3.05.2003

### *Bax mənə, işıqlanım*

Qaranlıq içindəyəm,
sanki qara, qapqara
dumanlıq içindəyəm.
Gecə mənə qaranlıq,
Gündüz mənə qaranlıq.
Gəl yanıma bir anlıq,
qoy işığında yanım,
Qaranlıq içindəyəm,
Bax mənə, işıqlanım.

4.05.2003

### *İki şe'r*

Önümdə iki şe'r –
        biri varağımdadır,
        biri qabağımdadır.
Sən varağı oxudun,
mən səni.
Seyr edirəm çöhrəni:
Sənin gözün yoruldu,
Mənimsə
        oxuduqca
nəzərlərim duruldu.
Yazdıqlarım şe'rdir,
Sən özün də şe'rsən.

Mənim şe’rim – Şahinin,
Sən – Tanrının şe’risən.

5.05.2003

### *Qəm*

Çuxaya bürünəntək
bürünmüşəm qəmimə,
Şirin-şirin dalmışam
öz qəmli aləmimə,
çünki qəmim təmiz, saf,
çünki su kimi şəffaf.
Ömrümün sonunacan
mənlə qalacaq bu qəm,
çünki qəm çirk götürmür,
Mən
qəmi köynək kimi
soyunmaq istəmirəm.

6.05.2003

### *Yalan de mənə*

Bəzən istəyirəm
yalan deyəsən.
Qoy sənin ağ yalanlarınla
işıqlansın çöhrəm, surətim.
Yalanındadır qulağım,
gözümü zilləmişəm yalanına,
yalanına yönəlib diqqətim.
Yalan de mənə, yalan de,
Yalan de Şahin adlı qoca bir kişinin
canındakı məhəbbətdən.

Yalan de,
elə yalan var ki,
şirindir həqiqətdən.
Yalan de,
Yalan de mənə,
Yağdır üstümə yalanları,
Yönəlt mənə sarı
yalan pərdəsinə bürünən
neçə-neçə nəvazişi sən,
Mənə de ki,
        ən güclü kişisən.
Mənə de ki,
        səntək şair yox ölkədə,
Mənə de ki,
        ilhamın çoxalır get-gedə.
Mənə de ki,
        artır get-gedə şövqün, həvəsin,
Mənə de ki,
        üzərrik yandır,
        nikbinliyinə göz dəyməsin.
Mənə de ki,
        maşallah, şikayətlənmirsən daha,
        daşını atmısan giley-güzarın,
Mənə de ki,
        hamıda ağarır,
        səninsə qaralır saçların.
Mənə de ki,
        həlimləşmisən,
        əvvəlki səs-sədan yoxdur,
Mənə de ki,
        bu dünyada
        səndən sağlam adam yoxdur.
Mənə de ki,

səbrini, hövsələni
əritməmisən qəlbinin yağı kimi,
Mənə de ki,
dikəlir qamətin get-gedə
oğlan uşağı kimi.
Mənə de ki,
mən – Əsli,
sən – Kərəm,
Mənə de ki,
sən ölsən, ölərəm.
Mənə de ki,
Fərhadlar qabağında hərif olub,
Mənə de ki,
Məcnun səndən zəif olub.
Yalan de mənə,
bəlkə
yalanına inanıb cavan olum,
Yalan de mənə,
yalanına qurban olum.
Mənə de ki…
Mənə de ki…
Yalan de mənə!
Bəzən
mən istəyirəm ki,
yalan deyəsən.
Yalan de mənə!

7.05.2003

### *Bu dünya – dəlixana*

Bu dünya –
dəlixana,
Adəm isə Baş həkim,

Baş həkimsə – baş dəli,
Həvva – şəfqət bacısı.
Bu dünya –
          dəlixana,
axı, şirinliyindən
çoxdur onun acısı…

Bu dünya –
          dəlixana…
Ötən illərə baxıb
çox dəli görməkdəyəm.
Mən neçə qüvvəsizi
qüvvəli görməkdəyəm,
neçə qüvvəlininsə
qüvvəsi yox, gücü yox,
gücü-ağlı deyildir,
gücü-xəncər, gücü-ox.
Görürəm ki, zavallı
Züleyxa köynək cırır,
Van Qoq kəsir qulağın,
Yeri ayaqdan salan
Sezar çəkir ayağın.
Görürəm ki, Fərhadın
başını külüng deşir.
Görürəm ki, Don Kixot
dəyirmanla əlləşir.
Görürəm ki, acından
ölə-ölə
          yanında
qurd quzunu gəzdirir,
Görürəm ki, İskəndər
başında tacını yox,
buynuzunu gəzdirir…

Bu dünya –
dəlixana,
biz isə dəliləri,
Leyli gəzir şəst ilə,
Yanında – dəli əri.
Bu dünya –
dəlixana.
Bu dünya –
dəlixana…
Bir Çənlibel var idi –
dəlilərin oylağı.
Çən əritdi o dağı,
Çən – yağı olub indi,
Neçə dağ dəlilərin,
Neçə bağ dəlilərin,
Qarabağ dəlilərin
oylağı olub indi.

Bu dünya –
dəlixana…
Neçə-neçə obanı,
Ocağı dağıtdılar,
Ağıl-ağıllı deyil,
Ağıl – dəli, huş – dəli,
Livanı dağıtdılar, İraqı dağıtdılar,
Bler – dəli,
Buş – dəli.
İndi qüvvəsi yoxdur,
əvvəl qüvvəli idi,
İndi ölkəsi yoxdur,
Səddam da dəli idi,
Bu dünya –

dəlixana…

Bu dünya –
dəlixana…
Biri vardı, biri yox…
Var – yoxu,
Yoxsa – varı
Yana-yana yaratdı,
Möhtərəm Allah isə
Yeri – ağıl yeri yox,
dəlixana yaratdı.
Hamımız dəlilərik,
dəlilərik hamımız,
qan axıdan, qan soran
zəlilərik hamımız.
Bu dünya –
dəlixana…

Bu dünya –
dəlixana…
Görürəm ki, bu dünya
ağlamalı, gülməli…
«Dəli özünsən» deyib
boğmağa hazırlaşır
məni bir neçə dəli…

Bu dünya –
dəlixana,
dəlilərik eləcə…
Bu dünya –
dəlixana,
O biri dünya necə?

8.05.2003

### *Yazılacaqmı?*

Mən yenə uymuşam söz aləmimə,
Gecəmi görmürəm, səhərim yoxdur.
Elə qapılmışam öz aləmimə,
Sənin aləmindən xəbərim yoxdur.

Fələyin istəyi – ayırmaq bizi,
Buna şübhə də yox, buna şəkk də yox.
Yamanca oyuna salıb Haqq bizi,
Ayrılmaq olmayır, birləşmək də yox.

Amma, könül yenə öz diləyində,
Mə'nasız bir istək, boş bir təmənna.
Amma qətilik var yenə beyində:
Hicri öldürəcək xoş bir təmənna.

Mənim diləyimə nədir cavabın?
Gəl ki, gözləyirəm səni haçaqdır.
Gəlsən, əlimizlə köhnə kitabın
Təzə səhifəsi yazılacaqdır.

9.05.2003

### *Şam və pərvanə*

*Ona yoxdur «yan» deyən,*
*O yanır özxoşuna.*
*Köhnə bir şe'rimdən*

Sən – şamsan,
Mən – pərvanə.
Pərvanə yanmaq istər

özünü çırpıb sənə.
Hazırlaş yandırmağa,
uçacağam üstünə…

12.05.2003

***Bahar***

Günəş qızışıb qızdırır qarı,
Başlayır soyunmağa
                    şaxta baba
                    qar paltarı,
Lülə buzlar suya dönür,
                    sular buxara,
Ağ yorğanlı torpaq
gələn ilki qışacan
bir də çətin ağara.
İsti
          soyuğu yeyir,
damların,
navalçaların,
pəncərələrin
          saqqalları əriyir.

15.05.2003

***Keçmiş – Gələcək…***

Dünyanın
Azərbaycan adlı parasında
Qalmışam
Keçmişlə Gələcək arasında,
vurnuxuram
müəyyənlik
və qeyri müəyyənlikdə qalan

dərviştək,
Keçmişimi sevirəm,
Gələcəyi? Bilmirəm.
Keçmiş mə’lum,
Gələcək qeyri-mə’lum.
Keçmiş – keçdi,
Gələcək – gələcək.
Keçmiş
bilirəm necə keçdi,
Gələcək
bilmirəm necə gələcək.
Gələcəyim – mücərrəd,
Keçmişim – mənə məhrəm:
İstəsəm
keçmişimi ana bilərəm,
keçmişimlə üzbəüz dayana bilərəm,
Keçmişimlə
sevinə bilərəm,
Keçmişimlə
öyünə bilərəm,
Keçmişimi
oxşaya bilərəm,
Keçmişimə
ağlaya bilərəm.
Keçmiş – olub-keçənlər,
Gələcək – hələ ki, sirr,
Keçmişim –keçmişdisə,
Gələcək gələcəkdir.
Keçmişimi – keçirdim,
Gələcəkdə bilmirəm
axı nə olacaqdır,
axı nə gələcəkdir.

Keçmişimi sevirəm…

17.05.2003

### *Yetim eşq*

Ürəyimin ağuşunda
tək qalıb, tənha qalıb
mənim eşqim.
Yetim qoydun eşqimi.
Eşqim yanıb alovlana bilmir
tək odun kimi.
Ancaq,
odunu odunla baş-başa qoyub
yandırsanız
yanacaq.
Eşqimsə
daha
yanmaqdan uzaq.
Onu
Daha yandıra bilməz heç kim,
Eşqim
odun deyil,
Odun deyil eşqim.

19.05.2003

### *Gəl, səni bağlayıb qanadlarıma…*

Əsəblər çəkilib yerdə tarıma,
Şahin pərvazına göy intizar ki…
Gəl, səni bağlayıb qanadlarıma
Aparım göylərə, yerdə nə var ki?

Yerdəki rəzalət göylərdə yoxdur,

Yerdəki qan-qada göydə görünməz.
Həqarət, qəbahət göylərdə yoxdur,
Daha yerdə deyil, gedək göydə gəz.

Göylərdə görünməz fitnədən əsər,
Gedib çata bilməz şər ənginliyə.
Hər kəsin nəsibi deyil bu səfər,
Hər quş uça bilməz hər ənginliyə.

Göylərdə çəkilməz sinəmizə dağ,
Göylərdən uzaqdır yerdəki nalə.
Bir az ad hicranı göydə ağladaq,
Yetişək bir az da göydə vüsalə.

Həya ziya versin gözlərimizə,
Sərvətə, gümüşə, zərə əlvida.
Qoy ulu Yaradan yar olsun bizə,
Göyə salam deyək, yerə əlvida.

Nəfsdən gen düşək, tamahdan uzaq,
Söz ilə düz gəlsin hər əməlimiz.
Göydə göylü olaq günahdan uzaq,
Yeri yersizlərə bağışlayaq biz.

Əsəblər çəkilib yerdə tarıma,
Şahin pərvazına göy intizar ki…
Gəl, səni bağlayıb qanadlarıma
Aparım göylərə, yerdə nə var ki?

21.05.2003

***İtmiş məhəbbət külçəsi***

Mə’dənçi kimi

məhəbbət mə'dəninə girdim,
məhəbbət külçəsi tapdım
və… itirdim.
Daha bundan belə
nə qədər ki sağam,
mə'dənçi olmayacağam,
çünki
inamıma
zərrə qədər ürəyimdə yoxdu şəkk,
inanıram ki,
daha əlimə
həmin məhəbbət külçəsi düşməyəcək.
İtirdim…

22.05.2003

***Toxum kimi***

Eşqim
cismimlə
birgə gömüləcək,
basdırılacaq topağa
toxum kimi,
Gün gələcək
Eşqimin toxumu
cücərəcək,
çiçəkləyəcək,
ölməyəcək!

23.05.2003

***Sevişdik***

Gözüm
gözünə düşdü,

Gözün
 gözümdən su içdi,
Sevişdik.
«Gözüm səndən su içməyir»
 məsəlini unutduq,
inam aləminə üz tutduq.
Gözün gözümdən su içdi…
O göz sənin,
Bu göz mənim,
İki göz…
O, su verdi,
bu içdi,
Sevişdik…

24.05.2003

### *Əl öpüşü*

Gözəlim,
Əlimi
qoydum əlinin üstünə,
əlin altda
əlim üstdə.
Əlini öpdü əlim,
Gözəlim.
Taleim, ey taleim,
bir daha
qismət elə mənə gəl öpüşü,
Əl öpüşü!..

25.05.2003

### *Qaranlıq*

Qaranlıq

ona görə düşdü ki,
çılpaq görməsinlər aləmi.
Ey qadın,
dur geyin paltarını
aləmi örtən qaranlıq kimi.
27.05.2003

### *Nəvəm Püstəxanım bacısı Fəxriyyəyə deyirdi*

Ay bacı, yenə demə
Niyə yağdı qar axı…
Qar
Dağın ətəyində
dağın paltarı olar,
zirvəsində – papağı.
Yazığın gəlmir məgər?
Bacı, qışda qar əgər
Yağmasa
dağ üşüyər.
28.05.2003

### *Bədənini satan qadına!*

Çəkin bu çirkli işdən,
Bu bəd alış-verişdən…
Boşayacaq səni ər,
Deyəcəklər yox arı…
Səni bölüşəcəklər –
Cavan – beldən aşağı,
Qoca – beldən yuxarı.

Çəkin bu çirkli işdən!

1.06.2003

***Dağdan xahiş***

Şahin Fazildir adım,
Şagirdin olum,
ol mənim ustadım,
                    ey dağ.
Bugün-sabah ölüb gedəcəyəm,
Sapsarı xəzəl olub gedəcəyəm,
                            ey dağ,
Məndən
        əsər-əlamət qalmayacaq.

Sən də öləcəksən,
Sən də torpağa gömüləcəksən,
amma çox-çox ildən sonra,
Şahin Fazildən sonra,
                    ey dağ,
Səndən də
        əsər-əlamət qalmayacaq.

Sənlə
        mübhəm bir söhbət var:
Nə qədər ki, fürsət var
Yaxşılıq elə,
        öyrət mənə
        möhkəmliyin sirrini,
Nə əsrardır səndəki,
qoy mən də
möhkəm olum sən təki,
                            ey dağ,
                            ey dağ…

28.05.2003

### *Göz yağışı*

Gözlərimin içində
                    bulud var,
buludun içində
                    yağışlar.
Ancaq
nə qədər desəm də
«yağış, yağ»,
          yağmayacaq.
Əgər
Sən məni incitsən
və getsən,
          yağacaq,
düşəcək üzümə
                    yağışdan iz, naxış,
Qəribə buluddur bu bulud,
Qəribə yağışdır bu yağış.
Sən məni incitmə,
Getmə,
Doğmasın,
Qoy qısır qalsın
bu bulud,
yağışla dolu bulud,
Getmə!

7.06.2003

### *Dərdlər*

Bir aşiq dedi mənə:
– Dərdim dağdan ağırdı,

Mübtəla olmuşam
məhəbbət dərdinə.
Dedim ona:
– Dərd odur ki,
sən dinməsən də,
dərd dinə.
Məndə
Fələstin dərdi var,
Qarabağ dərdi var,
Yaxın-uzaq dərdi var…
Adəmi itirdim,
Həvvanı itirdim,
Məcnunu itirdim,
Leylanı itirdim,
Məndə neçə-neçə
həsrət dərdi var,
Məndə
xainlərdən törənən
xəyanət dərdi var,
Səndəsə
məhəbbət dərdi var.
Bütün ömrüm boyu
qüssə mənə «gəl» dedi,
dərd məni çağırdı.
Sənin dağdan ağır dərdin var,
Mənim dünyadan ağır,
Hansı ağırdı?

9.06.2003

***Tənasüx nəzəriyyəsi***

Fələk – dəyirmançı,
Dünya – dəyirman,

insanlar dəni.
Dünya fələyin hökmüylə
üyüdüb yeyir
səni, məni,
Dünya yeyir bizi,
Çarə nədir?
Fələkdir çıxaran hökmümüzü,
Fələkdir verən əmrimizi.
Əgər
insan olmasa
dən olmaz,
Dəyirmanı yedirən olmaz,
dəyirman ac qalar,
dünya ac qalar…
İllər ötər,
dəyirmanın
dövrü bitər,
dözümü, hövsələsi itər,
dəyirman dəyirmançıya yalvarar,
fələk yeni insan yaradar –
dən yaradar,
Sonra yenə
dünya fələyin hökmüylə
üyüdüb yeyər dəni –
səni, məni…

11.06.2003

### *Harda qalmısan?*

Gəl, dözə bilmirəm, dözüm yoruldu,
Dözüm neyləsin?
Səni səsləməkdən sözüm yoruldu,
Sözüm neyləsin?

Sevgini danıram cahillik edib,
Cahil oluram.
Vaxtı öldürürəm qatillik edib,
Qatil oluram.
Dözüm yoruldu,
Sözüm yoruldu,
Cahil oluram,
Qatil oluram,
Səni gözləməkdən gözüm yoruldu,
Sən yorulmadın,
Gəl ki, gedir can…
Harda qalmısan?
Harda qalmısan?

13.06.2003

### *Şəfqət bacısına*

Qara yel kimi
əsə bilmirsən,
Əsirsənsə,
əs, qorxu ol,
qorxudan əsdir
lovğa hicran tufanını
öz əzmini sınayıb…
Necə təbibsən ki,
axan qanı kəsə bilmirsən,
yox, əgər kəsirsənsə
kəs ürəyimin qanını,
ürəyim qanayıb…

14.06.2003

***Güllənəcəkmi?***

Gəldi bahar,
Amma,
ürəyimdə qış var.
Əridi qar,
Amma,
ürəyimdə qar var, yağış var.
Günləndi torpaq,
Ancaq,
ürəyimin zəmisində
tənha qalan,
yetim qalan
eşqimin toxumu
güllənmədi.
Əvvəllər bilərdim,
İndi bilmirəm
o toxumun içindəki nədi –
tikanmı cücərəcək,
Güllənəcəkmi?

16.06.2003

***Allah eləsin***

Söz
        dilimi yandırır,
Qələm
        əlimi,
Varaq
        ağ qalıb.
Neçə gündür yaza bilmir,
Şahin Fazil niyə sağ qalıb?
Şairə nə olub?

Bəlkə
yazacağı silsilə şe'rlərinə
vergül yerinə nöqtə qoyulub?
Allah eləməsin!
Nə qədər ki sağam
Yazacağam,
kim nə deyir-desin…
Söz
        dilimi yandırsa da,
Qələm
        əlimi yandırsa da,
Varaq
        ağ qalmayacaq,
Allah eləsin!

18.06.2003

### *Soyuq, isti, işıq*

Soyuqdan donanda
Köynək deyil,
        atəş geymək istəyirəm –
        yanım deyə…
İstidən yananda
Su deyil
        işıq içmək istəyirəm –
        işıqlanım deyə…
Gedirəm təbiətin ziddinə!
Başımda ziddiyyət,
Qəlbimdə təzad var,
hamı belədirmi,
        ey adamlar?
Beləsə,
        çox nahaq coşub-daşırıq,

təbiətlə əbəs dalaşırıq.
Yamanca dəli-doluyuq,
Fəqət bilmirik ki,
soyuqda isti var,
istidə soyuq,
hər ikisindəsə –
İşıq.
Ey adamlar,
İşıq zülmətdə də var,
deyil sirr,
fəqət görmək gərəkdir.
Görmək gərəkdir!
Məgər görmək deyilmi
gözlərin yaraşığı?
Görmək gərəkdir
soyuğu,
istini,
zülməti,
işığı!

25.06.2003

***Böyüklərin kiçikliyi***

Böyüyün böyük ağrısı var,
kiçiyin kiçik,
Məndə
böyük ağrısı baş qaldırır get-gedə,
çünki, böyük
böyüyün də ağrısını çəkir,
kiçiyin də.
Kiçiyin kiçik ağrısını çəkməyə nə var ki?..
Çətindir,
çox çətindir

böyüyün böyük ağrısını çəkmək,
heç çəkə bilmirəm bu dərdi,
Vaxt var idi
    böyük üçün,
    böyüklük üçün
    ürəyim gedərdi.
İndisə
böyük görünən böyüklərə
    kiçiklik arzulayıram,
böyük-böyük kişilik arzulayıram,
qoy dəlilik eləməsinlər,
qanlar töküb,
qanlar içib
qoy zəlilik eləməsinlər…
İndi
    elə böyük var ki,
    onu beşiyə qoyub
    yelləmək lazımdır yatsın deyə,
    heç olmasa
    yuxuda
    dava-dalaş daşını
    atsın deyə.
Elə böyük əgər yatsa
    dava istəməz,
    qovğa istəməz,
    cəncal istəməz,
    qiylü qal istəməz,
Beşgünlük dünyanı,
    fani dünyanı
    dünya malına
    satmaq istəməz,
Bağdad kimi,
Kərbəla kimi

müqəddəs yerləri
dağıtmaq istəməz…
İlahi,
qoy kimsə çəkməsin
mən çəkəni –
çünki,
böyüklərin kiçikliyi öldürür məni.

26.06.2003

***Yaşım eşqimdən yaşlıdı***

Dünyanın çox namərdi var,
Edir fəğan buna görə.
Bir ürəyin min dərdi var,
Ürək viran buna görə.

Səhra bağa gül uzatdı,
Alov göyə dil uzatdı,
Ziyan xeyrə əl uzatdı,
Xeyrim ziyan buna görə.

Etməsəm də peyda gülü
Ürəyimdə xülya gülü…
Güləcəkmi sevda gülü?
Can nigaran buna görə.

Çox ağladıq, bizdən küsdü
Göyün altı, yerin üstü.
Aşiqlərin ahı – tüstü,
Göylər duman buna görə.

Ağlatma, gözüm yaşlıdı,
Daş atma, başım daşlıdı,

Yaşım eşqimdən yaşlıdı,
Eşqim cavan buna görə.

29.06.2003

### *İstək*

Günümüzü qaraldırlar…
Gündüzü qaraldırlar…
Qara
            xoş gəlir
            qəlbiqaralara,
Fəqət bilmirlər ki,
            ağ hara, qara hara?
Əgər Allah-taala istəsə
Gecəni
            gündüzün ağuşuna
            atmaq olar,
qaranı
            ağ rəngə
            boyatmaq olar.
Kaş gecə gəlməyədi,
Kaş gecə olmayaydı,
gündüz də dincəlmək olar,
            yatmaq olar…

Qaranı ağartmaq naminə
nə olar, kibrit çəkin mənə,
            yanmaq istəyirəm.
Ya da,
işıq yandırın, işıq!
İşıqlanmaq istəyirəm, işıq!
İşıq – gün,
işıq – gündüz,

işıq – yaraşıq,
işıq – işıq,
işığa şığı.
Qaranlıq gizlədir günü,
          gündüzü,
          işığı.
İşıqlanmaq istəyirəm
gündüz-gecə,
Sən necə?
Duyursanmı istəyimi?
Qolumu çırmayıb,
əlimi uzadıb
          hər gecə
gecənin gombul qarnından
heç olmasa
uşaq boyda
işıq çıxarmaq istəyirəm
mamaça kimi…

2.07.2003

### *Qaçqın*

Bu sözdən gəlmir xoşun…
Bığına, saqqalına,
indiki bəd halına,
namusuna, arına,
qaçan ayaqlarına
bu söz yaraşmır məgər?
Əgər sən qaçmasaydın
qaçqın söyləməzdilər.
Bu sözdən gəlmir xoşun?
Onda, dönüb qaç geri,
Qaç qaçdığın o yerə,

Təzədən əllərinə
al itirdiyin yeri,
Çadır boyda çadranı
çıxarıb at başından.
O zaman eşitməzsən
qazandığın bu sözü
yarından, yoldaşından.

Bu sözdən gəlmir xoşun…
Bu söz yaraşmır məgər?
Geriyə qaçsan əgər,
Arxayın ol, adına
qaçqın deməyəcəklər.

Bu sözdən gəlmir xoşun…
Qulağına qurğuşun!

3.07.2003

### *İki təsbeh dənəsi*

Yalançıların dilini
əqrəb sancsa,
ilan vursa
gileylənməsinlər,
Doğrular deyəcək
«Yaxşı olub».
Onsuz da
ağızlarını açantək
gileyləri eşidilməyəcək,
çünki
dilləri sancılıb, vurulub.
Əgər belə olsa,
vay siyasətçilərin hallarına,

vay iqballarına…
Əgər işdi-şayəd
haçansa yalan danışsam,
mənə həqiqi ölüm diləsinlər,
Çıxarıb gözlərimi,
keçirib təsbeh ipinə
təsbeh dənəsi eləsinlər.
Əgər belə olsa,
ey Pərvərdigar,
Yalançıların biri azalar,
Təsbeh dənələrinin ikisi artar.

5.07.2003

### ***Deyiblər, deyirlər, deyəcəklər…***

«Sel Saranı apardı…»,
Dəryaya nə deyəsən?
«Xəncər başı qopardı….»
Qovğaya nə deyəsən?
«Şahintək kişi vardı…»
Dünyaya nə deyəsən?

6.07.2003

### ***Gündüzün saçı***

Anlamadım səni mən,
Günün ağ, güzəranın ağ,
keyfin kök, ovqatın çağ,
saçın da ki,
maşallah,
ağ günündən ağ.
Ey ağın üstünü örtən,
niyə qaraltdın saçını?

Ağlına şübhəm var,
bu nə ağıldı, nə huşdu?
Niyə qaraltdın saçını,
nə vacib olmuşdu?
Niyə ağı qaraladın?
Niyə rəngi yaraladın?
Niyə qaraldı ağın günü?
Niyə örtdün ağın üstünü?
Sən ki, ağ içindəsən,
başlamısan ağları qaraltmağa,
ağ olmusan ağa.
Niyə qaraltdın saçını?
Axı
ağ rəngi saçlarına
Rəngsaz fələyin əli çəkmişdi,
Rəngsazın əlini bəyənmirsən?
Axı, Allah qaraltmışdı sənin saçını,
Allahın əməlini bəyənmirsən?
Niyə qaraltdın saçını?
Unutma ki,
ağ – rənglərin qəşəngidi,
ağ – gündüzün rəngidi,
        aydınlığın rəngidi.
Anlamıram bunu mən:
Sən ki, ağ içindəsən,
saçına qara necə düşür?
Qaradan qaç, ağdan yapış,
Unutma ki,
gündüzün saçı qaralanda
        gecə düşür…
        Niyə qaraltdın saçını?

7.07.2003

### *Nəyimə gərəkdir bu sevgi mənim?*

Qəmimin başına daş atmayırsa,
Nəyimə gərəkdir bu sevgi mənim?
Məni öldürürsə, yaşatmayırsa,
Nəyimə gərəkdir bu sevgi mənim?

Nazənin bir gözəl, bir huri, mələk
Mənə ürəyini açdı kitabtək,
Dedim ki, olmazsa mənə savabtək
Nəyimə gərəkdir bu sevgi mənim?

Gözü də, qaşı da təmənna güdür,
Gözünün yaşı da təmənna güdür,
Sevgisiz başı da təmənna güdür,
Nəyimə gərəkdir bu sevgi mənim?

Onsuz da qəlbimi bürüyüb ələm,
Onsuz da həyatım dünya boyda qəm,
Mən ki, bu dünyada sevgi görmürəm,
Nəyimə gərəkdir bu sevgi mənim?

Əgər artırırsa günahı sevgi,
Əgər azaldırsa pənahı sevgi,
Şahinə gərəkdir ilahi sevgi,
Nəyimə gərəkdir bu sevgi mənim?

9.07.2003

### *Öz-özümə sual*

Deyirlər ki, doymayır
Hər şah canavar kimi…
Bəs Allah necə? Allah

Bir dünya yaratsaydı
kifayət deyildimi?
Tək Allah bilir göydə
neçə ay var, neçə gün.
Niyə sonsuz dünyalar,
səyyarələr yaratdı
Allah tək özü üçün?
«La ilahə illallah»!
Doya bilirmi Allah?
Bəlkə buna görə də,
şah Allahlıq eləyir,
«mən də doymuram» deyir?..

10.07.2003

### *Mən səni heç zaman bağışlamaram*

*Dünən mənə şe'r yazdırmadığı üçün*
*ilham pərisini tənqidə məruz qoydum*

Rəhmimə zərrəcə ümid eləmə,
Mən səni heç zaman bağışlamaram.
«Əfv elə» söyləmə, «bağışla» demə,
Mən səni heç zaman bağışlamaram.

Üzsün mənim kimi qüssə-qəm səni,
Çürütsün gözündən axan nəm səni,
Allah deyiləm ki, əfv edəm səni,
Mən səni heç zaman bağışlamaram.

Mənlə neçə müddət elədin ülfət…
Budurmu vurğunluq, bumu məhəbbət?
Divanə etsə də məni bu həsrət
Mən səni heç zaman bağışlamaram.

Demə ki, «sən kimi neçə yanan var»,
Demə ki, «nə qədər bağışlanan var»,
Qoy məni qınasın bağışlananlar,
Mən səni heç zaman bağışlamaram.

Şairin onu var, yüzü, mini var,
Şe'r səmasının çox şahini var,
Şahin Fazildəsə dəvə kini var,
Mən səni heç zaman bağışlamaram.

Ey söz xəzinəmi eləyən talan,
Məni yerdə qoyub göyə ucalan,
Ey dəftər-qələmi əlimdən alan,
Mən səni heç zaman bağışlamaram.

Axı neçə gündür görmürəm səni,
Neçin tərk elədin şe'r sevəni?
Ey İlham pərisi, bağışla məni,
Mən səni heç zaman bağışlamaram.

13.07.2003

### *Allahsız*

O adamı görəndə
Önünə qaçım gərək.
Qulağımı bağlayıb,
Dilimi açım gərək.

Ölübsə də canımda
Daha döymək həvəsi,
Qırmancıyla sözümün
Döyüm gərək o kəsi.

Allahlı etsin deyə
Qorxusu Allahsızı,
Allah, kömək et mənə
Döyüm bu Allahsızı.

14.07.2003

***Sağ ölülər, ölü sağlar***

Həyata bax…
Həyatdakı təzada bax:
Biri sağdır, biri ölü…
Biri – diri,
diri – xırda;
Biri – iri,
iri – ölü;
Biri sağdır,
biri – ölü;
Ölü – diri,
Diri – ölü,
Diri – yatıb,
Ölü – oyaq…

Həyata bax…
Həyatdakı təzada bax:
Biri – diri,
amma ölü;
Biri – ölü,
amma diri,
hər ölünü
sanma ölü,
hər dirini
sanma diri.

Həyata bax…
Həyatdakı təzada bax…
Gedəcəklər… Gələcəklər…
İtəcəklər… Qalacaqlar…
Sağ ölülər,
Ölü sağlar.

Kimlər ölü,
Kimlər sağsa
Məhşər günü fəqət bəlli olacaqlar –
Sağ ölülər,
Ölü sağlar.

17.07.2003

### *Əridi getdi…*

*Tamridanı xatırladım*

Məndən zəngin adam yoxdu dünyada,
Mərcandı, gövhərdi, zər idi, getdi.
Səsim aha dönür, ahım fəryada,
Arxamda nər idi, ər idi, getdi.

Onsuz hər bir günüm təlaşa döndü,
Gözlərim nəmləndi, nəm yaşa döndü,
Mənim ürəyimdə qəm yaşa döndü,
Onun ürəyində əridi, getdi.

18.07.2003

### *Yandırma məni*

Bəsdi, çəkil get!..
Əlində tutaraq söz kibritini,

qəlbində kini,
Qaynar gileyinlə yandırma məni.
Nə hava soyuqdur, nə sən donursan,
Nə otaq sobadır, nə mən yanacaq.
Əgər yandırmasan
mən boyda adam
nədən yanacaq?
Hava da istidir, otaq da isti,
Yandırma, bəsdi,
Mən Şahin Fazıləm – əlimdə qələm,
Ağac deyiləm,
Odun deyiləm,
Yandırma məni
Əlində tutduğun söz kibritinlə…

22.07.2003

### *Nəzər*

Hardan gəlibsə bəşər,
Gedəcək bəşər ora.
Ey mühacir mələklər,
Aparın xəbər ora.

Yer üzünün, görürəm
Azı sevinc, çoxu qəm,
Zərurətsə cəhənnəm
Dolacaq kədər ora.

Göz nəzərlə doludur,
Göz nəzərlər yoludur,
Nəzər nəfsin quludur,
Nəfs hara – nəzər ora.

26.07.2003

### *Öz-özümə sual*

Mömün də gərəkdir, cani də gərək!
Cənnətlə cəhənnəm,
mömünlə cani
İlahi bir əmrin müqabilində
müt'i olmağa
oldu müştərək,
Mömün də gərəkdir, cani də gərək!
Əmr ilə icranın gerçəkləşməsi
Onlarsız olardı çətindən çətin,
Biri – cəhənnəmin zərurətidir,
Biri – cənnətin.
Cənnət dola bilməz mömünlü dünya
fani olmasa,
Cəhənnəm boş qalar cani olmasa.
Doldurmaq olarmı iki məkanı
əgər olmasa
mömün və cani?

27.07.2003

### *Bilməzlik*

O adam
başqasını görür,
amma özünü görmür…
Kara «qulaq as» deyir,
Kora «bax» deyir,
Lala «danış» deyir,
Özününsə
karlığını,
korluğunu,
lallığını

bilməyir…
O adam…

28.07.2003

### *Yol*

Bilək – qoldan balaca.
Bilək – qol ola bilməz.
Cığır
yoldan ayrılıb
«Mən də bir yolam» dedi,
Amma,
bunu bilmədi:
cığır yol ola bilməz.
Yol olmaq istəyirəm!

29.07.2003

### *Tək*

Qovuşmaq!
Ayrılmadan qovuşmaq!
Qovuşdum yalqızlığa,
təkliyə,
tənhalığa…
Tanrı
mənim iqbalıma
vahidlik yazdı.
Buna heç kim inanmazdı,
adamlar
indi inandılar,
gördülər ki,
gündüz-gecə
eləcə
yalqızam,

təkəm
təkəm
tənhayam.
Mən ha!..
Yalqız, tək, tənha!..
Ömrümün sonunacan
təkliyədir istiqamətim,
Amma,
yoxdur şikayətim,
Təkəm.
Kimsə
mənə deyə bilməz ki,
«təkliyinə müştərəkəm».
Qadir bir əl
mənim iqbalıma
təklik yazdı.
Təklik pis olsaydı
Allah da tək olmazdı.

30.07.2006

***Bu şe'ri yazdım bu gün***

*Adil Əlizadəyə!*

Bu şe'ri yazdım bu gün
Bu günün yaddaşına.
İlahi, tuş olmasın
Sözlərim yad daşına.

Bu şe'ri yazdım bu gün
Rahat oldum bir qədər.
Qoy şövq ilə oxusun
Şe'ri şe'rsevərlər.

Şe'rsevməz kəs isə

Oxusa da anlamaz.
İlham pərisi deyir:
Varam, hər gün şe'r yaz.

Zənn edirəm ki, şe'r
Dadlı edir həyatı.
Şe'r yazmaq Şahinin
Gündəlik tələbatı.

Şe'r – şe'r əhlinə
Şan oldu, şərəf oldu.
Bu şe'ri yazdım bu gün
Ehtiyacım rəf oldu.

Sözü şe'rə çevirib,
Şe'ri kitab edirəm.
Hər gün şe'r yazmaqla
Hər gün savab edirəm.

İnanmıram savabı
Günah oxuyacaqlar.
Bu şe'ri yazdım bu gün.
Sabah oxuyacaqlar.

2.08.2003

### *Biri yaxşı, biri yaman*

Bir ürəkdə iki səs var:
Biri fərəh, biri fəğan.
Bizə hakim iki kəs var:
Biri mələk, biri şeytan.

Yer vahidmi? Çoxdur bəlkə?

Torpaq acmı? Toxdur bəlkə?
Allah varmı? Yoxdur bəlkə?
Biri mütləq, biri güman.

Xoşdur mənə həzz də qəm də,
Gözüm yoxdur bu aləmdə.
Cənnət də var, cəhənnəm də,
Biri yaxşı, biri yaman.

3.08.2003

## *Qədəm*

*M. – ə!*

Mən – Sən,
Sən – Mən!!!
Bir məqsədə tərəf, bir meylə doğru
Başladıq gəlməyə iki tərəfdən.
İstədik ki, qovaq iki hicranı,
iki fərağı
Mən – Sən,
Sən – Mən,
Aramızda isə cənnətin bağı.

O bağa sarı
Düşünüb sevdanı, anıb ilqarı
Başladıq gəlməyə iki tərəfdən,
Üzbəüz olduq,
Gözbəgöz olduq,
Amma, ayrı durduq bir-birimizdən.
Mən – Sən,
Sən – Mən
Vüsala tamarzı aşiq sayağı.
Aramızda isə cənnətin bağı.

Bir qədəm irəli gələydin gərək,
Bir qədəm irəli gələydim gərək,
Vüsalın qədrini biləydin gərək,
          biləydim gərək.
Qədəm atılmadı iki tərəfdən,
Fəqət bir qədəm…

Mən – Sən,
Sən – Mən!
İki sinədə
Həsrətin dağı,
Aramızda isə cənnətin bağı.

Birdən bağ uçdu,
O bağ böyüklükdə təmtəraq uçdu,
Uçdu, bülbülünü apardı göyə,
Apardı, gülünü apardı göyə,
Qeyb oldu çiçəyi, suyu, bulağı,
Uçdu aramızdan cənnətin bağı,
O dəm güc olmadı iki qədəmdə,
Qədəm atılaydı gərək o dəmdə…
Uçdu cənnət bağı, sanki quş idi,
O cənnət bağına çatana qədər
Neçə-neçə qədəm atılmış idi,
Qədəm atılmadı o ləhzə, o dəm,
Təkcə bir addım…
Təkcə bir qədəm…

5.08.2003

### *İnsan və torpaq*

Müvəqqəti,

keçici,
ötəri haldır bu:
Torpağı ayaqlayır ömrü boyu,
Torpaq altda,
İnsan üstdə.
Sonra
            gömülür torpağa,
            torpaqda qalır.
Torpaq onu ağuşuna alır,
İnsan altda,
Torpaq üstdə…

Torpağın üstündə
Özünü üstün bilir,
torpağın qulağını batırır səsi.
Üst – alt,
Alt – üst,
hey düşündürür məni
bu üstünlük məsələsi.
Kimdir üstün?
Nədir üstün?
Kimdi yatan?
Kimdi qalan ayaq üstdə?
Torpaq altda,
İnsan üstdə,
İnsan altda,
Torpaq üstdə…

9.08.2003

***Görünmür!***

Çağırıram, niyə gülüm görünmür?
Bir bülbüləm, daha zilim görünmür.

Natiqəmsə, niyə dilim görünmür,
İlahi!..

Belə cəfa, belə zülüm görünmür,
Gənclik ötdü, ilim-ilim görünmür…
Qocalmışam, vuran əlim görünmür,
İlahi!..

Düz gedirəm, sağım-solum görünmür,
Ucalığa gedən yolum görünmür,
Olum – qalır, hələ ölüm – görünmür,
İlahi!..
İlahi!..
İlahi!

10.08.2003

### *Şübhə*

Yoxdur, Azərbaycanın
nə nefti var, nə qazı.
Olsa idi, ölkədə
gözümüz baxa-baxa
adamlar yanacağa
olmazdılar tamarzı.

Olsa idi, xalqımız
düşməz idi bu günə:
Dərd çıxır dərd üstünə,
Qəm gəlir qəm üstünə.

Olsa idi, meşələr
qırılmazdı bu qədər.
Yollarımız nə gündə…
Nə gündədir küçələr…

Eləyirəm e’tiraz
Ey Azərbaycanımız,
Olsa idi mavi qaz,
Olsa idi qara neft,
Qaralmazdı qanımız.

Yerüstü ne’mətlərin,
Yetaltı sərvətlərin
Olanı-qalanı da
gedir xaricə sarı,
Atalar isə deyib:
«Əvvəlcə evin içi,
Sonra isə bayırı».

Yoxdur, Azərbaycanın
nə nefti var, nə qazı.
Olsa idi, ölkədə
gözümüz baxa-baxa
adamlar yanacağa
olmazdılar tamarzı.

11.08.2003

### *Adəm balası*

Göydən çəkə bilmirsən
Gözünü, Adəm balası.
Göydə aramaqdasan
Sən babanın yolunu,
İzini, Adəm balası.

Göy üzündə izmi var?
Havada izmi qalar?

Belə mö’cüzmü olar?
Bilə biləcəkmisən
Düzünü, Adəm balası?

Ölürükmü? Ölmürük!
Dəyişirik dünyanı!
Ruh nədirsə bilmirik,
Göydə görəcəkmisən
Özünü, Adəm balası?

12.08.2003

### *Yer kürəsi – bir çimdik torpaq*

Göydə
nə qədər Yerlər var…
nə qədər torpaqlar var…
Təkcə Yaradan bilir
nə qədər dağlar var,
nə qədər bağlar var…
Bizim də
dağımız
bağımız var,
Biz varıq,
Bir də
Yer boyda
torpağımız var.
Biz –
Yaradanın yaratdığına şərik,
O,
bizə bir çimdik torpaq verib,
bir çimdik.
Allah-taalanın çimdiyi
nə böyük!..

13.08.2003

### *Necə tapım?*

Qurd-quş artır, ay aman,
Pələngi necə tapım?
Yaxşı görünür – yaman,
Qəşəngi necə tapım?

Siyasət «nəhəngləri»
Uduzdular cəngləri…
Yığdılar tüfəngləri,
Tüfəngi necə tapım?

Dəyirman var, dəni yox,
«Taparam» deyəni yox…
Bu atın yüyəni yox,
Üzəngi necə tapım?

Şahin quşu qəfəsdə…
Bəlkə də son nəfəsdə…
Yaltaqlar dəstə-dəstə,
Həvəngi necə tapım?

Nizam gedibdir bada,
İlahi, yetiş dada,
Bu qaranlıq dünyada
Ağ rəngi necə tapım?

16.08.2003

### *Söyüş*

Kim yaratdı söyüşü?

Fikirləşdi kim bunu?
Kim söyüşçü elədi
Axı insan oğlunu?
İnsan insanı söyür,
İnsan heyvanı söyür…
İnsanı tutacaqdır
Bir gün şeytanın ahı,
Özü edir günahı
Amma şeytanı söyür.

17.08.2003

### *İki od*

Yandıran mən,
Yanan o…
Yandıran o,
Yanan mən…
Cəlb eləyir bu dünyaya gələndən
Od məni,
Mən odu.

Odda mənəm,
Məndə od,
Odda od –
İki od var,
Necə tapdı bir-birini bu odlar –
Od məni,
Mən odu.
Eşqin odu qarsılayıb qəlbimi,
Bilməyirəm yandıracaq kim-kimi –
Od məni,
Mən odu?

18.08.2003

### *Xahiş*

İlahi, əlim əsir,
Əl tut.
Əl əlinə tələsir,
Əl tut.

Sən Tanrısan, mən bəndə,
Əl tut.
İmkan səndə, əl məndə,
Əl tut.

Axı, əl tutacaq kim?
Əl tut.
Sən rəhmansan, sən rəhim,
Əl tut.

Çoxunun əli gödək,
Əl tut.
Əlimə əlin gərək,
Əl tut.

Demirəm zərli olsun,
Əl tut.
Əlim təpərli olsun,
Əl tut.

Zülm eləyir qüvvəli,
Əl tut.
Hanı Əlinin əli?
Əl tut.

Üzülən bu canı gör,
Əl tut.
Əlimdə Qur’anı gör,
Əl tut.

Əlim heysizdir mənim,
Əl tut.
Pis gündədir vətənim,
Əl tut.

Hiddətin dili uzun,
Əl tut.
Rüşvətin əli uzun,
Əl tut.

Elin yaman halıdır,
Əl tut.
Əl sənə uzalıdır,
Əl tut.

Qaranlıq çoxdur ağdan,
Əl tut.
Uzaqdasan, uzaqdan
Əl tut.

Əlim sənə müntəzir,
Əl tut.
Əlim əlini gəzir,
Əl tut.

«Tut» deməRəm heç kimə,
Əl tut.
Əldən düşən əlimə

Əl tut.

Əlimə qızıl atma,
Əl tut.
Qocalmışam, yubatma,
Əl tut,
Əl tut,
Əl tut.

20.08.2003

### *Haradasan?*

Ya İlahi! Ya İlahi!
Ey Yerləri,
        Ulduzları,
        Günəşləri,
        Qəmərləri
        Qur'an dahi,
haradasan?
Ya İlahi, haradasan?

Özündə sirr,
Yerində sirr,
        haradasan?
«Sən məndəsən»
        dedi şair,
haradasan?

Dərki mənə müəmmadır
bu aləmin, o aləmin.
Suallarım yüz-yüz,
        min-min.
hara gizli, hara açıq,

hara çətin, hara asan?
Haradasan?
Hara ağdır, hara qara?
Hara bütöv, hara para?
Hara yalan, hara doğru?
Yol gedirik hara doğru?
Hara nağıl, hara gerçək?
Hara gözəl, hara göyçək?
Hara yaxşı, haradır pis?
Hara çəkir bizi iblis,
                bizi şeytan?
Sən iblisi,
Sən şeytanı
        axı neçin yaratmısan?
Yaradaydın hər xilqətmi mələk kimi,
Çiynimizdə yük yerinə
mələk kafi deyildimi?
Doldurmusan içimizə şeytanları,
Ağlımıza, huşumuza şeytanları,
Yeritmisən başımıza şeytanları,
Mələk kafi deyildimi?
Çərxi-fələk
        müəmmatək!..
Çərxi olan fələk nədir?
Cavab ver ki, bilək, nədir?
Əməl nədir, kələk nədir?
İblis nədir,
Şeytan nədir,
Mələk nədir?
Mələk kafi deyildimi?

Ya İlahi! Ya İlahi!
Hikmətlisən,

hikmətinin rəddi yoxdur,
Qüvvətlisən,
qüvvətinin səddi yoxdur,
Qüdrətlisən,
qüdrətinin həddi yoxdur,
Amma, hələ
cavabsızdır çox suallar:
Təsadüfdə zərurət var,
Zərurətdə təsadüf var,
Təsadüf nə, zərurət nə?
Təsadüf də həqiqətsə,
Zərurət də həqiqətsə,
həqiqət nə?
Bir Adəmdən,
Bir Həvvadan
törənən Adəm oğlunda
qəzəb nədir, küdurət nə?
Sevgi – mə'lum?
Bəs Eşq nədir, Məhəbbət nə?
Sualıma cavab deyil düşündüyüm,
Sualımın cavabları düyün-düyün,
Düyünləri açan yoxdur,
                        bu gün yoxdur,
Açılmayan düyün çoxdur,
                        neçin çoxdur?
Yer dövr edir,
Yer dövrədir,
Yer çevrədir,
Çevrənin əvvəli harda?
Dövrənin əvvəli harda?
Sual çoxdur,
        «xeyr» harda, «bəli» harda?
Əvvəlin əvvəli harda?

Bilməyirəm əvvəl nədir, axır nədir?
Mənə gizli olan sirlər açıq Sənə!
Axır nədir, başlanğıc nə?
Başlanğıcdan son olarmı?
Sonsuzluğun sonu varmı?
Qaranlıqdır mənə sual,
Qaranlıqdır mənə həll də.
Sən
          sondasan, ya əvvəldə?
NiyəYerin aqibəti
Yerə deyil, Göyə bağlı?
Suallarım niyə açıq,
Cavabların niyə bağlı?

Dərki mənə müəmmadır
bu aləmin, o aləmin,
Suallarım yüz-yüz,
                    min-min.
Hara gizli, hara açıq?
Hara çətin, hara asan?
Haradasan?

Mən
          bilirəm haradayam,
Sən
          bilirsən haradayam,
Mən
          bilmirəm haradasan.
Haradasan?
Haradasan?..

21.08.2003

***Bütöv idim, tam idim…***

İki para – bir bütöv,
Bütöv idim, tam idim,
Paranın biri səndin,
                    biri mən,
Bütöv bir adam idim.
Tamın yarısı ölüb,
                    yarısı diri qalıb
                    hələlik,
Paranın biri yoxdur,
Paranın biri qalıb
                    hələlik.
Aç məzarı, yarım, çıx,
Yarımçığam, yarımçıq,
Bütöv bir adam idim…

23.08.2003

***Göylər izləyir səni***

Aç gözünü, yaxşı bax,
Də'vət edir məhəbbət,
Sevgi gözləyir səni.
Sevda oddur, qəlb ocaq,
Eşq əzizləyir səni.

Olduğuntək görün sən,
Nahaqa meyl eyləmə.
Haqq ardınca sürün sən,
Polada da bürünsən
Sanma gizləyir səni.

Ey Yerdə olan insan,

Ey Yerdə gültək açıb
Ey Yerdə solan insan,
Ey Yerdə qalan insan,
Göylər izləyir səni.

24.08.2003

### *Sənin yanında*

Elə yaxşı olur ki,
Halım sənin yanında,
İstəyirəm ömürlük
Qalım sənin yanında.

Çatıb şirin vüsala,
Uğramayıb zavala,
Gecə-gündüz xəyala
Dalım sənin yanında.

Duyğuda ülviyyəti,
Sevgidə qüdsiyyəti,
Bilmədiyim hikməti
Bilim sənin yanında.

Oxşayasan qəlbimi
Xoş ətirli gül kimi,
Oxuya bülbül kimi
Dilim sənin yanında.

Sağ qalacaq axı kim?
Yetişəndə ölməyim
Başqa yanda ölməyim,
Ölüm sənin yanında.

25.08.2003

***Yaşa, Adəm!..***

Gəliş bu cəhanə
Adəmdən başladı.
İlk şe’r, ilk təranə
Adəmdən başladı.
Həvva… Buğda…
Xəcalət
Adəmdən başladı.
İlk Eşq,
ilk Sevgi,
Məhəbbət
Adəmdən başladı.
İlk kişilik,
ilk ərlik
Adəmdən başladı.
Yer üzündə peyğəmbərlik
Adəmdən başladı.
Bu dünyada cəza
Adəmdən başladı.
İbrahim,
İsmayıl, Musa,
İsa,
Mustafa,
Mürtəza
Adəmdən başladı.
Mənim əvvəlim, ibtidaim
Adəmdən başladı,
Sözüm, səsim,
sədam, nidam
Adəmdən başladı,
Adəm adam oldu,

adam
Adəmdən başladı,
Yaşa, Adəm!..

25.08.2003

### *Adəm ilə Həvva*

Uçurdular göydə…
Allah düşürdü onları,
Qovdu yerə sarı,
Uçub gəldilər.
Bir daha
qanad açmadılar,
uçmadılar,
Yerə düşdülər,
Yerdə gəzdilər,
Yerdə öldülər,
Ölümsüzlük
Əllərindən çıxdı,
Göydə qalsaydılar
ölməzdilər
Adəm ilə Həvva…

26.08.2003

### *Ölməz dörd qardaş*

Ey dadi-bidad,
Ey çərxi fələk!..
Cəbrayıl, Əzrayıl, Mikayıl, İsrafil –
dörd qardaş,
dörd mələk.
Biri ölüm gətirir
hamıya;

Biri müjdə daşıyır
          kiməsə;
Biri çayı qurudar,
səhranı gülzar edər
          istəsə;
Biri də tütək çalar
qiyamət günü bizə.
Bizlər ölürüksə də,
Ölümsüzdür dördü də…
Ömrümüz boyu
İstəsək də, istəməsək də
gözləyirik dörd qardaşı,
          dörd ölməz mələyi
Gəldi-gedər insantək.
Ey dadi-bidad,
Ey çərxi-fələk,
Gözləyirik…

27.08.2003

### ***Daha bəsdi, İlahi***

O kəs nə qəşəng kəsdi!..
O nə kəsdi, İlahi.
O səs nə ipək səsdi!..
O nə səsdi, İlahi.

Bu nə betər sevgidi!..
Vəslə çəpər sevgidi!..
Bu nə təhər sevgidi,
Nə həvəsdi, İlahi.

Sədd eləyib iffəti
Rədd eləyir işrəti,

Nədir onun niyyəti,
Nədir qəsdi, İlahi.

Deyir «Cəhdin əbəsdi!»,
Sözü cür'əti kəsdi,
Səsi taqəti kəsdi,
Kəshakəsdi, İlahi.

Çəkmədəyəm zülm mən,
Aralıyıq gülüm, mən…
İlahi, qoy ölüm mən,
Daha bəsdi, İlahi.

28.08.2003

### *Çomaq hayanda qaldı?*

Həyatım oldu qara,
Çıraq hayanda qaldı?
Yanımdadır bu qara,
O ağa nə oldu bəs?
O ağ hayanda qaldı?

Qəm məni soraqladı,
Gəldi, tapdı, dağladı…
Qələm neçin ağladı,
Eynək hayana düşdü?
Varaq hayanda qaldı?

Sevinc qırağa düşdü,
Vüsal fərağa düşdü,
Yaxın uzağa düşdü,
Uzaq hayana getdi?
Uzaq hayanda qaldı?

İnsan ömrü budumu?
Ömür – bir su udumu…
Söndürən yox odumu,
Üstümə su səpən yox,
Bulaq hayanda qaldı?

Sağ ol, a dünya, mən həm
Sənə vida edirəm,
O dünyaya gedirəm,
Əlim-ayağım əsir,
Çomaq hayanda qaldı?

29.08.2003

### *Sən harada qalmısan?*

Salıb təşvişə məni
Zar elədin sevəni,
Görə bilmirəm səni,
Gerçəkmi, xəyalmısan?
Sən hayana getmisən?
Sən harada qalmısan?

Elə coşub niskili
Aşıb yenə sahili,
Qoca Şahin Fazili
Dərdə, qəmə salmısan,
Sən hayana getmisən?
Sən harada qalmısan?

Bu yarın yarı gendə,
Dözüm qalmadı məndə,
Deyəcəksən görəndə

Sən məni: Qocalmısan…
Sən hayana getmisən?
Sən harada qalmısan?

Uçub göyərçin kimi
Var elədin cəbrimi.
Əllərimdən səbrimi,
Hövsələmi almısan,
Sən hayana getmisən?
Sən harada qalmısan?

Meyli kədərdə qoyub,
İmkanı dərdə qoyub,
Şahini yerdə qoyub
Göyəmi ucalmısan?
Sən hayana getmisən?
Sən harada qalmısan?

31.08.2003

### *Sükut əzabı*

Gəl məni sükutun çəngindən çıxar,
Qulağım dəng olur sükut səsindən.
Səsim yox, sükutun amma səsi var,
Qulağım dəng olur sükut səsindən.

Günəşim, şüanın qışqırığı var,
Ağacın, yuvanın qışqırığı var,
Qulaq as, havanın qışqırığı var,
Qulağım dəng olur sükut səsindən.

Qulağım sükutu, vallah, eşidir,
Sən eşitməyirsən, billah, eşidir,

Bu səsi eşitsə, Allah eşidir,
Qulağım dəng olur sükut səsindən.

Gəlib xilas elə, gəlib tut məni,
Yata bilməyirəm, gəl uyut məni,
Dəli eləyəcək bu sükut məni.
Qulağım dəng olur sükut səsindən.

Dumanın neyi var, çənin – nəğməsi,
Gəlir qulağıma buludun səsi,
Məni dəng eləyir sükutun səsi,
Qulağım dəng olur sükut səsindən.

Bu sükut səbrimi pis günə qoyur,
Ayrılıq qoxuyur, hicran qoxuyur,
Axşamdan sübhəcən sükut – oxuyur,
Qulağım dəng olur sükut səsindən.

Sükut ağı deyir, var imiş dili,
Sükutun bəmi var, sükutun zili…
Sükut kar edəcək Şahin Fazili,
Qulağım dəng olur sükut səsindən.

1.09.2003
*Gecə yarısı*

## *Yarəb!*

Dinsin dili hər və'də,
Vicdanımızın, Yarəb,
Sınsın əli dünyadə
Nöqsanımızın, Yarəb.

Qoyma yenə cəng olsun,

Əllərdə tüfəng olsun,
Hər səmti qəşəng olsun
Dövranımızın, Yarəb.

Hər fitnə xəyal olsun,
Əllərdə qaval olsun,
Qovğa dili lal olsun
Tüğyanımızın, Yarəb.

Sülh ellərə şan olsun,
Hər yanda əyan olsun,
Qoy hökmü rəvan olsun
İmkanımızın, Yarəb.

İslam nə gözəl dindir,
Aşiq ona Şahindir,
Hər kəlməsi ayindir
Qur'anımızın, Yarəb!

2.09.2003

### *Cütün təkdən nə xəbəri?*

Çəkisiz kəs çəki bilməz,
Çəkhaçəkdən nə xəbəri?
Cüt olanlar təki bilməz,
Cütün təkdən nə xəbəri?

Çobanlıq etməyən kəsin
Ormanda itməyən kəsin,
Savaşa getməyən kəsin
Dəyənəkdən nə xəbəri?

Bir qumu da vətən sanın,

Dağa yanın, daşa yanın.
İndisiylə yaşayanın
Gələcəkdən nə xəbəri?

7.09.2003

### *Üstümə gəlir*

Mən mələk istəyirəm
Qarı üstümə gəlir.
Əlimə qonsun deyə
Kəpənək istəyirəm
Arı üstümə gəlir.

Gülüm – bağın içində,
Gülü dərə bilmirəm,
Bağa girə bilmirəm,
Hasar üstümə çıxır,
Barı üstümə gəlir.

Olmuşuq aşiq hədər,
Cəngləri var fələyin,
Rənglərin sayı qədər
Rəngləri var fələyin,
Sarı üstümə gəlir.

Mürüvvətin sanı yox,
Aşiqin sanı min-min.
Nə qədər divanəsi,
Dəlisi var aləmin.
Mən – şe'r sərsərisi!
Dəli də sevilərmiş,
Şe'rin ilham pərisi,
Yarı üstümə gəlir.

10.09.2003

### *Çatdadı…*

Bahar gəldi, qönçə açdı,
Çiçək çatdadı.
Bu qədər ki, qovdu, qaçdı
Külək çatdadı.
Hicran gəldi, niskil oldu,
Hicri əzmək müşkil oldu,
Bu savaşda əl şil oldu,
Bilək çatdadı.

Yansa da can hərarətdən,
Əl çəkmədim bu adətdən,
Şahin Fazil, məhəbbətdən
Ürək çatdadı.

12.09.2003

### *Sən – mən*

Ey özündən razı
          varlı – hallı adam,
Şadam ki, tutmur bizimki.
Sən aşağı baxırsan,
hamıdan gizlədiyin,
canından artıq əzizlədiyin
          xəzinəyə sarı,
          dəfinəyə sarı.
Mənsə
          Allaha sarı.
Sən baxırsan yuxarıdan aşağı,
Mən baxıram aşağıdan yuxarı.

13.09.2003

### *Gəlmə!*

Bir də çağırmaram yanıma səni,
Gəlmə.
Daha can bilmirəm canıma səni,
Gəlmə.

Bilmirsən gəlişin axı sonu nə,
Birdən qara pişik çıxar önünə,
Gəlmə.

«Gəlmə» sözündəki mə’na, bil nədi,
Birdən zər qədrini zərgər bilmədi,
Gəlmə.

Sevmədin, sevənlər sevim-sevimdə,
Sən öz evində qal, mən öz evimdə,
Gəlmə.

Mən düzü görmüşəm sənsə tərsini,
Öyrənə bilmədin Sevgi dərsini,
Gəlmə.

Qədir bilməyənin gəlişi hədər,
Sən gələ bilmədin bu vaxta qədər,
Gəlmə.

Nə qədər ki, sağam, necə ki sağsan,
Duydum ki, sən məni duymayacaqsan,
Gəlmə.

Səmada görəndə quş uçuşunu,
Arabir xatırla şahin quşunu,
Gəlmə.
Gəlmə.
Gəlmə.

16.09.2003

## *Varlıq və Yoxluq*

Cəlb etmədədir fikrimi daim
Varlıq ilə Yoxluq!..
Yoxluq ilə Varlıq!..
Bilməm bu iki anlayışı izah edər kim?
Təsdiq eləyər kim?
İnkar eləyər kim?
Varlıq ilə Yoxluq!..
Yoxluq ilə Varlıq!..
Varlıq Yoxa uymuş,
Yoxluq Vara uymuş,
Varlıq ilə Yoxluq arasında
Vardırmı uyarlıq?
Varlıq ilə Yoxluq!..
Yoxluq ilə Varlıq!..

Varlıqmı zərurət?
Yoxluqmu zərurət?
Bilməm ki, bunun hansı yalan, hansı həqiqət?
Sonsuz nədi, sonsuzluğu izah eləyər kim?
Sonsuzluğu təsbit eləyib xəlqə deyər kim?
Cəlb etmədədir fikrimi daim
Göylərdəki hikmət,
Yerlərdəki xilqət,
Göylərdəki qüdrət,

Yerlərdəki qüvvət,
Göylərdəki cənnət,
Yerlərdəki heyrət,
Göylərdəki ne'mət,
Yerlərdəki həsrət.
Bundan bizi agah eləyər kim?
Cəlb etmədədir fikrimi daim
Surətdəki mə'na,
Mə'nadakı surət…
Surət nə deməkdir?
Mə'na nə deməkdir?
Varlıq ilə Yoxluq arasında
Də'va nə deməkdir?
Məcnun nə deməkdir?
Leyla nə deməkdir?
Naçar eləyən onları sevda nə deməkdir?
Gerçək nə deməkdir?
Xülya nə deməkdir?
Həm varlığı, həm yoxluğu ey xəlq eləyən kəs,
Heç bilməyirəm ki,
Dünya nə deməkdir?
Dünyadə olan rəmzü müəmma nə deməkdir?
Gülzar nə deməkdir?
Səhra nə deməkdir?
Atəş nə deməkdir?
Dərya nə deməkdir?
Dinclik nə deməkdir?
Qovğa nə deməkdir?

Hərdən verilibdir bu suallarə cavablar,
Minlərlə sual var,
Yüzlərlə cavab var,
Cayizmi suallar?

Düzgünmü cavablar?
Məşğul eləyir fikrimi hər dəm
Cənnət və cəhənnəm,
Cənnətdəki gülşən və cəhənnəmdəki atəş,
Atəş – neçə aləmdəki atəş,
Dünyadəki atəş,
Üqbadakı atəş…

Varlıq ilə Yoxluq!..
Yoxluq ilə Varlıq!..
Yarəb, bu iki kəlmədə vardırmı uyarlıq?
Yoxdurmu uyarlıq?
Düzgün cavabı tapmaq üçün kim,
Kimlər edəcəkdir mənə yarlıq?

Məşğul eləyir fikrimi daim
Varlıqda olan var ilə Yoxluqda olan var,
Varlıqda olanlar ilə Yoxluqda olanlar…
19.09.2003

### *Qur'anı oxuyandan sonra*

Bismillahir-rəhmanir-rəhim!
Şükür olsun Yaradana!
Adam boyda bir torpağı
gətirdi cana,
yaratdı Adəmi Allah
Və öz yaratdığına tamaşa elədi,
özü də heyran qalıb, dedi:
«Fə-təbarəkallah!».

Allah – tək!
Yer – tənha!

Başqa Yerlər çoxsa da,
Yer – tənha,
Peyğəmbər yüz iyirmi dörd min,
Kitab – dörd!
Yerdə
dörd kitabdan ibarət kitabxana,
hansını seçirsən seç,
O dörd kitabın yanında
başqa kitablar heç!

Bismillahir-rəhmanir-rəhim!
Şükür olsun Pərvərdigara!
Adəm harada idi
                    sürüşdü, düşdü hara…
Başlanğıc oldu adamlara.
Adəm – adamların əvvəli,
Həvva – ikincisi.
Sonra,
Sonra kimlər, kimlər…
Sonra nələr, nələr…
Habillər,
Qabillər,
Aqillər,
Cahillər,
Milyonlar.
Milyardlar…
Var! –
Allah var,
Yaradan var,
Pərvərdigar var,
Var!
Biz isə bəşərik,
Aqilik, cahilik,

Xeyirik, şərik,
gəldi-gedərik,
yalansevərik,
həqiqətsevərik.
Yalan…
Həqiqət…
Yalanı geyindiririk
Yalan pərdəsinə bürünən
nakişi kimi.
həqiqəti soyundururuq
qadın soyunduran
kişi kimi
Və baxırıq həqiqətə,
qadına,
deyirik necə ki deyib Allah:
«Fə-təbarəkallah!»

Yalanı geyindirməyək!
Həqiqətsə,
geyinsin qadıntək,
çünki
yalan – soyunanda riyası görünür,
həqiqət – geyinəndə həyası,
Riyasevərik,
həyasevərik,
Yaradının cənnətinə, cəhənnəminə şərik
xeyirik, şərik,
bəşərik, gəldi-gedərik.

Bəli, biz gəldi-gedərik,
Yaradan isə qalır,
çünki Yaradandır.
Düşünməyək

kimdir,
nədir,
nəçidir,
haradandır.
Onsuz da dərk etməyəcəyik bunu,
Bilməyəcəyik Yaradanın
necə Yaradan olduğunu…

Yaradılan
«Yaradanam» deməsin,
istər prezident olsun,
istər hakim,
istər həkim,
Yaradandan başqa
Yaradan deyil heç kim.
Bismillahir-rəhmanir-rəhim,
Bismillahir-rəhmanir-rəhim,
Bismillahir-rəhmanir-rəhim!!!

25.09.2003

## ***İşıq***

Kölgə…
İşıq…
Zülmətdən yaranmışıq,
İşıqdan yaranmışıq.
Anlarını itirib
anın qədrini bilən
qoca bir adam kimi
düşünürəm bir anlıq:
Zülmətsiz işıq yoxdur,
İşıqsız da qaranlıq.
Amma, bununla belə

mən qəti
sevməyirəm zülməti.
Zülmətlər yoxa çıxsın,
Qaranlıqlar ötüşsün,
Kölgə – işığa deyil,
İşıq – kölgəyə düşsün!

26.09.2003

### *Dəli mənimdir!*

Əğyarı qoymayın bu bağa tərəf,
Bu bağın çiçəyi, gülü mənimdir.
Yadı buraxmayın ocağa tərəf,
İstisi yarımın, külü mənimdir.

Əzəlki gücünü gəz əllərimin,
Bir deyil, şairin qəzəlləri – min,
Gözümün ziyası qəzəllərimin,
Yağışı mənimdir, seli mənimdir.

Daha xəcil edir dili Şahini,
Ayağı Şahini, əli Şahini,
Dedilər «daşlayın dəli Şahini»,
Yar dedi «dəyməyin, dəli mənimdir».

27.09.2003

### *Zəifləyib*

Məni ayıldacaq kim?
Qulağım zəifləyib.
Ey Haqqa qalxan əlim,
Ayağım zəifləyib.

Azalır yaddaşım da,
Huşum ölür başımda.
Quruyub göz yaşım da,
Bulağım zəifləyib.

Ölümcül işıq yayır,
İşartısı artmayır,
Evimi ağartmayır,
Çırağım zəifləyib.

Sözbilməzə söz demə,
Baxmır daha sözümə,
Görünməyir gözümə,
Qonağım zəifləyib.

Ümidim bir də yanır,
Dözüm, səbir də yanır,
Anam qəbirdə yanır,
Ufuldayır uzaqdan:
«Uşağım zəifləyib…
Uşağım zəifləyib…».

28.09.2003

### ***Danışanda***

*(qoşmavari)*

Yol gedək əlindən tutaraq sözün,
Qoy güllə dinməsin söz danışanda.
Əyri – qulağını partladır sözün,
Əyri – danışmasın, düş – danışanda.

Közün nəfəsini eşitmisənmi?
Yanmaq həvəsini eşitmisənmi?

Ey şair, səsini eşitmisənmi
Kül altda istidən köz danışanda?

«Qarr» edir haradan hara qarğalar,
Baxmayır şahinə, sara qarğalar,
Siz ey qarıldayan qara qarğalar,
Gərək susasınız biz danışanda.

29.09.2003

### *İzn ver öpüm*
*(qoşmavari)*

Vüsal dəftərində izin var sənin,
O ağ varağını izn ver öpüm.
Günümü ağardan gözün var sənin,
Gözünün ağını izn ver öpüm.

Hicran qıfılını sındıracaqsan,
Fərağı əbədi donduracaqsan,
Gəlib çırağımı yandıracaqsan,
Sevgi çırağını izn ver öpüm.

Şahinə gəlinsən, gəlinə bəyəm,
Sevinək, gəlməsin qəlbimizə qəm,
Mən sənin əlini öpməyəcəyəm,
Amma, ayağını izn ver öpüm.

5.10.2003

### *Borcluyuq*

Vətən dolub ah-zar ilə,
Biz qeyrətə qan borcluyuq.
Sülh yaramaz əğyar ilə,

Əğyara üsyan borcluyuq.

Haram halalı qovlayır,
Xəyal xəyalı qovlayır,
Hicran vüsalı qovlayır,
Vüsala hicran borcluyuq.

Yarəb, haqsan, bilməliyik,
Əvvəl-axır ölməliyik,
Qurbanınıq, gəlməliyik,
Biz sənə qurban borcluyuq.

Car edib ad-sanımızı,
Artırsaq da şanımızı
Verməliyik canımızı,
Can verənə can borcluyuq.

11.10.2003

## ***Haçan gələcəksən, müntəzirik biz***

*Sahibəzzəman İmam Mehdi əleyhüs-*
*səlamın mövludu münasibətilə*

Qeyri bir şah varmı sən şahdan sonra,
Ümid nə ümiddir, güman nə güman!..
Sənə üz tutmuşuq Allahdan sonra,
Səni səsləyirik, fəğan, nə fəğan!..

Bəyaz bir işığa bürünəcəksən,
Ülvi yaraşığa bürünəcəksən,
Güntək gözümüzə görünəcəksən,
Əyan olacaqsan, əyan nə əyan!..

Qeybin nə müddətdi hüzn, qəhərdi,

Qeybin neçə ildir bizə kədərdi…
Bəzi fikirlərdə şübhə cücərdi,
Bəzi beyinlərdə duman, nə duman!..

Səda gözləyirik, səda nə səda!..
Vəfa sahibinə vəfa nə vəfa!..
Kafərə, müşrikə cəza nə cəza!..
İmanlı kəslərə aman, nə aman!..

Xoş müjdə gəzirik, səs gəzirik biz,
Sən kimi qüdrətli kəs gəzirik biz,
Haçan gələcəksən, müntəzirik biz,
Ey Zaman sahibi, zaman nə zaman?

12.10.2003

### *Əli Rza Xələfli*

Dolub
          boşalanmış otağı
          havalanmış tüstü,
          tüstülənmiş hava ilə;
Üstü küldən bozaran varağı
          misralanmış şe’r,
          şe’rlənmiş misra ilə;
Müşfiq başına bənzər başı
          şirin-acı, acı-şirin
          xülya ilə dolu insan.
          Kimdi bu insan?
Söz düşəndə şəhidlərdən,
          igidlərdən
          yaşarır gözləri,
          gəzir gözləri:
          hanı bu, hanı o,

hanı o, hanı bu,
hanı su
ki, tökülə ürəyinə
sönə yanğısı,
yanğı – su,
hanı su?
Su
Olsa belə,
Ürəyinə tökülsə belə
söndürə bilərmi onu –
yandıqca alovlanan
Cəbrayıllı oğlunu?

Ey kağız-kuğuzun,
sözün, qələmin,
aşiq Məcnunun,
sadiq Kərəmin
rəssam Adil Rüstəmin
dostu
Zal oğlu,
Səsin yavaş deyil,
həmişə çağlayır,
Ürəyin daş deyil,
hərdən-birdən ağlayır.
Həmişə çağlamaq pis olmaz,
hərdən-birdən
el qəminə, el aləminə
Kişi kimi ağlamaq
pis olmaz.
Pis odur ki,
biganə olasan,
susasan, çağlamayasan.
Pis odur ki,

divanə olasan,
el kədərinə,
el dərd-sərinə
güləsən, ağlamayasan.

Sözün rəngi ilə,
Sərbəst vəznli
          bir şe'rin ahəngi ilə
          çəkdim portretini,
          özü barədə,
          sözü barədə
          söz dedim,
Bilmirəm əyri dedim, düz dedim,
hər nəsə, dediyimi dedim.
İndi siz deyin
          kimdir o?
Yəqin deyəcəksiniz:
Sözü söz,
Əməli əməl,
Kredosu «Kredo»!

16.10.2003

### ***Əli Rza Xələfli yardan asılı***

*«İçimdə bir haray – dardan asılı»*
*Ə.R.Xələfli*

İçində bir haray asılıb sənin,
Mənsə adam gördüm dardan asılı.
Əllərin yoxluğa açılıb sənin,
Elə adam da var vardan asılı.

Eşitdim səsini haray səsinin,
Kədər fəryadının, qəm nə'rəsinin…

Görünmür kəndiri Yer Kürəsinin,
Hayandan yapışıb, hardan asılı?

Sevin, varsızlıqtək varın var sənin,
Şe'r səmasında sarın var sənin,
İlham pərisitək yarın var sənin,
Əli Rza Xələfli yardan asılı!

17.10.2003

### *Amanlardan aman-aman*

Yaxşılarım, hardasınız?
Yamanlardan aman-aman.
Gəlin, bəlkə dardasınız?
Gümanlardan aman-aman.

Düşmənim yox fəraq təki,
Gəlib qalıb qonaq təki,
Üstümə yalquzaq təki
Cumanlardan aman-aman.

Mən – səslərin aludəsi,
Eşidirəm hər bir kəsi,
Əzan səsi, aman səsi…
Amanlardan aman-aman.

Fəlakətlər gəlir hardan?
Cəhalətlər gəlir hardan?
Cəhlə uyan mollalardan,
Şamanlardan aman-aman.

Nəzərim göyə zillənib,
Sormayın niyə zillənib,

Göy üzü yenə güllənib,
Dumanlardan aman-aman.

19.10.2003

### *Babəkin qolu hanı?*

Bişərəf adamların
Sifətində su hanı?
Bitərəf adamların
Sağı yox, solu hanı?

Qanad aça bilməyir,
Yerdən qaça bilməyir,
Qartal uça bilməyir,
Qanadı-qolu hanı?

Çoxaldı nakişilər…
Kişi nərdi, kişi ər…
Qaçqın düşən kişilər
İtirib yolu, hanı?

Satqını dardan asın,
Xaini daşa basın,
Əbülfəzl Abbasın,
Babəkin qolu hanı?

Dəli olub gedəcək,
Eşqə gülüb gedəcək,
Şahin ölüb gedəcək,
Deyəcəklər bu hanı?

20.10.2003

### *Bıçağı neylədiniz?*

Qılıncsız qaldı qınlar,
Yarağı neylədiniz?
Qaçışa vadar olan
Ey qaçqınlar, qaçqınlar,
Papağı neylədiniz?

Ey kədərə batanlar,
Torpağını atanlar,
Ey vaqona doluşub,
Ey çadırda yatanlar,
Otağı neylədiniz?

Var-yoxunuz yoxaldı,
Var yox oldu, yox aldı…
Azaldı nifrət nə az,
Qorxaq nə çox çoxaldı,
Qoçağı neylədiniz?

Cəng hanı? Vuruş hanı?
Töhmətdən qaçış hanı?
Düşdünüz qaranlığa,
Zülmətdən çıxış hanı?
Çırağı neylədiniz?

Üzünüz gülsün gərək,
Gözünüz gülsün gərək.
Bugün-sabah düşmənin
Başı kəsilsin gərək,
Bıçağı neylədiniz?

21.10.2003

## *Çox-tək…*

Çoxdur Məhəmməd də,
Çoxdur Musa da,
Çoxdur İsa da,
Çoxdur Məryəm də
          aləmdə.

Amma,
          təkdir Məhəmməd də,
          təkdir Musa da,
          təkdir İsa da,
          Məryəm də.

Çox – tək…
Bu insanlar arasında
tək
çoxa üstündü bişəkk.
Aləmə
çox-çox
          elə çoxlar gələcəklər,
Amma,
çox deyildir elə təklər,
sonuncu tək – Məhəmməd peyğəmbər!

22.10.2003

## *Ana və uşaq*

Qəbristanlıq – ana,
Qəbir – uşaq…
Ana da xeyirxah,
Uşaq da xeyirxah.
Biri vardı,

biri yoxdu,
Biri yoxdu,
biri vardı…
Görəsən
qəbristanlıq
qəbir doğmasaydı
nə olardı?

Nə yaxşı ki,
qəbristanlıq qısır deyil,
Nə yaxşı ki, qəbir gördü, uşaq gördü,
Onun qara gözlərindən işıq axdı…
Qəbristanlıq qəbir doğur,
Xeyirxahdı.

Gəlhagəldi,
Gethagetdi…
Biri gəldi,
biri getdi.
Gələn çoxdu,
Gedən çoxdu.
Biri vardı,
Biri yoxdu…
Görəsən
qəbristanlıq
qəbir doğmasaydı nə olardı?

Gözümədir indi sözüm:
Hələ nələr görəcəksən, mənim gözüm,
Gələcəklər, gedəcəklər…
Mən də elə…
Mən də bir gün
Gələnlərtək gedəcəyəm,

Mən də bir gün
Cahanı tərk edəcəyəm.
Mənim gözüm,
İzzət ilə, hörmət ilə rəğbət ilə
Qarşındakı
Anaya bax,
Uşağa bax,
Qəbristanlıq – ana,
Qəbir – uşaq…

25.10.2003

### *Görünməyən görən*

*Sübutuna lüzum yox.*
*Sübutsuz!*
*Onsuz nə dağ, nə qum yox.*
*Sübutsuz!*
*Onsuz nə göy, nə yer var.*
*Sübutsuz!*
*Onsuz nə yox, nə var var.*
*Sübutsuz!*

Əyriliyə qurşanıb,
Göy yaradanı danıb,
Yer yaradanı danıb,
Dini, imanı danıb,
«Görünmür,
    demək yoxdur»,
«Görünmür,
    demək görmür»
şübhəsinə aldanıb,
Qırdan qara şübhəni
hifz eləmə canında,

Etmə şəkk,
Eləmə şəkk,
Olma qafil heç zaman
        sabun köpüyü kimi
        o kövrək gümanında.
        Sanma ki, deyil agah,
        demə ki, görmür…
        Görür!!!
Allah mənim yanımda,
Allah sənin yanında,
Allah onun yanında,
Allah görünmür,
        Görür!!!

28.10.2003

### *Bildim ki, bilmədim mən*

Söylə, hara üz tutum?
Hansı səmtə gedim mən?
De, yolumu düz tutum,
Sənə «Tanrı» dedim mən.

Allah, çaşmışam tamam,
Sönməlidir! Ömür – şam,
Bildiyimsə natəmam,
Bilmirəm nə edim mən.

29.10.2003

### *Giley-güzar*

*Bu gün Tamridanın ad günüdür.*
*Qəbir üstünə getdim…*

«Çərxi–fələk» - fələk çarxı, dünya çarxı,
Fırlanmanı saxlamasa necə düşüm?
Düşməliyəm, saxlamazmı dünya, çarxı,
Fərqi yoxdur gündüz düşüm, gecə düşüm,
Tək qalmışam, güman yoxdur iki düşüm,
Qoca dünya!

Biz səbirsiz sərnişinik, arabasan,
Taqət hanı, səbr hanı, qərar hanı?
Tək qalmışam! Dünya adlı arabadan
Məndən əvvəl düşüb gedən o yar hanı?
O ki məndən cavan idi, düşüb getdi,
Mənə arxa, hayan idi, düşüb getdi,
Qoca dünya!

Mənə dedin «xoş gəlmisən», xoş gəlmədim,
Xoş günü sən acısından az vermisən.
Mən əzabsız məhəbbətə tuş gəlmədim,
«Gözəl dünya» dedim sənə çox vədə mən,
Sonra gördüm aldanmışam camalına,
Bu dünyada aldananın vay halına,
Qoca dünya!

Düz demədik, yalan dedik ikimiz də,
Dünya yolu – əqrəb dolu, ilan dolu.
Həqiqəti həbs elədik içimizdə,
İçimizdən sözlər çıxdı yalan dolu.
Sən yalançı, mən yalançı, doğruçu kim?
Burax məni doğru olan səmtə gedim,
Qoca dünya!

Burax gedim, az ömrümdə çox yaşadım,
Ac qalmadım, qüssə yedim, kədər yedim.

Mən çoxundan gözü, könlü tox yaşadım,
Qoca dünya, şəkərdən çox zəhər yedim,
Burax məni, əvvəl-axır gedəcəyəm,
Allahımın dediyini edəcəyəm,
Qoca dünya!

Açmırıq baş hələ əsl mə'nasından,
Çox deyiblər «gerçək dünya», «yalan dünya»…
Xəbərdarsan Şahin Fazil dünyasından,
O da dünya, amma səndən cavan dünya.
Qoy son dəfə camalına baxıb getsin,
İcazə ver cavan dünya çıxıb getsin,
Qoca dünya!
Qoca dünya
Qoca dünya!

30.10.2003

### *Biçinçiyəm, biçindəyəm, İlahi!*

Xəyallanıb göydə qanad açan – mən,
Uçuşumdan dayanmışam haçan mən?
Şahin olub durna kimi uçan – mən,
Durnaların köçündəyəm, İlahi!

Həyatımın bahar fəsli gendədir,
Yay fəslimin həzzi ötən gündədir,
Payızımın gözü hələ məndədir,
Qış fəslimin içindəyəm, İlahi.

Gedənlərin eşq camını içirəm,
Gələnlərə sevgi dərsi keçirəm,
Günlərimi sür'ət ilə biçirəm,
Biçinçiyəm, biçindəyəm, İlahi!

1.11.2003

### *Səxavət*

Ya haqq,
Çox səxavətlidir əzrayıl,
Onun qədər səxavətli mələyin olmayıb,
        olmayacaq,
İnsanlar qoy
        eləməsinlər ondan
        tə'nəni, gileyi,
Saqilik eləyir,
hamıya mey paylayır –
        əcəl meyi,
özü də pulsuz, parasız,
bu dünyada iç,
o biri dünyada ayıl.
Çox səxavətlidir əzrayıl,
çox səxavətli…

2.11.2003

### *Qəribə*

Qəribədir,
Qəribə varlıqdır Allah,
Əstəğfürullah!
Həyat verir hər kəsə,
sonra öldürür,
sonra yenə dirildir.
Diriltmir
        öldürməsə.

3.11.2003

### *Bəsirət gözü*

Bəsirət!
Nədir bəsirət?
Nədir bəsirətdəki həqiqət?
Bəsirət!
Bu necə sözdur, İlahi?
Bəsirət gözü!
Bu necə gözdür, İlahi?
Gözümü bərk-bərk açıram ki,
　　　　bəlkə görə bilim
　　　　və bəsirət gözüm ilə
　　　　görmədiklərimi görüb
　　　　soruşanlara
　　　　cavab verə bilim.
Görmürəm amma.
Bəsirəti
　　　　nə görə bilirəm,
　　　　nə də soruşanlara
　　　　cavab verə bilirəm,
　　　　Bəsirət – mənə məchul,
　　　　Bəsirət – mənə müəmma.
Sonra
gözümü bərk-bərk yumuram ki,
　　　　bəlkə görə bilim,
　　　　görmürəm amma,
Bəsirət – yenə müəmma,
　　　　mənə müəmma.
Üstünə qaçıram,
　　　　görmürəm.
Üstünə cumuram,
görmürəm,
Gözümü açıram,

görmürəm,
Gözümü yumuram,
görmürəm.
Bəsirət! Bu necə sözdür, İlahi?
Gözümü yumuram ki,
görə bilim,
Bu necə gözdür, İlahi?

4.11.2003

### *Məhəmməd peyğəmbərə!*

Sən Tanrı yanında
Ən mötəbər oldun,
Kafərlərə kafər,
Küfrə çəpər oldun,
Sevdadə müzəffər,
Qovğadə ər oldun.
Sən həm bəşər idin,
Fövqəlbəşər oldun!!!

6.11.2003

### *Daş ilə danışıram*

Bir canım var – üzülən,
Qəbrinin başındayam,
Gözlərimdən süzülən
Yaş ilə danışıram.

Ruhun göyə çəkilib,
Cismin məzar içində.
Baş daşını baş bilib
Baş ilə danışıram.

Daş dillidir elə bil…
Çaramı Allah kəsib,
İndi sənin deyil,
Daş ilə dləanışıram.

7.11.2003

### *Torpaq və qabırğa*

Yerdi, Göydü, Ulduzlardı, Aydı…
Dünya insansız dünyaydı,
Cahan adamsız cahandı…
Əvvəlcə
Adəm oldu,
Sonra
Həvva…
Birinci ikincidən əvvəl yarandı.
Yaratdı onları Yaradan
birincisini torpaqdan,
ikincisini qabırğadan.
Birinciyə birinci verildi can,
İkinci
yarandı
yaranan o candan.
Birincisindən sonra dedi Allah:
«… Fə təbarəkallah!».
Birincisi
Yaradanın özünün də xoşuna gəldi,
Amma, ikincisi daha gözəldi.
Çünki
yaratdı onları Yaradan
birincisini cansız torpaqdan,
ikincisini –candan.

Beləcə adam tapıb
adamlandı bu dünya,
Torpaqdan – adam Adəm,
Adam Adəmdən – Həvva…

15.11.2003

### *Nəvəm Püstəxanım nəvəm Fəxriyyəyə deyir*

Balığı balıq yeyir,
Qoyun yemir qoyunu,
Qoyun qoyun başına
Gətirmir bu oyunu.
İnsanınsa onlara
Deyəsən vardır kini,
Əlinə keçən kimi
Yeyir hər ikisini.

16.11.2003

### *Hara qaçır bu qoca?*

Dərdi, qəmi ürəkdə daş, yeriyir,
Bir soruşun
hara qaçır bu qoca?
Tay-tuşları
yavaş-yavaş yeriyir,
Bir soruşun
hara qaçır bu qoca?

Bəlkə,
qaçıb dincliyini axtarır?
Bəlkə də
nadincliyini axtarır…

Yoxsa,
    itən gəncliyini axtarır?
Bir soruşun
    hara qaçır bu qoca?

Tanıdığı neçə-neçə qoca var
Üçü iməkləyər,
    beşi yıxılar…
Qoca adam
    öz evində qaxılar,
Bir soruşun
    hara qaçır bu qoca?

Qaçdı,
    gözəldənmi uzaqlaşmada?
Şe'rü qəzəldənmi uzaqlaşmada?
Yoxsa
    əcəldənmi uzaqlaşmada?
Bir soruşun
    hara qaçır bu qoca?

Yoxsa
    azaldır yükünü cəbrinin?
Yoxsa
    gəzir mənzilini qəbrinin?
Bir-bir açır düyməsini səbrinin,
Bir soruşun
    hara qaçır bu qoca?

Hara qaçır
    ürəyindən yapışıb,
Arzusundan, diləyindən yapışıb…
O çəlimsiz biləyindən yapışıb

Bir soruşun
        hara qaçır bu qoca?

Qanadları tez yorular, uçmasın,
Öz başına özü bəla açmasın,
Cavanlıqda çox qaçıbdır, qaçmasın,
Bir soruşun
        hara qaçır bu qoca?

Saçlarının qarası az, çox ağı,
Eh, qaçağanmış qocanın şıltağı,
Yoxsa
        igidlikmi sayır qaçmağı?
Bir soruşun
        hara qaçır bu qoca?

Hanı gücü,
        bir sümükdü, bir dəri,
«Əsmə» deyir, eşitməyir əlləri,
Çiçəkləməz bir də ömür gülləri,
Bir soruşun
        hara qaçır bu qoca?

Şahin ikən
        isminə Fazil deyir,
Bir dəlidir,
        özünə aqil deyir,
Soruşuram
        mənə cavab verməyir,
Siz soruşun
        hara qaçır bu qoca?

21.11.2003

### *Son sevgi*

Ey sevgi, «gəl» dedim dilimi açıb,
Aşiqəm, qəlb mənim, ixtiyar sənin.
Gözümü bağlayıb, əlimi açıb
Dedim «gözüm üstdə yerin var sənin».

Gəldimi xoşuna, necədir yerin?
Gəl demə «əyləşib dincəlim bir az».
Qədrini bilmədin qoca şairin,
O, bir də göz üstdə səni saxlamaz.

Mənim qətrələnən göz yaşıma bax,
Görmürsən yaşlıyam, ey cavan sevgi?
Gözümün üstündə bardaş quraraq
Gözümü açmağa qoymayan sevgi.

Düş yerə, görmürsən yorulmuşam mən?
Mən səni nə qədər aparacağam?
Səni atmaq üçün gözümün üstdən,
Gözümün üstünü qoparacağam.

Sevgi acı idim, heç ac görmüsən?
Qoy qalım sevgiyə yalavac kimi.
Qabığı soyulan ağac görmüsən?
Gözü soymalıyam o ağac kimi.

22.11.2003

### *Qeyrət*

Yaşadıb Adəmin etdiyi işi
Dünyanın ən məhrəm işi naminə
Hamilə eləyir qadını kişi

Gələcək qeyrətli kişi naminə.

Kişi var qeyrəti hüceyrə boyda,
Kişi var dərisi gön kimi qalın.
Fəndi nə boydadır, feli nə boyda,
Siz də qeyrətsizə bir nəzər salın.

Dodağı üstdə bığ, papaq başında,
Amma, canda ölüb mübarizliyi.
Düşməni oturdar ocaq başında
Alçaq adamların kişisizliyi.

Namusu atıban canını güdən
Qeyrəti yox deyə qaçaraq gedir.
Elə buna görə talanır vətən,
Elə buna görə Qarabağ gedir.

Hər əməl kaş verə qeyrətdən soraq,
Ruhtək vacib ola qeyrət bizlərə.
Qoy Həvva qadınlar qeyrət doğaraq
Onu paylasınlar qeyrətsizlərə.

24.11.2003

## BİR GECƏNİN ŞE'RLƏRİ

### *I*
### *Mən*

Canım – qəmimi,
həzzimi,
arzularımı,
mə'nəvi varımı
ömür boyu

mənlə birgə yaşayanım;
Ayağım – ayaqqabı daşıyanım;
Əlim – verdiyinin;
Gözüm – gördüyünün;
Qulağım – eşitdiyinin şahidi,
Dodağım – sözünün,
Dilim – dediyinin cavabdehi;
Kürəyim – hambal palanı,
Dərd daşıyıram kürəyimdə.
Kipriyimdən
yaş asılıb,
Ürəyimdən daş asılıb –
Kipriyim də dar ağacı,
Ürəyim də.

25.11.2003
Gecə yarısı

## *II*
## *Birinci qadın*

Ey Həvva, ey cocuq, ey qız, ey qadın –
birinci qadın,
Tanrının sözünə neçin baxmadın,
birinci qadın?

Birinci oldun, birinci.
Bir günahın girinci oldun, girinci.
De, birincilikdən xoşun gəldimi,
birinci qadın?
Başına
cənnətdən çıxandan sonra
huşun gəldimi,
birinci qadın?

Başın nələr çəkdi tamaha görə…
Qovuldun böyük bir günaha görə
birinci qadın.
Bir buğda dənəsi nə böyük imiş,
birinci qadın!

Ey buğda dadıban cənnəti atan
birinci qadın,
Ey eşq ləzzətini birinci dadan
birinci qadın,
Bir buğda dənəsi nə böyük imiş!...

25.11.2003
Gecə yarısı

### *III*
### *«Adamlar»ın müəllifi Həyat Şəmiyə*

*Həllac Mənsur da, Fəzlullah Nəimi də, İmadəddin Nəsimi də hürufiçi idilər və hətta hərflərdə də bərabərlik gəzirdilər…*

*Mənə elə gəlir ki, Adil Mirseyid də, Xanəmir də, Həyat Şəmi də yeni hürufiçilərdir və hətta hərflərdə də bərabərlik gəzirlər. Amma, bilə bilmədim: onlar bəs bəzi şe'rlərin vergül-nöqtələrini niyə insafsızlıq süpürgəsi ilə silib-süpürürlər? Yeni hürufiçilər!..*

*(Ərəbcə «hüruf» «hərf»in cəmidir – Ş.F.)*

Sənin kitabını oxuduğum gün
Kiçiklər qaldılar kiçikliyində.
Kiçik kitabınla elə böyüdün,

Kiçiklər qaldılar kiçikliyində.

Şe’rin söz yükünü beləcə çəksən,
Hər gün yük daşısan, hər gecə çəksən,
Sən hələ nə qədər böyüyəcəksən,
Kiçiklər qaldılar kiçikliyində.

Bəzi iradım var qovğası böyük,
Qüsuru balaca, mə’nası böyük…
Amma, bəzi şe’rin «əmma»sı böyük,
Kiçiklər qaldılar kiçikliyində.

Böyük hərfləri kiçik elədin,
Deməróm həmişə belə elə, din,
Bizə «biz bu böyük yoldayıq» dedin, -
Kiçiklər qaldılar kiçikliyində.

Hər böyük sətir də kiçik yazıldı,
Hər söz hər sətirdə kiçik yazıldı.
«Əsəd Cahangir» də kiçik yazıldı,
Kiçiklər qaldılar kiçikliyində.

Hərçənd siqlətini sözün var etdin,
Nöqtəni, vergülü ixtisar etdin,
Böyük hərfləri neçin zar etdin,
Kiçiklər qaldılar kiçikliyində.

Şe’rin hər sözünə, sətrinə dəydin…
Niyə böyüklərin xətrinə dəydin?
Kaş ki, kiçikləri böyük edəydin,
Kiçiklər qaldılar kiçikliyində.

25.11.2003
*Gecə yarısı*

## *IV*
## *Gözümü ver, çıxım-gedim*

Dözməyirəm fərağına,
Dözümü ver, çıxım-gedim.
Yarım, üzüm ayağına,
Üzümü ver, çıxım-gedim.

Ürəyimdən itmədi qəm,
Sevinc getdi, getmədi qəm,
Bitdi sözüm, bitmədi qəm,
Sözümü ver, çıxım-gedim.

Sən məndəki ürəyə bax:
Eşqim közdür, ürək ocaq,
Köz bir azdan kül olacaq,
Közümü ver, çıxım-gedim.

İtirmişəm izimi də,
Şe'rimi də, sözümü də,
Tapmayıram özümü də,
Özümü ver, çıxım-gedim.

Hərçəndi ki, qocalıbdır,
Şahin sözündə qalıbdır,
Gözüm üzündə qalıbdır,
Gözümü ver, çıxım-gedim.

25.11.2003
*Gecə yarısı*

## *V*
## *Dostlar*

Bütün gözlər
            nəmin dostudur,
dostudur nəm –
            dünyanın.
Şahin Fazil
            qəmin dostudur,
Əli Rza Xələfli
            Adil Rüstəmin dostudur,
Adil Rüstəm –
            dünyanın!

25.11.2003
*Sübh tezdən*

## *Soyun, sevdiyim, soyun*

Soyun, sevdiyim, soyun!..
Kürreyi-ərz adlanan
Yerdə
məhrəm bir oyun,
yerdə aləm bir oyun
            bizə yadigar qalıb.
O oyun bitənədək
həyat davam edəcək.

Soyun, sevdiyim, soyun!..
Rəbbin mərhəmətindən
insanlara ömürlük
sevgi xəzinəsində
vüsal adlı var qalıb.

Soyun, sevdiyim, soyun!..
Adəm ilə Həvvadan
Oyun,
      köhnə bir oyun
bizə yadigar qalıb.

Soyun, sevdiyim, soyun!..

29.11.2003

### *Mən quru ağacam*

Bir zaman mənim də yox idi dərdim,
Girinci olmuşdu həzzimin kədər.
Vaxt vardı yaşıldım, çiçəkləyərdim,
Fərəhim ağacın meyvəsi qədər.

Sevincim ağacın yarpağı sanı,
Yaşıl budaqlarım göz oxşayardı.
Ayaqdan salırdım Əfqanıstanı,
Canımda yaşamaq həvəsi vardı.

Keçdim Türkiyədən, ötdüm İrandan,
İraqda vuruldum xurma bağına.
Çiçəkləri rəngin, gülləri əlvan,
Baxdım bağbanların təmtərağına.

İndi quruluğu var bu ağacın,
Qocalıq salıbdır bu hala məni.
Kimə xeyri var ki, quru ağacın?
Mən quru ağacam, baltala məni.

Əlvida eləyib çiçəyə, gülə
Bir gün ağacın da qurumağı var.

Buda budağımı, yanacaq elə,
Mən quru ağacam, kökümü çıxar.

Mən quru ağacam, yox olmalıyam,
Qulağıma «yıxıl» sədası gəlir.
Tutmayın, indicə yıxılmalıyam,
Yerimdə yenisi dikilməlidir.

Bir zaman mənim də yox idi dərdim…

30.11.2003

### *Başı papaqlılar*

Qeyrət – sahibiylə tapışa gərək,
Qeyrətsizlik – müdam fəlakət yayır.
Əllər qılınclardan yapışa gərək,
Şil olsun əllər ki, bığ tumarlayır.

Vətən sərvətimiz, torpaq varımız,
Bu vara, sərvətə cuman çoxalıb.
Aman, azaldıqca torpaqlarımız
Başı papaqlılar yaman çoxalıb.

1.12.2003

### *Şairə atılan gülləni tutun!*

*«Peyğəmbər – şairdən öndə dayanıb,*
*Şair – peyğəmbərdən sonra gələndir»*
*Nizami Gəncəvi*

Dilim bəyan edir qəlbim deyəni,
Zərgər hər şairin şe'r – zəridir.
Sonuncu peyğəmbər əfv etsin məni,

Şair söz mülkünün peyğəmbəridir.

Nizami şairi möhtərəm sanıb,
Özü möhtərəmdir, qədir biləndir.
«Peyğəmbər – şairdən öndə dayanıb,
Şair – peyğəmbərdən sonra gələndir».

Haçan doğulubdur cahan üzündə
Üçüncü, beşinci, onuncu şair?
Sonuncu peyğəmbər gəlib getsə də,
Hələ doğulmayıb sonuncu şair.

Nadan var nadanlıq oduna yanıb
Nahaqdan günaha batmaq istəyir.
Önümdə cahil bir Dantes dayanıb,
Mənə söz gülləsi atmaq istəyir.

Açılmaq istəsə şilləni tutun,
Amandır, üzünə şillə dəyməsin.
Şairə atılan gülləni tutun,
Şairə tuşlanan güllə dəyməsin.

Qəzəb ümmanında, kin dənizində
Neçin cəhalətin qərqi görünmür?
Şair nəzərində, şair gözündə
Nadanla cahilin fərqi görünmür.

Şairi güdməsin tində dayanıb,
Zənn eləməsin ki, şairə təndir.
«Peyğəmbər – şairdən öndə dayanıb,
Şair – peyğəmbərdən sonra gələndir».

Nadan var nadanlıq oduna yanıb

Nahaqdan günaha batmaq istəyir.
Önümdə cahil bir Dantes dayanıb,
Mənə söz gülləsi atmaq istəyir.

Şairə atılan gülləni tutun…

4.12.2003

### *İndicə döşəmə güllənəcəkdir*

Səadət evimdən qaçandan bəri
Hicran ayaq açıb mənlə görüşüb.
Dilim «gəl» söyləyir haçandan bəri,
Əlimsə şil kimi yanıma düşüb.

Bu gün gələcəksən gün sevinəcək,
İşıqlı olacaq gecə gün təki.
Bu aşiq bir deyil, min sevinəcək,
Sevincək tapılmaz bu gün mən təki.

Gəlib aç qapımı yenə səmimi,
Getsən düşəcəyəm pis günə yenə.
Əllərin qonacaq göyərçin kimi
Qapı dəstəyinin üstünə yenə.

Bir də görəcəyəm evimdə mənim
Ağ dona bürünən gəlin görünür.
Bir də görəcəyəm, ey nazəninim,
Əlimin içində əlin görünür.

Dil danışmayacaq, əl dinəcəkdir,
Ey Şahin, yetimtək qalma tək indi.
İndicə döşəmə güllənəcəkdir,
Otağım güldana dönəcək indi.

5.12.2003

***Cücərdi***
***(qoşma)***

Aman, piyaləsi yenə də doldu,
Çoxalıb gözümün seli cücərdi.
Şirin vüsalımın çiçəyi soldu,
Acı hicranımın gülü cücərdi.

Rö'yada gördüm ki, canım, nə işdi,
Zamanın sahibi gəlib yetişdi,
Əbülfəzl Abbasın qolu bitişdi,
İgid Babəkimin əli cücərdi.

Eşq yolu həm vüsal, həm də hicranmış,
Bu yolda nə qədər sevgili yanmış…
Dinib-danışmadım mən dili yanmış,
Fəraqın lal olan dili cücərdi.

Bu odlu aşiqin sözü kül oldu,
«Alış» söyləyənin özü kül oldu…
Bağrımda sevginin közü kül oldu,
Amma, üstündəki külü cücərdi.

Məni öldürəcək intizar, qübar…
Ölsə də, Şahinin cücərməyi var,
Bir gün görəcəklər diri adamlar
Torpağın altında ölü cücərdi.

7.12.2003

### *Sevgi*
### *(qoşmavari)*

Eşqimin çiçəyi, gülü solmada,
Hər gülə, çiçəyə maili sevmə.
Qəlbimə tənhalıq hakim olmada,
Sevgisiz yaşayır sevgili, sevmə.

Süqut zahir olur dirçəlişimdə,
Bilmədim bu işin günahı kimdə,
Boğdum sənə olan eşqi içimdə,
Deməli, qatiləm, qatili sevmə.

Bir daha adımı gətirmə dilə,
Axı bənzəyişim var Məcnun ilə,
Dəlidir, bənd olma Şahin Fazilə,
Şahinə vurulma, Fazili sevmə.

8.12.2003

### *Qara bulud*

Səmadan aşağı, yerdən yuxarı
Yenə gərdişdədir qara buludlar.
Başını qaldırıb bax göyə sarı,
Bulud övladıdır yağış, dolu, qar.

Bulud gəlməsəydi səma üzünə
Çəkə bilərdimi bu dərdi torpaq?
Açılardı qapı bəla üzünə,
Yoxsa, quruyardı, ölərdi torpaq.

Mən də qara bulud timsalı adam,
Mənim də gözümdə qara bulud var.

Yerə yaş axıdan gözümlə şadam,
Şadam ki, torpağı bulud isladar,
Yoxsa, quruyardı, ölərdi torpaq.

9.12.2003

### *Gül*

Bu qədər qınama güllə atanı,
Sən demə onda da bağbanlıq varmış.
Adi qan deyilmiş şəhidin qanı,
Gül imiş, güllə də gül yaradarmış.

Güllәsi uçanda güllə atanın
Demə ki, həyatı külə döndərdi.
Bir igid oğlanın, şəhid oğlanın
Güllə sinəsini gülə döndərdi.

Bu qədər qınama güllə atanı…

10.12.2003

### *Baş tutmayan vüsal*

Bir mən idim, bir o yardı,
Təəccüblü aləm idi.
Yanaşmadım o afətə.
Bir gözümdə gülüş vardı,
Biri nəm idi, nəm idi.

Çıxıb getdi, dayanmadı,
Ona eşqim oyanmadı.
Deyəcək ki, «məhəbbətə
Mən yanırdım, o yanmadı,
Ağlı kəm idi, kəm idi».

Göz yaşımda çimə-çimə
Könül vermədim heç kimə,
Əyilmədim xəyanətə,
Çünki, əzəlki eşqimə
Sədaqətim möhkəm idi.

12.12.2003

### *Röya quşu*

Döyünməyir, qəlbin işi dayanıb,
Kimsə məni üstələyib eşqdə.
Aramızda başqa kişi dayanıb,
Kimsə məni üstələyib eşqdə.

Adəm baba eşqə düşən dövrdən
Bənd olan çox vurulan çox, çox sevən…
Bəs deyirdin «səndən üstün yox sevən»?
Kimsə məni üstələyib eşqdə.

Kəs səsini, daha səsin – yad səsi,
Daha sinəm diləyimin məhbəsi…
Gizli deyil, üstələdim çox kəsi,
Kimsə məni üstələyib eşqdə?

Röya quşu uçdu bu dəm gözümdən,
Ey sevgilim, xəcil oldum sözümdən,
Şahin Fazil, söyləmərəm bir də mən
«Kimsə məni üstələyib eşqdə».

13.12.2003

### *Deyəsən bu dünya düzələn deyil*

*Gözəl şairlərimiz Məmməd Araza,*
*Məmməd İsmayıla!*

Arvadı nə çoxdur, əri, nəri az…
Deyəsən bu dünya düzələn deyil.
Ay Məmməd İsmayıl, ay Məmməd Araz,
Deyəsən bu dünya düzələn deyil.

Yalan danışana xoşxah deyirlər,
Vallah, söyləyirlər, billah, deyirlər,
Padşaha peyğəmbər, allah deyirlər,
Deyəsən bu dünya düzələn deyil.

Həqiqət səsi az, yalan səsi çox,
Bülbül susub qalıb, ilan səsi çox,
Allah-taalanın hövsələsi çox,
Deyəsən bu dünya düzələn deyil.

Dildə sürüşkənlik sabundan betər,
Oyun çıxarırlar meymundan betər,
Başçı yalan deyir, xalq ondan betər,
Deyəsən bu dünya düzələn deyil.

Ey düzgün adamlar, əyri adamlar,
Ümman bölüşdürən, bölgə bölən var,
Tikə əvəzinə ölkə bölən var,
Deyəsən bu dünya düzələn deyil.

Nə qədər ki, insan düzəlməyəcək
Sözüylə əməli düz gəlməyəcək,
Çörək əvəzinə ürək yeyəcək,

Deyəsən bu dünya düzələn deyil.

Düz sözdən qaçırlar sözü əyrilər,
Nəzəri əyrilər, gözü əyrilər,
Düzü xar eləyir özü əyrilər,
Deyəsən bu dünya düzələn deyil.

Düzəm ki, şikayət eləyirəm mən,
Əyri düşüncədən, əyri beyindən…
Əyri əl çəkməyir əyriliyindən,
Deyəsən bu dünya düzələn deyil.

Daha yer üzündən itməyim gəlir,
O biri dünyaya getməyim gəlir,
Öndə Şahin gedir, sonra kim gəlir?
Deyəsən bu dünya düzələn deyil,
Düzələn deyil!

14.12.2003

### *Bir daha mən cavan olmayacağam*

Hərdən istəsəm də cavan olmağı,
Bir daha mən cavan olmayacağam.
Qədrini bilmişəm qocalan çağı,
Bir daha mən cavan olmayacağam.

Qətranın rəngini teldən vermişəm,
Dil-dil ötüşməyi dildən vermişəm,
Çevik cavanlığı əldən vermişəm,
Bir daha mən cavan olmayacağam.

Qoca çox xəyala düşsə də əgər,
Vüsal istəyinə yetərmi məgər?

Gözəlin yanında xəcalət çəkər,
Bir daha mən cavan olmayacağam.

Qocalıq – ucalıq! Alçaqlığı dan!
Baxdım cavanlığa ucalığımdan,
Gileyim yoxsa da qocalığımdan
Bir daha mən cavan olmayacağam.

Gözün parıltısı gözdə qalmadı,
Cavanlıq ziyası üzdə qalmadı,
Şahin, danışmağa söz də qalmadı,
Bir daha mən cavan olmayacağam!

15.12.2003

### *Tələsmirəm*

Bütün həyatım boyu
tələsmişəm həmişə.
Sanki Şahin Fazilə
tələsmək olub peşə.
Təhsildə tələsmişəm,
Əməkdə tələsmişəm.
Sözün qədrini bilib
Susmaqda tələsmişəm,
deməkdə tələsmişəm…
İndisə
yorulmuşam,
Tələsmək məndən uzaq,
Tələsməkdən mən uzaq,
Daha əzəlki təki
tələsməyin qədrini
bilməyə tələsmirəm,
Əcəl gəlir,

mən isə
Ölməyə tələsmirəm.

Bütün həyatım boyu
tələsmişəm həmişə…

16.12.2003

## ***Kəsilmiş qollar***

Ehe-yy, Venera,
Ey Roma Venerası,
Yunan Afroditası,
Şərqin Zöhrəsi!
Ey sağlığında da,
Ölümündən sonra da
gözəlliyi ilə
heyrətə salan hər kəsi
Venera!
Ey heykəl Venera,
Ey gözəl Venera,
hanı o qollar, hanı?
Heyran edən baxanı
o gözəl qollar hanı?
Görəsən
cəzalandırdımı Allah
o qolları qıranı?

Venera?
Elə ki, nəzərlərim
heykəlinlə görüşdü,
sən qolsuza baxanda
Yadıma
başqa bir adamın qolları düşdü –

Əbülfəzl Abbasın qolları
düşdü yadıma,
Venera,
Cansız heykəlin qolu hara,
Canlı adamın qolu hara,
Venera.

Sənin qollarını
sən heykəlləşəndən sonra
kəsmişdilər,
Əbülfəzl Abbasın qollarını isə
hələ sağ ikən,
Əbülfəzl Abbas… Və sən.
O, şücaət mücəssəməsi,
Sən – məhəbbət mücəssəməsi…
Amma
Şərqdə, Qərbdə
heyrətə saldınız hər kəsi…

Vuruşurdu yezidilərlə müsəlmanlar,
su yerinə axırdı qanlar,
qanlardan qızarırdı sular,
qanı qanla yumazlar,
qanı qanla yuyurdular.
Əbülfəzl Abbas isə
yuyurdu qanı su ilə,
su daşıyırdı yaralı müsəlmanlara –
qan içində
susuz qalanlara…

Sənsə
məhəbbətinlə
doyururdun təşnə aşiqləri,

özünsə
doymaq bilmirdin,
Məhəbbətin bulaqtək
elə coşmuş, çağlamışdı ki…
Qolların o qədər
kişi qucaqlamışdı ki…

Venera – Afrodita!
Ey bahar ilahəsi,
təravət ilahəsi,
məhəbbət ilahəsi,
heykəlləşəndən sonra
bədəni qolsuz qalan,
ey qolu qələm olan
Venera,
Venera,
hanı o qollar hanı?
heyran edən baxanı
o gözəl qollar hanı?
Görəsən
cəzalandırdımı Allah
o qolları qıranı?
Sənin qollarını
sən heykəlləşəndən sonra
kəsmişdilər,
Əbülfəzl Abbasın qollarını isə
hələ sağ ikən.
Kəsik o qollar kimi
naqismi müqayisə?
Cayizmi müqayisə?
Əbülfəzl Abbas… Və sən…
Nə isə…
Venera! Venera!

18.12.2003

### *Tikan güllənəcək*

Qulaq as, gülüm,
bu aşiq sevinclə dillənəcəkdir:
Mənim ürəyimə tikan batırdın,
mənim ürəyimə batan o tikan
güllənəcəkdir,
çünki o tikanı
sən batırıbsan!

19.12.2003

### *Yad et, məni yanə-yanə yad et*

*«Qıllam sənə iştə bir vəsiyyət:*
*Yad et, məni qaibanə yat et»*
*Abbas Səhhət*

Sevgin gün olurdu yanə-yanə,
Şövqün min olurdu danə-danə…
Qəlbim qana döndü qanə-qanə –
Yoxdurmu o sevgidən nişanə,
Düşcək əlinə sənin bəhanə
Vurdun elə bir alov bu canə,
Yad et, məni yanə-yanə yad et.

Bir qətrə qətiyyətin yox imiş,
Bir zərrə səxavətin yox imiş,
Bir damcı şəfəqqətin yox imiş,
Eşqin və məhəbbətin yox imiş,
Sevdadə məharətin yox imiş,
Bildim ki, hərarətin yox imiş,

Yad et, məni yanə-yanə yad et.

Qəndilmi? Üzümdə qəm yanıbdır,
Hicrində gözümdə nəm yanıbdır,
Gündən-günə sinə həm yanıbdır,
Dəftər kül olub, qələm yanıbdır,
Sən yanmamısan, Kərəm yanıbdır,
Yandım, gözəlim, dədəm yanıbdır,
Yad et, məni yanə-yanə yad et.

Tabım ilə taqətim yox indi,
Tab etməyə qüvvətim yox indi,
Eşqim kimi sərvətim yox indi,
İmdadına rəğbətim yox indi,
Fəryadına diqqətim yox indi,
Söndürməyə hacətim yox indi,
Yad et, məni yanə-yanə yad et.

Şahin kimi dərbədər yananda,
Gözlər közərib, nəzər yananda,
Qüvvət tükənib, təpər yananda,
Gün gizlənibən qəmər yananda,
Zülmət çəkilib, səhər yananda,
Könlün alışıb, ciyər yananda
Yad et, məni yanə-yanə yad et.

21.12.2003

### *Gələcəyəm yanına*

Bulud ağlayan anda
Çətrin məni çəkəcək,
Gələcəyəm yanına.

Mənə şe’r yazanda
Sətrin məni çəkəcək,
Gələcəyəm yanına.

Eşqimizin xətrinə
Xətrin məni çəkəcək,
Gələcəyəm yanına.

Öyrənmişəm ətrinə,
Ətrin məni çəkəcək,
Gələcəyəm yanına.

23.12.2003

### *Mənsur Həllac sayağı*

*«Göz yaşımın hər damlası*
*Kipriyimdən asım-asım,*
*Mən özümü hardan asım,*
*Qış asılıb bu gecədə»*
*Həyat Şəmi*

Ay adamlar, yanıram
Quru ağac sayağı.
Odum zəbanə çəkir,
Amma, ərimirəm mən,
Dözürəm sac sayağı.

Dərd yedim, sitəm yedim,
Dünyamızın qəmi çox.
Çörəyim olmayanda
Kədər yedim, qəm yedim
Ki, görünüm qarnıtox
Qalsam da ac sayağı.

Uğurum da tam olub,
Uğursuzluğum da tam.
Birində təsbeh olub,
Əlimin birində cam,
Ayaqda olmasam da,
Başda da olmamışam
Şahanə tac sayağı.

E'tina edənim yox
Əzabıma, ahım,
Ey Əzrayıl, gəl yetiş,
Ömrü
            qibləgahıma
göndərim bac sayağı.

Hardan asım özümü?
Əcəl bitərəfdisə
Baş
            dara şərəfdisə,
Yaxşısı budur gedib
Dardan asım özümü
Mənsur Həllac sayağı.

25.12.2003

## *Söhbət*

Sən: - Axşam külək əsəcək…
Mən: - Ola bilər.
Sən: - Sabah da…
Mən: - Ola bilər.
Sən: - Birisi gün də…
Mən: - Ola bilər,

axı Bakıdır bu şəhər,
Bakının rəmzidir küləklər.
Sən: - Ola bilər…
Axşam külək əsəcək.

30.12.2003

### *Təmənna*

Fələk, ölüm sat mənə,
Qoy ölüm adam kimi.
Görürəm ki, həyatım
Əri̇mədə şam kimi,
Ölüm isə görünmür.
Bazarında durmuşam
Tamarzıtək mən sənin.
Qorxma, fələk, can fələk,
Ölümümü alanda
Pulunu verəcəyəm
Qəpiyinəcən sənin.

Fələk, ölüm sat mənə…

1.01.2004

### *Mirvari boyda*

*«Mirvari ömrü» şe'rinin müəllifi Mirvari Rəhimzadəyə*

Əlimə bir şe'rin düşdü,
«Mirvari ömrü» - adı.
Barmaqlarım
şe'rinin misralarını
sığalladı.
Görməmişəm üzünü,

Görəsən necədir?
Eşitməmişəm səsini,
Yəqin ki,
şe'rindəki
hissin kimi,
duyğun kimi
incədir.
Əlimə bir şe'rin düşdü,
Oxudum şe'rini –
şe'rlərindən birini,
Şe'rinin güzgüsü ilə
gördüm üzünü,
eşitdim səsini,
Mirvari!

Hər insanın var andı:
Ana andı,
El andı,
Diyar andı…
And olsun ki,
məndə
sənə
böyük ülfət yarandı,
ülfətdən böyük şəfqət yarandı,
şəfqətdən böyük məhəbbət yarandı
mirvari boyda.

2.01.2004

### *Bir söhbətə qulaq asdım*

- Ərin var?
- Var, xeyri yoxdur…
- Bəs qeyri?

- Yox, qeyri  yoxdur.
- Verə bilməzmi qeyri
          xeyri?
- Xeyr, qeyrinin
          xeyri yoxdur…
Bəs sənin necə? Ərin var?..

4.01.2004

### *Məhrəm günah*

Yenə gəldin.
Gələcəksən yenə sabah.
Yenə günah,
Yenə günah…
Bu günah
bizə məhrəmdir.
Bu günahın
o dünyada
cəzası var:
Cəhənnəmdir!
Çəkəcəyik,
Çəkməliyik
bu günah nə olur-olsun…
Bu gün – bizim,
Bu gün – bizim ikimizin,
Qoy sabah nə olur-olsun.

Yenə gəldin.

5.01.2004

### *Həyat Şəmiyə sual*

*«Bir kədər çiçəklədi,*
*Söyüdü əllərimdə»*

Neyləyirsən söyüdü?
Söyüdün barı olar?
Bir də gördün böyüdü,
Söyüdü saxlamağa
Əlin tutarı olar?

«Böyümə» deyə-deyə
Qoyma çiçəkləməyə,
Çiçəkləyən kədərin
Qüssə-qəmdən meyvəsi,
Dərddən nübarı olar.

Bilmirsənmi, gözəl, sən
Hər gözəldən gözəlsən,
Deyirəm baxıb sənə:
İlahi, bu gözəldən
Görəsən qarı olar?

7.01.2004

### *Yolsuz padşah*

Ya İlahi, söyləmirəm
Pullarını göstər mənə,
Padşah olmaq istəyirəm,
Qullarını göstər mənə,
Qulsuz nə padşah, İlahi?

Tərəfsizlər çoxalıbdır –
Sağı yoxdur, solu yoxdur…
Padşah var ki, yolu yoxdur,
Yolsuz nə padşah, İlahi?

9.01.2004

### *Yazır, qələmimin başı aşağı*
### *(qoşmavari)*

Hələ ki, işimdə, gücümdə varam…
Fələk yağdırsa da daşı aşağı,
Kimsənin işinə qarışmayıram,
Şe’rimi yazıram başıaşağı.

Şairin gileyi-güzarı qalxır,
Başımdan eşqimin buxarı qalxır,
Yarəb, fikirlərim yuxarı qalxır,
Axır gözlərimin yaşı aşağı.

Soran var: «Bu Şahin mahir, ya naşı?
Qələmi qılıncla durub yanaşı…»
Qələm var yazmayır, kəsilib başı,
Yazır, qələmimin başı aşağı.

10.01.2004

### *Qaçqına*

Geriyə al Qarabağı
çalıb zəfər.
Əgər geri qaytarmasan
döy başına.
Papaqçılar
təzə papaq
tikməsinlər,
Papağını
geriyə al,
qoy başına.

12.01.2004

## *Ay adamlar!..*

*«Adamlığı daş kimi*
*Atıram, ay adamlar»*
*Həyat Şəmi*

Həyatı, sanmayın ki,
Nişatdı, ay adamlar.
Ömürdən yox gileyi,
Babatdı, ay adamlar.

Yanır, üstü boz deyil,
Külsüz yanır, köz deyil,
Sözü quru söz deyil,
Nabatdı, ay adamlar.

Təxəllüsündə şam var,
Adına ehtiram var,
Aramızda adam var –
Həyatdı, ay adamlar.

13.01.2004

## *Gül*

Şe'rimi gül kimi verirəm sənə,
Əlin qoy şe'rimin güldanı olsun.
Gülü bağışlama bir özgəsinə,
Baxanlar əlinin heyranı olsun.

Qoyma ki, qəlbimi ələm bəzəsin,
Tutub gülü əldə bu yara şığı.
Qoy məni əlimi qələm bəzəsin,

Sənin əlinisə gül yaraşığı.

Şe'rimi gül kimi verirəm sənə…

14.01.2004

### *Tamridaya*

Mən
    səndən
    aralı olmayacağam,
Özündən ayırmaz
                sevən sevəni.
Həyat ağacımsan
                nə qədər sağam,
Yaşa, yaddaşıma əkmişəm səni.

Diri
      yaddan çıxır öldüyü üçün,
Ölü
    yaşamaqda
    düşürsə yada.
Sən də yaşayırsan,
                Şahin də bu gün,
Adəm də yaşayır
                bu gün
                            Həvva da!

15.01.2004

### *Əmanətə xəyanət*

Bəd əməllərimizdən
                nələr çəkir başımız,
Güllənin küləyinə

külək məəttəl qalıb.
Dağılır dağım-dağım
torpağımız, daşımız,
İnsanın kələyinə
fələk məəttəl qalıb.

Yaradırıq, qururuq,
dağıdırıq, qırırıq,
Əmr edirik içində
ziddiyyətin, təzadın.
Mərmilərdən səmanın
pərdəsi cırıq-cırıq,
Bizə həyat veriblər
qənimiyik həyatın.

Yer Kürəsi Allahın,
bizsə Allah bəndəsi,
Haqqa qarşı asilik
edir bəşər açıqca.
Əmanət kitabçası
deyil ki, Yer Kürəsi,
Əmanətə xəyanət
eləyirlər açıqca.

16.01.2004

## *Ürək*

Ürək nə böyük imiş!..
Yaman qarınquluyam.
Ac kimi,
yalavac kimi
müdam
neçə ildir yeyirəm ürəyimi

Və onu yeməkdən doymuram.
Nə yesəydim
                    çoxdan qurtarardı.
Tənha qoyun məni,
Qoyun ürəyimi yeyim,
qarınqululuq eləyim.
Yenə məni aclıq sardı.
Ürək nə böyük imiş!..

17.01.2004

### *Şəlalə*

Qorxutmayır
                    bu suları
                    nə şırıltı,
                                        nə nalə..
Hicri tapır
Yerlə Göyün arasında,
Yerdə yetir vüsalə.
Bəyaz saçlar…
Su divarı…
                    Şəlalə.

18.01.2004

### *İçində*

*«Gözlərin xallı balıq,*
*Üzdürmə yaş içində»*
*Həyat Şəmi*

İlahi, demirəm ki,
Üzək daş-qaş içində.
Deyirəm yaşamayaq
Dava-dalaş içində.

Günü qara edəllər
Yamanlar, bədəməllər,
İlahi, bəd əməllər
Olmasın baş içində.

Yarəb, səndə – ucalıq,
Şahindəsə qocalıq.
Gözümüz «xallı balıq,
Üzdürmə yaş içində».

19.01.2004

## *İş*

*«Öldürdüm özümü, mənə iş düşür»*
*Həyat Şəmi*

Qoy mənə həmişə «işlə» desinlər,
Bilin, hər ləhzəmdə işləyəcəyəm.
Mənə «işsiz adam» söyləməsinlər,
Hər an da, hər dəm də işləyəcəyəm.

Hərdən həyatıma hey təşviş düşür,
Hərdən sığal düşür, nəvaziş düşür…
Özümü öldürsəm mənə iş düşür,
Yəqin cəhənnəmdə işləyəcəyəm.

21.01.2004

## *Sözüm nə əyri imiş!..*

Gözündə söz görmədi,
Gözüm nə əyri imiş.
Gözünü düz görmədi,

Düzüm nə əyri imiş.

Bənd olub həqiqətə,
Eşq adlı təriqətə,
Çata bilmir niyyətə,
İzim nə əyri imiş.

Kədər yedim, qəm yedim,
Dərd yedim, sitəm yedim…
Şahin, «sevmirəm» dedim,
Sözüm nə əyri imiş!

24.01.2004

### ***Neçin?***

Cocuqluq, cavanlıq, ahıl çağımda
Gözdən yaş axıdıb, nəm udmuşam mən.
Udmağım da olub, uduzmağım da,
Həmi uduzmuşam, həm udmuşam mən.

Dedin comərd mənə, dedin mərd mənə,
Əvvəl sevinc verdin, sonra dərd mənə.
Neçin öyrətmədin axı nərd mənə,
Uduzub sevinci, qəm udmuşam mən.

27.01.2004

### ***Gətirir…***

Gətirir –
qaranquş dimdiyində çöp
yuva qurmaq üçün.
Gətirir –
uşaq əlində daş

yuvanı uçurmaq üçün…
Gətirir –
bulud qarnında yağış
yeri sulamaq üçün.
Gətirir –
insan raket
göyə tullamaq üçün…
Gətirir…
Gətirir…
Hər gətirilən,
Hər gələn
məqbul deyil, heyhat,
Gətirir –
axar qan ölüm,
axar su – həyat.

29.01.2004

### *Gələn görüşə kimi (romans)*

Gəl yenə sağollaşaq
Gələn görüşə kimi.
Təzə görüşdən qaçaq
Gələn görüşə kimi.

Qucaq-qucaq canıma
Dərd dolacaq canıma,
Zülm olacaq canıma
Gələn görüşəm kimi.

Bu dərd asandır bəyəm,
«Görün», «gör» deyəcəyəm,
Səni görməyəcəyəm

Gələn görüşə kimi.

Ürəyim axşam-səhər
Nələr çəkəcək, nələr
Gələn görüşə qədər,
Gələn görüşə kimi.

Qoy bir olsun evimiz,
Gəl yaşayaq birgə biz,
Söyləməyək bir də biz
«Gələn görüşə kimi».

30.01.2004

### *Danışan mənzil*

Sən yoxsan,
Sən üç ildir ki, yoxsan.
Sənin yerinə
mənzillə danışıram:
- Salam!
- «Salam!».
Mənzilim adamdır,
sükuta qərq olan adam.
Sazdır aram onunla,
Tez-tez
danışıram onunla.
Vaxt vardı
        səs ilə doluydu,
        sükutla doludur indisə.
Mənzilimdə
danışıq üçün
kimsə düşmür əlimə.
İçəri girəndə

«salam-əleyküm»,
İçəridən çıxanda
«sağ ol» deyirəm mənzilimə,
Sanki,
mənzilimin dili
adət edib dilimə.
- «Salam-əleyküm!»,
- «Əleyküm-salam!»
- «Sağ ol!»,
- «Sən də sağ ol!»
- «Sənlə yenə söhbətə gələcəyəm»
- «Yaxşı yol!»

Mənzilim adamdır…

1.02.2004

### ***Quşun yuxusu gəlir***

*«Yorulmusan, a dünya,*
*Qışın yuxusu gəlir»*
*Rəsmiyyə Sabir*

Daş dedi «mənə dəymə»,
Daşın yuxusu gəlir.
Yatsın, başa dəyməsin,
Başın yuxusu gəlir.

Qoymayın cuma həsrət,
Əkinim tuma həsrət,
Torpağım şuma həsrət,
Xışın yuxusu gəlir.

Qocalmışam, canda qəm,
Yaşı dana bilmirəm,

Heç oyana bilmirəm,
Yaşın yuxusu gəlir.

Şahin, qəmə tuş oldum,
Qəmimlə sərxoş oldum,
Adım kimi quş oldum,
Quşun yuxusu gəlir.

2.02.2004

### *Çıxır*

Adam var ağac əkmədə,
Adam var ağaca çıxır.
«İçimizdə doğan dərdin
Boyu bizdən uca çıxır»[1].

Qocalıram aydan-aya
Günü, ayı saya-saya,
Şahin, sanma bu dünyaya
Hər bir gələn qoca çıxır.

3.02.2004

### *Ayaqqabı*

Torpaq gücdür, torpaq qüvvət…
Torpaq ayaqqabımın altında,
Ayağım ayaqqabımın üstündə.
Ayaqqabımla
hələ var haqq-hesabım,
Çünki
ayırıb torpaqdan ayağımı

---

[1] Beyət Rəsmiyyə Sabirindir

ayaqqabım.

4.02.2004

### *Gerçəklik və yuxu*

Səs bürüdü hər yanı,
Ürəyində təşvişi
Canında həyəcanı
Karıxmışdı bir kişi…

Hələ top gülləlari
Lüləyə dolmamışdı,
Həllə güllər, çiçəklər
Tər idi, solmamışdı.
Nə məscid, nə meyxanə
Viranə olmamışdı.
Hələ əzan da vardı,
Hələ badə səsi də,
Nə molla, nə də saqi
Divanə olmamışdı.

Hələ ev öz yerində,
Yol öz yerində idi…
Karıxmışdı bir kişi…
Bədəninin nizamı
hələ pozulmamışdı –
ayaq ayaq yerində,
qol öz yerində idi.
(Sağ öz yerində idi,
Sol öz yerində idi)…

…Hardasa, hayandasa,
Tutalım Qarabağda,

Ola bilsin İraqda,
Qoca Əfqanıstanda,
Ya da Çeçenistanda
Birdən atəş başladı…
Külək
toz yayan sayaq
Dava sükut sındırır,
Cəng fəlakət yayırdı…
Karıxmışdı bir kişi.
Bomba düşdü yaxına
Ayağını apardı,
Qolu candan ayırdı…

Haradasa, uzaqda
Rəngarəng bir yuxuda,
Balasının toyunda,
Canı ayaqsız qalan,
Qolları qoparılan
o kişi
oynayırdı…

6.02.2004

## *7 fevral*

7 fevral… Bu gün mən
Ağarmamış Yer üzü,
Yanmamış Göyün şamı,
Yıxılıb təsadüfən
Sındırdım qabırğamı.

Əzrayıl, hələ tezdir,
Kənarımda dayanma,
ölmək istəmirəm mən.

Həyatım şirin deyil,
acı da deyil amma,
Ölmək istəmirəm mən.

Ölmək kim istəyir ki?

7.02.2004

### *Həvvalaşan qabırğa*

Pərvərdigar Həvvanı
düzəltdi qabırğadan…
Həvvalaşa bilsəydi
mənim sınan qabırğam,
dönüb qadın olardı,
ağrımazdı çox güman.
Adəm əzab çəkdimi
görəsən Şahin kimi?
Lap əzab çəkibsə də
acımıram halına,
«afərin» söyləmirəm
Bu gün Adəmi anıb.
Axı
kövrək sümükdən
göyçək qadın yaranıb.

Pərvərdigar Həvvanı
düzəltdi qabırğadan.

8.02.2004

### *Ağac dözümü, insan dözümsüzlüyü…*

Qabırğam sınan gündən
Uzanıb

adam kimi
yata bilməyirəm mən.
Canımda hər hüceyrəm
uzansam
ağrı duyur.
Ağac məndən dözümlü.
Ağacdakı dözümə bax dözümə,
Ölənəcən
ayaq üstdə
uyuyur.
O ağac,
Bu da insan.
Ağac daha dözümlü!
Öləndə də uzanmır,
Ayaq üstdə verir can.

### *Adamlar və çiçəklər*

Deməyin bu kişi qəribədir ki!..
Deməyin dəlisov olub bir qədər.
Zənnimcə, olurlar daha təbii
Gülən adamlardan gülən çiçəklər.

Çiçək də canlıdır… Çiçək səsini
Eşidən olmayıb hələ bir nəfər.
Görəsən deyilmi daha dözümlü
Ölən adamlardan ölən çiçəklər.

Deməyin bu kişi qəribədir ki!..

10.02.2004

### ***Yağma, ey yağış!..***

Yağma, ey yağış,
                                di bəsdi, dayan,
İndicə doğulan şe'rimə dəymə,
Sən mənim şe'rimi isladacaqsan…
Yaman artırıram misra varımı,
Yağma, ey yağış,
Sətəlcəm eləmə misralarımı.

Görmürsən şairin heç halı yoxdur?
Görmürsən zəifəm, əsir dizlərim?
Axı, sözlərimin dəsmalı yoxdur,
Qurulana bilmir axı sözlərim,
Yağma, ey yağış!..

11.02.2004

### ***Öz-özümdən sual***

Mənsur Həllacın –
                nəsibi olmasaydı dar,
Nəsimini –
                soymasaydılar,
Füzulini –
        İmam Hüseynin məzarına
                mücavir qoymasaydılar
Görəsən şöhrətləri qalardımı?
Bilsə idim nə vardı?
Mən də ləyaqət ilə
Ölsə idim nə vardı.
Bəlkə də,
        azalardı dərdim,
şe'rimi yaza-yaza,

özxoşuma
başımı
dar ağacının kəndirinə
keçirərdim…
Soyulardım…
Mücavir olardım
özxoşuma.
Şöhrətlənərdim.
Aləm olardı!..
Bilsə idim nə vardı?

12.12.2004

### *Mələk üstəgəl qanadları*

Deyirlər
mələklərin qanadı var
ağappaq…
Ay balam,
mələklərin özlərini kim görüb ki,
qanadlarını da görə?
Biz bunu düzmü sayaq?
Mələklərin özünə,
yaxud qanadlarına,
ya da qanad rənginə
inanaq, inanmayaq?
Deyirlər
mələklərin qanadı var
ağappaq…

13.02.2004

### *Ölüm, yaxud daimi həbs cəzası*

O,

haldan düşdü,
ayağa qalxmadı bir də.
Hakim olan Əzrayıl gəldi,
Prokuror olan Allaha dedi nəsə
Və
Ona
daimi həbs cəzası kəsildi
qəbirdə.
O, öldü…

14.02.2004

### *«Təmənna» adlı şe'rimi xatırladım*

İşim yox kələk ilə,
Mal onun, bazar mənim.
Möhtərəm fələk ilə
Son alverim var mənim.

Şahin daha qocalıb,
Əcəl leydir, cism-dən.
Nə istəyibsə alıb
Fələk onsuz da məndən.

Müt'i tanıyır məni,
O, alıbdır həmişə…
Ürəyim istəyəni
Satsın mənə indisə.

Elə bu dəm, bu anda
Fələk, ölüm sat mənə,
Qəlbən deyirəm bunu,

Qorxma, onu alanda
Verəcəyəm pulunu.

Fələk, ölüm sat mənə!..

16.02.2004

### *Məhəmməd Füzuliyə sözüm*

Sənin sözün tamdır,
            mənim sözüm xam.
Sənin sarayın var,
            mənim xarabam.
Qəzəl yazıramsa
            səndən sonra mən
Demək, ey Füzuli,
            başdan xarabam.

28.02.2004

### *Laməkan*

Laməkandır – Məkansızdır!
Özü var, məkanı yoxdur!
Bu sirrin bəyanı yoxdur!
Məkansız
        məkan yaradıb…

Düşünsək də gündüz-gecə,
Dərk etmirik bunu heyhat.
Bəxş eləyib məkan necə
Özü məkansız olan zat?

Laməkandır – Məkansızdır!

29.02.2004

## *Tələsmə barı*

Biz tanış olmuşuq neçə il qabaq,
Fəqət görüşümüz bu gün tutdu baş.
Gəl bir-birimizə şe'r oxuyaq,
Əzizim, şairə şairtək yanaş.

Ürəyi xoş sevda, qəlbi eşq sarıb,
Bu gün gülümsəyib səadət bizə.
Qübarı evimdən sevgi aparıb,
Saçıb şəfəqini məhəbbət bizə.

Hicranı qovlayıb bu gün iki yar,
Çəkmə əllərini əlimdən mənim.
Bu gün bizi bizdən ayırmasınlar,
Bu gün mən səninəm, bu gün sən mənim.

Sənə istəyimi Tanrı qorudu.
Səni istərdimmi yoxsa bu qədər?
Mən elə odam ki, məhəbbət odu!!!
Bu odu eşq suyu fəqət söndürər.

Ülfət şərabıyla alaq dəstəmaz,
Qoy süzsün mələklər bizi gizlicə.
Deyiblər odla su birlikdə tutmaz,
Bəs iki şairin görüşü necə?

Peşman deyilsənsə görüşümüzdən
Pərişan söyüdtək gəl əsmə barı.
Yanıma gəlməyə tələsmədin sən,
Yanımdan getməyə tələsmə barı.

2.03.2004

## *Gəlir*

Get-gəl həyatımın sınağı olub,
Kədər haçan gedir, həzz haçan gəlir?
«Həsrətin evimin qonağı olub,
Qapıdan qovuram bacadan gəlir»[1].

Səni arzulayıb hey dad edirəm,
Gəl ki, viranəmi abad edirəm,
Daha sızlamıram, fəryad edirəm,
Səsim pəsdən deyil, ucadan gəlir.

Görürəm sənə də inam gəlmədə,
Məhəbbət qəsrinə nizam gəlmədə…
Qəlbinə Şahindən ilham gəlmədə,
Sənə nə gəlirsə qocadan gəlir.

6.03.2004

## *«Əl-leylətu hublə»*
## *(«Gecə hamilədir»)*

Xoşlayıram gecəni…
«Əl-leylətu hublə».
Bəli, gecə hamilə.
Qara çadra altdakı
hamilə gecəyə bax,
Vaxtı yetişən zaman
Bizə uşaq doğacaq –
bizə işıq doğacaq,
Xoşlayıram gecəni…

---

[1] Beyt Şəfəq Sahiblinindir.

7.03.2004

### *İztirab*

*Tamridaya*

Evin yaraşığı hanı?
Çırağın işığı hanı?
Ev yerində.
        İşıq yoxdur.
Çıraq
        üstdə yanmır daha,
Çıraq – altda.
Növraq yoxdur,
Şahin üçün növraq öldü,
                dəfn olundu,
hüzn üstdə,
növraq – altda.
Zalım fələk
                məni yıxıb…
Ürək onunçün darııb,
Şahin yuvasından çıxıb
Yuva qurdu
                torpaq altda.

12.03.2004

### *Həyat və ölüm*

Kimisə öldürən kəs
Ölümə xidmət edir,
Bəs həyat?
Çalış ölümü deyil,
Çalış həyatı yaşat,
Bəs ölüm?

Həyat-ölüm söhbəti
Yenə gəldi haradan?
Kimisə öldürən kəs,
Kimisə öldürməsə,
O kəsi əvvəl-axır
Öldürəcək Yaradan,
Bəs həyat?
Amma, çalış öldürmə,
Çalış həyatı yaşat,
Sonrası Allah işi,
Allahın göstərişi,
Bəs ölüm?
Bəs həyat?
Ölüm nə, nədir həyat?
Qur'an şəhadət edir:
Həyat müvəqqətidir,
Ölüm – əbədi həyat!
Hansıdır daha üstün?
Üstünü gətir dilə.
Hansı görüş yaxşıdı –
İnsanlarla görüşlər,
Yoxsa mələklər ilə?

16.03.2004

## *Səbəbkar*

Sevincimə səbəb səni sanıram,
Sən də sevincəksən, mən də eləcə.
Sən yanıma gəlcək mən də yanıram,
Günəş də eləcə, sən də eləcə.

Sən mənim ömrümdə qızıl bir naxış,
Ömrə ziynət verən naxışa alqış!

Gedirsən, aləmi bürüyür yağış,
Bulud da ağlayır, mən də eləcə.

17.03.2004

### *Gözəllərə*

Sevgisiz bir həyat həyat deyildir,
Ömür qiymətlidir sevgi var deyə.
Hələ mənim sevgim boyat deyildir,
Ne'mətdir, verilib mənə hədiyyə.

Çox istək oduna bu sinə yanıb,
Sevgi hərarəti hələ canda var.
Bu qoca kişinin eşqinə yanıb
Nə qədər göz yaşı axıdan da var.

İllər surətimdə min iz buraxıb,
Demirəm yenə də məni gənc sayın.
Amma, saqqalıma, saçıma baxıb
Şahinə qocalıq möhrü vurmayın.

23.03.2004

### *Telefon qabı*

Cibim oyaq,
mən ayıq,
Əcəb inkişafdayıq:
Mobil telefon-filan…
Cibdə səs…
Cibimə zəng eləyir
danışmaq istəyən kəs.
Cibim – telefon qabım…

24.03.2004

### *Rica*

Arvadım olmayan qadınla yatmaq
Məni cəhənnəmə sürükləməzmi?
Yaradan, öldürən bizi ulu Haqq
«Soyun tonqala gir» mənə deməzmi?
İlahi, döndərmə bu baxışları
Arvadım olmayan qadına sarı.

25.03.2004

### *Baxmaq və görmək*

Hərədə iki göz var…
Pərvərdigar
iki gözlü xəlq edib adamı,
hərədə iki göz gəz.
Hamı baxar,
Baxar hamı,
amma
hamı görməz.

4.04.2004

### *Söyüşçü*

Söyüş söyməsəm də mən,
Allahı söyən kəsi
söyürəm ləngimədən.
O – Yaradan, o – Tanrı,
   Pərvərdigar,
      O – Xuda!
hərçənd  mənə qətiyyən
ehtiyacı yoxsa da,

o zatı müdafiə
ehtiyacı duyuram.
Neyləyim, söyüşümlə
mən onu qoruyuram,
söyüşçü qabağında.
Laməkan o varlığı
söyən olmasın təki.
Saçımın-saqqalımın
Bu ağarmış çağında
Söyüşçü olmuşam ki!..

5.04.2004

***Bu şe'ri oxuma mən olmayanda***

Bilirsən, ötübdür yaşımın çoxu,
Şumlasın ömrümü, xışım hayanda?
Nə qədər ki sağam, bu şe'ri oxu,
Bu şe'ri oxuma mən olmayanda.

Gedə bilməyirik birgə, yanaşı,
Bizim vəslimizə güman balaca.
Yerləşə bilməyir iki qoç başı
Bir qazan içində, qazan balaca.

İzimin üstündə görünmür izin,
Kimdir buna bais, buna səbəb kim?
Nə bəd qisməti var taleyimizin,
Sən tapa bilmədin, mənsə itirdim.

Kədər daşıyıram hey tabaq-tabaq,
Qəlbimdə dərd bütöv, əzab mükəmməl.
Hicran gözə dəydi vüsaldan qabaq,
«Xudahafiz» gəldi «salam»dan əvvəl.

Səndə də qürur var, məndə də qürur,
O sevda yarıtmaz, bu istək hədər.
Bizim aramızda məsafə durur
Yerdən aya qədər, ulduza qədər.

Sözümüz toqquşur qılınclar kimi,
Bizimki tutmayır, tutmayır nəsə.
Bu yaşıl sevgimi, pöhrə sevgimi
Çıxar ürəyindən, ürəyindəsə.

Xülya öz yerini bərkitməyəcək,
Rö'ya olmayacaq, bilirəm ki, çin.
Bizi heç bir zaman tərk etməyəcək
Mənim tənhalığım, sənin təkliyin.

Əlimə toxunma, qoluma düşmə,
Sən də yalqız yaşa, mən tə tək olum.
Yolunu itirib yoluma düşmə,
Sənin öz yolun var, mənim öz yolum.

Bu yoldan o yola iz gəlməyəcək,
Sən mənə yabançı, mən sənə yadam.
Sözümüz heç vədə düz gəlməyəcək,
Sən ayrı adamsan, mən ayrı adam.

Bilirsən, ötübdür yaşımın çoxu,
Şumlasın ömrümü, xışım hayanda?
Nə qədər ki, sağam, bu şe'ri oxu,
Bu şe'ri oxuma mən olmayanda.

9.04.2004

## *Səndən xəbərsiz*

İstərəm ki, səndən soraq
Bilim səndən xəbərsiz.
«Gərək xəyalına qonaq
Gəlim səndən xəbərsiz»[1].

Eşitmədin mən deyəni,
İstəmədin istəyəni…
Tuti kimi səslər səni
Dilim səndən xəbərsiz.

İstərəm çatanda son an,
Əzrayılım alanda can,
Məndən xəbər tutmayasan,
Ölüm, səndən xəbərsiz.

18.04.2004

## *Göndərən*

Kədəri də göndərən var,
Hanı kədəri göndərən?
Olarsanmı qəmə qəmxar,
Gəl, ey qəhəri göndərən.

Yanımda qal yan halıma,
«Əhsən» deyim iqbalıma.
Acı qatma vüsalıma,
Gəl, ey şəkəri göndərən.

Me’yar olubsan sən mənə,

[1] Beyt Rəsmiyyə Sabirindir

Mən tən sənə, sən tən mənə.
Gəl, ey qüvvə verən mənə,
Gəl, ey təpəri göndərən.

Haqsızdı ömrü zar edən,
Haqdır Pərvərdigar edən,
Odur gecəni var edən,
Odur səhəri göndərən.

Şahin tək fəda çoxsa da,
Fəda sayılmaz hər fəda.
Allah, sənə bəşər fəda,
Sənsən bəşəri göndərən.

24.04.2004

### *Gəldin… Getdin…*

Gəldin,
Gəldin və apardın,
Gəldin və apardın məni məndən.

Getdin,
Getdin və qopardın,
Getdin və qopardın səni məndən.

Gəlməkdə lətafət,
Getməkdə kədər var.
Bildinmi nələr var,
Bildinmi nələr var gəlişində?
Bildinmi nələr var gəlişində, gedişində?

Anlar öz işində,
Dəmlər öz işində,

Anlardakı, dəmlərdəki həzzlər,
Anlardakı, dəmlərdəki qəmlər öz işində.

Həzzlər ki, göründün!
Qəmlər ki, büründün yenə yalqızlığa mənsiz,
Qəmlər ki, büründüm yenə tənhalığa sənsiz.

Həzzi duya bilsən,
Həzzi duya bilsəm,
Qəmlərdə də həzz var!
Qəmlərdəki həzzi,
Qəmlərdəki həzzi duya bilməz
Sevdasız olanlar,
Məcnunsuz olanlar,
Leylasız olanlar.
Qəmlərdəki həzzi duya bilmək diləyən kəs
Qəm sevməli sən tək,
Qəm sevməli mən tək,
Qəm sevməlidir həzzi sevən tək!
Qəm çəkməyən insanlara var məndə təəccüb,
Var səndə təəccüb.
Qəm çəkməyən insan bizi anlarmı bizim tək?
Qəmgin yaşayan varmı bizim tək?
«Yoxdur» deyirəm, bəlkə də yoxdur,
Çünki, axı qəmginliyimizdə
Həzz izləri çoxdur.
Qəm həzzini kim duysa bizim tək
Aşiq – Əsl Aşiq odu gerçək!!!

Gəlmək,
Gəlmək yenə varmı?
Gəlmək yenə olsa sonunu bilmək olarmı?
«Getmə» deyərəmmi?

Gəlmək yenə olsa yenə mən söyləyərəmmi:
Gəldin,
Gəldin və aparlın,
Gəldin və apardın məni məndən.
Getdin,
Getdin və qopardın
Getdin və qopardın səni məndən.

Ey sevgili dildar,
Bildinmi nələr var?
Gəlməkdə lətafət,
Getməkdə kədər var…
Getməkdə kədər var…
Getməkdə kədər var…

25.04.2004

### *Oyaqlıq və yuxu*

Oyaqlıq…
Məni çəkmir necə də…
Gündüz də, gecə də
Oyaqlıqdan zəhləm gedir
yoxsan sən deyə.

Yuxu…
Məni çəkir necə də…
Gündüz də, gecə də
Yatmaq istəyirəm
yuxuma gələsən deyə.

27.04.2004

## *Səni görmək üçün qayıdacağam*

Sağ ol! Son görüşdür səninlə bu gün,
Sağ ol! Sən sağ olsan özüm də sağam.
Mən getdim yenidən qayıtmaq üçün,
Səni görmək üçün qayıdacağam.

Səsini eşitmək deyildir çətin,
Səsini telefon mənə çatdırar.
Amma, qayıtmasam, sənin surətin
Tutmaz gözlərimin önündə qərar.

Səndən ayrılığım kədər ki, qəm ki!..
Sənsiz sığışmıram yerə, göyə mən.
Mən sənin yanına gələcəyəm ki,
Sən mənə yenidən şe'r deyəsən.

Bir gün deyəcəyəm fəğana vida,
Vüsal – görünəcək, hicran – itəcək.
Yaxşı bağban olsan, tikana vida,
Dilində şe'r adlı güllər bitəcək.

Yenə sözlərini eşidən kimi
Səsinin sehrinə düşəcəyəm mən.
Gülüm, şe'r deyən yoxdur sən kimi,
Elə söz çıxaran yoxdur dilindən.

Sözün də, səsin də mənə hədiyyə!
Həm sözün, həm səsin yeri qalıbdır.
Sözün yaddaşıma həkk olub deyə
Səsin yaddaşımda diri qalıbdır.

Sağ ol! Son görüşdür səninlə bu gün,

Sağ ol! Sən sağ olsan özüm də sağam.
Mən getdim yenidən qayıtmaq üçün,
Səni görmək üçün qayıdacağam.

18.05.2004

***Nəvəm Püstəxanımın***
***şe'r boğçası üçün:***

***Mənə nə olub?***

Nənə, nə olub?
Mənə nə olub?
Yağış yağanda
Gün istəyirəm,
Günəş çıxanda
Çən istəyirəm.
Çən görən zaman
Duman gəzirəm…
Yaman axtarır,
Yaman gəzirəm.
Görən, bu istək
Mənə nə deyir –
Ürək hər şeyi
Bilmək istəyir.
Nənə, nə olub?
Mənə nə olub?

29.05.2004

***Bürüyün kəfənə diləklərimi***

*«Qoyun tabutuma arzularımı»*
*şe'rinin müəllifi Gülarə Munisə!*

Çox diləyim vardı kəfən kimi ağ,

Bürüyün kəfənə diləklərimi.
Sizə and verirəm, dəfnimdən qabaq
Bürüyün kəfənə diləklərimi.

Sinəmdə dağımdır diləklər mənim,
Sönən çırağımdır diləklər mənim,
Ölən uşağımdır diləklər mənim,
Bürüyün kəfənə diləklərimi.

Vəsiyyət edənə varmı e'tiraz?
Biryolluq gedənə varmı e'tiraz?
Kəfən iplərini çox alın bir az,
Bürüyün kəfənə diləklərimi.

Taqətim qalmadı səbrim içində,
Tabım çoxalmadı səbrim içində,
Qoy mənlə yatsınlar qəbrim içində,
Bürüyün kəfənə diləklərimi.

Düzlüklə ötübdür hər ayı, ili,
Heç vaxt bürünməyib yalana dili,
Bürüyün kəfənə Şahin Fazili,
Bürüyün kəfənə diləklərimi.

9.06.2004

### *Nur*

*(heç nə itməyir, heç nə yox olmayır)*
*Fəlsəfədən*

Gəldin həyatıma bir yaraşıq tək,
Parladın ömrümdə səadət kimi.
Mən sənə vuruldum nur tək, işıq tək,
Sən mənə gərəkdin zərurət kimi.

Hərənin bir cürə istəyi olur,
Kimi «Rast» şövqündə, «Şur» həvəsində.
Mənimsə istəyim o nurdur, o nur,
Nursuz Şahin Fazil nur həvəsində.

Bilirəm, gələcək yenə də fəraq…
Bir gün gen düşəndə o nur gözümdən
Divanə-divanə pıçıldayaraq
Sual edəcəyəm özüm-özümdən:

Nursuz ürəyimdə işıq yandıran
Alov necə oldu, köz necə oldu?
Mənim həyatımı işıqlandıran
Qız necə oldu?

Hanı o nur seli, hanı o ziya?
Şö'ləsi olmadı gur, necə oldu?
Heç nə itməyirsə, yox olmayırsa,
Nur necə oldu?
Nur necə oldu?

16.06.2004

## *Sınaq*

Qulağın eşitsin dilim deyəni,
Ürəyim qalıbdır neçə arzuda.
Həyat çox sınaqdan çıxarıb məni,
Taleyə yazılan sınaqdır bu da.

Sınağın önündə daş-dəmirəm mən,
Sınaqdan yayınmaq diləyim deyil.
Sənin vüsalını istəmirəm mən.

Amma, hicranın da gərəyim deyil.

Qulağın eşitsin dilim deyəni…

19.06.2004

### *Qabağımda*

Səndən çiçək ətri, gül ətri gəlir,
Çiçək qabağımda, gül qabağımda.
Qəmliyəm, səndənsə sevinc yüksəlir,
Sevin qabağımda, gül qabağımda.

Şəhərdə qalmağım mənə qüsursa,
Ey Leyli, gedirəm, yol qabağımda.
Əgər Məcnunluğun şərti budursa,
Düzən qarşımdadır, çöl qabağımda.

Getdim, son günümdür həyatda bu gün,
Oldu göz yaşlarım göl – qabağında.
Gedirəm özümü öldürmək üçün!
Dedi: - Zəhmət çəkmə, öl qabağımda.

28.06.2004

### *Dalımca gəlir*

Yol gedirəm qədəm-qədəm,
Min ahım dalımca gəlir.
Yar öldü, deyə bilmirəm
Pənahım dalımca gəlir.

Ya İlahi, ah edən çox,
Mənimtək günah edən çox…
Meydən doydum, saqidən yox,

Tamahım dalımca gəlir.

Canı üzmədə qəm bu gün,
Sitəm bu gün, ələm bu gün…
Söyləyə bilmirəm bu gün:
Sabahım dalımca gəlir.

Düşünürəm vida dəmi
Bu aləmdə o aləmi:
Cənnətə, cəhənnəməmi?
Günahım dalımca gəlir.

Eşidirəm atəş səsi,
O səs yıxacaq bir kəsi,
Mənə dəyəcək gülləsi,
Silahım dalımca gəlir.

30.06.2004

### *Getmək istəyirəm dağlara doğru*

Qaçmaq istəyirəm mən bu şəhərdən,
Getmək istəyirəm dağlara doğru.
Bu rüşvətxor yerdən, oğru şəhərdən,
Hakim də oğrudur, məhkum da oğru.

Doğrular əyilib, daha doğru az,
Dövlət oğrusu var, var oğrusu var.
Güman eləyirəm dağda oğru az,
Sanıram dağlarda safdır adamlar.

Əyrilik – əsəbi çəkib tarıma,
Görmək istəmirəm bu oğruları.
Dəmir çəkmə geyib ayaqlarıma

Çıxıb gedəcəyəm düzlüyə sarı.

Orda rüşvətxorlar gəlməz eynimə,
Şəhərə dönmərəm nə qədər sağam.
Çoban yapıncısı geyib əynimə
Elmin libasını soyunacağam.

Millət təngənəfəs, ölkə yorulub
Oğruluq əlindən, rüşvət əlindən.
Dağlar qəbul etsə, dağ oğlu olub
Elə dağlarda da qalacağam mən.

…Getmək istəyirəm dağlara doğru…

9.07.2004

## *Mənim qocalığım*

Gün-gündən qısalır həzzimin boyu,
Qəmim uzandıqca möhnətim artır.
Yığılır gözümə mirvari suyu,
Yaşım çoxaldıqca sərvətim artır.

Saçım gümüşlənir mənim get-gedə,
Üzüm qızıl kimi saralmaqdadır.
İstilik görmürəm daha heç nədə,
Başımın üstünü qar almaqdadır.

Rəngi solmaqdadır ömür gülümün
Baba çuxasıtək, nənə donutək.
Önünə çıxıram gözəl ölümün,
Ölümü yar kimi qucum mən gərək.

Kədərim dərdimlə həmahəng gedir,

Çoxdan oxumuram gənclik himnimi.
Sür'ətim azalır, işim ləng gedir,
Hərdən axsayıram Teymurləng kimi.

Yar bəyənməyirəm, yar atmayıram,
Qələmim əlimdə yaraq əvəzi.
Daha mən uşaq da yaratmayıram,
Şe'r yaradıram uşaq əvəzi.

10.07.2004

### *Tut ağacı*

*Bəstəkar Aygün Səmədzadəyə!*

Tut ağacı!..
Şair, gedib
möhkəm-möhkəm tut ağacı,
çox dərd vermisən ona,
könlünü al
            ovut ağacı.
İllərlə üstünə çıxmısan,
                        budağını əymisən,
                                    tutunu yemisən,
neynirsən daha lüt ağacı?

Tut ağacı!..
Məhrəm-məhrəm quc,
                        quc onun gövdəsini,
fəqət
            üstünə çıxmaqdan ötrü yox,
Əy budağını,
fəqət
            çırpmaqdan ötrü yox,
Öp budağını,

daha tut istəmə ondan,
daha təmənnan olmasın
tut ağacından.
Tut ağacından
üzr istə
budaqlarını
çırpdığına görə.
De ki, səni döyəcləyib,
səni çırpıb
tutunu yemişəm.
De ki, qələt eləmişəm.
De ki, bu qışdan sonra
budaqların tut verəcək yenə.
De ki,
səndən tut cücərəcək yenə.
De ki,
daha ayaqlamaram gövdəni
başına çıxmaqdan ötrü.
De ki,
daha əymərəm budağını
qarnımı doyurmaqdan ötrü.
Tut ağacı!..
Şair, gedib
möhkəm-möhkəm tut ağacı…

17.07.2004

### *Sual*

Od!.. Odun!..
Ya Rəbb,
Ya Xeyrülbəşər,
Od olmazdı
Odun olmasaydı əgər.

Odun odu yaşatdı,
Nə oldu bəs sonu?
Od yox etdi odunu!
Od haqmı?
Yaratmayaqmı? Yaşatmayaqmı?

22.07.2004

### *Göyərçin kimi*

Düm ağ libasını yenə geyinib
Sən yenə gəlmisən göyərçin kimi.
İlham yenə gəlib, təb yenə dinib,
Sən yenə gəlmisən göyərçin kimi.

Gülərmiş taleyi bu iki yarın –
Məhəbbət oxuyla vurulmuşların.
Gülüm, acığına bütün quşların
Sən yenə gəlmisən göyərçin kimi.

Göz elə bilirdi səni itirib…
Vəslə gəlibsənmi hicri bitirib?..
Məktub əvəzinə sevgi gətirib
Sən yenə gəlmisən göyərçin kimi.

Şairin bu gündən sonra nə dərdi?
Yanımdan getməyin daha hədərdi.
Əzizim, qaranquş gəldigedərdi,
Sən yenə gəlmisən göyərçin kimi.

Əzəldən heyranam quş uçuşuna,
Canı xoşlandıran xoş uçuşuna.
Şikarmı gəlibsən şahin quşuna?
Sən yenə gəlmisən göyərçin kimi.

23.07.2004

### *Kaş…*

Demişəm, deyirəm yenə də, bil sən,
Dadmaq istəmədin vüsalı dərin.
Üzbəüz görüşə hazır deyilsən,
Telefon söhbəti – sənin şakərin.
Bəlkə də günlərin xoş bir günündə
Vəslimiz səninlə tutacaqdı baş.
Belə bir təəssüf yaranıb məndə:
Telefon ixtira olmayaydı kaş.

28.07.2004

### *Gözləyəcəyəm*

Hicranın canıma ox olubsa da,
Sanma ayrılıqdan daha bezikdim.
Yoluma göz dikən çox olubsa da,
Mən sənin yoluna gözümü dikdim.

Sən ki qəlbimdəsən, kədərlənmirəm,
Sənsiz gəlib-keçən dəmim mübarək.
Canımı dəmadəm üzsün kədər, qəm,
Kədərim mübarək, qəmim mübarək.

Mən sənin vəslinə yetmək istədim,
İstədim tapasan məhəbbət varı.
Gününü ağappaq etmək istədim,
Gözümün kökünü etdin sapsarı.

Acı həsrətimin olmadı sonu,
Axır ki qocaldı səni sevənin.

Desəm də vüsalın qısa yolunu,
Yolun uzun oldu necə də sənin.

Səni səsləyəndə o gözəl ölüm
Bil ki, mən də səni səsləyəcəyəm.
Allahın yanına gələrsən, gülüm,
Səni mən orada gözləyəcəyəm.

30.07.2004

## *İki şahin*

Şahin quşu
və Şahin kişi.
Hər ikisi uçur –
biri qanadlarıyla,
o biri xəyallarıyla.
Hər ikisi ovçudur –
biri «quşu quşla tutarlar» deyib
oturur bir kişinin qolunda,
o biri
bircə kərə ovçuluq eləyib
və
ova çevrilib
bir qadının yolunda.
Hər ikisi yaşayır –
biri yemək üçün,
o biri yemək,
söz eşitmək,
söz demək,
ev qurmaq…
və sair arzu-dilək üçün.
Biri – sahibinin köləsidir,
o biri – kölə olsa öləsidir.

Biri fikir nədi bilməz,
o biri –
          fikirlərin dərinliyində azır.
Şahin quşu şe'r yazmır,
Şahin kişi şe'r yazır.

İki şahin…

4.08.2004

### *Hesab dərsi*

«Zəhmətkeş» desələr – adıma düşür,
Çiynimdə zəhmətin yükü olardı.
Amma, şagirdlikdə yadıma düşür
Hesabdan qiymətim «iki» olardı.

Hesab hey verərdi əzabı mənə,
Hesab eləməyə gəlmirdi əlim.
Öyrədə bilmədi hesabı mənə
Hesab müəllimim Yunis müəllim.

Nəhayət sən tədris etdin hesabı,
Çatır bu tədrisin hesabı sənə.
Gülüm, qazanmısan hesab savabı,
Öyrədən sən oldun hesabı mənə.

Hesab kitabını mən varaqlayıb
Çoxdan oxumuram kitab dərsini.
Sinəmə vurduğun yaranı sayıb
Daha öyrənmişəm hesab dərsini.

5.08.2004

### *Necə birləşək ki, görən olmasın*

Çoxdan ələ düşmür fürsət görüşü,
Kef çəkir qəlbimin həsrətində qəm.
Var kədər görüşü, həsrət görüşü,
Sənin görüşünün həsrətindəyəm.

Bir sevda yolunda iki iz olaq,
Qoşa iz… Araya girən olmasın.
Necə görüşək ki, ikimiz olaq,
Necə birləşək ki, görən olmasın.

İnşallah arzumuz açacaq çiçək,
Ürəkdə çox arzu, dilək oturub.
Kimsə görməsə də, mələk görəcək,
Çiynimiz üstündə mələk oturub.

Sən mənsən, mən mənəm, sənəm, ay sənəm,
Fikrimiz möhkəmdir, sözümüz aydın.
Mələklər görəcək? Görsünlər, nə qəm?
Mələklər baxacaq? Gözümüz aydın…

6.08.2004

### *Dil səni bir daha səsləməyəcək*

Məni səsləmirsən, gülüm, get-gedə,
Dil səni bir daha səsləməyəcək.
Ürək istəsə də, göz istəsə,
Dil səni bir daha səsləməyəcək.

Vaxt vardı qəlbimin yox idi dərdi,
Mənim eşq bağımda bülbül ötərdi,
Qarşında bu aşiq dil-dil ötərdi,

Dil səni bir daha səsləməyəcək.

Əsəb aşıb-daşır, a dilbilməzim,
Qəzəb daşıb-aşır, a dilbilməzim,
Dilin acılaşır, a dilbilməzim,
Dil səni bir daha səsləməyəcək.

Köksümdə «Eşq» adlı gülümə hayıf,
Günümə, ayıma, ilim hayıf,
Sənə «gəl, gəl» deyən dilimə hayıf,
Dil səni bir daha səsləməyəcək.

Səndən üzməkdədir əlini Şahin,
Məni – dəli bilin, dəlini – Şahin,
Kəsib atacaqdır dilini Şahin,
Dil səni bir daha səsləməyəcək.

12.08.2004

### *Məddah bir şairin yığcam portreti*

Lopabığ,
Qıyıqgöz,
Qaraüz
bir şair var.
Elə zənn edir ki,
şe’rə şah oldu.
Aşıq olsaydı yaxşıydı!
Məddah oldu.
Tfu!!!

23.08.2004

### *Allahdan xahiş*

Allah
        bir cəza dəmi
        buğda cəzası verib
        qovdu cənnətdən Yerə
        Həvva ilə Adəmi.
Qüsur – buğda yeməkdi.
Cənnətdi buğda yemək
demək, qüsur deməkdi.
Başlarına bəla oldu qarınları…
Yerdəsə
            buğdayeyənlər
                        baş alıb gedir.
Bəs
   bu buğdayeyən harınları
Allah qovmur niyə
                        Göyə?
Buğdayeyən çoxdu, lap çoxdu…
Mənimsə, gözüm toxdu,
dolanıram birtəhər,
məvacibim çatmır buğda çörəyinə,
yeyirəm arpa çörəyi,
demək, qüsurum yoxdu,
demək, yoxdu günahım,
məni Yerdən qovma, Allahım.

24.08.2004

### *Allah ağlayır*

*Tamridaya*

Mən
Səni itirdim,

Ruhun uçdu göyə.
Niyə belə oldu, niyə?
Mən
Məhəbbət aləminə səyahətimi bitirdim.
Əlim əsirsə də,
axı o qədər də əldən düşməmişəm;
Ömür dəyirmanı
saç-saqqalımı ağardıbsa da,
axı o qədər də qoca deyiləm.
Nə deyim bəxtimə,
Nə deyim iqbalıma…
Allah-taala məni görürsə –
(Görməyinə qətiyyən yoxdur şübhə),
İndi
Gözünə səma boyda yaylıq sıxıb
ağlayır halıma.

Mən
Səni itirdim.

2.09.2004

### *Aşağı*

«Əl tut» deyən adamların
Əlinə əlim çatmayır,
Əlim aşağı.

Sütun kimi dik dayanıb
önümdə zirvə yolu,
zirvəyə çıxa bilmirəm,
Yolum aşağı.

Dayanmışam

arzumla ölüm arasında.
Arzum məni göyə çəkir,
Ölüm aşağı.

3.09.2004

### *Bəşəri arzu*

Oğlan –Qız!
Oğlan kişi oldu,
Qız qadın;
Kişi qoca oldu,
Qadın qarı;
Sonra
hər ikisi
dünyasını dəyişdi,
Allah apardı onları,
o dünyanı
bu dünyadan üstün saydı.
Kaş hamı qocalaydı!!!

12.09.2004

### *Acmışam*

Acmışam.
Özümü doyurmaq istəyirəm
sənin sevginlə.
Dinlə,
Məni yaxşı-yaxşı dinlə,
Əgər sevginlə
Məni yemləməsən
acından öləcəyəm.
Acmışam
sevgiyə yerikləyən kişi təki.

Bəs sən necə?
Ac deyilsən ki?
Acmışam.

14.09.2004

### *Kafər*

Allah – hər şeyin sahibi,
Qur'an – Allahın kitabı,
Məhəmməd – sonuncu peyğəmbərdir.
Görürəm inanmırsan kafər kimi,
Neynək, kafər kafərdir.
Amma,
bir an
qulaq as müsəlmana,
kafərliyindən əl çək,
günahlarının pozulması üçün tövbə et,
cənnət sənədinin yazılması üçün tövbə et,
qəbrinin gen qazılması üçün tövbə et,
Sıxılarsan.

15.09.2004

### *Qonaq*

Qonaqpərvərəm,
Allah,
Əzrayılı göndər yanıma,
Qonaq istərəm,
Gəlsə də,
canımı almasın amma.
Nə olar, qoy bir dəfə əliboş gedə…
Önünə cürbəcür pay düzəcəyəm,
Yemək yemirsə də,

Çay içmirsə də,
Xörək çəkəcəyəm, çay süzəcəyəm.
Gəlsə də,
qonaq tək gələ, ay Allah,
ölmək istəmirəm hələ, ay Allah,
nə olar, bir dəfə əliboş gedə…
Allah,
Əzrayılı göndər yanıma.

19.09.2004

## *Gəlmə*

Darıxmışam səninçün,
Gəlmə.
Gözümə görünmə.
Əlimdən tutma.
Səndən ötrü darıxan qəlbimi ovutma.
Səndən ötrü süzülən göz yaşımı silmə.
Məni sevgilin bilmə.
Qoy darıxım səninçin.

Darıxmışam səninçin,
Ölməməyimi istəyirsənsə,
Gəlmə.
Məni dindirmə.
Sevindirmə.
Sevincdən ölə bilərəm,
Gəlmə.

20.09.2004

## *Bənd olduğuma iki bənd söz*

Qovruluram sac kimi,

Sevgiyə möhtac kimi.
Yalavac tək, ac kimi
Atıl mənim üstümə.
Həm Şahinəm, həm Fazil,
Həm divanə, həm aqil.
Sən dalğa ol, mən sahil,
Çırpıl mənim üstümə.

21.09.2004

### *Altmış dörd yaşlı küsəyən kişi*

Dünyadan küsübdür, dünya xəbərsiz,
Altmış dörd yaşlı küsəyən kişi.
Surətdən inciyib, mə'na xəbərsiz,
Altmış dörd yaşlı küsəyən kişi.

O yandan barışıb, bu yandan küsüb,
Yadına salmayır haçandan küsüb…
İşə bax, sən kimi cavandan küsüb
Altmış dörd yaşlı küsəyən kişi.

«Məcnundan üstünəm» dedi, yarışdı,
Allahın işinə nahaq qarışdı…
Bəlkə də səninlə bir gün barışdı
Altmış dörd yaşlı küsəyən kişi.

Qədəhlər sındırıb, o, cam itirib,
Ona elə gəlir inam itirib.
Eşqindən ağlını tamam itirib
Altmış dörd yaşlı küsəyən kişi.

Deyir ki «Şahinəm», adına bir bax,
Ona qismətmidir şahin tək uçmaq?

Altmış dörd yaşlı qoca bir uşaq,
Altmış dörd yaşlı küsəyən kişi.

27.09.2004

### *Ağladı*

Dərdimi dedim buluda,
Bulud ağladı.

Gümana umudum vardı,
Umud ağladı.

Səs-küy məni eşitmədi,
Sükut ağladı.

Sevgimi dəfn etdiyim gün
Tabut ağladı.

29.09.2004

### *Rəng*

Qan rəngi!
Qanın vahimə yaradan rəngi…
Bədrəng rəng!
Üfüqə baxa bilmirəm,
Qan rəngi.
Şəfəqə baxa bilmirəm,
Qan rəngi.
Səhərlər
Göy səmanın
günəşə yaxın qırağında
qan rəngi var,
Tonqalın qucağında

qan rəngi var.
Narı sevmirəm,
Narda
qan rəngi var.
Məni varlı edəcək varı sevmirəm,
Dövlət-varda
qan rəngi var.
Qan rəngi…
Qan rəngi…

Yaxşı,
Yaradan əgər
ağ yaratsaydı qanın rəngini
nə deyəcəkdim?
Ağ rəngi də sevməyəcəkdim?
Qanın rəngi yaşıl olsaydı necə?
qara olsaydı necə?
sarı olsaydı necə?
Rənglərin nə günahı?
Rəngləri xoş yaradıb
Yerin, göyün Allahı.
Zövqünə əhsən Yaradanın.
Amma, kim nə deyir-desin.
Məndə
vahimə yaradır rəngi qanın.
Qan rəngi…

Qələmimi çərtmək istədim,
barmağımı kəsdim.
Bu iş
hansı şairin başına gəlmir?
Daha tənqid etməyəcəyəm
qan rəngini,

Allahın xoşuna gəlmir,
Allahla nə cəncəl,
                    nə cəng?
Qan rəngi…
Xoşrəng rəng!

30.09.2004

### *Çətin sual*

Aşağıdan zəhləm getdi,
Mən bəxti kəm
yuxarıda olmaq istəyirəm,
hətta yuxarıdan yuxarıda
                              olmaq istəyirəm.
Yuxarıda, yuxarıda,
buluddan yuxarıda,
göydən yuxarıda,
aydan yuxarıda,
gündən yuxarıda
                    olmaq istəyirəm.
Aşağıdan zəhləm getdi,
Bundan sonra
Yuxarıda qalmaq istəyirəm.
Aşağı görmədim aşağı kimi,
aşağıdakılar bilmədilər qədrimi.
Yumub gözlərimi
əbədi yatmaq istəyirəm,
Aşağıda çata bilmədiyimə
yuxarıda çatmaq istəyirəm.
Aşağıda aşağı oldum,
Aşağıda
yuxarı ola bilmədim,
                    aşağı qoyuldum…

Yuxarıda yuxarı ola biləcəyəmmi?
İşdi-şayəd yuxarıda ola bilsəm,
Yuxarıda qala biləcəyəmmi?..

«Aşağıda» deyirəm,
«Yuxarıda» deyirəm…
İstəyirəm,
İstəyirəm,
İstəyim
          icra olunası istəkmi?
Mənim istədiyimi
Allah istəyəcəkmi?

### *Qara libaslı gözəlin gəlişi və romantik əhvali-ruhiyyə*

Qaradan çıxmaq dilədim,
Qara geyinib gəlmisən.
Sən məgər bilmədinmi ki,
Hara geyinib gəlmisən?

Qınama bu qarabaxtı,
Qara rəng qəlbimə dağdı.
İstədiyim daha ağdı,
Qara geyinib gəlmisən.

Qara qovur hara məni?
Ağ geyinib ara məni.
Gətiribdir qara məni
Zara, geyinib gəlmisən,
Qara geyinib gəlmisən.

Rəhm elə bu qaragünə,
Qıyma ki, qara ah dinə…
Ağ geyimindir Şahinə
Çara, geyinib gəlmisən,
Qara geyinib gəlmisən,
Qara geyinib gəlmisən…

2.10.2004

### *O dünya, bu dünya…*

Hansı yaxşıdı?
O dünya
acgözlük yeridi.
O dünya
bu dünya adamına müştəridi,
göz dikib canına,
çəkib aparır yanına.
O dünya, bu dünya..
hansı yaxşıdı?

### *Əcələ*

Başımdan çox sevirəm ürəyimi,
Sevirəm dəli kimi,
divanə kimi.
Ey əcəl,
Qorxmuram, gəlirsən gəl,
Amma
Ürəyimi qanadan dişin olmasın
Başımı ye,
Ürəyimlə işin olmasın.

Başımdan çox sevirəm ürəyimi…

4.10.2004

### *Ölümüm üçün nostalgiya*

Bitdi dünənki gün də,
Bu gün gəldi təzə gün.
Bu təzə gün önündə
Darıxdım ölümümçün.

Yer zindandı,
Göy – çəkic,
Zindan ilə çəkicin
arasında qalmışam,
Günümün ağı gedib,
qarasında qalmışam.
Ölmürəm Allah təki.
Kim məni qarğışladı?
Ölüb qurtarmıram ki…
Günüm yenə başladı.

5.10.2004

### *İmtina, sənin xətrinə*

Yer kürəsini
dolayıb barmağıma
atmaq istəyirəm göyə sarı,
qırmaq istəyirəm
yaltaq,
qorxaq,
məst, vəzifəpərəst,
rüşvətxor,

cahil… və sair adamları.
Amma,
etməyəcəyəm bunu,
Məndən zərər görməyəcək heç kim,
çünki
yerdə
sən varsan, sevgilim.

…Yer kürəsini
dolayıb barmağıma
atmayacağam göyə sarı…

6.10.2004

### *İynə*

Xoşum gəlmir iynədən.
İynəli sözlər…
Dərzinin deşik-deşik barmaqları…
Küknar ağacının biz-biz yarpaqları…
Oxşamaq istədiyim kirpinin üstü…
Qızılgülün tikanı…
Narkomanın ümidi, hayanı…
İynə hərçənd
        neçə-neçə xəstəyə kömək,
Ey diş həkimi,
Gəlirəm yanına,
Dişimi iynəsiz çək.

9.10.2004

### *Gəl*

Gəl, gözümə görünmürsən neçə gündür,
Gəl, gözümü yol çəkdiyi yollardan çək.

Gəl, gəlişin bilməlisən nə üçündür,
Sən görmək – mənə istək.
Sən – sevənim!
Ey sevənim,
istəyimi istə mənim,
gəl ki, səni səndən alım
mən özümə verim səni
və özümdə görüm səni,
Gəl, gözümdə görüm səni,
Ürəyimdə deyilməmiş neçə-neçə sözlərim var,
Sənə məftun gözlərim var,
Sənə vurğun gözlərim var,
Əllərimdə gözlərim var,
Qollarımda gözlərim var…
Gəl yanıma,
Əllərimlə, qollarımla görüm səni,
Səni görmək – mənə dilək,
diləyimi dedim sənə,
Gəl, ey qadın, hər kişinin
etdiyini edim sənə –
Yəni, edim tə'zim sənə,
Gəl!..

10.10.2004

### *Qeyri-adi dilənçi*

İşdi-şayəd
əgər mən
dilənməyi bacarsaydım
nə vardı ki mənə?
Abrımı töküb,
həyamı atıb,
pul yığardım

əl uzadıb
küçələrdən keçənə.
Başımı aşağı salardım,
sığılardım bir küncə,
utandığımdan
sinəmə dağ çəkilərdi
çalın-çarpaz,
tanıyanlar çox verərdi,
tanımayanlar az.
Dilənçilər, necə deyərlər,
tuman tökməsinlər,
nalə qoparmasınlar,
fəryad eləməsinlər deyə
paylayardım yığdığım pulları
neçə-neçə dilənçiyə.

Ax-x, dilənməyi bacarsaydım…

14.10.2004

### *Subay*

Adımın yanında subay yazılıb…
Saydığımı saydım, fələk nə saydı…
Adımın yanından adın pozulub,
Adımın yanında adın olaydı.

Çiynimdə cüt mələk oturubsa da,
Mələkdə nə çəki, nə səs, nə səda…
Onların hər biri mələk olsa da,
Kaş sənə bənzəyən qadın olsaydı,
Adımın yanında subay yazılıb…

18.10.2004

## *Diplom*

Fakültəmizdə
Alimlik diplomu olmayan
bir Yusif Ziya vardı.
Bir də
Alimlik diplomu olan
Bir Yusif Şirvan vardı.
Amma, bilikdə,
diplomsuz alim
diplomlu alimi
cibinə qoyardı.

20.10.2004

## *Ayaqlar…Yollar…*

Sən gələn yollara nə oldu belə?
Yoxsa ayağına dəydi daş sənin?
Bu necə səbirdir, necə hövsələ?
Yolunu gözləyir bu sirdaş sənin.

Çoxdandır üzümə dəymir nəfəsin,
Evimdə söhbətin, sözün görünmür.
Yolların altında yox ayaq səsin,
Yolların üstündə izin görünmür.

Yoxsa yol gələndə baş verib nəsə?
Ayağa nə olub, qola nə olub?
Bu sual çətindir, yoxsa həndəsə?
Gözlərim yol çəkir, yola nə olub?

Sual altındadır yoxsa cür'ətin?
Yoxsa gəlişinə nöqtə qoyuldu?

Soyundur donunu bu həqiqətin:
İnciyən ayaqmı, yoxsa yol oldu?

Sənəmi, yolamı nə oldu, a yar,
Məhkum kimi edək, nəyi günaha?
Ayaqlar yolları tapdalamırlar,
Yollar ayaqları opmürlər daha.

24.10.2004

## ***Kinli Şahin***

Adamlar cürbəcürdür –
biri şair, biri nasir,
biri arif, biri cahil,
biri cinli, biri kinli…
Mən – kinli adamam,
rüşvətxorlara,
oğrulara,
yaltaqlara, yalançılara
qarşı kin var məndə,
Kiminin kini birsə,
min var məndə…
Eşidib ölümünü
deyəcəklər günlərin bir günü:
«Biri vardı, biri yoxdu,
Bir Şahin vardı,
ürəyində kin vardı…»

28.10.2004

## ***Qurtdayan qar***

Sən
qurtdayan qar görmüsən?

Yox?
Mən də görməmişəm.
Qar – qurd,
Qurd- qar,
Bu sözlərdə təzad var? Var!
Qarların içərisində
necə yaşayır qurdlar?
Yaşamağa yer yoxmu?
Qar qurdu dondurmurmu?
Qurda yer qəhətmi?
Qurd qarda rahətmi?
Əzəllər
qarın ağappaq saflığından
xoşum gələrdi,
Qarın paklığından
xoşum gələrdi.
Nəzərimdə
bəm-bəyaz təmizlikdi qar adı,
qurd işləri korladı,
qar qurd yeyib qurtdadı,
qardan gəldi qurd dadı,
Daha qar yemərəm mən.

Yayda qar diləyərdim,
«Necə pakdır» deyərdim…
Uşaqlıqda yeyərdim,
Daha qar yemərəm mən.

Qarda azar görüblər,
Qurdları var, görüblər,
Qurtdayan qar görüblər,
Daha qar yemərəm mən.

Sudan pak, aydan arı
Zənn eləyərdim qarı,
Qoy qurd yesin qarları,
Daha qar yemərəm mən.

Qarın eybi var imiş,
Qarda olan paklığın
Aman, qeybi var imiş,
Qar da qurtdayar imiş,
Daha qar yemərəm mən.

Düşdü qar nəzərimdən,
Qar da qurtdayar imiş.
Çatdadım kədərimdən
Qar da qurtdayar imiş.

Qurda olub qar – yataq,
Qar içində yurda bax,
Yurd içində qurda bax,
Qar da qurtdayar imiş.

Saxlayanı xam olur
Qurtdayan gilas olur,
Çiyələk, badam olur…
Qurtdayan adam olur,
Qar da qurtdayar imiş…

Sən
qurtdayan qar görmüsən?

29.10.2004

## *Toy*

Miladın 2004-cü ili,
oktyabrın 15-i,
ramazanın 1-i.
Şadlıq sarayı, adı – «Xəmsə»,
Amma, nədənsə
mən toyxananı tərk edənədək
İlk «Xəmsə» müəllifini
xatırlamadı bir kimsə…
Bu «Xəmsə»
işgüzar bir kimsənin «Xəmsə»siydi,
Burada toy məclisiydi,
Yazıçılar Birliyinin
«Natəvan» klubu deyildi ki…
Nizamini unutmuşdular toy sahibləri –
biçarə köçkünlər,
binəva qaçqınlar…
«Göz yaşımın hər damlası
Kipriyimdən asım-asım,
Mən özümü hardan asım?
Qış asılıb bu gecədən»
deyən
Həyat Şəminin,
bir də Azərin –
bu gecədən başlayaraq
Həyat xanımın həyat həmdəminin toyuydu.
«Xəmsə»ni bürümüşdü çal-çağır səsi,
Qaytaqların «qaytağı»sı,
Tərəkəmələrin «Tərəkəmə»si…
Qadınlar oynamaq istəklərinə
çata-çata oynayırdılar,
Kişilər qarınlarını

ata-ata oynayırdılar,
qızlar oğlanlara
naz sata-sata oynayırdılar…
Ramazan ayının ilk,
orucluğun 1-ci günüydü bu gün.
Qaçqın Ramazan dayının,
Köçkün Oruc kişinin
toy-düyünüydü bu gün…
Oruc tutmayan kişilər,
bəzisi arıq, bəzisi şişman kişilər
fərqə varmadan
araq içirdilər ramazanda…
Yüz il bundan əvvəlsə,
Mirzə Ələkbər
oruc tutmuşdu –
«Tutdum orucu irəmazanda,
Qaldı iki gözzərim qazanda…»
deyən Mirzə Ələkbər Sabir,
«…Mollamsa döyür yazı yazanda» -
mollası döyən Mirzə Ələkbər Sabir…
Bu məclisdə molla yoxdu,
molla hürküsü yoxdu,
molla qorxusu yoxdu.
Şairlər oturmuşdular
masamızın yanındakı masa ətrafında,
içirdilər o ki var.
Şair Şərif Ağayar
o qədər mey nuş etdi ki,
arvad-uşağını unutdu,
gözü
şairə Səhər Gecəgözlünü tutdu.
Səhər xanım Gecəgözlüsə
yer tapmırdı özünə,

eləmirdi e'tina
Ş.Ağayarın sözünə…
Ş.Ağayarın fikri bir yandaydı
S.Gecəgözlünün fikri başqa yanda…
Bəli,
oruc tutmayan kişilər,
meyə uyan kişilər
şirin-şirin
acı araq içirdilər
                    ramazanda.
Bizim masamızın üstündə də
o zəhrmar şey vardı,
                    mey vardı.
Amma,
şüşələrin ağzı
lal adam ağzı kimi
açılmamış qaldı.
Ramazanın ilk günüydü,
gözümüzü cəlb etmədi,
şüşələr bizə olmadı göz dağı,
Əgər
alim Xeyirbəy istəsəydi
çapma istəkanla içərdi arağı,
Amma
          gözucu da baxmadı ona,
çünki o,
bu orucluq gününü unutmamışdı,
əslində yazıq
heç oruc da tutmamışdı,
«orucluqda araq içməzlər» dedi,
Alim Xeyirbəy
şair bəyləri üstələdi…
Mən

neçə ilə əvvəl
toyumun ilk gecəsi yazdığım
«Toyun ilk gecəsi» şe’rimi oxuyacaqdım,
Amma,
məclisdəkilərə baxdım
vaz keçdim oxumaqdan,
heç
bu toya həsr etdiyim
qəzəlimi də söyləmədim,
ürəyimdə
«sonra Həyata oxuyaram» dedim,
«sonra Həyata söyləyərəm» dedim.
Mən küsmüşdüm,
ramazanda araq içənlərdən küsmüşdüm,
tez-tez əl-qol açıb
 oynamağa duranlardan küsmüşdüm,
bu məclisdə
Sabir Rüstəmxanlının dediyi
 vətənpərvaranə şe’ri
qulaq ardına vuranlardan küsmüşdüm.
Milli papağımızı unudub,
başlarına şlyapa qoyanlardan küsmüşdüm,
bağırsaqlarını
          araqla yuyanlardan küsmüşdüm,
ən nəhayət, araqdan yox,
          şe’rdən doyanlardan küsmüşdüm…

Bitirdim şe’rimi.
Xoşbəxt olsun Azərlə Həyat Şəmi!
Ramazanda araq içməyənlərə salam!!!
Miladın 2004-cü ili,
oktyabrın 15-i,
ramazanın 1-i.

Şadlıq sarayı, adı – «Xəmsə»,
Amma, nədənsə
mən toyxananı tərk edənədək
ilk «Xəmsə» müəllifini
          xatırlamadı bir kimsə…
                    Vəssalam!!!

31.10.2004

### *Sonsuz və sonsuz*

Asiman sonsuzdur,
Amma bu sonsuzluğun
uşaqları var –
səyyarələr, ulduzlar…
Qadının da sonsuzu var,
çünki yoxdur uşağı.
Kim sonsuzdur axı?
Asimanmı?
Qadınmı?

### *Məsafə*

Mən və Sən
Və məsafə.
Məsafə – Məndən Sənə
və Səndən Mənədək
          aramızda olan sahə.
Get-gedə
iki qəlb istəyi aşdı-daşdı,
Məsafənin iki başında dayanan
                    iki adam
azalda-azalda məsafəni

bir-birinə yaxınlaşdı.
O istək, o məsafə
araya haradan çıxdı?
Onlar elə yaxınlaşdılar ki,
məsafə aradan çıxdı.
Qəlblərdəki
iki istək
coşdu deyə, daşdı deyə, aşdı deyə
iki cism
          bir-birinə
                    elə kipləndi ki,
bir tikə də
          yer qalmadı məsafəyə.
Amma,
elə ki, iki cism aralandı,
arada
          təzədən məsafə yarandı.
Amma,
məsafə də məsafədir ha!..
Yenə girdi araya,
yenə arada dayandı.
O ki,
          aralıqdan itmişdi,
                    itib harada dayandı?
Aradan çıxıb-getmişdi,
yenə arada dayandı.
Arada yenə məsafə var,
Məsafə – aralıqdakı sahə.

Mən və Sən
Və məsafə..

3.11.2004

### *Kölgə və gün*

Üstümə çox kölgə düşdü
kölgə altda qalan buğda kimi
boyum çıxmasın deyə.
Bir gün
Kölgəni cırıb
baxdım göyə
ləzzət çəkdim.
Kölgəni cırmasaydım
günü görməyəcəkdim.

5.11.2004

### *Dəri*

Bir gün də yaşamağa
qoymadılar quzunu,
boğdular onu.
Yazıq quzu.
Doğulan kimi öldü.
Yaşamağa qoymadılar,
Dərisi – qaragüldü
quzunun.

7.11.2004

### *Ölə bilmir*

Hələ buraxmır onu
o həyatın qoynuna
bu həyat,
Ölə bilmir.
Boyu balacasa da,
ucadan uca kişi –

sanki bu qoca kişi
Əzrayılla eləyir
zarafat,
Ölə bilmir.

«Müstəqil yaşamaqsa
Adamın yaraşığı
Kişi ləçəyi bağla,
ay adam, şığı, şığı,
ay babam, şığı, şığı,
ay atam, şığı, şığı!..»
Narahat eləyibdir
onu narahatlığı,
Rahat ölmək istəyir,
Narahat ölə bilmir.

Yerə gəliş
                səbəbli,
Yerdən gediş
                səbəbli,
Hər əməl, iş
                səbəbli!
Əbu Ömmar ləqəbli
o insan ölə bilmir.
Ona can verilmişdi,
verib can
ölə bilmir.

Vətəni didim-didim,
ölkəsi para-para…
Osa almadan yara
salamat ölə bilmir.

Sanki əcəl piyada,
özü isə atlıdır.
Gəncliyindəki kimi
dözümlü, səbatlıdır,
O dözüm hələ qalıb,
o səbat
              ölə bilmir.

Çox savaş eləyibdir,
hələ də savaş ha çox…
Dibindən üzülməyə
layiq olan baş ha çox…
Torpağından düşmənə
atılmağa daş ha çox…
Ölkəsinə vermədən
o, nicat
              ölə bilmir.

«Çox işi qalmış ikən
ölüm nə üçün gəlir?..»
              hələ ki bilə bilmir.
Müqəddəs bir şəhərdə –
Qüdsdə doğulubdur,
Parisdə ölə bilmir.

Bu dünyadan bezməyib…
O dünyayçın darıxmır…
Bu ləçəkli kişinin,
bu ürəkli kişinin
hələ ki, canı çıxmır,
hələ ki Əzrayılı
edir mat
ölə bilmir,

Əzrayılla eləyir
zarafat
ölə bilmir,
Ərəfat ölə bilmir,
Ərəfat ölə bilmir…[1]

10.11.2004

### *Qurd ürəyi*

Bu ləhzə, bu dəm
Qurd ürəyi yemiş adam kimiyəm.
Qurd ürəyi yemişəm
yuxuda.
Qurd kimi ulamaq istəyirəm
oyaqlıqda.

Yuxuda gördüm ki,
üstümə cuman
qurdu boğdum,
köksünü yardım,
ürəyini çıxardım
və…yedim.
Qurd ürəyi yedim
ürəkli olmaqçın,
çünki,
insan ürəyi
vecə gəlmir daha.
Ayaq basa bilmirik Qarabağa.
Ürəyimiz varsa da,
sanki ürəksizik,

[1] Mənə elə gəlir ki, Yasir Ərəfatı mən öldürdüm. Dünən yazdığım bu şe'rdən sonra yaşamadı. Bu gün öldü…

çünki
          ürəyimiz insan ürəyidir.
Düşmənlərimizsə
Yəqin ki,
 qurd ürəyi yeyiblər,
Gözəl Qarabağı
özlərinə siğə eləyiblər.

Ey azərbaycanlılar,
Ey qədim şöhrətlilər, şanlılar,
Daha
          Nuh əyyamından qalan
filan-filan,
köhnə-möhnə
uğurlarımızla öyünməyək,
ötən tarixləri,
tarixçələri
anıb sevinməyək.
Ey hələ qurd ürəyi yeməmişlər,
Gəlin hamımız yuxu görək,
yuxuda qurd görək,
qurd ürəyi yemişlərin
siğəsinə çevrilmiş yurd görək,
görək Qarabağı yuxuda,
qurd da görək,
qurdu öldürək,
köksünü yarıb,
ürəyini köksündən çıxarıb
                    yeyək mən kimi.
Bəlkə ürəyimizdə
heç olmasa yuxuda
qurd cür'əti yarana,
qurd cəsarəti yarana.

Yoxsa,
ömür billah
Qarabağ siğə qalacaq.
Yoxsa,
Qarabağ
qalacaq
          qurd ürəyi yemişlərin əlində.
Bəsdir, bəsdir daha,
Söylənməyək ki,
 taledir bu da…

…Qurd ürəyi yemişəm
 yuxuda…

12.11.2004

### *Güc*

Qüdrətim tükənib,
Qüvvətim tükənib,
amma
bir azca
güc saxlamışam özümdə,
ona zilləmişəm gözümü,
lazım olar bir gün
özümü öldürmək üçün,
öldürmək üçün özümü.

…Güc saxlamışam özümdə.

15.11.2004

### *Hambal*

*«Dünyada daşınacaq bir quru başımız var»*
*Nəcib Fazil Qısakürək*

Canıma bəla olan
Başımı daşıyıram.
Gözümdə donub qalan
Yaşımı daşıyıram.

Görəndə ədalətdən
Danışan rəhbəri mən
Çatılan heyrətindən
Qaşımı daşıyıram.

Mənə hamballıq qalıb…
Dərd-qəmlə elə dolub,
Ürək daş kimi olub,
Daşımı daşıyıram.

17.11.2004

## ***Kölgə***

-Günəş altda yandım,
Kölgə altda daldalandım,
hansı yaxşıdır? –
dedi bir adam.
Yadam,
Belə adamlara yadam.
Kölgədə daldalananın
kölgəsi olmaz.
Kölgə altda qalanın
kölgəsi olmaz.
Ey adam, sən
Qaçma günəşdən.
Çalış
günəş altda alış,

günəş altda yan,
barı kiminsə üstünə
sən də kölgə salasan –
şəfəqqət kölgəsi,
məhəbbət kölgəsi,
mərhəmət kölgəsi…
Qorxutmasın günəş səni,
Kölgə altda qalma,
günəş altda qal,
kölgə sal –
Öz kölgəni,
Öz kölgəni!!!

18.11.2004

### *Dünənə qədər*

O onu sevirdi dünənə qədər,
O gülün vəfası yox imiş demə.
Diqqət əbəs olub, göz baxıb hədər,
Tikanı ətrindən çox imiş demə.

Səadət can verir göz qabağında,
Üzə gülümsəyən ləyaqət ölür.
Təmənna durubmuş söz qabağında,
Təmənna oldusa, məhəbbət ölür.

Ey bülbül, gözünü çəkdin o güldən,
E’tina eləməz aha, oxumaz.
Bu bülbül oxumaz daha könüldən,
Bu bülbül bəlkə də daha oxumaz,
O onu sevirdi dünənə qədər.

23.11.2004

## *Yuxu*

Yuxuda
          bayraq gördüm…
Yıxılmışdı…
Tutdum onun
soyuq dəstəyindən,
qaldırdım göyə.
Ağırlıq məni yıxdı,
Bayraq qalxdı,
Qalxacaqmı görən?

24.11.2004

## *Səhv*

Əlimdə tutmuşdum məhəbbətimi,
Təqdim edəcəkdim sənə
                    gül kimi.
Elə sərt baxışla baxdın ki,
məhəbbətim çaş-baş qaldı
və əlimdən
sürüşdü,
düşdü,
çıxdı canı.
Sən deyilsənmiş
 məhəbbətimin
            ünvanı.

Əlimdə tutmuşdum məhəbbətimi…

26.11.2004

## *İşıq və qaranlıq*

Gözlərimiz dolub,
Səninki yaşla,
Mənimki qaranlıqla.
Bizə nə olub?
Nə olub bizə?
Bəsdir yaşadıq yaş içində,
                                        zülmət içində,
İşıq gərəkdir gözlərimizə,
İşıq!
Göz yaşı yerinə
                    işıq,
Qaranlıq yerinə
                    işıq,
Bəsdir daha
göz  yaşlarıyla yaşamışıq,
qaranlıqla yaşamışıq,
İşıq!
Kim verəcək işığı bizə?
Göz yaşını, qaranlığı
Kim qoymayacaq gözlərimizə?
O «kim»in görəsən nədir adı?
Bəlkə Xudadı,
Xudavənddi,
Tanrıdı,
Sübhandı,
Yaradandı,
Pərvərdigardı,
Rəbbdi,
Allah-taaladı?
Kim verəcək işığı bizə?
Ey Kim!

Lütfən de ki,
tərk etsin bizi
onun göz yaşı,
mənim zülmətim.

28.11.2004

### *Şairə Güləmailə!*

«Anam öldü» dedi, «keçindi» dedi,
Ürpətdi canımı bu acı xəbər.
Dilim arxasınca rəhmət dilədi,
Salavat çevirdi anaya əllər.

Qocaydı, ömrünün qışında idi,
Cahandan o biri cahana köçüb.
Anamın anası yaşında idi,
Analar anası bir ana köçüb.

Şair, qəmlənsən də o ana üçün
«Öldü» söyləsələr eşit, inanma.
Bu cahan bir ana itirdi bu gün,
O cahan bir ana qazandı amma.

30.11.2004

### *Sürgün*

Qatil ola bilməzdim.
Mən
sevgimi öldürmədim,
bezdim ondan birdən-birə.
İsti qəlbimdən çıxarıb
sürgün elədim soyuq bir yerə.
Elə bir yerə ki,

havasında
          qar, şaxta, sazaq.
Donmasa, qayıdacaq.
Sevgimi öldürmədim,
sadəcə bezdim…

Qatil ola bilməzdim.

2.12.2004

### *Ürək açarı*

İtirmişəm ürəyimin açarını.
Ürəyin –
          bədəninin içində,
eşqim –
          ürəyinin,
Açarımsa yox,
İtib.
Amma ümidim var,
Sanma ki,
          ümid tükənib, bitib.
Ürək açarı düzəldən
Açar düzəldəcək mənə,
girəcəyəm təzədən
ürəyinin içinə,
Sevinəcəyəm
cəvahir tapan kişi kimi,
Tapacağam sevgimi.

İtirmişəm ürəyinin açarını…

3.12.2004

***Darıxdırıcı dünya***

*Dostum Adil Əlizadəyə!*

Bu dünya darıxdırıcı.
Ölmək istəyirəm,
həyatım acı.
Amma,
bilmək istəyirəm
o dünya
deyil ki darıxdırıcı?
O dünya məni əyləndirəcəkmi?
O dünya şərik olacaqmı dərdlərimə?
Göz dikirəm Qur'ani-Kərimə,
bu müxtəsər suala
müxtəsər də cavab var:
«Orda əylənəcəksən,
orda şənlənəcəksən
deyilsənsə günahkar»[1].
Görəsən nə qədərdir,
neçə puddur günahım?
neçə tondur günahım?
Rəbbə iman gətirmişəm,
tövbə eləmişəm,
görəsən tövbəmi
qəbul edibmi Allahım?

Bu dünya darıxdırıcı.
Mən dünyada,

---

[1] «İnnəl-ləzinə amənu və ə'milüs-salihati yəhdihim Rəbbuhum bi imanihum; təcri min təhtihimul – ənharu fi cənnatinnə - im». Tərcüməsi: «İman gətirənlər və saleh əməllər görənləri Rəbbləri hidayətə (cənnətə) qovuşdurar, ne'mətlə dolu cənnətlərdə ayaqlarının altında arxlar axar». Qur'ani-Kərim, Yunis surəsi, ayə 9.

məndə qəm.
Hamı kimi
dünyaya
ölmək üçün gəlmişəm.
Bu dünyaya gəlməyən
 ölə bilməz.
Bu dünyada olmayan
o dünyada
 ola bilməz!!!

Bu dünya darıxdırıcı!

5.12.2004

## ***Allah***

*Dostum Valeh Tağıyevə!*

Səni, məni,
onu, bunu,
milyonlarla səyyarəni
Allah görür.
Qur'anda yazılıb deyə
rahatca and içə billəm:
Vallah görür, billah görür,
Allah görür[1].
Önümdə dayanmısan,
Gözlərim dikilib üzünə,
baxıram sənə
amma görmürəm səni
 sən məni görməyəntək.

---

[1] «Və məllahu bi-ğafilin ə'mmə tə'məlun».
Tərcüməsi: «Allah sizin etdiklərinizdən heç də xəbərsiz deyildir» (Qur'ani-Kərim, Yunis surəsi, ayə 74).

Səyyarələri görməsək də
Gəl bir-birimizi görək,
bir-birimizə
üzümüzdəki gözlə yox,
qəlbin gözüylə baxaq
və göz görüntüsündən
kənara çıxaq.
Bəsirət! Bəsirət!
Mümkünmü fəqət?
Kimisə, nəyisə görmədən
görmək olarmı?
Bizdə bəsirət gözü varmı?

Milyonlarla səyyarəni
Allah görür,
biz görmürük,
çünki insanıq,
deyilik Allah,
Əstəğfurullah,
Əstəğfurullah!...

6.12.2004

### *Uğur*

Bu gecə
işıq yayır,
ziya yayır,
nur yayır.
Bayaqkı işıqsız gözlərim
İndi
Çılpaq qadına baxan
kişi gözütək
İşıldayır.

Bu gecə
nə lampam yanıb,
nə də yandırmışam şam,
Bu gecə
gözəl bir şe’r yazmışam,
O şe’r
balam kimi
gözümü oxşayır.
Bu gecə
işıq yayır…

Gözəl bir şe’r yazmışam
bu gecə.

7.12.2004

## *Cəllad*

Görərkən
əruza, hecaya atılan
əsassız tənqid daşlarını,
Cəllad olub da
iti şe’r bıçağımla
kəsmək istəyirəm
mücərrəd şe’rlər yazan,
ənənəvi şe’rlərə əks gedən
və
öz cızmaqaralarında oyunbazlıq edən
şairlərin başlarını.
Elə şairlərin hər biri
özünü şe’rdə
məliküş-şüəra bilir,
şah bilir.
Baş kəsmək fikrimi

Beynimdən silə biləcəyəmmi?
Doğrusunu Allah bilir.

8.12.2004

### *Tük*

Quşun tükü gözəldi,
başını vurdular,
tükünü yolub
balışa doldurdular,
həbs elədilər tükü.
İndi
tükün üstündə yük var –
baş yükü.
O tükün gözəlliyini
görən yox neçə ildi,
Gözəllik gizlədildi.
Vay halına balışüzünün,
Altında quş tükü,
Üstündə baş tükü.

9.12.2004

### *Mənə tez-tez zəng edən tanımadığım adama*

Ey-y, yenə də zəng edirsən?
Meylin var töhmət almağa?
Qulağımı dəng edirsən,
Başladın lə'nət almağa!

Başqa işin yoxdur bəyəm?
Zəng etməsən, elə bu dəm
Sənə xəl'ət verəcəyəm,

Gəlib çıx xəl’ət almağa.

Nə deyirsən? Nə var? Gedir?
Əyri işlər hamar gedir?
Cəhənnəmə qatar gedir?
Gedirəm bilet almağa,
Təki səni eşitməyim.

11.12.2004

## *Səs*

Aralıyıq bir-birimizdən,
Aramızdakı məsafə
ayırır gözü gözdən.
Amma, səsə nə var ki?
Amma, nə var ki sözə?
Əllərin mənə yetmir,
Səsimizsə
yetişib bir-birimizə
qulağımıza tökülür,
üzümüz gülür…
Olsaq da aralı,
olsaq da kənar,
Əllərimizdə
telefon dəstəyi var.
Sözün qısası,
Telefon – həzrəti Musanın əsası.
Sanki əsalı bir kəs
bizi birləşdirir,
səs
bizi birləşdirir.

… Aralıyıq bir-birimizdən.

12.12.2004

## *Soyqırım*

Qırdım
dilim altında gizlənib-qalan
yalanı.
Öldürdüm
oğrun-oğrun üzə çıxan
riyanı.
Məhv elədim
səhvən qəlbimdə yaşayan şəri,
Boğdum
beynimdə dolaşan cinləri…
Düşünürəm ki,
Özünü islah edən günahkar təki
Birbəbir
bütün günahlarımın
axırına yetdim
Və bu gün
soyqırım törətdim.
Dedim ki,
pis xislətimi
bircə-bircə
qoy qırım,
Bax, beləcə yaratdım
soyqırım.

13.12.2004

## *Bəla*

Qarabağ bəlası…
Qarabağ yası…

Və xristian-müsəlman qovğası…
Bu bəlanın,
bu yasın
          görünmür sonu.
Analarımız
igid oğul doğmağı yadırğayıblar,
daha doğmurlar Koroğlunu.

14.12.2004

### *Quyruq*

Quyruqlu pişik…
Quyruqlu it…
Quyruqlu qurd…
Quyruqlu tülkü…
Quyruqlu dələ…
Hə, yadıma düşdü,
biri də var hələ:
Quyruqlu ulduz.
Ulduzda da quyruq varmış…
Ulduzun da quyruğu olarmış…
Ey quyruqlu ulduz,
neynirsən quyruğunu?
Kəs at onu,
nəyinə lazımdır quyruq?
Quyruq
bit-birələrini qovmaq üçün
heyvanlara gərəkdir çar-naçar,
Sən heyvan deyilsən axı,
Səndə də bit-birə var?

Ey quyruqlu ulduz,
Bəzi insanlar

bəzi insanlar önündə
quyruq bulayırlar
yaltaqlıq eləsinlər deyə.
Məgər
yaltaqlıq gəlib çatdı göyə
ki, quyruq bulayasan?
Sən ki, deyilsən insan,
ey quyruqlu ulduz.
Kəs at quyruğunu,
neynirsən onu?
Bit-birən yoxsa,
yaltaqlığın yoxsa,
neynirsən quyruğunu?

Ey quyruqlu ulduz!...

15.12.2004

## *Örpək*

Səs-soraq
          yoxdu savaşdan.
Papağımızı ataq başdan.
Qərq olub göz yaşımıza,
örpək bağlayaq başımıza,
Amma
          Kişi Örpəyi!
Yasir Ərəfatın örpəyi kimi!
Və qışqıraq Otello tək:
«Yaylıq, hanı yaylıq?»
Örpək, hanı örpək?

16.12.2004

### *Haraya gedir?*

Yarı itirəndən qara gəzirəm,
Niyə meylim mənim qaraya gedir?
Nazlı bir afətə dönüb qüssə-qəm,
Saçını daraya-daraya gedir.

İşığa möhtacdır hərə, bu mə'lum,
Fitnənin işığı şərə – bu mə'lum,
Günəşin işığı Yerə – bu mə'lum
Gözümün işığı haraya gedir?

17.12.2004

### *Divar*

*Şərqşünas dostum Tofiq Cahangirə!*

Hələ ki, aparır məni
ömrümün qatarı.
Hələ ki, baxıram
sarı günəşə sarı.
Hələ ki, ayırır məni o dünyadan
bu dünyanın divarı…

Ya İlahi, hələ ki,
sənin önündə
hesabat verməmişəm,
hələ ki, yaşıl cənnəti,
qırmızı cəhənnəmi
görməmişəm,
hələ ki, behiştdəki
alma ağacının
meyvəsini
dərməmişəm,

hələ ki, qəlbimdə
bir divar diləyi
daşıyıram,
hələ ki, bu dünyada varam,
hələ ki, yaşayıram…

Necə yəni yaşayıram?
Məgər o dünyada yaşamırlar?
Məgər məni ayırmırmı o dünyadan
bir gözəgörünməz divar?
Əgər o dünya yoxdursa,
o divar nəyə gərəkdir?
O dünyaya köçməyəcəklərsə,
adamlar nəyə gərəkdir?

Əgər o dünya yoxdursa,
ölməyə tələsməyək,
bu dünyada ömr edək.

Amma,
Qur'an deyir ki var,
o dünya var,
o divar var.
Qur'andır, inanmaq gərəkdir,
İnamsızlıq,
inamsızlıq yuxusundan
oyanmaq gərəkdir.

İlahi, eşit səsimi,
var dərdim:
Neçə vaxtdır qurumur
gözlərimin nəmi.
Ya İlahi, heç olmasa, bir ləhzə

Cənnətlə cəhənnəm arasındakı
divarın üstündə oturmaq istərdim –
həm cənnəti görüm,
həm cəhənnəmi.
Sonra
çox saxlamayacaq məni o divar,
Allah-taala özü bilər
məni hara yumbaladar.
Cənnət…Cəhənnəm…Və divar…

25.12.2004

### ***Ruh***

*Dünya şöhrətli alim dostum akademik*
*Vasim Məmmədəliyevə!*

Ey ruhun nə olduğunu bilməyənlər,
«Sirri-xudadır» deyənlər,
Mənə elə gəlir ki, ruh quşdur,
darısqal bir mənzildə oturmuşdur,
onu qəfəsə salıblar,
Bədənim – ruhumun qəfəsi…
Günlərin bir günü
qulaqlarım eşidəcək
ruhani bir qanad səsi
Və o səs
qulağımın eşitdiyi
sonuncu səs olacaq,
Ondan sonra məndə
nə qəfəs,
nə nəfəs olacaq,
Ruh sevinəcək
Və yalnız özünün anladığı
bir dillə deyəcək:

«Tərk etdim bədən qəfəsini,
Bədənin sahibi
 bir neçə il əsir etdi məni,
İndi sərbəstəm…
Ah, nə xoşdur!..»

Mənə elə gəlir ki,
Ruh quşdur.

27.12.2004

### *Mənsur Həllacın sözləri*

*Ərəbşünas dostum alim şair Elxan Əzizliyə!*

Yuxumda bir sufi gördüm:
Məşhur sufi Mənsur Həllac.
Mənsur Həllac belə dedi:
«Ağac! Ağac!
Təbiətin nə yaxşı ki, var ağacı –
Bar ağacı,
Dar ağacı!..»
Mənsur Həllac belə dedi:
«Asılmasaydı
asılqansız qalardı bədənim.
Bar ağacı – meyvələrin, yarpaqların,
Dar ağacı - mənim».

Mənsur Həllac belə dedi:
«Bar yaraşığı bar ağacının,
Mənim başım dar ağacının.
Ey İnsan,
Ağaca hörmətlə yanaş,
izzətlə yanaş,

istəklə yanaş –
birində bar,
birində baş».

…Yuxumda bir sufi gördüm…

29.12.2004

### *Əbədi Tanrı*

*Ey Allaha «Təbiət» deyən*
*Valeh Tağı,*
*Bu şe'ri yaxşı oxu,*
*Bu şe'r qoy*
*Dərs olsun sənə,*
*Oxu dönə-dönə!*

Umud da gəldigedər,
Güman da gəldigedər.
Bulud da gəldigedər,
Duman da gəldigedər.

Gəldigedər çöl, çəmən,
Gəldigedər dərə, dağ.
Tanrım, təkcə özünsən
Gəldigedərdən uzaq.

Əbədisən, əbədi!
Laməkansan! Axı sən
Haradan gəlmisən ki.
Haraya da gedəsən?

30.12.2004

### *Yeni il qabağı düşüncəm*

Bu gün – 2004,
Sabah – 2005.
Kimdə
        sabaha ümid,
Kimdəsə
        təlaş artdı.
Bir gecənin içində
yaş artdı,
mən qocaldım,
nəvələrim gəncləşdi,
sabah – 2005-di.

31.12.2004

### *Gördüm*

Dünyanı gördüm, Allaha şükür,
Dünyadakı
çox yeri gördüm,
çox yanı gördüm, Allaha şükür.
Səni gördüm, Allaha şükür,
Ayağım altdakı torpağı,
Başım üstdəki günəşi,
dumanı, çəni gördüm, Allaha şükür.
Böyük olmasa da,
        kiçik-kiçik vəzifəni gördüm, Allaha şükür.
Təkcə
        qalıb Allah,
Onu da görərəm inşallah!
Yaxşı ki, dünyaya gəldim,
Arabir yıxıldım,
Arabir dikəldim,

bəhər dərdim, ağac əkdim,
Gəlməsəydim
        bunları görməyəcəkdim,
Dünyanı gördüm, Allaha şükür!.

3.01.2005

## ***Heç***

Ey yar,
yar sinəmi,
götür ürəyimi,
        ürəyim sənin olsun.
Ey ac,
heç olmasa bir günlüyə qalma ac,
apar olub-qalan çörəyimi,
                çörəyim sənin olsun.
Ey göl,
suyun azalıb,
az olsa da qəbul elə göz yaşımı,
                göz yaşım sənin olsun.
Ey dar,
ey dar ağacı,
as özündən başımı,
                başım sənin olsun.
Ey Vətən,
Sənə halal edirəm qanımı,
qanım sənin olsun.
Ey Əzrayıl,
çıxar bədənimdən ruhumu, öldür cismimi,
canım sənin olsun.

Mənə nə qaldı ki?
Heç nə qalmadı – nə çox, nə az…

Tanrı buyurur ki,
İnsan heçdən yaranıb.
Heçdən yaranana
heç nə qalmaz.

Mənə nə qaldı ki?

4.01.2005

### *Qoca*

Zorla sürüyürəm ayaqlarımı,
Başımın üstünü alıb qış.
Bilməmişəm indiyəcən
                    ayaqlarım nə ağırmış.
Zorla sürüyürəm ayaqlarımı,
ayaqlarım daha
                    məni aparmaq istəmir.
Sanki pəncələrim
özlərini
yerdən qoparmaq istəmir.
Yer
çəkir.
Yer çəkir məni özünə,
Dartır məni yerin cazibəsi,
Birinci aləm deyəsən
                    bezib məndən,
ikinci aləmdən eşidirəm
                    «gəl-gəl» səsi.
Səsin hökmünə əməl edəcəyəm,
istəsəm də, istəməsəm də,
o səs gələn tərəfə gedəcəyəm.
Yer
çəkir,

tələsir məni yemək üçün…
zorla sürüyürəm ayaqlarımı.
Ayaqlarım,
necə deyərlər
daha sino getmir yerimək üçün,
məndən asılmaq istəmir,
yerə girmək istəyir
                    çürümək üçün.

Zorla sürüyürəm ayaqlarımı…

6.01.2005

### ***Hiss***

*Şair Həyat Şəmiyə*

Günlərim axır su tək,
Su ömrü yaşayıram.
Qəlbimdə min bir dilək
Bu ömrü yaşayıram.

Əcəl hara yönəlib?
O əl hara yönəlib?
Ey ölüyuyan, gəlib
Yu ömrü, yaşayıram.

Bu şe'r – qəm qoxuyan!..
Oxuduqca oxu, yan,
Son nəğməni oxuyan
Qu ömrü yaşayıram.

8.01.2005

## *Boyaqçı*

Gələcəksən yanıma,
Gəl ki, qəlbimdə məhəbbət yerinə
Nə qədər qüssə-kədər bəsləyirəm.
Gələcəksən yanıma,
Səni mən şamü səhər istəyirəm.
Gələcəksək yanıma, ey dilbər,
Verəcəksən əlini əllərimə,
Çəkəcəksən sığalı tellərimə,
Deyəcəksən ki, saçından qaradır qar rəngi,
Deyəcəksən boyayıb qarə günü
Sənə ağ gün verrəm,
Elə ağ gün ki, qaraldar rəngi,
Elə ağ gün ki, verər qarəyə ağ ahəngi,
Elə ağ gün ki, sənin günlərini ağ eləyər,
Bəxtinin rəngini parlaq eləyər.
Gələcəksək yanıma,
Deyəcəksən sənə ağ gün verrəm,
Elə ağ gün ki, südün rəngini heyrətdə qoyar,
Elə ağ gün ki, xəcalətdə qoyar ağ çiçəyin
rəngini həm,

Gələcəksən yanıma,
Deyəcəksən «sevirəm»,
Deyəcəksən ki, ağarsın bəxtin.
Deyəcəksən qarala bilməyəcək
Günü sən xoşbəxtin.
Gələcəksən yanıma,
Dolacaq mənzilimin hər yanı ağ ahənglə,
Ey boyaqçı,
gələcəksən yanıma
ağ rənglə.

12.01.2005

***Yuxu***

*«Sirlər xəzinəsi»nin mütərcimi Mir Cəlal Zəkiyə*

Son zamanlar yuxular görmədəyəm tez-tez mən,
Nə xəbərdir görəsən?
Nə xəbərdir, nə ətərdir görəsən?
Nə itibdir, nə batıbdır, nə qalıbdır görəsən?
Nə olubdur görəsən?
Verəcəkdir görəsən baş nə qəziyyə, nə bəla?
Salacaqdır məni tale nə hala?
Nə vəziyyət olacaqdır görəsən dövrəmdə?
Bu mürəkkəb, bu təzad içrə olan aləmdə
Gələcəkdir başıma hansı fəlakət görəsən?
İstərəm agah olum mən
yozumundan yuxumun!
Yuxu tə'birçiləri yoxdu axı,
Yuxular çoxdu axı,
Gözlərimdən yuxular göz yaşıtək axdı axı,
Yuxu tə'birçiləri yoxdu axı.
Olacaq onları axtarmağım, əlbət, hədəri,
Yox olublar yuxu tə'birçiləri.
Bu mürəkkəb dövr içrə peşə sahibləri çox,
Yuxu tə'birçisi yox.
İxtisasın sayı saysız, peşənin hədsizdir,
Yer üzündə çoxalıbdır alim,
Çünki elm aləmi sərhədsizdir,
Çünki elm öylə tərəqqi eləyibdir Yerdə
Tərk edib yerləri peyklər dolaşır göylərdə.
Neçə insan oturub peykə göyə getmişdir.
Guya Yer Kürrəsi tədqiq olunubdur və bu iş

bitmişdir…
Guya biz Yerdəki mübhəmliyi aşkar elədik
Və «uçaq ərşə» dedik…
Göyə uçmaq asan olmuşsa əgər,
Bilmirik amma nədir gördüyümüz rö'yalər…

Görürəm mən arabir rəngli yuxu,
Rəngi qan rəngi olan səsli və ahəngli yuxu,
Məni rahətsiz edir bu –
bu yuxu, rəngli yuxu,
bu yuxu səsli yuxu,
nədi bu,
gizli hələ mə'nası
«Gəlir əvvəlcə yuxu, sonra isə qovğası»
deyən insanlar var,
belədirmi bu görən?
Yuxular görmədəyəm tez-tez mən.
Asan etdiksə də bir çox çətini,
bilmirik biz yuxunun illətini,
yuxu tə'birçisi yox.
Açılarmı yuxunun sirri görən?..

…Son zamanlar yuxular görmədəyəm tez-tez mən…
13.01.2005

## *Etinasızlıq*

Mən dünyaya qəm vermədim,
Dünya mənə qəm qaytardı.
«Göz yaşımı qurut dedim»,
Gözlərimə nəm qaytardı.

Azdan-çoxdan əməyim var…

Sözü açıq deməyim var:
Çox insandan gileyim var,
Həzz aldı, ələm qaytardı.

Məni eşitməyir kimsə,
Nə də «eşit» deyir kimsə…
Amma, dağa nə dedimsə
Dağ onu o dəm qaytardı.

14.01.2005

## *Kəpək*

Vallah-billah sevmədim səni,
Sənin sevgin mənə gərək olmadı.
Səni sevmədiyimə
səndə şəkk oldu,
məndə şəkk olmadı.
Bilirəm,
sənin məndən gileyin çoxdu.
İstədim keçəsən ələyimdən,
Keçmədin,
          kəpəyin çoxdu.

Vallah-billah sevmədim səni.

15.01.2005

## *Ona*

Eşqinlə toxam,
aca bilmərəm.
Qollarım qırılar –
qeyri bir yarı quca bilmərəm.
Mən şahinəm,

şahin quşuyam,
uça bilmərəm –
qırma qanadımı,
«Şahin» yox, «şahin quşu»
çağır adımı.
Eşqinlə toxam…

16.01.2005

### *Tozlu güzgü*

Nə çağırım, nə çağır.
Sənin sevgi güzgünün
qurğuşun kimi ağır
toz basıbdır üstünü,
Tozunu al
bacarsan.

Əgər yanıma gəlsən,
Yanında olsam belə
Sən mənimlə deyilsən,
tənhasan bütün günü,
Yanımda qal
bacarsan.

And içirəm şərəfə
Günün ağarmayacaq,
Yönəlmə mən tərəfə,
Mən tərəfə yönəlmə,
Daha yanıma gəlmə.

Aralı dayanıb-dur,
Ağarmayacaq günün,
Məni yadından çıxar.

Üstünə toz qonubdur
Sənin sevgi güzgünün,
Sanma ki, parıldayar.

Şahinliyim varsa da,
Uça bilmirəm daha,
qanadı qırıq quşam,
Mən ki, sənin yanına
gəlməyi unutmuşam,
Daha yanıma gəlmə,
Gəlmə!

18.01.2005

## *Qara qan*

Ağ səhər istəyirəm,
ağappaq işıq seli,
ağartsın cahanımı,
ağartsın dumanımı.
Bir gecənin içində
gecə kimi qaraltdın
qanımı.

Ağ səhər istəyirəm,
Get qara gecə kimi.
Gecə yenə gələcək,
Amma, sən dönmə geri
gecə tək.
Gecə kimi qaraltdın
qanımı.

19.01.2005

### *Buluda*

Ey bulud,
Səndən xoşum gəlir,
Yerə yağış verirsən.

Səndən xoşum gəlmir,
çəkil get,
ulduzları gözümdən gizlədirsən.

Amma, ey arakəsən bulud,
səndə
          günah yoxdur,
Mənim qüsurumdur bu da –
Səni də istəyirəm,
                    yağışı da,
                              ulduzu da.

Ey bulud!..

20.01.2005

### *Mən səni özümdə öldürəcəyəm*

Sənin bu halətin sinəmə dağdır,
Bil ki, nəvazişin tükəndiyi dəm
Cahanda bir qatil çoxalacaqdır,
Mən səni özümdə öldürəcəyəm.

Mən səni qəlbimdə basdıracağam
Orda yer olmasın deyə sevincə.
Mən daha zirvəsi yox olan dağam,
Qəmi üstün tutdun niyə sevincə?

Məgər görməyirsən hövsələ yoxdur?
Məgər görməyirsən əsəb tükənib?
Şübhə qocalığa bir gilə yoxdur,
Daha qocalığa qəzəb tükənib..

Güman cavanlığın gümanı deyil,
Hədəfə dəyməyir, daşımız ötür.
Daha naz-qəmzənin zamanı deyil,
Məgər görməyirsən yaşımız ötür?!

Daha uça bilmir xəyal yuxarı,
Daha ömrümüzdə eniş başlayır.
Mənim saçlarımda Şahdağın qarı,
Sənin saçlarında həna qışlayır.

Solğunluq görərsən gözümə baxsan,
İncimə, sən isə solğun çiçəksən.
Sən məni nə qədər dağlayacaqsan?
Sən məni nə qədər incidəcəksən?

Tükənir şairin daha əlacı,
Qəlbimdən niskili silə bilmədin.
Quruyur sür'ətlə qədir ağacı,
Sən mənim qədrimi bilə bilmədin.

Sənin bu halətin sinəmə dağdır,
Bil ki, nəvazişin tükəndiyi dəm
Cahanda bir qatil çoxalacaqdır,
Mən səni özümdə öldürəcəyəm.

21.01.2005

***Allah ola bilsəydim…***

*Uzun illər rüşvət və korrupsiya çirkabına qərq olan Azərbaycanda bu ildən rəsmən rüşvətxorluq və korrupsiyaya qarşı mübarizə elan olundu…*

Mə’mur nə üçün doymur?
Doymur nə üçün mə’mur?

Yer sonlu, səma sonsuz,
Göylərdə fəza sonsuz,
Saysız nə qədər ulduz…

Allah ola bilsəydim,
Vallah, eləyib yardım
Ulduzları paylardım
mə’murlara bir-bir mən,
bəlkə tükənə iştah…
Qəlbimdə mənim, Allah
Vardır o qədər söz ki…
Mə’mur elə acgöz ki…
İştahına yoxdur hədd,
Həddində hanı sərhəd?
Mə’mur gözü hər yerdə…
Yer qalmadı ki, Yerdə…

Allah ola bilsəydim,
Vallah, eləyib yardım
Ulduzları paylardım –
Göylərdə fəza sonsuz,
Hər ulduza bir mə’mur,
Hər mə’mura bir ulduz.

Olmazsa əgər qane,
Eylərsə təlaş mə'mur
Baş Mə'mura beş ulduz,
Beş ulduza Baş Mə'mur.

Allah ola bilsəydim…

22.01.2005

### *«Təzkireyi-Şahin»*

*Sağlıbında kimə qiymət verilibdir, Şahin?*
*Verilər qiymətimiz bir neçə ildən sonra.*
*Divan, 1996, səh.25*

«Təzkireyi-Şahin»!
Təzkirə bağında
Təzkirə gülündən bir əsər qalmamış ikən
təzkirəçilik şövqünə düşdüm,
Günlərlə xəyalən
Seyyid ilə, Nəvvabla[1] görüşdüm,
yazdım bir əsər mən,
yazdım onu şövq ilə, ürəkdən.
Yazdım və dedim Seyyidə rəhmət,
təzkirəçi idi;
Nəvvabı edib yad elədim əzminə heyrət,
təzkirəçi idi.
Heyrət elədim ki, nə böyük xidmət ediblər,
Şairlərə xidmət eləməklə, Yaradandan
Cənnətdə məqam istəməyə fürsət ediblər.
Yarəb, o iki şəxsə inayət ki, rəvadır

---

[1] «Təzkirə» və «Təzkireyi-Nəvvab» kitablarının müəllifləri Seyid Əzim Şirvani və Mir Möhsün Nəvvab.

Əhsən sənə, etdin onu, onlar üləmadır,
onlar ürəfadır,
hər dürlü inayət o iki şəxsə rəvadır.
Onlar nə gözəl xidmətə iqdam leəyiblər!
Ən'am eləyiblər
əlbət, gələcək nəslə kitablar.
Mə'lum ki, kitab çox,
Minlərlə kitab var,
minlərlə kitab var isə, təzkirəsə yoxdu,
Əlbəttə, bu işdə o iki bilgili şəxsin
Xidmətləri çoxdu,
Zəhmətləri çoxdu…

Yarəb, neçə illər ötüşübdür o zamandan…
Gəlmirdi soraq bir təzə təzkirə yazandan,
Mən cəhd elədim öylə işə tazə əsrdə,
Allah kömək oldu.
Mən cəhd elədim ki, təzə təzkirə kitabı
İnşa ola bir də,
Allah kömək oldu.
Amma, nə göründü?
Şam yandı və pərvanə göründü.
Təzkirəçilik səmtinə doğru qədəm atdım,
Şamtək yanıban bir təzə təzkirə yaratdım.
Eykaş, əlim yazmaya idi onu, əfsus!
Qaldım nə qədər töhmətə məruz.
Haqq bir işə qarşı
gördüm nə qədər haqsız olan var,
Allah özü bilsin!
Var razı olanlar ilə narazı olanlar,
Allah özü bilsin!
Amma, deyirəm mən,
Ey Həqq, əgər razı olarsansa işimdən,

billəm işim haqdır,
Gər öylə olarsa
narazılığımdan bir əsər qalmayacaqdır.

«Təzkireyi-Şahin»!
Təzkirə bağında
Təzkirə gülündən bir əsər qalmamış ikən
təzkirəçilik şövqünə düşdüm,
yazdım bir əsər mən,
yazdım onu şövq ilə, ürəkdən…

23.01.2005

### ***Xəyal***

Necə gəldin otağıma?
Yenə sənsiz qalıb
yetimləşərək
mən ağlayırdım.
Sənin də
ağlamaq
növbətin çatdı,
Sən də ağladın,
Sənin göz yaşın
Mənim göz yaşımı islatdı.
Necə gəldin otağıma?
Qapı da bağlıydı,
pəncərələr də.
Necə girdin yatağıma?
Mənimlə birgə
yoxsa sənin də
ağlamaq növbətin çatdı?
Sənin göz yaşın
Mənim göz yaşımı

islatdı.
Necə gəldin otağıma?
Üzün üzümə toxundu,
Gözün gözümə dəydi.
Sanki göz çüxurlarımız
piyaləydi,
Sən – mənim göz yaşımı içdin,
mən – sənin.
Mənimki – duzluydu,
səninki – şirin.
Necə gəldin otağıma?
Necə şərik oldun
məndəki dərdə?
Qapı da bağlıydı,
pəncərələr də.
Mənim ağlamağım könlünə yatdı,
Sənin də ağlamaq növbətin çatdı,
Sənin göz yaşın
Mənim göz yaşımı
islatdı.

Necə gəldin otağıma?

24.01.2005

### *Yaşıl ümidimin gülləri qara*

Üz üzə durmuşuq yaşıl ümid – mən,
Yaşıl ümidimin gülləri qara.
Ağ gül cücərmədi yaşıl ümiddən,
Yaşıl ümidimin gülləri qara.

Ümiddə qara gül qara sınaqmı?
Gələcək həyatım qaramı, ağmı?

Yarəb, qara güllər ağaracaqmı?
Yaşıl ümidimin gülləri qara.

Rənglər görərdim ki təmiz, tər-təzə…
Ağ rəngə deyərdim: Ömrümü bəzə!..
Gülün qarası da göründü gözə,
Yaşıl ümidimin gülləri qara.

Qara taleyimə heyranam indi,
Gərək həşrə kimi mən yanam indi,
Qara gül becərən bağbanam indi,
Yaşıl ümidimin gülləri qara.

Mən ki görməmişdim qara gül hələ,
Qaralıq bilmirdi bu könül hələ,
Şahin, silah götür, gülü güllələ,
Yaşıl ümidimin gülləri qara.

25.01.2005

## *Təklif*

Bakıda
şanıya,
Hövsanda
soğana,
Şəkidə
qoza,
Göyçayda
nara,
Qubada
almaya
heykəllər qoyulsun.
Qoy heykəllərin ömrü

Həmin meyvələr qədər
əbədi olsun.

Heykəltaraşlar
meyvə heykəlləri yonmağa
uzatsınlar əllərini,
Çünki, adamlar
etdikləri bəd əməllər müqabilində
əvvəl-axır uçururlar
adam heykəllərini.

Heykəltaraşlar
meyvə heykəlləri yonmağa
uzatsınlar əllərini.

28.01.2005

## *Ona*

Dəy mənim xətrimə yanından gedim,
Səni tərk edim,
Səndən uzaq olum, yaxının sanma.

Əlimi uzatsam əgər əlinə,
Dəyər əlinə.
Sən məndən nə qədər uzaqsan amma.

1.02.2005

## *Qırğı*

Ümidim yox sabaha.
Şahini tənha qoyub
Dünyaya göz yumdu yar.
Şahin deyiləm daha,

Qırğıya dönmüşəm mən,
Qırğılar tək uçurlar.

2.02.2005

### *Ona*

Yaş – 65-di,
hal qalmayıb məndə.
Əlini çək,
ayağını yığ,
otur yerində.
Sən
niyə əl çəkmirsən məndən?
Deyirsən ki,
laqeyd-laqeyd
baxa bilmirsən gendən,
Deyirsən ki,
qocalığım cavanlığımı
danmayıb hələ,
Deyirsən ki,
cavanlıq qapım
qapanmayıb hələ,
Xeyr, qocalmışam,
Cavanlıq keçdi,
Yaş – 65-di.
Daha ömür pəncərəmi
qocalığa açıq san,
Sənsə, yapışdığından
qopa bilməyən
həmişəyaşıl sarmaşıqsan.
Hal qalmayıbdı məndə,
Cavanlıq keçdi,
Əlini çək, ayağını yığ,

otur yerində.
Yaş – 65-di!

3.02.2005

### *Uçan adam*

Niyyətim təzədir, səfərim yeni,
Vida eyləmədən yer həyatına
Xəyal təyyarəsi aparır məni,
Uçuram göylərin yeddi qatına.

Mən yerdə o qədər səfa çəkmişəm,
Mən yerdə o qədər yer görmüşəm ki…
Göylərə uçmasam, qorxuram öləm
Ürəyimdə qala ürəyimdəki.

Gerçəyin üstündə pərdə görmüşəm,
Pərdənin altında dərd də, kədər də.
Yerdə rəzalət də, şər də görmüşəm,
Amma şərafət də görmüşəm yerdə.

Bə'zən yada salıb yanıq Kərəmi
Yanmışam, sinəmi dağlamışam mən.
Bə'zən bu yaşımda uşaqlar kimi
Bir küncə çəkilib ağlamışam mən.

Bə'zən həzzim acı, ovqatım yaman,
Bə'zən işim-peşəm darıxmaq olub.
Bə'zən üzərimə çökməyib duman,
Günüm saqqalımdan daha ağ olub.

Bə'zən dad etmişəm sözün əlindən,
Açılıb güllə tək qəlbimə dəyib.

Bə’zən çox adamı sevməmişəm mən,
Bə’zən çox adam da məni sevməyib.

Bə’zən asan işim qalıb çətində,
Bə’zən əziyyətim olubdur hədər.
Bə’zən Əfqanıstan məmləkətində
Mənə gül yerinə güllə veriblər.

Enişə-yoxuşa çox düşmüşəm mən,
Önümdə fərağın dağı da olub.
Bə’zən həyatımda hicranın gülən,
Vüsalın ağlayan çağı da olub.

Diləyib yoluma ömür nəsimi,
Eləyib təvəkkül ulu Allaha,
Şikara şığıyan bir şahin kimi
Göylərin seyrinə çıxıram daha.

Niyyətim təzədir, səfərim yeni,
Vida eyləmədən yer həyatına
Xəyal təyyarəsi aparır məni,
Uçuram göylərin yeddi qatına.

16.02.2005

### *Mən qocanın arzusu*

Cavan olmaq istəməzdim –
dərdi böyük, kədəri çox,
şərbəti az, zəhəri çox
ruzigarın.

Cavan olmaq istəməzdim –
əziyyəti həzzindən çox,

xəyanəti sədaqətdən,
yalan sözü həqiqətdən
oğlanların.

Cavan olmaq istəməzdim –
cavanlıqda göz ac olur,
birisinə baxa-baxa
neçəsinə möhtac olur
qadınların.

Cavan olmaq istəməzdim –
Ev qayğısı, iş qayğısı,
pillə-pillə ucalmağın
ehtirası.

Cavan olmaq istəməzdim –
Mən cavanlıq eləmişəm o qədər ki,
qüssə içib, qəm yemişəm o qədər ki
cavanlıqda.

Cavan olmaq istəməzdim!
Lap yaxşı ki, qocalmışam!
Cavanlara baxa-baxa
qocalıqdan güc almışam.
Mən yaxşı ki, qocalmışam.
Vallah, baba,
Billah, baba,
cavan olmaq istəmirəm
qocalığın ləzzətini
dada-dada, bilə-bilə…
Amma, məni o dünyada
cavan elə,
Allah baba.

17.02.2005.

### *Pişiyin əlinə girəvə düşüb*

Bir pişiyin əlindən
zülüm çəkirəm, zülüm.
5 mərtəbəli binanın
4-cü mərtəbəsindədir mənzilim.
Qapım önündə
balaca bir kilim var,
Qonşu mənzildəki pişiyin yanına
gələn bir pişik
mənim kilimimin üstündə yatar,
gözləyər ki,
açılsın qonşu qapı,
bəlkə, gözlədiyi sevgilisi
oradan çıxa.
Gözləyir, gözləyir
qonşu qapıya baxa-baxa.
Yatır mənim kilimimin üstündə,
tükünü tökür oraya.

Neyləyim?
Sənə nə deyim?
Eşqbazlığa gəlmisən, ey aşiq pişik,
sənə «rədd ol» deməyə gəlmir dilim.
Qonşu qapının o tərəfində sevgilin,
Mənim qapımın bu tərəfində kilim
Və sənin əlinə girəvə düşüb
Və üzümün yumşaqlığından
istifadə edirsən sən,
Pişik – qonşudan,
Kilim – məndən.

Ay pişik,
axı mən təkəm,
evimi silib-süpürə bilmirəm.
işimin çoxluğundan
başqa iş görə bilmirəm,
bir yandan da kilim
və üstündə sənin tükün…
Nə bilim…
Sən nə bilirsən mən çəkəni,
Yəqin ki, düşünürsən
mən nə bilirəm sən çəkəni.
Qova bilmirəm səni,
yazığım gəlir sənə,
axı, sevgilini gözləyirsən,
o da ki,
qarşı qapıdan çıxa, ya çıxmaya…
Mən nə haydayam,
sən nə hayda,
sən bu tayda,
sevgilin o tayda.
Mən nə gündəyəm,
sən nə gündə.
Sevgilin evdə yatır,
sən mənim kilimimin üstündə.

Ay pişik,
axı mən təkəm,
evimi silib-süpürə bilmirəm,
işimin çoxluğundan
başqa iş görə bilmirəm.
Bir yandan da kilim
və üstündə sənin tükün…
Nə bilim…

Bir pişiyin əlindən
zülüm çəkirəm, zülüm.

19.02.2005

### *Qələmə*

Yazmadın
şe'rimi
sən dünən,
Sən dünən
dəymədin
varağa,
E'tina etmədin
kəlməyə,
nöqtəyə,
vergülə.
Kim dedi mürgülə?
Oyaq saxlayardım
səni mən,
Kim dedi «yat» dünən?
Axı vərdiş idin
cızmağa-pozmağa
günbəgün hissimi, duyğumu,
günbəgün dərdimi-sərimi,
E'tibarın bumu?
Axı nə deyirsən?
Deyirsən təbimi öldürüm?
Deyirsən varağı mən cırım?
Məni sən
sındırdın,
Qələmim,
qoy səni sındırım,

Yazmadın
 şe’rimi
  sən dünən.

21.02.2005

### *Gözəl bir nağıl, gerçəksizlik və ağılsızlıq barədə qısa bir şe’r*

Sevgidən də gözəl
   nağıl yox imiş,
Mənsə
  gerçək dolu
   çağ axtarıram.
Məndə
  zərrə qədər
   ağıl yox imiş,
Qaranlıq gecədə
   ağ axtarıram.

22.02.2005

### *Çətin məsələ*

Sənin ürəyinə
  girə bilmirəm,
Asan yolu yox
  bu çətinliyin.
Bu yol
  önümdə
   aşılmaz dağ kimidir,
bu yol məndən ötrü
   imtahan,
   səndən ötrü
    sınaq kimidir.

Sənin ürəyinə
girə bilmirəm.
Ürəyinə girib,
orda özümü
görə bilmirəm.
«Bacarıqsız» deyirəm özümə.
Dilə-dişə salıbsan:
Ən çətin məsələni həll etmək kimi
Çətin işə salıbsan
Şahin Faziloğlunu.
Ürəyimdən çıxara bilmirəm səni,
çünki
elə mən özüm
istəmirəm bunu!

5.03.2005
Lənkəran

### *Neytral mövqe*

Bacara
bilmədim
fələklə.
Bacaran
olubmu
görəsən?
Qocaltdı
məni də.
Fələyə
nə dostam,
nə düşmən
Mən!

Bacara

bilmədim
fələklə,
Bu fələk
kələkbaz
fələkdir.
İşim yox
kələklə.
Bu fələk
hamıyla
beləmi görəsən?
Fələyə
nə dostam,
nə düşmən
Mən!

Bacara
bilmədim
fələklə.
Bu fələk
büsbütün
müəmma.
Mənə
mə'lum oldu
bu amma:
Fələyə
nə dostam,
nə düşmən
Mən!

…Bacara
bilmədim
fələklə!..

6.03.2005

Lənkəran-Bakı yolu

### *Mən*

Göyün ələyindən qar yağıb saça,
Başıma daş düşüb Göy zənbilindən.
Həyatda uğurum çox olubsa da,
Deyəsən taledən yarımadım mən.

Kədərim oyaqdır, əzabım diri,
Fələyin tonqalı qəlbimdə yanıb.
Bir gözüm gülübsə, ağlayıb biri,
Bir ayaq gedibsə, biri dayanıb.

Narahat yaşamaq bəxtimə düşüb,
Rahatlıq bilmədim mən hələm-hələm.
Əllərim gah yazıb, gah da döyüşüb,
Birində daş olub, birində qələm.

Yamanlıq kamanı tuşlayıb məni,
Kamandan çıxan ox hədəfə dəyib.
Mən bəyənmədiyim xoşlayıb məni,
Mənim sevdiyimsə məni sevməyib.

Həssas kəs, bəlkə də, mənim kimi yox,
Belə şəxs nə zaman bəxtiyar olub?
Dostumu saymışam, düşmənimi yox,
Bir qulaq eşidib, biri kar olub.

Cahana gəlmişəm əzabkeş kimi,
Kədərim dünyanın kədərinə tən.
Özümmü seçmişəm öz taleyimi?
Yox! Onu eləyib Tanrı müəyyən.

Həyat çox narahat bir həyat oldu,
Yenə gün keçəcək, gecə olacaq.
Bu dünya işinə gözüm mat oldu,
O biri dünyada necə olacaq?

Göyün ələyindən qar yağıb saça,
Başıma daş düşüb Göy zənbilindən.
Həyatda uğurum çox olubsa da,
Deyəsən taledən yarımadım mən.

7.03.2005

## *Çətin adam*

Mən
 çətin adamam, çətin.
Olacaqmı hövsələn,
çatacaqmı taqətin
məni yaxşı öyrənməyə,
yaxşı tanımağa?
Müstəqimdir getdiyim yol,
əyilmirəm sola, sağa,
edirəm öz bildiyimi.
Sən
 tərs adam görməmisən
 mənim kimi.
Mənim kimi cod insanla
yola getmək deyil asan,
gərək məni
neçə günlər,
neçə aylar,
neçə illər
yaxşı-yaxşı yoxlayasan,

olacaqmı hövsələn,
çatacaqmı taqətin?
Mən
çətin adamam, çətin.
Canımda ləzgi qanı
buduq qanıyla birgə.
Tərsəm,
          tərsliyim tutur
                    güman ki, bu səbəbdən,
Yaxşıca tanı məni,
tanı bu Şahini sən,
Tanı Şahin Fazili:
Mənim bürcüm – Qoç bürcü,
ilim –Əjdəha ili.
Bəzən olur qoç kimi
gəlim kəllə-kəlləyə.
Adım quş adısa da,
çağır «əjdəha» deyə.
Bəlkə soruş sən məni
falçıdan, görücüdən…
Bir Firudin Qurbansoy
adlı münəccim də var,
əgər bilsə o bilər
nə təhər adamam mən,
məscidə də gedirəm,
meyxanəyə də hərdən.

Şahini öyrənməyə
olacaqmı hövsələn,
çatacaqmı taqətin?
Mən
          çətin adamam, çətin.

9.03.2005

## *Qaranlıqda çıraqsız*

Ey Şahini qaranlıqda itirən,
çırağın varmı ki, onu tapasan?
Yoxdur,
        çırağın yoxdur,
İndi
        acığından alış, yan,
faydası nə?
Rəhmin gəlmədi itirdiyinə.
Tapa bilməyəcəksən,
deyəcəksən mənə müraciətlə
                «sorağın yoxdur»,
Amma,
        tapa bilməyəcəksən məni,
Çünki,
        qaranlıq var,
        çırağın yoxdur.

…Ey Şahini qaranlıqda itirən!..

15.03.2005

## *Nostalgiya*

Yollanıram o dünyaya,
Orda
başıma vurmaq üçün
daşımı götürüb qaçıram.
Bu dünyada
pulum yox götürüm,
malım yox götürüm,
başımı götürüb qaçıram.

…Yollanıram o dünyaya…

16.03.2005

### *Yerə yerləşmirəm*

*Nəsimiyanə bir şe'r*

Məndə
        kəhkəşan boyda hüzn, qəm…
Yerə yerləşmirəm.
Ürəyim Şahdağ boyda,
Sinəm üfüq tək.
Ovcumu açsam,
oraya Yer yerləşəcək.
Odur ki,
        sığmıram Yerə, Göyə.
Məni yanıa çağır, Allahım
        «yanıma gəl deyə».
Axı mən yerləşmirəm
        bu mühitə gerçək,
Ürəyim Şahdağ boyda,
Sinəm üfüq tək.

…Məndə
 kəhkəşan boyda hüzn, qəm…

17.03.2005

### *Təzə nağıl*

Qara olmayacaq daha mənə gün,
Nağıl da yaranıb, nağılçı da var.
Təşə eşq nağılı yazdığım üçün
Adımı «nağılçı» çağıracaqlar.

Mənim nağılımda «Biri vardı…» yox,
Mənim nağılımda «Biri var…» gəlir.
Şairi məzəmmət eləməyin çox,
Yenə göz önünə o dildar gəlir.

Təklif məndən oldu, ondan razılıq,
Azaldı qəlbimin qübarı necə.
Bu qəfil görüşə mən, o, razıyıq,
Olacaq Allahın qərarı necə?

Çoxmu eləyəcək davam bu sevgi?
Əlləri qapımı çoxmu açacaq?
Qalacaqmı canda müdam bu sevgi?
Çəkəcəkmi yenə fəraq mənə dağ?

Tablaya bilmirdim düşdüyüm günə,
Doğuldu təzə gün qəlbimdə mənim.
Elə ilk görüşdə onun üzünə
Qapım da açıldı, qəlbim də mənim.

Sanki, inanmırdım daha eşqə mən,
Təmayül var idi, ağıl yox idi.
Başlandı təzə bir nağıl sevgidən,
Çoxdandı təzə bir nağıl yox idi.

Bu, parlaq bir Gündü bəxtimə doğdu,
Bu nağıl – yuxuydu, bu yuxu nağıl.
Daha məndən qeyri nağılçı yoxdu!
Haçan bitəcəkdir görən bu nağıl?

Bu gün xoşhal hanı bu aşiq kimi?
Nağılçı elədi bu nağıl onu.

Görəsən bədbinlik gəlməyəcəkmi?
Nikbin bitəcəkmi nağılın sonu?

Eləyib «Əlvida», Şahin, fəğana
Edirəm bu gündən qara günü ağ.
Bu vüsal gələndən gəlmişəm cana,
Hicran gələn zaman canım çıxacaq.

18.03.2005

### *Sözlü qoca*

Sözlü olur qocalar
Bu Şahin Fazil kimi.
Söz – yaradır şe’rimi.
Sözlü olur qocalar –
bəzən gündə bir beytim,
bəzən beş qəzəlim var.
Sözlü olur qocalar,
söz gəlir söz üstünə,
yaş gəlir yaş üstünə,
hər şe’rimi daş kimi
yığıram daş üstünə.
Şe’r təki şe’r ola,
Nə irisi, nə xırda?
Daş-daş hörülən şe’rim
«Divan» olur axırda.

20.03.2005.

### *Novruzun birinci günü, ikinci görüş, yaxud ağ rəng fırçası*

Sən

bu gün gələcəksən.
Bu gün
novruzun birinci günü.
«Ağ rəng fırçası» ilə
ağardacaqsan yenə
qaragün bir aşiqin
                    gününü.
Bu gün
novruzun birinci günü.
Bu gün
səninlə ikinci görüş –
21 mart, 2005.
Göy üzündən
                    buludu qovacaqsan,
                    evimdən sükutu.
Köhnə şe’rlərimi oxuyacağam sənə
                    təzə ahənglə.
Rənglə!
Rənglə qara günümü
          ağ rənglə!
Sonra
«Ağ rəng fırçası»nı əlindən at,
                              əlimi tut,
Sonra sükut…
Sonra deyəcəyəm sənə:
«Nə yaxşı ki,
günümü ağartdın
və «rəng fırçası»nı
əlindən atdın,
əlimi tutdun,
axı fırçalı əl
          tuta bilməzdi əli».
Sonra,

Sonrasa
sən divanə, mən dəli –
Sən Leyli, mən Məcnun,
Sonra
Məhəmməd Füzuli dili ilə
deyəcəyəm sənə:
«Əhvalımı eylədin digərgun».
Sonra
eşidəcəksən Şahin Fazilin
sevinclə deyəcəyi
öz sözünü:
«Bu gün
novruzun birinci günü.
Bu gün
səninlə ikinci görüş –
21 mart, 2005».
Sonra
üçüncü görüş intizarıyla
gedəcəksən,
Üç-dörd günlüyə
məni tərk edəcəksən,
Qışqıracağam dalınca:
«Yenə ağ gün oldu bu gün,
Get,
gəlmək üçün,
Get,
qayıdıb
heç olmasa bir günlük
son qoymağa sükutuma,
Amma,
ağ rəng fırçasını
gətirməyi unutma!».

21.03.2005

### *O gün şe'r yaza bilmədim sənə*

Bayram axşamıydı iki gün əvvəl,
O gün şe'r yaza bilmədim sənə.
Bağışla, əfv elə bu qocanı gəl,
O gün şe'r yaza bilmədim sənə.

Əzizim, önündə xəciləm bu gün,
Gözümü bürüyüb yenə nəm bu gün,
Neçin öldürməyir məni qəm bu gün,
O gün şe'r yaza bilmədim sənə.

Yetişir bu ilin yazı, yazmadım,
Qırıldı təbimin sazı, yazmadım,
Qara qələmimlə yazı yazmadım,
O gün şe'r yaza bilmədim sənə.

«Səhvim var» deyərsə dilim, yanılmaz,
O günün günahı bağışlanılmaz,
Hərçənd məhəbbətim sənə danılmaz,
O gün şe'r yaza bilmədim sənə.

Hərə öz səhvini bilsə, yaxşıdır,
Onu göz yaşıyla silsə, yaxşıdır,
Şahin elə bu gün ölsə yaxşıdır,
O gün şe'r yaza bilmədim sənə.

22.03.2005

### *Don və od*

Donsuzluğudursa
mələyin donu,

Görmək istəyirəm
səni o donda.
Od var baxışında,
çoxalt odunu,
Yanmaq niyyətim var
sənin odunda.

25.03.2005

### *Donuram*

Apardın məzara əlimdən yarı,
İlahi,
Sinəmdə dağım var, rəhm elə barı,
İlahi,
Əvvəl dağıma bax, sonra ver qarı,
İlahi.

26.03.2005

### *65*

Qoç Bürcü, Əjdəha İli…
27 mart, 1940.
Gülcənnət ana
gətirdi cahana
Şahin Fazili.
Qoç Bürcü, Əjdəha İli…

Bu gün
27 mart, 2005-di,
Yaş – 65-di.
Dünən 64-dü,
Bu gün 65-di.
Bir gecənin içində

yaş artdı
və bir il də qocalmağım
sevindirdi məni,
gözlərimi yaşartdı.
«Qocalıq yetəcək ha olaq sayıq,
Yaşamağa dəyər, sevməyə dəyər.
Əgər diriyiksə
qocalmalıyıq,
Qocala bilməyir təkcə ölülər».
Belə demişəm bir vaxt
«Əllərini ver mənə» kitabımda.
Bəli, qocalmışam,
amma hələ
Allaha şükür
qüvvəm də var, tabım da.
Yaş – 65-di.
Dünən 64-dü,
Bu gün 65-di.
Bir gecənin içində
65 yetişdi.
Fəqət bilmirəm hələ
hansı bir gecə isə,
hansı bir gündüz isə
bitəcək,
hansı bir gecəninsə,
hansı bir gündüzünsə
içində
ölümüm də yetəcək
Və
Hesabat verəcəyəm
Tanrının önündə mən
(guya ki, hali deyil
mənim əməllərimdən).

Görəsən,
        hesabata
Tanrı nə deyəcəkdir?
Hər şey bəllidir ona!
Bütün günahlarımı,
bütün savablarımı
çiynim üstdə əyləşən
mələklər yazıb bir-bir
ərz edir hüzuruna,
hər şey bəllidir ona!

Şahin haçan öləcək,
Şahin haçan doğulub,
Neçə gözəl sevibdir,
Neçə qadını olub?
Hər şey bəllidir ona!

Hər kədərim, qəhərim,
Hər bir dərdim – sərim də,
Qürbət ellərdə keçən
Narahat günlərim də,
Hər şey bəllidir ona!

Arabir söyüşüm də,
Arabir qınağım da,
Doğru söyləməyim də,
Yalan danışmağım da,
Hər şey bəllidir ona!

O cavanlıq çağım da,
Bu qocalıq çağım da,
Bütün həyatım boyu
Rüşvət almamağım da,

Lə’nət almamağım da,
Hər şey bəllidir ona!

Ya, cəhənnəm, ya cənnət –
Özü bilən məsləhət!

Yaş – 65-di.
Dünən 64-dü,
Bu gün 65-di.
Bir gecənin içində
65 yetişdi…

27 mart, 2005

### *Qoca şahin*

Daha şikar kimi keçmir caynağa,
Onu ram eləyə bilməyirəm mən.
Əlin gücü çatmır dayandırmağa,
Neyləyim, cavanlıq uçur əlimdən.

Cəhd elə, özünü qov arxasınca,
Qoy ki, deməsinlər qaça bilməyir.
Çoxdandır uçmayır ov arxasınca,
Şahin qocalıbdır, uça bilməyir.

28.03.2005

### *Yol ayrıcı*

Dərəyəmi düşüm, dağamı gedim?
Karıxıb qalmışam yol ayrıcında.
Solamı yön tutum, sağamı gedim?
Karıxıb qalmışam yol ayrıcında.

Qorxuram üz tutum ziyana doğru,
Bilmədən yol gedim yamana doğru.
Səmtimi döndərim hayana doğru?
Karıxıb qalmışam yol ayrıcında.

Müəmması varmış yol ayrıcının,
Çaş-başı olarmış yol ayrıcının,
Gedəni qalarmış yol ayrıcının,
Karıxıb qalmışam yol ayrıcında.

Bilmirəm neyləyim, olacaq olan…
Məni taleimmi bu yola salan?
Yolun ayrıcında çoxmudur qalan?
Karıxıb qalmışam yol ayrıcında.

Şahin, itirmişəm, vallah yolumu,
Tapa bilməyirəm, billah, yolumu,
Özün göstər mənim, Allah, yolumu,
Karıxıb qalmışam yol ayrıcında,
Darıxıb qalmışam yol ayrıcında.

30.03.2005

### *Dərin yuxu*

Gül ayaq üstdə yatır,
Çöl ayaq üstdə yatır,
Bağ ayaq üstə yatır,
Dağ ayaq üstdə yatır,
Sənə söyləyəcəyim
Söz dodaq üstdə yatır,
mürgülədi, uyudu.
«Sözünü yuxuladan»
çağrılmasın qoy adım.

Nə dərin yuxudu bu,
Gəl, sözümü oyadım,
Söz dodaq üstdə yatır…

1.04.2005

### ***Mən***

*Bu gün «İkinci Divan» kitabımın ilk nüsxəsini aldım*

«Bu kimdir?» soruşub etsələr maraq,
Özüm söyləyərəm cavab
həmin dəm:
Əlimdə qələm
Önümdə varaq
Şahin Faziləm!
Yaşım 65, özüm əzabkeş –
nəyəmsə, buyam.
Elm ilə
nazənin ədəbiyyatın
qulluğundayam.
Başımda
gəncliyin odu, buxarı…
Yetsə də ömrümün
ahıllıq çağı,
Xəyalım uçsa da
göydən yuxarı
İşimi görürəm başıaşağı.
Heç kimin önündə
xəcil deyiləm,
Kiməsə bənzəmək
məndən uzaqdır,
Qaragün etsə də
məni qara qəm

amma üz ağdır!
Məddaha düşmənəm,
təqlidə yadam,
Mən özüm özümə bənzəyən adam!
Füzuli deyiləm,
Seyid deyiləm,
Sabir deyiləm,
Hadi deyiləm,
Adi görünsəm də adilər kimi
Adi deyiləm!
Mən özüm özümə bənzəyən adam!

4.04.2005

### *Gələcək planım*

Allah-taala
Cismimə ruh adlı don geyindirib,
Borc verib donu mənə,
Alacaq!
Allah-taala
Yerdə yaşamağa bir ömür verib,
Borc verib onu mənə,
Alacaq!
Yanına çatdığım dəm
Borcundan çıxacağam onun,
Deyəcəyəm «Var ol, ey qibleyi-aləm,
Bu mənə verdiyin ömür,
Bu da sənin donun!»
Təhvil verəcəyəm ömrü,
Borclu qalmayacağam.
Amma
məsləhət bilsə əgər,
təzə bir ömür istəyəcəyəm,

deyəcəyəm: «Yerdə
bir də
yaşamağa dəyər!»
Sonra
Don da
        istəyəcəyəm ondan,
Versin təki.
Ömür versə,
Don verməsə,
Gəlməyəcəyəm,
Utanacağam,
Çılpaq gəzə bilmərəm ki!

5.04.2005

## *Sevgi yükü*

Yanıma həmişə gələsən gərək,
Qərarım qətidir, fikrim qətidir.
Bu günü qədrini biləsən gərək,
Ömür də, dünya da müvəqqətidir,
Axı bu dünyada nə var ömürlük?

Hambaltək çəkirəm sevgi yükü mən,
Yük çəkən olubmu belə yük kimi?
Sən əlimdə qala biləcəkmisən?
Əlimə düşmüsən təbərrük kimi
Əlimdə qalmağı bacar ömürlük.

7.04.2005

## *Müəmma*

Biri deyir dünya kişi,
Biri deyir dünya qadın.

Əkməsə bitməz,
Doğmasa törəməz,
Dünya kişidir, ya qadın?

8.04.2005

### *Şeş qoşa*

Uğurlu ov
hər adama qismət olmur,
Hər qola da
hər vaxt qonmur şahin quşu.
Gərəyi oldu-olmadı
əli şeş-qoşa atanın
yox uduşu!

9.04.2005

### *«Bəxtsiz cavan» müəllifinə!*

Ey Əbdürrəhimbəy Haqverdiyev,
mən «Bəxtsiz cavan» deyiləm,
«Bəxtsiz qoca»yam,
deyingənəm qoca kimi.
Açan olacaqmı görəsən
qocalıb əldən düşən
bəxtimi?

Mən bəxtli cavan idim,
Yaxşıya yaxşı idim,
Yamana yaman idim.
İndi
bəxtsiz qoca olmuşam,
Bəxtsiz necə olmuşam?
Bu suala cavab verər kim?

Hara qaçıb getdi bəxtim?
O biri dünyaya gedibmi
məndən qabaq
ardınca məni də
aparmaq üçün?
Kim verər bəxtimdən soraq?
Gedib tapacağammı onu?
Yoxsa,
        o məni tapacaq?
Nə edim?
İstəyirəm
bəxtimin dalınca gedim
ey Əbdürrəhimbəy Haqverdiyev,
o dünyaya…

10.04.2005

### *Elə yaxşı hava var ki!..*

Nə şaxta var, nə də ki qar,
Elə yaxşı hava var ki.
Şükür sənə, Pərvərdigar,
Elə yaxşı hava var ki.

Külək coşmür yava-yava…
Tufandan sonrakı hava!
Borandan sonrakı hava!
Elə yaxşı hava var ki.

Qışı – danmaq istəyirəm,
Gündə – yanmaq istəyirəm,
Havalanmaq istəyirəm,
Elə yaxşı hava var ki.

Təbim sönür, gedir bada
Varsa düman, sis havada,
Pis oluram pis havada,
Elə yaxşı hava var ki.

Xoşdur ki, xoş hava olur,
Quşlar ilə yuva dolur,
Ciyərimə hava dolur,
Elə yaxşı hava var ki.

Bu Şahinin duası var,
Ürəyinin sevdası var,
Başında eşq havası var,
Elə yaxşı hava var ki…

### *Mənim bacım*

*Naziləyə*

Səni
        ömür ümmanının
                dalğaları döydü,
Qəddar qəzəb qasırğalarına
                        sahil oldun.
Xoş günə, güzərana deyil,
ehtiyaca nail oldun,
                Mənim bacım.

Yolun hamar olmadı heç vaxt,
O yol
        tale əliylə şumlanıb, qazılıb.
Divanə ər,
fərsiz övlad

Sənin bəxtinə yazılıb,
                Mənim bacım.

Sən
  diqqətsiz olmamısan
                heç nəyə qarşı,
hətta əzizləyib-oxşamısan
                        dərdi-səri də.
Sən
      daim gecikmisən,
Səadət həmişə öndə gedib,
sən geridə,
Mənim bacım.

13.04.2005

### *Acgöz sürücüyə*

Ey sərnişin daşıyan
                        sürücü kişi,
Ey acgözlüklə yaşayan
                        sürücü kişi,
İşin
      pul qoparmaqdır ondan-bundan,
özü də beş qat, on qat artıq.
Sən
 məgər qorxmursan Tanrından?
Heç həya etmirsən
                Yer Kürəsindən?
Axı bu qoca Yer Kürəsi
daşıyır bizləri, fəzanı yarır,
ömrün boyu səni,
ömrüm boyu məni,
ömrü boyu onu,

ömrü boyu bunu
                havayı aparır.
Demirəm ki,
        sən də havayı apar,
                        havayı daşı,
Haqqını al,
        amma tamaha vermə gücü, kişi!

Ey sərnişin daşıyan
                sürücü kişi!..

15.04.2005

### *«Dava-dava»*

«Dava-dava» oyunu.
Oynamısanmı onu?
Mən isə
Həvəs ilə
«dava-dava» oynardım…
«Öldürmək» idi dərdim…
Qonşum ləzgi Poladı
Taxta tapança ilə
«alman»tək öldürərdim.
«Dava-dava» oynardım
Mən uşaq, mən beyniqan,
Sonra isə
        çəkindim,
Zəhləm getdi davadan.

Məmləkətdən ötrüdürsə
Dava – ölüm,
Dava – qan.
Məhəbbətdən ötrüdürsə

Dava – qəzəb,
Dava – kin,
Dava – əsəb…
«Dava-dava»dan çəkin,
ey cavan!

Vətəni qorumaqdan
ötrü əgər olarsa,
dava elə qeyz ilə –
o meydan, o da şeytan!

Qeyrətdən ötrüdürsə,
Demərəm ki,
savaş atına minmə,
Qarabağ davası – qeyrət davası,
zərurət davası,
Bu davadan çəkinmə!
nə olur-olsun,
necə olur-olsun
dava – ölüm,
dava – qan!

Uşaqlıqda
dava-dava oynayardım…
Sonra isə,
çəkindim,
Zəhləm getdi davadan.

2.05.2005

### *Daş*

Daş atma!
Dünəninə daş atma!

Daş atma
deyilsənsə divanə, dəli,
Çünki
daş ata-ata
olarsan öyrəncəli.
Daş atma!
Adama daş atma,
Həyət-bacaya,
dama daş atma!
Quşa daş atma!
Daşa daş atma!
Daşlayarlar səni,
Daş atma!
Ömrünü
daş atmaqla yaşatma!

Dünəninə daş atma,
Dünəninə daş atsan
sabah, ya birisi gün
bu günə daş atarsan.
Dünəninə daş atma!
Daş atma!
Amma,
səni daşlayan
müxənnəsə, yağıya
daşını
yavaş atma,
Daş at!

4.05.2005

## *Əl kəsmək istəyirəm*

Əl kəsmək istəyirəm.

Bu harın
əyrilərin,
oğruların,
bu rüşvət dağarcıqlarının,
bu lə’nət dağarcıqlarının
əlini.
Qoy deməsinlər ki,
«Əl səndən, ətək bizdən,
əlimizə toxunma,
ətəyimizə yığmışıq rüşvətimizi,
kəs ətəyimizdən
bir az özünə də götür»,
Xeyr!
Ətək verməsinlər əlimə,
Əl,
Əl.
Əl kəsməyim gəlir.
Bu bəlalı elimdən,
Bu cəfalı ölkəmdən
adı «rüşvət» olan
ən mənfur bir
əməl kəsməyim gəlir,
Əl kəsməyim gəlir!

Rüşvətxor məxluqların
var tamahı,
yox arı,
var varı.
Ürəklərində
xərçəng azarıtək şaxələnən
«hərislik» adlı damarı
cərrah bıçağıyla da
bəli, kəsmək çətindir,

amma kəsilməlidi!
Lap qoy mənə desinlər
şair deyil, dəlidi…
ətəklərini verməsinlər mənə,
ətəyi kəsməyə nə var ki?
Əli kəsmək çətindir!

Əl kəsmək istəyirəm!!!

5.05.2005

### ***Qoca kişidə***
### ***(qoşmavari)***

Gözəlim, xiffətlər aşıb-daşıbdır,
Fərəhlər sürüşür qoca kişidə.
Canımda həsrətlər qucaqlaşıbdır,
Niskillər görüşür qoca kişidə.

Sənin istəyindən güc alan istək,
İstək səmasında öc alan istək,
Əvvəllər sərv tək ucalan istək
Gül kimi bürüşür qoca kişidə.

Daha tellərinə telim toxunmaz,
Busə güllərinə dilim toxunmaz,
Bir də əllərinə əlim toxunmaz,
Əl cür'ətdən düşür qoca kişidə.

8.05.2005

### ***Libas***

Özünə münasib geyinir hərə,
Gözün kiprik təki göz libası var.

Heç kimi qınama donuna görə,
Hərənin öz donu, öz libası var.

Şe'r yaradıram, peşman deyiləm,
Şe'rdən aralı bir an deyiləm,
Hətta çiməndə də üryan deyiləm,
Şahinin əynində söz libası var.

10.05.2005

### *Söz və səs*

*«Hökmü ifadə etməyən söz… söz bütövlüyünü itirmiş səs yığımıdır»*
*Adil Əsədov. «Gözəlliyin fəlsəfəsi». Bakı, 2005, s.141*

Söz səsdən yaranıb,
səs – nəfəsdən;
Nəfəssizin səsi yoxdur,
səssizin özü;
Çiynimdə əyləşən mələyinsə
nə səsi var,
nə nəfəsi,
nə sözü,
nə özü.
Necə yəni mələyin özü yoxdur?
Mələyin səsi də var,
sözü də var,
özü də var,
olmasaydı əgər
mələklər,
«Qur'ani-Kərim»də
söz deməzdi Pərvərdigar.
Sadəcə olaraq bizlər

eşidə bilməyirik mələyin
səsini, sözünü
və görmürük özünü.
Peyğəmbərin adını daşıyan,
Azərbaycanlı ikən İraqda yaşayan,
ölkəsindən uzaqda yaşayan
Məhəmməd Füzuli demişkən
«Hər riştə ki, həqq əyan edibdir,
Sərriştəsini nihan edibdir».

Söz səsdən yaranıb,
Səs-nəfəsdən.

11.05.2005

### ***Şair***

*«Əziz şair, əgər sən mənim bir oxucu olaraq ağlamağımı istəyirsənsə, gərək özün də kövrələsən»*
*Kvant Horatsi Flakk*
*Sitat prof. Adil Əsədovun «Gözəlliyin fəlsəfəsi» kitabından götürülmüşdür (Bax: Adı çəkilən kitab, Bakı, 2005, s.73)*

Qazancı şe'rdir əsl şairin,
Mükafat, təltifat deyil gərəyi.
Fikri dağdan uca, ümmandan dərin,
Kövrəkdir şüşətək şair ürəyi.

Şairin qayəsi, xisləti başqa,
Gözü həqiqətə, haqqa yönəlir.
Amma, məddahınsa niyyəti başqa,
Mənim məddahlara yazığım gəlir.

Aşiq çəksə belə qüssəyə dalıb
Züleyxa dərdini, Leyla qəmini,
Şairinsə işi Allaha qalıb,
Şairlər çəkirlər dünya qəmini.

Şairlər gözümdə böyükdən böyük,
Şairlər gözümdə ucadan uca.
Saçıma qonan qar deyil mənə yük,
Qoca görünsəm də deyiləm qoca.

Tez-tez əvəz edir fərəhi kədər,
Hərdən hönkürürəm yazdığım anda.
Oxucu, oxuyub kövrəlsən əgər,
Demək, ağlamışam şe'ri yazanda.

12.05.2005

### *Qış gəldi axı…*

Elə ki, tanıdıq bir-birimizi,
Sanki güc qalmadı fərağımızda.
Bu sevgi divanə elədi bizi.
Bizim başımıza bu çağımızda
İş gəldi axı.

Axı, çağırmaqdan dilim yoruldu,
Səni səsləmişəm mən neçə kərə.
Bizi kim qarğıdı, bizə nə oldu?
Deyirlər ki, sevgi sevilənlərə
Xoş gəldi axı.

Ötürdük baharı, sonra yayı biz,
Hətta eşidilmir payızın səsi.
Qönçədə qalıbdır vüsal gülümüz,

Haçan cırılacaq onun pərdəsi?
Qış gəldi axı…

14.05.2005

### *Müqəddəs od*

Məndə od yaşayır
 «ilham» adında,
O od
 Tanrı söyləyəni yazdırır mənə –
Müqədəs oddur,
Məni yandırmayır əsla həmin od,
Səni yandıracaq, ey şaircığaz,
Ondan uzaq dur.

Məndə od yaşayır
 «ilham» adında…

23.05.2005

### *Məsləhətləşmə*

Üz tutmuşam ulu Allaha:
Yaza bilmirəm daha,
Şe'r yaza bilmirəm daha,
Yaxşı şe'r yaza bilmirəm daha.
Nə edim?
Mən yazmasam əgər
mənim şahinanə misralarımı
 deyər kim?
Yazımmı, yazmayımmı?
Gərək ilhamımla məsləhətləşim.

27.05.2005

### ***Şair***

*«İnsan yüksəkliklərə can atdıqca, elə bil ki, göylərdədir, süzür. Alçaldıqca, yerə çox bağlandıqda isə, elə bil ki, sürünür, elə bil ki, öz görkəmi və hərəkəti ilə «yerin yarılmasını» istəyir sanki «yerə girmək üçün»»*

*Adil Əsədov. «Gözəlliyin fəlsəfəsi» kitabı, s.132*

Göylərdəyəm mən bu dəm.
Xəyalım göylərdəsə,
Elə zənn edirəm ki,
Özüm də göylərdəyəm,
Əbədi varlıq olan
Bir şahla danışıram –
Allahla danışıram.
Bürünüb göydə ağa
Qara görmürəm bu an,
Yuxarı baxa-baxa
Uzağam aşağıdan…
Yerlərin qarası var,
amma göylərin ağı.
Göy yuxarı, yuxarı…
Yer aşağı, aşağı…
İndi
        yerim yuxarı,
Bəh, nə gözəl mənzərə!
Aşağı düşəndəsə
Sanki girirəm yerə.

Göylərdəyəm mən bu dəm…

30.05.2005

## *Şair-kamikadze*

Şairciğazlara
qeyri şairlər tək
biganə deyil,
laqeyd deyiləm,
Kamikadzeyəm.
Günlərin bir günü
                    filankəsləri,
Şe'rdən bixəbər olan kəsləri
poeziya naminə bir yerə yığıb,
onların yağısı, qənimi çıxıb,
özümlə birlikdə o cahilləri
içimdə olan
qəzəb barıtına
kin odu vurub
öldürəcəyəm.
Başqa çarəm yoxdur,
nə kədər, nə qəm,
Kamikadzeyəm

…Şair-kamikadze olubmu görən?

1.06.2005

## *Ömrümün kəhəri*

Ömrümün kəhəri nə yeyin qaçır,
Tezliklə çatacaq mənzil başına.
Səninsə başında xülya dolaşır,
Diqqətin yox olub bu sirdaşına.

Tərəddüd bürüyüb səni duman tək,

Haçan gələcəksən, o an varmıdır?
Bu günün işini gəl bu gün edək,
Bu gündən sabaha güman varmıdır?

Dodağım dəmadəm sevgi pıçıldar,
Hələ sönməyibdir, odu var canın.
Görmürsən başımda eşq havası var?
Rəqsini istərəm həmin havanın.

Görmürsən saçımda qar qışlamada?
Görmürsən yaşımın o çağı deyil?
Fələk yenə məni qarğışlamada,
İnan, məhəbbətim bayağı deyil.

Daha qəribliyə salma sözümü,
Fikrimi demişəm, fikrini bildir.
Görmürsən yoluna dikib gözümü
Səni gözləyirəm mən neçə ildir?

Sən də ürəyində məhəbbət yaşat,
«Cavanlıq etməsin qocalar» demə.
Arpa yeməyirmi məgər qoca at?
«Dəvə oynayanda qar yağar» demə.

Ömrümün kəhəri nə yeyin qaçır,
Tezliklə çatacaq mənzil başına.
Səninsə başında xülya dolaşır,
Diqqətin yox olub bu sirdaşına.

2.06.2005

### *Soyuq söhbət*

Sənlə soyuq danışdım,

Cümləmin hər sözündən
buz asılıb elə bil,
o buzlar hələm-hələm
gülüm, əriyən deyil.
Sənlə soyuq danışdım,
Danışılan kəlmənin
istisi, odu varmış –
Od dadı.
Bir də gördün ki, bir söz
yandırıb-yaxdı səni,
odladı.
Sözün də dadı varmış –
Söz dadı.
Sənlə soyuq danışdım,
telefonun dəstəyi
əllərimdə buzladı.
Sənlə soyuq danışdım,
Sən yanıma gəlmisən,
Bu «soyuq» adam ilə
isti-isti danışıb,
                    gülmüsən.
Kəlmələrim, sözlərim
isinəcək çətin ki!..
Soyuqdan çox danışdım,
gülüm, üşümədin ki?

4.06.2005

## *Ətəyin nə uzaqda?*

Çoban, çalmırsan neyi,
O neyin nə uzaqda?
Nə xəyala dalıbsan,
Füləmirsən tütəyi,

Tütəyin nə uzaqda?

Kimi dağda qaldı tək,
Kimi bağda qaldı tək.
Həzər təklik əlindən,
Aşiqlərə, ey fələk,
Köməyin nə uzaqda?

Yarım, eşqindir çaram,
İnadı gərək qıram.
Sənə çatmaq asandır,
Ürəyinə çatmıram,
Ürəyin nə uzaqda?

Allah, rəhm et Şahinə,
Bəndənin pənahi nə?
Genişsə də ətəyin
Əlim çatmayır Sənə,
Ətəyin nə uzaqda?

11.06.2005

### *Ölümümdən sonra*

Siz məni görmürsünüz,
Sizdə o qüdrət hanı?
Sanki gözsüz yaradıb
Pərvərdigar insanı.

Siz məni görmürsünüz,
Yanınıza gəlmişəm,
Yanınızda varammı?
Siz məni görmürsünüz,
Görümsüzlüyünüzə

Məgər günahkarammı?

Siz məni görmürsünüz,
Mənsə görürəm sizi,
Sizin hər birinizi
Görürəm aşkar və tam,
çünki, sizdən güclüyəm,
siz deyiləm,
                    mən ruham!
Siz məni görmürsünüz…

13.06.2005

### *Qurd ürəyi gətirin*

Qurd ürəyi gətirin,
Ömür boyu xətərli
səfərlər –
işim, peşəm,
Atam Fazil gətirib,
Qurd ürəyi yemişəm.

Qurd ürəyi gətirin! –
Bu səs Qarabağ səsi,
Bu haray cəng həvəsi,
Bu haray yurd harayı.
Bu haray qurd harayı.
Hamıya çatsın deyə
Qoy arta qurdun sayı.

Qurd ürəyi gətirin,
Qoy yesin, zərər olmaz.
Qurd ürəyi yeməyən
Əsgərdən əsgər olmaz,

Qurd ürəyi gətirin!

15.06.2005

### *O taylı qardaşıma*

Canda ülvi bir
Arizu yaşar:
Birgə olmasaq,
Olmağımız yox,
Ölməyimiz var.
Əlbir olmalı,
Dilbir olmalı,
Yoxsa öldürər
Arizu məni.

Dərddi yoldaşım,
Qəmdi sirdaşım,
Axdı qüssədən
Qəmli göz yaşım.
Nə gözəl deyib
Şahi qardaşım:
«Bir Araz gətir,
Məndə yu məni».

17.06.2005

### *Yayda qar*

Yayın cırhacırında
Buludun qarnı cırıldı
Və
bu gecə
qar yağdı
Və

bu gecə üşüdüm.
Bu gecə qar yağdı.
Bu yay gecəsi
nə deyəsən buna?
Mələfədən çıxıb
girdim yorğan altına,
üşüdüm, necə üşüdüm…
Bu gecə qar yağdı
Və
isti hava oldu sərin,
Sinəmin içində buz var –
Sənin bumbuz sözlərin.
Qarı üstümə tökdü
sözlərin buludları
Və
bu gecə
qar yağdı,
Sən yağdırdın o qarı.

19.06.2005

### *Mənim dərdim*

Ömrüm boyu dərdlənmişəm.
Elə bil ki, cocuqluqda
mən anamın döşlərindən
dərd əmmişəm.
Dərdim mənim – mənə doğma,
Ey çəlimsiz, qoca əlim,
gücün çatmaz, dərdi boğma,
dərdi boğma, qoy yaşasın,
Başqa bir əl görməyirəm
mənim kimi dərd daşısın.
İnsanlara

dərdsiz olmaq deyil asan.
Gərək dərdsiz olmaq üçün
daş olasan.
Öz-özümə
«dərdin qədir-qiymətini bil» deyirəm,
Mən daş ola bilməyirəm,
Daş insanlar amma nə çox.
Dərdsizlikdə
baş insanlar amma nə çox.
Mənim dərdim
Qarabağsız vətən dərdi;
Mənim dərdim
qucaq-qucaq qoparılan
satılmağa aparılan
lalə dərdi,
nərgiz dərdi,
süsən dərdi;
Mənim dərdim
qaçqın düşən
Əli dərdi
Vəli dərdi,
Həsən dərdi…
Mənim dərdim
qəzəlləri qəliz edən
dil dərdidir;
Mənim dərdim
millət dərdi, el dərdidir.
Dərd çəkmədə
mənim tayım heç kim deyil.
Mənim dərdim təkcə mənim dərdim deyil.
Mənim dərdim
qarışqanın
bir pələngi yemək üçün cəm olması;

Mənim dərdim
kəpənəyin
sərçələrə yem olması.
Sanki mənə qaynaqlanıb
«dərd» kəlməsi.
Mənim dərdim
bir alçağın,
bir yaltağın,
bir məddahın yüksəlməsi;
Mənim dərdim
bir məl'unun
haqsız rütbə daşıması;
Mənim dərdim
rüşvətxorun
ölməməsi,
yaşaması…
Mən dərdimi yükləmirəm başqasına,
İstəmirəm dərd yükündən başqa sına.
Mən dərdimi mərd çəkənəm,
Mən dünyəvi, mən bəşəri dərdçəkənəm.
«Dərdçəkənəm» deyə-deyə
öz dərdimi qıymamışam heç kimsəyə,
hərçənd ki,
mənim dərdim təkcə mənim dərdim deyil,
Dərd çəkmədə
mənim tayım heç kim deyil.
Ömrüm boyu dərdlənmişəm.
Elə bil ki, cocuqluqda
mən anamın döşlərindən
dərd əmmişəm.

21.06.2005

## ***Təklif***

*Deyirlər ki, bu dünyada vüsal yoxdur. Deyirlər ki, vüsal üqbada – o dünyada mümkündür…*

Əgər bu dünyada vüsal yoxdursa,
Əgər düzsə bu,
Gedək üqbadakı vüsala doğru,
Mən səni öldürüm, sən məni öldür,
Sevgini öldürüm, sevəni öldür.
Və qatili olaq bir-birimizin,
Silah götürəndə əsməsin əlim,
əsməsin dizin,
Saplayaq bıçağı dəstəyinəcən
ürəyimizə,
Allah çox görməsin belə müqəddəs
diləyi bizə:
Mən səni öldürüm, sən məni öldür.
Çünki, vüsal bizə deyil müyəssər,
Nə qədər sağıq
Vüsal deyə-deyə fani aləmə
göz yumacağıq…
Sidq-ürəkdən gələn bir arzudur bu:
Gedək üqbadakı vüsala doğru,
Mən səni öldürüm, sən məni öldür,
Bizim günahımız olsun bərabər.
Bəlkə o dünyada vüsalımıza
Xudavəndi-aləm icazə verər,
Mən səni öldürüm, sən məni öldür.

23.06.2006

## *Ölümqabağı*

Yamyaşıl yarpaqlar
Bəlkə də qorxudan olurlar sarı
Ölümqabağı.
Evimdə yaşıl bir dibçək gülü var
Qızarır yarpağı
Ölümqabağı.
Hər gün
Göz qoyuram o gülə mən,
Qorxmur ölümdən
və saralmır.
Xoşum gəlir bu güldən –
Qızarır yarpağı
Ölümqabağı.

Ölüm qoxusundan
Saralıb sapsarı
Ölməyə nə var axı?
Sevinərdim
Qızarsaydım
Ölümqabağı
Çünki,
Saralmaq istəmirəm,
Hamı kimi olmaq istəmirəm
Ölümqabağı.

Evimdə yaşıl bir dibçək gülü var,
Qızarır yarpağı
Ölümqabağı.

25.06.2005

## *Giley*

Daşın nə vecinə hara dəyəcək,
Başım ağrıyacaq, daşa nə var ki?
Başqa yaraların göynəyi təki
Başın da göynəyi keçib gedəcək,
Ürək dağılmasın, başa nə var ki?

Kaş hüşyar olunca bihuş olaydım,
Ayıq olmayaydım, sərxoş olaydım.
Şe'r yazmaq mənim canımı üzüb,
İnsan olmayaydım, kaş quş olaydım,
Quş şe'r yazmayır, quşa nə var ki?

## *Anna Karenina*

*Bu gecə Anna yuxuma gəldi.*
*Anna Karenina…*

Ey bivəfa qadın,
Ey aşiq mə'şuqə,
Ey bədbəxt ana –
Anna Karenina.
Düşmüsən pis günə,
Eşq günahı yığmısan üstünə,
Atma özünü qatarın altına,
Anna Karenina.
Qatar səssizcə
sənin canını üzəcək
fitini çala-çala çıxıb gedəcək,
Sənsə
nə görkəmdə, nə gündə
qalacaqsan relslərin üstündə

boyanıb qızıl qana,
Anna Karenina.
Kaş Tolstoydan əvvəl doğulaydım,
Gedəydim onun yanına,
                    Anna Karenina.
Və qəbul edəydi Bakını
                    Yasnaya Polyana,
Bəlkə o saqqalı qoca
Eşidərdi bu saqqalı qocanın sözünü
və yazardı başqa cürə,
bəlkə də atmazdın özünü
                              qatarın altına,
                              Anna Karenina.

Kaş bu dünyada Tolstoy deyil,
Allah verəydi o biri dünyada
sənin cəzanı,
Anna Karenina.

Kaş Tolstoydan əvvəl doğulaydım…
28.06.2005

### *Gedək qar yeyək*

Gedək Şahdağa
Gedək dağ ətəyinə,
Dağın ağ ətəyinə,
Qar ver mənə,
Qar verim sənə –
                    dağ qarı,
Qar yeyək.
Boğazımız gələr?
Gəlsə-gəlsin,

Bir azdan keçib-gedəcək.
Sən qar yeməmisən?
Heç vaxt yeməmisən?
Sən Allah yeməmisən?
Dağda böyüməmisən?
Nə olar…
Amma,
Yubanma,
Gedək Şahdağa,
Gedək dağ ətəyinə,
Top-top oynayaq,
Qartopu oynayaq.
Qorxma, ətəyin çirklənməz,
Qarda gəz,
Qar ağ,
Qar ağappaq,
Qar saf,
Qar şəffafdan şəffaf.
Şəhərdə qar yoxdur,
Şəhərdə qara çoxdur,
Şəhərdə qara-qura çoxdur,
Mən səni qara yerə aparmaram,
Şəhərdə ağ da qaraya çalır,
Şəhərdə
qara ağarmır,
ağ qaralır.
Məkrlidir şəhər,
Dağda deyəcəksən
«nə kirlidir şəhər…»
Dağ yaxşıdır,
Ağ yaxşıdır,
Qar yaxşıdır,
Qara pisdir,

Dağda biləcəksən
Hara yaxşıdır,
Hara pisdir.
Gedək,
Çöhrən kimi ağ
Qar olan yerə gedək,
Gedək Şahdağa,
Gedək dağ ətəyinə,
Dağın ağ ətəyinə,
Ətəyini sürt ətəyinə,
Qar üstdə gəz, gəz, gəz,
Qorxma, ətəyin çirklənməz,
Gözlərin qaralanacan bax qara,
bax dağa…
Gedək Şahdağa,
Qar yeyək tamarzı tək,
Olaq
qara yaxın,
qaradan uzaq.
Gedək, gedək, gedək…

29.06.2005

### *Mən*

Get-gedə çoxalır «mən» silsiləsi,
Özümü yazıram, yenə özümü.
Varmı şairlərin yenə beləsi?
«Mən»ə yönəldirəm tez-tez sözümü.

Nə yaman çox imiş məndəki «mən»lər…
«Mən»ləri zahirə çıxaran xışam.
Hey «mən»dən yazıram, indiyə qədər
Deməli, özümü tanımamışam.

Deməli, «mən»lərim cəbr, həndəsə!
Fəhmsiz olmuşam mən taleyi kəm.
Deməli, olsam da bələd çox kəsə,
Mən özüm özümə bələd deyiləm.

Özgəni görürəm şahin gözümlə,
Özümü görməksə «müşkil» yaradıb.
Deməli, indi də özüm özümlə
Tanış olmağımın məqamı çatıb.

Bircə günüm belə şe'rsiz deyil,
Mən ki, bilməyirəm rahatlıq nədir.
Mənim hər divanım təbimə dəlil,
Mənim hər səfərim səfərnamədir.

Üç divan yaratmaq qüdrəti kimdə?
Qəlbimdə bu şövqün məqamı dərin.
Mənim şairləşən məmləkətimdə
Üç divan bağlayan şair göstərin.

Şe'rimdə siyasət tutmayır qərar,
Bu mənə qayədir, bu mənə məram.
Elmin öz yeri var, öz məqamı var,
Elmə siyasəti qarışdırmıram.

Təmtəraqa dönmür, cəlala dönmür
Günüm, güzəranım bir dərviş kimi.
Heç vaxt əlif qəddim sualal dönmür,
Şöhrət əyə bilməz mənim qəddimi.

Söyləsəm dərdimi qayaya, dağa
Dağda təpər qalmaz, qayada dözüm.

Vərdiş olmasam da diz qatlamağa,
Məhəbbət önündə qatlanır dizim.

Mənəm dil qədrini bilən qəzəlxan,
Sözüm gizli deyil, açıq, aşikar.
Paka pak deyirəm, yamana yaman,
Məndə Xaqaninin məğrurluğu var.

Sözün qiymətini bilmişəm baha.
Artıra bilsəm də söz qiymətimi,
Kimliyim bəllidir təkcə Allaha,
Hələ almamışam öz qiymətimi.

Nə üçün daraşır mənə kədər, qəm?
Mənim həssaslığım – mənim düşmənim.
Bəlkə də, rəhmdil olmaqda təkəm,
Dəyməyib pisliyim heç kəsə mənim.

Ağıllı sanırlar, dəli kimiyəm,
Meylim həzzə deyil, qəmə yönəlir.
Başı şaqqalanmış Əli kimiyəm,
Mənim düşmənə də yazığım gəlir.

Oxucu, «Mən» şe'rim bitsə də bu an,
«Mən»lər silsiləsi davam edəcək.
Təzə «Mən»lərimi oxuyacaqsan,
Mən məni yaxşıca tanıyım gərək!

30.06.2005

### *Başsız adam*

Başıma daş düşsün, başım hayanda?
Yenə də kiməsə haraya gedib.

Onu itirmişəm səni tapanda,
Dəqiq bilmirəm ki, haraya gedib.

Qoy kimsə deməsin «sayıqlayır bu»…
Baş əgər itibsə, cism deyil tam.
Gülüm, sən itirmə, başını qoru,
Mən başsız dünyada başsız adamam,
Başıma daş düşsün, başım hayanda?

1.07.2005

## *Fələk, baş və baş daşı*

Baş daşı dikəltdilər
ölünün başı üstdə,
guya onun başıdı.
İllər ötdü…Torpağın
içindəki baş kimi
yedi baş daşını da,
məgər fələk naşıdı?

2.07.2005

## *Açıq qapını döymə*

Gün altında dayanıb
Örtə bilməyəcəksən
Əzizim, gün üstünü.
«Üstüörtülü bazar
dostluğu pozar» dedim,
Örtmə sözün üstünü.

Mənim gözümə dik bax,
Kipriklər çəpərini
bağlama qabağımda,

qoy gözün olsun açıq.
Açıqlıqdan ötəri
gör necə darıxmışıq!..

Ömür yarıdan keçib,
Yaş çoxdan olub yarı,
Açıq-aşkardır sözüm:
Önündəki bu adam
açıqlıq tərəfdarı.

Qaranlıq mətləblərin
qaranlığı ağarmaz
söhbət olmasa açıq,
Bilirəm ki, özün də
bənzəyirsən özümə –
açıqlığa möhtacıq!

Açıq kitabı örtmə,
oxu,
          qoyma yarımçıq.
Açıq qapını döymə,
Döymə açıq qapını,
Ürəyimin qapısı
Sənin üzünə açıq,
Açıq qapını döymə!

4.07.2005

### *Gəlir*
### *(qoşma)*

Eşq ilə döşədim ipək yolunu,
İpək yolu ilə göyərçin gəlir.
Kəsməsin qar, yağış, külək – yolunu,

İpək yolu ilə göyərçin gəlir.

Baxışı uzaqdan mənə tuş kimi,
Baxır vurulmuşa vurulmuş kimi…
Elə bil yerimir, uçur quş kimi,
İpək yolu ilə göyərçin gəlir.

Əsən ona sarı külək bəxtəvər,
Qoxusunu çəkən çiçək bəxtəvər,
Ayağı altında ipək bəxtəvər,
İpək yolu ilə göyərçin gəlir,

Ülfəti yetməsin sona, İlahi,
Bəd nəzər dəyməsin ona, İlahi!..
Bürünüb ağappaq dona, İlahi,
İpək yolu ilə göyərçin gəlir.

Bəxtiyar edəcək bu gün yar yarı
Anıb məhəbbəti, anıb ilqarı…
Ovunu gözləyən şahinə sarı
İpək yolu ilə göyərçin gəlir.

5.07.2005

### *Nizam və nizamsızlıq*

Gecə gələndə
gündüz yatır,
Gündüz gələndə
gecə.
İnsan üçünsə
heç fərq eləmir,
Gündüz də yatır, gecə də
Ağıl dəryasıdır,

maşallah!!!

6.07.2005

### *Tarix və şaşqınlıq*

Qara gün
qara günü doğdu,
Ağ gün
ağ günü doğdu
Və
başlandı mübarizə:
Qara gün
ağ günü boğdu,
Ağ gün
qara günü boğdu,
başlandı zülmlər, cövrlər,
Beləcə ötdü dövranlar, dövrlər…
Qara gün,
Ağ gün…
Ağ gün,
Qara gün…
Bu doğhadoğdan,
bu doğhadoğdan
heç baş aça bilmədim,
Neyləyim mən qaragün?

8.07.2005

### *İşıq*

Gizli qalan söz işığı…
Kül altdakı köz işığı…

Dirilərin göz işığı…
İşıq, işıq…
İşığa şığı!..
Şığı işığa,
İşıq axtar, işıq ara
işıqlı adamtək.
İndi axtarmasan,
indi aramasan,
bir azdan
gözün işıqdan düşəcək,
ağ işıq gedəcək zaya,
ziya gedəcək zaya,
işıqlanmaz qara bir yol
başlayacaq o dünyaya,
Budur söz,
budur açıq sözün düzü,
sözün açığı.
İşıq, işıq…
İşığa şığı.
Yoxsa,
yoxsa
zay olacaq göz işığı,
zay olacaq ziya.

10.07.2005

### *Cəhənnəmə ki!..*

*Açıq söhbət*

Gəl yanıma.
İsti-isti gəl yanıma.
Yapış mənə, gözümə bax.
Gözümə bax isti-isti.
İsti olaq.

Mənə bax
tamarzı kimi, ac kimi,
Mənə bax
mənə möhtac kimi.
Eşit sözümü.
Yox-yox, sözümü təkcə eşitmə,
sən mənim sözümə bax,
sən mənim sözümü gör,
sözümdə özünü gör.
Sonra,
sonrasa
eşqimizin oduyla
yandırım özümü,
yandır özünü!
Sonra
gözümüzü yumaq
Və
sidq ürəklə
Eşq odunu istək oduna qarışdırıb
Yanmaq kimi ülvi bir diləklə
cəhənnəmə yollanaq,
yanaq.
Yanmaq istəmirsən?
Cəhənnəmdə yanmaq istəmirsən?
Bəs mən?
Cənnətə düşmək istəyirsən?
Dilim-ağzım qurusun,
cənnətdə
qılmanlarla görüşmək istəyirsən?
Bəs mən?
Qorxursan cəhənnəmdən?
Bəs mən?
Deyirsən cəhənnəmdə od var?

Var!
«Onlar ki yanırlar, odu burdan aparırlar»,
Baxma mənə çəpəki.
Cəhənnəmi istəmirsən?
Cənnəti istəyirsən?
Cəhənnəmə ki!..

11.07.2005

### *Canavar kimi*

Ulayıram:
U-u-u!.. U-u-u!.. U-u-u!..
Tənhalıqdan ulayıram.
Bilmirəm varlığımla yoxluğumu.
Niyə gəldim cahana? Həyat bumu?
Cismim ölümü, sağmı?
Həyatın sonu ulamaqmı?
Təklik məni üzür
hər səhər,
hər gündüz,
hər axşam,
hər gecə.
Hərdənbir elə sanıram ki,
Yaşamıram, mövcudam sadəcə.
Amma, görürəm ki,
arsız-arsız yaşayıram, sağam.
Allahın bu evindən
qovulmağını gözləyən
qonağam,
Günlərimi deyil,
aylarımı sayıram.
Qanı var kimiyəm,
Canı var kimiyəm,

Canavar kimiyəm,
Ulayıram:
U-u-u!.. U-u-u!.. U-u-u!..

13.07.2005

### *Bir dəfə*

Neçə qapıya gəlib?
Neçə ölü görüb?
Neçə çiyinə qalxıb?
Neçə yol dolub-boşalıb?
Mənzillərdən məzarıstanacan
edib qət
nə qədər məsafə
mafə?
Araba olsaydı çox minərdilər,
Maşın olsaydı çox minərdilər,
Yelləncik olsaydı çox minərdilər,
Kəcavə olsaydı çox minərdilər,
Mafədir.
Onda
hər adam
bir dəfə gedir.
Mafə…

14.07.2005

### *Yasin*

Ey molla,
Ey tanıdığım molla,
Nə olar, bircə yol da
elə xidmət mənə,
Yasin oxumağı öyrət mənə.

Qur’ani-Kərimi alıb əlimə,
Ərəb kəlmələrini
sidq-ürəkdən gətirib dilimə,
mə’nasını bilə-bilə
oxuyum yasin,
Amin!
Allah eləsin
Sən də
Yasin kəlmələrindən
hali olasan,
Adi mollalardan seçiləsən,
ali olasan.
Daha
əzbərləməyəsən sözləri boş-boşuna,
Mə’nasını öyrən ki,
dinləyənin daha çox gəlsin xoşuna.
Amma,
səsin ə’ladır,
avazın ə’ladır.
O səsi, avazı öyrət mənə,
Nə olar, bircə yol da
elə xidmət mənə.
Qorxma, sözümdən şəkkə düşüb
yemə ürəyini,
Qorxma, mollalıq edib
almayacağam əlindən çörəyini.
Mənim təklifimə
Gəlsin elə bir gün ki, amin deyəsən, amin,
Yasin oxusun Şahin, Şahin oxusun yasin.

Ey molla,
Ey tanıdığım molla,
İndicə dediyim beytdə

eşitdinmi əruz vəzninin avazını?
Mən əruz öyrədim sənə,
Sən – mənə yasin.
Amin!
Gəlsin elə bir gün ki, amin deyəsən, amin,
Yasin oxusun Şahin, Şahin oxusun yasin!

15.07.2005

### *Vəziyyətim*

Kiprik çəpərimdə qurumayır nəm,
Göz yaşım iz salıb yanaqlarımda.
Qapımı bağlayıb-açan özüməm,
Təklik qoxusu var otaqlarımda.

Bıçaq qəmi deyil, əlimi kəsir,
Daha həzz məskəni deyil məskənim.
Avaz əvəzinə küləklər əsir,
Evimdə pərdələr oynayır mənim.

Kədər qayasında, dərd dağındayam,
Dincliyim sayağı itib səbir də.
Özüm tənhalığın caynağındayam,
Qızlarım ərdədir, yarım qəbirdə.

18.07.2005

### *Dövlət çevrilişi*

Allah qoysa
Nə qədər ki sağam,
Baş Aşiq kimi
məhəbbət sirlərindən
agah olacağam,

Məcnunun əvəzinə
şah olacağam,
Çevriliş edəcəyəm
Məhəbbət dövlətində,
Devirəcəyəm o dəlinin taxtını,
tacını qoyacağam başıma,
əyləşəcəyəm başda.
Hərçənd ki, yaşda
ondan böyüyəm,
çox-çox böyüyəm,
Nə qəm,
yaşlılar təcrübəli olurlar.
Mən
daşda-düzdə yaşamayacağam,
divanəlik yükünü daşımayacağam,
Leylimi
        İbn Salama verməyəcəyəm,
Eşq bağından
        nakamlıq meyvəsi
                        dərməyəcəyəm.
Mən hara, təslimçilik hara?
Qəbul edəcəyəm
Nofəlin kömək təklifini,
qalib gələcəyəm əğyaralar,
«şah» adlandıracaqlar məni.
Ey aşiqlər,
bir görün neçə ildir
təhvil vermişik
bir cünuna
dövlətimizi.
Məcnun adı bezdirmədimi bizi?
Ey-y-y, Məcnunun taxtında
daha kimin gözü var?

Olsa da,
        yol verməyəcəyəm buna,
Onsuz da,
        adımda «şah» sözü var,
Qalmayacağam şahlıq həsrətində –
Şahin şah olub,
şahənşah olub
çevriliş edəcəyəm
                Məhəbbət dövlətində
Allah qoysa!

20.07.2005

### *Gözlədiyim qadın*

Gözlədiyim qadın beş ildir gedib,
Güman ki, cənnətdə tutubdur qərar.
Bir də qayıdası deyildir, gedib…
Geri dönməyinə ümidimmi var?

Allahım, yolçuyam, han o son yol?
Hanı son? Uzunmuş sonun gəlməyi!
Bu get-gəl evinin hövsələsi bol,
Mənim getməyim yox, onun gəlməyi.

Mənə elə gəlir sonum gecikib,
Gecikir ayırıb iki sevəni.
Güman ki, gözünü yoluma dikib,
Gözlədiyim qadın gözləyir məni.

Özümə «gözlə», ya «gözləmə» deyim?
Bilirəm gözləmək hədərdir ancaq.
Qayıdır yanıma – gözləmədiyim,
Gözlədiyim qadın – qayıtmayacaq.

Gözlədiyim qadın beş ildir gedib…

22.07.2005

### *Məhəbbət və toz*

Yer tozlu idi…
Sənin məhəbbətin
Mənim əlimdən
sürüşdü,
düşdü
balıqçı əlindən
sürüşüb-düşən
balıq kimi.
Dik saxla qəddini,
Əyilmə,
Yerdən qaldırma
məhəbbətini.,
Yer tozlu idi…

24.07.2005

### *Mərmi eşq*

Bildirmə eşqini mənə,
Mən ölmək istəmirəm,
Sən də yaşa.
Qoy ki,
yetsin ömrümüz
bir-birimizdən ayrılıqda başa.
Qoy ki,
bizi yaşatsın şirin fəraq,
nəyimizə gərəkdir acı vüsal?
Gözümüz olmasın heç nədə.

Sənin eşqin
mərmi kimidir,
partlayacaq,
Səni də partladacaq,
Məni də.
Bildirmə eşqini mənə!

25.07.2005

### *Qayçılama şəlaləni*

Neçə rəngi var şəlalənin?
Görəsən neçədir sayı?
Ağ? Qara? Sarı? Xurmayı?
Dağ şəlaləsi…
Saç şəlaləsi…
Dağ şəlaləsinin rəngi ağ,
Saç şəlaləsinin rəngləri çox,
Sənin saçlarının şəlaləsi – qara.
Mən
gəl tutum qara şəlaləndən
çəkim, çəkim, çəkim
dəysin yerə,
sevindirsin məni.
Bir daha qayçılama şəlaləni,
qoy uzansın torpağadək.
Gərək
nənə şəlaləsitək
uzadasan şəlaləni sən.
Şəlalə olmaz
yerə dəyməyən şəlalədən!

27.07.2005

### *Möcüzə*

Görünmək və görmək –
Biri olmasa,
o biri olmaz.
Sənin görünməyin,
Mənim görməyim –
Qiyamət oldu.
Belə məftun etmək
          Şahin adında şairi olmaz,
Bu bir nağıl oldu,
möcüzə oldu,
kəramət oldu.

Mən bu gündən belə,
                    sözün doğrusu,
Daha möcüzəni
həqiqət bilir,
yalan sanmıram.
Yalanın
böyüyü olar bu –
Desəm
          möcüzəyə mən inanmıram.

Daha nə söyləyim,
daha nə deyim?
Bizim sevgimizə təməl qoyuldu.
Sənin görünməyin,
Mənim görməyim –
Qiyamət oldu.

28.07.2005

### *Allah balası və adam balası*

İnana bilmirəm ki,
Babamız Adəm kimi
uzun illər, əsrlər
yaddaşda qalasıyam.
Adəm – Allah balası,
Mən – adam balasıyam.

29.07.2005

### *Əməliyyat*

Yumşaq. Bərk.
Xəmir. Dəmir.
Yoğur. Döy.
Un yoğrulmasa
                    xəmir,
Dəmir döyülməsə
                    dəmir olmaz.
Bu əməliyyata əməl edən
                    Şahin Faziləm.
Qoy deməsinlər ki,
                    əzaziləm.
Əzazil olmaq deyil asan.
Yoğur! Döy!
Əzazil olmazsan!

31.07.2005

### *Utanmaz*

Onun əynində libas var,
Gündüzdən utanmır.
O gündüz geyinir,

gündüz daranır,
yuyunur.
Gecədən də utanmır,
O gecə soyunur.
Bəh, bu çılpaq qadın
gözəldir necə…
Amma
görmür ki,
onu görür gecə.
Utanmaz!

1.08.2005

### *Bir qəbirlik*

Ey torba-torba torpaq satan
maşın-maşın həyət satan,
küçə satan,
bağ satan,
sabahda-birigündə
hələ bəlkə də dağ satan
Bələdiyyə idarəsinin rəisi,
Ey cırtdan padşah,
kim qoydu səni bu vəzifəyə?
Xırda padşahmı?
Bəs xırda padşahı kim qoydu vəzifəyə?
Böyük padşahmı?
Bəs böyük padşahı?
Allahmı?
Bu nə padşahlardı?
Bu nə padşahdı
kənd satdı,
şəhər satdı,
ölkə satdı, İlahi?

Bu nə sathasatdı, İlahi?
Satdıqların
torpaqlardır,
dədənin malı deyil,
babanın malı deyil, satırsan.
Satdıqların
torpaqlardır,
kilim deyil,
palaz deyil,
xalı deyil, satırsan.
Satdıqların
Allahındı,
Allahın malını niyə satırsan?
Bu boyda vətənin
gələcək taleini,
iqbalını niyə satırsan?
Sən
hələ yuxarılarda uçursan…
Allahın yanına ucalmısan?
Allahdan icazə almısan?
Ey böyük padşah,
Ey xırda padşah,
Ey cırtdan padşah,
nə olacaq axırımız?
necə olacaq axırınız?
Bir vaxt açılmayacaqmı
sürtülən qazan kimi
                    paxırınız?
Məgər
        görən yoxmu əməlinizi?
Mühakimə etməyəcəklərmi sizi?
Əməlləriniz haqmı?
Satdığınız torpaq

dədənizdən qalma,
babanızdan qalma
torpaqmı?
Suri-İsrafil çalınmayacaqmı?
Gəlməyəcəkmi Zamanın sahibi?
Etdiklərinizi
bilməyəcəkmi Zamanın sahibi?
İndi isə,
eybi varsa da,
eybi yoxdur,
vicdanınızı atın,
satın, satın, satın.
Eybi yoxdur,
hələlik şax durun,
şax dayanın,
hələlik qədd-qamətinizi
tutun dik,
o qədər satın ki,
özünüzə torpaq qalmasın
bir qəbirlik!

2.08.2005

### *Allaha sual*

*«Əndişeyi-zat qılmaq olmaz,*
*Bilmək bu yetər ki, bilmək olmaz»*
*Məhəmməd Füzuli*

Qara gün görməkdən
saçım ağarıb,
Səninki necə?
Öz əlim hirsimdən
başımı yarıb,
Səninki necə?

Belə deyirlər ki,
nə doğulmusan,
doğmusan nə də.
Bu necə olur?
Nə qızsan,
nə qadın,
nə çağa,
dədə,
Bu necə olur?

Bir «hu» deməyinlə
Yeri yaratdın
nə təhər axı?
Adəmi cənnətdən
o yerə atdın
Nə təhər axı?

Bir anda alovu
donduran da sən,
Necə, İlahi?
Günəşi, ulduzu
yandıran da sən,
Necə, İlahi?

Füzuli dedi ki,
«əndişeyi-zat
qılmaq»dan çəkin,
Çəkinnəm, amma
Kim cavab verəcək
ey qoca Şahin
Suallarıma?

Gəlmək istəyirəm
                  sənin yanına,
İlahi,
        qəlbimi niskilin sarıb.
Yaradılanın
Belə sualı var Yaradanına:
Qara gün görməkdən
                  saçım ağarıb.
Səninki necə?

4.08.2005

### *Tamridaya!*

Sən var idin,
                  mənə yaddı tənhalıq,
tənha idi,
                  narahatdı tənhalıq…
Gəldi, məni tapdı
Və gəlib itirdi öz tənhalığını.

Sən var idin…

5.08.2005

### *Heç nə yerləşmir ürəyimə*

Heç nə yerləşmir ürəyimə,
fikirlərim böyük,
ümidlərim böyük,
arzularım böyük,
duyğularım böyük,
sədaqətim böyük,
məhəbbətim böyük…
Sanki

olmaq istəmirlər
ürəyimə yük.

Heç nə yerləşmir ürəyimə,
Qoyacaqlar tənha məni,
tək məni,
Günlərin bir günü
ruhum da yerləşməyəcək
bədən adlı qəfəsə,
tərk edəcək məni.

Heç nə yerləşmir ürəyimə…

7.08.2005

### *Məktub göndərdim sənə*

Əlimə baxa bilmirəm,
Əlimin gözünə baxa bilmirəm,
Əlimin üzünə baxa bilmirəm.
Gözünün
səssiz sözünə
baxa bilmirəm,
Mən sarıdan arxayın idin,
dinc idin,
İncitdim səni.
İncidin.
O məktubda
o sözləri sənə
əlim yazdı,
Əlimdəki qələm yazdı
və yazdığımı göndərdim sənə,
Bağışla, könlünə dəydim.
Gərək

o məktubu yazmağa
əlimə izn verməyəydim.

Əlimə baxa bilmirəm…

10.08.2005

### *Bədbin əhvali-ruhiyyə*

Nuş etdim şərabını,
qalmadı,
        küpü qaldı.
Küpü də qırılacaq,
Küpü də qalmayacaq.
İpi də qırılacaq,
İpi də qalmayacaq.

Yer Kürəsi bir zaman
qırılacaq ipindən,
Üstü də qalmayacaq,
Dibi də qalmayacaq…

11.08.2005

### *Cinas*

Tutduğum kəpənəyin
özü torpağa düşdü,
qanadı
        əllərimdə.
Qırmızı mürəkkəbli
qələmi elə sıxdım
qanadı
        əllərimdə.
Qan rəngi – qələmimdə,

qan adı –
 əllərimdə.

12.08.2005

### *Ölülər ölü deyil*

Behiştdə diri varsa,
Ölülər ölü deyil.
Əl çalıb oynayarsa,
Ölülər ölü deyil.

Ey Məmmədquluzadə,
Yaşamırmı dünyadə
Ölü – düşərsə yadə?
Ölülər ölü deyil.

Eşq gülünü üzürsə,
Cənnət bağın gəzirsə,
Cəhənnəmə dözürsə,
Ölülər ölü deyil.

Bu məfhumda varmı sirr,
Şəhadət eləyibdir,
Allah özü deyibdir[1],

---

[1] «İnna nəhnu nühyil movta»
Tərcüməsi: «Biz ölüləri dirildərik»
Qur'ani-Kərim, Yasin surəsi,
12-ci ayə;
«Fə qalə ləhumullahu movti summə əhyahum»
Tərcüməsi: «Sonra Allaha onlara «Ölün» dedi.
Sonra hamısını diriltdi»
Qur'ani-Kərim, Bəqərə surəsi,
243-cü ayə.

Ölülər ölü deyil.

Şahin Fazil, hər nəfər
Ölən kimi, dirilər.
Diridir, ay dirilər,
Ölülər ölü deyil.

13.08.2005

### *İtirmək və tapmamaq*

Hayandan gəlib çıxdı
Bu ayrılıq, bu hicran?
Gələcək ölümüm də,
Səni itirəcəyəm,
Məni tapmayacaqsan.

Sözüm heç kimə deyil,
Təkcə sənədir bu an:
Məni yaxşıca dinlə,
Səni itirəcəyəm,
Məni tapmayacaqsan.

Çox baxmışam işığa,
Gözüm düşür işıqdan.
Gözümün işığıtək
Səni itirəcəyəm,
Məni tapmayacaqsan.

Bu məkan fani məkan,
Bu zaman ani zaman.
İtirən kim, tapan kim?
Səni itirəcəyəm,
Məni tapmayacaqsan.

Hərçənd sənə gərəyəm,
Hərçənd mənə dayaqsan,
İtirmək və tapmamaq! –
Səni itirəcəyəm,
Məni tapmayacaqsan.

15.08.2005

## ***Çıxım gedim***

*«Mən çoxdan ölmüşün*
*Yanına adamlar yığılıb*
*Yerdən götürə bilmir,*
*Durum gedim»*

Kədər meyi içmək,
qəm yeməkdir
mənim işim-peşəm,
Mən qaragün
bu dünyaya
niyə gəlmişəm?
Çıxım gedim.

Sərvə dönüb
Sərvinaz bağında bitmirəm,
Eşq dağına çıxmıram,
Məhəbbət ovlağına getmirəm,
Çıxım gedim.

Vəsl əlim
hicr çəpərini yıxmadı,
Ayım batdı,
Günüm çıxmadı,
Çıxım gedim.

Bu halət məni bezdirdi,
Ətalət məni bezdirdi,
Bu dünyada
qalmağımla
getməyim birdi,
Çıxım gedim.

Niskilim batman-batman,
Ümidim qram-qram,
Yaşamağa yaramıram,
Çıxım gedim,
Çıxım gedim!...

17.08.2005

### *Acizanə rica*

Həzrəti-Adəm sürüşdü
Göydən Yerə düşdü,
qalmadı tək.
Ə'lahəzrət Yer sürüşsə
hara düşəcək?
Yoxluğa?
Yoxluğu
varlıqla görüşdürmə,
İlahi, sürüşdürmə,
Ə'lahəzrət Yeri
ayrı yerə düşdürmə.
Həzrəti-Adəm sürüşdü…

18.08.2005

### *Təsvir*

Daşını çəkib apardı,

Dərya torpaqla oynayır.

Yaman əsdi, yaman çoşdu,
Külək yarpaqla oynayır.

Əllərini sıxdım, gülüm,
Barmaq barmaqla oynayır.

20.08.2005

### *Üşüntü*

Üşüyürəm,
döşəyimi yoğunlatma,
üstümə
on-on beş kiloluq
Xınalıq yorğanı atma,
üşüyürəm
üşüyürəm və bu soyuq mühitdə
bir-birimizə isti yanaşaq,
neçə vaxtdır ki, tanışıq,
mənə elə gəlir ki,
sən də,
mən də soyuqlamışıq.
İsidə bilmirsən hələ məni.
Sevginə bələ məni,
üşüyürəm.
Əgər sən üşüsən
mənim sənə verəcəyim
sevgi sərvətini
üşüntünə
dərman elə,
həb elə
və dərhal

Şahin Fazildən
sevgi bürüncəyi tələb elə.
Üşüyürəm…

22.08.2005

### *Səhər sənə oxuyacağım məhrəmanə şe'r*

Gecə!.. Bizim gecə!..
İkimizin gecəsi,
Məhrəm gecə!..
Bu aləmdə
başqa bir aləm gecə!..
Gündüz vaxtı,
    əlbət ki,
        görürük bir-birimizi.
Gecə vaxtı
    qətran gözləriylə
        gecə görür bizi.
Amma biz
gecəni saya salmırıq,
gecənin razılığını almırıq,
utanmırıq gecədən.
Gecə, mən və sən,
bir də
bic-bic sayrışan ulduzlar.
Biz onları görürük,
bizi görməyir onlar.
Lap görsələr də nə olacaq ki?..
Lap bizi kimsə görməsin,
bu məhrəm gecə görsün təki…
Gecə dözür, dözür,
gecə baxır, baxır,
utanır, utanır

Və
səhərə yaxın üzü qızarır.
Gecə keçdi,
Sən şad, mən şadiman…
Bu gün ötəcək,
gecə yenə gələcək,
sabah səhər
sənə
yenə
şe’r oxuyacağam:
Gecə!.. Bizim gecə!..
Məhrəm gecə!..

24.08.2005

### *Cavabsız sual*

Görəsən
Əzrayıl neçə nəfərdi?
O Əcəl Mələyi neçə nəfərdi?
Əgər
bir nəfərsə,
bəs, minlərlə adamı
bir anda
necə yerə sərdi?
Görəsən
Əzrayıl bir saniyədə
neçə milyon kilometr yol gedir?
O Əcəl Mələyinin əliylə
baş biçilir,
əl üzülür,
qol gedir.
Bir anda
çox-çox adamın

birini boğdu,
birini kəsdi,
birini üzdü,
birini əzdi,
birini
onlarla adamla
bir sıraya düzdü,
güllələdi,
minini kül elədi,
yüzünü fəna şilləsiylə
şillələdi.
Hamısı da bir anda
özü də çox tərəfdə,
çox yanda…
Görəsən
Əzrayılın neçə əli var ki?
Naqasaki,
Osventsim,
Xatın,
Xocalı…
Əzrayılın
əli uzalı, uzalı, uzalı…
Hicrana çevirir vüsalı…
hey təkrarlanır dönə-dönə
Şahinin sualı:
Gəlişi
minlərin gedişi,
Necə icra edir bu qədər işi?

Görəsən Əzrayıl
neçə nəfərdi?

26.08.2005

### *Biri dedi*

Biri gərdəyə girir,
biri qəbrə.
Biri sevgiyə varır,
biri cəbrə.
Biri səbirsizliyə dalır
biri səbrə.
Biri nə'şə çəkir,
biri ah…

Başqa cür olsaydı
yeknəsəqlikdən
vallah-billah
darıxardı Allah.

Bilmirəm səhv elədi,
                    ya eləmədi,
Bunları mən demədim,
                    biri dedi.

28.08.2005

### *Öz-özümlə söhbət*

- Ruhum
Allahın yanına
necə gedər,
necə çatar?
- Allah bilir.
- Gündüz çatar, gecə çatar?
- Allah bilir.

(Bir səs mənə «gəl, gəl» deyir,

Hey çağırır neçə gündür,
«ucalığa yüksəl» deyir.
Sanki mələk avazıdır,
Bilməyirəm məndən razı,
yoxsa məndən narazıdır.
Neçə gündür
bilməyirəm bu çağırış nə üçündür.
Getməliyəm məni çəkən kəs yanına,
Getməliyəm mənə gələn səs yanına).

- Hardadır nərdivan, çıxım,
Hardadır nərdivan, gedim,
Haçan gedim?
- Allah bilir.
- Allah kimdir?
- Allah bilir! Allah bilir! Allah bilir!!!

29.08.2005

## *Şe'r aşiqi kimi*

Sən
hər gün oxuyacaqsan
hər gün yazdığım şe'rimi
şe'r aşiqi kimi.
Dayanmışam sözümün üstündə:
Günlərim şe'rsiz ötməyəcək bir gün də!
İşdi-şayəd sabah
oxumasan yazdığımı hərgah,
bu
gözlənilməz olmasın sənin üçün –
deməli, ölmüşəm bu gün.
Şe'r aşiqi kimi
hər gün oxuyacaqsan

hər gün yazdığım şe'rimi.

31.08.2005

### *Mən belə istəyirdim*

Ey əlinə dəryaz alıb,
əkinçitək
ümidimi, gümanımı
zəmi kimi
biçən pəri,
Kaş duyaydın ürəyimdən
ılıq-ılıq,
hamar-hamar,
damar-damar
keçənləri.
Kaş geridə qoyaydın sən
su yerinə şərbət kimi
sevgi meyi içənləri,
Mən belə istəyirdim.

Macal günü,
Vüsal günü
qarışaydı tellərimiz bir-birinə,
dolaşaydı əllərimiz kələf kimi bir-birinə,
həzz dolaydı qəlbimizə
dərd yerinə, qəm yerinə,
Mən belə istəyirdim.

Tanıyaydı sirdaşlarım,
yoldaşlarım,
qonşularım,
sağım səni, solum səni.
Kaş qucaydı

gecə-gündüz,
gündüz-gecə
qolum səni,
Mən belə istəyirdim.

Kaş olaydı bir an kimi,
bir ləhzəlik zaman kimi
hicrin qısa, telin uzun,
Olmayaydı
Həzrət Musa peyğəmbərin
əsasıtək
dilin uzun.
Mən belə istəyirdim.

Sən belə istəmədin.

1.09.2005

### *Mübarək olsun*

Yenə şənliyim bitibdir,
Kədərim mübarək olsun.
Yenə faidəm itibdir,
Zərərim mübarək olsun.

Gözümə nələr göründü!..
Zəhərim şəkər göründü,
Şəkərim zəhər göründü,
Zəhərim mübarək olsun.

Yenə qüssə-qəm şəfadır,
Yenə dərd-ələm şəfadır,
Sevənə qəhər rəvadır,
Qəhərim mübarək olsun.

Mənə sevgi zərdi, gəldi,
O ki mö’təbərdi, gəldi.
Necə xoş xəbərdi, gəldi,
Xəbərim mübarək olsun.

Əsərəm yolunda eşqin,
Gəzərəm yolunda eşqin,
Dözərəm yolunda eşqin,
Təpərim mübarək olsun.

Dedilər «bu yolda şər var,
Elə sanma ki, səmər var,
Aralıqda çox çəpər var»,
Çəpərim mübarək olsun.

Ola bisəmər, mübarək!
Dəyə qoy zərər, mübarək!
Mənə hər xətər mübarək,
Xətərim mübarək olsun.

Yenə Şahini igid san,
Ki, yetib mürada, ey can,
Yazılıb «Üçüncü Divan»,
Əsərim mübarək olsun!!!

2.09.2005

### *Ayaq səsi*

Qədəm…qədəm…qədəm…
Kölgəmdən savayı
arxamda kimsə yox,
amma

bu nə müəmma –
Ayaq səsi eşidirəm.

Təşviş düşür canıma.
Ey-y-y, niyə çıxmırsan üzə?
Niyə dəymirsən gözə?
Niyə gəlmirsən yanıma?
Amma
Ayaq səsi eşidirəm.

Yoxsa,
əcəlimin
mənə çatmaq dəmidir?
Yoxsa,
bu bəndənin
əbədi yatmaq dəmidir?
Yoxsa,
Əzrayılın qədəmidir?
Ayaq səsi eşidirəm.

Yox, Əzrayıl qədəmləməz,
Əzrayıl uçar gələr,
Əzrayıl qaçar gələr,
Əzrayıl qəfil gələr,
Əzrayıl «gəlirəm» deməz.
Ayaq səsi eşidirəm.

Qədəm…qədəm…qədəm…
Ardımca gələn qədəm…
Arxama düşən qədəm…

Öz qədəmimdir bu qədəm,
bu qədəmdir qoymayan

səhv qədəmlərə məni.

Ehtiyatla gəzən – mən,
Qədəmlə izlənən – mən.
Ayaq səsi eşidirəm…
Ayaq səsi eşidirəm…
Ayaq səsi eşidirəm…

2.09.2005

### *Sınıq qəlbin dedikləri*

Böyük necə də
sinə dağımız,
heç də olmadın
mənə tay kimi.
Dağılmaqdadır
ittifaqımız,
Gəl ayrıq olaq
günlə ay kimi.

Bizim fərqimiz
açıq-aşikar,
Mən yarımadım,
özgəni bəyən.
Nə sənin qədər
məni sevən var,
nə mənim qədər
səni sevməyən.

4.09.2005

### *Adsız şe'r, yaxud adsız uşaq*

Sanki adsız uşaqdı,

Bu şe’r mənimki deyil,
Bu şe’ri mən yazmamışam,
Qafiyəsizdi,
Sərbəstdi,
Ağ şe’rdi,
Nə dadı var, nə adı,
Necə deyərlər
«Belimdən gəldi
mənə oxşamadı»,
Sanki adsız uşaqdı.

Bu şe’ri mən yazmamışam.

5.09.2005

### *Allahıma!*

Ömrümü uzun elə, Allahım
Sanma ki, günahlarım çoxalar.
Birbəbir saysan əgər
ömrümün günlərindən
savablarım çox olar.

Ömrümü uzun elə, Allahım,
Çoxalıbdır savablarım
günahlarımı yuyum,
sağlam bir ömür ilə
uyuyum.

Ömrümü uzun elə, Allahım…

6.09.2005

***Soyuq, isti…***

Soyuq baxış,
Soyuq söhbət,
Soyuq əl
Və
          mükəmməl soyuqluq.
İsti adam kimi
Gəl sənə borc verim istiliyimi,
qoy olsun
isti baxış,
isti söhbət,
isti əl
Və
          mükəmməl istilik.
Qoy donun açılsın,
soyuqlu gün ərisin
Və dilin desin:
Soyuqluq bəsdi,
Soyuqluq pisdi!
Yaxşıdı,
Soyuqdan isti yaxşıdı.
Soyuq yox,
İsti istə.
Soyuğa «yox»,
İstiyə «hə»!
Soyuqdan, soyuqluqdan
                    donmaq istəmirəm,
İstilikdənsə
                    yanmaq istəyirəm.
Soyuq
 soyuq dadır,
Soyuq

soyuqladır,
İsti
isidir.
Həmişə
isti istə.
Soyuğa «yox»,
İstiyə «hə»!

7.09.2005

### *Qəddar aşiq*

Görmək istəyirəm sevgimi!
Soyun paltarını,
soy dərini,
uzat köksün içindəki
yumruq boyda ürəyinə
əllərini,
çıxar ürəyini,
Aç onun qapısını taybatay,
baxım ona sandıq kimi,
görüm sevgimi.
Göstər mənə sevgimi.
Harada gizlətmisən?
Nə boydadır o?
Ürəyini bütünmü tutub?
Ya, ürəyinin küncündəmi?
«Sənə qurban olum» deyərdin,
qurban kimi
soy dərini,
köksünü yar,
göstər mənə sevgimi.
Yoxsa ürəyim partlayar.

8.09.2005

## *Qocaldı məhəbbətim*

Sevinclə daşıyırdım,
Sevənə yük deyildi.
Hopduraraq canıma,
qanıma,
hüceyrəmə
həzz ilə yaşayırdım,
Yaşı böyük deyildi,
Qocaldı məhəbbətim.

Dünyamızın üzünə
baxa-baxa qocaldı.
Gözəllərin gözünə,
ürəyinə,
qəlbinə
axa-axa qocaldı,
Qocaldı məhəbbətim.

Qocaldı məhəbbətim,
O qocadır, mən cavan.
Məndən əvvəl qocaldı
Məndən sonra doğulan,
Qocaldı məhəbbətim.

9.09.2005

## *Özümün özümə sözü*

Baş!
Ayaq!
Başımız üstdə gömgöy göy,
Ayağımız altda qapqara torpaq.

Nə qədər ki ömrümüz var
Sözümüzdə
Baş-ayaq vurmadan yaşayaq.
Baş!
Ayaq!

11.09.2005

### *Şərab ver*

Mənə şərab ver, şərab,
Qorxma, xam deyiləm ki.
Şərəşur danışmaram,
Şər adam deyiləm ki.

Mənə şərab ver, şərab,
Bəlkə qəmi unudam.
O dünyanı yad edib
Bu aləmi unudam.

Mənə şərab ver, şərab,
Çox yanı tutub riya,
Çox yeri bürüyüb şər,
Bugünkü həqiqətdən
Ayıq-sayıq danışsam
Məni öldürəcəklər.

Mənə şərab ver, şərab,
Qoy baxışım süzülsün,
Gözlərim sərxoş olsun,
Qoyma düzgün söz deyim,
Sözlərim sərxoş olsun,
Mənə şərab ver, şərab.

12.09.2005

## *Dərd*

Əynimə geyinmişəm
çuxa kimi
dərdimi.
Çıxara bilməyirəm
onu paltarım kimi.
Bu aşiqin dərdi var,
İlahi,
Geyinib-çıxararam
paltarımı mən özüm,
Dərdimi özün çıxar,
İlahi.

Əynimə geyinmişəm
çuxa kimi
dərdimi…

13.09.2005

## *Demokratiya*

Nağıl yazan yox.
Oğul istəyirəm Məlikməmməd ola,
Oğul istəyirəm Koroğlu ola!
Nağıl danışan çox,
Nağıl yazan yox,
Həqiqəti yazmağa nə var ki?
Demokratiya dövrümüzdür! Demokratiya!
Oğul istəyirəm nağıl yaza,
Biz də
şirin-şirin xəyallara dalıb
unudaq bu hərc-mərci,

Yerdə əlimizə düşmür,
Heç olmasa
Göydən əlimizə düşə
dolanışıq xərci,
heç olmasa
            üç alma…

Nağıl yazan yox…

14.09.2005

### *Qafiyə*

Söz oyunudur qafiyə,
Şairlərin oynadığı
        öz oyunudur qafiyə.
Qafiyəpərdazların
yüz oyunudur qafiyə.
Sərbəst fikir,
Sərbəst şe’r!!!
Söz oyunudur qafiyə.

16.09.2005

### *Danışsam*

Dərdlərimiz…
Ümman boyda dərdlərimiz…
Yer Kürəsi adlı məkan boyda dərdlərimiz…
Balığı danışdırmağa nə var?
Mənə elə gəlir ki,
Dərdlərimizi
balığın qulağına danışsam,
Danışar.

Dərdlərimiz…

17.09.2005

### *Əzrayıla!*

Həyatım zəqqum kimi,
Əriyirəm mum kimi…
Şərab şişələrimi
vurub başıma sındır,
yerə tökülsün içi.
Al əlinə çəkici.
Al əlinə çəkici
şərab kuzəsini qır,
sonra gəl,
sonra işinə başla,
icra elə əmrini
Ulu qibləgahımın,
pərvazlandır ruhumu
yanına Allahımın.
Gözləyirəm səni mən,
Ölmək – mənim işimdir,
Öldürmək – sənin peşən;
Və'dəsi yetənlərin
dərhal yanına getmək,
Allahın fərmanına
sidq ilə əməl etmək
sənin müqəddəs işin,
sənin ehtirasındır.
Qədəhlərimi tulla,
şərab şüşələrimi
vurub başıma sındır…
Sonra gəl!..

19.09.2005

### *İnsan və zaman*

İnsan varsa
                zaman var,
İnsan yoxsa
                zaman yox.
Qoca Yer Kürəsində
İnsan yoxsa,
zamanın
        olmasına güman yox.
Qoca Yer Kürəsində.
Zaman, qoru insanı,
Zaman olmağın üçün
Sən insana borclusan,
O yoxsa,
Sən də yoxsan.
Zaman insan üçündür,
İnsan zaman üçündür,
İnsan,
        zamana acı!
İnan, yoxdur zamanın
sənin ton-ton yığdığın
silaha ehtiyacı.
Belə getsə
bir zaman
sənsiz olar
Yer adlı
        bu məkan.
Məkanı düşünürəm,
Zamanı düşünürəm,
İnsana acıyıram,
İnsanı düşünürəm,

təşviş bürüyür məni –
insan həm öz-özünün,
həm zamanın düşməni.

…İnsan varsa
zaman var!..

21.09.2005

### *İpək yolu*

Bu gün yenə yanımdasan,
nə xoşdu bu.
hop cismimə,
qarış mənə,
canıma dol.
Sənin yanıma gəlişin –
İpək yolu!
Sənin yanımdan gedişin –
çınqıllı yol,
Hansı yaxşı?

Ayaqların qoy həmişə
İpək yolu soraqlasın,
İpək yolu ayaqlasın,
Gün «gəl» desə,
Ay «gəl» desə
Günə getmə,
Aya getmə,
Gün saralsın yana-yana,
Ay ağlasın,
Ayaqların qoy bu yolu ayaqlasın.
Dodaqların qeyri yola
«küs» söyləsin,

«inci» desin,
İpək yolu daha yaxşı,
ayaqların inciməsin.

Sənin yanıma gəlişin –
 İpək yolu.

22.09.2005

### *Bu gün və sabah*

Evdəyəm bu gün,
Sabah gələcəyəm sənin yanına,
darıxmışam səninçin,
Sabah
sənə deyəcəyəm ki,
dünən tənha idim,
Sabah tənha olmasam da
tənhalığın nə olduğunu,
                    necə olduğunu
başa salacağam sənə
(məni tənha qoymayasan deyə).
Sabah
yanından qayıdacağam evimə
                    yenə.

Özümü düşmənsiz adam sanardım,
Xeyr, edirəm inkar:
Mənim də düşmənim var –
                    Tənhalıq!

Evdəyəm bu gün,
Sabah gələcəyəm sənin yanına.

25.09.2005

### *Bilmirəm, bilirəm…*

Haqsızı Allah kimi
Dağlamağı bilmirəm.
Dilimi məddah kimi
Yağlamağı bilmirəm.

Həyat rənglər axını…
Günlərimin ağını,
Qara qəm qalağını
Saxlamağı bilmirəm.

Nə halətdi bu məndə –
Göz yaşım, uyu məndə,
Qaçqınları görəndə
Ağlamağı bilirəm!

27.09.2005

### *Azərbaycandan rica*

Azərbaycan,
Qarabağın gözü yolda,
Döyüşə tələs,
Görüşə tələs,
Neçə ildir ki, gözləyirsən,
Gözləməyin bəs!
Vuruşmağın, döyüşməyin səmtini kəsmə,
O torpağa –
Qarabağa gedən yolun
önünü kəsmə,
yönünü kəsmə,
Gözləməyin bəs!

Atəşkəsi kəs!
Atəşkəsi kəs!!!

4.10.2005

### *Mən*

Şahinəm, üstümdən külək əsirsə,
Xoşbəxtəm ki, səmum yelləri əsmir.
Əgər bir gözəlin dili kəsirsə
Məni baltaçının baltası kəsmir.

Ayırma əlini əlimdən, gözəl,
Qonsa da qar rəngi telimə mənim.
Bəxtimi yazanın qələmi gözəl,
Odur qələm verən əlimə mənim.

Şakərim muğamat, mahnı, bayatı,
Bir əlimdə təsbeh, bir əlimdə cam.
Bu qoca aləmin alim sovqatı,
Bu gidi dünyanın şair payıyam.

Qoy gəlsin evimə harda şair var,
Mən misra adamı, söz adamıyam.
Mənə qoy verməsin əlini əğyar,
Yandırram əlini, köz adamıyam.

Adəm itirəni aləm axtarır,
Çoxunun güzarı cənnətə düşmür.
Tamah munis gəzir, həmdəm axtarır,
Nəfsim sözə düşür, sərvətə düşmür.

Şe’ri də sevirəm, yarımı da mən,
Şe’r qəlbimdədir, yar ürəyimdə.

Hələ cilalanıb şe’rə dönməyən
Qafiyə məzarı var ürəyimdə.

Ölsəm də, yatağım olsa da qəbir,
Sanmayın dünyanın itən kəsiyəm.
Elə toxum var ki, cücərə bilmir,
Elə toxumam ki, cücərəsiyəm.

Bu günün qədrini bilirəmsə də,
Unuda bilmirəm əsla dünəni.
Bu günüm dünənin çiyninin üstdə
Yol gəlib bu günə çatdırıb məni.

Günlərin bir günü yetəcək fəraq,
Sirdaş itirəcək məntək sirdaşı.
Başımın üstünə bir daş qonacaq,
Yanıma gələnlər öpəcək daşı.

9.10.2005

### *İsti söhbət*

Məni isti-isti
                    yenə də dindir,
İsti kəlmələrlə yenə isindir,
Soyuq danışma.

İsti danışmasan sözüm üşüyər,
Soyuq baxışından gözüm üşüyər,
Soyuq danışma.

Şahini qarşıla isti «salam»la,
Belə hərarətli, isti adamla
Soyuq danışma,

Soyuq danışma.

11.10.2005

### *Turan oğlu*

Gendə qalıb
İran-Turan döyüşləri,
Gendə qalsın.
Kəllə yaran,
baş qoparan döyüşləri
Gendə qalsın.
Amma, ata-babamızın
hay-harayı,
barıt qabı,
oxu, yayı
Səndə qalsın,
Məndə qalsın.
Daha durub üzbəüzə,
Qan gölündə üzə-üzə
İran-Turan döyüşməsin,
döyüşüblər illər boyu,
daha bir an döyüşməsin.
Amma,
əsir Qarabağın,
adamları əsir-yesir Qarabağın
nicatına axın-axın
                    gərək gedək,
Qəsbkara həmlə edək.
Hayandadır vətənimin
qan-qadalı günlərində
düşmənlərin önlərində
sal daş kimi,
tunc qayatək duran oğlu?

Neçin susub
yıxan-basan
Turan oğlu?
Turan oğlu!!!

15.10.2005

### *İnsan-şeytan*

Torpaq yaratmışdı,
Su yaratmışdı,
Od yaratmışdı,
Hava yaratmışdı,
Hələ İnsan yaratmamışdı…

Yaratdı İnsanı
və
Yerin başına Allah iş açdı.
İnsan
başladı
özünə Allah deməyə,
Allahsızlıq eləməyə –
Torpağı yandırdı,
Suyun axarını dayandırdı,
Odu söndürdü,
Havanı qurutdu –
İnsan budu!
Budu İnsan –
Qorxmayan Allahdan İnsan.
Şeytan vadar etdimi onu?
Allah rəva bildimi bunları şeytana?
Allah rəva bildimi İnsana
şeytanlıq eləsin?
Yoxsa,

şeytan elə İnsanın özüdür?
Yox, yox,
inanmalıyıq Qur'ana – Allah sözüdür.
İnsanın içindədir şeytan,
İnanmalıyıq Qur'ana,
İnsan!

Torpaq yaratmışdı,
Su yaratmışdı,
Od yaratmışdı,
Hava yaratmışdı,
Hələ İnsan yaratmamışdı…

17.10.2005

### ***Həsrət***

Cavanlıq cismimdən çoxdan ayrılıb,
Az-çox yarımışam amma sevgidən.
Ürəyimdə sənin həsrətin qalıb,
Yoluna dikmişəm gözlərimi mən.

Axı gələcəksən yanıma haçan?
Nə vaxt yetişəcək fəraqın sonu?
Hamını çəkəcək fərqə varmadan
Həyatın gəlişlə-gediş qanunu.

Gəlişdir, gedişdir bu dünya aşkar,
Ürəkdə intizar, fərəh, qəm qalır.
Sənin gəlişinə neçə qədəm var?
Mənim gedişimə bir qədəm qalır.

18.10.2005

## *İki yox, bir!*

Sevgi!
Sevirik,
Bir-birimizi sevirik,
Sanki ikimiz birik.
Sevgim sandım sevgini,
Sevgin sandın sevgimi
Və
ikimizin bir ürəyi var
bəzi Siam ekizləri kimi.
Qoy əğyar cərrahlar
ayırmağa cəhd etməsinlər bizi,
didib parçalamasınlar ürəyimizi,
çünki
ikimiz birik,
biz
Siam ekizləriyik.
Sevgi!

24.10.2005

## *Tərəziçi*

Tərəziçiyəm.
Amma,
nə papiros çəkirəm,
nə siqar,
nə dövlət çəkirəm,
nə var,
nə araq çəkirəm,
nə nə'şə…
Bunları çəkməsəm də,
Amma,

çəkirəm həmişə:
Çəkirəm
acıq çəkirəm –
rüşvətxorların acığını çəkirəm,
yetimlərin aclığını çəkirəm,
kasıb-kusubun qəmini çəkirəm,
qaçqınların dərd-ələmini çəkirəm…
Çəkhaçəkdi…
Şahin çəkdi,
siz də çəkin.
Belə çəkmək həvəsi var kimdə?
Çəkirəm,
Vicdan tərəzisi var əlimdə.
Çəkirəm, çəkirəm, çəkirəm,
Tərəziçiyəm!

28.10.2005

## ***Ətək***

Ya Allah!
Səni istəyirəm mən.
Əlim ətəyinə çatmır ki,
tutum ətəyindən.
Nə vaxtsa
çatacağına inanmıramsa da
əlimə deyirəm «çat»,
ha əlimi uzadıram çatmır.
Ya Allah!
Sən hər şeyə qadirsən,
Ətəyini mənə uzat.

31.10.2005

### *Balıqqulağı*

Yer vardı, gül vardı, budaq vardı,
Göy vardı, yağmur vardı, isti vardı, sazaq vardı,
Hava vardı,
Səma vardı,
        İnsan yoxdu.
Yox idik yer üzündə,
Yer üstü,
Yer altı
        dinc idi…
Bir balıqqulağını sıxdım sahildə,
Suda balıq incidi.
Yazıq balıqqulağı,
Yazıq balıq.
Yaxşı ki, sıxdığım
Adamqulağı deyildi,
Adamlar
əfv etməzdilər bu xamı,
yandırardılar atamı.
Balıqqulağı…
Balıq qulağı…

4.11.2005

### *Kişi ağlayışı*

Ağlayıram,
pis ağlayıram.
Hönkürtümü eşitmirsən?
Arxayın ol, qulağına heç nə olmayıb,
Sən – yaxşı eşidirsən,
Mən – səssiz ağlayıram.
Ağlayıram

Bu adam
səssiz ağlayan kişidir,
Ağlamağımı təkcə
sükut eşidir,
Ağlayıram…

6.11.2005

### *Qubada*

Əcəb bağdır,
Əcəb torpaqdır…
Bu gözəlliyi
tə’rif edə bilmirəm,
lalam burda.
Lalam burda.
Bu bağdan,
bu torpaqdan
gözəl məzarlıq olar,
xoşbəxtdir
burda yatan ölü.
Lalam burda.
Qocalmışam.
Onsuz da öləcəyəm,
istəyirəm
lapdan əcəlim çata,
ölüb qalam urda.

Əcəb bağdır…

7.11.2005

### *«Quş qripi»*

Qartək ağardı saçlar,

Başın xəbəri yoxdur.
Qocaldım açıq-aşkar,
Yaşın xəbəri yoxdur.

Ürəyimdə göz yaşı.
Gözüm, ağla, süz yaşı…
Həyat dəyirman daşı,
Daşın xəbəri yoxdur.

Qaçqının məlalından,
Didərginin halından,
Naxoşun əhvalından
Xoşun xəbəri yoxdur.

Savaş nə üstündədir?
Dalaş nə üstündədir?
Dünya nə pis gündədir?
Buşun xəbəri yoxdur.

Şahin, elədilər car
Adamlara adamlar:
«Quşda quş qripi var»,
Quşun xəbəri yoxdur.

8.11.2005

### *Yaxan düymələ*

*«Səni aldatmasın umud,*
*Düymələ, düyməsindən tut.*
*O dəli sevdanı unut,*
*Yaxan düymələ»*
*Məlahət Yusifqızı*

Köynəyində düymə yeri,

Yaxan düymələ.
Sökülməyib tikişləri,
Tökülməyib düymələri,
Yaxan düymələ.

Eləmə zar baxışları,
Yaxan udar baxışları,
Könlüm-gözüm toxdursa da,
Birdən tutar baxışları,
Yaxan düymələ.

Nə Əslisən, nə Kərəməm,
Nə də sənə möhtərəməm.
Qara Keşiş ayıq-sayıq…
Ağlı başda eləyib cəm
Yaxan düymələ.

Evimizə gəlişin var,
Gəlişin var, gedişin var.
Əllərini çək kənara,
Yaxam ilə nə işin var?
Yaxan düymələ.

Boş xəyala düşmə nahaq!
Yerdə Şahin, göydəsə Haqq
Tilsimlənən köynəyinin
Düyməsini açmayacaq,
Yaxan düymələ!

9.11.2005

### *Utanc hiss*

Sanırıq ki,

bu dünyada
bizdən betər aşiq yoxdur,
təkcə biz varıq.
Bir-birimizdən ötrü
yanırıq bu gün,
Düşünürük
gələcəkdə də
bir-birimizçin yanarıq.
Düşünmürük
nə zamansa
bu sevgidən usanarıq.

Qaranlıq
qara mələfə kimi
çökdü üstümüzə.
Yandırma işığı,
İşıq baxar bizə,
Utanarıq.

11.11.2005

### *İki səhər*

Fərəhimdən bu gecə yatmamışam sübhə kimi,
Gələcəksən yanıma sən bu səhər.
Bu gecə yerdə nələr çəkdiyimi
bilməyib yerdə olanlar və bilib göydəkilər.
Gecə ah-vay elədim həsrətlə,
Necə ah-vay elədim həsrətlə,
Bu gecə bir yuxunu zay elədim həsrətlə.
Bu gecə xoş səhərə müjdə, dilək gözləyirəm,
Bu gecə gördü mələklər ki, mələk gözləyirəm.

Gələcəksən yanıma sən bu səhər,

Olacaq qəmli həyatım necə də şən bu səhər.
Yağsa da güclü yağış, əssə də şiddətlə külək,
Gələcəksən yanıma loğmantək.

Səni çox gözləmişəm,
Səni çox səsləmişəm.
Bu səhər nöqtə qoyub sən gecə niskillərimə
Gələcəksən yanıma,
Verəcəksən əlini əllərimə,
Yayacaqsan o qara tellərini
Yenə ağ tellərimə.
Məni sən şad edəcəksən bu səhər,
Sən ki, bərbad eləmişdin neçə müddət könlü
Yenə abad edəcəksən bu səhər.
Gələcəksən yanıma,
Bu gecə yatmamışam sübhə qədər.

Gələcəkdir bu səhər mənzilimə gör nə səhər –
Birini göndərib Allah və gələr göylərdən;
gələcək xoş səhərin
o biri sənsən, sən.
İki parlaq səhər ilə olacaq ağ otağım,
olacaqdır necə parlaq otağım.
Sənə «gəl, gəl» deyirəm, gözləyirəm mən səni, gəl,
İstərəm görməyi gül çöhrəni, gəl
Və sevindir məni, gəl.

Bu zaman
qapının zəngi çalındı… Və səhər görsəndi.

Elə bil zərgərə zər görsəndi,
Elə bil yolsuza yol görsəndi,
Elə bil əlsizə əl, qolsuza qol görsəndi.

Elə bil təşnə olan aşiqə Zəmzəm gəldi,
Şadlığımdan elə bil gözlərimə nəm gəldi,
Nə gözəl dəm gəldi –
Elə bil mənzilimə nur səpələndi bu səhər
Və qoşa oldu səhər,
Birini göndərib Allah və gəlib göylərdən,
O biri sənsən, sən.

Qoy bulaqtək hamının arzusu daşsın, yarəb,
Çağlayıb sahili aşsın yarəb,
Kaş səhərlər qoşalaşsın, qoşalaşsın, yarəb.

Qoşa oldu səhərim –
Bu səhər gəldi səhərtək o pərim.

13.11.2005

### *Mənim ürəyimdə ölü uşaq var*

Daha inanmıram cahanda haq var,
Deyin, ürəyimə əlac edər kim?
Mənim ürəyimdə ölü uşaq var,
Gözüm baxa-baxa öldü ümidim.

Hər yanda fəlakət, qırğın, qan-qada…
Neçin yer kürəsi aram olmayır?
Haçan sülh olacaq qoca dünyada?
Bəşərin dərdinə əncam olmayır.

Çox elin, obanın cəfası böyük,
Böyük iddialar kiçiltdi bizi.
Mənim də ölkəmin bəlası böyük,
Özümüz qırırıq bir-birimizi.

Xalqı qayğısızlıq gətirib cana,
Boğur həqiqəti bugün riya, şər.
Baxa bilməyirəm daha ekrana,
Kişilər bığ qoyub yallı gedirlər.

Kim haçan yuyacaq hər günahını?
Kim hayan olacaq bizə hamı tək?
Kim xamuş edəcək zər tamahını?
Rüşvət məş'əlini kim söndürəcək?

Bu qoca ölkəmin heyf varına,
Özünə qənimdir onun sərvəti.
Dözmür müxalifət iqtidarına,
İqtidar öldürür müxalifəti.

Qarabağ indi öz adına bənzər –
Bağı da qaradır, dağı da qara.
Qarabağ bir əsir qadına bənzər,
Ahunu ediblər ram qaplanlara.

Ümidim ağladı mənim uşaqtək,
Kimsə eşitmədi amma fəğanı.
Deyirdim «gələcək», «xoş gün gələcək»,
Daha gələcəyə ümidim hanı?

Daha inanmıram cahanda haq var,
Deyin, ürəyimə əlac edər kim?
Mənim ürəyimdə ölü uşaq var –
Gözüm baxa-baxa öldü ümidim.

14.11.2005

## *Soyuqluq*

Bu gün
gördüm sənin soyuqluğunu,
üşütmə düşdü canıma.
Kəsilmiş ağac qol-budağı kimi
qollarım düşdü yanıma.
E'tibarın bumu?
İp-isti sevgi vermişdim sənə,
Bədənindən axırmış soyuq qan.
Bu gün
gördüm sənin soyuqluğunu,
Tərlədim… soyuqdan.

16.11.2005

## *Məni qızdır*

Mənə soyuqdur.
Təkəm.
Üşüyürəm.
Əgər gəlsən
çıxardarsan soyuğu canımdan,
qovarsan üşüntünü qanımdan
istiliyinlə.
Gəl.
Vaxtın bu isti vaxtı
evimə soyuq dolmasın.
Məni qızdır,
təki qızdırma olmasın.
Mənə soyuqdur.

17.11.2005

### *Təsəvvürümdə*

Yanmadın, söndün,
bilə bilmədin.
Mənim könlümü
çala bilmədin.
İlğıma döndün,
qala bilmədin
Təsəvvürümdə.

Yanıma gəldin,
izin qalmadı.
«Sevirəm» dedin,
sözün qalmadı.
Üzün əridi,
üzün qalmadı
Təsəvvürümdə.

18.11.2005

### *Adsız şe'r*

Daşyonan daş yonar.
Qoy yonsun,
daş baş deyil ki…
Baş yonanlar var,
yazıqları gəlmir başa.

Nədənsə
acıdım daşa.

20.11.2005

### *Zəlzələ vaxtı*

Zəlzələ vaxtı
səhrada olana yazığım gəlir.
Elə ki, zəlzələ baş verdiyini biləcək
şəhərə gələcək,
zəlzələ düşəcək canına,
öləcək
        qohum-qardaşıtək,
Amma,
əgər həssas adamsa.

22.11.2005

### *Kasıblıq*

*«Ölü lütdü, diri lütdü…»*
*Baba Pünhan*

Allah kəssin kasıblığı,
Ölü də çılpaq,
diri də çılpaq,
Utancaqlıq yada düşər məgər?
Ölülərin libası – torpaq,
bu kasıblıqda
nə geyinsin bəs dirilər?
Çılpaqsansa
        qəbrə şığı,
O məskənin
        torpaq altda libası var.
Allah kəssin kasıblığı,
                ay kasıblar.
Bu dünyada yaşamaqdan
üz çevirin,
qəbrə girin.

Ölü də çılpaq,
diri də çılpaq…

24.11.2005

### *Yanıq yeri*

Ölənəcən qalacaq
məndəki yanıq yeri,
yanıqlıyam, ey nigar.
Sən məni yandırmısan,
məndə yanıq yeri var,
yanıq yeri silinməz…

26.11.2005

### *Getmisən*

Getmisən neçə gündür.
Gəlmə,
yanıma şığı.
Gözüm işıqdan düşüb.
İstəyirəm yenə də
gözümdə işıq yana.
Ey gözümün işığı,
gəl ki, göz işıqlana.

Getmisən neçə gündür…

27.11.2005

### *İnsanov*

Arı zəhəri,
İlan zəhəri,
İnsan zəhəri.

Arı,
İlan,
İnsan,

Zəhərlidir hər üçü.
Üçüncü ən öldürücü –
İnsanov!!!

30.11.2005

***Zülmətin cəzası***

Zülmətin cəzası
nə qədər böyük!..
Neçin yox olmayır
aləmdən bu yük?
Vallah, qənimidir
zülmət özünün,
Onun
gecə-gündüz
görəcəyi var:
Zülməti hər səhər
parçalayır Gün,
Zülməti hər gecə
deşir ulduzlar.
Zülmətin cəzası
nə qədər böyük!..

12.12.2005

***Ey yağış qətrəsi!..***

*Mövlana Cəlaləddin Ruminin yağış qətrəsi haqqındakı fikrindən ilhamlanaraq*

Ey yağış qətrəsi, sən bakirəsən göylərdə,
İtəcək bakirəlik, ah, yerdə.
Bitəcək bakirəlik – sən düşsən,
Çıxacaqdır o təmiz dövr əlindən – düşsən.
Deməræm mən sənə göylərdə yaşa,
Deməræm mən sənə göylərdə dayan, ey qətrə,
Deməræm mən sənə göyqurşağının
Əbədi rənginə göylərdə boyan, ey qətrə.
Deməræm mən sənə ömr et buludun qarnında,
Deməræm mən onu tərk etmə daha, ey qətrə,
Gər desəm, qərq olaram mən günaha, ey qətrə.
Mən kiməm «qalma» deyim?
Mən kiməm hökm eləyim?
Hökmü Allah-təala eləyir,
Sənə «qal, qalma» deyir,
Sənə «düş, düşmə» deyir,
Hökmü Allah eləyir,
yuxarı mənzildən
aşağı mənziləcən.
Yuxarı istəməyir getməyini bəlkə də,
«qal, getmə» deyir,
Səni amma aşağı cəzb eləyir.
Aşağı, ya yuxarı?
Yuxarı, ya aşağı?
Yuxarı məskənin olmuşsa da, cəzb etməlidir
O zərif cismini amma aşağı.
Enəcəksən aşağı,
Gedəcəksən yuxarı sonra təmizlənməkçin,
Gedəcəksən yuxarı bir də yağış qətrəsinə dönməkçin.
Enəcəksən aşağı,
Baxacaqsan yuxarı,
Çıxacaqsan yuxarı,
Çıxacaqsan yuxarı, ey qətrə,

Girəcəksən yenə, əlbəttə, bulud bətninə sən,
İtəcəkdir o təmiz yerdə sükut mərhələsi,
Bitəcəkdir ana göylərdə bulud mərhələsi,
Düşəcəksən yerə şəksiz yenə sən,
Yenə saflaşmağa meylin coşacaqdır yerdə,
Dönəcəksən buxara,
Aşacaq hövsələni,
Yenə səbrin daşacaqdır yerdə…

Baxıram solda bulud, sağda bulud,
Səni və sən kimi çox qətrəni doğmaqda bulud.
Başım üstündə buludlar topası…
Təzədən hamilədir qarə buludlar yağışa,
Torpağın ehtiyacı var yağışa,
Ey yağış qətrəsi, göydən düşəcəksən aşağı,
Olacaqsan yerdə.
Ey bəyaz qətrə, dilim gəlməyəcək
Ki, deyim mən sənə «ağsan yerdə»,
Ki, deyim mən sənə «əvvəlki təki şəffafsan»,
Ki, deyim mən sənə «paksan, safsan»,
Ki, deyim mən sənə «hüsnündə təmizlik yenə var»,
O bəyaz rəngini əfsus ki, udmuş qaralar,
Ey yağış qətrəsi, çöhrəndə itib ağ, qara var.
İstəsən gər yenə şəffaf olasan,
Yenə əvvəlki təki saf olasan,
Təzədən qalxmalısan asimana yerdən sən,
Təzədən yığmalısan surətinə ağ rəngi,
Təzədən düşməlisən sonra yerə,
Təzədən qalxmalısan sonra isə
O təmiz asimanın sinəsinə
Və qulaq asmalısan göydəki «düş, qalx» səsinə.
Ey yağış qətrəsi, sən bakirəsən göylərdə,
İtəcək bakirəlik, ah, yerdə…

13.12.2005

### *İnansın inanmayan*

«Sim-sim» dedim, açıldı,
Açıldı bağlı qapı,
Yetişdi harayıma
bəlkə də «sim-sim» mənim,
gözlərim oldu aydın,
Bağlı qapını açan
sözlərim oldu aydın,
önümdə göründü yar.
Yarəb, vüsal qapısı
əgər bağlı olmasa
bağlı qapı açılar.

Qapım açıldı bu gün.
Allah mənimlə olsa
şübhə edər eşqimə
kim mənim?
Zülfü qar alıbsa da,
Çöhrəm saralıbsa da,
Yaşıldır eşqim mənim.

Allahın köməyini
bir aşiqəm danmayan.
Bu gün «sim-sim» sözüylə
bağlı qapı açıldı,
inansın inanmayan.

15.12.2005

## *Qorxma!*

Qorxma,
gəl yanıma.
Qorxma,
gəl mənim sənsizəşən xanimanıma,
Qorxma.
Gəl,
İstəyə-istəyə də’vət elədim səni,
Qorxma.
Sonrasa
istədiyimdən
bəlkə də yedim səni,
Qorxma!
Qorxma!!
Qorxma!!!

16.12.2005

## *Çiçək kimi*

Sən mənə bircə yol «sevirəm» desən
sevinmərəmmi?
Sən məni sevginə şərik eləsən,
sevinmərəmmi?
Mən sənə «sevirəm, sevirəm» desəm
xoşlanmazmısan?
Mən səni sevgimə şərik eləsəm
xoşlanmazmısan?
İki kəs bu sözü qoy birgə desin,
Qoy bizi şadiman sevgi eləsin.
İndi könlümüzdə bir dilək yaşar,
İndi əlimizdə iki ürək var,
gəl dəyişdirək,

heç vaxt sözümüzdən geri dönməyək
nə mən, nə də sən,
«Sevirəm» sözünü bir çiçək kimi
çək dodağınla
mənim dilimdən.

18.12.2005

### ***Göyün yeddinci qatı***

Bəlkə də göyün damı –
Göyün yeddinci qatı.
İlahi, uzaqdamı
Göyün yeddinci qatı?

Ora kim kəmənd atır?
Kimin əlləri çatır?
Görəsən nə boydadır
Göyün yeddinci qatı?

Yeddinci qat təkdimi?
Sonsuzluq gerçəkdimi?
Yeddinci fələkdimi
Göyün yeddinci qatı?

Fərziyyəmi, gümanmı?
Yaxşımıdı, yamanmı?
Laməkana məkanmı
Göyün yeddinci qatı?

Bilmirsə – günahı nə?
Bilirsə – pənahı nə?
Müəmmadı Şahinə
Göyün yeddinci qatı.

20.12.2005

### *Şimal küləyi*

Qoy yel əssin,
Qarayel əssin,
Meh küləyə dönsün,
        əsməyə tələssin.
Xəzri əssin,
Giləvar əssin.
Qoy küləklər
o ki var əssin,
Təki
        Şimal küləyi əsməsin.
(Stepan Razin – Xəzərdən hücum…
I Aleksandr – «Gülüstan»…
I Nikolay – «Türkmənçay»…
Lenin – 28 aprel…
Qorbaçov – 20 yanvar…)

Şimal küləyi – əsarət küləyi,
Şimal küləyi – siyasət küləyi,
Şimal küləyində qan var.

Əssin, küləklər əssin,
Təki
        əsməsin şimal küləyi –
Şimal küləyi – işğal küləyi!

22.12.2005

### *Bu uşaq niyə ağlamır?*

Dəyməyin ürəklərinə,

Kövrək olur qocalar
uşaqlar kimi.
Ömrə gümanları yoxalıb,
ümidləri əllərindən çıxan şar kimi
Və
partlayan şar gümanların,
ümidlərin
arxasınca baxa-baxa qalıblar,
göz yaşları axa-axa qalıblar…
Elə özüm də
saqqalı bir uşağam,
gəncliyimdən çox aralıyam,
çox uzağam.
Saqqalıma, bığıma
gözlərimdən
gildir-gildir yaş damır.
Bu yaşı görməyənlər
soruşur bir-birindən:
- Bu uşaq niyə ağlamır?

24.12.2005

### *İskəndərin buynuzu*

Deyirlər ki, var imiş
İskəndərin buynuzu.
Qoç ərlər döyüşündə
Buynuzlar qırar imiş
İskəndərin buynuzu.

Nağılçı nağıl yayıb:
«Hamını zəif sayıb,
Hər yerə hücum edib,
Hər yeri buynuzlayıb

İskəndərin buynuzu».

İnanmıram hər sözə,
Nağıl deməyin bizə,
Tarixə atmayın şər,
Dəyməyib ölkəmizə
İskəndərin buynuzu.

Hədyan danışmaq – ayıb,
Yalan danışmaq – ayıb.
Nə Nüşabə? Nə Bərdə?
Bərdəmizə çatmayıb
İskəndərin buynuzu.

İnanmıram var idi
İskəndərin buynuzu.
Gəlsəydi ölkəmizə
Bəlkə də sınar idi
İskəndərin buynuzu.

26.12.2005

### *Nadinc istək*

İstəyirəm. İstəyirəm.
Aza qane ola bilmirəm.
Bir qarışlıq sinəmdə
sonsuz istəyimə
            mane ola bilmirəm.

Mümkünsə
sevgi ilə
  qəlbimi dağlamaq istəyirəm
                    kəhkəşan boyda;

Mümkün deyilsə
ağlamaq istəyirəm
ümman boyda.
Özümə hey «istə» deyirəm,
Dinc adam,
Nadinc istək…
İstəyirəm.
İstəyirəm.
İstəyirəm.

28.12.2005

### *İt ili*

Bu il yaşım – 66,
Bu il – 2006.
Bu il odlu-alovlu İt ili.
Od, alov…
Odun əli var,
Alovun dili.

Gecə.
Odlu alovlu bir qoca –
bir qoca kişi.
Beş ilin tənhası,
Beş ilin təki…

2005 – Xoruz iliydi,
Mavi Xoruz iliydi.
Xoşum gəlsə də qəşəngindən,
xoşlanmadım bu xoruzun rəngindən.
2004 – Meymun iliydi,
oyunbazlıq iliydi –
ATƏT-in növbəti oyunları…

Qarabağ faciəsinin 13 illik niskiliydi.
2003 – Qoyun iliydi.
Bircə işim də düz gətirmədi.
İl neyləsin?
Bir kənara qoyun ili…
2002 – At iliydi,
                 özü də Qara At.
Ağ günümü itirib
                yaşadım bir təhər,
                sağ-salamat…
2001 – İlan iliydi.
Saf məhəbbət gülümün
sevda gülüstanında
 solan iliydi,
Yarlı Şahin Fazilin
yarını qeyb eləyib
tənha qalan iliydi.

5 ildir ki,
bir qoca kişi
 tənha qalıb, tək qalıb
5 ildir ki,
      danlayır,
      yamanlayır
      bəxtini, taleyini, iqbalını.
5 ildir ki,
 qırxmır saqqalını.
5 ildir ki,
yandırır  onu
odun əli,
alovun dili…

Bu il yaşım – 66,

Bu il – 2006.
Bu il odlu-alovlu İt ili…
Başqa illərdən
                fərqi olacaq bəyəm ki?
Görəsən
        it gününə
                düşməyəcəyəm ki?..

1.01.2006

### *«Mələk günü»*

Sevincim böyüyür gül budağıtək,
Fərəhim havanın köksünü dəlir.
Bu gün olmayacaq bu tək adam tək,
Bu gün görüşümə bir mələk gəlir.

Bu gün bir səadət gələr mələklə,
Yoxdur aramızda çəpər mələklə.
Görüşən olurmu məgər mələklə?
Bu gün görüşümə bir mələk gəlir.

Zülmət ərimirdi, səhər yox idi,
İşıqda güc yoxdu, təpər yox idi,
Dünən bu görüşdən xəbər yox idi,
Bu gün görüşümə bir mələk gəlir.

Bu gün danışmasın dilim fəraqdan,
Bu gün tələsməsin hicran nahaqdan,
Şeytan seyr eləsin məni uzaqdan,
Bu gün görüşümə bir mələk gəlir.

Bu gün inanmıram dilim «gəl» desin,
Bu gün hər görüşə yadam, gəlməsin,

Bu gün görüşümə adam gəlməsin,
Bu gün görüşümə bir mələk gəlir.

Gəlir yavaş-yavaş dilək qoxusu,
Yox, yox, bu deyildir çiçək qoxusu,
Havanı bürüyüb mələk qoxusu,
Bu gün görüşümə bir mələk gəlir.

Bu gün həyatımın göyçək günüdür,
Bu gün Şahin üçün dilək günüdür,
Bu günün adı var: «Mələk günü»dür,
Bu gün görüşümə bir mələk gəlir.

4.01.2006

### *Gülmə, həşrə qədər ağlamağım var*

Bu necə kədərdir, bu nə təhər qəm?
Əzəllər yadımdan olmazdın kənar.
Mən səni yadıma sala bilmirəm,
Gülmə, həşrə qədər ağlamağım var.

Boyun nə boydadı? Yerişin necə?
Hərçənd unutqanlıq adıma düşmür,
İnan ki, bilmirəm gülüşün necə?
Gözünün rəngi də yadıma düşmür.

Bu aşiq danışmır daha, lal düşüb.
Qeylini bilirəm, qalın vardımı?
Mənim ürəyimə qara xal düşüb,
Bilmirəm üzündə xalın vardımı?

Başımın üstünü düm ağ qar alıb,
İnana bilmirəm bu kədər ötər.

Ovqatım bozarıb, qanım qaralıb,
Saqqalım ağarıb saçımdan betər.

Çoxdandır səninlə görüşmürük biz,
Sevgidən danışmaq əbəsdir indi.
Məni görən adam şəksiz-şübhəsiz
Deyər ki, o Məcnun bu kəsdir indi.

Yaman yaralandım əlindən sənin,
Çəkibsən sinəmə çalın-çarpaz dağ.
Ah, nələr çəkmədim dilindən sənin,
Sonrasa araya düşdü bu fəraq.

Qadınsız cənnət də cəhənnəm imiş,
Taleyimmi çəkdi məni sınağa?
Qadın gizli qalan bir aləm imiş,
Qadın müəmmadır başdan-ayağa.

Sən tənha qalıbsan indi, mənsə tək,
Heç səni anlaya bilməyirəm mən.
Əlimdən gəlməyir səni sevməmək,
Qeyrini sevmək də gəlmir əlimdən.

Bu necə kədərdir, bu nə təhər qəm?
Əzəllər yadımdan olmazdın kənar.
Mən səni yadıma sala bilmirəm,
Gülmə, həşrə qədər ağlamağım var.

6.01.2006

## *Qərar*

*Əli Rza Xələfliyə!*

Sən

siqaretini çəkirsən,
Mən –
          ürəyimi.
Sən də,
Mən də
çəkirik hey,
tüstülədirik hey
görməmiş kimi.
Cansızdır siqaret,
canlıdır ürək,
Sən qatil deyilsən,
Cansızı öldürməyə nə var ki?
Mən
canlını öldürürəm,
qatiləm demək.
Ey siqaret çəkənlər,
Bildinizmi nə çəkdiyimi?
Daha ürəyimi yox,
siqaretimi çəkəcəyəm
şair Əli Rza Xələfli kimi.

12.01.2006

### *Quraqlıq*

Quraqlıq olanda torpaq çatlayır…
Öp məni, öp məni,
          dodaq çatlayır,
quraqlıqdır!..

13.01.2006

### *Kuzə və xəlbir*

Kuzəm

sevgimlə doluydu.
Sən elə bildin ki,
Guya
mənən yaxşısını seçərsən.
Bilmədin kuzə qədrini.
Sənə
xəlbirdə su gətirəcəklər,
İçərsən.

14.01.2006

### *Kitabın kitabı bağlanan deyil*

*«Kitabın kitabı bağlanıb…»*
*Əlibala Hacızadə*

Kitab dolabları yenə dolacaq,
Kitabın kitabı bağlanan deyil.
Kitab yazan varsa, kitab olacaq,
Kitabın kitabı bağlanan deyil.

Bağlanan hər qapı sehr, müəmma,
Açılan qapısa mehr, müəmma…
Hər ömrün kitabı bağlanır, amma
Kitabın kitabı bağlanan deyil.

Gündüz günəş yanır, gecə ay yanır,
Göy- səhər açılır, gecə bağlanır,
Bağlanan nə bilim necə bağlanır,
Kitabın kitabı bağlanan deyil.

Kitabı açmamaq nöqsan deyilmi?
Allah da kitaba heyran deyilmi?
Kitablar kitabı Qur'an deyilmi?
Kitabın kitabı bağlanan deyil.

Meşə yana bilər, dağ yana bilər,
Bağban yana bilər, bağ yana bilər,
Kitabın varağı bağlana bilər,
Kitabın kitabı bağlanan deyil.

Bülbülük, sevirik hər gözəl gülü,
Mənim də bağımda var qəzəl gülü,
Kitabtək varaqlar neçə əl gülü,
Kitabın kitabı bağlanan deyil,

Hər bağlı qapıya düşən açar var,
Əgər kitab varsa, cahanda var var,
Hələ nə qədər ki Gülağalar[1] var
Kitabın kitabı bağlanan deyil!

15.01.2006

### *Gecə və gündüz*

Sevgi oyunun yetişdiyi an
Yenə qucaqladı gecə
gündüzü.
Gecənin çadrası düşdü başından,
Təzədən ağardı
gündüzün üzü.

16.01.2006

### *Sancı*

Bu gün
əlim sancılandı,

---

[1] Əlibala Hacızadə «Əsərləri»nin sponsoru Gülağa Tənha

Bu gün
          məni arı sancdı.
Sənin dilinin müqabilində
Arının neştəri nədir ki?
Arı zəhəri nədir ki?
Bu gün-sabah ölüb-gedəcəyəm,
Amma
bilən olmayacaq
mən fağırı,
mən yazığı,
mən miskini,
Mən Şahini
          yarı sancdı.
Bu gün
          əlim sancılandı,
Bu gün
          məni arı sancdı…

17.01.2006

### *Gördün neylədin?*

Görməyəcəksən
quş uçuşunu,
          gördün neylədin?
Buraxdın əldən
sevgi quşunu,
          gördün neylədin?

Nə gərək gözdən
yaş töküləydi,
          gördün neylədin?
Gərək ətəkdən
daş töküləydi,

gördün neylədin?

Gözünün yükü
yaş ağırlığı,
gördün neylədin?
Belini büküb
daş ağırlığı,
gördün neylədin?

Gördüyün bu kəs
görünməz daha,
gördün neylədin?
Məni tək qoydun,
özünü tənha,
gördün neylədin?

Qırdın qəlbimi,
qırdın şüşəni,
gördün neylədin?
Sənə baxıram,
görmürəm səni,
gördün neylədin?
Gördün neylədin?

19.01.2006

### *Yanğı*

Görüşdük və ayrıldıq.
Ayrıldıq və görüşdük.
Görüş və ayrılıq…
Əcəb oda düşdük.
Gah görüş, gah ayrılıq.
Aman, alovlanırıq.

Yandırır hər ikisi,
Ey söndürən, yanırıq!..

20.01.2006

### *Məni mənə ver*

Sən. Mən.
Sən Allah bəndəsi
Mən də Allah bəndəsi.
Hava qədər,
su qədər
ehtiyacım var mənə
Sən məni qaytar mənə.
Səni sevəndən bəri
mən itirmişəm məni,
ərimişəm səndə.
Məni mənə ver,
ey Allah bəndəsi,
ey mənli bəndə.
Ehtiyacım var mənə,
Sən məni qaytar mənə.

21.01.2006

### *Badamgöz*

Badamlı gözəl,
bu davamsız kəsin müqabilində
davamlı gözəl.
Mən badam istədim
badamlı kəsdən,
gözünü yumdu.
Neçin bilmədi ki,
badamsız kəsə

badam gərəkdi,
badam lüzumdu.

Onun davamının müqabilində
mən bidavamam.
Gözünü açsa
badamlıyam mən,
Gözünü yumsa
badamsız adam.
Badam gərək mənə –
ikicə badam.

Yumma gözünü
ey mələk,
ey pəri,
ey adam,
Mənim gözlərim
badama acdı…
Badamsız gözəldən
badam istədim,
gözünü açdı.
Bidavam idim,
Bibadam idim.
Davamlıq üçün,
badamlıq üçün
Sənin gözündən
badam gözləyirmiş gözüm sən demə.
Yatanda da yumma badam gözünü
mənim xətrimə.
Badamgöz!..

22.01.2006

### *Suri-İsrafil, yaxud İsrafil tütəyi*

Könül oxuyurdu, ürək çalırdı
sevgi nəğməsi.
Sənsə
          dinləmədin bu aşiq kəsi,
                                        o kövrək səsi.
Sən qulaq asmadın eşq təranəmə
könül oxuyanda, ürək çalanda.
İncimə, incimə, məndən incimə,
mən sənin yanına gəlməyəcəyəm,
Gəlsəm də əgər,
gələrəm…İsrafil tütək çalanda.

23.01.2006

### *Xahiş*

Allahım,
daha bəd günləri ömrümə yazma,
vallah bezmişəm,
billah bezmişəm,
nahaq var, haq yoxdur,
Bədxahıma de ki,
qazmasın ayağımın altını,
Məgər
qazmaq üçün
torpaq yoxdur?

24.01.2006

### *Şəksiz!*

Gözlük
 gözümün içindəydi,

Əsa –
 ayağımın.
Allah-taalanın işiydi,
Gözlük gözümə qüvvət olmalıymış,
 əsa ayağıma,
Gizlədib saxlayıbmış onları
qoca çağıma
o uzaqgörən,
o göz görən,
o ayaq görən…
Görməyirdim
 gördüyünü mən.

Ey gözlülər, ey ayaqlılar,
gətirməyək Allaha şəkk,
hər çətində
bizə kömək
o edəcək.
Cavanlıqda düşünmürdüm bunları,
Sinnim çoxdan olub yarı,
İndisə
gözümə gözlük gərəkdir,
ayağıma – əsa.
İndi
görə bilmirəm,
İndi
gəzə bilmirəm
onlar olmasa.

Gözlük
 gözümün içindəydi,
Əsa –
 ayağımın…

29.01.2006

### *Çağıran deyiləm səni bir daha*

Bu qədər çağırış aldanış oldu,
Çağıran deyiləm səni bir daha.
Səsimlə dünyanın qulağı doldu,
Çağıran deyiləm səni bir daha.

Söz görmək diləsə söz, çağırarlar,
Alışmaq istəsə köz, çağırarlar,
Beş deyil, on deyil, yüz çağırarlar,
Çağıran deyiləm səni bir daha.

Sanki, sən gözəlin fürsəti yoxmuş,
Sanki, bu aşiqin də'vəti yoxmuş,
Heyhat, də'vətimin qiyməti yoxmuş,
Çağıran deyiləm səni bir daha.

Səsim «gəl, gəl» dedi, müdam çağırdı,
Nəfəsim çağırdı, sədam çağırdı,
Səni niskilli bir adam çağırdı,
Çağıran deyiləm səni bir daha.

Axtaracaq gözün, çağıracaqsan,
Ağlayacaq sözün, çağıracaqsan,
Məni bir gün özün çağıracaqsan,
Çağıran deyiləm səni bir daha.

1.02.2006

### *Bizim aramızda iti qılınc var*

Vüsal yaxın düşmür açıq-aşikar,

Neçin görünməyir hicranın sonu?
Deyəsən araya qılınc qoyublar,
Allahınmı əli qoyubdur onu?
Bizim aramızda iti qılınc var.

De, necə çin olsun ürək arzusu?
Tale səndə, məndə ürək qoymayır.
Görünməz bir işdir, görməcədir bu,
Sən razı, mən razı, fələk qoymayır,
Bizim aramızda iti qılınc var.

Hamıya bəllidir axı əzəldən:
Qılıncla oynamaq zərərsiz olmaz.
Nəfsin cilovunu verməyək əldən,
Bu oyun qəzavü qədərsiz olmaz,
Bizim aramızda iti qılınc var.

Əzizim, bu oyun qorxudur bizi,
Sən mənə şəriksən, mən sənə şərik.
Ürəkdə saxlayaq niyyətimizi,
Tapılsın lap deyən küt aşiqlərik,
Bizim aramızda iti qılınc var.

Eyvah, iki könül yaralı qalıb,
Üstümə dağıtma telini, kəsər.
Əllər bir-birindən aralı qalıb,
Əlini uzatsan əlini kəsər,
Bizim aramızda iti qılınc var.

Bu sonsuz iztirab qəlbimi didir,
Sinədə cəm olub aləmin qəmi.
Neyləmək, sevgimiz belə sevgidir,
Sən səbrini artır, mən hövsələmi,

Bizim aramızda iti qılınc var.

Gərək ayıq olaq gündüz-gecəni,
Lap soyun lüt-üryan, uzan sübhədək.
Sən tərəfə keçsəm kəsəcək məni,
Mən tərəfə keçsən səni kəsəcək,
Bizim aramızda iti qılınc var.

4.02.2006

***Şe'rə şe'r***

*«Əllərimi sevirəm,*
*çünki onlara*
*sənin əllərin sığal çəkib.*
*Gözlərimi sevirəm,*
*çünki dərinliyinə həsrətin çöküb.*
*Saçlarımı sevirəm,*
*çünki barmaqlarının nəvazişi*
*darayıb*
*telimi səhər-axşam.*
*Baxışımı sevirəm,*
*çünki başdan-ayağa*
*özüm «sevirəm» deyən*
*sevgi dolu baxışam.*
*Ürəyimi sevirəm,*
*sənin üçün durmadan*
*sevə-sevə döyünür,*
*dünyada ən bəxtəvər*
*ürək sayır özünü,*
*Bu sevgi, bu eşq ilə*
*səni sevən ürəyim*
*uşaq kimi öyünür»*

***Xatirə Vaqif***

Bir vaxtlar
Mən – məndim,
özümü sevəndim
                    sənin xatirinə,
çünki sən sevirdin məni,
hey deyərdim
          Məhəmməd Füzuli deyəni:
«Gər mən mən isəm, nəsən sən, ey yar?
Gər sən sən isən, nəyəm məni-zar?».
İndisə
          sevmirəm özümü,
çünki
          sənin sevgin yoxalıb mənə.
Özümü necə sevim ki,
özümü sevdirə bilmədim məni sevənə.
Bir vaxtlar
o göyərçin əllərinə
məftun bir aşiq kimi, məcnun bir aşiq kimi
sevirdim əllərimi.
İndisə
          əllərimi sevməyim nahaqdır,
çünki
          əllərim əllərindən uzaqdır.
Bir vaxtlar
          sevirdim saçlarımı,
çünki
          qarışardı tez-tez
                    saçlarım saçlarına,
İndisə
          başımı ayrılıq qorxusu sarıb
Və
          qorxudan qartək ağarıb.
Bir vaxtlar

baxışlarım baxışlarına baxardı,
baxışlarından baxışlarıma
sevgi axardı.
Heç təsəvvür eləməzdim
o baxışlar yığışa,
İndisə tamarzıyam
sevgi dolu baxışa.
Bir vaxtlar
vurğun ürəkli adam kimi
sevirdim ürəyimi,
çünki ürəyim mənimləydi,
Ürəyinə göz dəydi,
Ürəyimə göz dəydi…

İndi
mənim mənə olan sevgim
nəyimə gərək kiı?
Daha görməyirəm məni sevəni,
Sən məni sevmirsən,
Mən də… məni.

5.02.2006

### *Mücərrəd şe'r*

Araz suyu bulanıq,
Kür suyu ondan betər.
Bu suyu
göz yaşıtək
dupduru eləməyi
bacarmır yerdəkilər.
Adıma «quru adam»
deyir bəzi adamlar,
Bəli, quruluğum var,

Yerdə qalmağım yetər.
Mənə nərdivan verin,
İçi yağışla dolu
Sulu asiman verin,
Dözüb ağırlığıma
bulud məni saxlasa
buluda köçəcəyəm.
Bulud məni yuyacaq,
mən bulud içəcəyəm,
olmayacağam quru,
Mən bulud içəcəyəm
suyu göz yaşım kimi
dupduru,
Dözüb ağırlığıma
bulud məni saxlasa…

8.02.2006

### *Sarı gəlin*

Göz neçin düşüb nəmə?
Kipriyi çəpərləmə,
Baxmırsan mənə sarı,
Bu atlar, adamlar
Aparır səni kimə
sarı, gəlin?
Sarı gəlin!

Toyumu sən gözəlin?
Vayımı sən gözəlin?
Üzündə sarı kədər,
Yolun yarısındasan,
Yarı qız, yarı gəlin,
Sarı gəlin.

«Bu dərənin uzunu…»
Kim gəzərsə xoş olar.
«Çoban, qaytar quzunu…»
Canavara tuş olar,
Sarı gəlin!

Məhrəm oldu qəm mənə,
Dərd mənə, ələm mənə,
Məni tənha qoymayın,
Axı aşiqəm… Mənə
sarı gəlin!

«Səni mənə verməzlər…»
Daha məni görməzlər,
Yarsız qalan aşiqi
Ağuşunda yer gizlər,
Sarı gəlin…
Sarı gəlin.

10.02.2006

### ***Darısqal***

Atam Fazil,
Anam Gülcənnət.
Atamın belindən,
Anamın bətnindən
düşdüm Qubaya,
Quba – darısqal.
Gəldim Bakıya,
Bakı – darısqal.
Yollandım yola,
Çatdım Kabula,

Kabul – darısqal,
Sonralar olduğum
İstanbul darısqal,
Təbriz – darısqal,
Bağdad – darısqal,
Aşqabad – darısqal,
Moskva darısqal,
Ömür yolum olmadı hamar:
yoxuşluq, enişlik…
Genişlik istəyirəm, genişlik,
Dünya – darısqal!
12.02.2006

### *Özümü itirmişəm*

Özümü itirmişəm
itirib ürəyimi.
Sözümü bitirmişəm
sözsüz şairlər kimi.
Ürəyimi verdiyim
yarımı axtarıram,
Məndə olan söz adlı
varımı axtarıram.
Deməsinlər bu yaşda
vurulmağım hədərdi.
Mənim ilham pərimin
yaşı yaşım qədərdi.
Qocayam, itirdiyim
qarımı axtarıram,
Ürəyim qalıb onda.
Axtarıram başımı,
gözümü,
Sanki itirmişəm mən

misra-misra şe'rimi,
hərf-hərf sözümü.
Özümü tapdığım dəm
sözüm yenə gələcək,
görəcəyəm özümü.

…Özümü itirmişəm…

13.02.2006

## *Əl*

Adam var əlini zərə uzadır,
Adam var ki, əli gül arzusunda.
Adam var əlini xəncərə atır,
Şahin Fazil isə əl arzusunda.

Ayağa «get» dedim sözümə baxdı,
Ələ «gəl» deyirəm hələ gəlməyir.
Əli səsləməyim bəlkə nahaqdı?
Əlini sevdiyim ələ gəlməyir.

Hüsnüyçün sevmirəm mən o nigarı,
Onu xoşlamıram telinə görə.
Ürəyim can atır əlinə sarı,
Ayağım yeriyir əlinə görə.

Əlini əlimə hərgah verərsə,
Əlimdən dördayaq qaçacaq fəraq.
Əlini əlimə Allah verərsə,
Əlini əlimdən kim ayıracaq?

Əlin nə zamansa əlimə yetər,
Haçan? Bu istəyin sərəncamı nə?

Əl tutmaq Əlidən qalıb deyirlər,
Əlini ver mənə, Əli naminə!

…Adam var əlini zərə uzadır…

14.02.2006

### *Niyə gəlmisən?*

Canım, bu gəlişin adı nə oldu?
Niyə gəlmisən?
Acımı, şirinmi, dadı nə oldu?
Niyə gəlmisən?

İztirab çoxaldı, qəm azalmadı,
Gözümdə zərrəcə nəm azalmadı,
Üzümdə kədərim həm azalmadı,
Niyə gəlmisən?

Təbin susmuş idi? İlham yox idi?
Şe'rinin vəznində nizam yox idi?
Yanına getməyə adam yox idi?
Niyə gəlmisən?

Meydan sulayacaq fəraq, bilmədin,
Məni çərlədəcək bu dağ, bilmədin,
Qonmadın, qolumu budaq bilmədin,
Niyə gəlmisən?

Bir də görəcəksən əlini atdı,
Bu kəsin ümidi kəndirə çatdı.
Kədərim min idi, min birə çatdı,
Niyə gəlmisən?

Eşqin haqqı mə'lum, hesabı hanı?
Günahı var isə savabı hanı?
Mənim sualımın cavabı hanı?
Niyə gəlmisən?
Allahım, Şahini pis öyrətmisən,
Təzə bir gözələ munis etmisən,
Bir gün deyəcəyəm «niyə getmisən?»
Niyə gəlmisən?
Niyə gəlmisən?

15.02.2006

### *Haçan gəlirsən?*

Gözəl bir imkanın qapısı açıq,
Haçan gəlirsən?
Yoxsa, sən də, mən də çox qocalmışıq?
Haçan gəlirsən?

Danış, heyi yoxmu sənin səsinin?
Yoxsa, varlığını almayıb saya
Açıb qapısını Yer Kürəsinin
Çıxıb gedəcəyəm başqa dünyaya,
Haçan gəlirsən?

16.02.2006

### *Rəmzlər*

Göyərçin – sülhün rəmzidir,
Qartal – məğrurluğun,
Dovşan – qorxaqlığın,
Tülkü – bicliyin,
İlan – tibbin…
Rəmzlərimiz heyvanlardır

ey dadi-bidad,
ey İnsan,
ey Şahin!

18.02.2006

## *Darıxdım*

Sığışmıram ev-eşiyə,
Sığışmıram yerə, göyə…
Niyə?
Bilmirəm vallah.
Bilmirəm billah.
Amma,
qəbrimə sığışacağam inşallah.

Sığışmıram…

19.02.2006

## *Qərar*

Mən səni sevmirəm, sevmirəm daha.
İndi eşitsəm də dodaqlarının
son gileyini,
qoy eşq badəsini sənin əlindən
başqası alsın,
başqası içsin
onun meyini.

Mən səni sevmirəm, sevmirəm daha.

22.02.2006

### ***Adsız şe'r***

*O qədər əsəbiləşdim ki, heç şe'rimə*
*ad da tapa bilmədim*

Sənin sözlərinin gözləri alov,
Tüstüsü duman,
İstisi ocaq.
Söylə, nə vaxtacan mənim üzümü
Od yalayacaq?

Sənin sözlərinin külü də yanır
Həmin ocaqda,
Məni ləhzə-ləhzə qarsılamaqda.

Sənin sözlərinin hər biri ağrı,
Hər biri zillət,
Hər biri sancı.
Budurmu aşiqin məgər qazancı?

Sənin sözlərinin hər biri güllə,
Hər biri qurşun, hər biri mərmi.
Sevən sevənini güllələyərmi?

Sənin sözlərinin cavabı sükut,
Sənə sükutdan
 baha nə deyim?
Sənin sözlərinin…Şahini unut,
Daha nə deyim?

23.02.2006

### ***Bölünmə***

*«Əruzda şahinsən, hecada fazil»*
*Söhrab Tahir Azər-Azər*

Ey olan həyatda düzlüyə nail,
Yazdığın, dediyin gəlir ürəkdən.
«Əruzda şahinsən, hecada fazil»,
Sandım mübaliğə bu sözləri mən.

Böyük şairlərə rəğbətim böyük,
Söz gülü bəzəyib keçdiyim yolu.
Nizamim, Sabirim, Səhhətim böyük,
Mənsə söz bağının kiçik bir kolu.

Bütöv can evimdə bölünmə gedir,
Sağam, bənzəmirəm amma mən sağa.
Canımın bir tayı torpaq üstdədir,
Bir tayı yarımla getdi torpağa.

Bir gözüm o tayda, biri bu tayda,
Bir əlim Arazda, biri Kürdədir.
Ürəyim qovğada, könlüm harayda,
Qəlbim imkanımla çək-çevirdədir.

Şair, dərd qabında dərd yığın-yığın,
Varlığın hicrandan bağlayıb qübar.
Sənin məndən də az var rahatlığın,
Sənin məndən də çox həssaslığın var.

Cismin qovğadadır niskillərinlə,
Həsrət yaşayırsan, gülmürsən axı.
İki bölünməkdən qorxmusan elə
Çöpü də ikiyə bölmürsən axı.

Xoş sözlər söylədin şe’rimə dair,
Bütöv ki deyiləm, üçəm, beşəm mən.

İki bölünməkdən «qorxan» ey şair,
Gör neçə hissəyə bölünmüşəm mən.

24.02.2006

### *Təzad*

Yananlar – işıqladar.
Gecələr bütün aşiqlər
yanarlar,
deyərlər ki, ey zülmət, qaç,
deyərlər ki, ey işıq, şığı.
Amma,
işıqlanmaz ki, işıqlanmaz
gecənin qaranlığı.

25.02.2006

### *Saman, batmağa qoyma*

Gözləyir qəzəl məni,
Gözüm, yatmağa qoyma.
Haxlayır əcəl məni,
Allah, çatmağa qoyma.

Başımda huş var axı,
Əllərdə daş var axı,
Yuvada quş var axı,
Sapand atmağa qoyma.

Dilək də var, arzu da,
Çin olsun o da, bu da.
Batarsam bir gün suda
Saman, batmağa qoyma.

27.02.2006

***Göy arzusu***

*Bu gün 8 martdır. Bayramdır.*
*Qadınımı xatırladım.*

Bezmişəm yerin qəmindən,
Allah, məni göyə çağır.
Açmıram baş sitəmindən,
Allah, məni göyə çağır.

Taleim söysə də hələ,
Başıma döysə də hələ,
Göy arzum göysə də hələ
Allah, məni göyə çağır.

Qoydun yerdə tənha məni,
Etsin də’vət üqba məni,
Bezdirib bu dünya məni,
Allah məni göyə çağır.

Şadlıq azdı, çox-kədərdi…
Yerdə riya, Yerdə şərdi,
Göydəkilər nə təhərdi?
Allah, məni göyə çağır.

Axı şahin quşuyam mən,
Gərək göydə yaşayam mən.
Yer mülkündə naşıyam mən,
Allah, məni göyə çağır.

8.03.2006

### *Danışır…*

Futbolçu ayağıyla,
Valeybolçu əliylə
danışır.

Hökmran barmağıyla,
Bağban qızılgülüylə
danışır.

Tonqal odlu diliylə,
Sönən ocaq külüylə
danışır.

Bulaq zümzüməsiylə,
Coşan dərya seliylə
danışır.

Cavan fəndi-feliylə,
Qoca isə diliylə
danışır.

12.03.2006

### *Şübhəli qocalıq*

Bir gün də qocalmaq üçün Həqdən izn aldım,
Bir gün də qocaldım.
Şadəm, qocalıq gəldi cavanlıqla görüşdü,
Bir gün də cavanlıqdan olan gün geri düşdü.
Bir gün də səbat artdı, dözüm gəldi tab üstə,
Bir gün də əyildim kitab üstə.
Bir gün də at oynatmağa meydan ələ düşdü,
Bir gün də şe'r yazmağa imkan ələ düşdü.

Şadəm necə, bir gün də qonağım gələcəkdir,
Yaxud da özüm getməliyəm kimsəyə mehman.
Şadəm, yenə dərvazəmi dilbər döyəcəkdir,
Məst eyləyəcəkdir canı bir gün dəxi canan.
Xoşdur, - deyəcəkdir bu sevən kəs ki, - kam aldım,
Bir gün də qocaldım.

Şahin, dodağımdan bu sual qopdu bir anlıq:
Bilməm qocalıqdırmı bu, yainki cavanlıq?

14.03.2006

### *Sevgi*

Sevgi al-verdi əzəldən məncə –
Sevgini almalısan kimdənsə
Və onu verməlisən sən kiməsə,
Yoxsa olmaz sevgi.
Cavan aşiq, sev ki,
Sev ki, al-ver ola icra daim.
E'tiraz eyləyəcəkdir buna kim?

Sevgi al-verdi əzəldən məncə…

15.03.2006

## *«FƏLƏSTİNNAMƏ» SİLSİLƏSİNDƏN ŞE'RLƏR*

*Bu ilin aprel ayında İranda Fələstinlə əlaqədar Beynəlxalq Elmi-siyasi Konfrans keçiriləcək. Bu şe'rlər həmin konfransın şe'r müsabiqəsinə göndərildi.*

### *I*
### *Dərdin dərdi*

Necə mən tab edirəm, var ürəyin min dərdi,
Gecə-gündüz canı üzməkdə Fələstin dərdi.

İşğal altındadı Qəzzə, zora məruzdur Qüds,
Hələ də görmədə çox acizü miskin – dərdi.

Ucalır nalə Ramallahda göyə, Allahım,
Nə üçün çəkmədədir bir belə mömin – dərdi?

Ərəfatın günü xoş keçmədi, nakam oldü,
Amma çox gördü döyüşdə neçə rəngin dərdi.

Dinimin qəsdindədir göz görəsi kafərlər,
Məni qəmgin eləyir çəkdiyimiz din dərdi.

Gərçi islamdə kin saxlamağın var günəhi,
Eləyibdir məni kinli bu qədər kin dərdi.

Qarabağ faciəsindən üzülübdür cismim,
Çəkirəm fəth inamı ilə lakin dərdi.

Çoxmu tab etməliyəm dərdlərə, ey dərdsizlər?
Çoxmu dilləndirəcəkdir məni dərdin dərdi?

Bir zaman mən ki cavandım, vecə almazdım dərd,
Qovacaqdır nə zaman bəs qoca Şahin dərdi?

16.03.2006

***II***
***Fələstin***

Qədim bir diyar var başı bəlalı –

Fələstin.
Torpağı cəfalı, daşı bəlalı –
Fələstin.

Atılsın daş, - deyir Beytülmüqəddəs,
Yarılsın baş, - deyir Beytülmüqəddəs,
Savaş, savaş, - deyir Beytülmüqəddəs,
Fələstin!

Düşmənin gah acı, gah şirin dillə
Səni yersiz qoydu min fənd-fellə.
Kiçiyin daş atır, böyüyün güllə,
Fələstin.

Nələr baş vermədi tarixdə, nələr?!
Xeyirlə döyüşdə üstün oldu şər,
Didərgin düşdülər fələstinlilər,
Fələstin.

Üstünə uzadıb caynaqlarını
Yadlar bölüşdülər torpaqlarını,
Sənin sərvətini, sənin varını,
Fələstin.

Kim desə «səbr elə, dözmək gərəkdir»,
Dilini dibindən üzmək gərəkdir.
İlanın başını üzmək gərəkdir,
Fələstin.

Torpaqsız vətənin toy-düyünü nə?
Torpağı gedənin gələn günü nə?
Qarabağ da düşdü sənin gününə,
Fələstin.

Sabaha gül becər, bu günə güllə,
Yağdır yağıların üstünə güllə,
Qoy qoya kafəri pis günə güllə,
Fələstin.

Namərdin önündə nər kimisən sən,
Mərdin qənşərində ər kimisən sən,
Odda polad kimi bərkimisən sən,
Fələstin.

Bəd halı ötəndir fələstinlinin,
Amalı vətəndir fələstinlinin,
Köynəyi kəfəndir fələstinlinin,
Fələstin.

Dünyaya nə qədər igid veribsən,
İgidə anatək öyüd veribsən,
Yüzlərlə, minlərlə şəhid veribsən,
Fələstin.

Sel kimi çağladın, küləktək əsdin,
Çin olsun müqəddəs niyyətin, qəsdin,
Susma, cəhad elə, tələs, tələs, din,
Fələstin! Fələstin!! Fələstin!!!

17.03.2006

### *Ümid*

Çoxalıbdır o qədər dərdi fələstinlilərin,
Dərdi zar eylədi çox fərdi fələstinlilərin.

Bəxtinin zərlərini görməyən acizlərsə

Qapanıb, - söylədilər, - nərdi fələstinlilərin.

Güləcəkdir üzünə iqbalı inşaallah.
Qocası, gənci də əsgərdi fələstinlilərin.

Tanrının nuri işıqlandıracaq zülmətini,
Yolu, əlbəttə, münəvvərdi fələstinlilərin.

Gələcəkdə ələmindən bir əsər qalmayacaq,
Qələmi nizədi, xəncərdi fələstinlilərin.

Məskəni qalmayacaqdır daha yad əllərdə,
İndisə məskəni səngərdi fələstinlilərin.

Şahina, varsa da kafər deyilən namərdlər,
Çatacaqdır zəfərə mərdi fələstinlilərin.

18.03.2006

***Gündüzün üzü***

Biz
hər ikimiz
Gecə zənn elədik
Gündüzü.
Əllərin sığallandı,
Tellərin daraqlandı
əllərimlə
Və
Gündüzün
soyuqdan avazımış üzü
allandı…

…Sonra

dedin ki,
«Günahımı günah edəndən sonra bildim.
Sən təksən, tənhasan,
mənsə tək, tənha deyildim,
Mənə yaraşmazdı bu.
Hökmüylə tale yazanın
düşəcəyəm cəhənnəmə,
bişəcəyəm içində
qır qaynayan qazanın».

Və
ağladın,
dedin ki,
«Olan oldu, keçən keçdi,
Bu da bir cür yazıdı»…

Gündüzün
həyadan allanan üzü
təzədən avazıdı.

Sonra ayrılıq dəmi çatdı,
Hüsnünü bürüdü qəm.
Amma
dedin ki,
«İstəmirəm cənnəti,
cəhənnəmə düşmək istəyirəm».

Və
gündüzün
təzədən allandı üzü…
Hər ikimiz
Gecə zənn elədik

Gündüzü…

20.03.2006

### *Dünya qadınlaşır*

«Dünya qadınlaşır!» - belə xəbər var,
Get-gedə çoxalır sayı qadının.
Qoy əsl kişilik olsun xəbərdar,
Azalır siqləti kişi adının.

Deyil deyəcəyim fikir dərində:
Demirəm ki, üçü, beşi görünür,
Dünyanın müxtəlif ölkələrində
Min-min qadınsifət kişi görünür.

Allah, bu müşkülat olsun necə həll?
Dünya qadınlaşır, budur məs'ələ.
Dünya qadınlaşır yaman, üstəgəl
Mavi kişiləri demirəm hələ.

24.03.2006

### *Məndən sonra*

*Bu gün 66 yaşım tamam oldu*

Məni doğma şəhərdə
Olmayacaq görən sağ.
Oturduğum yəhərdə
Başqası oturacaq.

Başlayacaq gileyi
Gəlməyəcək səs-sədam.
Dərəcəyim çiçəyi
Dərəcək başqa adam.

Mizrabladığım tarı
Özgə əl çalacaqdır.
Alacağım paltarı
Başqası alacaqdır.

İçəcəyim şərabı
Qeyrisi edəcək nuş.
Günahı, ya savabı
Edəcəyəm fəramuş.

Ruhum ərşə uçacaq,
Həyat gəldi-gedərdi.
Başqa adam açacaq
Qapayacağım nərdi.

Düşəcəyim məkan sirr –
Cənnət, yoxsa cəhənnəm?
Kim məni öpəcəkdir,
Mən kimi öpəcəyəm?

Tərpənməyəcək əlim,
Danışmayacaq dodaq.
Amma, Şahin Fazilin
Yazacağı qəzəli
Bir kişi yazmayacaq!

27.03.2006

### *Gecəni yanında keçirdim sənin*

Gecəni yanında keçirdim sənin,
Bədənin gün kimi işıq yayırdı.
Sevgi şərabını içirdim sənin,

Gözün ulduz təki parıldayırdı.

Əməl eləyirdim dilim deyənə,
Çoxdan gözüm vardı mənim bu gündə.
Gülüm, bağışladım yeri də sənə,
Ürəyim asiman böyüklüyündə.

Deyirdim gözünü nəzərimə dik,
Bir olaq sonuncu səfərə qədər.
Sanki lehimlənmiş iki bədəndik,
Ayrılmaq bilmədik səhərə qədər.

Budur, bitdi gecə, əridi zülmət,
Vüsalın üstünə şığıdı fəraq.
Tutdu yaxamızdan iztirab, həsrət,
Görən, təzə görüş haçan olacaq?

Gözlərimdə kədər, gözlərində nəm
Ayrıldıq, hicranın günahı kimdə?
…Xəyali gecəydi mənim bu gecəm,
Sən öz evindəydin, mən öz evimdə.

1.04.2006

## *Mən səni həmişə axtaracağam*

Canımda nisgillə qəm görüşsə də,
Mən səni həmişə axtaracağam.
Gözüm görməz olub nurdan düşsə də,
Mən səni həmişə axtaracağam.

Ömürlük axtarış olubdur peşəm,
Canı axtarışdan yan etməmişəm,
«Axtarma» desən də eşitməmişəm,

Mən səni həmişə axtaracağam.

Səsin yetməsə də qulaqlarıma,
Adın gəlməsə də dodaqlarıma,
Dəmir çarıq geyib ayaqlarıma
Mən səni həmişə axtaracağam.

Canda fəraq gülü bitirəcəksən,
Özünü hicrana yetirəcəksən,
Sən məni həmişə itirəcəksən,
Mən səni həmişə axtaracağam.

Məni gəzmə, dayan, tapmayacaqsan,
Şahinindən nişan tapmayacaqsan,
Sən məni heç zaman tapmayacaqsan,
Mən səni həmişə axtaracağam.

2.04.2006

### *Mənlə sən arasında*

Zənn edirəm kimsə var
Mənlə sən arasında.
O kimdir tutub qərar
Mənlə sən arasında?

Ürək o kəsi anır,
Onda ümid yaranır,
O – Allahdır, dayanır
Mənlə sən arasında.

Şahin Fazil şah olar,
Eşq səcdəgah olar,
İstəsə nikah olar

Mənlə sən arasında.

4.04.2006

### *Qalıbdır*

Məcnun ölüb-getsə də,
Eşq cahanı qalıbdır.
Həyatı tərk etsə də,
Biyabanı qalıbdır.

Zaman dəyirman daşı,
Muma döndərir daşı…
Qalmayıb gözün yaşı,
Gözün qanı qalıbdır.

Yerdə fərəh, dərd, ələm,
Göydə cənnət, cəhənnəm…
Şahin ölsə də, nə qəm,
Üç divanı qalıbdır.

5.04.2006

### *Aman Gülgəz, yarım hanı?*

İtirmişəm ehtişamı,
Yaşayıram, arım hanı?
Vəfadar axtarır hamı,
Mənim vəfadarım hanı?

Yıxıldım…Me'marım yoxdur,
Eşq adlı me'yarım yoxdur…
Necə varam, varım yoxdur,
O məhəbbət varım hanı?

Dilbilməzlər! Dil gəzirəm,
Divanətək çöl gəzirəm,
Qum üstündə gül gəzirəm,
Aman Gülgəz, yarım hanı?

6.04.2006

### *Pəncərədən daş gəlir*

Pəncərədən baxan yar,
Baxma, gözdən yaş gəlir.
Baxma, bizə baxan var,
Ürəyə təlaş gəlir.

Səsin uzaqda qalıb,
Sədan qulaqda qalıb,
Fərəh ayaqda qalıb,
Qəm fərəhə baş gəlir.

Vəslə var isə çara
Mən axtarım, sən ara…
Şahin, çəkil kənara,
Pəncərədən daş gəlir.

7.04.2006

### *Göydə cığır*

Ey ilham pərisi,
təbimə şəkk yox,
Sənə yönəldirəm
söz cığırımı.
Yerdə cığır açan
adamlar ha çox,
Göydə açmalıyam

öz cığırımı.

10.04.2006

### *Evlənəcəyəm!*

Çoxdandır subay qalıb…
Dünyadan çəkib ayaq
Şahin yerdən ayrılıb
Göyü qucaqlayacaq.

O Allah, o Rəbb, o Haqq
Məni tək görən kimi
Özü imzalayacaq
Kəbin sənədlərimi.

Bu qoca, bu qocaman
Deməsinlər dəlidir.
Yerdə mələk tapmayan
Göydə evlənməlidir.

12.04.2006

### *Çərçivə*

Mücərrədçi bir rəssam
- Alın, - dedi, - rəsmimi,
Mən çəkirəm gələcək
dövr rəssamı kimi.
Bu gün anlayan azsa
fikirlərimi əgər,
gələcəkdə rəsmimi
barmaqla göstərərlər.
Hələ çərçivəyə bax,
Rəngi – qızıl suyundan.

Bu rəsmdən gözəldir,
Rəsm gözəldir bundan.
Yaradıcı rəssamam,
Gözünnü şəkkdən ayır,
Rəsmin gözəlliyini
çərçivə tamamlayır.

Fikrimi gizləmədən
dedim ona sözümü:
- Şəklin xoşuma gəlmir,
Sənin çərçivəndənsə
heç asmaq istəməzdim
özümü.

13.04.2006

### *Dərdlər*

Neçin yaranmır nağıllar,
Nağılçılar niyə yoxdur?
Ürəyimdə nağıl dərdi…
Dəlinin dəli dərdi var,
Ağıllının ağıl dərdi.

Canı yoxdur
Yanır, şamın nə vecinə?
Meyxanəçi xəsarətdə –
Damır, camın nə vecinə?
Tox adamın nə vecinə?
Acı sarıb taxıl dərdi.

Yarım hanı?
Bəs sirrimi kimə deyim?
Tarım da yox kədərimi simə deyim…

Partlayır dərddən ürəyim,
Ey biçarə Şahin Fazil,
Unudaydım mağıl dərdi…

18.04.2006

### *Pəncərədən keçən şüa*

Qapını bağlama üzümə, nigar,
Qəlbimi eşq adlı gülünlə bəzə.
Qapını bağlasan, pəncərə ki var,
Keçib pəncərədən gələrəm sizə.

Şadam ki, qədəmim süst deyil hələ,
Büdrəmək görünmür cəsarətimdə.
Ayığam, aşiqin məst deyil hələ,
Mənim əzmim də var, qətiyyətim də,
Keçib pəncərədən gələrəm sizə.

Ahıl yaş qətiyyən hədd deyil mənə,
Güman eləmə ki, qoca kişiyəm.
Pəncərə şüşəsi sədd deyil mənə,
Pəncərədən keçən şüa kimiyəm,
Keçib pəncərədən gələrəm sizə.

22.04.2006

### *Ona*

Gözəlim, yoluma işıq səpələ,
Məgər bilməyirsən qaranlıq nədir?
Məndə
          mehribanlıq qalıbsa hələ,
Səndə
          biganəlik görünməkdədir.

Yenə qaranlığın yolunu bağla,
Gözünün işığı yoluma düşsün.
Yenə əzəlkitək məni qucaqla,
Saçların qoy yenə qoluma düşsün.

Belə əvəz etsə əgər günü gün,
Əgər yad etməsən məni bu sayaq,
Günlərin bir günü sənin aşiqin
Yolunu
Yanına
Yadırğayacaq.

23.04.2006

### *Qaraca Çobanın çomağı*

Yağının canına ox oldu
Qaraca Çobanın çomağı.
Ay aman, çürüdü, yox oldu
Qaraca Çobanın çomağı.

Qaraca Çobanın qüvvəti
Qayaya, dağ-daşa çatardı.
Qoyunu, quzunu daş təki
Qoyaraq sapanda atardı…
Yağını qaramal timsalı
Sürü tək önünə qatardı
Qaraca Çobanın çomağı.

O qoçaq qalsaydı nə vardı?
O çomaq olsaydı nə vardı?
Həzrəti-Musanın əli tək
Uzanıb düşməni vurardı

Qaraca Çobanın çomağı.

Neçin bu zamanda görünmür?
Gərəkli bu anda görünmür.
Qarabağ qara bir dağ oldu…
Çoxdandır çobanda görünmür
Qaraca Çobanın çomağı.

Yağılar haçan qan qusası?
Ey Şahin, sözümün qısası
Kaş mənim əlimdə olaydı
Həzrəti-Musanın əsası,
Qaraca Çobanın sapandı,
Qaraca Çobanın çomağı.

24.04.2006

### *Xəstə gün*

Günümdə fəryadlar var,
Doğma eldə yadlar var.
Yadın nə olduğunu
yaxşı bilirəm.
Müşkil nə olduğunu,
Çətin nə olduğunu
yaxşı bilirəm.
Pisin nə olduğunu,
Bədin nə olduğunu
yaxşı bilirəm.
Başlayıb bəd gündən də
Betər günlərim,
Didərginlərim.

Gələcəyin naminə,

Keçmişin acığına
Qara Keşiş adlanan
Keşişin acığına
İlanlı çöllər ilə,
Tikanlı çöllər ilə
Gedəcəyəm şığıyıb.
Düşmənimi didərgin edəcəyəm şığıyıb.
Yoxsa, həqarət ilə
Ötər günlərim,
Didərginlərim.

Ər tək ayaq açmasam,
Getməsəm Qarabağa,
Şahin kimi uçmasam,
Yetməsəm Qarabağa,
Bu xəstə gündə əlac
Etməsəm Qarabağa
Canımı didim-didim
Didər günlərim,
Didərginlərim!

25.04.2006

### *Düz və dağ, yaxud eqoist şair*

Beli düz
          düz…
Qozbel dağ…
Mil düzü…
Şahdağ…
Düzə də ad qoyurlar,
Dağın da adı var.
Hansı daha yaxşıdır
beli düz düz,

yoxsa qozbel dağ?
Mən dağ adamıyam…
Hələ qozbeli tə'rifləyən olmamışdı
mən sayaq.
Eqoist!

27.04.2006

### *Allah qoymadı*

Əlimi sığalsız telinə çəkdim,
Allah qoymadı.
Səni isti-isti istəyəcəkdim,
Allah qoymadı.

Telinin istisi əlimdə qaldı,
Əlinin istisi əlimdə qaldı,
Biz elə bilirdik sonu vüsaldı,
Allah qoymadı.

Pak duyğu var idi diləyimizdə,
Saf arzu var idi ürəyimizdə,
Axı hansı günah vardı ki bizdə
Allah qoymadı?

Şeytan qoymasaydı yanmazdım belə,
Haqqı, ədaləti danmazdım belə,
Allahı rəhmsiz sanmazdım belə,
Allah qoymadı.

Hələ belə sevgi görünməmişdi!..
Canımız hicranın odunda bişdi,
Allahın əlindi nə çətin işdi?
Allah qoymadı,

Allah qoymadı…

5.05.2006

### *Çağır*

Getdim yanından.
İncitdim səni.
Gözəlim,
çağır məni, gəlim.
Çağır,
çağır səni sevəni, gəlim.
Qəbristana gedən ölü
geri qayıtmaz,
Mənsə
hələ ki,
diriyəm, sağam.
İnşallah
sənin yanına
Qayıdacağam!
Fəqət çağır məni!..

7.05.2006

### *Yarımçıq*

Yarımçıq… Yarımçıq əməl!..
Yarım, çıx
yanıma tam gəl,
önümə tam çıx,
Tam ol,
Tam adam ol.
Məgər tammı
yarımçıq istək,
yarımçıq həvəs,

yarımçıq vüsal,
yarımçıq xəyal?
Ey dadi-bidad,
Yarımçıq həzz,
Yarımçıq dad!..
Yarımçıq…

8.05.2006

## *Seyr*

Kainat.
Ölkə.
Sürü.

Allah.
Prezident.
Çoban Xanış.

Qoca Allah
Cavan allah
Allahqurucu Çoban Xanış.

Cavan allah öldü.
Çoban Xanış öləcək.
Qoca Allah ölməyəcək.

Allah ölmür!

10.05.2006

## *Asi və narahat*

Mən
Tanrının bir asi,

Bir narahat bəndəsi.
Qınamayın mən kəsi.
Qane eləmir məni
dənizin səviyyəsi,
irmağın səviyyəsi,
torpağın səviyyəsi.
Torpağın ağuşunda
əgər vulkan olmasa
torpaq olur,
dağ olmur.
Sabit bir vəziyyətdə
neyləyim, qalmaq olmur.
Atəş gərəkdir mənə,
yoxsa ucalmaq olmur.

Ümmanlar görürəm ki,
qalır bir səviyyədə.
Azmanlar görürəm ki,
Cırtdanlar görürəm ki,
qalır bir səviyyədə.
İnsanlar görürəm ki,
qalır bir səviyyədə.
İnsan qane olursa
sabit səviyyəsinə,
yaşayır elə-belə,
sağ olsa da, sağ olmur.

Şahin, yanmaq naminə,
Alovlanmaq naminə,
Olduğun səviyyəni,
səddi danmaq naminə
od vur özünü yandır,
vulkan olsun içində,

yuxarı qalxmaq üçün
dəniz səviyyəsindən,
irmaq səviyyəsindən,
torpaq səviyyəsindən
imkan olsun içində,
yoxsa ucalmaq olmur,
ocaq –
yansa ocaqdır,
sönəndə ocaq olmur!

Mən
Tanrının bir asi,
Bir narahat bəndəsi!..

11.05.2006

### *Əlin ayağı*
### *(qoşmavari)*

Hey çəkir ürəkdən göz yaşlarını,
Gözün bulağına nə deyim axı?
Yenə əyləcləmir təlaşlarını,
Yaşın bu çağına nə deyim axı?

Həzzim ələmimin ardına düşüb,
Sevincim qəmimin ardına düşüb,
Əlim qələmimin ardına düşüb,
Əlin ayağına nə deyim axı?

Qarışıb qaraya gözümün ağı,
Daim yük çəkirəm hambal sayağı.
Şahin, eşitməyir yerin qulağı,
Göyün qulağına nə deyim axı?

12.05.2006

## *Yanıma gəlmə*

Yoxdur məhəbbətin nakam canımda,
Yanıma gəlmə.
Qara hicranın var indi yanımda,
Yanıma gəlmə.

Ağ qoç yolda idi – yönünə gedən,
Səmt idi ağ gündən gününə gedən,
Sən ey qara qoçun önünə gedən,
Yanıma gəlmə.

Sənsizlik yaşayır canımda axı,
Damarımda axı, qanımda axı…
Yerin qalmayıbdır yanımda axı,
Yanıma gəlmə.

Sənlə gün görmədim, Günə nə fərqi?
Buluda, dumana, çənə nə fərqi?
Kimin yanındayam sənə nə fərqi?
Yanıma gəlmə.

Səntək ümidsizə mən ki ümiddim,
Daha ilim-ilim gözündən itdim,
Bir qədirbilənin yanına getdim,
Yanıma gəlmə.

Şahini sən daha sınama, gəlmə,
Onu dönüklükdə qınama, gəlmə,
Gəldiyin o yolu tanıma, gəlmə,
Yanıma gəlmə.
Yanıma gəlmə!

13.05.2006

### *Naz eləmə*

Gözüm yarımın yanındadır,
Səndə
mənim gözüm yoxdur.
Dözməyə işvə-nazına
canımda dözüm yoxdur.
Naz eləmə.

Sən baharsan,
Mənsə qışam.
Sən də artıq
qışa doğru yönəlmisən,
Mən bilirəm niyə çağırmışam,
Sən bilirsən niyə gəlmisən,
Naz eləmə.

Bir halda ki,
buyurmusan otağıma,
keçmisən qorxu-hürkü sədlərini,
şe'rini qoy qabağıma,
düzəldim qələtlərini,
Naz eləmə.

15.05.2006

### *İlğım*

Zirvəsiz dağ,
Dağsız zirvə
Və
Şahin Fazilin dağa çıxmaq,

zirvə fəth etmək istəyi.
Əgər
dağda zirvə yoxsa,
Əgər
zirvə dağsızsa,
Biçarə Şahin Fazil
istək müqabilində
fəth eləsin bəs nəyi?

16.05.2006

## *Mələk*

Sən
Soyunmasan əgər
üryan olmursan,
mələksə üryan olur.

Sən
mənim nəzərimdən
pünhan olmursan,
mələksə pünhan olur.

Mələk çiynim üstündə,
Sənsə məndəsən.
Mələk mələksə əgər
onda sən nəsən?

Mən
gərək adamlardan
səni ayıram,
Qadın doğubmu səni?
İnanmayıram!
Sən

mələksən!!!

22.05.2006

## *Röya*

Saçlarım şəvə kimi,
Boyum çinardan uca.
Kim mənə qoca desə,
Onun özüdür qoca.

Tabı var ayağımın,
Əlim buludu yarıb.
Mənim Qarabağımın
Qara günü ağarıb.

Ürəyimdən itib qəm,
Canımdansa iztirab.
Bütün kitablarımı
Hökumət eləyir çap.

Yaşım orta həddədir,
Ömrüm isə yarıda.
Göy məndən aşağıda,
Yer məndən yuxarıda.

22.05.2006

## *Uçuş*

Qəlbini istədim könlümə dəydin,
Səni eşq özgəyə, yadamı çəkir?
Sən necə biləydin, hardan biləydin
Badamı gözlərin adamı çəkir.

Hərçənd ümidimin çiçəyi solub,
Amma, eşq qopmayır canımdan mənim.
Yanıma neçə yol gəlməyin olub,
Getməyin də olub yanımdan mənim.

Cəngi sevməsəm də, xoşlamasam da,
Vüsalla hicranın cəngi göründü.
Biganə deyiləm rənglərə, amma
Səndə biganəlik rəngi göründü.

Günümtək gözümün qaraldı ağı,
Qarası böyüdü, ağı qalmadı.
Rəhmin göyə uçdu tüstü sayağı,
Mənim ürəyimin yağı qalmadı.

Qoluna qonmuşdum, sanki quş idim,
Nəvaziş, şəfəqqət diləyirdim mən.
Şahin kişi kimi oturmuş idim,
Şahin quşu kimi uçdum əlindən.

25.05.2006

### *Su və sahil*

Sən torpaq yaşı görmüsən?
Su
sahili yudu
Və
sahilin hələ yuyulmamış
başqa torpağı
suya baxdı, baxdı, baxdı
Və
torpaq yaşı axdı
onun qara gözlərindən.

Sən
göz yaşı görmüşdün,
torpaq yaşı görmüsən?

26.05.2006

## ***Qardaş, öülm nəmənədi?***

*«Qardaş, ölüm nəmənədi?»*
*Akif Səməd*

*«Bizə gələndə görmüşəm,*
*Üzə güləndə görmüşəm,*
*Atam öləndə görmüşəm,*
*Qardaş, ölüm nəmənədi?»*
*Ələmdar Cabbarlı*

Biri vardı, biri yoxdu…
Qardaş, ölüm nəmənədi?
Ölü çoxdu, diri çoxdu?
Qardaş, ölüm nəmənədi?

Allah babadan savayı
Var hamının ölüm payı.
O pay paylanır havayı,
Qardaş, ölüm nəmənədi?

İndi ölən bayaq sağdı…
Deyirlər ki, ölüm haqdı,
Ölüm haqsa, nə nahaqdı?
Qardaş, ölüm nəmənədi?

Ölüm adambaşı gəlir,
Gözlərimin yaşı gəlir…
Əzrayılın xoşu gəlir,

Qardaş, ölüm nəmənədi?

Üzünü yusun mürdəşir,
Adından ətim ürpəşir,
Gəlib salır haray-həşir,
Qardaş, ölüm nəmənədi?

Bəzən gəlir sürət ilə,
Bəzən qalır ildən-ilə,
Heç bilmirəm neçin belə?
Qardaş, ölüm nəmənədi?

Deməmişdi «gəlim» gəldi,
Bir anda min ölüm gəldi,
Xocalıya zülüm gəldi…
Qardaş, ölüm nəmənədi?

Ata salamatdı, öldü,
Ölüm gəldi-çatdı, öldü…
Babamızsa yatdı öldü,
Qardaş, ölüm nəmənədi?

Ölümü ilanda gördüm,
Anamı çalanda gördüm,
Bacımı alanda gördüm,
Qardaş, ölüm nəmənədi?

Yaman aldı üstümüzü,
Gəldi, aldı, soydu bizi,
Ölüm yetim qoydu bizi,
Qardaş, ölüm nəmənədi?

Amma, yuxu görmüşəm ki,

Hələ ölüm nə sənədi,
Hələ ölüm nə mənədi,
Qardaş, ölüm nəmənədi?

Bu qədər ki, öləni var
Dünya ölülərlə dolar…
Ölümü öldürmək olar?
Qardaş, ölüm nəmənədi?
Qardaş, ölüm nəmənədi?..

27.05.2006

**P.S.** Bu mövzu məni çox düşündürdüyündən poema yazmaq qərarına gəldim və yazdım da. Əsər sonralar «Ulduz» jurnalında dərc edildi (Bax: «Ulduz», №9, 2006, səh.43-46).

### *Gəlmə*

Gəlmə. Gəlmə. Və gəlmə,
Vəslə sarı yönəlmə,
Daha yanıma gəlmə,
Yanıma yolladığın
yolu tanıma, gəlmə.

Demərəm ki, nə üçün
Leyla insafa gəlməz.
Məcnunluq eləmərəm,
Başıma hava gəlməz,
Gəlmə.

Yadındamı ilk görüş
Və sonuncu ayrılıq?
İndi bir-birimizdən
Ayla
   Gün tək ayrıyıq,

Gəlmə.

Gözlərin yaşarsa da,
Dalınca atmadım su.
Üzündə su qalıbsa
Get, əlini məndən yu,
Gəlmə.

Qapandı nərdtaxtamız,
zəri düşdü əlimdən.
Uğurla uğursuzluq
demə qol-boyun imiş,
Bizim məhəbbətimiz
ötərgi oyun imiş.
Məhəbbət oyununda
nə sən uduzdun,
                    nə mən,
Gəlmə.
Mən həmənəm,
                    sən həmən,
Gəlmə.

Bəlkə düşündün
                    mənə
Səndən qeyri qeyri yox.
Qeyri olmasa belə
Əgər gəlsən, xeyri yox,
Gəlmə.

Hələ ki, məndə od var,
Canım hələ ki sağdır,
Sənin itirdiyini
Kim isə tapacaqdır,

Gəlmə.

Oldumu sənə mənim
Hər sözüm aydın,
                    gəlmə.
Bir daha deməröm «gəl»,
Get, gözüm aydın,
                    gəlmə.
Gəlmə!
Gəlmə!!
Gəlmə!!!

29.05.2006

### ***«Sonuncu zəng»dən sonrakı zənglər***

*Sumqayıtda Zakir müəllimin direktoru olduğu məktəbdə keçirilən «Son zəng» günü münasibətilə*

Zəng var nə qədər…
Məni düşündürür «Sonuncu zəng»dən
sonrakı zənglər.
Birinci, beşinci, onuncudurmu?
Məgər sonuncu zəng sonuncudurmu?

Qızlar oğlanlara zəng eləyəcək,
Oğlanlar qızlara zəng eləyəcək,
Zəng edə-edə
biri digərinin qulaqlarını
lap ola bilər ki, dəng eləcəyək.
Qoy olsun,
        məhəbbət zəngi çalınsın,
Ünsiyyət, şəfəqqət zəngi çalınsın.
Zəngi xəyanətin dalğalanmasın,

Mətanət, səadət zəngi çalınsın.
Gün o gün olsun ki, Qarabağımda
Bərkdən qalibiyyət zəngi çalınsın.
Birinci, beşinci, onuncudurmu?
Məgər sonuncu zəng sonuncudurmu?

Müştaqlar, məftunlar zəng eləyəcək,
Dürrələr, Vurğunlar zəng eləyəcək,
Yeni Leylilərə, yeni Məcnunlar
zəng eləyəcək.
Əsli Kəráminə zəng eləyəcək,
Qərib Sənəminə zəng eləyəcək.
Sevilən sevənə zəng eləyəcək,
Züleyxa Həsənə zəng eləyəcək,
Məhəmməd Süsənə zəng eləyəcək,
Sən ona, o sənə zəng eləyəcək.
Arabir inciyib küsən olarsa,
Küsdürən küsənə zəng eləyəcək.
Bəlli ki, yenə də əzəlki təki
Neçə incik kəsin cəngi olacaq,
Amma, qeyz itəcək ürəklərdəki,
Arabir barışıq zəngi olacaq.
Zəng etsin, sevinsin, gülsün o ki var,
İnsanlar hər zəngdən qoy diksinməsin.
Sülh bütün cahanda olsun bərqərar,
Təki müharibə zəngi dinməsin.

Zəng var nə qədər…
Məni düşündürür «Sonuncu zəng»dən
sonrakı zənglər.
Birinci, beşinci, onuncudurmu?
Məgər sonuncu zəng sonuncudurmu?

31.05.2006

## *Qaçqınlarımıza*

Çıxmalısan sınaqdan,
Cəngə sınaq yaraşar.
Əl səndən, ətək Haqdan,
Haqlıya haq yaraşar.

Hər sevən dəli deyil,
Dəli – sevməli deyil,
İndi yar əli deyil,
Ələ yaraq yaraşar.

Qarabağ da sənindi,
Qaradağ da sənindi,
Şlyapa deyil, indi
Başa papaq yaraşar.

4.06.2006

## *Tamridaya*

Tə’cili yollandın
                    məzar evinə,
Mən isə
          ölürəm hər gün bir azca.
Tanrı iti yeriş
                    verməyib mənə,
Yanına gəlirəm
                    hər gün bir azca.

5.06.2006

### *Yaxşıdır*

Uşağına qaraçı
Deyir «dilən, yaxşıdır».
Tükənibsə əlacı
Sağdan
ölən yaxşıdır.

Hamıya rəhm edən – mən,
Haqqa doğru gedən – mən,
Gözü yaşlı edəndən
Yaşı silən yaxşıdır.

Üzdə qalmayacaq qəm,
Şahin, quruyacaq nəm,
Bunu mən də bilirəm,
Allah bilən yaxşıdır.
Allah bilən yaxşıdır!.

6.06.2006

### *Ağrıyır*
### *(qoşmavari)*

Nə yaman yağdırdın başıma qarı,
Xəzanım dözmədi, qışım ağrıyır.
İlahi, yaşıma rəhm elə barı,
Qoca bir kişiyəm, yaşım ağrıyır.

Bilirsən, onsuz da qaradır günüm,
Məzara doğrudur mənzilim, yönüm,
Ay Allah, ay sənin başına dönüm,
Dərd vermə başıma, başım ağrıyır.

Şahin qoy ömrünün qəsdinə çıxsın,
Yaxşı gün gözləmir, pis günə çıxsın,
Baş daşım başımın üstünə çıxsın,
Məntək düşüb qalıb, daşım ağrıyır.

7.06.2006

### *Nə günahı?*

Qarabağı satdılar,
İgidin nə günahı?
«Öl» deyib aldatdılar,
Şəhidin nə günahı?

Günahkar ah edirsə,
Günah var – ah edirsə!
Mömün günah edirsə,
Məscidin nə günahı?

Şahin uça bilmirsə,
Ceyran qaça bilmirsə,
Açan aça bilmirsə
Kilidin nə günahı?

11.06.2006

### *Nə boyda?*
### *(qoşmavari)*

Nakam sevgisindən çəkdi, nə çəkdi,
İlahi, o qızın baxtı nə boyda?
Dünyadan istəyi qumdan kiçikdi,
Gözündən gilələr axdı nə boyda.

Nə şöhrətə qane həris, nə şanə,

Tamah oxlarını yığır kamanə…
Dünənki padşahın taxtı miyanə,
Bugünkü padşahın taxtı nə boyda!..

Həyatı bitəcək sərvəti itsə,
Üqbadə olacaq möhləti bitsə.
Hər ölən Allahın yanına getsə
Görəsən Allahın vaxtı nə boyda?

13.06.2006

## *Nə günahı?*

«Gəlsən ayağın alta, -
dedin, - quzu kəsərəm».
Söz deməyə tələsmə,
Kəsmə, amandı, kəsmə,
Quzunun nə günahı?

Gələ bilməyəcəyəm,
Mən səninlə danışıb
gülə bilməyəcəyəm.
Oxun daşa dəyirsə,
Əlinə düşməyirsə
Əgər sevgi ruzisi
Ruzinin nə günahı?

14.06.2006

## *Məni*

Öyrən mənsiz yaşamağı,
Sevginlə bələmə məni.
Dilənçi deyilsən axı,
Bir daha diləmə məni.

Ziddimə gedə bilmərəm,
Səni isidə bilmərəm,
Dəlilik edə bilmərəm,
Dəlisov eləmə məni.

Nə şövqdür bu, nə niyyətdir?
Cəhdin bica əziyyətdir,
Şahin dedi – kifayətdir,
Bənzədirsən kimə məni?

15.06.2006

### *Əzrayıla*

Allah olmasam da,
sözümdən çıxma,
Ay Əzrayıl qardaş,
güldür Şahini:
Nə olar,
bir kərə növbətə baxma,
növbəsiz – filansız öldür Şahini.

16.06.2006

### *«Tərcüman-sahib, necəsən?»*

*«Əfqan» dostum Cümşüd Muradovun 80 illik yubileyi münasibətilə*

Qırx-qırx beş il bundan qabaq,
Cəfalı Əfqanıstanda,
bəlalı Əfqanıstanda,
bu gen dünyanın
kiçik bir parasında,
saqqalı əfqanlar arasında

qarasaqqal bir ağsaqqal vardı.
Əfqanlar onu «Cəmşid»,
tərcümanlar «Cümşüd» çağırardı.
Tərcüman – yəni mütərcim.
Məni uzaqdan görər-görməz soruşardı:
«Tərcüman-sahib, çetovri?»,
yəni «Tərcüman-sahib, necəsən?»
hal-əhvallaşardıq,
vətənsiz ötən günləri
qürbətdə yaşardıq.
«Tərcüman-sahib, necəsən?».
Necə olacağam ki?
Bu gen dünyanın kiçik bir parasında,
saqqalı əfqanlar arasnıda
yaşayırıq müvəqqəti,
çalışırıq müvəqqəti,
Salamatlıq olsun təki,
sağlıq olsun təki,
İnşallah
qoyarıq geridə qürbəti,
dönərik vətənə,
bax o zaman deyərsən mənə
«Tərcüman-sahib, necəsən?».
Şurəvilərə işlərdik
gündüz-gecə sən,
gündüz-gecə mən.
Və vaxt ötərdi beləcə.
Vaxtaşırı isə həmin sual:
«Tərcüman-sahib, necəsən?».

Arabir
sizin mənzilə yığışardıq,
dadardıq Rəna xanımın xörəklərindən,

Qürbətdə
 hərdənbir
 Azərbaycan xörəyi dada-dada
 yaşardıq
 və vaxt ötərdi beləcə,
 vaxtaşırı isə həmin sual:
«Tərcüman-sahib, necəsən, necə?».

İstəsək də, istəməsək də
qocalmışıq indi.
Cavanlıq geridə qaldı,
qocalıq sənindi,
qocalıq mənimdi.
Hamı qocala bilmir ki,
hamı qocala bilmir, dost,
Amma
hanı o qartal baxışın,
o çevik yerişin,
 duruşun?
Yapışmısan quyruğundan
ömür adlı bir quşun,
uçursan hələlik,
gəirsən hələlik,
qaçırsan hələlik.
Buna da çox şükür,
Şükür çox buna,
çatıbsan 80 yaşına,
qıvraq olasan təki,
belə qalasan təki.
Çiyinlərində
çox yaş daşıyasan,
belə şad yaşayasan
 gündüz-gecə sən

Və tez-tez
hərdən-birdən
soruşaq bir-birimizdən:
«Tərcüman-sahib, çetovri?»,
«Tərcüman-sahib, necəsən?».

17.06.2006

### *Son istək*

Adımı unutmaq istəyirəm,
Doğmamı, yadımı unutmaq istəyirəm…

Mənə dərd olan
sevincimi unutmaq istəyirəm.
Bal kimi şirin
göz yaşımı unutmaq istəyirəm.
Üstümə kin sapandından
vıyhavıyla
neçin axdı yad daşı?
Yaddaşımı unutmaq istəyirəm.

Sabahkı bu günü,
bu günkü dünəni unutmaq istəyirəm,
Döyüləni, döyəni unutmaq istəyirəm,
Seviləni, sevəni unutmaq istəyirəm,
Hətta səni unutmaq istəyirəm.

Hayandadır Pərvərdigar?
Bilmək istəyirəm başqa dünya varmı?
Varsa,
Orada nə var bilmək istəyirəm.
Bir sözlə:
Ölmək istəyirəm,

Ölmək istəyirəm!

20.06.2006

### *Çılğın şe'r*

Daha rəhm eləmə, demə ki, «təkdir»,
Bir də bizə gəlmə, gərək tək qalam.
Gözüm daha səni görməyəcəkdir,
Dilim deməyəcək «Əleyküm-salam».

Boyu düz sözünün nə yaman qısa,
Yalançının boyu nə yaman uzun!..
Arada əbədi hicran olmasa
Sonu olmayacaq vuruşumuzun.

Yanıldım…Şəninə qəzəl deyərdim,
İndi həcv edirəm, gör nə kökdəsən…
Əzəllər mən sənə «gəl, gəl» deyərdim,
İndisə sən məni səsləməkdəsən.

Özünü bundan da pis günə qoyma,
Yalan gizlədibsən dilinin altda.
Əlini əlimin üstünə qoyma,
Əlim qalmayacaq əlinin altda.

Yazısı beləymiş yazı yazanın,
Məni qınamasın qocaman fələk.
Peymanı pozanın, əhdi pozanın
Adı yaddaşımdan pozulsun gərək.

Daha rəhm eləmə, demə ki «təkdir»…

21.06.2006

## *Xəbərdarlıq*

Məni sevmə,
Məni yerdən aralama!
Uzaq dayan!
Eşqim ilə yanırsansa
Uzaqda yan,
Qoyma səni gözüm görə,
                    qolum quca,
Qorxuram ki, könül quşum
Şadlığından göyə uça.
Məni sevmə!

23.09.2006

## *Yalan söylə, sən canın!..*

*(Nağılbaz Gülzar Nənəyə)*

Dolacaqmı daxılın?
Malı mala qatmısan.
Mənsur şe'ri nağılın
Yanına uzatmısan.

Kimin var ixtiyarı
Əlindən ala dili.
«Ana dili» var idi,
Yaratdan «Bala dili».

Haçandır Qarabağda
İşlər düşüb əngələ.
Deyirsən «Kişi dili»
Yaradacaqsan hələ.

Nağıl yazıb, nağılın

Zirvəsinə çatmısan.
Tapmağa həqiqəti
Yalana əl atmısan.

Yalan söylə, sən canın!..
Yalançılıq sənətin.
Olmasaydı yalanın
Məşhur olardın çətin.

Qəlb evim talan olur,
Talançısan, talançı.
Nağıllar yalan olur,
Nağılçılar yalançı.

Nağıl söylə, sən canın!..

26.06.2006

### ***Öldürəcək***

Hər gün yazmaq tələbim var,
Tələb məni öldürəcək.
Canım, belə də təb olar?
Bu təb məni öldürəcək.

Kaman nə yaman ox atır,
Hamısı da mənə batır…
Nəsimim Hələbdə yatır,
Hələb məni öldürəcək.

Füzuli İraqda qaldı,
Bakıdan uzaqda qaldı.
Gəlməyi nə vaxta qaldı?
Əsəb məni öldürəcək.

Qarabağa doldu ələm,
«Dəvəsi itmiş ərəbəm».
Düşmən desin canında qəm:
«Ərəb məni öldürəcək».

Dözməyir can, qəzəbliyəm,
Çox axdı qan, qəzəbliyəm,
Qonşulardan qəzəbliyəm,
Qəzəb məni öldürəcək.

İşğala tələb deyən var,
Səbəbsiz səbəb deyən var,
Atəşkəsə dəb deyən var,
Bu dəb məni öldürəcək.

29.06.2006

## *Kasıb qızcığaz*

Qızıl neft yağışı yağır Bakıya…
Anacan, bizlərə nədir faydası?
Hanı qanunu?
Hanı qaydası?
Qızıl neft yağışı yuyur başımı,
Başım bəxtəvər.
Yuyur torpağımı, yuyur daşımı,
Torpağım bəxtəvər, daşım bəxtəvər.
Yağış yerə yağar, amma nədənsə
Qızıl neft yağışı göyə yönəlir.
Qızıllı yağışdan evlərə dönən
Göydələn evlərin başı göy dəlir.
Qızıllı kişilər görürlər işlər…
Mən isə görüşə gedə bilmirəm,

Yar ilə görüşə gedə bilmirəm,
Gələr paltarımdan neftin qoxusu,
Axı neft yağışı yağır Bakıya,
Qızıl neft yağışı yağır Bakıya.
Sözün doğrusu,
Deyirəm, ay ana, neft əvəzinə
Kaş yağaydı su…

Bəli, neft yağışı yağır Bakıya,
Şadlanır neft altda çimən kişilər.
Yerin əmcəyindən nefti pəh-pəhlə
Sümürən kişilər, əmən kişilər.
Anacan, mənisə çulğalayıb qəm,
neçə vaxt olar
Yarın görüşünə gedə bilmirəm,
Gələr paltarımdan neftin qoxusu.
Mənə o yağışdan de nə var axı?
Bircə dəst donum var əməlli-başlı.
Qorxuram paltarım bulaşar axı,
Axı neft yağışı yağır Bakıya,
Qızıl neft yağışı yağır Bakıya…

1.07.2006

### *24 saat*

24 saat – bir gecə-gündüz
gözüm ağrıdı.
Yazacağımı
yaza bilmədim.
Çarəsizlikdən
partlaram dedim,
ölərəm dedim.
Hanı? Hara getdi təb pərisi?

Hara getdi sözlərimin ilhamçısı?
Və nəhayət dada yetdi
Göz damcısı.
Dedim: Şükür, ey Xudavənd,
Ey hər ömrə yaş ayıran,
Sükunət bəs,
İki günlük ətalət bəs.
Yaşayıram.
Yoxaldı iki günlük dərdim.
Sözsüzlük…və şe'r.
Səssizlik…və söz.
Ümidsizlik…və ümid.
Yoxsa,
vallahi ki,
çərlərdim.

3.07.2006

## *İstəyirəm dəli olum*

Hey ağladır məni dərdim,
İstəyirəm dəli olum.
Dəli olsaydım gülərdim,
İstəyirəm dəli olum.

Hayandayam? Hayan yoxdur,
Bu yandayam, duyan yoxdur,
Ağıllını sayan yoxdur,
İstəyirəm dəli olum.

Yol gəlmişəm getmək üçün,
Tapılmışam itmək üçün…
Leyli, sənə yetmək üçün
İstəyirəm dəli olum.

6.07.2006

## *Şahinin qədrini bilən yox daha*

Haraya getdilər qədirbilənlər?
Şahinin qədrini bilən yox daha.
Ey hörmət edənlər, xətir bilənlər,
Şahinin qədrini bilən yox daha.

Mən məhəbbət qəsri tikmişəm necə,
Tikib də əziyyət çəkmişəm necə,
Qədir ağacı da əkmişəm necə…
Şahinin qədrini bilən yox daha.

Yoxsa, Yaradanın sərəncamıdı
Ki, mənim əlimdə zəhər camıdı?
Deyəsən taleyin intiqamıdı –
Şahinin qədrini bilən yox daha.

Çox şe'r gülünün ətrini bildi,
Çox şe'r yazanın qədrini bildi.
Beytini oxudu, sətrini bildi,
Şahinin qədrini bilən yox daha.

Sanki gəncliyini fələk bac aldı,
Necə ahıllaşdı, necə qocaldı…
Cavandı, nə yaman günlərə qaldı,
Şahinin qədrini bilən yox daha.

Yerdəki kişiyə göydəki kişi
Necə rəva bildi bu vaxtsız işi?
Çərxinin tərsinə döndü gərdişi,
Şahinin qədrini bilən yox daha.

Eşqini onunla bölən gedibdir,
Bir daha qayıtmaz, ölən gedibdir,
Şahinin qədrini bilən gedibdir,
Şahinin qədrini bilən yox daha.

7.07.2006

### *Dar ağacı*

Mənim axırıncı öyüd yerimdir
Dar ağacı.
Ümidim yoxalır, ümid yerimdir
Dar ağacı.

Məni nə dərdimə əlac gözləyir,
Nə taxt «gəl-gəl» deyir, nə tac gözləyir,
Haçansa cismimi ağac gözləyir –
Dar ağacı.

Torpaq «get» deyəcək, «gəl» fəza mənə,
Günahım olubsa, var cəza mənə.
Keçə bilmədiyim darvaza mənə
Dar ağacı.

Qapım bağlanacaq zənciri ilə,
Ölüm sevinəcək mən diri ilə.
Boynumu öpəcək kəndiri ilə
Dar ağacı.

Yerdəki həyatım tamam olacaq,
Əlimdə nə təsbeh, nə cam olacaq.
Şahinə sonuncu ən’am olacaq
Dar ağacı!

10.07.2006

### *Ağla*

Buludtək dolan qadın,
Ağla.
Gülməyi bacarmadın,
Ağla.

Gül öldü, çiçək soldu,
Bu yay quraqlıq oldu,
Ağla.

Ağlamağı məşq elə,
Həvəs ilə, eşq ilə
Ağla.

Yaşın yağıştək yağa,
Layiqsən ağlamağa,
Ağla.

Göz qapağın yumsalar
Yer qabığı çatdayar,
Ağla.

Ürəyim xoş olacaq,
Ürəyin boşalacaq,
Ağla.

Şahin kimi olub zar
Ağla.
Ağladanlar ağlayar,
Ağla, ağla, ağla.

11.07.2006

***Köhnə şairlərin didaktik şe'rlərinə bənzər şe'r***

Qəlbi eşqə bələ ki,
Qalarıq nə sən, nə mən.
Biz getmirik hələ ki,
Hələ ki, ildir gedən.

Gəldi-gedər kəslərik.
İmzası var fələyin.
Bu «gəldi»də, «gedər»də
Qalmaq ilə getməyin
Arasında məsafə
Çox deyil o qədər də.

Heç nə deyil səbəbsiz,
Hökm edə gərək Allah.
Elə ömür sürək ki,
Qalmağa «şükür» deyək,
Getməyə «bərəkallah».

Bizi yola salacaq
Bizi yola gətirən.
Özü yola salacaq
Özü yola gətirən.

Növbə ilə gəlirik,
Növbə ilə gedirik,
Ömrümüz qırıq-qırıq.
Hər şeyin axırı var,
Axırı var yolun da.

Hələ ki, yaşayırıq
Müvəqqəti həyatın
Müvəqqəti yolunda.

Qəlbi eşqə bələ ki,
Qalarıq nə sən, nə mən.
Biz getmirik hələ ki,
Hələ ki, ildir gedən.

12.07.2006

### *Yeni postmodernist məzmunlu şe'r*

Yerin üstündə sükut
sükutun üstündə gün
günün üstündə bulud
buludun üstünə min
yaşa-yaşa özünçün

say qaranı
say ağı
yaşa allah sayağı

ehe-e-y
    şeir yazıram
      məni yazır şeir həm
nöqtəni öldürürəm
vergülü öldürürəm
böyük kiçik hərflər
qəti deyil vecimə
böyük nədir kiçik nə

əlimlə qışqırıram

qələmim qayçılaşdı
rədifi parçalayıb
qafiyəni cırıram

təyyarə var içimdə
məni çəkir aşağı
hürmək istəyirəm mən
hanı köpək uşağı

sərbəst deyirəm şe'ri
əruzda yazsam əgər
qələmimin göbəyi
o saat irinləyər

modernist şairəm mən
oxucu qansın gərək
məni başa düşməyən
ölüb-utansın gərək

yerin üstündə sükut
sükutun üstündə gün

13.07.2006

***Ölünün yanına niyə gəlibsən?***

Ölünün yanına niyə gəlibsən?
Hələ ölümüylə təzə görüşüb.
Niyə ona sarı sən yönəilbsən?
Səni sevdiyi vaxt yadına düşüb?

O vaxt ölməmişdi, Şahin sağ idi,
İndisə qibləyə üzü dayanıb.
Qəlbi kağız kimi ağappaq idi,

Qaraldı alışıb, qaraldı yanıb.

Eşqini öldürdü eşqi bilməyən,
Osa eşqbilməzə meyl eləmişdi.
Heç kimin dilindən eşidilməyən
Sənə neçə-neçə şeir demişdi.

Hörməti qalmadı, xətri incidi,
Hörmət anlayanın, xətir bilənin.
Misrası incidi, sətri incidi,
Qədrini bilmədin qədir bilənin.

Ölümdən qaçarlar, ölümə şadam,
Qədrimi bilmədi diri adamlar
Korsanmı, karsanmı ey diri adam,
Görmürsən yanında ölü adam var?
Ölünün yanına niyə gəlibsən?

Get, daha üzümdən gözünü çək sən,
Mən bir ümman idim, sən isə damla
Ölüdən nə xeyir götürəcəksən?
Sənin nə işin var ölü adamla?
Ölünün yanına niyə gəlibsən?

Loğmanım deyilsən, çəkil kənara,
Yoxsa, çəkilməyi bacarmayırsan?
Qaraldı canıma vurduğun yara,
Məgər yenə məni diri sayırsan?
Ölünün yanına niyə gəlibsən?

Daha görmür gözü, danışmır dili,
Batıb kor bulaqtək, aşıb-daşmayır.
Vahimə yaradır adamda ölü,

Ölüyə dirilər yaxınlaşmayır,
Ölünün yanına niyə gəlibsən?

Bu fani həyatda insan müxtəlif,
Biri varı sevir, biri qədrini.
Vəslə yetmək üçün imkan müxtəlif,
Sən ki, bilməyibsən diri qədrini
Ölünün yanına niyə gəlibsən?

Bir vaxt bir rəhmətlik Məcnun yaşardı,
Var idi o məşhur dəlini sevən.
Leylinin sevgisi aşıb-daşardı,
Hələ görünməyib ölünü sevən,
Ölünün yanına niyə gəlibsən?

İnan peyğəmbərə, inan Allaha,
Qədəmim dəyişib istiqaməti.
Səninçin diri yox, ölüyəm daha,
Görməzsən daha o isti qaməti,
Ölünün yanına niyə gəlibsən?

Daha vəcdə gəlməz, daha uyuyub,
Yoxalıb arzular, itib diləklər.
Ölünün ayağı, əli soyuyub,
Yəqin ki, bir azdan dəfn edəcəklər,
Ölünün yanına niyə gəlibsən?
Niyə gəlibsən?

14.07.2006

### *İki yol ayrıcında*

Eşqinə yetmək – çətin,
Yetməmək isə – asan.

Mən çətini istədim,
Axı, asan çox asan.
Asana
asan yetib
nə təhər yaşayasan?
Çətin –
düzələ çətin.
Elə asan ki asan
bir dəli şeytan deyir
asandan yapışasan,
asandan asılasan,
yetməyəsən qəsdinə,
çətini rədd edəsən
qaçıb asan üstünə.
Yox, asanı seçərsəm
onda
mən olmaram mən,
istəməmək çətini
gəlməyəcək əlimdən.

Asana asan yetib
nə təhər yaşayasan?

17.07.2006

### *Qışı kim göndərib mənim yanıma?*

Əzəllər bahardım, indisə qışam,
Qışı kim göndərib mənim yanıma?
Mən onu yanıma çağırmamışam,
Qışı kim göndərib mənim yanıma?

Ruzisiz deyiləm mən, ey ruzigar,
Ruzi göndərəndən yenə ruzi var,

Ağartdı saçımı başımdakı qar,
Qışı kim göndərib mənim yanıma?

Bu sevən bir vaxtlar bəxtiyar idi,
Dərdinə, qəminə yarı yar idi…
Axı, qış fəslinə hələ var idi…
Qışı kim göndərib mənim yanıma?

Donuram, daha yar gəlməyəcəkdir,
Qıfılıma açar gəlməyəcəkdir,
Qışdan sonra bahar gəlməyəcəkdir,
Qışı kim göndərib mənim yanıma?

Həmişə istiyəm, qış olmamışam,
Soyuq adamlara qoşulmamışam,
Soyuqdan heç zaman xoş olmamışam,
Qışı kim göndərib mənim yanıma?

Əzrayıl icraçı Allah deyənə,
Ölüm xış şəklində göründü mənə,
Ömrümü xışlayıb bükdü kəfənə,
Xışı kim göndərib mənim yanıma?
Qışı kim göndərib mənim yanıma

19.07.2006

### *Səninlə görüşdük su içdiyin dəm*

Nağılçı «biri var, biri yox» dedi,
Bəxtim göydən düşən almadı mənim.
Nağılçı nağılı gerçək elədi,
Arzum ürəyimdə qalmadı mənim.

Səninlə görüşdük su içdiyin dəm,

Ömrün uzun olsun axar su kimi.
Hər arzu, kaş ki, ey qibleyi-aləm,
Çin olsun Şahinin arzusu kimi.

Səni gördüyümə şükürlər dedim,
Dua da elədim Rəbbə səninçün.
Mən ki, gəlişini dünən gözlədim,
Amma, gələcəksən yanıma bu gün.

Hərçənd biz bu eşqi əhd etməmişik,
Amma, gözləmişəm bu günə qədər.
Önünə çıxmasın qoy qara pişik,
Ötüb yanından keç çıxsa da əgər.

Səni aradığım neçə il olar,
Qaranı gətirmə ağ əvəzinə.
Hərdən ürəyimə dağ çəkən də var,
Ürəyimi çəkmə dağ əvəzinə.

Eşq ilə doludur Yerin hər yanı,
Sənlə görüş şövqü qəlbimə girib.
Gəl ki, incitməyək Allah babanı,
Axı, səni mənə Allah yetirib.

Nağılçı «biri var, biri yox» dedi,
Bəxtim göydən düşən almadı mənim.
Nağılçı nağılı gerçək elədi,
Arzum ürəyimdə qalmadı mənim.

…Səninlə görüşdük su içdiyin dəm…

20.07.2006

## *Məni oxuyanlara*

Sevgim ərşə qədər ucaldı-getdi,
Sevirəm.
Deməyin Şahin də qocaldı-getdi,
Sevirəm.

Tez dolsun canıma, ələm yonuram,
Kədər itiləyir, sitəm yonuram,
Gündə kağız cızır, qələm yonuram,
Sevirəm.

Məni tanısa da üzdən birisi,
Bu deyil dərdimin yüzdən birisi,
«Sevgi»dir sevdiyim sözdən birisi,
Sevirəm.

Onsuz da sevirəm «sev» desəniz də,
Tənqidlər, tə'riflər eləsəniz də,
Məni sevsəniz də, sevməsəniz də,
Sevirəm.

Kimsə bir sevirsə, yüz sevirəm mən,
Bilmirəm əyri, ya düz sevirəm mən,
Ey qaş-göz sevənlər, söz sevirəm mən,
Sevirəm!!!

25.07.2006

## *Yazıçılar*

Təsvir eləyən var Allaha bizi,
«Pisdir» söyləyən var,
«Yaxşı» deyən var.

Yazıçı mələklər çiynimiz üstdə
Oturub yazırlar etdiyimizi.

28.07.2006

### *Öldüm*

Bəlli ki, ölənlər bir dəfə ölür,
Min dəfə öldüm.
Çevrilib nə qədər hədəfə, öldüm.

Günü qara olan bir diyara bax –
Öldüm.
Hələ özgədədir bizim Qarabağ –
Öldüm.

Bu yan alovlanır, o yan odlanır,
Öldüm.
Fələstin alışır, Livan odlanır,
Öldüm.

Haqqın ədalətin yuxusu gəlir,
Öldüm.
Padşahdan Allahın qoxusu gəlir,
Öldüm.

Yenə peyda olur xanlar, əmirlər,
Öldüm.
Rüşvət almayana kişi demirlər,
Öldüm.

Qəddarlıq elədi kiməsə biri –
Öldüm.
Yaltaq elədilər filan şairi,

Öldüm.

Günahkar ölmədi günahı ilə,
Öldüm.
Seçildi vəkillər siyahı ilə,
Öldüm.

Yad kişi önündə soyunur qadın,
Öldüm.
Allah, ölümümdən xəbər tutmadın,
Öldüm, öldüm, öldüm…

1.08.2006

### *Sönet*

Allahdan incidim bir az bu gecə,
Neçin səni mənim yuxuma saldı.
Ovqatım dəyişdi bu gecə necə,
Bənizim saraldı, qanım qaraldı.

Səni qovlamışdım bir oğru kimi,
Mənə şümür təki əzab gətirdin.
Yadımdan çıxmışdın pis yuxu kimi,
Nə üçün bu gecə yuxuma girdin?

Bu gecə ey mənim yanıma gələn,
Səni unutmuşam, bilmirsən məgər?
Yönüm sənə sarı əks, köndələn,
Əks olan iki kəs necə birləşər?
Daha yuxuda da görünmə mənə,
Qoyma ki, Allahdan inciyim yenə.

3.08.2006

### *Hambala*

*O qədər ki, böyütmüşəm*
*Dərdim özümdən yekədi.*
*O qədər ki, üyütmüşəm*
*Sevincim bircə tikədi.*
*Dilşad Qəmli*

Hələ görünməyib dərdli mən təki,
Dərdim doğulubdu özümdən qabaq.
Mənə son zamanlar elə gəlir ki,
Ləqəbim «Fazil» yox, «Dərdli» olacaq.

Tay-tay ağırlıq var dərdisərimdə,
Başımı tutaraq dik, daşıyıram.
Hambal, yük dartırsan çiyinlərində,
Mənsə ürəyimdə yük daşıyıram.

Fələk sənə gülüb çalmada çəpik,
Məni təpikləyir dərdin ayağı.
Sənin qazandığın bir-iki qəpik,
Mənim itirdiyim qəlbimin yağı.

Südəmər deyiləm, tifil deyiləm,
Məni dərdin dərdi yandırıb-yaxır.
Hamballıq edirəm, xəcil deyiləm,
Amma, əyrilərə gözüm şax baxır.

Ağır yük altında üzülmədə can,
Şələ çəkə-çəkə olmuşam qoca.
Mənim nəzərimdə çox mə'mur – cırtdan,
Mənim nəzərimdə hər hambal-uca.

Heyhat, dərd qəsrini yıxa bilmirəm,

Qəsr gözətçisi bir deyil, min-min…
Hambal, qozbelinə baxa bilmirəm,
Sən də qozbelinə baxma Şahinin.

Yük daşıyacağıq ölənə qədər,
Allah çaramızı kəsibdir bizim.
Şadam ki, ömrümüz ötməyir hədər,
Beləcə də ölək, mənim əzizim.

…Hələ görünməyib dərdli mən təki,
Dərdim doğulubdu özümdən qabaq.
Mənə son zamanlar elə gəlir ki,
Ləqəbim «Fazil» yox, «Dərdli» olacaq.

5.08.2006

### *Məhəbbət kitabı*

Demə əlifbadan dərs keçim sənə,
Sevgi əlifbası sanma çox çətin.
Yaxşı əməl eylə ustad deyənə,
Cür’ətin gərəkdir, fəqət cür’ətin.

Bu gün təcrübəmə şəkk eləyər kim?
Mən tək təcrübəli müəllim hanı?
Elə Məcnunam ki, mənə, əzizim,
Leyli öyrədibdir o əlifbanı.

Qələmlə başladım fəaliyyətə,
Sonrasa sevgidən yazdım kitablar.
İndisə özünü gətir cür’ətə,
Dəftərin də vardır, qələmim də var.

Canım, nə əlifba, bu necə rica?

Sən ki, yeddi yaşlı uşaq deyilsən.
Eşq ilə, sevgiylə olmuşam qoca,
Elə bil yatıbsan, oyaq deyilsən.

Mənim sözüm ilə əməlim birdi,
Kitab yazdıraram sənə həmin dəm.
Nə sən ibtidai məktəb şagirdi,
Nə mən ibtidai bir müəlliməm.

Demə əlifbadan dərs keçim sənə…

7.08.2006

### *Sağ həkim Qəninin qəbri*

Qəbirlər…
Qəbirlər…
Bu qəbirlərdə yatan kəsin
gözü sönüb,
qolu qopub,
dili düşüb,
sözü yoxdur.
Köhnə Qəbristanlıqda
Həkim Qəninin də
qəbri var,
qəbrinin içindəsə
özü yoxdur.
Allah canını sağ eləsin.
Neçə-neçə illər qabaq
tədbirli bir adam tək
özü qazıb qəbrini,
bilir ki, haçansa öləcək.
Bilir ki,
Haçansa

Yuxarıda
Onun ölüm fərmanını yazacaqlar,
Aşağıda
qəbir torpağını qazacaqlar.
Amma o,
kimsəyə
əziyyət olmasın deyə
60 ildir ki,
özü qazıb qəbrini
və
özünə edib hədiyyə.
Hələ bir
Qəbrinin üstündəki
baş daşının üstünə
şəklini də vurub.
Başıpapaqlı Qəniyə bax, Qəniyə,
gör necə
şəst ilə
qəbrinin içində deyil,
üstündə oturub,
seyr edir solu, sağı
baxır başqa qəbirlərə
üstdən aşağı.
Baxır qarşısında yatan
mərhum arvadlarına –
yatıblar yan-yana
son mənzillərinin içində.
Özü dəfn edib onları,
Özünüsə
dəfn edəcəklər günlərin bir günü
hələlik bomboş olan qəbrində.
Tanrı ona
belə tale yazıb.

Hacı Rafiq Şirvani demişkən
«Əziyyət olmayacaq qəbirqazana»,
axı qəbrini özü qazıb.

Qəbirlər…
Qəbirlər…
Bu qəbirdə yatan kəsin
gözü sönüb,
qolu qopub,
dili düşüb,
sözü yoxdur,
Köhnə Qəbristanlıqda
Həkim Qəninin də
qəbri var,
qəbrinin içindəsə
özü yoxdur.

Allah canını sağ eləsin!..

8.08.2006

### *Kölgəmi qılınclayana!*

Bu gün mən də sağam,
özün də sağsan.
Kölgəmin altında bitən
alağsan.
Məni
Allah qoydu qocala bildim,
Səni
Allah qoysa – qocalacaqsan.

9.08.2006

## *Dənizlər*

Ömrü boyu
yaş tökür,
Adamdan yaş süzülür,
gah ağlayır,
gah gülür…
hər adam bədənində
dəniz varmış ki.
Dəniz olmasaydı
hərgah hər adam
quruyarmış ki.

…Ömrü boyu
yaş tökür…

10.08.2006

## *Əlvida*

Dərdindən ölmürəm daha sən yarın,
Əlvida gələcək vüsallarıma.
Qarışıb saçıma sənin saçların,
Mənsə qarışmışam xəyallarıma.

Sonu görünmədə bu məhəbbətin,
Neynək, mən salamat, sənsə sappasağ.
Belə həssas adam taparsan çətin,
Mənə e'tinasız olmazdı olmaq.

Arada ayrılıq çəpəri vardır,
Eybi yox, bir azca kədərlənərəm.
Sənin dodağının zəhəri vardır,
Bir də məni öpmə, zəhərlənərəm.

11.08.2006

### *Cavabını tapa bilmədiyim sual*

Çiynimizdə mələk var,
Özü də iki mələk,
Gərək gətirməyək şəkk.

Biri xeyri yazmada,
Biri şəri dəmadəm…
Dərk etməkdə acizəm…

Çiynimizdə mələk var,
Biz yerə yıxılanda
Görəsən yıxılarlar?

13.08.2006

### *Qubada sənsiz*

Görürəm önümdə yenə fərağı,
Canımda həsrətin var olub yenə.
Eşidir səsimi yerin qulağı,
Səninsə qulağın kar olub yenə.

Quba yanımdadır, Bakı o yanda,
Gəlmişəm saf hava mən udum deyə.
Saat götürmədim yola çıxanda
Vaxtın ötüşünü unudum deyə.

Şahdağın yanına gəlmişəm bu gün,
Hərçənd yazmaq olub həmişə peşəm,
Beynimin bir qədər dincliyi üçün
Qələm də, kağız da götürməmişəm.

Yaxamı vermirəm meyin əlinə,
Qoymuram yaxına şərabı da lap.
Gözümün dincliyi naminə, mənə
Yasaq eləmişəm kitabı da lap.

Üzümü tuşlayıb Bakı səmtinə
Səni səsləyirəm, fəqət mən səni.
Deyirəm yanımda olaydın yenə,
Yanımda görəydim təzədən səni.

Vallah divanə mən, billah, dəli mən,
İztirab çəkirəm sənsiz, iztirab.
Şahdağ diksinsə də mənim səsimdən,
Əksi-səda olur səsimə cavab.

Görürəm önümdə yenə fərağı,
Canımda həsrətin var olub yenə.
Eşidir səsimi yerin qulağı,
Sənin qulağınsa kar olub yenə.

15.08.2006
Quba

### *Hələ ki...*

Bəyazı qara görürəm,
Gözlərimdən ağ çəkilir.
Məgər bir çara görürəm?
Təklikdən qulaq çəkilir.

«Bəs! Daha yazan deyiləm!»
Təb söyləyir: «Gərək gələm».
Gündüz-gecə ələ qələm,

Önümə varaq çəkilir.

Qarabağın dərdi dərin,
İçindəyik dərdisərin.
Bığ-saqqalı kişilərin
Başından papaq çəkilir.

Hələ bizdə savaş yükü…
Öyünürük qalib təki…
Qılınc çəkilmir hələ ki,
Hələ ki, araq çəkilir.

16.08.2006
Quba

### *Qubada yazdığım cızmaqara*

Qara don geydirib şəfəqlərinə
Qayıdıb təzədən günəş yerinə.
Gecə sevişəcək sevənlər kimi –
Ulduzlar göz vurur biri-birinə,
Gecənin çırağı nə çoxdur, Allah.

Ey şah, haqqı vardır taca ananın,
Şahdağdan, Qoşqardan uca ananın.
Qoca Yer Kürəsi qoca anadır,
Bu ulu kürənin, qoca ananın
Oğulu, uşağı nə çoxdur, Allah.

Əfv edin dediyim bayağıdırsa,
Sözüm mübaliğə sayağıdırsa,
Deyirlər hər ölü Allah qonağı,
Hər ölü Allahın qonağıdırsa,
Allahın qonağı nə çoxdur, Allah.

17.08.2006
Quba

### *Heyhat!..*

Cismim içrə
Həyat da var,
ölüm də.
yaşayırlar mənim ilə
mənimtək.
Əvvəl-axır ölüm qalib gələcək.

20.08.2006

### *Dəli*

Dəlinin əlinə daş vermə, Allah.
Birdən
kimisə öldürər,
qanı yerdə qalar kiminsə,
özü isə şax-şax gəzər
«filankəsi öldürdüm» deyə-deyə…
İş düşmür dəliyə!

Dəlinin əlinə daş vermə, Allah.

21.08.2006

### *İki dəli*

Məni dəli edir dəlinin biri,
Qərarım qətidir, o vermir qərar.
Mən isə əzəldən zəlinin biri,
Həm də soy adımda «zəli» sözü var.

Bu günü görürəm, sonu görmürəm,
Heç dəli olmasın mənim günümdə.
Gözümü açıram – onu görmürəm,
Gözümü yumuram – dəli önümdə.

Həkim xəstəsini gərək tanıya,
Ey dəli həkimi, bekar dayanma.
Apar bu dəlini dəlixanaya,
Fəqət dəlim ilə bərabər amma.

Məni dəli edir dəlinin biri…

22.08.2006

### *Təzad*

Günəş
İşləyir məccani,
Fəsillər
Gəlir piyada,
Hava
Verilir havayı –
Təbiətə bax!..

Artır sərvəti, dövləti,
Çoxalmır amma qüdrəti,
Dövlət
Aldadır milləti –
Təbiətə bax,
Bu dövlətə bax,
Bu millətə bax.

24.08.2006

### *Gecənin ayağı*

Cırmır çadrasını gündüzün əli,
Gecənin ayağı niyə yerimir?
Gecənin bu gecə gəlmir əcəli,
Gecənin ayağı niyə yerimir?

Önünü saxlayan əlmi olubdur?
«Dayan, getmə» deyən dilmi olubdur?
Gündüzün əlləri şilmi olubdur?
Gecənin ayağı niyə yerimir?

Bu gecə açmıram baş ayağından,
Yükünü tökəydi kaş ayağından,
Elə bil asılıb daş ayağından,
Gecənin ayağı niyə yerimir?

Bu gecə əhvalım yaman, nə yaman!..
Bu gecə gecəmi bürüyüb duman,
Bəlkə də burxulub gəldiyi zaman,
Gecənin ayağı niyə yerimir?

Haçan görünəcək gözümə gündüz?
Şahin, neçin baxmır sözümə gündüz?
Gündüz güləcəkmi üzümə gündüz?
Gecənin ayağı niyə yerimir?

25.08.2006

### *Mübarək olsun!*

*«Təzə mənzilin mübarək,*
*Gəlib canıma köçmüsən»*
*Fərqanə*

Ey canda işıq yandıran,
Ey qanda işıq yandıran,
Ey gözü işıqlandıran,
Qəndilin mübarək olsun.

Hicri soldur, xəzəlləşdir,
Vəsli güldür, gözəlləşdir,
Ürəyimi özəlləşdir,
Mənzilin mübarək olsun.

Ey Şahini yaşadanım,
Ey eşqimlə yaşayanım,
Ey mənə eşq daşıyanım,
Zənbilin mübarək olsun.

27.08.2006

### *Bir şaircığaza*

Şe'rinin əyrisi çox,
Sözünün yalanı var,
Düzünü göstər mənə.
Şairi üzündən yox,
Sözündən tanıyarlar,
Sözünü göstər mənə.

28.08.2006

### *Allah olmaq çətindir*

*«O bilmədən ağacdan bir yarpaq*
*belə düşməz»*
*Qur'an, Ənam surəsi, ayə 59*

Qoca Yer Kürəsində
Allah olmaq istəyən

Adamlar görürəm mən,
Allah olmaq çətindir.

Allahsızlıq eləmə,
Bu işə asan demə,
O məqamı istəmə,
Allah olmaq çətindir.

Ey sonu görməyən kəs,
O, hər yana əl atıb
Və sonsuzluq yaradıb,
Allah olmaq çətindir.

Onun hökmü olmasa
Qaranlıqlar ağarmaz,
Sözlərimə qulaq as:
Allah olmaq çətindir.

O, fərman eləməsə
Bülbüllə gül öpüşməz,
Yarpaq da yerə düşməz,
Allah olmaq çətindir.

Meylindən əlini üz,
Minlərlə səyyarəni
Fırladır gecə-gündüz,
Allah olmaq çətindir.

Cərrah ola bilərsən,
Əgər Allah istəsə
Lap şah ola bilərsən,
Allah olmaq çətindir.

Allah olmaq istəmə,
Vallah ola bilməzsən,
Billah ola bilməzsən,
Allah olmaq çətindir.

Allahsızlıq eləyib
Ey allahlıq istəyən,
Heç Şahin olmaz səndən,
Allah olmaq çətindir.

29.08.2006

### *«Fatma şikəstə»*

*Fatma Mehrəliyevanın həzin*
*səsini dinlərkən*

Öxunur yenə də «Kəsmə şikəstə»,
Yenə də Fatmanın səsi ucalır.
Özü olmasa da torpağın üstdə,
Səsi ki ucalır, səsi ki qalır.

Sağalmaz sevgidir ürəyimdəki,
Bircə Allah bilir Şahin çəkəni.
Qoy canımı üzsün, eşidim təki,
Lap şikəst eləsin «Şikəstə» məni.

Qulaq kəsildikcə bu diri səsə,
Sustalan qollarım yanıma düşür.
Yanıram, su verin təşnə bir kəsə,
Bu səsin yanğısı canıma düşür.

Özünü görmürəm… İstədiyimdən
Görmək istəyirəm onun səsini.
Qoy daim eşidim, istəmirəm mən

«Kəsmə şikəstə»nin kəsilməsini.

Qəlbimdə iztirab, gözlərimdə nəm,
Dinlədim… «Şikəstə» yetişdi sona.
Mən «Kəsmə şikəstə» deyə bilmirəm,
Mən «Fatma şikəstə» deyirəm ona.

1.09.2006

## *İstəmə!*

Sanki kül altından üstə köz çıxıb,
«Səni istəmirəm» söylədin kimə?
İsti dodağından soyuq söz çıxıb,
İstəmə, istəmə, məni istəmə.

İstəksiz nə təhər görüşmək olar?
Ayıb, yüz qat ayıb, min kərə ayıb.
Demək sənin mənə ehtirasın var,
Demək eşqə qarşı eşqin olmayıb.

İstək görməmişəm istəyin kimi,
Sənin istəyinin məqsədi varmış.
İstək olmayıbmış səndə səmimi,
Səmimi sevgi də səndən kənarmış.

Qulağım inanmır dilin deyənə,
Sevgini almayıb vecə, istədin.
«Səni istəmirəm» söyləyib mənə
Sən istəməməyi necə istədin?

İstəmə, istəmə, məni istəmə…

2.09.2006

## *İtirdim*

- Hanı, hanı uzaqgörən gözündəki parıltı?
- Qapadı baxışımı
Yerdə olan qaranlıq.
Mən həmin parıltını
gözümü qırpa-qırpa
itirdim.
- Ey adı Şahin olan,
Bəs hanı qanadların?
- Göydə uçmaq istədim
qoymadılar, qovdular.
Dedilər ki,
səmalarda
Nizami var,
Füzuli var,
Sə'di var…
Qibtəmdən, həsədimdən
qanadları bir-birinə
çırpa-çırpa itirdim.

3.09.2006

## *Bilmirsən ki, bilmirsən*

Ey şe'rin nə olduğunu bilməyən,
Amma, özünə şair deyən adam,
Matam sənə, matam.
Sən
Şair Sə'di Şirazi demişkən
«Bilmirsən ki, bilmirsnə».
Özünə şair deyib
özünü aldatma,
görmə qaranı ağ kimi.

Yazdıqlarını cırıb atma,
basdır onları torpağa
ölü doğulan uşaq kimi.

6.09.2006

### *Torpaq*

Torpağın üzü bərkdir,
Torpağın gözü acdır.
Torpağın qulağı kar,
Torpağın qucağı gen,
Torpağın səbri böyük,
Hövsələsi bərqərar.

Torpaq palçığa dönüb
Elədi var adəmi.
Torpaqdan yaradıbdır
Pərvərdigar Adəmi.

Torpaq «yaşa» deyəndir,
Torpaq üçün yaşa, yan.
Torpaq ölü yeyəndir,
Torpaq diri yaşadan.

Torpağın içində od,
Torpağın içində su.
Hər dəm hərəkətdədir,
Gəlmir onun yuxusu.

Fərqinə varmayırıq
Torpağı yaradan var.
Amma, neyləyəsən ki,
Torpağı öldürürlər

Torpaqdan yarananlar.

Torpaq torpaq püskürür
Vulkanlı nəfəsiylə.
Hərdən isə tərpədir
Bizi zəlzələsiylə.

Torpağın üstündə zər,
Torpağın içində zər.
Bacarığı olana
Gövhər verər, lə'l verər.

Torpağın altı torpaq,
Torpağın üstü bağdır,
Torpağın üstü göldür,
Torpağın üstü dağdır,
Torpaq belə torpaqdır.

Torpağa dönəcəyəm,
Məndə torpaq eşqi var.
Torpaqdan yarananın
Sonu da torpaq olar.

Torpağın üzü bərkdir…

7.09.2006
*Quba, qəbristan*

### *Qubada yağış*

Göylərin yenə də doğhadoğu var,
Ay aman, yenə də damımız damır.
Hamilə buludlar bala doğurlar,
Buludlar yenə də yağış saxlamır.

Qoy yağsın, göylərdən bərəkət düşür,
Bağlaram damımın daman yerini.
İlahi, su ilə torpaq görüşür,
Bağlama yerlərin güman yerini.

Yuyan yağış olsun yerləri təki,
Göyün bəxş etdiyi səxavətdi bu.
… Bir az da azaldı göylərin yükü,
Bir az da çoxaldı Qudyalın suyu.

8.09.2006
*Quba*

### ***Nağıl və ağıl***

«Göyçək günlərimiz var…»,
Nağıla bax.
Nağıla inanırlar,
Ağıla bax.

10.09.2006

### ***Qoca dəyirmançı, köhnə dəyirman***

Tarixçəmiz haqda nə bilirik biz?
Həqiqət bir isə min birdir güman.
Qoca dəyirmançı – Xudavəndimiz,
Qoca Yer Kürəsi – köhnə dəyirman.

Nə vaxt mayalanıb, haçan öləcək?
Məhşər başlayacaq görən nə zaman?
Bizi hələ çoxmu vacib biləcək
Qoca dəyirmançı, köhnə dəyirman?

Min-min illər keçir, çoxalır yaşı,
Zaman müxtəlifdir, məkan o məkan.
Üyüdür insanı dəyirman daşı,
Qoca dəyirmançı, köhnə dəyirman.

Bir gün də qəzanın «gəl» fərmanına
Qoca Şahin Fazil söyləyəcək «can».
Hazırlaş deyəcək Haqq divanına
Qoca dəyirmançı, köhnə dəyirman.

11.09.2006

### *Sual*

Ey cənnətin bağbanı,
Cənnətdə adam varmı?
Burada halal hanı?
Orada haram varmı?

12.09.2006

### *Sənəm Səbayel haqqında şe'r*

*Qadın haqqında şe'r yazmaq, bəlkə də şe'r haqqında şe'r yazmaqdır. İllah ki, şe'r yazacağın qadın Sənəm ola. Sənəm Səbayel…*

*Onunla neçə il qabaq bir məclisdə tanış oldum. Məclisin aparıcsı idi. Aparırdı məclisi. Məclis də çəkib bizi aparırdı Sənəm dünyasına, Sənəm dünyasının poeziyasına. Rəvan nitqi, səlis dili, məlahətli səsi, deklomasiya qabiliyyəti aparırdı məclisi poeziya ziyasına. Məclis də çəkib bizi aparırdı Sənəm dünyasına, Sənəm poeziyasına…*

*Arada fürsət tapıb onu «Məcməüş-şüəra» məclisinin yığıncağına də'vət etdim, naz ilə*

*gülümsəyib dedi: «Mən şair deyiləm». Yalan danışdı. Bildim ki, doğru demədi. Düzünü söyləmədi. Mən onda, onun görünüşündə, onun emosiyalı səsində, onun ehtiraslı ifasında nəsə bir şairanəlik duymuşdum. Yalan danışdı. Bildim ki, doğru demədi. Düzünü söyləmədi. Və…günlərin bir günü yalanı açıldı, gizlədiyi «sirri» açıldı. Əlindəki dəftəri də açıldı, başladı şe'r oxumağa. Vətən şe'rləri oxudu. Məhəbbət şe'rləri oxudu. Torpaq şe'rləri oxudu. Məhəbbət şe'rləri oxudu. Vüsal şe'rləri oxudu. Ayrılıq şe'rləri oxudu. Məhəbbət şe'rləri oxudu. Vətən şe'rləri də, torpaq şe'rləri də, vüsal şe'rləri də, ayrılıq şe'rləri də ehtiraslı bir məhəbbətdən irəli gəlirdi, eşqdən gəlirdi, sevgidən gəlirdi. Sənəm məhəbbətli idi, eşqli idi, sevgili idi…*

*İndi neçə ildir ki, gəlir məclisimizə, oxuyur məhəbbət şe'rlərini. Mən onun misralarından misallar gətirmək istəmirəm. Oxumayan, oxusun və məhəbbət görsün, eşq görsün, sevgi görsün.*

*Qadın haqqında şe'r yazmaq, bəlkə də şe'r haqqında şe'r yazmaqdır. İllah ki, şe'r yazacağın qadın Sənəm ola. Sənəm Səbayel…*

Yazmışam mən gecə-gündüz ələm haqqında şe'r,
Olmuşam qəmli yazıb həm də qəm haqqında şe'r.

Sevdi bir ermənini, guya müsəlman yoxdu,
Yazmaram mən daha, ey dil, Kərəm haqqında şe'r.

Çox adam şə'ninə yazdım, hələ mən yazmamışam,
Babam haqqında qəzəllər, nənəm haqqında şe'r.

Bir sənəm var ki, «sənəmlər sənəmi» söylədilər,
Yazıram indi həmin möhtərəm haqqında şe'r.

Gördüyüm dəm onu qəlbim dedi «şairdir bu»,
Mütləqa yazmalıyam mən o dəm haqqında şe'r.

Nəmlənir gözləri hərdən, oturub yazmalıyam
Ataraq iş-gücümü indi nəm haqqında şe'r.

Qələmim, ləngimə, gəl-gəl əlimə, lap yazaram
Sənəmin xatirinə mən qələm haqqında şe'r.

Qoşmasam da daha söz heç sənəmə, ey Şahin,
Bu qısa şe'r alındı «Sənəm haqqında şe'r».

13.09.2006

### *«Ay Allah!..»*

Hamının dilində «Allah» kəlməsi,
Həm arif, həm naşı «ay Allah» deyir.
Buğda üyüdülür çıxmayır səsi,
Dəyirmanın daşı «ay Allah» deyir.

«Saxla» söyləyirəm, vallah saxlamır,
Bəndə dayandırmır, billah saxlamır,
Neçin bu axını Allah saxlamır –
Gözlərimin yaşı «ay Allah» deyir.

Neçin qayğılıdır ömrün qışından?
Yalvarır, yaxarır yaranışından…
Allahın iş-gücü aşır başından,
Adam kəlməbaşı «ay Allah» deyir.

15.09.2006

### *«Qışqırma» deməyin mənə*

Kül altında közü görmür,
«Gör» deməkdən aşmayır kar.
Hökmdarlar bizi görmür,
Dünyamızın qulağı kar,
«Qışqırma» deməyin mənə.

Müt'ilərə «Filan kəsin
səsindən od yağır» deyin.
Çarası yox susan kəsin,
«Çığır» deyin, «bağır» deyin,
«Qışqırma» deməyin mənə.

Özümündür nəyim varsa –
Aldığım nəfəs özümün.
Deyəcəyəm heyim varsa:
Boğaz mənim, səs özümün,
«Qışqırma» deməyin mənə.

Bel çürüyüb, yaba gedib,
Səs indi hesaba gəlib.
Həlim Şahin baba gedib,
Qışqırıqçı baba gəlib,
«Qışqırma» deməyin mənə.

Mən – qüssələr sürgünündə!
Var dərdlərim, niskillərim.
Qoy günlərin bir günündə
Lap qırılsın səs tellərim,
«Qışqırma» deməyin mənə.

Narazıyam taleyimdən
Hadi kimi, Sabir kimi.
Alim kimi sussam da mən,
Qışqırıram şair kimi,
«Qışqırma» deməyin mənə.

Unudub sakit çağları
Dəli olmaq çağım gəlir.
Tıxasınlar qulaqları.
Yenə qışqırmağım gəlir,
«Qışqırma» deməyin mənə.

Ey daş atıb baş qıranlar,
Ey baş ilə daş qıranlar,
Ey günahsız quş qıranlar,
Ey özləri qışqıranlar,
«Qışqırma» deməyin mənə.

Dustaq etməyin səsimi,
Qışqırıram, siz kimsiniz?
Şaih İsmayıl Xətaimi,
Yoxsa Sultan Səlimsiniz?
«Qışqırma» deməyin mənə.

Döşəniblər xəli kimi –
Yer altında yatanlar var.
Qıyya çəkib dəli kimi
Qışqırdım ki, oyansınlar,
«Qışqırma» deməyin mənə.
«Qışqırma» deməyin mənə!

17.09.2006

### *Öləndən sonra*

İstərəm ki, yenə mən
Çıxım yolun üstünə.
Həsrətinlə təzədən
Baxım yolun üstünə.

Gözə dəyim sağ kimi,
Sevinim uşaq kimi…
Çağlayıb bulaq kimi
Axım yolun üstünə.

İstərəm ki, ayılım,
Yenə Aşiq sayılım,
Səni görüb bayılım,
Düşüm qolun üstünə.

18.09.2006

### *Mən elə təkcəyəm ki…*

Tək qalmışam, tənhayam,
Qınamayın şairi.
Dünyada ha çox adam…
Mən də adamın biri,
Mən elə təkcəyəm ki…

Yaxınlaşır gedişim,
Əcəl neyimi çaldım.
Çox olub savab işim,
Neçin bu günə qaldım –
Mən elə təkcəyəm ki…

Günahlarım da olub,

İnsan mələk deyildir.
Mənə elə gəlir ki,
Allah da tək deyildir,
Mən elə təkcəyəm ki…

Həyatda ömür qısa,
İtir həyata meyil.
Tək olmayan çoxdusa,
Tək olan da az deyil,
Mən elə təkcəyəm ki…

Eşidirəm, qeybdən
Qapımı döyür əcəl.
Qoyma məni təkcə sən,
Əzrayıl, yanıma gəl,
Mən elə təkcəyəm ki…
Mən elə təkcəyəm ki!..

25.09.2006

## *Yol*

Adəmdən başlayan yol
çox adamlar gətirib,
çox adamlar aparıb…
Çox babanı atadan,
çox atanı babadan
qoparıb.

Kim var bu ulu yolda
nəhəng addım naminə
kövrək qədəmlərini
yavaş-yavaş atmadı?
Adəmdən başlayan yol

kimləri öldürmədi,
kimləri yaşatmadı?

Adəmdən başlayan yol
günlərin bir günündə
yox olacaq, işə bax.
Adəm, gorun çatlasın,
Səndən başlayan yolu
adamlar dağıdacaq.

27.09.2006

### *Yapışıb*

Yerdə məndən ağır adam tapılmaz,
Hər bir hüceyrəmə vətən yapışıb.
Ətirsiz misralar «Divan»ımda az,
Onlara qızılgül, süsən yapışıb.

Aşiqə mədəd yox, imdad hayanda?
Ustadım olası ustad hayanda?
Deyirlər «Məcnunla, Fərhad hayanda?»,
Məndən dağ əl çəkmir, düzən yapışıb.

Bu necə cəzadır, bu necə sitəm?
Ürəkdə kədər var, gözlərimdə qəm.
Mən fağır tənhayam, amma bilirəm
Neçə sevənindən sevən yapışıb.

Yerdə yar olmadı riya, şər mənə,
Yerdə yapışmadı kələklər mənə,
«Göydə yer vermədi mələklər mənə,

Dedilər: Ruhuna bədən yapışıb»[1].

Bu gün gözlərimdən Qarabağ gendə,
Şahin, hal qoymadı bu qüssə məndə.
Sanıram əynimə köynək geyəndə
Sanki bədənimə kəfən yapışıb.

28.09.2006

### *Ayağımı*

Bir daha Şahdağa getməyəcəyəm,
Yenə yaraladı dağ ayağımı.
Gəzməyə Qubamda bağ yoxmu bəyəm?
Yəqin ki, incitməz bağ ayağımı.

Bir hicran yenə də baxdı gözümdən,
Elə bil ildırım çaxdı gözümdən,
Ürəyimin yağı axdı gözümdən,
Ay aman, yandırdı yağ ayağımı.

Şahintək şığıdım hicrana tərəf,
Meylim əzm elədi imkana tərəf,
Sol ayaq getməsə canana tərəf
Mən kəsib ataram sağ ayağımı.

2.10.2006
*Quba*

### *Kimidir*
### *(qoşma)*

Sevgini həmişə vəsf eləyiblər,

---

[1] Beyt Əlirza Həsrətindir.

Məhəbbət bitməyən kitab kimidir.
Eşqə həzz deyiblər, fərəh deyiblər,
Amma, deyən də var əzab kimidir.

Gülüm, çoxalsınmı yenə əzabım?
Yoxsa azalsınmı taqətim, tabım?
Bu iki misraya iki cavabım
Sualsız deyilən cavab kimidir.

Hərdən incidəndə söz ürəyini,
Kaş görə biləydi göz ürəyini…
Şair hey yeyirsə öz ürəyini
Şairin ürəyi kabab kimidir.

Uduzur hicrana vüsalın sənin,
Məni dinc qoymayır xəyalın sənin,
Həmişə xoş olsun əhvalın sənin,
Əhvalım yenə də xarab kimidir.

Qocalıb-getmişəm, məni cavan et,
Gər cavan etməsən, ölü güman et,
Çəkib ağ çöhrəndən hicabı yan et,
Sənin qara zülfün hicab kimidir.

Qəmzə oxlarına hey tuş oluram,
Məni qucaqla ki, bihuş oluram,
Danışma, səsindən sərxoş oluram,
Səsinin tə’siri şərab kimidir.

Şahinəm, məni şah elə, nə olar,
Gecəmi gəl sabah elə, nə olar,
Mənimlə bir günah elə, nə olar,
Sənin günahın da savab kimidir.

5.10.2006

### *Bəla*

Rüşvət şövqü coşubdur,
Çirki artıb qəlbin də,
                    əlin də.
Ölkə özəlləşibdir
bir ovuc rüşvətxorun
                    əlində.
Bu gün
sabahkı günə
Ürəyim
        ümidini boşlayıb.
Rüşvətin
        qızıl dövrü başlayıb.

7.10.2006

### *Tənha kəsin saatdan ricası*

Ey saat, işlə, işlə, işlə…
Mən tənhanı işlət, işlət, işlət…
Qoyma yatmağa!
Mən yatsam,
mən oyanmasam
və qalxmasam ayağa,
əlim işləməsə,
qolum işləməsə,
həyat sönsə məndəki,
Səni Qur'an olmayacaq,
Və yatarsan mən təki.

Ey saat, işlə!..

8.10.2006

### *Danışmayaq*

Danışmayaq.
Gəl çəkilək bir küncə.
Elə-beləcə
dayanaq üz-üzə,
danışmayaq.
Danışmayaq
                    yalançı aşiqlər sayaq.
Deməyək «sən ölsən, ölərəm»,
Söyləməyək «ağlasan ağlaram,
                              gülsən gülərəm».
Yalançılar
«yalan danışanın
 gözlərinə qan dolsun»
                              deyirlər,
«Həzrət Abbasın canına and olsun»
                                        deyirlər
Və bol-bol yalanlar
          döşəyirlər bir-birlərinə.
Yalançılar
utanıb-eləmədən
yalan danışırlar necə…
Gəl çəkilək bir küncə
elə-beləcə.
Danışmayaq,
Görməmişlər kimi
baxaq bir-birimizə bütün günü
Və
göz üstünlüyü
üstələsin

söz üstünlüyünü.

14.10.2006

### *Yenə göyərmişəm*

Yenə sevda gəzir bu qoca başda,
Eşqə, məhəbbətə möhtac kimiyəm.
Yaman qurumuşdum bu qoca yaşda,
Təzədən göyərən ağac kimiyəm.

Dilimi bir sevgi gətirsin dilə,
Yenə qoy sevilim, yenə alım kam.
Əgər sevilməsəm, tappıltı ilə
Kökümdən qoparaq yıxılacağam.

Təzədən göyərən ağac kimiyəm…

19.10.2006

### *Yol*

Kim bağladı üzümə
Yanına gələn yolu?
Həsrət qoydu izimə
Yanına gələn yolu.

Gərəksizmi, gərəkmi?
Üstü daşmı, kəsəkmi?
Gözlərim görəcəkmi
Yanına gələn yolu?

Başım üstü buluddu,
O yolda nə sükutdu?
Ayaqlarım unutdu

Yanına gələn yolu.

21.10.2006

### *Özümə*

Ey Şahin Fazil,
günlər ötsün,
aylar ötsün,
illər ötsün,
Qoy yaş üstə gəlsin yaş,
Amma,
qocalma qocalığın acığına,
Amma,
cavanlığın xətrinə
cavanlaş!!!

25.10.2006

### *Göy*

Başımın üstündə göy –
göm-göy göy.
Göy –
gecə göyü,
gündüz göyü.
Bir dəli şeytan deyir
«Uzat əlini
göydən üz göyü,
qoy göy düşsün yerə,
çünki sən
göyə çıxa bilmirsən,
göyə uça bilmirsən».
Ey dəli şeytan,
uzatsam da əlimi

göyü göydən üzməyəcəyəm,
göyü çəkməyəcəyəm yerə,
qulaq asmayacağam sənə,
çünki sən
dəlisən!

27.10.2006

### *Soyuq adam*

Bu necə soyuqluq? Bu necə adam?
Bu necə məxluqdur canı buz, sazaq,
sözu buz, sazaq…
Elə soyuqdur ki,
elə sanıram
Cəhənnəmə düşsə işdi-şayəd o,
Orda da
istini soyuqladacaq.

Bu necə adamdır?..

1.11.2006

### *Ey kişi!*

Ey kişi, pozulur hər gün atəşkəs,
Hanı, atəşkəsdən varmıdır əsər?
Sıyırıb qılıncı atəşkəsi kəs,
Nə evə giribsən, qadınsan məgər?

Səni bezdirmədi atəşin səsi?
Yoxsa, aran yoxdur daha savaşla?
Çəkib xəncərini kəs atəşkəsi,
atəşə başla!

Ey kişi!..

2.11.2006

### *Təsadüf və zərurət*

Səni görmürdümmü əzəl məgər mən?
Məni görmürdünmü əzəl sən yəni?
Nə sən düşünürdün məni sevərsən,
Nə mən düşünürdüm sevərəm səni.

Yaşıl işıq dəydi gözlərimizə,
Görüşdük, yaşıl bir məhəbbət oldu.
Dedim «təsadüfmü bu vüsal bizə?»
Dedin «vüsalımız zərurət oldu»

Sevin, təsadüfü boğdu zərurət,
Hifz edək, qoruyaq zərurəti biz.
Hərçənd təsadüfdən doğdu zərurət,
Təsadüf olmasın zərurətimiz.

3.11.2006

### *Rica*

Allahım, partlatma bombanı hələ,
Başımda bomba var,
Ağrıyır çar-naçar,
Ağrıyır, yaman ağrıyır,
Sanki ürəyim döyünür başımda,
 can ağrıyır.
Deyə bilmərəm indi,
Deyə bilmərəm sabah,
Deyə bilmərəm nə vaxt,
Amma, gec-tez partlayacaq

və o bomba
 dağıdacaq beynimi.
Allahım,
 işim çoxdur, gücüm yox,
İşimi az, gücümü çox elə,
Sən ki, səbirlisən, hövsələlisən,
Başıma rəhm et,
Bombaya rəhm et,
təşvişimi yox elə,
Allahım, partlatma bombanı hələ…

11.11.2006

### *Allahsıza!*

Allahı görməyi sanırsan asan?
Eləsə, mən kimi müdam süz göyü.
Mənim gözlərimə
 o parlaq günəş,
Sənin gözlərinə kölgə göründü.
Allahı görməyin arzusundasan?
Uzat əllərini
 göydən üz göyü,
Xudavəndi-aləm
 bəlkə göründü.

13.11.2006

### *Təmənnalı dünya*

Hərə bir şey verir dünyaya:
Göy – yağış,
Torpaq – ruzi,
Bağ – bar,
Dərya – su,

Dağ – vüqar,
Çörəkçi – çörək,
Badam ağacı – badam,
Ata – kişilik,
Ana – adam…

Hərə bir şey verir dünyaya…

5.12.2006

### *Təkcə sənin*

Təkcə sənin olsun ürək mülküm,
qəlb otağım!
Səndən başqa
orada
yer tuta bilməz heç kimsə,
yol vermərəm heç kimə
gəlib girə ürəyimə,
yerləşə küng-bucağında ürəyimin.
Bircədir, deyil Şahinin ürəyi min.
Yox, əgər kiməsə yer versəm, ey yar,
Sənin yerin darısqal olar.

…Təkcə sənin olsun ürək mülküm,
qəlb otağım!

17.12.2006

### *Öldür!*

İntihar günahdır,
günahı öldür,
Adamı öldürən
silahı öldür.

Qeyzini, hikkəni öldür,
Düşmənə qarşı yönəlməyən
qəzəbini öldür,
səni öldürə biləsi
əsəbini öldür.
Çıxarıb at tamah dişini,
o dişini öldür.
Pis adətini, vərdişini öldür.
Gözünü ağını qapa,
ac gözünü öldür,

Öldür,
Öldür,
Öldür,
Yersiz yerə ürəyini didən
kədəri, ahı öldür,
Öldürmə özünü,
günahı öldür!

19.12.2006

### ***Kitab təqdimatı, yaxud «Sakit Don»***

İşsizlik çox olan ölkəmizdə
yamanca işləyir təqdim maşını,
təqdim atı,
yamanca keçirilir
kitablar təqdimatı.
Lazımmı təqdim məgər?
Lüzummu təqdim məgər?
Kimə təqdim edirlər?
Nəyi təqdim edirlər?
Niyə təqdim edirlər?

Xəyalımın şahin quşu
birdən-birə
geriyə uçdu,
ötən illərlə görüşdü
və
mənim xatirimə
Mixail Aleksandroviç düşdü.
1965-ci ildi,
Mən
«Moskva-Bakı» qatarının
SV adlanan xüsusi vaqonunun
kupesində
baxırdım pəncərədən.
Gözləməm
5-10 dəqiqə çəkdi.
Qatar bir azdan yola düşəcəkdi.
Bu isti vaqonun eşiyində
soyuq vardı,
çovğun vardı…
Birdən-birə səs-küy çoxaldı,
bir dəstə adam
bir adamı yola salırdı.
Hava qarlı-sazaqlıydı.
O adamın əyni kürklü,
boynu şarflı,
başı papaqlıydı.

Yola salınan gəldi.
Tərpəndi qatar.
Görünməz oldu yola salanlar.
Və
görüşdük biz.

Bir kupedə ikimiz –
                              mən və o,
Mən və Mixail Aleksandroviç Şoloxov.
Yüngülcə məst idi,
hallıydı,
xoş əhvallıydı.

Soruşdu kimliyimi.
Özümü təqdim elədim –
Əfqanıstandan qayıtdığımı,
                              dedim.
Soruşdu: - Oralarda nə var?
Dedim: - Comərd adamlar.
Ani düşündü,
                    dindi:
- Yaxşı sözdür «Comərd adamlar».
Baxmayaraq ki, ölkə çoxdur,
                              adam çoxdur,
bu çoxluq müqabilində
comərd adam
demək olar ki yoxdur.

Bir neçə saat ötdü,
Qatar Rostova çatdı.
Xudahafizləşdik.
Mixail Aleksandroviç düşdü.
Perrondakı adamlar
tanıdılar onu dərhal,
halbuki
o dahi yazıçı
özünü onlara təqdim etməmişdi.
Təqdim etmişdi onu

«Sakit Don»u!

21.12.2006

***Dəli***

*Nə vaxtsa,*
*Çılpaq ehtirasımın*
*libaslı çağında,*
*Dayanıb*
*çılpaq bir qadın*
*qabağında,*
*Çılpaq e’tiraz ilə*
*demişdim belə:*

*Səriştəsiz deyin, cürətsiz*
*deyin,*
*Mən belə adamam,*
*nəyəmsə*
*buyam.*
*Mənə çılpaq qadın təklif*
*etməyin,*
*Mən çılpaq həqiqət*
*arzusundayam.*

Çılpaq yalan,
Çılpaq doğru,
Çılpaq düz,
Çılpaq söz,
Çılpaq istək,
Çılpaq dilək,
Çılpaq həya,
Çılpaq riya,
Çılpaq mə’na,
Çılpaq surət,

Çılpaq siyasət,
Çılpaq sədaqət,
Çılpaq tarix,
Çılpaq tarixçə,
Çılpaq nə, nə, nə,
Çılpaq utanma,
Çılpaq yaşınma,
Çılpaq təntənə,
Çılpaq qadın,
Çılpaq şəhvət,
Çılpaq həqiqət
 arzusundadır o dəli,
O dəlinin çılpaq diləyi
çılpaq ağlamalı, çılpaq gülməli.
Əzmindən qaçan deyil,
qanı çılpaqca axıb
laxta-laxta olmasa.
Amma, bilmir o dəli
çılpaqlıq
 yaman deyil
Soyuq tüğyan etməsə,
şaxta olmasa.

24.12.2006

***Bənövşə yağışı yağır üstümə***

*«Bənövşə yağışı yağdı üstümə»*
*şe'rinin müəllifi Gülarə Munisə!*

Bitir bənövşələr göydəmi indi?
Bənövşə yağışı yağır üstümə.
Göy mənə tarladır, göy zəmi indi,
Bənövşə yağışı yağır üstümə.

Ay Allah, üstümə qönçə ələnir,
Göyün xəlbirindən gül səpələnir,
Yağsın, qoca şair bənövşələnir,
Bənövşə yağışı yağır üstümə.

Yurdumun çölünə, düzünə düşür,
Boynu əyri bitib düzünə düşür,
Yuxarı baxanın gözünə düşür,
Bənövşə yağışı yağır üstümə.

Dağım da, düzüm də bənövşələnib,
Üzüm də, gözüm də bənövşələnib,
Şe'rim də, sözüm də bənövşələnib,
Bənövşə yağışı yağır üstümə.

Solum da sağım da bənövşələnib,
Əlim-ayağım da bənövşələnib,
Bu gün papağım da bənövşələnib,
Bənövşə yağışı yağır üstümə.

Bu çağda gərəkmi çətrimi açım?
Bənövşə ətrinə qərq olub saçım,
Mən belə yağışın nəyindən qaçım?
Bənövşə yağışı yağır üstümə.

Bu yağış altında dayanacağam,
Bənövşə ətrinə boyanacağam,
Şahin, utanmayıb soyunacağam,
Bənövşə yağışı yağır üstümə,
Bənövşə yağışı yağır üstümə.

25.12.2006

## *Qismət*

Dağıtdılar yuvamızı Qarabağda,
Bizə orda
          neçə ildir
          yuva yoxdur.
Qalaq-qalaq dərdlərim var,
Təəssüf ki, dərdlərimə
dərman yoxdur,
dava yoxdur.

Nəfəs almaq istəyirəm,
Ciyərim var,
hava verin,
hava yoxdur,
hava yoxdur.

27.12.2006

## *Donuz ili*

Şaxta baba, şaxtacan,
Necə olacaq bu il?
Yol bağlayan?
Baxt açan?
Kim bunu bilə bilər?
Az elə soyuğunu,
əyniyalın adamlar
soyuqdan ölə bilər.

Şaxta baba, şaxtacan,
ağardı qışın dişi,
göründü acı dili,
Gəldi Qırmızı Qaban,

yaxud Çəhrayı Qaban,
yaxud da Donuz ili.

Necə keçəcək bu il?
Toxlar tox qalacaqmı?
Aclar azalacaqmı?
Necə olacaq halı
acların, mə'yusların?
Yenə hiss edirəm ki,
harınlaşan dəyyuslar
qara-qura əməllər edib,
ağ-ağ danışıb,
qırmızı şərab içib
çəhrayı donuz yeyəcəklər…
Xoş hallarına rusların!..

2.01.2007

### *Məndəki ikinci «Mən»ə!*

Yenə üşüyənlər gözümə dəyir,
Başlanıb mövsümün qarı, yağışı.
Əsla qış fəslindən xoşum gəlməyir,
Bu yandan da gəlib ömrümün qışı.

Mərhəmətim də var, sərtliyim də var,
Beləcə yaradıb Rəbb bu şairi.
Mənim vücudumda iki «Mən» yaşar,
Birinin adı var, adsızdır biri.

Gah rahat olmuram, gah oluram dinc,
Bir gözüm gülürsə, biri ağlayır.
Varlığım təzadın əlində girinc,
Bir «Mən» həzz artırır, bir «Mən» qəm yayır.

Birində sakitlik, birində səda,
Birində günəş var, digərində nəm.
Birinci «Mən»imdən razıyamsa da,
İkinci «Mən»imdən narazıyam mən.

Bir mən meh istəyir, o biri külək,
Bir mən günəş sevir, qeyrisi sazaq.
Belə ki görürəm, ölümümədək
«Mən»lər bir-biriylə barışmayacaq.

Üzümü tuturam ikinci «Mən»ə:
Niyə dağıdırsan xanimanımı?
Həmişə demişəm, deyirəm yenə,
Rahat qoymayırsan neçin canımı?

Toxunma əlimə, qələmdən əl çək,
İlhamlı adamı yaşadır qələm.
Qələmim heç kimi qətl etməyəcək,
Qətli bıçağımla edə bilərəm.

Mənim vücudumda iki «Mən» yaşar…

3.01.2007

### *Üç medal*

Mən
artıraraq
ayağımın taqətini,
əlimin gücünü,
Əfqanıstana medal almaq üçün getməmişdim,
amma, verdilər,
Özü də üçünü.

Qubamın Tarix Muzeyinə
vermişəm medalları,
mən öldükdə
                    itib-batmasınlar barı.
Arxayınam yazdıqlarım sarıdan,
hələ ölməmişkən
          düşməyim deyə iztiraba,
          əlyazmalarımı çevirirəm kitaba,
                              arxayın edirəm canımı.
Yazıram «Dördüncü Divan»ımı.
Üç divan
Və
şair Qiyməğ Məhərrəmlinin
«Birinci Divan»a yazdığı dissertasiya,
verdiyi qiymət.
Və akademik Bəkir Nəbiyevin
                    «Şahinin qanadları» -
«İkinci Divan»ıma
və «Təzkirə» kitabıma
                    yazılan məqaləsi –
Qiyməti böyük,
siqləti dərin.
Şöhrət acı deyiləm,
rütbə möhtacı deyiləm,
elə bunlar bəsidir bu şairin.

Bu şair
Tezliklə bu dünyadan
Çəkəcəkdir köçünü…
Mən
Əfqanıstana medal almaq üçün getməmişdim,
amma verdilər,

Özü də üçünü.

15.01.2007

### *Əl çalırıq*

Əl çalışı…
Əl çalırıq.
Əlin alçalışı…
Əl çalırıq.
Kiminsə vəzifəyə gəlişi,
Kiminsə yüksəlişi…
Əl çalırıq.

Ay aman, vətən getdi,
Qarabağ əldən getdi…
Əl çalırıq.

Əl gərək tüfəng tuta,
Əl gərək savaş edə,
cəng tuta,
Əl çalırıq.

Əl gərək qələm tuta,
Əl gərək dəftər yaza,
Əl gərək səngər qaza,
Əl çalırıq.

Ələ qüvvə gərəkdir,
Əli gərək güc tuta,
Əli gərək tab tuta,
Əl gərək kitab tuta,
Əl çalırıq.

Əl gərək beli tuta,

Əl gərək gülü tuta,
Əl gərək əli tuta…
Əl çalırıq.
…Əl çalışı –
Əlin alçalışı!..

20.01.2007

### *Xülya*

Mən rö’yaya dalıb gördüm
rö’ya mənə şe’r yazır.
Göy üzündə qanad çalan,
dimdiyinə lələk alan
durna mənə şe’r yazır.
Məcnun səsini səsləyən,
divanəsini gözləyən
Leyla mənə şe’r yazır.
Unudaraq Vamiqini –
o pərişan aşiqini
Əzra mənə şe’r yazır.
Yusifindən sevgi uman,
umduğundan şad olmayan
o Züleyxa –
o gözləri nəmli mənə şe’r yazır.
Lap yad mənə şe’r yazır,
Övlad mənə şe’r yazır,
Adı Dilşad,
Təxəllüsü Qəmli olan
Dilşad mənə şe’r yazır.
Yaxşı mənə şe’r yazır,
Yaman mənə şe’r yazır.
Nə ağrıdım başınızı
Cahan mənə şe’r yazır…

Eh, bunları
mən rö'yaya dalıb gördüm.
Amma, bidar olub gördüm
əldə qələm,
öndə varaq,
yanımda şam
Mən yazıram,
Mən yazıram,
Mən yazıram!!!

22.01.2007

### *Ey əğyar!*

Qeyrətin olsun!
Qeyrətə məhəbbətin olsun!
Dəvənin boynundan da əyri
                    işlər  görürsən yenə,
Qeyrətli kişilər tərəfindən
                    söyülürsən, döyülürsən yenə.
İndi özün bil,
söz gülləst atdım sənə,
Öz müstəqim məqsədimə çatacağam,
Qeyrətə gəlməsən əgər
Tapanca gülləsi atacağam!

Qeyrətin olsun!

28.01.2007

### *Müqəddəs rəqəm*

2006 getdi,
Gəldi 2007,

Yaşım 67.
Barı xoş olsun bu il,
örnək olsun əvvəlki illərə,
2007 – əvvəlki illər müqabilində
göyçək bir nağıl olsun,
Qoy Şahin Fazilin də
hamı kimi
ayağında düşərrik,
əlində qüvvət,
başında ağıl olsun.
Göyün yeddi qatınacan
ucalsın həzz,
Yerin yeddi qatına
quylansın qəm.
«7» rəqəmi var «2007»də –
Müqəddəs bir rəqəm.

2006 getdi…

29.01.2007

### *Ölməz istək*

Mənə heç kim «məni istə» deməsin,
Mən onu istəyirəm, istəyirəm.
Qoy gözəllər gözəli istəməsin,
Mən onu istəyirəm, istəyirəm.

Yanıma lap gələ Həvva kimisi,
Bildirə eşqini Leyla kimisi,
Alışıb-yanə Züleyxa kimisi,
Mən onu istəyirəm, istəyirəm.

Mənə divanə deyən kəs dəlidir,

Eşqimi cümlə cahan bilməlidir,
Buna kim qarşı çıxa, ölməlidir,
Mən onu istəyirəm, istəyirəm.

Gərçi dikdim ona hər an nəzəri –
Bu ümidvarü pərişan nəzəri,
Görməyibdir onu insan nəzəri,
Mən onu istəyirəm, istəyirəm.

Neçə ildir özümə yar elədim,
Canı cananə giriftar elədim,
Adı: «İlham pərisi!» Car elədim!!!
Mən onu istəyirəm, istəyirəm.

4.02.2007

### *Bədbin şe'r*

*Şair Dayandur Sevginə!*

Üç arvadı olub anamdan əvvəl,
Qaynar bir kişiydi atamda dünyada.
Mən «yazan əl» oldum, osa «vuran əl»,
Mən ona çətin ki, çatam dünyada.

Gözüm güləndə də üzümdə qəm var,
O qəm nəfəsimdə, sözümdə həm var.
Ələmdə mən varam, məndə ələm var,
Adamlar içində yadam dünyada.

Kədərdə üstünəm, bəsdir bu mənə,
Deyin «zəmanənin mə'yusu» mənə.
Daha demirəm ki, «səpin su mənə»,
Daha söyləmirəm odam dünyada.

Ah çəksəm, çəkilin, ah dağı çəkər,
Gah çayı qurudar, gah dağı çəkər,
Qoşqarı dağıdar, Şahdağı çəkər,
Elə bilməsinlər şadam dünyada.

Hanı İmrə, Sabir, hanı Xaqani?
Tarixdə hər əsr, əqrinə ani!
Həyat müvəqqəti ömürsə fani,
Tanrıya çatmayır sədam dünyada.

«Haçan olacaqdır abad?» deyirəm,
«Sonunu görürəm bərbad» deyirəm,
«Ay aman» deyirəm, «ey dad» deyirəm,
Fəğanam, fəryadam, dadam dünyada.

Şahin, ürəkdəki kədəri boğ, yan,
Bu cəhdin olsa da hədəri, boğ, yan,
Həvva qız qalaydı, Adəmsə oğlan,
Yarəb, olmayaydı adam dünyada.

6.02.2007

### *Yanğın*

Darıxırlar bekarçılıqdan
Yanğınsöndürənlər.
Haçan yanğın olacaq ki,
gedələr söndürələr.

Ey yanğınsöndürən gözəl,
Ey yanğınsöndürənim, gəl,
yanıram, söndür məni,
bekarçılıq eləmə,
«yanmağını gözləyirəm» demə,

yanıram, tələs bir qədər.

…Darıxırlar bekarçılıqdan
Yanğınsöndürənlər.

9.02.2007

### *İkiürəkli*

Gözəlimin ürəyi
Ürəyimin içində.
Mənə
ikiürəkli deyin,
Belə ürək var kimdə?
Ürəyimə dəyməyin,
Ürək var ürəyimdə.

10.02.2007

### *Açılan qapı*

Açdığın qapını örtmə, ey nigar,
Sevgi qapısından keçib gəlmisən.
Yenə gözlərində məstanəlik var,
Görüş şərbətini içib gəlmisən.

Nə vaxtdı olmurdu görüş müyəssər,
Məni yad etmirdi məni sevənim.
Səndən şikayətim varsa da əgər
Şikayət şə'nimə toxunur mənim.

Məni aşiq edib sevgi qanunu,
Uzağam şəhvətdən, əğyaram bəyəm?
Mən sənə geydirib məhəbbət donu,
Sevgi libasıyla bəzəyəcəyəm.

Yaman sevindirdin qoca sevəni,
Canda Şahdağ boyda kədər var idi.
Biqərar etmişdi təkliyim məni,
Evimdə həzinlik bərqərar idi.

Adamlar içində tənhaydım necə!..
Füzuli demişkən «kədərim füzun…».
Tənha yaşayanın gündüzü gecə,
Tənha yatan kəsin gecəsi uzun.

Açdığın qapını örtmə, ey nigar…

21.02.2007

### *Ən ülvi müəllim*

*Məddahlar yazsa da çox «Şahnamə»lər*
*Mənsə yazmadayam «Allahnamə»lər.*

Bismillahir-rəhmanir-rəhim.
Əlif, lam, mim.
Allah – ən ülvi müəllim.
Allah – ən mahir
yazıçı, şair.
Əsərləri:
Tövrat,
Zəbur,
İncil,
Qur'an,
Həvvalar,
Adəmlər
və
bütün görünən və görünməyən
aləmlər.

Qur'an – kitablar kitabı,
mənbələr mənbəyi,
qaynaqlar qaynağı,
Gəlməyib aləmə bənzəri,
təkdi bu!
Qur'an – səmavi kitabların dördüncüsü,
sonuncusu.
Qur'andır – Allahın sözüdür bu!
Qur'andır – yayıldı cahana,
Qur'andır – gəlib çatdı Azərbaycana.

Əlif, lam, mim.
Allah – ən ülvi müəllim!
Bismillahir-rəhmanir-rəhim!!!

22.02.2007

### *Kim?*

Kim olmuşam? Kiməm mən?
Özüm də bilmirəm mən.
Fəqət üç ad bəllidir
Mənə şəcərəmizdən:
Atamın adı Fazil,
Babamın adı Babay,
Babamın atasının
adı isə Fərzəli.
Bildiyim budur, bəli.
Atam
deyib onların
kimlər olduqlarını,
Amma,
kimlər olublar
o biri babalarım,

kimsə bilməyir bunu.
Ağqoyunlu qanımı
dövr edir bədənimdə?
Yaxud
qaraqoyunlu,
ərəb,
monqol,
ya oğuz?
Ulu babalarımın
kimliyi məchul qalıb,
çoxu kimi mənim də.
Kimin qanı yaşayır
görəsən bədənimdə?
Adəm baba veribmi
ən ulu babama can?
Ölüb-qurtarmıram ki,
Soruşum Allahımdan:
«Kim olmuşam? Kiməm mən?»

24.02.2007

### *Sən mənim yanıma qayıdacaqsan*

Ülfət məzəmmətə yenə tuş kimi,
Sən mənim yanıma qayıdacaqsan.
Baharda qayıdan qaranquş kimi
Sən mənim yanıma qayıdacaqsan.

Vəslə yox, hicrana salam etmisən,
Yuxumu gözümə haram etmisən,
Elə düşünmə ki, tamam getmisən,
Sən mənim yanıma qayıdacaqsan.

Səbrimi çıxartma hövsələsindən,

Qulağım tutulur sükut səsindən…
Çıxmayıb eşqimin cazibəsindən
Sən mənim yanıma qayıdacaqsan.

Yanımda olacaq bircə çiçək – sən!
Nursan, gözlərimdən itməyəcəksən,
Bir daha yanımdan getməyəcəksən,
Sən mənim yanıma qayıdacaqsan.

Dağıdıb Şahinin sinə dağını
Daha eləməzsən qara ağını,
Unutmaqdan ötrü qayıtmağını
Sən mənim yanıma qayıdacaqsan.

16.03.2007

### *Diriləri öldürürlər, ay Allah*

*«Ölüləri öldürürlər, ay Allah»*
*şe'rinin müəllifi Xatirə Vaqifə*

Hansı aşiq tab eləyər, dirilər?
Diriləri öldürürlər, ay Allah.
Diriləri öldürürlər dirilər,
Diriləri öldürürlər, ay Allah.

Cəhənnəmdə hazırlayıb yerini
Nədər qırır bəşər biri-birini?
Qorumayır neçin diri dirini?
Diriləri öldürürlər, ay Allah.

Sevgi təki ulu niyyət yoxmudur?
Sevənlərə daha diqqət yoxmudur?
Yaşamağa səlahiyyət yoxmudur?
Diriləri öldürürlər, ay Allah.

Ey göylərin, ey yerlərin pənahı,
Eşitmirsən yüz fəğanı, min ahı?
Məhəbbətmiş dirilərin günahı,
Diriləri öldürürlər, ay Allah.

Belə əməl ədalətdən kənar ki…
Bu nə hüquq, nə haqq, nə ixtiyar ki?..
Ölüləri öldürməyə nə var ki,
Diriləri öldürürlər, ay Allah.

22.03.2007

### *Öldürüb yaşadan*

Allah
kimi öldürürsə, yaşadır.
Mənə
bətnə düşən kimi dedi:
«bu dünyada
bir ömürlük yaşa, dur
yollan o biri dünyaya,
yaşa o biri dünyada əbədi».
Allah
kimi öldürürsə, yaşadır.

3.04.2007

### *Bədbin şe'r*

Çatıb deyəcəyəm ala canımı,
Görəsən əzrayıl hayanda qalıb?
Yoxsa tanımayır o ünvanımı?
Hövsələm azalıb, səbrim daralıb.

Dürüst işləməyir əzəlki təki,
Saatım yorulub, yatmaq üzrədir.
Ömrümün gəmisi elə sınıb ki,
Fəna dəryasında batmaq üzrədir.

Mənim uçuşuma, Tanrım, ver xeyir,
Deyəsən mələyin səni aldadır.
Əzrayıl Şahinə çata bilməyir,
Şahin əzrayıla çathaçatdadır.

Çatıb, deyəcəyəm, ala canımı…

8.04.2007

### *Ay Nənə*

*Bu gün Yazıçılar Birliyinin Natəvan klubunda yazıçı Gülzar Nənə ilə görüş keçiriləcək. Dünən mənə zəng vurub iştirakımı xahiş etdi.*

Bir gör nə etmisən, nə eləmisən,
Şübhəm var yaşına sənin, ay Nənə.
Cavankən özünə nənə demisən,
Bəxtəvər başına sənin, ay Nənə.

Nənənin üzünün yaşmağı olar,
Dili topuq vurar, çaşmağı olar.
Nənənin belinin qurşağı olar,
Matam üst-başına sənin, ay Nənə.

Axı məsləhətdən niyə kar aşmır?
Gülzar təklifimlə neçin barışmır?
«Nənə» ki deyirsən, vallah, yaraşmır
Gözünə, qaşına sənin, ay Nənə.

Demirəm çəkibsən saçına qara,
Sən hara, ay Nənə, sün’ilik hara?
Gün o gün olsun ki, saçın ağara,
Gələk yüş yaşına sənin, ay Nənə.

10.04.2007

## *Mən*

Sevirəm fərəhimi də,
Kədərimi də.
Hər ikisini qəlbimdə yaşadıram.
Deməsinlər ki, bu adam
sevməkdə naşıdır.
Məgər bilməyirlərmi
həzz – iztirab,
gül – tikan,
xəzinə – ilan
yanaşıdır?

Sevirəm fərəhimi də,
Kədərimi də.

13.04.2007

## *İki qapı*

Cəhənnəmə aparır
günahkarı ağlı,
çünki
onun üçün
cəhənnəm qapısı açıq,
cənnət qapısı bağlı.
O,

cəhənnəm qapısına doğru
yol gedir indi.
Bilmir ki,
göy yer deyil,
göydə qapı açmaq çətindi,
cəhənnəm qapısı isə açıq.
o qapını açmaq gərək deyil,
cənnətdəkilər deyəcəklər:
- Bizim qapımız açılıb,
acıq sənə, acıq!!!

Cəhənnəmə aparır
günahkarı ağlı…

24.04.2007

## *Ölümsüz*

Hər şey ölümlü –
həyat ölümlü,
insan ölümlü,
cahan ölümlü,
hər an ölümlü,
Ölüm ölümsüz!

26.04.2007

## *İt və it uşağı*

İt hürür.
İtin işi
səhər-axşam,
axşam-səhər
hürməkdir.
İt itdir, hürsün də.

İt mənə hürmür,
mənə sarı şəklənməyir qulağı,
üstümə yönəlmir ayağı.
Amma, gizləmirəm,
arabir
mənə hürür
it uşağı.

29.04.2007

### *Oğrular*

Sevgini oğurladım,
Sevgimi oğurladın,
ikimiz də oğruyuq.
Olan-olubdu daha,
Keçən-keçibdi daha,
İsti baxışlarınla
danışma soyuq-soyuq…
Sevgini oğurladıq,
İkimiz də oğruyuq.

2.05.2007

### *İki paltarlı Yer Kürəsi*

Yer Kürəsinin
iki paltarı var –
qara, ağ.
Günəş çıxanda
qaranı soyunur,
Ay çıxanda ağı,
Yer kürəsi
hər gün geyinir-soyunur
adam sayağı.

Yer Kürəsinin
iki paltarı var…

4.05.2007

### *Alın yazısı*

Çaya atsam özümü
boğularammı?
Aydan assam özümü
boğularammı?
Adamlar, ay adamlar,
boğulmaq istəyim var,
niyə gedim uzağa,
çay yaxındır, ay uzaq,
Ölsəm də ölmək gərək
üzü sulu, üzü ağ.
Görünür sonum budu…
Ayağımı su yudu,
Bəhbəh, nə təmiz sudu!
Çaya atdım özümü,
gördüm ki, su
qurudu.
Çatmayıbmış əcəlim,
Alın yazım beləymiş.
Məni
şəffaf bir yazı
qorudu.

7.05.2007

### *Dəli*

Eşidib kim dəlidən doğru xəbər?

Dəliyəm mən!
Dedilər:
- Dəlisən sən?
Dəlidən doğru xəbər!

8.05.2007

### *Günəş*

Qoca günəş
gecə qaçdı.
Sübh çağı isə
gecənin əvəzinə cavanlaşdı.
Qoca günəş
cavan günəş kimi
ömürbillah səfərdədir, səfərdə.
Gecə –
günəşin cavanlığıyla qocalığı arasındakı
qara pərdə.

Qoca günəş…
Cavan günəş…

13.05.2007

### ***Hər şey və heç nə!..***

*Mən ərəbşünas alim Laura Orucovanın mərhum həyat yoldaşı Arif Mustafayevi («Baqamus») tanımırdım. Onu heç görməmişdim də. Amma, özünü görmədiyimin kitabını gördüm: «Hər şey və heç nə». Və «Həyat və ölüm – hər şey və heç nə» haqqında şe'r yazdım. Dünən yazdığımı elə dünən də Əlibala Hacızadəyə oxudum. «Bəyəndim» dedi.*

*«Həyat qəribədir» dedi. «Vaxtını itirdin, amma şe'r qazandın» dedi.*
*Şe'ri dünən Əlibalaya oxudum. Bu gün sizə oxuyuram. Və düşünürəm:*
*«Hər şey və heç nə».*
*«Hər şey və heç nə».*
*«Hər şey və heç nə»!..*

Bəzən o dünyaya göz müntəzir ki!..
Çünki bu dünyada diləyi qalmır.
Fələk elə sıxır, elə əzir ki,
«Hər şeyi» olanın «heç nəyi» qalmır.

Hicran necə uzun, vüsalsa qısa,
Gediş qapısını bağlamaq olmur.
Həyata gələni saxlayırıqsa,
Həyatdan gedəni saxlamaq olmur.

Alın yazısının öz hikməti var –
Hərənin öz ömrü, öz yaşı vardır.
Kədərin köksündə sevinc bərqərar,
Sevincin gözündə göz yaşı vardır.

Qılınc cahangiri, söz cahangiri…
Çoxumuz yox olur, azımız qalır.
Səsimiz sussa da, sözümüz diri,
Özümüz getsək də, yazımız qalır.

Özümüz ölsək də, ruhumuz oyaq,
Görəsən hardadır ruhun məkanı?
Qur'anı oxuduq hey varaq-varaq,
Bu sirri açmayır Rəbbin Qur'anı.

Arabir taledən şübhələnirəm,
Tale nə deməkdir, talesizlik nə?
Heç nədən həzzimi əvəz edir qəm?
Həyat zəhər verir şəkər yerinə.

Bu fani həyatda axı qalır kim?
Bəşərin əlində ölüm dolu cam.
Ey Allah müəllim, salam-əleyküm,
Ey cənab Əzrayıl, əleyküm-salam.

Bəzən o dünyaya göz müntəzir ki!..
Çünki bu dünyada diləyi qalmır.
Fələk elə sıxır, elə əzir ki,
«Hər şeyi» olanın «heç nəyi» qalmır.

14.05.2007

### *Məni öldürənə*

Ölmədim,
Öldürüldüm.
Amma
öldürüldüyümü kimsə bilmir
sındən başqa,
Sənsən qatilim.
Dirilə bilsəydim
şikayət edərdim məhkəməyə,
mühakimə edərdilər səni…
Yəqin ki, türməyə atardılar səni…
Öldürüldüyümü kimsə bilmir.
Yaxşı ki, ölü dirilmir.
Ölmədim,
Öldürüldüm.
Yaxşı ki, bunu kimsə bilmir,

Gülüm!..

16.05.2007

### *Köz*

Boya çəkməmisən dodaqlarına,
Amma,
        onlar yenə alışıb-yanır.
Sevgi közərdibmi onları belə?

Haçandır
        kül örtüb
                mənim sevgimi,
Səndən
        köz diləyir
                aşiqin kimi,
Alışsın, köz gərək Şahin Fazilə.

Boya çəkməmisən dodaqlarına.

18.05.2007

### *Yoxdur ölüm*

Əgər o biri dünya varsa,
Əgər adam
ölümdən sonra yaşayarsa,
demək
    yoxdur ölüm
Və
ölməyir heç kim,
dünyasını dəyişir sadəcə.

19.05.2007

## *Laylay*

Son zamanlar tez-tez
laylay oxuyuram ölümümə,
Qoy yatsın bir az da.
Birdən qəfildən gələr,
tələm-tələsik məni aparar,
işlərim yarımçıq qalar.
Baharım öldü,
Yayım itdi,
Xəzanım bitdi,
Başımın üstünü qış aldı,
Yaş – 67.
Ulu Rəbbim, hələ demə
«əcəl yetdi, getməlisən»,
hələ demə
    «bu dünyadan itməlisən».
Sən desən də
«Üqba evi
Haqq tanıyan,
Allah sevən
                şairlərə, alimlərə səadətdir»,
Yarımçıqdır neçə işim –
bitirməyim zərurətdir.
Bir az gözlə,
bir azca döz,
O dünyaya gərəklidir
    əldən düşmüş mənim kimi ölü kimə?
                        …Son zamanlar tez-tez
Laylay çalıram ölümümə.

26.05.2007

### *Düz ürək*

Adamlar, ay adamlar,
Cahanımızda,
lap elə Azərbaycanımızda
gül-çiçək möhtacı olan var,
küy-kələk möhtacı olan var,
ruz-çörək möhtacı olan var,
Düz ürək möhtacıyam mənsə!

28.05.2007

### *Olmasın «Sonuncu zəng» sonuncu zəng*

*Zakir müəllimə!*

Duruxub qalmışam, çaşıb qalmışam,
Şairlər hər şeyə şe'r yazırlar.
Bir də gördün sönür önündəki şam,
Şairlər küləyə şe'r yazırlar.

Söz altda könülə, köz üstdə külə,
Xəlbirə, ələyə şe'r yazırlar.
Açılan gülləyə, bağlanan gülə,
Soluxan çiçəyə şe'r yazırlar.

Yerdə ulduzsuza, göydə ulduza,
Havada mələyə şe'r yazırlar.
İmansız qarıya, gümansız qıza,
Amansız fələyə şe'r yazırlar.

Kədər dolu gözə, mey dolu cama,
Durnada lələyə şe'r yazırlar.
Sədaqət əhdini qıran adama,
Qırılan ürəyə şe'r yazırlar.

Qırmızı rəngə də şe’r yazırlar,
Sarı ahəngə də şe’r yazırlar,
Birinci cəngə də şe’r yazırlar,
Sonuncu zəngə də şe’r yazırlar.

Bu gün «Son zəng» ilə, Allahım, şadam,
Qoy gəlsin mininci, milyonuncu zəng.
Çalınsın həmişə, çalınsın müdam,
Olmasın «Son zəng»lər kaş sonuncu zəng!

Şairlər hər şeyə şe’r yazırlar…

30.06.2007
*Sumqayıt*

### *Yağla su kimi*

Əlim tamarzıdır sənin əlinə,
Tərk etmir həsrətin yanımı mənim.
Saraltdın gözümün kökünü yenə,
Saçıntək qaraltdın qanımı mənim.

Hövsələm səbrimin axtarışında,
Həzzə üstün tutduq dərdisəri biz.
Durmuşuq bir yolun iki başında,
Bir səmtə atılmır qədəmlərimiz.

Bu nə görəcəkdi, bu necə haldı?
Qəlbimdə qalmısan bir arzu kimi.
Bizim vüsalımız bakirə qaldı,
Birləşə bilmədik yağla su kimi.

1.06.2007

### *Üzsüz adam*

*V.A-ya!*

Baxıram sənə,
görürəm
boy-buxununu,
başını,
peysərini,
ayaqlarını,
əllərini,
görürəm
kastyumunu,
qalstukunu…
Bəli, heç bir şəksiz-şübhəsiz,
sözsüz-filansız,
adamsan!
Amma,
          üzünü görmürəm,
Sən nə üzsüz adamsan!!!

6.06.2007

### *Gözümün yaşı*

Sanki
dərdimin başıdı
gözümün yaşı –
          asılıb kipriyimdən,
          Kipriyim – dar ağacı.
Məndən icazə almadan
                    axan
                    göz yaşıma
                              bu da azdı,
Çıxmasaydı eşiyə

asılmazdı.
Onu ki, mən asmadım,
özü-özünü asdı.
Sonra
yuyub kipriyimi
sürüşdü,
yerə düşdü,
oldu yox.
Göz yaşı –
yoxluq təşnəsi,
yoxluq acı.
Kipriyim – dar ağacı.

8.06.2007

### *Ürək xörəyi*

İndi,
rahat ol.
Məni ürəksiz qoydunmu?
Ürəyimi yedin.
Ürək xörəkdi?
Doydunmu?
Ey qadın,
Doymadın?
Ürək xörəyindən doymadın?
Yaxşı ki, bir ürəyim var,
Əgər bir neçəsi olsaydı
yeyib doyardın.
Səni ac qoydum.
Ürək yeyəni
ac-yalavac qoydum.
Acgöz!

10.06.2007

### *Asın məni*

Hər gözümdə bir ümman,
Selimdən asın məni.
Bir bülbüləm bağrıqan,
Gülümdən asın məni.

Şübhə libası geyir,
«Tanrı varmıdır» deyir,
Əlim dua etməyir,
Əlimdən asın məni.

Açıldı güllə, güldü,
Hədəf səmanı bildi,
Üçtelli durna öldü,
Telimdən asın məni.

«Gəl» deyib özgəsinə,
«Qayıtma» dedi sənə,
Dilim bəladı mənə,
Dilimdən asın məni.

Şahin sözü acıdır,
Yox olmaq əlacıdır,
Ölüm – dar ağacıdır,
Ölümdən asın məni.

23.06.2007

### *Qollarım qanada dönsəydi əgər*

Yanından yenə də yan olmuşam mən,
Qanad gücü yoxdur zəif əlimdə.

Canımı qurtarıb təklik əlindən
Yanına uçardım sənin bu dəmdə,
Qollarım qanada dönsəydi əgəp.

Oxşardım telini lələyim ilə,
Qanadım edərdi əlimə yardım.
Sığalsız qalmazdın bircə dəm belə,
Səni qanadımla sığallayardım
Qollarım qanada dönsəydi əgər.

Şeytan gərdiş edir Yer üstdə yenə,
Qurtula bilmirik caynaqlarından.
Qoymazdım uçmağa Yerin səmtinə,
Tutardım şeytanın ayaqlarından
Qollarım qanada dönsəydi əgər.

Qanad arzulayıb, qanad diləyib
Qollarım etməzdi qanad xiffəti.
Qanada qolumun əvəzi deyib
Ona arzulardım uçuş taqəti
Qollarım qanada dönsəydi əgər.

İkinci olmamaq sevdası ilə
Mən ki, birincilik gəzmişəm müdam.
Mavi göyə uçuş xülyası ilə
Olardım birinci qanadlı adam
Qollarım qanada dönsəydi əgər.

Uçardım bəlkə də günəşə qədər,
Qoşa qanadımı şəstlə açaraq.
Əlsiz də qalmazdım əlsizlər qədər,
Əlin işlərini görərdi ayaq
Qollarım qanada dönsəydi əgər.

Yerdə qəm yığmışam mən yığın-yığın,
Şahinə dönsəydim olmazdı dərdim.
Hiylənin, fitnənin, riyakarlığın
Əlindən biryolluq uçub gedərdim
Qollarım qanada dönsəydi əgər.

24.06.2007
*İsmayıllı şəhəri,*
*dostum Xürrəmin evi*

### ***Yamaqsız***

Şalvarım yamaq-yamaq…
Üzülmüşdü…
İndi, üzülən yerlərinə
yamaq düzülüb…
Yaxşı bir yapışqanım olsaydı
Ürəyimi yamayardım –
Üzülüb!..

26.06.2007

### ***Söz və qətrə***

Allah, öldür o oğlanı,
İncitdi o qızı,
Qaba sözdən incidi qız,
Qətrələndi dodağının şehi,
axdı yerə.
Bulanıq bir söz…
Şəffaf bir qətrə…

Allah, öldür o oğlanı…

30.06.2007

### *Baş daşı*

Ölü Daşa bax bir,
                    qudurub,
Ölü Baş üstdə oturub.
Sağlığında
Baş üstdəydi,
Daş altda.
İndisə
Ölü Daş üstdə,
Ölü Baş altda.

Ey dadi-bidad!..

2.07.2007

### *Ömür*

Şe’rim bol olacaqsa
Ömür sürməyə dəyər.
Ömürdən xahişim var:
Əgər olmayacaqsa
bir qarğa ömrü qədər,
şahinliyim utanar.

3.07.2007

### *Məlum sual*

Yer
nə zamansa
öz gədişindən dayanacaqmı?
Araba dayandı,
Təkərinin oxu sındı,

Yerin oxu sınacaqmı?

4.07.2007

### *Alatoran*

Alatoran –
axşam ilə səhərin
arasındakı pərdə –
Qara libas axşamda,
Ağ libas səhərdə.

Alatorandasa
hər ikisinin libası var.
Ax-x-x, abır-həya bilməyən
libassız qadınlar…

5.07.2007

### *Dünya*

Adama bənzəri var,
İşini bilər dünya.
Gah bizim tək ağlayar,
Gah da ki, gülər dünya.

Üstü, altı inci, zər,
İncitməyin, inciyər,
Öldürməsələr əgər,
Yaşamaq dilər dünya.

Dağ kimi, düz kimidir,
Ağ kimi, boz kimidir,
Gəzəyən qız kimidir,
Gəzməsə ölər dünya.

6.07.2007

### *Ölümümdən sonra özüm haqda adsız şe'r*

Diriydim torpağın üstündə,
Torpağın mənlə işi yoxdu.
Torpaq mənə
«gəl qoynuma, gəl» - dedi, -
səndən yaxşı kişi yoxdur.
Öldüm,
qəbrə gömüldüm,
torpaq
ətimi yedi.

İllər ötəcək,
bu acgöz balası acgöz
sümüklərimi də yeyəcək
Və mən
yox olacağam
məni yox edənin
gözünə baxa-baxa.
Amma,
hələlik sağam,
sümüklərimi yedirdirəm torpağa.

11.07.2007

### *Müraciət*

Allahım! Mənə çox şey verdin,
yer verdin,
göy verdin,
gün-güzəran verdin,
özümə görə ad-san verdin…

İndi mənə möhlət də ver
bu dünyadan qaçım gedim.
Amma, qaçmaq igidlikmi?
Mənə şahin quşunun adını verdin,
qanadını da ver
uçum gedim.

13.07.2007

### *Ağlar, müt'i, oğru dünya*

Göz yaşları bol deyə
Ümmanlıdır, çaylıdır,
suludur Yer üzü.

Allah «qal» desə qalacaq.
«öl» desə öləcək,
Allahın quludur Yer üzü.
Gündüz
gecəni oğurlayır,
Gecə
gündüzü…

Oğurluqla doludur Yer üzü.

15.07.2007

### *Hələ sağam, sağam hələ*

Elə bil ki qaçaqaçdır,
həyat gəlir, ölüm qaçır
başım üstdə.
Lüm-lüt, üryan
neçə-neçə mələk uçur
başım üstdə.

Hərdən-birdən
gül səpilir
başım üstdə.
Arabir də
mənə qarğış edənlərdən
kül tökülür, kül səpilir
başım üstdə.
Çox şükür ki,
hələ sağam, sağam hələ.
Gün gələcək
qara nalə qopacaq
ağ başım üstdə.
Molla
yasin oxuyacaq
başım üstdə.

Hələ sağam, sağam hələ…

17.07.2007

### *Sonuncu otaq*

Ölməmək diləyi var,
Yaşamaq arzusu var
hərədə.
Otağımda
su da var,
hava da,
qapı da,
pəncərə də.
Yer Kürəsi
nə qədər ki, sağam,
hələ ki, gəzdirir məni qucağında,
əvvəl-axır olacağam

susuz,
havasız,
qapısız,
pəncərəsiz
            otağında.
Ey Allah,
Ey Tanrı,
Ey Yaradan,
Ey Pərvərdigar,
Ey Xuda,
Ey Qibleyi-aləm,
Elə buna görə də
ölmək istəmirəm.

Ölməmək diləyi var,
Yaşamaq arzusu var
                                    hərədə.

19.07.2007

### *Həyat*

Ürək.
Həyat.
Ölüm.
Ürək döyündü:
Həyat – birinci döyüntü.
Ölüm – sonuncu döyüntü.
Ürək döyünməyə başladı,
döyündü,
döyündü
            və susdu –
həyat bu!

23.07.2007

### *Baş və kök*

Ağacdım.
Qurudum
Kökümün Su Nasosu çürüdü,
qurudum,
Başıma su çatmadı bir udum.

Neçə ildi
Kök Nasosu
su vururdu
qol-budağıma,
başıma.
Kökümə təşnəydim, acdım.
Yaşayırdım, ağacdım.
Başım göydə
kefdə idi,
Köküm yerdə
rütubətdə,
Qol-budağımsa
kökümə itaətdə.

Ağacdım,
Kökümə e'tinasızlıq vardı məndə.
Görürdüm
yan-yörəmdəki gözəlliyi
kökümün sayəsində.

Vaxt ötdü,
Yaşıllıq bitdi,
Sarılıq yetdi…
Kökümün Su Nasosu çürüdü,

Nasos vurmadı,
Başıma su çatmadı bir udum.
Ağacdım.
Qurudum.

25.07.2007

### *Bizə gəlmisən*

Özündən savayı bu gün məskənim
Qəbul etməyəcək mələk də gəlsə.
Bu gün yeri yoxdur evimdə mənim,
Kimsəni qoymaram fələk də gəlsə,
Bizə gəlmisən.

Bu gün soyuqluqdan uzağıq, uzaq,
Bu gün Od günüdür, Hərarət günü.
Bu günə başqa ad qoyulmayacaq,
Bu gün adlanacaq «Məhəbbət günü»,
Bizə gəlmisən.

Bu gün görməyəcək dostlarım məni,
Bu gün miz üstündə nərd olmayacaq.
Dörd əl oxşayacaq iki sevəni,
Bu gün qəm qaçacaq, dərd olmayacaq,
Bizə gəlmisən.

Bu gün tənhalıqdan qaçan qaçağam,
Dilin deməyəcək bu gün də təksən.
Mən bu gün qapımı qapayacağam,
Sən bu gün heç yana getməyəcəksən,
Bizə gəlmisən.

Bu gün min bir qəmin biri də gəlməz,

Bu gün bir sevinci gözüm min görür.
Huri də görünməz, pəri də gəlməz,
Bu gün şahin quşu göyərçin görür,
Bizə gəlmisən.

26.07.2007

### *Donuram*

Adını padşah qoyub
Yerdə Allahlıq edən
«allahları» görəndə
donuram.
Yaltaqları görəndə,
Məddahları görəndə
donuram.

Deyirlər ki, rüşvət var
hər ölkədə, hər yanda.
Donuram.
Xalqın malını yeyən,
Üstündən də su içən
rüşvətxora baxanda
donuram.

Abadları görməyib
Bərbadları görəndə
donuram.
Dilinə yalan düşən,
Cisminə kişilərin
əlindən talan düşən
arvadları görəndə
donuram.

Adına «kişi» deyib
nakişilik eləyən
adamlara baxanda
donuram.
Sözdən nifaq axanda,
Gözdən bulaq axanda
donuram.

Heyrətindən quruyan
naəlac ağac kimi
məni tonqala çatın,
donuram.
Donum açılsın deyə
tutub Günəşə atın,
Donuram! Donuram! Donuram!

29.07.2007

### *Dəvəquşuya!*

Şahinəm,
Yazığım gəlir
çoxxislət,
çoxsifət adamlara:
Üzləri
    gah ağ, gah qara,
Sözləri
    gah tam, gah natamam,
Əllərində
    gah təsbeh, gah cam.
Şahinəm,
şahin quşutək
qərar tuta bilmirəm yerdə,
yapışıb tez-tez

ilham pərisinin qanadlarından
uçuram göylərdə.
Qoy gəlsinlər,
bütün quşları
də'vət edirəm uçuşa,
Dəvəquşu deyiləm ki,
həm dəvəyə bənzəyim, həm quşa.
Mən
birər-birər ovladlığım
məstanə qəzəllərimin sərxoşuyam,
Şahin quşuyam!
Ola bilməz səndə şahin uçuşu,
Acıq sənə, acıq,
Dəvəquşu!

1.08.2007

### *Mənim bu dünyayla işim yox daha*

İş görən çağlarım geridə qalıb,
Mənim bu dünyayla işim yox daha.
Gözüm o dünyatək pəridə qalıb,
Mənim bu dünyayla işim yox daha.

Sərvət mayasından bu dünya zahı,
Çoxalır gün-gündən kasıbın ahı…
Nə qədər ki vardır mə'mur tamahı
Mənim bu dünyayla işim yox daha.

Mini heyvanıdır, beşi adamı,
Var qadın adamı, dişi adamı,
Vallah az görünür kişi adamı,
Mənim bu dünyayla işim yox daha.

Yaman ucuzlaşıb baha bu dünya,
Elə bil verilib şaha bu dünya…
Ağını çıxarıb daha bu dünya,
Mənim bu dünyayla işim yox daha.

Dünyanın dağ-bağı mənimsələnib,
Qışlağı, yaylağı mənimsələnib,
Allahın torpağı mənimsələnib,
Mənim bu dünyayla işim yox daha.

Ətrafda gördükcə bu keşməkeşi
Məni düşündürmür Yerin gərdişi,
Mənimlə olmasın dünyanın işi,
Mənim bu dünyayla işim yox daha.

Mən ki, eləmirəm şəkk o dünyaya,
Ümidim qalıbdır tək o dünyaya,
İlahi, Şahini çək o dünyaya.
Mənim bu dünyayla işim yox daha,
İşim yox daha.

7.08.2007

### *Lütfizadə*

Qələmi var, dəftəri var, kitabı var,
Hamı kimi günahı var, savabı var.

Qeyri-adi şöhrətli, şanlı,
Azərbaycandan kənarda yaşayan azərbaycanlı.

Dünya
adına «Böyük Adam» diplomu yazdı,
Kiçik Adam olsaydı yazmazdı.

Dərdi, qəmi, qüssəsi adi,
Üzü, gözü, cüssəsi adi,
Geyim-kecimi sadə,
Gözü-könlü tox,
Alacağı az, verəcəyi çox,
 tamahı darı boyda.
Başı isə Yer Şarı boyda –
Lütfizadə!!!

8.08.2007

## *Müvəqqəti və qəti*

Ey müvəqqəti hökmdar,
Demə dünya mənimkidir.
Müvəqqəti səninkidir!
Bil ki,
əcəl gələn kimi
Bir qəbirlik
                yerin altı
mütləq, qəti səninkidir,
Ey müvəqqəti hökmdar!

19.08.2007

## *Güllələr*

Güllələr saymaqla qurtarır məgər?
Necə sağ qalmışam? Mən də mənmişəm!..
Adamı bir dəfə güllələyərlər,
Mənsə neçə dəfə güllələnmişəm.
Sevginin inkarı – güllədir mənə,
Yox qəmin qəmxarı – güllədir mənə.
Qarabağ alındı – güllədir mənə,

Kim ayaqyalındı – gülllədir mənə.
Köçkünün təlaşı – gülllədir mənə,
Qaçqının göz yaşı – gülllədir mənə.
Yalançının dili – gülllədir mənə,
Talançının əli – gülllədir mənə.
Mö'münün günahı – gülllədir mənə,
Mə'murun tamahı – gülllədir mənə.
Məddahın qələmi – gülllədir mənə,
Hicranın hər dəmi – gülllədir mənə.

Gülllələr saymaqla qurtarır məgər?
Necə sağ qalmışam? Mən də mənmişəm!..
Adamı bir dəfə gülllələyərlər,
Mənsə neçə dəfə gülllələnmişəm.

20.08.2007

## QİT’ƏLƏR

Zənn eyləyirəm ki, bilərəkdən özü yandı,
Kimdir buyuran şəm’ə ki «pərvanəni yandır».

Biganə adamlar məni yandırsa da hərdən,
Hətta deməərəm Rəbbimə «biganəni yandır».

Meyxanəyə getmir deyə şeyxim, həsədindən
Bir mollaya hökm eylədi: «Meyxanəni yandır».

20.07.2002

* * *

Yaxşı ki, ömr eləməkdə hələ «Məcməş-şüəra»,
Çox qəzəlxanə hayan olmalıyam inşallah.

Hələlik qarə buludlar bürüyüb yan-yörəmi,
Gün təkin mən də əyan olmalıyam, inşallah.

Nə solam mən, nə də ki sağ, hələlik düz gedirəm,
Mən nə oldumsa haman olmalıyam inşallah.

«Kərbəlayi» dedilər həm «məşədi», əhdim var,
Kə’bəyə mən də rəvan olmalıyam inşallah.

*Quba*, 29.07.2002

* * *

Vardırsa da meylim, hələ məsciddə yerim yox,
Meyxanəni hal əhli məkanım kimi gördü.

Saf dildə yazıb mən qəzəli faidə etdim,

Cahillər isə xeyri ziyanım kimi gördü.

Arif kəsə görsəndi tikanım elə gül tək,
Cahil gülümə baxdı tikanım kimi gördü.

*Quba*, 31.07.2002

* * *

Çöhrəsi yoxsa qəmin mən qəmi neyçün görürəm?
Var imiş surəti ahın ki, gözüm ahı görür.

Görünüş yoxsa muğamatımın avazında,
Nəzərim bəs niyə «Şahnaz»ı, «Çahargah»ı görür?

Deməsinlər mənə «Allahı görən göz yoxdur»,
Qəlbimin gözləri gündüz-gecə Allahı görür.

7.08.2002

* * *

Fələyin yazdığına yoxdu pozu dünyadə,
Birinə nəş'ə veribsə, yüzünə ah verib.

Cümlə aşiqlərə şah eyləyibən Məcnuni
Dəlilər ordusuna Qeys kimi şah verib.

Sanıram qiblə, əzizim, sən olan səmti fəqət,
Taleyim mənə kəsə ol səmti nişangah verib.

Səndən əl çəkməyim Allahə xəyanət sayılar,
Çünki mən bəndəyə sən bəndəni Allah verib.

27.09.2002

* * *

İki «Divan»ı bitirdim və qalıb öndə biri,
Sonudur ömrümün, eyvah, işim işdən keçdi.

Kiməsə qiyməti «beş» yazdı əli ustadın,
Bu qəzəlxanın isə qiyməti beşdən keçdi.

11.10.2002

* * *

Oddan yan olan tüstü kimi qaçma kədərdən,
Döz dağ sayağı qüssə-qəmə, tab ilə dərdə.

Çoxdandı görünmür gözə mərdanə adamlar,
Mərdanəliyi qoy bəzək olsun yenə mərdə.

Hambal kimi çox yük daşıdım sə'y ilə, amma
Minnət yükü mən çəkməmişəm zərrə qədər də.

19.11.2002

* * *

Qar gəlibdir yenə, ey ulu Pərvərdigar,
Etmədəyəm dərdimi car gələndən bəri.

Göydəki ambarda çoxmu hələ ehtiyat?
Qar eləyibdir bizi xar, gələndən bəri.

Gəldi hayandan bu qar, qoydu gözü intizar,
Olmadayam gör necə zar, gələndən bəri.

İnsafın olsun sənin ay bu qarı göndərən,

Yar görünmür daha qar gələndən bəri.
14.12.2002

* * *

Nə təhər ömr eləyir eşqsiz adəm görəsən?
Eşqi yox kimsələrə yad mənəm, yad mənəm.

Dünənin çölgəzəni, dağçapanı var idi,
Bu günün Qeysi mənəm mən, həmi Fərhad mənəm.

Eşqi məndən soruşun, ey gələcək Məcnunlar,
Elə zənn eyləyirəm eşqdə ustad mənəm.

Təcrübə əxz eləyiblər qocalar eşq içrə,
Cavan aşiqlərə, əlbəttə ki, imdad mənəm!
13.01.2003

* * *

Gözümün nuri çoxalmış, ürəyim gəncləşmiş,
Ya İlahi, bu nə qüdrət ki, qoca – oldu cavan,

Şəkk edən varsa, nigarım bunu təsdiq eləyər,
Bu deyildir quru söhbət ki, qoca – oldu cavan.

Novcavan oldu cavan, sonra isə oldu qoca,
Yox təəccüb buna, heyrət ki, qoca – oldu cavan.
15.03.2003

* * *

Təltif eləyirlər səni, sən razılaşırsan,

Hətta belə dersən ki, filankəs – Yaradandır.

Qüdsiyyətə yetmək elə də sadə deyildir,
«Qüdsəm» demə, ey şeyx, müqəddəs – Yaradandır!

Daş-qaş eləyib cəm yığırsan zərü zivər,
Dərk eylə, daşı gövhər edən kəs – Yaradandır!

16.03.2003

* * *

Quba yurdunda deyirlər çəliyə «əl ağacı»,
Nə çəlik al mənə, yarım, nə ağac istəmirəm.

Mən məhəbbət şəhərində elə sultanəm ki,
Arxayın gəl bu gözəl şəhrə, xərac istəmirəm.

İstərəm xəstələnib ölməyi eşq ilə, təbib,
Dərdimə mən daha imdadü əlac istəmirəm.

23.03.2003

* * *

Dünya yaranandan bəri get-gəldədi hər şey,
Bir gün də görərlər ki, onun gərdişi getdi.

Fir'onlarının ömrü tamam oldu, tükəndi,
Sultanı, xanı, rövzəxanı, dərvişi getdi.

Hicr ilə vüsalın üçü bitdi, beşi qaldı,
Vəsl ilə fərağın üçü gəldi, beşi getdi.

Şair, elə ömr eylə ki, öldükdə desinlər:

Dünyayə bu şair kişi gəldi, kişi getdi!

18.04.2003

* * *

Çox ev məni çəkmirsə yox bunda təəccüb,
Şahımdı o, qaldım mən ol şahın evində.

Xoşxah adama mehman ollam gecə-gündüz,
Aşiq davam eylərmi bədxahın evində?

«Allah evidir» söylər Kə'bəyə müsəlman,
Allahı görən varmı Allahın evində?

24.04.2003

* * *

Yoldaş ilə yoldaşda təfavüt məgər azdır?
Yoldaş deyildir sənə yoldaş – aralansa.

Göz yaşımı mirvari təkin hifz edirəm mən,
Gözlər küsə bilməzmi məgər yaş aralansa.

Sevdamı başımdan çıxara bilməyəcəklər
Hətta bədənimdən qoparaq baş aralansa.

30.05.2003

* * *

Eşq əgər olmasa, çalmazsa sevən könlü o yar,
Başıma çalsa əgər xəncəri ollam razı.

Varmı candan bezən adəm, deyəsən yox, amma

Qətlimə yollasalar dilbəri ollam razı.

Açmayırsan qapımı sən neçə gündür, gözəlim,
Ömrümün qoy qapana dəftəri, ollam razı.

Qapılıb öz-özümə guşənişinlik edirəm,
Məni eşqin edə gər sərsəri, ollam razı.

Cənnətə göndərə Rəbbim məni rədd eyləyərəm,
Sənlə göndərsə əgər, ey pəri, ollam razı.

23.06.2003

* * *

Ey Ölüm, mən ki sənə heyranəm,
Məni şad eyləmədə heyranlıq.

Elə imkan edəcəksən bizə ki,
Vəslimiz olmayacaq hicranlıq.

Göydə ölmür, dirilər yerdə ölür,
Çünki, yox göydə məzarıstanlıq.

1.07.2003

* * *

*Əsğər Şahi Ərdəbiliyə!*

Qələm əhli qələmə verməyə dinclik…və gərək
Şairi sidqi-ürəkdən sevə Allahı kimi.

Məcnunun ahını Movlayi elə üstələdi,
İndi yox ah edən olsun o kəsin ahı kimi.

Ey Nəvai, qəzəlin yoxdu vəziri…Özüməm![1]
Qəzəlin şahı gəlibdir yanıma Şahi kimi.

Ərdəbildən Bakıya qoy yenə gəlsin, gəlsin,
Xoş qədəmlər dilərəm Şahiyə xoşxahı kimi.

16.07.2003

* * *

Ey ne'məti tale payı zənn eyləyən adəm,
Sə'y etməsən hərgah sənin ne'mətin olmaz.

Fürsət elə bir quş ki, uçursan geri dönməz,
Uçmuşsa, çağırsan da geri, fürsətin olmaz.

Mərdanəliyin, bəlli ki, isbatı gərəkdir,
Heç kəs «mətinəm mən» demək ilə mətin olmaz.

Hər Həccə gedəndən hacı olmaz, buna yox şəkk,
Hər bir «hacıyam mən» deyənə rəğbətin olmaz.

Yarıb, mənə sən cənnətin ünvanını söylə,
Ünvanı biləndən sora tapmaq çətin olmaz.

1.08.2003

* * *

Zahirindən daha çox batinini göstər sən,
Surətə baxmayıram, izləyirəm mə'nanı.

---

[1] Xorasan hökmdarı Sultan Hüseyn Bayqaranın (1469-1506) vəziri olmuş böyük şair Əlişir Nəvai.

Fərqi yoxdur əruz olsun, ya heca, ya sərbəst,
Düzürəm inci kimi şe’r ipinə misranı.

Mən bu dünyanı ki fəth eyləmədim, Allahım,
Ölürəm ki, eləyim fəth o biri dünyanı.

4.08.2003

* * *

Hər nə qədər söylə ki «Yox Yerdə eşq»,
Bilməyəcəkdir bunu cahil fəqət.

Eyləməyirlər sözümə e’tina,
Çox dedi bir çox adama dil fəqət.

«Eşq» sözü göylərə uyğun gəlir,
«Eşq» sözü Tanrıya şamil fəqət!

11.09.2003

* * *

Uzun illər məni əzmiş, yenə əzməkdə fələk,
Oluram mən yenə gündən-günə əzgin sayağı.

Gün olubdur ki cibim möhtacı olmuş qəpiyin,
Dəymişəm mən gözə hərçənd ki zəngin sayağı.

Elə kəslər görürəm, görməsəm ondan yaxşı –
Görünür gözlərə şeytan təhəri, cin sayağı.

Qara rəngin ki, əzəldən deyiləm məftuni,
Mən bələndim fəqət ağ rəngə göyərçin sayağı.

Sanmadım şöhrətimi şahdən əskik bir dəm,
Var xəbislərki, sanırlar məni miskin sayağı.

Yoldaş oldum sizə illər boyu, ey dərvişlər,
Tutmuşam mən qələmi əldə təbərzin sayağı.

Əruzun qalxmadayam fövqünə saf sözlərlə,
Hanı şair ki cumur göylərə şahin sayağı?

19.11.2003

* * *

Bircə cam ilə gəlibsən yanıma, ey saqi,
Oxşasın göz yenə süfrəmdə camın bir neçəsi.

İntizam var idi yurdumda, nizamlar vardı,
İntizamın biri itmiş, nizamın bir neçəsi.

Elə kəs var ki, verən yoxdur ona bircə salam,
Mənəsə yetmədə hər gün salamın bir neçəsi.

Bir şamın nurinə həsrətli qalan insan var,
Parlayır amma kənarımda şamın bir neçəsi.

Bir babam Fərzəli idi, Babay idi o biri,
Hafizəmdə ilişibdir babamın bir neçəsi.

Vermişəm könlü halal kəslərə ömrüm uzunu,
Məni ram eyləyə bilməz haramın bir neçəsi.

Neçə elm əhlini tə'lim elədim, ustadəm,
Mənə çatmaq diləməkdə avamın bir neçəsi.

Neçə bişmiş adamı heyrətə salmış şe'rim,
Şairə neyləyəcəkdir ki xamın bir neçəsi.

Sözə şah eylədi, əlbət, məni «Məcməş-şüəra»,
Üzə ağ olmada amma qulamın bir neəçsi.

Bir qoşun aqil adam ilə şadam mən, lakin
Mənə daş atmada nadan adamın bir neçəsi.

26.12.2003

* * *

*123 yaşlı «Məcməüş-şüəra»dan qopub eyni adlı bir məclis «yaratmaq» xülyasına düşən Arif Buzovnalıya*

Sən səmtimə quzğun kimi caynaq uzadırsan,
Caynaqların sinəmə amma bata bilməz.

Qəlbində paxıllıq yükü vardır neçə vaxtdır,
Cəhlin yükünü sən kimi cahil ata bilməz.

Xoşxahlərin məclisi «Məcməş-şüəra»dır,
Bəd kəs həsədindən gecə-gündüz yata bilməz.

Mən həm gəzirəm, həm uçuram, yerdədi Arif,
Şahin kimi bir arifə Arif çata bilməz.

29.12.2003

* * *

Mən qocalıb öylə zəif olmuşam,

Verməyin əl, əllər əlimdən düşür.

Gül gətirirlər yanıma, almıram,
Xoşladığım güllər əlimdən düşür.

Ortaya nərdtaxta gəlir, əllərim
Zər tuta bilmir, zər əlimdən düşür.

3.01.2004

* * *

Mən dəxi saqiyə meyxanəçi oldum bir vaxt,
Saqisi qalmadı meyxanəçinin, cam sındı.

Mənim hərçənd kədərdən ürəyim sınmışdı,
Üstəlik həm də yıxıldım və qabırğam sındı.

20.02.2004

* * *

Üç bahar ötməkdədir tək qalmışam,
Sevgilim, səndən səda gəlmir mənə.

Ay doğur, amma ki, nurin görmürəm,
Gün çıxır, gündən ziya gəlmir mənə.

Dost əlindən çıxmada hərdən xəta,
Düşmənimdənsə xəta gəlmir mənə.

Kərbəladən çəkdilər min bir bəla,
Kərbəladən bir bəla gəlmir mənə.

Gər cəfakardan cəfa əskik deyil,

Hər vəfadardan vəfa gəlmir mənə.

Bir qabırğam çatladı bağrım kimi,
Sən ki yoxsan heç şəfa gəlmir mənə.

İstərəm nuş eyləyim yoxluq meyi,
İştəha yox, iştəha gəlmir mənə.

25.02.2004

*Qabırğamın sınmasının 18-ci günü*

* * *

Yad adəmlər sənə hərdən atırlar daş, ey Şahin,
Daşı gizlətmə, daş at ki, gedib yad daşinə dəysin.

Yığıb gizlətdiyin sirri, könül, - sirdaşı incitmə,
Rəva bilmə sözün az həm sənin sirdaşinə dəysin.

Güman etmə ki əskikdir axan göz yaşı daş-qaşdan,
Gözəl, vardırmı mirvari məgər göz yaşinə dəysin?

Süzüb göz-qaşını məst eyləmə dildarı, ey əğyar,
Çəkilsin yay, atılsın ox gəlib göz-qaşinə dəysin.

Əgər dansan nə pak insan olubdur həzrəti-Musa,
Görüm ki, həzrəti-Musa əsası başinə dəysin.

7.06.2004

* * *

Hövsələ, səbr ilə, təmkin ilə elm öyrəndim,
Gərək öyrənmədə elmi yenə təmkin eləyim.

Bir dua eyləyənin ağzı duasız kimidir,
Mən duamı gərək Allahıma min-min eləyim.

Ya İlahi, hara baxsam səni görməkdə gözüm,
İstərəm isminə gündüz-gecə «Amin» eləyim.

Badə keyfiyyətini bilməyənin yox əqli,
Mən əqilsizlərə əqli necə təlqin eləyim?

20.06.2004

* * *

Xəlq etdi məni lütf ilə göndərdi cəhanə,
Ol lütfü məgər bir də İlahi eləyərmi?

Zahid neçə müddətdi ki, meyxanəyə getmir,
Allahı sevən kəs bu günahi eləyərmi?

Cahilliyi xəlq içrə bəla zənn edirəm mən,
Cahil özünü elm ilə dahi eləyərmi?

Məscidə məni göndəribən oldu pənahim,
Saqi mənə bir də o pənahi eləyərmi?

«Şahi» ilə «Şahin»dəki fərq bircə hərfdir,
«Nun» hərfini silmək məni Şahi eləyərmi?[1]

22.06.2004

[1] Ərdəbilli şair dostum Əsğər Şahi

* * *

*Xaqani Şirvaninin xatirəsinə*
*(fars dilində)*

*«Həmigoftəm ke, Xaqani*
*dəriğaguye-mən başəd,*
*Dəriğa, mən şodəm əknun*
*dəriğaguye-Xaqani»*
*Nizami Gəncəvi*

*«Deyirdim mən ki, Xaqani*
*deyər ağı ölərkən mən,*
*Təəssüflər ki, mən yazdım*
*bu gün Xaqaniyə ağı».*
*Tərcümə özümündür*

Xoda aməd bexabəm, Əfzələddin-ra beporsidəm,
Begofta «Cəm’, gəşte dər beheşt orduye-Xaqani».

Kəlaməş həmço ətre-gol moəttər saxt donya-ra,
Məra həm mikeşəd dər bağe-rezvan buye-Xaqani.

Pəsəndidəm mən ahuye-qəsayedra, vəli goftənd
Moyəssər şod be Qaani fəqət ahuye-Xaqani.

Həme əbyate-vey dorro sədəf, ləlo tela guyi,
Xodəş rəft-o vəli baqi bemand incuye-Xaqani.

Təvəccoh-ra, negahəm-ra nəmiduzəm be hosne-gol,
Təvəccoh suye-Xaqani, negahəm suye-Xaqani.

Nezami, ey nezamüş-şe’r, didi Əfzələddin-ra?
Bezudi mən həmixahəm bebinəm ruye-Xaqani.
8.02.2005

* * *

*«Xubdur yerimiz min kərə Tarix Muzeyindən,*

*Şahin keçirir məclisi şahın sarayında»*
*Əvəz Qurbanlı*

Xoşdur ki, bu gün şairə vardır hələ hörmət,
Şair olacaqdırmı sabahın sarayında?

Qəlbin sarayı qüssə ilə, ahla doluydu,
Şadlıq görünür qüssəvü ahın sarayında.

Meyxanəyə getməkdə günah eyləmiş idik,
Olmaz işimiz bir də günahın sarayında.

Şairlərə, əlbəttə ki, layiqdi saraylar,
Çox məclis olub Molla Pənahın sarayında.

Şahin dəyişib ismini Şahinşah olubdur,
Çünki, «keçirir məclisi şahın sarayında»[1].

1.06.2006

* * *

Əl bellədi torpağı, torpaq ələ dən verdi,
Əl ərşə tərəf qalxdı, dərgahə dua etdim.

Var öylə adamlar ki, timsah kimi acgözdür,
Mən onları gördükcə timsahə dua etdim.

---

[1] Azərbaycan Mədəniyyət Fondu öz fəaliyyətini məhdudlaşdırdıqdan sonra bizim «Məcməüş-şüəra» ədəbi məclisimiz yersiz qaldı. Mən məcbur olub, yığıncaqlarımızı gah «Ədəbiyyat Muzeyi»nin binasında, gah «Tarix Muzeyi»ndə keçirməyə başladım. Lakin tezliklə həmin muzeylər tə’mirə dayandırıldı və məclisimiz «Şirvanşahlar sarayı»nda öz işini davam etdirdi. Bu qitənin epiqrafındakı beytdə şair Əvəz Qurbanlı buna işarə edir.

Vardır adamın fərqi – bədxah ilə xoşxah var,
Bədxahə edib lə’nət, xoşxahə dua etdim.

Vardırsa da tənqidim nikbin adamam amma,
Gördüm bu günü böylə, sabbahə dua etdim.

Bilməzdi dua Şahin, şura dağılıb getdi,
Allahə şükürlər ki, Allahə dua etdim.

19.09.2006

* * *

Nə uzun çəkdi cuhud ilə ərəb qovğası?
Çatlayır Leyli və Məcnun ürəyi qəbr içrə.

Neçə ildir Qarabağ məsələsi həll olmur,
Nə qədər qalmaq olar cövrü cəfa, cəbr içrə?

Hey deyirlər ki, dözün, hövsələvü səbr eləyin,
Görəsən varmı səbrdən bir əsər səbr içrə?

30.09.2006

* * *

Neyçi qardaş neçə gündür neyi səsləndirmir,
Neçə gündür yaxınam badəyə, neydən uzağam.

Meypərəst zənn eləyənlər məni bilsinlər ki,
Saqi çəkmiş məni meyxanəyə, meydən uzağam.

9.10.2006

* * *

*Alim qardaşım Mirabbas Aslanova!*

Ulu aşiqlərimiz yetmədilər arzu-kama,
Qeyri aşiqlər içində hələ də yas vardır.

Bax, bu mövzuda qurultay keçirək, vacibdir,
Görmürükmü nə qədər ölkədə iclas vardır.

Adi daşdan savayı daş-qaşı var dünyanın,
Neçə yaqut ilə, mərcan ilə, almas vardır.

Qərq olan varsa da ümmanə girib hərdənbir,
Dalğanı ram eləyən üzgüçü, qəvvas vardır.

Qələmi işlək olan alimə əhsən, amma
Qələmində neçə alimcığazın pas vardır.

O yazarlar ki yazırlar neçə «Abbasnamə»,
Bilməyirlərmi məgər həm də Mirabbas vardır?
9.11.2006

* * *

Tutmaram üz nakişi insanların dərgahına,
Sanmasınlar gördüyüm hər fərddir dərman mənə.

Mərdlərin namərd adamlardan sayı az olsa da,
Ehtiramım mərdə çoxdur, mərddir dərman mənə.

Dərdçəkənlər bəxtəvərdir, bəxtəvərlər – dərdçəkən,
Dərdimə dərman nə lazım, dərddir dərman mənə.
15.11.2006

* * *

Söyləyirlər ki, cəhənnəmdə yanır qır qazanı,
Var isə təqsirimiz – yanmağımız mütləqdir.

Var qəzəlxan ki, yazır əcnəbi sözlərlə qəzəl,
Elə sözlər yazanı danmağımız mütləqdir.

Vahidin ad gününü yad elədik bir də dünən,
Vahidin ad gününü anmağımız mütləqdir.

19.02.2007

* * *

*Me'mara!*

Dəlinin yoxmu əlacı bu fəna dünyadə?
Yenə divanələrin üstünə zəncir uzanır.

Demərəm «yox» sənə gər zülfün ola zəncirim,
De, haçan zülf dəyəcək zülfə ki, tədbir uzanır.

Hicranın çəkdi çəpər vəslimə, rəhm etmirsən,
Tə'sirə qarşı çıxan yox deyə tə'sir uzanır.

Səni tənqid elədim mən yenə, haqqım vardır,
Sındırıbsan nə üçün qəlbimi, tə'mir uzanır.

8.03.2007

* * *

Tazə bir səslə yüyürdüm qəzəlin bağçasına,
Tazə səsli neçə «Divan»da səsim mə'lumdur.

Köhnə güllər məni hərçənd ki, məst eylərdi,
Yeni gül səmtə tələshatələsim mə’lumdur.

Dil baxımdan qəzələ tazə nəfəs lazımdı,
Mən isə tazəçiyəm ki, nəfəsim mə’lumdur.

Mənəvi bağ ilə bağlanmış olur aşiqlər,
Elə zəncir, elə məftil, elə sim lazımdır.

Nə ürək doydu məhəbbətdən, əzizim, nə də göz,
Qoca olsam da, cavanlıq həvəsim mə’lumdur.

12.03.2007

## TƏZMİNLƏR

Bəsdi, həzz əyyamı bitdi, indi qəm çəkmək gərək,
Anbaan, saətbəsaət, dəmbədəm çəkmək gərək.

Çal-çağırdır, oynadırlar, hər tərəf rəqqasədir,
Oynamaqdan indi ləzzət yox, sitəm çəkmək gərək.

Qarə bağda xeyli yerlər zəbt olunmuşdur bu gün,
Bəlkə itmiş yerlər üstündən qələm çəkmək gərək?

«Ya gərək möhnət çəkib salmaq nizamə büsbütün,
Ya bu qəmgin yurd olan yerdən qədəm çəkmək gərək»[1].

Nəm tutubdur gözlərim, tərk olmada gözdən ziya,
Gözlərimdən, Şahina, günlərlə nəm çəkmək gərək.

17.06.2002

* * *

Hanı Məcnun – bilə səhra çəkəni?
Varmı dilbər – çəkə Leyla çəkəni?

Çəkə bilməz tərəzi misramı,
Varmı şe'rin belə misra çəkəni?

Göyə ilham pərisi qaldıracaq,
Hər ağızdan neçə mə'na çəkəni.

---

[1] *«Ya bebayəd saxt ba möhnət be hər hali ke həst,*
*Ya əz in sərmənzeli-möhnət qədəm bayəd keşid»*
*Məhəmməd Füzuli*
*(Beytin tərcüməsi bu sətirlər müəllifinindir).*

Hansı kəsdir ki, çəkib rö'yamı?
Göstərin siz mənə rö'ya çəkəni.

«Hər kəsin dərdi onun tabı qədər,
Çəkə bilməz ulaq İsa çəkəni».

Hər adam qəm çəkə bilmir, Şahin,
Çəkirəm mən isə dünya çəkəni.

22.06.2002

* * *

Meylim olmuşdur dəli, əqlimlə qovğa eyləyir,
Yaş çoxalmış, qəlb isə, ey yar sevda eyləyir.

«Seydi, hicrindən o yarın məndədir aləm qəmi,
Qəm gərəksə hər kəsə məndən təmənna eyləyir»[1].

Etməsin irad kimsə aşiqin rəftarına,
Bivəfa hər kimsəni eşq əhli ifşa eyləyir.

«Gəl» deyirsən, «et» deyirsən…Varmı inkar hökmünə?
Hökm edir dil, qəlb isə hər hökmü icra eyləyir.

Ey nigarım, mən şe'r yazmaqdayam hər gün sənə,
Günləri vur günlərə, minlərlə misra eyləyir.

Mən qəzəldən qeyri çox söz qoşmuşam ilham ilə,
Birbəbir saysaq əgər, söz yox ki, dünya eyləyir.

---

[1] *«Seydi, əz hicrani-u ənduhi-aləm ba mən əst,*
*Hər ke qəm xahəd qəmi əz ma təmənna mikonəd»*
*Seydi Tehrani*
*(Beytin tərcüməsi bu sətirlər müəllifinindir).*

Gah xəyallar aləmində, gah gerçək mənləsən,
Hüsnünə gündüz-gecə Şahin təmaşa eyləyir.

10.07.2002

* * *

Qəlbimin fani cahanda o qədər niskili var,
Ki, çıxır ərşə qədər düz, bəmi yoxdur, zili var.

Bağiban gül becərib etdi fərəh, bildimi ki,
Bu zəmi qəm bitiribdir, belə çox hasili var?

Yaranışdan bəri aləmdə təzad hakimdir,
Dəlisi, dağçapanı, aqili var, cahili var.

«Heç zaman açmayacaqdır qıfılı özgə açar,
Hər dilin öz qulağı, hər qulağın öz dili var»[1].

Çox da bel bağlama ömrün hələ yüyrək çayına,
Çayı ömrün nə qədər axsa da bir sahili var.

Ey Bakı, Şahinə bax ki, yenə dərvişlik edir,
Təbrizi, Bağdadı, İstanbulu var, Kabili var.

18.07.2002

* * *

Qəlb içrə fərəh dönüb qəm oldu,

---

[1] *«Hiç qofli ze kelidi-degəri va nəşəvəd,*
*Hər zəban guşi-yo hər guş zəbani darəd»*
*Saib Təbrizi*
*(Beytin tərcüməsi bu sətirlər müəllifinindir).*

Cənnətdi günüm, cəhənnəm oldu.

Ağ idi gecəm də, gündüzüm də,
Aləm mənə qarə aləm oldu.

Yar öldü və həmdəmim yox indi,
Təklik mənə yarü həmdəm oldu.

Yarəb, çürümür bəbək nədəndir?
Bir dəm qurumur gözüm, nəm oldu.

Ay bitdi, adı məhərrəm idi,
Ay yox, mənə il məhərrəm oldu.

«Axşam nə günəşli bir gecəydi,
Eyvah, o da leyli-matəm oldu»[1].

Şahin, çəmən üstü qaldı şehsiz,
Amma gözüm üstü şəbnəm oldu.

6.08.2002

* * *

*Me'mara!*

Dərdinə yoxdursa gər yar, var olan bir yar tap,
Dil bilən dildar azdır, dil bilən dildar tap.

Sevgini inkar edən kəs varlığı inkar edir,
Sevginin təsdiqi üçün inkarı inkar tap.

«Varı çox etmək, çoxu az eyləmək asandır,

---

[1] *Beyt böyük türk şairi Akif Ərsoyundur (1873-1936).*

Gər hünərvərsən azı çox eylə, yoxdan var tap»[1].

Çoxdu, ey meyxanəçi, sevda meyindən məst olan,
Görmüşük çox bihuş adəm, cəhd elə hüşyar tap.

İstədim mən həm cünunluq eyləyim, Məcnun gülüb
Nofələ hökm eylədi: «Get şairə həmkar tap!».

Eşq qəsrim günbəgün viran olur me'marsız,
Şahina, qəsrindən ötrü gəz yeni me'mar tap.

18.08.2002

* * *

«Bir pərisurət, mələkxislət təmənnasındayam,
Hicr ilə bimar ikən vüslət təmənnasındayam»[2].

Dərvişəm, çəksəm də göz çox ne'mətindən Tanrının,
Eşqtək şirin, ləziz ne'mət təmənnasındayam.

Xəlvət işlərdən kənar olsam da, xəlvət yer verin,
Nazənin bir yar ilə xəlvət təmənnasındayam.

Saqiya, şirin dodağın şərbətindən ver mənə,
Çox mey içdim, indisə şərbət təmənnasındayam.

Mən Füzuli heyrətindən çox kənar olsam belə,
«Heyrət, ey büt…» söyləyib heyrət təmənnasındayam.

---

[1] *Beyt Lənkəran «Fövcül-füsəha» ədəbi məclisinin yaradıcısı Mirzə ismayıl Qasirindir (1805-1900).*
[2] *Beyt Namiq Şəfainindir.*

Fikrimi cəlb etmədə surətlə mə’na vəhdəti,
Mən həmi mə’na, həmi surət təmənnasındayam.

Bənzəməkdir niyyətim daim Nəsimi şairə,
Cür’ətim yoxdur, fəqət cür’ət təmənnasındayam.

Mən binadən olmasam da azca həm sərvətpərəst,
Sərvətimdir «Divan»ım, sərvət təmənnasındayam.

Qürbəti tərk etmişəm, amma çəkir qürbət məni,
Tapmaq üçün Qeysi mən qürbət təmənnasındayam.

Kim görübdür kimsəni lə’nətləyim, amma bu gün,
Mən bütün cahillərə lə’nət təmənnasındayam.

Zəngəzur əğyardə, Şahin, Şuşam əğyardə,
Qeyrəti əldən verib qeyrət təmənnasındayam.

31.08.2002

* * *

Bu cahan yurdu əzəldən məzarıstan yeridir,
Nə həkim mənzilidir bu, nə də loğman yeridir.

Ya İlahi, ey həkim, ey bizə loğman əbədi,
Bu yerin yoxdu vüsalı, bura hicran yeridir.

Fələyin daşları gündüz-gecə insan üyüdür,
Yaranışdan bəri Yer sanki dəyirman yeridir.

Məni üzməkdə İraq dərdi, Fələstin dərdi,
Nə üçün qan tökülür harda müsəlman yeridir?

Rəbbəna, daxilimizdə niyə şeytan yaşayır?
Harda şeytan yeri varsa ora nöqsan yeridir.

Əfqanıstan, Çeçenistan, iki Azərbaycan…
Bəlkə də Yer elə Yer boyda olan qan yeridir.

Burda cənnət qapısı yox, hanı cənnət qapısı?
İstərəm orda olum harda ki canan yeridir.

Ağ yerin həsrətini çəkmədəyəm hər ləhzə,
Məcnunun ağ yeri səhra və büyaban yeridir.

Diləyim var ki öləm dan ağaran dəm, Şahin,
«Doğuyor bəklədiyin gün: Ağaran dan yeridir»[1].

2.09.2002

* * *

Ey var edən intizarı, dinlə,
«Susdurma bu ruhi-zarı, dinlə»[2].

Mən dinləmirəm səni haçandır,
Əvvəlki kimi bu yarı dinlə.

Gəldim yenə baş daşından öpdüm,
Öpdüm təzədən məzarı, dinlə.

Yarın unudubdu eyşü həzzi,
Yoxdur buna ixtiyarı, dinlə.

---

[1] *Misra Mehmet Akif Ərsoyundur.*
[2] *Misra Mehmet Akif Ərsoyundur.*

«Tənha qalanın həyatı puçdur!» -
Daim dediyin şüarı dinlə.

Sevda evimin binası viran,
Çökmüş başıma hasarı, dinlə.

Tezliklə görər səni bu Şahin,
Yoxmuş Yerin e'tibarı, dinlə.

4.09.2002

* * *

Dərdim-ürəyimdə, yenə dərmanım-əlində,
Hicranımı çək çarmıxa, hicranım-əlində.

«Gördüm səni, əldən bu görüş qəlbimi aldı,
Qorxum bu ki, qalsın həmişə canım əlində»[1].

Halım daha tərpənməyə yoxdur, belə getsə,
Cismim ayaq altda qalacaq, qanım – əlində.

Mümkünmü yetim vəslinə bir gün, hanı imkan?
Zəbt eylədin imkanı da, imkanım – əlində.

Eşqin gülü gözlər əlini güllər içində,
Eşqin gülünü dər ki, gülüstanım – əlində.

Sənsiz yaşaya bilmirəm, öldür məni, şahım,
Fərmanımı imza elə, fərmanım – əlində.

---

[1] *«Z-in dəst ke, didaro-to del mibərəd əz dəst,*
*Tərsəm nəbərəm aqibət əz dəste-to can ra».*
*Sədi Şirazi*
*(Beytin tərcüməsi bu sətirlər müəllifinindir).*

Söndür bu yanan Şahini, tüstüm çıxır ərşə,
Yarım, nə qədər mən axı odlanım əlində?

6.09.2002

* * *

Məhəbbət gər bəladırsa məhəbbətdən nədir fayda?
Siyasət qəlblər qırsa siyasətdən nədir fayda?

«Əgər yoldan kənarəmsə nə fayda yolçu olmaqdan?
Əgər keçmişsə iş işdən nəsihətdən nədir fayda?»[1].

Qənimət əldə etmək naminə cəng eyləmə, ey şah,
Bu yolda qeyrətin getsə qənimətdən nədir fayda?

Hünərdən dəm vurursansa, imarətlər qurursansa,
İçində qan qusursansa imarətdən nədir fayda?

Namaz qılmaq, ibadət eyləmək Həqqə, zərurətsə,
Şərab içsən, zina etsən ibadətdən nədir fayda?

Əsa əldə gözün bir nazənin dilbərdə qalmışsa,
Xəcalət sonradan çəksən xəcalətdən nədir fayda?

Daha bəsdir, səyahət eyləmə, Şahin, qocalmışsan,
Səyaət iztirab olsa səyahətdən nədir fayda?

8.09.2002

---

[1] *«Ço pay əz cadde birun şod çe nəf əz rəftəne-rahəm?*
*Ço kar əz dəst birun şod çe sud əz dadəne-pəndəm?»*
*Sədi Şirazi*
*(Beytin tərcüməsi bu sətirlər müəllifinindir).*

* * *

Aldanma, cahan fanidir, ey şənlik edən kəs,
Zənn eyləmə ki, bir də kədər gəlməyəcəkdir.

Var idi gözəl çağları ömrün, gözə gəldi,
Mən həm düşünürdüm ki, qəhər gəlməyəcəkdir.

Eşqim zər idi, eşqimi hifz eyləmədim mən,
Zər çıxdı əlimdən, daha zər gəlməyəcəkdir.

Dost elləri gəzmək geridə qaldı, təəssüf,
Heyfa, yanıma bir də kəhər gəlməyəcəkdir.

Bağdad ilə, Təbriz ilə, İstanbulu gəzdim,
Əfqan elinə bir də səfər gəlməyəcəkdir.

Bədbinliyə uyma bu qədər, ey qoca şair,
Əzmin, təpərin yoxsa zəfər gəlməyəcəkdir.

«Sərvət gələcəkdir əlinə zəhmətin olsa,
Getməzsə gecə, bil ki, səhər gəlməyəcəkdir»[1].

10.09.2002

* * *

Ya İlahi, gözümüz qoyma ki səngər görsün,
Oxusun gündə kitab, qoy yenə dəftər görsün.

---

[1] *«Ta rənc təhəmmol nəkoni gənc nəbini,*
*Ta şəb nərəvəd sobh pədidar nəbaşəd».*
*Sə’di Şirazi*
*(Beytin tərcüməsi bu sətirlər müəllifinindir).*

Hər gecə ulduza baxsın, qəmərə göz vursun,
Hər səhər seyr eləyib bağı sənubər görsün.

Xosrova söyləmə ki, cəngə təmaşa eləsin,
Xosrova söylə ki, Şirin ilə Şəkkər görsün.

Yerdə, yarəb, qadağan et savaşı, qovğanı,
Qoyma ki, gözlərimiz bir daha əskər görsün.

Gözümüz gündə gözəlliklərə baxsın, doysun,
Qoyma aşiqlərimiz hiylə, riya, şər görsün.

«Dilbəri görməsə göz fayda nədir görməkdən,
Ondadır gözlərimin xeyri ki, dilbər görsün»[1].

Şahinin gözləri eşq əhlini görsün xoşbəxt,
Zərgərin gözləri, yarəb, həmişə zər görsün.

12.09.2002

* * *

Gəlmisən sən yenə, həsrət yoxdur,
Daha həsrətdə o qüdrət yoxdur.

Qürbəti yad eləməzsən bir də,
Vətənə dönmüşə qürbət yoxdur.

Dili yansın çırağın piltəsitək,
Desə hər kimsə məhəbbət yoxdur.

---

[1] *«Dide-ra fayide anəst ke, delbər binəd,*
*Və-r nəbinəd çe bovəd fayide binayi-ra?»*
*(Beytin tərcüməsi bu sətirlər müəllifinindir).*

Yaradıbsan bəşəri, ey Yaradan,
Varsa da, tək Sənə heyrət yoxdur.

«Ey qənaət, məni sərvətli elə,
Olmasan sən, bizə ne’mət yoxdur»[1].

Şöhrətim yoxsa da, şöhrət vardır,
Qiymətim varsa da, qiymət yoxdur.

Kafərəm kafərə, ey Şahin, mən,
Demə «hər kafərə cənnət yoxdur».

14.09.2002

* * *

Sağala bilməsə gər yarəsi biçarələrin,
Solacaq gözlərinin qarəsi biçarələrin.

Huşə gəlcək, yarını yad eləyib ağlayacaq,
Qalxacaq göylərə fəvvarəsi biçarələrin.

Çarəsiz aşiqə imdad eləyə bilməyəcək,
Ciyəri parə ciyərparəsi biçarələrin.

E’tinasız olacaqlar, daha səslənməyəcək,
«Şüştər»i, «Şur»u, «Zəminxarə»si biçarələrin.

Kim gedib indi biyabanda qalır illərlə?

---

[1] *«Ey qənaət, təvangərəm gərdan*
*Ke, vəfaye-to hiç ne’mət nist».*
*Sədi Şirazi*
*(Beytin tərcüməsi bu sətirlər müəllifinindir).*

Məcnun oldu fəqət avarəsi biçarələrin.

«Vəslinə yetməsən hərgah ağla, ey Sə'di,
Ağlamaq oldu fəqət çarəsi biçarələrin»[1].

Çox sayıldı sayı biçarələrin dünyadə,
Şahin oldu yenə biçarəsi biçarələrin.

21.09.2002

* * *

Aşiqin məskəni çöldür, dağdır,
Kim ürək eyləməsə, qorxaqdır.

Hanı Məcnun ilə Fərhad, yoxdur,
«Yox» dedim, yoxsa da, onlar sağdır.

Bu nə ziddiyyətə malik dövran?
Nə təlatümlü keçən növraqdır?

Bəxşişi hökmdarın bağ olsa,
Dərvişin töhfəsi bir yarpaqdır.

«Cana çatmazsa əli çarəsizin,
Çarəsi köynəyini cırmaqdır»[2].

---

[1] *«Benal, Sədi, əgər çareye-vosalət nist,*
*Ke nist çareye-biçaregan becoz zari».*
*Sədi Şirazi*
*(Beytin tərcüməsi bu sətirlər müəllifinindir).*

[2] *«Dəste-biçare çon be can nərəsəd,*
*Çare coz pirəhən dəridən nist»*
*Sədi Şirazi*
*(Beytin tərcüməsi bu sətirlər müəllifinindir).*

Elə söz var acıdır zəqqumtək,
Sə'dinin sözlərisə qaymaqdır.

Qəzəlin yoxdu rəvacı bir vaxt,
İndisə var, ona alqış yağdır!

Şükür olsun ki, qəzəl var, Şahin,
Qəzəlin aqibəti parlaqdır!!!

* * *

Aşiqlərə iztirab edibsən…
Etdiklərini hesab edibsən?

«Məhv eyləmək aşiqi savabsa,
Sən gör nə qədər savab edibsən»[1].

Dilbər, niyə şərlədin şərabı,
Əhvalımızı xarab edibsən.

Daim məni daldırıb xəyalə
Zənn eyləmə ki, əzab edibsən.

İlhamımı artırıb dəmadəm
Billah ki, inqilab edibsən.

Şairlərə çox çətindi dözmək,
Əhsən sənə, çünki tab edibsən.

---

[1] *«Gər koştəne-aşeqan səvabəst,*
*To yaftei səvabe-besyar».*
*Kamal Xocəndi (XV əsr)*
*(Beytin tərcüməsi bu sətirlər müəllifinindir).*

Yarım, sənə şükr edir bu Şahin,
Dəftərlərimi kitab edibsən.

* * *

«Getdin, məni kimsəsiz buraxdın,
Yaxdın, məni həsrətinlə yaxdın»[1].

Yandın niyə tez belə? Şam idin!
Söndün niyə tez belə? Çıraqdın!

Dağlandı sinəm bu ayrılıqdan,
Arxamda mənim həmişə dağdın.

Gözlər niyə ölyə tez qapandı?
Dan ulduzutək ayıq, oyaqdın.

Ömrün dirəyi yıxılmaq üzrə,
Sən ki, mənə sevgilim, dayaqdın.

Sağmı? Ölüdür zavallı Şahin,
Şahin sağ idi, neçin ki, sağdın.

3.10.2002

* * *

*Bu günlərdə Azərbaycanda ikinci Qarabağ müharibəsinə başlamaq şövqü güclənmişdir.*

«Ya İlahi, bizə tövfiqini göndər…Amin!
Doğru yol hankısıdır millətə göstər…Amin!».[1]

---

[1] *Beyt Mehmet Akif Ərsoyundur.*

Yağılar var ki, ürək yağıma göz dikmişlər,
Yağa daş başlarına, qoy düşə qənbər…Amin!

Kişnəyə at, atıla top, çıxıb əldən Qarabağ,
İgid əsgərlər ilə qoy dola səngər…Amin!

Gəldi hərb əyyamı, eşq əyyamı qalsın gendə,
Eşidib sözlərimi qoy deyə dilbər: Amin!

Nə Ələmdar bu, nə Şahin bu düşüblər eşqə?
Aşiqanə qəzələ göz yuma Ənvər! Amin!

Nə qəzəl vaxtıdı? Ehya ola Hadi, Tanrım,
Qoy dola asi şe'rlər ilə dəftər. Amin!

Sabirə sən təzədən bəxş elə can, ey Rəbbim,
Təzə «Hop-hop» yaza qoy Mirzə Ələkbər. Amin!

Şahinəm, bəxş eləyibsən mənə illərlə qələm,
Al əlimdən qələmi, ver mənə xəncər…Amin!!!

5.10.2002

* * *

*Böyük Sə'di Şirazinin sehrindən çıxa bilmirəm…*
*«Lovğalıq eyləmə, ey Sədi, hünər göstər sən,*
*«Şirinəm» söyləsə şəkkər buna hacət varmı?»*[2]

Leylidən sonra gözəllərdə sədaqət varmı?

---

[1] *Beyt Mehmet Akif Ərsoyundur.*
[2] *«Honər beyar-o zəbanavəri məkon, Sə'di,*
*Çe hacət əst beguyəd şəkər ke, şirinəm».*
*(Beytin tərcüməsi bu sətirlər müəllifinindir).*

Görəsən eşq qalıbdırmı, məhəbbət varmı?

«Heyrət, ey büt…» dedi şair gözəlin surətinə,
Yerdə var, göydə də surətlərə heyrət varmı?

M ə ’r i f ə t get-gedə qeyb olmadadır, böylə isə,
O Ş ə r i ə t və T ə r i q ə t və H ə q i q ə t varmı?

Bu nə sünni, bu nə şiə, bu nə vəhdətsizlik?
O biri mülkdə müslimlərə vəhdət varmı?

O bəqa aləm içində əbədiyyət vardır,
Bu fəna aləm içində əbədiyyət varmı?

«Faziləm» söylədi şahin, hanı Fəzlullahlar?
«Fazilәm» söyləyən hər kəsdə fəzilət varmı?
7.10.2002

* * *

Gərçi var üstündə yerin yer varı,
Yer varının göydədi sahibkarı.

«Torpağı otdurmu deşən şövq ilə?
Ot deyil, onlar dədənin saçları»[1].

Əksidi orman neçə rəhmətliyin,
Gül neçə gülçöhrə qızın paltarı.

Göydə günəş çəkmədə yer dərdini,
Rəngini hicran eləyib sapsarı.

---

[1] *Beyt Mehmet Akif Ərsoyundur.*

Canda bütövlükdən əsər qalmadı,
Çoxdan olubdur mənim ömrüm yarı.

Yer varı cəlb eyləməyir Şahini,
Yer varının göydədi sahibkarı!

18.10.2002

* * *

Könlüm neçə müddətdi ki, işrət nədi bilmir,
Yarım yox olubdur deyə ülfət nədi bilmir.

«Səndən savayı istəmirəm heç nəyi səndən,
Həlva o kəsə ver ki, məhəbbət nədi bilmir»[1].

Hicrində sənin gör nə qədər qəm yeyirəm mən,
Heç söyləməyirsən ki «qənaət nədi bilmir».

Gül bağbanı pis gündə görüb çəkdi xəcalət,
Var öylə adamlar ki, xəcalət nədi bilmir.

Sərvət o deyil sandığa zər toplayasan sən,
Sərvətli hər adəm niyə sərvət nədi bilmir?

Dərrakədi, qeyrətdi əsl sərvəti şəxsin,
Dərrakəsi yoxlar isə qeyrət nədi bilmir.

Şair dedi Şahin özünə incidi Sədi,

---

[1] *«Ma əz to beğeyr əz to nədarim təmənna,*
*Həlva be kəsi deh ke, məhəbbət naçeşidəst»*
*Sədi Şirazi*
*(Beytin tərcüməsi bu sətirlər müəllifinindir).*

Sə'di kimilər yoxsa zərafət nədi bilmir?

3.11.2002

* * *

Hərçənd ki, çox ahü nəva eyləmişəm mən,
Gündüz-gecə Allahə dua eyləmişəm mən.

«Allah elədi qəlbimi sən şuxə giriftar,
Dərk eyləmirəm heç nə xəta eyləmişəm mən»[1].

Ağ günlərim olmuşsa da eşqinlə, əzizim,
Ağ günləri hərdən də qəra eyləmişəm mən.

Çünki məni hicran ələmi hərdən əzibdir,
Hicrinlə həzin qəlbə cəfa eyləmişəm mən.

Bir zərrə olan hövsələ dağ boyda olubdur,
Qum boyda olan səbri qaya eyləmişəm mən.

Gördükdə həyasız görünən kəsləri, əfsus,
Bildirməmişəm qeyzi, həya eyləmişəm mən.

Şahin, qocala bilməyir, əlbəttə, hər adəm,
Şadəm ki, cavan sinni qoca eyləmişəm mən.

9.11.2002

---

[1] *«İzəd dele-mən kərd be eşqe-to gereftar,*
*Mən hiç nədanəm ke dele-mən çe xəta kərd»*
*Əbülvase Cəbəli (ı əsr)*
*(Beytin tərcüməsi bu sətirlər müəllifinindir).*

* * *

«Qəmi-eşqə düşdün, ey dil, bu qəmin mübarək olsun,
Kədərin, bəlavü dərdin, ələmin mübarək olsun»[1].

Neçə yol «mübarək olsun» desələr bu dərdə azdır,
Neçə yüz mübarək olsun, neçə min mübarək olsun.

Təzədən varaq önündə əyilib başın, ey aşiq,
Yenə qüssədən yazırsan, qələmin mübarək olsun.

Gözünün yaşı mübarək ola qoy gözünlə birgə,
Gözünün nəmi çoxalmış ki, nəmin mübarək olsun.

Məni eşqi dərk edən gün dəli eylədin, a dünya,
Rəqəmin sayı çoxaldı, rəqəmin mübarək olsun.

Hədəri vəfa gəzirsən, yeri, ey cəfalı aşiq,
Daha tərk elə cahanı, qədəmin mübarək olsun.

İtirib yarı itirdin fərəhi, sevinci, Şahin,
Özünə sitəm verirsən, sitəmin mübarək olsun.

20.11.2002

* * *

«Həqbin nəzəri yoxsa, görməz məni hər kimsə,
Allahın üzün görməz xudbinsə əgər kimsə»[2].

---

[1] *Beyt Namiq Şəfainindir.*
[2] *«Həqbin nəzəri bayəd ta ruye-məra binəd,*
*Çeşmi ke bovəd xodbin key ruye-xoda binəd?»*
*Seyid İmadəddin Nəsimi*
*(Beytin tərcüməsi bu sətirlər müəllifinindir).*

Vardır zərəri hər gün əğyar kəsin eşqə,
Bir gün də ziyan eylər gər versə zərər kimsə.

Dərvişliyi öyrəndim mən dərviş olanlardan,
Dərviş ola bilməz ki, etməzsə səfər kimsə.

Səndən xəbərim yoxdur, ovcum dolu zər verrəm,
Səndən mənə, ey dilbər, eylərsə xəbər kimsə.

Tədric ilə olmuşdu, yarım, aramız şəffaf,
Yüksəltdi hasar kimsə, qaldırdı çəpər kimsə.

Əqlim ilə nisbətdə divanəliyim azdır,
Olmazsa əql görməz heç və'də zəfər kimsə.

Mən saf qəzəlin şahı, şahın qələmi – xəncər,
Söz söyləməsin, Şahin, qoy şahə hədər kimsə!
24.11.2002

* * *

«Mən nə məscid, nə rövzə, nə də minbər tanıdım,
Mən nə seyyid, nə dərviş, nə qələndər tanıdım»[1].

Şura dövründə bu cür söylər idi cahillər,
«Yoxdur Allah» deyən kəsləri kafər tanıdım.

Çox şükürlər ki, gəlibdir təzə əyyam bu gün,
Yenə peyğəmbəri hər müslimə sərvər tanıdım.

---

[1] *Beyt Namiq Şəfainindir.*

Məni Məcnunə bərabər tanıyırlar, gözəlim,
Sənisə, ey pəri, Leylayə bərabər tanıdım.

Çoxuna bəllisə də qiyməti mirvarilərin,
Zərşünasəm, səni mirvari deyil, zər tanıdım.

Pisliyin dəyməyəcəkdir mənə bir dəm, bilirəm,
Səni səndən gözəl, ey sevgili dilbər, tanıdım.

Dedi: - Şahin, səni şair tanıdım mən, həm də,
Sən ki zər qədri bilənsən, səni zərgər tanıdım.
5.12.2002

* * *

Səsləməkdən o gülü oldu yenə dil yarə,
Olacaq, zənn edirəm, yalvarışımdan çarə.

«Öldürəndir, - dedilər, - aşiqini ol dildar,
Qoy desinlər mənim aşiqliyimi dildarə»[1].

Diz çöküb yalvarıram, burda təəccüblü nə var –
Yara aşiq olan eşq əhli gərək yalvarə.

Şeyxəna, bir neçə təltifə olubsan nail,
Olmusan şöhrəti üçün bu günün avarə.

Əgər inkar edəcəksənsə bu gündən bu günü,

---

[1] «Yar guyənd ke darəd səre-aşeq koştən,
Xəbəre-aşiqiye-mən berəsanid be yar».
Kamal Xocəndi
(Beytin tərcüməsi bu sətirlər müəllifinindir).

Mən dünəndən bu günü başlamışam inkarə.

Ey Xocəndi, daha ölmək diləyir Şahin həm,
«Qoy desinlər mənim aşiqliyimi dildarə».

7.12.2002

* * *

Çoxdandı mənim yanıma, ey can, səfərin yox,
Qoydun məni min bir xətər içrə, xəbərin yox.

Qeyb eyləmisən gündüzü, yoxdur sənə axşam,
Zülmət gecədir mənzilin indi, səhərin yox.

«Yoxdur xəbərim zərrə də, ey yar, özümdən,
Amma, xəbərim var ki, məndən xəbərin yox»[1].

Qoydun bu cahanın qəmini bizlərə, getdin,
Yoxdur kədərin, yox qəhərin, dərdi-sərin yox.

Yaz, ey bu qəzəl sahibi, dövrün sitəmindən,
Cahil önünü kəsməyə səddin, çəpərin yox.

Şahin, yeni «Divan»ı yazıb bəxş elə xəlqə,
Çoxdandı sənin «Divan» adında əsərin yox.

9.12.2002

---

[1] *«Əz xod xəbərəm nist şəb-o ruz, leykən*
*Darəm xəbər əz to ke, ze mən bixəbəri to»*
*Məsud Səd Lahuri (XI əsr)*
*(Beytin tərcüməsi bu sətirlər müəllifinindir).*

* * *

Məst etdi məni yar, özü məstanəyə döndü,
Şəm'əm, oduma yanmağa pərvanəyə döndü.

Gördüm üzünün rəngini gülşəndə çiçəkdə,
Yarım, saçının ətri sənin nanəyə döndü.

Köhnəlmədə əfsanəsi Leyla ilə Qeysin,
Eşqim görəcəklər təzə əfsanəyə döndü.

Əğyar üzünü saqiyə tutmuşsa da, amma
Aşiq nəzəri şövq ilə cananəyə döndü.

Bülbüldə qızılgüllərə baxmaq odu yandı,
Bayquş isə, əlbəttə ki, viranəyə döndü.

Dünyanın işindən hələ baş açmayıram mən,
Çox doğmalarım var idi biganəyə döndü.

«Məscid adına düşdü evindən yola zahid,
Əydi yolunu gizlicə, meyxanəyə döndü»[1].

Çoxdandı kitabxanəyə getmir qoca Şahin,
Çox yazdı kitab, qəlbi kitabxanəyə döndü.

18.12.2002

* * *

«O gün kim, həsrət ilə ol büti-zibadən ayrıldım,
Qalıb bir surəti-bihiss kimi mə'nadən ayrıldım»[1].

---

[1] *Beyt Cəlal Məhəmmədi Təbrizinindir.*

Sənin dərya qəmin vardı, özün getdin, qəmin qaldı.
Olub bir qətrə su uçdun, dedin «dəryadən ayrıldım».

Qəza hökm etdi bir beytin iki misrası ayrıldı,
İki misra neçin beyt olmadı, misradən ayrıldım.

Həqiqətdən ayırmışdı məni xülya təmənnası,
Həqiqət şövqünə düşdüm deyə xülyadən ayrıldım.

Mənim sevda yolumda bərqərar olmuş bugün zülmət,
Daha sevdayə düşməkdən genəm, sevdadən ayrıldım.

Sədaqətdə, nəzakətdə mənim tənha nigarımdı,
O gün tənhalığım başlandu ki, tənhadən ayrıldım.

Onu dünya ayırdı büsbütün məndən, təlaq etdi,
O gündən sonra mən həm, Şahina, dünyadən ayrıldım.

8.02.2003

* * *

Ölkə var qul sultanından yaxşıdır,
Var tikanı reyhanından yaxşıdır.

Görsə hər canan səni söylər mənə:
Hansı canan cananından yaxşıdır?

«Dərdi ver, amma ki, dərman eyləmə,

---

[1] *Beyt İrana gedib şahzadə Abbas Mirzə Qacarın şəxsi yavəri olmuş Qarabağ şahzadəsi Əbülfət xan Tutinindir (1766-1839).*

Çünki, dərdin dərmanından yaxşıdır»[1].

Cansız idim, sən mənə can vermisən,
Hansı can var ki, canından yaxşıdır?

Hicrinin həm həzzi vardır, kim deyir
Kim, vüsalın hicranından yaxşıdır?

Fərmanın var xahişindən mötəbər,
Xahişin var fərmanından yaxşıdır.

Qoç tədarük eyləmə qurbanlığa,
Şahinin var qurbanından yaxşıdır!

23.02.2003

* * *

*«Zəmanə halidir, Vaiz, həya eylə həyasızdan,*
*Həyasızla həyasızlıq edəcək halımız yoxdur»*
*Vaiz Şirvani (XIX əsr)*

Neçin, Rəbbim, bu aləmdə bugün xoş halımız yoxdur?
Neçin göz yaşımız vardır, neçin dəsmalımız yoxdur?

Kədər batmansa da, misqal ağırlıqda sevincim yox,
Neçin batmanımız çoxdur, neçin misqalımız yoxdur?

Bizik tay-tay çəkən qəm yükləri, amma tükənmir qəm,
Gələrmi öylə bir gün ki, deyək hambalımız yoxdur?

---

[1] *«Dərd bər mən riz-o, dərmanəm məkon,*
*Z-anke dərde-to ze dərman xoştərəst»*
*Şeyx Fəridəddin Əttar (XII-XIII əsrlər)*
*(Beytin tərcüməsi bu sətirlər müəllifinindir).*

Dünən cəng oldusa zahir, bu gün cəncal olur peyda,
Sabah söylərmi insanlar bu gün cəncalımız yoxdur?

Hanı məfkurəmiz ali, hanı amalımız ülvi,
Məgər məfkurə qeyb olmuş, məgər amalımız yoxdur?

Bu tale qisməti olmuşmu, ya iqbal payıdırmı?
Küsübdürmü məgər tale, məgər iqbalımız yoxdur?

Əgərçi saqqalın vardırsa da, keçmir işin, Şahin,
Bu gündən sonra gəl söylənmə ki, saqqalımız yoxdur.

*Lənkəran,*
7.03.2003

* * *

*Me'mara!*

Olur göz yaşlarım, yarəb, şərab ahəstə-ahəstə,
Ciyər olmaqdadır hər dəm kəbab ahəstə-ahəstə.

Müdam, əlbəttə, halımdan xəbərdar idi hal əhli,
Məni bihal edibdir iztirab ahəstə-ahəstə.

Bu dünyadə cəfa haqda, o dünyadə cəza haqda,
Sual şiddətlə yağmaqda, cavab ahəstə-ahəstə.

Bu gözlər yaş verir tez-tez…o gözlər yaş verir tez-tez…
Günahlar baş verir tez-tez, səvab ahəstə-ahəstə.

Düzəlmir qəmli əhvalım gülü pəjmürdə gördükdə,
Düzəlt, ey bağiban, güldən gülab ahəstə-ahəstə.

«Sarayın sahibi yoxdursa, me'marı demək yoxdur,

Olar qəlb olmasa sevda xərab ahəstə-ahəstə»[1].

Kənar ollam müsibətdən yəqin sürətlə inşallah,
Yazar Şahin səadətdən kitab ahəstə-ahəstə.

11.03.2003

* * *

*«Gecənin çadrasını mən də cırardım ay tək»*[2]
*Şəms Təbrizi*

Gecənin çadrasını cırmadasan ay təki,
Və susuz qəlbimə üz tutmadasan çay təki.

Əbədi heç nə deyildir bilirəm mən şəksiz,
Bəxş olubsan mənə amma əbədi pay təki.

İstərəm saqi ola, tar ola, sirdaşlar ola,
Toplaşa məclisimiz indi qurultay təki.

Yaxşılardan ötəri yollar açıqdır, lakin
Kəsmək istər önümü çox yaramaz lay təki.

Bütün əğyarlərə həmlə edibdir Şahin,
Özümü sanmamışam onlara həmtay təki.

19.04.2003

---

[1] *«Sərayi-ra ke sahib nist vey-ra nist me'marəş,*
*Dele-bieşq migərdəd xərab aheste-aheste»*
*Saib Təbrizi*
*(Beytin tərcüməsi bu sətirlər müəllifinindir).*

[2] *«Mən ço mah çadere-şəb mibedəridəm həme şəb»*
*(Beytin tərcüməsi bu sətirlər müəllifinindir).*

## Əbülqasim Firdovsiyə təzminlər
## I

«Gəl, ey sanei-nurü nar, afərin,
Ola sün'ünə səd hezar afərin»[1].

Sən ey göylərə qaldıran yerləri,
Edən ulduzu bərqərar, afərin.

Sən ey tacsıza tacı bəxş eyləyən,
Sən ey taclıya tacidar, afərin.

Sən ey alimə elmi təlqin edən,
Sən ey hakimə hökmdar, afərin.

Sən ey etməyən həzzi yox, mərhəba,
Sən ey eyləyən dərdi var, afərin.

Baxıb görmürük çox zaman dağı da,
Sənə zərrə də aşikar, afərin.

Yaratdın neçə iftixar əhlini,
Özünsən yenə iftixar, afərin.

Sən etdin bizi bəndə söz mülkünə,
Sən oldun şəhə şəhriyar, afərin.

Çağır Şahini vəslinə, dözməyir,
Onu üzmədə intizar, afərin!

10.05.2003

---

[1] *Beytin tərcüməsi Mirzə Ələkbər Sabirindir.*

## II

«Cahanda ahusuz yoxdur bir insan,
Nə var aşikarə, nə vardır nihan»[1].

Sən ey ahu gəzən çöllərdə, bəsdir,
Suvardı çölləri bəsdir qızıl qan.

Neçin möhtac olubdur qın qılınca?
Neçin vardır yenə əllərdə qalxan?

Bu aləmdə haçan görrük, İlahi,
Nə tüğyan var, nə tufan var, nə üsyan?

Neçin rahətliyin imkanı yoxdur?
Tükənmişdir məgər aləmdə imkan?

Min ildir bülbülün fəryadı vardır,
Neçin solğun olubdur çox gülüstan?

Pərişandır deyə dünya bu Şahin
Pərişandır, pərişandır, pərişan.

* * *

Qeyrəti canda əgər olsa səfərbər kişinin,
Dura bilməz qabağında dənilər ər kişinin.

Bağibantək bağının qırsa alaq otlarını,

---

[1] *«Bi ahu kəsi nist əndər cəhan,*
*Çe dər aşikara, çe əndər nihan»*
*Əbülqasim Firdovsi*
*(Beytin tərcüməsi bu sətirlər müəllifinindir).*

Üzünə müjdə gülü onda gülümsər kişinin.

«Əli vurmaq ələ, əlbəttə ki, arvad işidir,
Əli xəncərdə olar mərəkədə hər kişinin»[1].

Kəsə bilməzsə əgər xəncəri əğyar əlini,
Yaxşıdır öz əlini doğraya xəncər kişinin.

Əqrəbin neştərinin qarşısını almazsa,
Bata öz canına əqrəbdəki neştər kişinin.

Hacı Seyyid Əzimin sevgisi vardır məndə,
Canıma mehri dolub Mirzə Ələkbər kişinin.

Şahinin gözləri söz gəzmədə zər timsallı,
Gözü zər gəzməlidir daima zərgər kişinin.

4.07.2003

* * *

«Yenə naşad könlüm buldu yüz yerdən məlal, ağlar,
Rəvan eylər iki gözdən dəmadəm əşki-al, ağlar»[2].

Xəyalım yardən əvvəl həyatın tərkin etməkdi,
Başımda çox xəyalım var idi, heyfa, xəyal ağlar.

Mənim tənhalığım peyda olan dəmdən ciyərqanəm,
Görüb canım fələkdən tək qalan gündən zaval, ağlar.

---

[1] *«Dəst bər dəst zədən kare-zənanəst, zənan,*
*Mərd dər mərəke coz tiğ do dəsti nəzənəd»*
*Taleb Ameli*
*(Beytin tərcüməsi bu sətirlər müəllifinindir).*

[2] *Beyt Molla Vəli Vidadinindir.*

Dünən ayə baxıb gördüm ki, dolğundur, bu gün isə
Hilalə döndü ay göydə, xəyal etdim hilal ağlar.

Yapışmışdır kədər qəmdən, kədərdən qəm kənar olmur.
Dəmadəm göz yaşı tökməkdədir qüssə, məlal ağlar.

Dönübdür Şahinin bəxti, əzib tale o xoşbəxti,
Çəkir həzz daima hicranı, amma ki vüsal ağlar.

6.08.2003

* * *

*«Vidadi xəstə, gəl ədnasifət dünyayə meylə etmə,*
*Qıl əqlin var isə tərkin, bu dünyadən nə istərsən?»*
*Molla Vəli Vidadi*

Ey aşiq, eşqi tərk eylə, bu sevdadən nə istərsən?
Müəmma açmağa cumma, müəmmadan nə istərsən?

Xurafatə könül vermə, cəfəngiyyatə baş qoşma,
Gözün gerçəkliyi görmürmü, xülyadən nə istərsən?

Təmənna eyləmə ilham pərisindən müdam ilham,
Təmənna meylinə düşmə, təmənnadən nə istərsən?

İşin Yerdə qəzəl yazmaq olubdur, bax Yerə daim,
Baxıb ulduz çıxan səmtə Sürəyyadan nə istərsən?[1]

Oxu göydən gələn hər dörd kitabı al cavab, ey dil,
Məhəmməddən nə istərsən, Məsihadən nə istərsən?

---

[1] *Sürəyya «Yeddi qardaş» və «ülkər» pleyadasına verilən ümumi bir istilahdır.*

Gözüm səhra gəzir, Şahin, anıb Məcnuni hər yerdə
O səhradən nə istərsən, bu səhradən nə istərsən?

7.08.2003

* * *

«Eyb etməgilən sən kimi canana yanında
Ac yatsam əgər quş kimi mən danə yanında»[1].

Aşiqdə əgər eşq odu sönsə qoca vaxtı,
Rüsvay eləmə aşiqi biganə yanında.

Mərdanəliyin var isə insaf elə mərdə,
Mərdanə qalar, bəlli ki, mərdanə yanında.

Pərvanəyə dön amma alışma, yarına həm
Qoyma alışıb şəm' təki yanə yanında.

Meyl olsa əgər səndə də, yarında da hərgah,
Yarın çatacaq şövq ilə imkanə, yanında.

Məstanəni məstanəliyə etmə tamarzı,
Məstanə gərək məst ola məstanə yanında.

Könlümdə nələr yoxdu…Kitabxandi könlüm,
Qartal kimi göz səndə, kitabxanə – yanında.

Canan dedi: - Divanə bilirlər onu təkcə,
Qeys kimdi bu Şahin kimi divanə yanında?

8.08.2003

---

[1] *Beyt Mirzə Möhsün Xəyalinindir (1824-1904).*

* * *

Bircə yol gəlmisən, ey sevgili dilbər, yenə gəl,
Üzünü aşiqinə gül kimi göstər, yenə gəl.

Gülləri eşqimizin gözləmədə əllərini,
Gəlibən eşqimizin güllərini dər, yenə gəl.

Özümü mən ki, səməndər düşünürdüm, yandım,
Gəl ki, yansın oduna bir də səməndər, yenə gəl.

Gəl ki, şe'r ilə qələm dəftərimi doldursun,
Gəlməsən, dolmayacaqdır yenə dəftər, yenə gəl.

«Çəkərəm xəncəri-almas özümü öldürrəm»[1],
Razı olma qana qəltan ola xəncər, yenə gəl.

Bilmişəm qədrini, ey gül, bunu sən bilmişsən,
Gəl ki, zər qədrini bilsin yenə zərgər, yenə gəl.

Daha əvvəlki təki zabitəli sanma məni,
Zabit ol Şahinə, Şahin sənə əskər, yenə gəl.

18.09.2003

* * *

*«Ey Səlim, eşqdə məndən giley etmək olmaz,*
*Xəbərim yoxdur özümdən, bunu Allah bilir».*[2]

---

[1] *Misra Mirzə Əli Möcüzündür.*
[2] *«Dər məhəbbət cele əz ma nətvan kərd, Səlim,*
*Xəbər əz xiş nədarim, Xoda agahəst»*
*Səlim Tehrani (XVII əsr)*
*(Beytin tərcüməsi bu sətirlər müəllifinindir).*

Gözümün üstünü yarım ki qədəmgah bilir,
Gözüm üstdə yeri vardır, bunu Allah, bilir.

Daima ah edirəm köhnəpərəst gördükdə,
Mən nələr çəkmələyəm qüssə bilir, ah bilir.

Köhnə sözlər təzə şe'rin nəyinə lazımdır?
Bunu gah bilməsə də qeyriləri gah bilir.

Şərqşünasəm, bilirəm mən də qəliz söz, amma
Xəlqi söz söyləyəni xəlq xeyrxah bilir!

Neçə şair ki yazır tazə qəzəllər, Əhsən!
Bu qəzəl sahibi ol kəsləri agah bilir.

Köhnə tərz ilə yazanlar qəzəli bilsinlər:
Şahini çoxları indi qəzələ şah bilir!

20.09.2003

* * *

İçən eşqin meyini biz elə məstanələrik,
Saqi, meyxanədə olmaz bizə məstanə şərik.

Görürük şəm yaxır odlara pərvanələri,
Biz isə şəmi yaxan odlara pərvanələrik.

Öyməsin Qeys özünü «təkcə odur divanə»,
Biz də sevdayə düşəndən bəri divanələrik.

Gözəlim, köhnə nağıllar bizi bezdirmişdir,
Köhnə əfsanə eşitmə, təzə əfsanələrik.

Heç zaman eyləmərik, bəlli ki, namərdə rəhm,
Mərdə qurban edərik canı ki, mərdanələrik.

«Qoymarıq yadları, Valeh, qoya bu bəzmə qədəm,
Biz bu dərgahdə biganəyə biganələrik»[1].

Zərrəbin ilə də cahil kəsi görməz Şahin,
Biz pəsənd eyləməyən şahı da şahanalərik.

23.09.2003

* * *

*«Tələb qıldım təbibimdən dəva, döndərdi üz məndən,*
*Bu iş kim, aşinadan verdi üz, biganədən çıxmaz»*
*Qasım bəy Zakir*

Təmənna etdiyim sözlər neçin cananədən çıxmaz?
Hərarət şəm'dən çıxdı, məgər pərvanədən çıxmaz?

Meyi nuş eylədikcə huşi artır hüşyar əqlin,
Əgər zahiddə əql olsa, gələr, meyxanədən çıxmaz.

Xəbərsizlər neçin məstanə söylər saqiyə, yarəb,
Edir saqi nə xoş xidmət!..Bu iş məstanədən çıxmaz.

Mənəm əfsanə dövranə bugün, amma təəssüf ki,
Hər əfsanə deyən şəxsin başı əfsanədən çıxmaz.

Əgər mərdanələr gəlsə, açılsın qoy qapım tay-tay,
Qəbahətli əməllər heç zaman mərdanədən çıxmaz.

Qəzəl mülkündə sərdarəm, əcəb şahanə şair var!

---

[1] *Beyt Mahmud Dəstpiş Valehindir.*

Mənəm divanə, divanə məgər şahanədən çıxmaz?

Dedi dilbər: - Bu sözlər ki, çıxır qəlbindən, ey Şahin,
Çıxar aqil adamdan, heç zaman divanədən çıxmaz.
24.09.2003

* * *

«Qılmış məni eşq atəşi rüsva, xəbərim yox,
Məndim demə sərgəşteyi-səhra, xəbərim yox»[1].

Daldım gecə gündüz qəzəl uğrunda xəyalə,
Divanə edibdir məni xülya, xəbərim yox.

İllərlə üzüldü ürəyim sevgi yolunda,
Sevda mənə zülm eylədi, amma xəbərim yox.

Getməkdə yaşım yetmişə doğru, nə tez oldu?
Ömrüm nə sayaq ötdüsə, heyfa, xəbərim yox.

Mən zahidi gördüm neçə yol şərbət içəndə,
Zahid mey içirsə mənim əsla xəbərim yox.

Məcnun kimi illər boyu Leyla aradım mən,
Dikmiş gözünü Məcnuna Leyla, xəbərim yox.

Dünyayə vida eylə və sus, ey qoca Şahin,
Məndən cavan imiş qoca dünya, xəbərim yox.
13.10.2003

---

[1] *Beyt Fəxrəddin Salimindir.*

* * *

«Ey dil, yenə həsrət rüxi-dildarə qalıbsan,
Hicranın əlindən yenə avarə qalıbsan»[1].

Məhbus eləyibsən özünü evdə, ey aşiq,
Həsrət bağa, baxçayə, çəmənzarə qalıbsan.

Me’marın əli vəsl ipini açdı apardı,
Amma, yenə sən bağlı o me’marə qalıbsan.

Ey qəlb, bütövdün, daha yox səndə bütövlük,
Getmiş deyə dilbər ürəyi parə qalıbsan.

Ey bəxt, pərişan dayanıbsan qabağımda,
Sən çarəsi yox çarəsizə çarə qalıbsan.

Rica eləyirsən ala canın, ala bilmir,
Əzrailə sən yalvara-yalvarə qalıbsan.

Yummuş gözünü yar, gözün amma açıqdır,
Şahin, gözünü yum ki, üzü qarə qalıbsan.

14.10.2003

* * *

«Mən sevməmişəm sevgili cananımı birdən,
Eşq atəşinə salmamışam canımı birdən»[2].

Təmkin ilə, tədric ilə, aram ilə yazdım,

---

[1] *Beyt Fəxrəddin Salimindir.*
[2] *Beyt Fəxrəddin Salimindir.*

Mən yazmamışam bir neçə dastanımı birdən.

Eşq elmini öyrənməyə illər gərək olmuş,
Mat etməmişəm dərsimə loğmanımı birdən.

Aşiqləri tədric ilə cəlb eylədi könlüm,
Göndərməmişəm heç kəsə fərmanımı birdən.

Əğyarı ki, təqsirli idi, çarmıxa çəkdim,
Ərz eyləmədim heç kimə üsyanımı birdən.

Narazı olanlar məni qoy əfv eləsinlər,
Mən görməmişəm səhvimi, nöqsanımı birdən.

Birdən-birə bağlanmamışam mən ki vüsalə,
Mən sevməmişəm, ey pəri, hicranımı birdən.

Hər müşkülə imkanımı tədric ilə gördüm,
Mən görməmişəm bir neçə imkanımı birdən.

Canan dedi: - Sevdim mən isə ilk baxışdan,
Şahin kimi bir xəlqi qəzəlxanımı birdən.

15.10.2003

* * *

*«Sən vüsalından xoş olsan mən də hicrandan xoşam»*
*Şəfi Əzhər Ərdəbili*

Can dolubdur eşqin ilə, cananım, candan xoşam,
Çəkdiyim gündüz-gecə fəryadü əfğandan xoşam.

Hər günün bir yanı zülmətdir, digər yanı işıq,
Çökdü bir yandan qaranlıq, amma bir yandan xoşam.

Öz xoşumla girmişəm mən sevginin zindanına,
Qaçsam ordan öldürərlər, mən bu zindandan xoşam.

Qönçə qalsa gər libasında, gülüm, gül görmərik,
Asi ol, ey qönçə, cır paltarı, üsyandan xoşam.

Qoy qovursunlar məni buğda kimi Həvva üçün,
Qoy üyütsünlər məni dən tək, dəyirmandan xoşam.

Bir baxış, xoş bir təbəssüm dərdimə dərman olar,
Dərdimin dərmanını lütf et ki, dərmandan xoşam.

Eyləyir təsdiq Şahin Əzhərin misrasını:
«Sən vüsalından xoş olsan, mən də hicrandan xoşam».
26.11.2003

* * *

«Dəryayə baxıb, sevgili yarım, səni görrəm,
Səhrayə baxıb, nazlı nigarım, səni görrəm»[1].

Göstərsən əgər sən mənə zər, görmərəm əsla,
Ey sərvətim, ey dövlətü varım, səni görrəm.

Ovlağə çıxandan bəri ovsuzdu bu ovçu,
Ey ahu, ey istəkli şikarım, səni görrəm.

Gördüm səni, ey sevgili Həvva, havalandım,
Mən bir də haçan, ey havadarım, səni görrəm?

[1] *Beyt Abbas Səhhətindir.*

Ey dar ağacım, kəndirə möhtac başım var,
Ey başsız olan kəndirü darım, səni görrəm.

Heç yandə lə'lin görə bilməz daha Şahin,
Ey lə'lim olan şanlı diyarım, səni görrəm.

20.12.2003

* * *

«Çəkməzəm qəm töksə qanım tiği-bürranın sənin,
Vəhmim ondandır ki, pürxun ola damanın sənin»[1].

Sən ki yoxsan, qəflətən dəydim yerə həmmamdə,
Gəlmədin ki, barı yetsin yarə imkanın sənin.

Hökmü yox, fərmanı yoxdur ağrının əncamına,
Qul təkin aciz olub çünki bu sultanın sənin.

Bir qabırğam çatlayıbdır, parələnmiş başqası,
Ey qəzəlxan, var imiş təqsirü nöqsanın sənin.

Ey nigarım, harda qaldın, gəl ki getsin intizar,
Dərdimə versin şəfa qoy bir də dərmanın sənin.

Qonşular dəng oldular qalxdıqca əfğanım göyə,
Duymayırdım mən səni çıxdıqca əfğanın sənin.

Mübtəla olsam da sağlam səhhətin hicranına,
Cismimi bundan betər üzməkdə hicranın sənin.

Şahina, nikbinliyindən qalmayıbdır bir əsər,

---

[1] *Beyt Məhəmməd Füzulinin «Hədiqətüs-süəda» əsərindəndir.*

Ağrımaqda ləhzə-ləhzə, anbaan canın sənin.

15.02.2004

*Qabırğamın sınmasının 8-ci günü*

* * *

«Birdən düşüb öldüm, bunu dildar nə bilsin?
Qürbətdə ölüb-qaldığımı yar nə bilsin?»[1]

Yoxdur buna şəkkim o mənim dərdimi bilmir,
Gər eyləməsəm dərdimi izhar, nə bilsin?

Dünyadəki qumlar nə qədərdirsə bilən yox,
Qumlar qədəri bəlkə qəmim var, nə bilsin?

Sındıqda ağacın budağı görməmək olmur,
Qəlbim ki, sınıbdır, bunu me'mar nə bilsin?

Gər bilməsə Mənsurə gələn ağrını cəllad,
Kəndir nə təhər dərk eləsin, dar nə bilsin?

Eşq içrə vəfa olduğunu yaxşı bilir yar,
Eşq içrə vəfanı axı əğyar nə bilsin?

Şahin, nə gözəl yazdı bu misranı o Arif:
«Birdən düşüb-öldüm, bunu dildar nə bilsin?».

8.03.2004

* * *

«Ol gülyanağın zülfi-pərişanı uzundur,

[1] *Beyt Vidadi Arifindir.*

Zülfündən uzun möhnəti-hicranı uzundur»[1].

Mən çarəsizin çarəsi yoxdurmu, İlahi,
Hicrin niyə hər ləhzəsi, hər anı uzundur?

Həzzin nə səbəbdən qısadır möhnəti böylə?
Dərdin nə üçün bir belə dövranı uzundur?

Fərhad neçin layiqi oldu qısa ömrün?
Qeysin niyə səhravü biyabanı uzundur?

Tanrım, fələyin paltarını biç mütənasib,
Bir yanı gödəkdirsə, digər yanı uzundur.

Neyçün bu qəzəlxanı bu gün az tanıyırlar?
«Min bir gecə»dən bəlkə də dastanı uzundur.

«Divan»ını Eşqin qısa yazmaqdan uzağəm,
Qoy söyləməsinlər niyə «Divan»ı uzundur?

Uyğunmu «uzundur» desə «çoxdur» əvəzində:
Uyğunsa əgər, Şahinin imkanı uzundur!
9.03.2004

* * *

Hicranı unutdun niyə? Ey can, tələb eylə,
Tərk eylə vüsalı, yenə hicran tələb eylə.

Allahdən, əlbəttə, tələb eyləmək olmaz,
Gər razı ola, qətlinə fərman tələb eylə.

---

[1] *Beyt Vidadi Arifindir.*

Məqsud fəqət «istə» deməkdir tələbimdən,
Ünvanı dəyişdir, təzə ünvan tələb eylə.

«Ey bülbüli-qüdsi, nə giriftari-qəfəssən,
Sındır qəfəsi, tazə gülüstan tələb eylə»[1].

Nakəslərə heç vədə güzəşt eyləmək olmaz,
Asilik elə, düşmənə üsyan tələb eylə.

Qaz səngəri, qoy yağilərin qəbri qazılsın,
Et həmləni, at gülləni, meydan tələb eylə.

Nərlər kini öyrənməlidir nər dəvələrdən,
Ərlər «qana qan» söylədilər, qan tələb eylə.

Yıxdın yerə, kəsdin başını, varmı çətinlik?
Qoç yox, özünü qoç kimi qurban tələb eylə.

Azadəliyin bitsə əgər etmə tərəddüd,
Ey Şahini-Fazil, yeri, zindan tələb eylə.

13.03.2004

* * *

Yaxşılıq eyləməsən sanma yaman ollam mən,
Yenə Şahin sayağı, bil ki, əyan ollam mən.

«Məni dünya qəmi, söz yox ki, qocaltdı, nə qəmim,
Olsa bəxtim mənə yar bir də cavan ollam mən»[2].

---

[1] *Beyt İmadəddin Nəsiminindir.*
[2] *«Qəme-dovrane-cəhan kərd məra pir, çe qəm,*

İstəyiblər ki sınam, sınmamışam yar kimi,
Neçə əğyar oxuna gərçi nişan ollam mən.

Əgər asudəliyim olmasa Eşq mülkündən,
Ey nigarım, gecə-gündüz nigaran ollam mən.

Ruhdən mən yenə düşdüm bu fəna aləmdə,
Mənə ruh olsan əgər sən, sənə can ollam mən.

Nəfsi tox, qəlbi geniş, könlü açıq, niyyəti saf –
Mən həmanəm ki, həmanəm və həman ollam mən.

Hanı Firdovsi, Füzuli, hanı Vurğun, Vahid?
Yetişər gün ki, həmin yolla rəvan ollam mən.

Çatmışam mən qocalıq dövrümə, Allah qoysa,
Şahina, bir qocayam ki, qocaman oolam mən.

26.03.2004

* * *

*Tamrida Maqsud qızına!*

«Eşq meydanında can vermək deyil ar, ey könül,
Can verib məqsudə yet gər himmətin var, ey könül»[1].

Himmətim vardırsa da, məqsudə yetmək çox çətin,
Çünki Məqsudin qızı etmiş məni zar, ey könül.

---

*Bəxt əgər yar şavəd, baz cəvan migərdəm».*
*Salman Saveci*
*(Beytin tərcüməsi bu sətirlər müəllifinindir).*
[1] *Beyt Məhəmməd Füzulinin «Hədiqətüs-süəda» əsərindəndir.*

Çünki Məqsudin qızı tərk etdi Şahin Fazili,
Taleyimdirmi günəhkar, mən günəhkar, ey könül?

Yarımı qeyb etdiyim gündən könülsüz qalmışam,
Könlümü çəkmiş aparmış torpağa yar, ey könül.

Qalmışam tənhavü yalqız, çarəmi Allah kəsib,
Çarəsizlikmiş edən insanı naçar, ey könül.

Dərdlərindən çox yazıb ifratə varma, Şahina,
Dərd bir olsaydı dərdim nəydi, çox var, ey könül.

* * *

«Tökmə rüxsarına zülfü, çək onu yanə bu gün,
Qorxuram ki, olar odlarə düşə, yanə bu gün»[1].

Açma kipriklərini, yum, ciyərim qan oldu,
Məni salmaq diləyin var deyəsən qanə bu gün.

Bürüyübdür evi başdan-başa zülfün qoxusu,
Deyəsən bağda deyil, evdə bitib nanə bu gün.

Meypərəstər sayağı indi mey içmək dilərəm,
Qədəhə süzmə meyi, süz onu fincanə bu gün.

Dil şəkərdir, dodaq ondan da şəkər, dildarım,
Tutinin diqqəti qonmuş şəkəristanə bu gün.

Mənə divanə deyənlərdə ağıl görmürdüm,

---

[1] *Beyt Məhəmmədəli bəy Məxfinindir (XIX əsr).*

Deyəcək ağlı olan kəs mənə divanə bu gün.

Kərbəlayi, məşədi söyləməsinlər adıma,
Qoy desinlər sənə məst, Şahinə məstanə bu gün.

* * *

Xəbərə uyma, «xəbər xəstəliyi» çox yayılıb,
Səfərə çıxma, «səfər xəstəliyi» çox yayılıb.

Arabir fikr edirəm mən ki, hicab – lazımdır!
Üzünü gizlə, nəzər xəstələiyi çox yayılıb.

Bağiban, göylərə qaldır çəpəri, var oğru,
Oğrular içrə «çəpər xəstəliyi» çox yayılıb.

Sevgidən zər kimi sözlər danışırsan, gözəlim,
İndi bildim niyə zər xəstəliyi çox yayılıb.

Ürəyim oldu kabab, üstünə səpmirsən su,
Ciyərim yandı, ciyər xəstəliyi çox yayılıb.

Qüssə – yüz, ah min oldu, kədərim – miqdarsız,
Qüssəvü ahü kədər xəstəliyi çox yayılıb.

Şahina, düz yazıb Arif dodağından yarın:
«Dodağındaandı şəkər xəstəliyi çox yayılıb»[1].

17.05.2004

* * *

*«Kim ki çaşıb mən kimi sevsə o gülçöhrəni,*

---

[1] *Misra Vidadi Arifindir.*

*Əvvəlini bilmirəm, axırı avarədir»*
*Vidadi Arif*

Görmürəm ağ rəngini, gərçi günüm qarədir,
Eşq həmin dilbərə, meyl o dildarədir.

Qeys düşüb çöllərə, dağlara Fərhad isə…
Mənzili əsl aşiqin bilməyirəm harədir.

Gərçi göyə çıxmayır, gərçi yuyur torpağı,
Göz yaşımı hər görən söylədi: Fəvvarədir!

Meylə düyün vurmuşam, istəyi dondurmuşam,
Şövq haçandan bəri kəndirədir, darədir.

Ruh uçur, cism ölür, qəbrimi hazırlayın,
Qəlb bitişmir daha, qəlb sınıb, parədir.

Çarə tapa bilmirəm mən ki ölümdən səva,
Qoy ki desinlər daha Şahinə «biçarədir».

23.05.2004

* * *

*«Bir qarış torpaqdan ötrü bir diyar əldən gedər»*
*Seyid Nigari (1795-1886)*

Heç zaman fikr eyləməzdim mən ki yar əldən gedər,
Yar getsə, bilməz idim hər nə var əldən gedər.

Hər dəmimdən həzz alardım, hər dəqiqəm fəxr idi,
Əllərimdən hər dəqiqə iftixar əldən gedər.

Yox ayağın ixtiyarı bağçanı onsuz gəzə,

Yar əldən getdiyindən ixtiyar əldən gedər.

Yar ilən dilbər diyarın fikri zar etmiş məni,
İntiqam alsam ədudən ahüzar əldən gedər.

Ağdamımda iqtidarım var idi, əldən gedib,
Bilməz idim Xan Şuşamda iqtidar əldən gedər.

Yar getdi, üstəlik həm Qarəbağ yad əldədir,
Ya Əli, kəs yad əli ki, zülfüqar əldən gedər.

Şahina, düşmənlərim qoy hali olsun haldən:
«Bir qarış torpaqdan ötrü bir diyar əldən gedər».
2.06.2004

* * *

Səndən özgə bir pəri həm var ki, heyrandır mənə,
Sən də canımsan mənim, yox şəkk o həm candır mənə.

Artırırsan şövqümü gündən-günə sən də, o da,
Sən də loğmansan, o həm çox dərdə loğmandır mənə.

Bəndəyəm mən, siz iki hakimsiniz mən bəndəyə,
Sən də sultansan, o həm, əlbəttə, sultandır mənə.

Mərhəba, ilham pərisi söyləyiblər isminə,
Bəlkə də ömrüm boyu istəkli mehmandır mənə.

«Ahuzarımdan fələk sərgəştədir, amma ki sən
Bir deməzsən «başım ağrıtdın, nə əfğandır» mənə»[1].

---

[1] *Beyt Seyid Nigarinindir.*

Cümlə aşiqlər vüsalından nigarın şad olur,
Mən də öylə, amma nə'şə həm də hicrandır mənə.

Yaxşı kafər pis müsəlmandan çox üstün Şahinə,
Fərqi yoxdur namüsəlmandır, müsəlmandır, mənə.

6.06.2004

* * *

Aşiqin yanmağına, yarım, inandım sənsiz,
«Tutuşub ahi-cigərsiz ilə yandım sənsiz»[1].

Düşünürdüm ki, sənin yoxluğuna can dözməz,
Varlığım verdi xəcalət və utandım sənsiz.

Düşünürdüm gələrəm mən də sənin ardınca,
Məni əfv eylə, bu dünyadə yubandım sənsiz.

Düşünürdüm yataram mən də sənintək əbədi,
Qaragün taleimi gör ki, oyandım sənsiz.

Fərli bir möhtəkir oldum bazarında eşqin,
Amma ki, həzzi satıb qüssə qazandım sənsiz.

Şam yanar, ev də yanar, bunları görmüş Şahin,
Aşiqin yanmağına, yarım, inandım sənsiz.

15.07.2004

* * *

*«Eşqdürür mayeyi-zatım mənim,*

---

[1] *Misra Seyid Nigarinindir.*

*Zövqdürür cümlə sifatım mənim»*
*Seyid Nigari*

Yarsız olmazsa nicatım mənim,
Yar deyildirmi həyatım mənim?

Bəstələdim bir neçə eşq nəğməsi,
Sevgi olubdur nəqəratım mənim.

Bir çoxunu çox hərəkat olsa da,
Cəlb eləyibdir hərəkatım mənim.

Seyr elədim Kə'bəni, Kə'bəm – Qubam,
Qudyal olub Dəclə-Fəratım mənim.

Saqqala əl çəkmədəyəm sidq ilə,
Rəbbə əyandır salavatım mənim.

Vermədəyəm gündə zəkat aləmə,
Bəxş eləmək eşq – zəkatım mənim.

Şahina, bitməzdi ömür saətim
Gündə qurulsaydı saatım mənim.

19.07.2004

* * *

*Me'mara!*

Kimdə zər varsa, əql yoxsa, o zər var deyil,
Və o kəs uyğuludur, zərrəcə hüşyar deyil.

Dostumun dostu ədu olsa deyil dost mənə,
Düşmənim öylə adamdır ki, vəfadar deyil.

«Talibi-arizi-dildarə həram oldu yuxu,
Deməsin aşiqəm ol mərd ki, bidar deyil»[1].

Xacəni, rahibi dildar maraqlandırmır,
Nə adamdır o ki, dildarə tələbkar deyil.

Mən xəbər tutmadayam çoxlarının halından,
Halətimdən hələ bir kimsə xəbərdar deyil.

Hələ keyfiyyətimiz gizli qalır gözlərdən,
Hələ şəxsiyyətimiz şəxslərə car deyil.

Şahina, çoxları me'mar eləyir zənn özünü,
Kim əgər yıxsa könül mülkünü me'mar deyil.

21.07.2004

* * *

«Həsrətinlə, sənəma, sinəmə dağlar çəkilib,
Yanmışam, ağlamışam, eynimə ağlar çəkilib»[2].

Düşmüşəm bir daha səndən aralı, dildarım,
Mən güman eyləyər idim ki, fəraqlar çəkilib.

Hanı get-gəl ki, düşübdür ayağım qüvvətdən,
Gedənim var, gələnim yox ki, ayaqlar çəkilib.

Bu bəyaz zülfümə yoxdur sığalın çoxdandır,
Əllərimlə o qara zülfə daraqlar çəkilib.

---

[1] *Beyt Seyid Nigarinindir.*
[2] *Beyt Seyid Nigarinindir.*

Marağım var idi elm öyrənibən şe'r yazım,
Ruhdən düşmüşəm, ey yar, maraqlar çəkilib.

Elə zənn eyləmə xoş keçmədə qürbətdə günüm,
Üstümə, bəzən olubdur ki, yaraqlar çəkilib.

Çəkilibdir ürəyim, Şahina, bəd çağlar var,
Hanı xoş çağlarım, Allah, o çağlar çəkilib.

14.08.2004

* * *

*«Səndən də gəlib gündə Süleymanə deyirlər»*
*Süleyman Rüstəm*

Biganələşib əhd ilə peymanə, - deyirlər,
Sevdanı unutmuş yenə canane, - deyirlər.

Fırlandığım üçün başına fırfıratək mən,
Hərdən mənə də, ey pəri, pərvanə deyirlər.

Söylə, niyə qəmgin görünürsən gözə, ey gül,
Qəmginliyini nərgizə, reyhanə deyirlər.

Cansızlaşıram onda ki, ruhdan düşürəm mən,
Sən ruhimi incitdiyini canə deyirlər.

Məntək sevənə olsan acı, ey şəkərim, bil,
Qırğın düşəcəkdir şəkəristanə deyirlər.

Qan ağladığımdan yaranır qan gölü məndə,
Canan salacaq aşiqini qanə deyirlər.

Yoxsa sənə mən barədə böhtan deyən olmuş?
Əlbət eləyirlər qələt, əfsanə deyirlər.

Sındım nəzər etcək, sınıxıbsan niyə böylə?
Əhvalını bu halı pərişanə deyirlər.

Canan dedi: - Dərd eyləyirəm, çünki gözümdə
Fazil görünən Şahinə divanə deyirlər.

19.08.2004

* * *

«Səba, lütf etdin, əhli-dərdə dərmandan xəbər verdin,
Təni-bicanə candan, canə canandan xəbər verdin»[1].

Pərişandım otaq içrə, açıldı pəncərəm birdən,
Çəməndən söhbət açdın, seyrü seyrandan xəbər verdin.

Mənim loğmanə ümmidim tükənmişdi, gümansızdım.
Canından əl çəkən bimarə loğmandan xəbər verdin.

Səba, gəldin və canandan verib müjdə dedin «gəldi»,
Nə göyçək müjdədir, Allah, mənə candan xəbər verdin.

Ayaqdan başədək, dilbər, gülüstandır bədən mülkün,
Gəzirdim bircə gül, lakin gülüstandan xəbər verdin.

Hayanda qalmış idin, qalmış idimmi xəyalında?
Pərişan bəndəyə, gəldin və sultandan xəbər verdin.

Sənin sayəndə imkan eylədim yazdım qəzəl min-min,

---

[1] *Beyt Füzulinin «Hədiqətüs-süəda» əsərindəndir.*

Qəzəllər gözləyən yurda qəzəlxandan xəbər verdin.

On üç il müddətində, Şahina, xəlqə edib xidmət,
Yazıb üç tazə divan tazə divandan xəbər verdin.

22.08.2004

* * *

*Me'mara!*

«Xatiri-yar əgər aşiqə azar istər,
Gərək azar çəkə aşiq əgər yar istər»[1].

Yurdumun xarı da xoşdur mənə gülzarı da xoş,
Varmı bülbül ki, uçub gül yerinə xar istər?

Sevgini badə verər daima qəflət yuxusu,
Ürəyim cümlə sevən kəsləri hüşyar istər.

Saf şe'r yazmağa vardır dilimin imkanı,
Ürəyim saflığı hər şairə me'yar istər.

İstədi saf yaza Ənvər qəzəli Şahintək,
Nə Qəni istədi amma, nə Ələmdar istər.

Qəlbimi xanəxarab eyləsə də bir me'mar,
Aşiqin qəlbi, İlahi, yenə me'mar istər.

Bir baxın Şahinə ki, yetmişə yetməkdə yaşı,
Özünü amma yenə eşqə giriftar istər.

28.08.2004

---

[1] *Beyt Füzulinin «Hədiqətüs-süəda» əsərindəndir.*

* * *

«Təni-zarın damarından dili-bimar asılıb,
Bu asılmasına, əlbəttə, səbəb var asılıb»[1].

Canı dondurdu soyuq, əsmədəyəm yay günü,
Saçlarından bu qocanın elə bil qar asılıb.

Daha mən xacə kimi eşqə məhəl qoymayıram,
Kim görübdür ki, qolumdan yenə dildar asılıb?

Niyə ləğv oldu, İlahi, o ölüm fərmanı?
Gözlərim kaş görəydi neçə əğyar asılıb.

Nə üçün böylə ağır gündədi Azərbaycan?
Bu yerin daş-kəsəyindən nə qədər var asılıb…

Yuxuda Mənsuru gördüm dabanından asılıb,
Bir asılmışdı o sufi, yenə təkrar asılıb.

Çəksələr darə uçar göylərə, şahin quşudur,
Və görərlər boğazından o quşun dar asılıb.

11.10.2004

* * *

Verməyin siz mənə qəm, mən qəmi az-çox bilirəm,
Qəlbimi xürrəm edin, xürrəmi az-çox bilirəm.

Mənə söz söyləməyin gizlicə, yox faidəsi,
Aşikar söz danışın, mübhəmi az-çox bilirəm.

---

[1] *Beyt Fəxrəddin Salimindir.*

Özünü zənn eləyən Məcnuna tay adəm çox,
Neçə divanədəki görkəmi az-çox bilirəm.

Etməsinlər mənə hər məlhəmi təqdim, ayığam,
Dərdimə çarə olan məlhəmi az-çox bilirəm.

Eşqi təbliğ eləmək borcudur aşiq olanın,
Eşqdə möhkəm olun, möhkəmi az-çox bilirəm.

Nə gözəl söylədi misrasını Ərsoy, Şahin:
«Mən də tarix oxudum, aləmi az-çox bilirəm»[1].

11.01.2005

## Əfzələddin Xaqaninin şe'rlərinə təzminlər

### I

«Eşq işi vəsl ilə hicrandan keçib,
Dərdimiz, eyvah, dərmandan keçib»[2].

Bilməyibsən qədrini sən canımın,
Atdığın oxlar gəlib candan keçib.

Asanım müşkil olur gündən-günə,
Müşkilim asan imiş, asan keçib.

Qürrələnmə heç zaman, ey sariban,
Sən keçən yollarla çox karvan keçib.

---

[1] *Misra Mehmet Akif Ərsoyundur.*
[2] *«Kare-eşq əz vəslo hecran dərgozəşt,
Dərde-ma əs dəste-dərman dərgozəşt».*

Tarixin hər dərsi ibrətdir bizə,
Ölkəmizdən xan keçib, sultan keçib.

Hardadır Şah İsmayıl, Sultan Səlim?
Türk elindən sanki şöhrət, şan keçib.

Tə'zim eylə Şirvanın torpağına,
Şahina, Xaqani Şirvandan keçib.

9.02.2005

## II

Əldən düşüb əl, olmasa taqət, necə yazsın?
Etmirsə qələm hökmə itaət, necə yazsın?

Allah eşidir, hər şeyi Allah görürsə,
Xəlvət sözü, ey sevgili afət, necə yazsın?

Ey yar, göyərçinlən aparmır daha namə,
Yoxsa onu göndərməyə fürsət, necə yazsın?

«Xaqani sənə yazmayacaqdır daha məktub,
Çünki, sənə səndən o şikayət necə yazsın»[1].

Həsrət çəkirəm Təbrizə, Urmiyyəyə həsrət,
Əsdirsə əgər əlləri həsrət, necə yazsın?

Hərçənd qiyamət günü başlanmayıb, amma
Çox yerdə qopur gündə qiyamət, necə yazsın?

---

[1] *«Name nənevisəd be to Xaqani vo ozrəst,*
*K-əz to be to nətvan gele kərdən, çe nevisəd?»*

Yerdən qova bilmir niyə cahilliyi aləm?
Şahin ki çəkir bunca əziyyət, necə yazsın?

10.02.2005

### III

Şirvanı edib tərk elə ki dərbədər oldu,
Xaqaniyə şərbət ki, içirdi, zəhər oldu.

Mən həm nə qədər ölkəyə etdim səfər, amma
İqbal o səfərlərdə mənə həmsəfər oldu.

Sonra yox edib şənliyi qəm-qüssəni tapdım,
Dildarı itirdim deyə həzzim hədər oldu.

İqdam eləyərdim gecə-gündüz şərə qarşı,
Labüddü ziyanım deyə, xeyrim zərər oldu.

«Halım bəd idi, amma ki, şükr eyləmədim mən,
Bəd hal dönüb, taleyə bax ki, bətər oldu»[1].

Amma, qəzəlin saflığı uğrunda döyüşdüm,
Saf dilli qəzəl yazmağa məndə təpər oldu.

Atdım neçə yad kəlməni dildən bacarıqla,
Bədxahlərin cəhdi mənə bisəmər oldu.

Bildim elə ki qiymətimi, zərgərə döndüm,
Şahin, qəzəlim qədrini artırdı, zər oldu.

---

[1] *«Bəd bud məra hal, be an şokr nəkərdəm,
Ta lacərəm an hal ke bəd bud, betər şod».*

11.02.2005

## IV

Nə uca rütbə, nə inci, nə də zər lazımdır,
Mənə səndən, gözəlim, cüz'i nəzər lazımdır.

Eşqə düşmək hələ aşiqliyə ilk mərhələdir,
Aşiq olmaq diləyənlərdə hünər lazımdır.

Bağda, sərhəddə çəpər istəmirəm mən, amma
Aramızda bizim, əğyar, çəpər lazımdır.

Mən dəxi sən kimiyəm, ey gözü ağlar Məcnun,
Gözlərim Leylimi görməzsə, qəhər lazımdır.

«Səfərim Kə'bəyə – Bağdada məni çatdırdı,
Barəkallah, hər il böylə səfər lazımdır»[1].

Əfzələddin diləyibdir ki hər il Həccə gedə,
İstəyən Kə'bəni hər şəxsə zəfər lazımdır.

Şahin isə göyə uçmaq diləyir tezliklə,
Yara göyqurşağı rəngində kəmər lazımdır.

12.02.2005

## V

*«Eşq imiş hər nə var aləmdə,*
*Elm bir qiylü qal imiş ancaq»*
*Məhəmməd Füzuli*

---

[1] *«Səfəre-Kə'be be Bəğdad rəsanid məra,*
*Barəkallah, həme sal in səfərəm bayesti».*

Aşiqəm, mən Qeysü Leyla görmüşəm,
Az deyil sinnim ki, dünya görmüşəm.

Surətə çox baxmışam arif kimi,
Çünki mən surətdə mə’na görmüşəm

«Qarr» edən qarğaləri görmür gözüm,
Amma çox görsənməz ənqa görmüşəm.

Yerdə çox dərya var idi, oldu yox,
Göz yaşından amma dərya görmüşəm.

Var mey üstündə təcəlla axtaran,
Mən şeh üstündə təcəlla görmüşəm.

«Misrü bağdadımdı Şirvan, onda mən
Həm Zibeydə[1], həm Züleyxa[2] görmüşəm»[3].

Xeyli sözlər var ki, bica dinlədim,
Xeyli üzlər var ki, bica görmüşəm.

Aşikar gördüklərim çox az imiş,
Aşikardan çox, müəmma görmüşəm.

Eşqə üz tut, eşqə, Allah eşqinə,
Şahina, elm içrə qovğa görmüşəm.

---

[1] *Cəfər ibn Mənsurun qızı, xəlifə Harunərrəşidin zövcəsi və xəlifə Əminin anası. Bu beytdə Xaqaninin kimi nəzərdə tutduğu mənə aydın olmadı: qızmı, zövcəmi, anamı?*

[2] *«Yusif və Züleyxa» dastanının qəhrəmanlarından biri*

[3] *«Misrü Bəğdadəst Şirvan, ta dər u*
*Həm Zibeydə, həm Zoleyxa dideəm».*

13.02.2005

## VI

«Əhd Xorasan edim inşaallah,
Yolu asan edim inşaallah»[1].

Bu cahanda neçə eşq xəstəsinə
Məni loğman edim inşaallah.

Tələsindən neçə əğyar olanın
Hamını yan edim inşaallah.

Yazıram gündə şe'r mən ki, onu
Neçə divan edim inşaallah.

İstərəm, gərçi dilim şəkkərdir,
Şəkkəristan edim inşaallah.

Çatdırım şanı şərəf zirvəsinə,
Şərəfi şan edim inşaallah.

Təb'imin, ey pərisi, gəl yanıma,
Səni mehman edim inşaallah.

Gəzirəm cananı ki, canana
Canı qurban edim inşaallah.

Şahina, arizum Xorasandır,
Buna imkan edim inşaallah.

---

[1] *«Be Xorasan şəvəm inşallah,
An rəh asan şəvəm inşallah».*

14.02.2005

## VII

Öylə ki, Xaqaniya, düşdün Xorasan mülkünə,
Əlvida etdin o gündən doğma Şirvan mülkünə.

Çünki, heyfa ki, səni incitdilər Şirvandə,
Həbs olundun, göndərildin həbsə Şabran mülkünə.

Eyləyib «Həbsiyyə»də şirvanşahın tənqidini
Sanki bir bimar çıxdı gəldi loğman mülkünə.

Amma, heç yaddan çıxarda bilmədin Şirvanını,
Öylə odlandın ki sən, od düşdü hicran mülkünə.

Eyləyibsən həm neçə misradə sən Şirvanı yad,
Meylini əldən verib yetdikdə imkan mülkünə.

«Sındı könlüm əhli-Şirvandan, fəqət dil söyləyir:
Mumiyadır Şirvanın torpağı İran mülkünə»[1].

Şahina, Xaqaninin mülkü şe'rdir, sən nə cür
Eyləyib cürət qədəm basdın o xaqan mülkünə.

15.02.2005

---

[1] *«Mən şəkestexater əz şirvaniyan və-z ləfze-mən*
*Xake-Şirvan mumiyayi bəxşe-İran aməde».*

* * *

*Hacı Rza Sərraf Təbrizinin «Divan»ını bir də varaqladım…*

«Məşuqədə çün işvəvü naz olmasa olmaz,
Aşiqdə odur iczü niyaz olmasa olmaz»[1].

Bir xəlq iki yandan yerə göz yaşı tökərsə,
Göz yaşı olub cəm, Araz olmasa olmaz.

Daim gəzirəm qafiyə, çün şair olan kəs,
Sərraf təkin qafiyəbaz olmasa olmaz.

Sinnim çoxalıbdır, daha meyxanə yaraşmaz,
Meylim sənə, saqi, daha az olmasa olmaz.

Can xalçasını sidq ilə, canan, sənə verdim,
Qarşında sənin cism palaz olmasa olmaz.

Tə'zim ilə, vird ilə namaz eyləyirəm ki,
Rüxsarını görcək, bu namaz olmasa olmaz.

Saydıqca ürək hicr oxunu sayğaca dönmüş,
Sındırma onu, öylə cihaz olmasa olmaz.

Qış fəslini ömrün başa çatdırmada Şahin,
Cənnətdə dübarə ona yaz olmasa olmaz.

8.03.2005

[1] *Beyt Sərrafındır.*

* * *

*Hacı Rza Sərraf Təbrizinin «Divan»ını yenə varaqladım…*

Get, ey viran olan könlüm, daha viranədən əl çək,
Daha gəl çəkmə qəm, dünya kimi qəmxanədən əl çək.

Nə bədbəxtəm bugün, yarəb, yanımda aşina yoxdur,
Yanında aşina olsa, çəkil, biganədən əl çək.

Beş ildən sonra yaş yetmiş olur, dastançıdan bezdim,
Nağıl nəql eyləmə, bəsdir, yeri, əfsanədən əl çək.

«Qəra olsun yüzin, ey zülfi-kəc, şümşadə baş vurma,
Şil olsun əllərin, məşşatə, düz dur, şanədən əl çək»[1].

Get, ey Leyli, düzəlməz başı Məcnunin, xərab etdin,
Deyir aqil adamlar daima divanədən əl çək.

Gəl, ey dürdanə dildarım, demə yarın qocalmışdır,
Canımda eşq odu varsa, demə cananədən əl çək.

Demə Şahin deyil Sərraf, əl çəksən daha dürdən,
Çəkər əl dürrdən, amma demə dürdanədən əl çək.

10.03.2005

* * *

Yar ki, heyran olmasıyla yarı heyran eyləmiş,
Tazə bir sevdayə çarə, eşqə imkan eyləmiş.

---

[1] *Beyt Sərrafındır.*

Gül dodaqlar, gül yanaqlar, gül buxaq, əlvan sinə,
Cismini başdan-başa, gördüm, gülüstan eyləmiş.

Qeyri dilbərlər önündə açmaram mən bir də əl,
Allah-Allah, bir gədanı yar sultan eyləmiş.

«Ey deyən yoxdur qiyamət, qaməti-dildarı gör,
Hər qiyamından qiyamətlər nümayan eyləmiş»[1].

«Yoxdur eşq», «Yoxdur məhəbbət» söyləyən kəs haqlımı?
Kim bu cür hökm eyləyibdirsə, o, nöqsan eyləmiş.

Sanki qəm çıxmış canından aşiqin tər timsalı,
Qüssəni biryolluq atmış, dərdi pünhan eyləmiş.

Gəlməyindən şad oldum, getməyindən zar mən,
Var ümidim bir də gəlsin canə dərman eyləmiş.

Çöhrəsi hətta gecə getmir önündən Şahinin,
Gözlərimdə zülməti yarım çıraqban eyləmiş.

14.03.2005

* * *

«Bihünərlər çünki meydanda sürür dövran bugün,
Bahünər xəlvətdə qalmış sinəsində qan bugün»[2].

Vaxt var idi çağlayardı çeşmətək imkanımız,
Büsbütün mümkünsüz olmuşdur şirin imkan bugün.

---

[1] *Beyt Sərrafındır.*
[2] *Beyt müasir Urmiyə şairi Bəhram Əsədinindir.*

Bir zamanlar vəsl odu od vurmadaydı hicrana,
Eyləyir rişxənd vüsalə dəmbədəm hicran bugün.

Gərçi hər gün söylərəm «gülzarıma gəl» gəlməyir,
Cənnətin güdzarına meyl eyləyir canan bugün.

Ey bu sözlər sahibi, söz söyləməkdən yox xeyir,
Söz deyənlər getdilər, bomboş qalıb meydan bugün.

Bir daha dərman üçün yollanma loğman üstünə,
Çünki dərman axtarır öz dərdinə loğman bugün.

Ümidin yoxdur sabahə, kibritin ki var sənin,
Şahina, çək kibriti, qalma sabahə, yan bugün.

17.07.2005

* * *

«Tanrı bilsin, hicr bizar eyləyib candan məni,
Ey əcəl, imdad qıl, qurtar bu hicrandan məni»[1].

Qəm-kədər seltək gəlir, dərdü bəla tufantək,
Bezdiribdir hər biri, billəh, bu dövrandan məni.

Bağda güllər qupquru olmuş bugün cismim kimi,
Bağibanım ayrı salmışdır gülüstandan məni.

Etmə də’vət, gəlmərəm mən, bir daha meyxanəyə,
Saqiya, tərk etmişəm mən imkanı, imkan məni.

Ağqoyunlu Yaqubun[1] dövründə olsaydım əgər

---

[1] *Beyt İran şairi Əndəlib Qaracadağinindir.*

Çatdırardı izzətə Yaqubtək sultan məni.

Allah-Allah, mən canımdan bezmişəm, məndənsə can,
Mən canı incitmişəm, ya incidiblər can məni?

Əndəlibtək, ey əcəl, gəl Şahinin həm yanına,
Bir tərəfdən Tanrını bezdirmə, bir yandan məni.

21.10.2005

* * *

«Sənsiz ürəyim qəmlə dodaqlanmadadır, gəl,
Qəmli ürəyim gözdə bulaqlanmadadır, gəl»[2].

Ağuşə alardım səni vəsl arzusu ilə,
Hicr ilə canım indi qucaqlanmadadır, gəl.

Yoxdur sığalı tellərimin, bir darayan yox,
Yellərlə, küləklərlə daraqlanmadadır, gəl.

Sənlə bu sevən xoşlanar idi gecə-gündüz,
Sənsiz ürəyim sanki bıçaqlanmadadır, gəl.

Qalxmır daha əllər göyə doğru, şil olublar,
İnsafın ola, əllər ayaqlanmadadır, gəl.

Gözlər səni yoldan xəbər almaqda, dilimsə
Asudə deyil, gündə soraqlanmadadır, gəl.

---

[1] *Uzun Həsən Ağqoyunlunun oğlu (hakimiyyət illəri 1478-1490) Sultan Yaqub şe’rə, sənətə diqqət və qayğı göstərən bir hökmdar olmuşdur.*
[2] *Beyt müasir İran şairi Sədr Məhəmmədi Sədrindir.*

Yoxdur ürəyin bir gilə təskinliyi, gəl çıx,
Şahin qocadır, amma uşaqlanmadadır, gəl.

* * *

*«Dərya kimi eşq odumu göz yaşı qurutdu,*
*Sanma, Qəni, bundan sora dərya yana bilməz»*
*Həkim Qəni*

Qeysin ahı yandırmasa, səhra yana bilməz,
Eşq atəşi gər yoxdursa, Leyla yana bilməz.

Yerlərdəki Zöhrə və Süräyya yoxa çıxsa,
Göylərdəki Zöhrə və Sürəyya yana bilməz.

Surət çəmənində gözə mə'na gülü dəydi,
Surət alışıb-yanmasa, mə'na yana bilməz.

Misralarımın istiliyindən giley etmə,
Şairdə alov olmasa, misra yana bilməz.

Dünyanı yaxır atəşi dərdin gecə-gündüz,
Səhv eyləyəcək kim desə «dünya yana bilməz».

Yanmaqdan uzağəm daha, məşəl kimi söndüm,
Kim sönsə bu Şahin kimi, əsla yana bilməz.
27.01.2006

* * *

Zar edəndən o sənəm qəlbi, pərişanəm mən,
Allah-Allah, gərək həşrə kimi yanəm mən.

Dan yeri məndən alıb sanki qızıl qan rəngin,

Ciyərim qanə dönübdürsə, ciyərqanəm mən.

Bir zamanlar vüsal idim təpədən-dırnağacan,
İndi başdan-ayağa, ey pəri, hicranəm mən.

Məni sövq eyləməyin heç yerə Yerdə! Nöqtə!
Kə'bəyə meyl edirəm, çünki müsəlmanəm mən.

Qapıçı kimdi o cənnət və cəhənnəmdə? Eşit,
Gəlirəm, aç qapını, qarşıla, mehmanəm mən.

«Sabirəm, səbr şüarımdı, qənaət tacım,
Nəfsimə padşəhəm, sahibi-fərmanəm mən»[1].

Şahinəm, zərrə qədər səbrimə yox ümmidim,
Sabira, səbrinə, həm nəfsinə heyranəm mən.

21.02.2006

* * *

*Seyid Əzim Şirvaniyə!*

Səni yad eyləyirik şamü səhər, ey Seyyid,
Yaşayarsan nə qədər var bəşər, ey Seyyid.

«Karvan getdi, könül, qafil edirsən nalə»[2],
Bu nə qəmdir, nə ələmdir, nə kədər, ey Seyyid?

«Etmişəm gərçi bu dəm aləmi-nasuti[3] vətən»,
Bizə həm qismət olubdur bu səfər, ey Seyyid.

---

[1] *Beyt Mirzə Ələkbər Sabirindir.*
[2] *Dırnaq içərisinə alınan misralar Seyyid Əzim Şirvaninindir.*
[3] *Aləmi-nasut – Maddi aləm*

«Bənd-bəndim kəsələr eyləmənəm tərki-fəğan»,
Sən ki, sərf etməmisən ömrü hədər, ey Seyyid.

«Movti-cismani[1] ilə sanma mənim ölməyimi»,
Sanmırıq ölməyini zərrə qədər, ey Seyyid.

«Seyyida, ölmərəm, aləmdə səsim var mənim»,
Səsini xəlq unudubdurmu məgər, ey Seyyid?

Ölmərəm mən dəxi hərgah bizim ellərimiz,
Sən kimi Şahini də sevsə əgər, ey Seyyid.

10.03.2006

* * *

Sevgitək sərvətü var səndə də var, məndə də var,
Edirik aləmə car səndə də var, məndə də var.

«Olmadıq yaxşıdı biz vadiyi-eşq içrə dəli,
Etmədi əql fərar, səndə də var, məndə də var»[2].

Əlimizdən çıxa bilməz ucu sevda ipinin!
Bu şərafətli qərar səndə də var, məndə də var.

Hələ tezdir, qıfılı eşqimizin bağlanmaz,
İşdi, bağlansa, açar səndə də var, məndə də var.

Elə zənn eyləməsinlər ki şənik hər ləhzə,
Bəs qədər qüssə, qübar səndə də var, məndə də var.

---

[1] *Movti-cismani – Cismani ölüm*

[2] *Beyt mərhum qəzəlxan Əlibala Səyyahındır.*

Sən də, mən də, gözəlim, sevgi azarıyla xoşuq,
Bu şirinliklə azar səndə də var, məndə də var.

Qan deyil, sevgi axır qan damarımdan, Şahin,
Dedi yar: - Öylə damar səndə də var, məndə də var.

20.04.2006

* * *

«Varmıdır rəhmin sənin, ey nazlı canan, varmıdır?
Sən ki, can almaq dilərsən, məndə gər can varmıdır?»[1]

Söyləyirlər aşiqin dərmanı cananındadır,
Aşiqin sənsizləyibdir, səndə dərman varmıdır?

Güclü də ah eyləyir gücsüz də, heyran olmuşam,
Ya İlahi, ahsız aləmdə bir an varmıdır?

Var Qur'antək kitabım, amma ki, illət də var,
Nərdivan yoxdur, sənə çatmağə imkan varmıdır?

Batinində gizlənib şeytan, - deyirlər, - hər kəsin,
Kə'bədə daş atmısansa səndə şeytan varmıdır?

Xəlqimə qurban olum, - söylər çox adəm məkr ilə,
İsmayıltək getməyə sidq ilə qurban varmıdır?

İntihar olmaz, - deyirlər, intihar etməkdəyəm,
Canını qurban edən Şahində nöqsan varmıdır?

21.04.2006

[1] *Beyt Əlibala Səyyahındır.*

* * *

«Bu onun surətidir, gör necədir yar hələ,
Özünün sərvi-xuramında nələr var hələ?»[1]

Ey qəzəlxan, - dedim hərdən özümə, - eşq etmə,
Hələ var üzdə həya, qalmadadır ar hələ.

Amma var öylə gözəllər ki, gəzirlər sevda,
Onların təklifini eyləmə inkar hələ.

Qalmasın boş deyirəm dəftəri ömrün, Rəbbim,
Dolu qəlbimdə varımdır neçə israr hələ.

Bircə dağ çapdı o Fərhad kimi me'mar fəqət,
Çox dağı çapmalıdır mən təki me'mar hələ.

Qocalıq sinni içində görürəm ağ rəngi,
Yağacaq saçlarıma gör nə təhər qar hələ.

Qoy ki, zahid hələlik göydə uça rö'yadə,
Yuxudan eyləməsinlər onu bidar hələ.

Qorxuram Həccə gedəm sonra yenə səhvim ola,
Şahina, Kə'bəyə sən olma tələbkar hələ.

29.04.2006

* * *

İnqilablar ölkənin dərhal dayağın titrədər,

---

[1] *Beyt Mirhaşim Müsafir Talışlınındır.*

İttifaqlar süst olar, çün ittifaqın titrədər.

İnqilabdan yazma, ey əl, eşqdən yaz şe'rimi,
Çünki eşq hər bir kəsin hər dəm marağın titrədər.

Odlanar ilham, qələm sızlar, mürəkkəb qaynayar,
Eşqini yad eyləyən şair varağın titrədər.

«Titrəyər ağlarkən aşiq, ol səbəbdən bilmişəm,
Eşq anadır kim, qucağında uşağın titrədər»[1].

Xatirə düşdükcə kövrək növcavanlıq günləri
Ağlamaq istər nigarım, dil-dodağın titrədəp.

Xoş çağı xatırlayanda gözlərindən yaş axar,
Yad edəndə gənclik əyyamın yanağın titrədər.

Əllərindən eyləməz Şahin şikayət bir gilə,
Amma, hərdənbir zəiflikdən ayağın titrədər.
20.05.2006

* * *

«Neylərəm əhvalımı istəkli canan bilməsə?
Dərd olur üftadələr halını sultan bilməsə»[2].

Bağiban bağ sahibindən e'tinasızlıq görür,
Bağ solar gül qədrini hərgah bağban bilməsə.

Pisdir, əlbət, qədrdanlar bilməsə el qədrini,

---

[1] *Beyt mərhum Əlibala Səyyahındır.*
[2] *Beyt Mirhaşim Müsafir Talışlınındır.*

Bəddir insan insanı, insanı insan bilməsə.

Hər vətəndaşə vətən başdır ki, can qurban ona,
Hər vətəndaşmı vətəndaş canı qurban bilməsə?

Gər mühəndis həndəsə bilməzsə bilməz bilməyi,
Kim təsəvvüfdən açar baş gərçi irfan bilməsə?

Cahil adəm cəhlə boylu, alim elmə hamilə,
İnkişaf etməz təbabət, tibbi loğman bilməsə.

Şahinin vəsli çox illərdir ki, hicran ilədir,
Vəsli dərk etməz qətiyyən kim ki hicran bilməsə.
24.05.2006

* * *

*«Ləl dedim, badə dedim, Namiqa,*
*Söz fəqət, əlbəttə, dodaqdan gedir»*
*Namiq Şəfai*

Xəlq o gülçün əl-ayaqdan gedir,
Bülbülə bax, amma ki bağdan gedir.

Sözlərinə hər gözəlin uymaram,
Tüstüyə bənzər ki, ocaqdan gedir.

Duymamışam niyyətini çox kəsin,
Qəlbə yaxınlar nə uzaqdan gedir?

Harda idin, gec yetişibsən bizə,
Göz yaşımı sil ki, bayaqdan gedir.

Bir neçə əğyar ilə var söhbətim,

Gizləmirəm, söz şapalaqdan gedir.

Gün o gün olsun deyələr Şahinə:
Düşmənin artıq Qarabağdan gedir.

28.05.2006

* * *

*«Canı tərk etməlisən, ey Sədi,*
*Bir ürəkdə iki can mümkünmü?»*[1]
*Sədi Şirazi*

İstərəm dincələ can, mümkünmü?
Tərk ola hər həyəcan, mümkünmü?

Yoxmu imkanı, gülüm, gəlməyinin?
Gələcəksən de haçan, mümkünmü?

Sənə bildirməmişəm indiyəcən,
Eləyim eşqi bəyan, mümkünmü?

Faidə ver ki, ziyanım çıxsın,
Bu xeyrxahə ziyan mümkünmü?

Güllə atmaqla aram olmasa da,
Başlayım qətlə bu an, mümkünmü?

Niyyətim hicri nişan almaqdır,
Hədəf olmazsa, nişan mümkünmü?

---

[1] *«Sədiya, tərke-can bebayəd goft,*
*Ke be yek del do dust nətvan daşt».*
*(Beytin tərcüməsi bu sətirlər müəllifinindir).*

Şahina, birkərəlik hicranı,
Eləmək gülləbaran mümkünmü?

12.11.2006

* * *

Aşiqa, məhzun deyildi gərçi əhvalın sənin,
Bilmirəm neyçün pərişandır bu gün halın sənin?

Gərdişi çərxin dönübdür, tərsinə fırlanmada,
Bilmirəm bəxtinmi dönmüş, yoxsa iqbalın sənin.

Söyləmə «get qeyri bir dildarı sev», ey nazənin,
Mənbilən yoxdur cahan mülkündə timsalın sənin.

«Tiz çəkmişsən cəfa tiğin məni öldürməyə,
Öldürür axir məni bir gün bu ehmalın sənin»[1].

Dincliyim yoxdur, sənin nadincliyindən qorxuram,
Mən təkin dərd əhlinə lazımmı cəncalın sənin?

Sevgidən bir ləhzə həm yan olmağın mümkün deyil,
Şahina, hərçənd ağarmış qarə saqqalın sənin.

25.11.2006

* * *

Yenə təsdiq özümündür, yenə inkar sənin,
Nə desən olmalıdır, ixtiyarın var sənin.

Gəl mənim yanıma, ey canımı sərməst eləyən,

---

[1] *Beyt Məhəmməd Füzulinindir.*

Şə'ninə şe'r oxusun qoy bu vəfadar sənin.

İkimiz bəstələyək sevgimizə bir nəğmə,
Söz mənim, kəlmə mənim, çalğı sənin, tar sənin.

Məndə cəhd, səndəsə israr – görüş şövqüylə,
Cəhdim olmaz görüşə olmasa israr sənin.

Köhnəlib Fərhadın əfsanəsi, ey Şirinim,
Nəqşini Şahdağa çəksin yeni me'mar sənin.

«Mən işim yoxdu səninlə, - desəm hərgah sənə,
Otağım dillənəcəkdir ki, işin var sənin»[1].

Kiminin ömrü uzundur, kiminin ömrü qısa,
Şahina, ömrünü artırmadadır yar sənin.

30.11.2006

* * *

*«Gecənin gündüzü vardır, sonu var gündüzün həm,*
*Amma, vəslin gecəsi mənlə o yarın bitmir»*[2]

*Sədi Şirazi*

Şair, həzzin sonu var, amma qübarın bitmir,
Neyləyibsən fələyə, ah ilə zarın bitmir.

---

[1] *«Gər beguyəm ke, məra ba to sər-o kari nist,*
*Dər-o divar gəvahi bedəhəd kari həst»*

*Sədi Şirazi*

*(Beytin tərcüməsi bu sətirlər müəllifinindir).*

[2] *«Hər şəbi ruzi-yo hər ruz zəvali darəd,*
*Şəbe-vəsle-məno məşuqe-məra axer nist»*
*(Beytin tərcüməsi bu sətirlər müəllifinindir).*

Bu qədər qüssəyə kim səbrü qərar eylərdi?
Xəbərin varmı, sənin səbrü qərarın bitmir.

Qəlbinin tarı dəmadəm oxuyur qəm muğamı,
Bu necə möcüzədir nəğməsi tarın bitmir?

Nə zaman bezdirəcəkdir səni sevda qumarı?
Deyəsən xamsən eşq içrə, xumarın bitmir.

Cənnətin bağına girmək dilərəm, Allahım,
Nə uzun oldu hasarın ki, hasarın bitmir.

Qocalıbsan, səni dondurdu qışın sərt soyuğu,
Şahina, zənn eləyirdin ki, baharın bitmir.

2.12.2006

* * *

Sədaqət olsa hər insanda xislət,
Bütün dünyada qalibdir məhəbbət!

Qubamda gəncliyim qalmış, xəyalən
Qubayə eylərəm hər dəm səyahət.

«Əgər islamda qarət cayiz olsa,
Bütün Şirazı, ey büt, eylə qarət»[1].

İşim yoxdur siyasətlə, mən amma
Ədalət istərəm, daim ədalət.

---

[1] *«Məbada, və-r bovəd qarət dər eslam,*
*Həme Şiraz yəğmaye-to başəd»*
*Sədi Şirazi*

Məramım Kə'bədə Rəbbimlə ünsdür,
Gəlib ev sahibi versin ziyafət.

Qəzəl yazdım təmiz türk sözləriylə,
Görünsün hər qəzəlxanda bu qeyrət.

Mənəm xidmətçisi şe'rin əruzda,
Bu Şahindir, bu Fazildir, bu xidmət!

20.12.2006

* * *

«Ömr bir cuyi-abdır guya,
Xaneyi-tən hübabdır guya»[1].

Var savabım günahdır sanki,
Var günahım savabdır guya.

Hesaba gəlməyir kədər məndə,
Neyləyim, bihesabdır guya.

Ürəyim var, ürəksizəm amma,
Ciyərim var, kababdır guya.

Kim deyir eşqdən olur xoşhal?
Eşq bir iztirabdır guya.

Hanı peymanəsi eşqin? Qırdım!
İçmədim ki, şərabdır guya.

---

[1] *Beyt Ruhi Bağdadinindir (XVI əsr).*

Sinəmə yığmışam gileylərimi,
Sinə dəftər-kitabdır guya.

Şeyxülislamə şe’r göndərdim,
Dedi: - Şe’rin gülabdır guya.

Qəzəli gör nə saf yazır Şahin,
Zənn edir inqilabdır guya.

22.12.2006

* * *

*«Sədinin eşqi məgər gizlədilən hadisəmi?*
*Elə bir dastana bənzər yayılıb hər yanə»*[1]
*Sədi Şirazi*

Nə bəla gəldi, İlahi, bu Azərbaycanə
Ki, batıbdır Qarabağ torpağımız al qanə.

Neçə ildir bu işi həll eləmir Rusiyyə,
Nə ümid Türkiyəyə qaldı, nə də İranə.

Özümüz ordumuzun zərbini artırmalıyıq,
Özümüz salmalıyıq hərb işini sahmanə.

Bu fəlakət ki, gəlibdir bizə rədd olmalıdır,
Hamı elliklə gərək cəng eləsin mərdanə.

Olmasın qoy hələlik eşqə səlahiyyətimiz,
Etməsin qoy hələlik eşq bizi divanə.

---

[1] *«Eşqe-Sədi nə hədisist ke ponhan manəd,*
*Dastanist ke dər hər səre-bazari həst»*
*(Beytin tərcüməsi bu sətirlər müəllifinindir).*

Toplayıb qüvvəmizi biz yenə inşaallah,
Bir nəfər tək hamımız əzm edərik meydanə.

Sə'dinin tərzi ilə yazma hələ, ey Şahin,
Hələ eşq dərsini tədris eləmə cananə.

26.12.2006

* * *

«Gözün oğrun baxıb hər ləhzə canə qəsdi-can eylər,
Dili – bimarı hər dəm qanlı peykanə nişan eylər».[1]

Bəşər tarixçəsindən mə'lumatım bir qədər vardır,
Ümidim yox ki, Allahım Yeri cənnətməkan eylər.

Ümidsizlər yaman artıb ki, artıb naümidsizlik,
Gümansızlar olub bədbin gümanı nagüman eylər.

Sevənlərdən sual etdim cavab aldım: «Məhəbbətdən,
Bir aşiq razı qalmışsa, min aşiqsə fəğan eylər».

Herat şəhrində bir dərviş soruşdu bir zaman məndən:
«Nədir faidəsi eşqin ki, aşiqlər ziyan eylər?».

Sözümdən incimə, canan, soruşsam sevgi haqqında,
Bu mə'lumdur ki, şagirdi müəllim imtahan eylər.

Deyirsən ki, yaşın çoxdur. Məgər Şahin qocalmışdır?
Cavan dilbərdə şövq olsa qocanı növcavan eylər.

4.01.2007

---

[1] *Beyt Məmo bəy Məmainindir (XIX əsr).*

* * *

*«Əsərim qalmadı aləmdə demə, ey Ruhi,*
*Sözdən ə'la dəxi olurmu əsər dünyadə?»*
*Ruhi Bağdadi*

Bu qədər ki, çoxalır fitnəvü şər dünyadə,
Qalacaqmı bəşəriyyət və bəşər dünyadə?

Bir-biriylə, yaranışdan bəri insan döyüşür,
Qovğasız gün görəsən oldu məgər dünyadə?

Biri gəldi, biri getdi, biri qaldı, biri yox…
Biz nələr görməmişik gəldigedər dünyadə?!.

Görməyirlərmi gedir qəbrə cismlər bir-bir,
Bilməyirlərmi qalır sərvətü zər dünyadə?

Düşünən varmı Yeri məhv eləyir yerdəkilər?
Ucalır tüstü kimi qüssə-kədər dünyadə.

Kim cəfa eyləsə, əlbəttə, cəfasız qalmaz,
Kim bəla əksə əgər qüssə biçər dünyadə.

Günü zülm ilə keçər əvvəl-axır zülm edənin,
Görüm olsun günü ondan da betər dünyadə.

Şahina, Ruhi demişkən sözə ver diqqətini,
Sözdən ə'la qalacaqmı bir əsər dünyadə?

17.01.2007

* * *

Yazmağa başlamamışdan sözü «Bismillah» et,
Allaha bağlılığından qələmi agah et.

Nə qədər əyri əməllər görürük dünyadə,
Düz olub, əyriliyə qarşı müdam ikrah et.

««Layiqi-dövləti-baqi olayın» dersən əgər,
Kəndüni aləmi-fanidə fənafillah et»[1].

Elə şair görürəm ki, işi məddahlıqdır,
Elə şair qabağında özünü sən şah et.

Sevinib-gülmə əgər zar olan adəm varsa,
Bir yetim körpəni görsən gecə-gündüz ah et.

Qələtə uyma qələt sahibi eylərsə qələt,
Mümkünat eyləyə bilsən qələti islah et.

O qədər xəstəsi vardır cahanın, ey Şahin,
İxtisası dəyişib də özünü cərrah et.

18.01.2007

* * *

*«Padşahlıq eyləmək hər kimsənin işi dəgül,*
*Ədl ilə ehsan gərəkdir şahlərdən, ey könül»*[2]
*Məhəmməd ibn-Bəzzaz Ərdəbili.*
*«Səfvətüs-səfa»*

---

[1] *Beyt Ruhi Bağdadinindir.*

[2] *Beyt fars dilində yazılan «Səfvətüs-səfa» kitabının XVI əsrdə mütərcimi olmuş Məhəmmət Nişati tərəfindən türk dilinə belə tərcümə olunmuşdur.*

Bəndələr zillər çəkirlər şahlərdən, ey könül,
Az qalır bağrım yarılsın ahlərdən, ey könül.

Bilməyirlərmi məgər şah şahdır, Allah deyil,
Bixəbərlər laf edir «Allahlər»dən, ey könül.

Ağlamaq öyrənmişəm ağlatmamaqçın dilbəri,
Ağlamaq öyrənmədim timsahlərdən, ey könül.

Agah insan agah insan ilə ünsiyyət dilər,
Elmi əxz etmək gərək agahlərdən, ey könül.

Baş qoşub bədxahə baş ağrıtmasın xoşxahlər,
Bəd-bəd işlər baş verir bədxahlərdən, ey könül.

Şahin olmuş eşq bimarı, neçin bəs sağ qalıb?
Sirrini öyrənməli cərrahlərdən, ey könül.

15.02.2007

* * *

*«Hüsninin pərtövi can güzgisin də qıldı zühur,*
*Güzgünün əksi qamu can ilə canan oldu»*[1]
*Məhəmməd ibn-Bəzzaz Ərdəbili*

Bu nə dəhşətli zəmanə, bu nə dövran oldu?
Ürəyim qüssə əlindən təzədən qan oldu.

Tuşlanıb bir-birinə bəd nəzəri ölkələrin,
Bu nə əngəlli təfəkkür, bu nə tüğyan oldu?

---

[1] *Beytin tərcüməsi Məhəmməd Nişatinindir*

Bəşəri zarü pərişan eləyir zəlzələlər,
Nə səbəb var ki, bu dünya belə lərzan oldu?

Nə qüsur eylədi insan ki qüsursuzluğu yox,
Nə günah etdi bəşər böylə pərişan oldu?

Məhvərindən, belə getsə, qopacaq Yer Kürəsi,
Bədliyə vadar edən adəmi şeytan oldu.

Ey qəzəlxan, nə siyasət döşəyirsən yenə də?
Dilinin virdi həmişə axı canan oldu…

Yenə yaz eşqü məhəbbət kimi xoş mövzudan,
Sevgidən yaz yenə hər vəqt ki imkan oldu.

Şahina, çoxdu şirinlik o qəzəl bağçanda,
Orada sən bibər əkdin, şəkəristan oldu.

16.02.2007

* * *

*«Ey meh, nolu bir bax mənə sarı, səni Tarı,*
*Salma nəzərindən məni-zarı, səni Tarı»*
*Məhəmməd Əmin Dilsuz (XIX əsr, Cənubi Azərbaycan)*

Artırma, gülüm, qüssə-qübarı, səni Tarı,
Gəl yanıma, et dərdimi yarı, səni Tarı.

Qəm ləşkəri monqol qoşunundan da betərmiş,
Vardırmı, qəmin yoxmu kənarı, səni Tarı.

«Halva» deməк ilə şirin olmur axı ağzım,
Rüzgar acı! Az eylə azarı, səni Tarı.

Gündüz gələcəksən, gedəcəksən yenə axşam,
Yarım, gecəmi fikr elə barı, səni Tarı.

Qış fəsli gəlibdir deyə donmuş yenə cismim,
Gəl, gəl və gətir qışda baharı, səni Tarı.

Ey Tanrı, sənin qüdrətinə şəkk ola bilməz,
Göndər yanıma sevgili yarı, səni Tarı.

Var isə qərarın məni xoşbəxt eləməyçin,
Qurban sənə, car eylə qərarı, səni Tarı.

Sən Sən'ana, ey Tanrı, müsəlmanını bəxş et,
Göndərmə ona gürcü Xumarı, səni Tarı.

Yar həm gecə qalsın, həmi gündüz, həmi axşam,
Şad et yenə Şahin kimi zarı, səni Tarı.
18.02.2007

* * *

«Yarəb, bu nə qəmdü çarə olmaz?
Bir çarə bu ahü zarə olmaz»[1].

Hər ağrını var edən səbəb var,
Daş dəyməsə güzgü parə olmaz.

Var sirsiz adam, mənimsə sirrim
Gizlindədi, aşikarə olmaz.

---

[1] *Beyt Məhəmməd Əmin Dilsuzundur.*

Sevdalı ürək neçin ciyərqan?
Sevdasız ürəkdə yarə olmaz.

Qəm çəkməyəmi cəhanə gəldim?
Yarəb, niyə özgə çarə olmaz?

Göydən mənə «nikbin ol» deyən yox,
Yerdənsə neçin işarə olmaz?

Bəxti adamın nə sirdi, Şahin,
Bir yol açılır, dübarə olmaz?

28.02.2007

* * *

*«Künci-meyxanəni məskən elə hər şamü səhər,*
*Vermə, Dilsuz, yaxan zahidü molla əlinə»*
*Məhəmməd Əmin Dilsuz*

Dəysə Məcnun nəzərim bir də o Leyla əlinə,
Ayağından öpərək çatmalıyam ta əlinə.

Var nağıllarda ki, quş insana imdad eləyir,
Kaş qonaydı elə quş Vamiqü Əzra əlinə.

Öz əli öz başını parələdi Fərhadın,
Düşmədi eşqdə fürsət onun, heyfa, əlinə.

Mənbilən, köynəyini cırmağa cəhd etməzdi,
Yusifin əlləri dəysəydi Züleyxa əlinə.

Yanıma gəlməyə ol şux əl-ayaq etsəydi
Ya, ayağına şükür eylər idim, ya əlinə.

Şahina, sən kimi Dilsuz da fəğan eylərdi:
«Yoxdu bir mərd əlim ta verə Leyla əlinə».

2.03.2007

* * *

«Dilbərim, qəmzə oxun at bu şirin canə dəgə,
Bəlkə can şövq ilə ol navəki-peykanə dəgə»[1].

İstərəm iynəli olsun bədənim kirpi kimi,
Hurinin atdığı oxlar təki qılmanə dəgə.

Solma, ey gül, sənə çox xidmət edir bağbanın,
Bülbülün tənəsi, yol vermə ki, bağbanə dəgə.

Çəkməni geymə çəmənlikdə, yusun şeh ayağı,
Çıxarıb at corabı, qoy ayağa nanə dəgə.

İstərəm olmağı göözmuncuğu boynunda sənin,
Sənə qoy dəyməyə göz, göz bu qəzəlxanə dəgə.

Diləyim busə gülü dərmək olubdur səndən,
Şəkərim, qoy ki, dodağım şəkəristanə dəgə.

Daha bir ləhzə də qürbət diləmir, hər ləhzə,
Şahinin gözləri kaş Azəribaycanə dəgə!

4.03.2007

* * *

Ürəyim öylə bezibdir ki, qəhər gizlətməz,

---

[1] *Beyt Məhəmməd Əmin Dilsuzundur.*

Gözlərim öylə qan ağlar ki, kədər gizlətməz.

Demə, ey xırda qəzəlxan, səni görmür kimsə,
Uca ol sərv kimi, sərvi çəpər gizlətməz.

Elə kəs mən görürəm ki, özünü yaxşı sanır,
Yaxşı insan dili altında zəhər gizlətməz.

Mollanın mey payını saqi durub gizlətdi,
Mollanın şişəsini saqi hədər gizlətməz.

Səfərə çıxmalıyam sənlə, gülüm, Eşq elinə,
Elə dərvişdi bu aşiq ki, səfər gizlətməz.

Çox şəkər şe'rimi zahir eləyim gəl ki sənə,
Tutisən, tutini kim sevsə şəkər gizlətməz.

«Gizlədirsən üzünü qeyrisini gördükdə,
Səni kim görsə əgər, bil ki, nəzər gizlətməz»[1].

Yazdığım divanı bir-bir edirəm çap. Dedi yar:
- Şahinim öylə ağacdır ki, bəhər gizlətməz.

24.03.2007

* * *

*«Hər kimin ki, sənə heyranlığı yoxdursa əgər,*
*Elə heyvandı ki, üzdən fəqət insan görünür».*[2]

---

[1] *«Məgər to ruy bepuşi və gər ne, momken nist*
*Ke, adəmi ke to binəd nəzər bepuşanəd».*
*Sədi Şirazi*

[2] *«Hər ke ba surət-o balaye-toəş onsi nist,*
*Həyəvanist ke balaş be ensan manəd».*
*(Beytin tərcüməsi bu sətirlər müəllifinindir).*

*Sədi Şirazi*

Cansız idim, dedilər səndə yenə can görünür,
Görünər, çünki yenə xəstəyə loğman görünür.

Gözəlim, getmə yanımdan uzağa, ol kölgəm,
Elə bir kölgə ki, parlaq və çıraqban görünür.

Səni gördükdə ziya gəlmədədir gözlərimə,
Görmədikdə səni dərhal gözə hicran görünür.

Gəl gedək gülşənə, gül gülləri gördükcə, gülüm,
Söyüdün yarpağına baxsa, pərişan görünür.

Qoy desinlər ki, o dilbər yenidən şənlənmiş,
Söyləsinlər ki, bu şair yenə heyran görünür.

Dəyməyirdin gözümə, yaxşı ki gəldin-çıxdın,
Səni vəsf etmək üçün şairə imkan görünür.

Şükür olsun ki, bu gün bağdə yoxdur kimsə,
Nə gözətçi görürəm mən, nə də bağdan görünür.

Şahina, çatdı vəsl vaxtı, şirindir bu görüş,
Acılıqdan uzaq ol ki, şəkəristan görünür.

1.04.2007

* * *

«Çox başımız ağrıtma, bizə baş gərəkdir»[1],
Baş ağrısını kəsməyə sirdaş gərəkdir.

---

[1] *Misra Hidayətullah Hidayətindir (XV əsr).*

Əl çək, a papaqçı, ki papaq istəmirəm mən,
Getmiş Qarabağ, indi başa daş gərəkdir.

Minlərlə əməl etsə də faş olmadı, əfsus,
Olsun əməli düşmənimin faş gərəkdir.

Qaşdan çəkilən tük kimi dərdim saya gəlməz,
Dərdim elə çox ki, mənə maqqaş gərəkdir.

Üst-başıma eyb eyləməyin tazə deyilsə,
Dərviş olanın paltarı nimdaş gərəkdir.

Xaşxah içirərdi nənəmiz uyqudan ötrü,
Rö'ya gözə gəlmir, mənə xaşxaş gərəkdir.

Yar eyləmədi çünki vəfa əhdinə, Şahin,
Ağlat, gözünə indi sənin yaş gərəkdir.

21.04.2007

* * *

Nakam olsa yenə Qeys, vaxta təəccüblənərəm,
Yetməsə Leylisinə baxta təəccüblənərəm.

İsti sevdanı soyuqluq küləyi dondursa,
Araya düşsə əgər şaxta, təəccüblənərəm.

«Dalğa indi elə sındırdı ki, taqət gəmimi,
Sahilə çıxsa əgər taxta, təəccüblənərəm»[1].

---

[1] *«Mövc əz in bar çenan keştiye-taqət beşekəst,
Ke əcəb darəm əgər təxte be sahel berəvəd».*

Bu təzə dövrdə əfv eyləyibən əğyarı
Aşiqi eyləsələr axta, təəccüblənərəm.

Şahina, biz ki, bu aləmdə həqiqət gəzirik,
Eşqimiz olsa əgər saxta, təəccüblənərəm.

* * *

*«Məcməüş-şüəra»nın üzvü şair Bəydəmirə!*
*Göynəyibən dad elədin, bəs deyil?*
*Bir elə fəryad elədin, bəs deyil!*
*Gülarə Munis*

Sevgini inkar elədin, bəs deyil?
Qəm-kədəri var elədin, bəs deyil?

Ey bizi şe'riylə həzinləşdirən,
Qüssəni me'yar elədin, bəs deyil?

Şe'rini bədbin yazaraq, qəlbini
Dərdə giriftar elədin, bəs deyil?

Bir gözəlin tə'rifini gizləyib
Tənqidini car elədin, bəs deyil?

Bəlkə də bəd halə salıb Leylini,
Məcnunu təkrar elədin, bəs deyil?

Sev və göyərçinlərə bax cütgəzən,
Təkliyi izhar elədin, bəs deyil?

---

*Sədi Şirazi*
*(Beytin tərcüməsi bu sətirlər müəllifinindir).*

«Bəydəmir» ismində «dəmir» var axı,
Sən dəmiri xar elədin, bəs deyil?

Hicri günəhkar eləyə bilməyib,
Vəsli günəhkar elədin, bəs deyil?

Öldü ki «Məcməş-şüəra» şairi,
Cümləmizi zar elədin, bəs deyil?

Sən özünü eşqdə Şahin kimi
Bəsdi cəfakar elədin! Bəs deyil?

12.05.2007

* * *

*«Xətündən yox zərər hüsnə, o, mülkə bir qaraltudur,*
*Qonulsa cümləyə ol xali-ənbərbuyi-tər tənha»*
*Ruhi Bağdadi*

Gülər tək, ağlayar tənha, yatar tənha, gəzər tənha!..
Mənimtək yalqıza bənzərmidir aləmdə hər tənha?

«Yamandır hər şeyin ifratı» söylər başbilən kəslər,
Mənim yalqızlığım ifrat olub, axşam-səhər tənha!..

Yaratmışdır neçin Allahımız tənha qəmər göydə?
Məgər ulduzları görmürmü, ulduz çox qəmər tənha.

Qübarım çoxsa da faş etmirəm, gizlin qalır, çünki
Qübarı kim ki aşiqdir, çəkər gizlin, çəkər tənha.

Gözaltı baxdığım dəmdə bağa, bağbanı cüt gördüm,
Özümdən başqa tək yoxdu, görünmür bir nəfər tənha.

Kərəm yandı və yandırdı yanarkən Əslini dərhal,
Mənim yarımsa etmişdir o dünyayə səfər tənha.

Məni qurtar bu tənhalıq əlindən tezcə, ey Tanrı,
Sənin tənhaların çoxdur, bu Şahinsə betər tənha.

27.06.2007

* * *

Rahatlıq görməyib dövran içində
Həlimlik gəzmişəm tufan içində.

Mənim kövrəkliyim bica deyilmiş,
Sədəfdir göz yaşı ümman içində.

«Gül, ey mey, Hamidi könlün sevindir
Ki, bəslər dərdi-eşqi can içində»[1].

Mənimtək hicrana aşiq olan yox,
Vüsal axtarmışam hicran içində.

Əql sahibləri, ey Qeys, azdır,
Hanı ən aqili loğman içində?

Mənə ey qibtədən böhtan atanlar,
Həqiqət varmıdır böhtan içində?

Neçin Şahin olur bədbin, İlahi?
Qalıbmı mümkünat imkan içində?

9.07.2007

---

[1] *Beyt Hamidinindir (XV əsr).*

* * *

«Şəm'in şərəfi olsa pərvanəni yandırmaz,
Aşiq əsl aşiqsə canananəni yandırmaz»[1].

Vallah edirəm ümmid şe'rim məni öldürməz,
Ülviyyəni ağlatmaz, Şahanəni yandırmaz.

Aqil o adamdır ki, əqlində qüsur olmur,
Abadı edib viran, viranəni yandırmaz.

Xoşxah isə biganə – bədxah deyil şəksiz,
Arif o vətəndaş ki, biganəni yandırmaz.

Hər mərdə yaxınlaşsan, namərdə yaxın düşmə,
Namərd – güman etmə mərdanəni yandırmaz.

Gər zahid isə saqi yoldaşlıq edə, heç kim
Məscidə alov vurmaz, meyxanəni yandırmaz.

Qəlbimdə yapıb heykəl Məcnuni yaşatdım mən,
Divanə deyil Şahin, divanəni yandırmaz!
21.07.2007

---

[1] *Beyt müasir Cənubi Azərbaycan (Marağa) şairi Kəriminindir.*

## TƏXMİSLƏR

### I

***Ələkbər Şahidin qəzəlinə təxmis***

Zövqümü mən gətirib dadə bu gündən sonra,
Salmaram ömrümü fəryadə bu gündən sonra,
Etmərəm ülfətimi yadə bu gündən sonra,
«Almaram əllərimə badə bu gündən sonra,
Vermərəm ömrümü mən badə bu gündən sonra».

Mən meyin yadını diş tək çıxarıb ağzımdan,
Ahü fəryadını diş tək çıxarıb ağzımdan,
Şoqərib adını diş tək çıxarıb ağzımdan,
«Badənin dadını diş tək çıxarıb ağzımdan,
Ataram, salmaram heç yadə bu gündən sonra».

Saqinin yan eləyib tə’sirini boynumdan,
Ataram nəhs işimin mən birini boynumdan,
Yəni mey içməyimin təqsirini boynumdan,
«Açaram mən bu meyin zəncirini boynumdan
Ki, gəzəm xəlq tək azadə bu gündən sonra».

Ürəyim qəmdə, mürəkkəb görünür əhvalım,
Gözlərim nəmdə, mürəkkəb görünür əhvalım,
Bu xoş aləmdə mürəkkəb görünür əhvalım,
«Məst olan dəmdə mürəkkəb görünür əhvalım,
Ümidim var ki, olum sadə bu gündən sonra».

Nə ola saqi bu gündən, nə də cam məclisdə,
Gər elə olsa, yerim varmı olam məclisdə?
Bu məgər mümkün olan işmi qalam məclisdə?
«Heç qədəh nuş edərəm düşsə məqam məclisdə?

Olmaram mən bu təmənnadə bu gündən sonra».

Bilməyib qədrimi qəddarə görə bülbültək,
Çəkmişəm dərd o əğyarə görə bülbültək,
Köksümü qan elədim xarə görə bülbültək,
«Həsrəti-bülbüli-gülnarə görə bülbültək,
Gəlmərəm suz ilə fəryadə bu gündən sonra».

Şahidin işlərinə, Şahina, sən şahidsən,
Nə o zahidlik edibdir, nə də sən zahidsən,
Verdiyin sözdə bütövsənsə, əgər sabitsən
«Mənə təklif eləmə «gəl mey içək» Şahid, sən,
Başa düş, içməyirəm, adə, bu gündən sonra».

21.07.2003

## II
## *Hacı Rza Sərrafın qəzəlinə təxmis*

O şair ki deyil xəlqi, pərişan etməyim, neylim?
Qəzəlxanlar sırasından onu yan etməyim, neylim?
Qəzəl bağım ki solğundur, gülüstan etməyim neylim?
«Gözüm yaşın könül qanilə mərcan etməyim, neylim?
Bu ağ dürri şəbihi-ləli-cann etməyim, neylim?»

Yazan kəs var ki, saf şe'ri salıbdır öylə bəd halə,
Olur halım mənim bədtər, baxanda öylə bədhalə,
Həqiqət söyləyən şəxsəm, salırlar öylə cəncalə,
«Qurumuş ney kimi hər bənd-bəndimdən çıxar nalə,
Əsiri-bəndi-eşqəm, ahü əfğan etməyim, neylim?»

Mənim qonşum tamah etdi, uzatdı qanlı caynağı,
Qopardı əllərimdən nazənin yurdum Qərabağı,
Əmin oldum o gündən mən o imiş ən rəzil yağı,

«Çökübdür sinəmə dudi-siyəh tək ayrılıq dağı,
Binasın tişeyi-ahimlə viran etməyim, neylim?»

Mənim bir aləmim vardır bu saət, aləmim-nalə,
Deyildir adi qəm məndən qopan, hər bir qəmim – nalə,
Gedin, axtarmayın bir özgə halət, hər dəmim – nalə,
«Ənisim dərdi-möhnət, munisim – qəm, həmdəmim – nalə,
Bu cəm'iyyətlə dünyanı pərişan etməyim, neylim?»

Nə canana səlam eylər olum salim səlamindən,
Nə molla eyləyir də'vət gəlim vəcdə kəlamindən,
Nə saqi cəlb edir ki, nuş edim şövq ilə camindən,
«Dutulmuş xatirim gör əhli-şəhrin izdihamindən,
Buyur, Məcnun kimi əzmi-biyaban etməyim, neylim?»

«Əla, ya əyyühəs-saqi...»[1], gəlim, mey süz mənə qan tək,
Boyansın qoy həmin rəngə dodağın rəngi mərcan tək,
Cahanda varmıdır qeyri pərişan mən pərişan tək?
«Gözüm yaşı axar hicrində mirvaridi-qəltan tək,
Onu xuni-cigərlən qanə qəltan etməyim, nyelim?»

Fərağından sənin qəlbim mənim, əlbəttə ki, qandır,
Dayandır, axmasın qanım var isə rəhmin, imkandır,
Görərsən yoxsa qanimdən boyandı hər yer, əlvandır,
«Deyillər şərbəti-ləli-ləbün hər dərdə dərmandır,
Bilirsən əhli-dərdəm, meyli-dərman etməyim, neylim?»

Tək əldən səs çıxarmı? Yox! Bu məfhumə mənəm zamin,
Dayaqsız, yalqız aşiqdə bitər cür'ət, itər təmkin,
Kimin var ixtiyarı eyləsin tək qalmağı təlqin?

---

[1] *İfadə Şafiz Şirazinindir. Tərcüməsi: «Gətir, ey saqi...». Əlbəttə, söhbət badədən gedir, amma irfani mə'nada!*

«Məni bica yerə eylər məzəmmət zahidi-bidin,
Görəndə küfri-zülfün tərki-iman etməyim, neylim?»

Mənimtək aşiqi vardır nə Turanın, nə İranın,
Mənimtək zar olan yoxdur əlində amma hicranın,
Alıbdır əqli başdan eşqi səntək ülvi cananın,
«Edibdir bağrımı qan ləblərin, qoy bir içim qanın,
Bu başsız məmləkətdə qanimə qan etməyim, neylim?»

Mənim dərdim məhəbbət dərdidir, lazımmı loğmanım?
Var olsun dərdim, ey dilbər, yox olsun dərdə dərmanım,
Məni hərçənd rahətsiz edir hər ləhzə əfğanım,
«Yəqinimdir, ürəkdən çıxsa peykanın, çıxar canım,
Gözəl can tək onu sinəmdə pünhan etməyim, neylim?»

Görən varmı mənimtək bircə aşiq də fəğan eylər?
Bilən varmı dolub cismə fəğan hər ləhzə qan eylər?
Gəlib hərçənd tənhalıq bu şəxsi imtahan eylər,
«Məni yalquz görəndə türki-məsitin qəsdi-can eylər,
Xətü xalin xəyalin munisi-can etməyim, neylim?»

İçib mə'na meyi surət camından öylə sərməstəm,
Təsəvvür etməsinlər ki, əlimdə badə var, məstəm,
Bu gün aləmdə, ey Şahin, mənəm hüşyar, var məst həm,
«Bu bazari-məhəbbət içrə Sərrafi-tohidəstəm,
Yətimi-dürri-əşki zibi-dükkan etməyim, neylim?».

24.03.2005

## SÜRUDLAR

### I

Çoxdandı gözüm gün kimi hər yanı gəzirdi,
Allahə şükürlər ki, göründün gözə bir də.
Bülbül gülün eşqiylə gülüstanı gəzirdi,
Allahə şükürlər ki, göründün gözə bir də.

Mübhəmlik içində neçə gün azdı gümanım,
Var idi əzəl çox, belə olmazdı gümanım,
Hərçənd üzünü görməyimə azdı gümanım,
Allahə şükürlər ki, göründün gözə bir də.

Gördüm səni, yarım, fələyin artdı ziyası,
Zərrin günəşin gözlərimə doldu şüası,
Allahıma sanki dilimin çatdı duası,
Allahə şükürlər ki, göründün gözə bir də.

Hicran işığı böyləcə, Allah, qaralsın,
Dərdin səsi batsın, gözəlim, ah qaralsın,
Görməzsə səni gözlərim hərgah, qaralsın,
Allahə şükürlər ki, göründün gözə bir də.

Gördüm səni, Şahində qürur etdi təcəlla,
Qəlbində ziya parladı, şur etdi təcəlla,
Görmürdü gözüm heç kimi, nur etdi təcəlla,
Allahə şükürlər ki, göründün gözə bir də.

8.07.2002

### II

Əlbəttə, şərafətdir hökmün bizə, ya Allah,

Adəm babamız düşdü göydən yerə hökmünlə.
Adəmdə günah olsa verməzmi cəza Allah?
Adəm babamız düşdü göydən yerə hökmünlə.

Şeytanə qulaq asdı şeytan onu aldatdı,
Şeytanə olan məxsus hədyan onu aldatdı,
Səhv eylədi, Həvvatək canan onu aldatdı,
Adəm babamız düşdü göydən yerə hökmünlə.

Şeytanə qulaq asmaq, əlbəttə, qəbahətdi,
Şeytanə qulaq asdı gündüz-gecə ah etdi,
Vardırmı məgər şübhə, yer boyda günah etdi,
Adəm babamız düşdü göydən yerə hökmünlə.

Yarəb, mənə rəhm eylə, sınmış qanadım, yarəb!..
Pərvaz edənə uyğun olmuşsa adım, yarəb,
Düşmək nədi, qalxmaqdı daim muradım, yarəb,
Adəm babamız düşdü göydən yerə hökmünlə.

Heç fərdə ümid yoxdur varsan deyə, Allahım,
Heç bir kimə, Allahım, heç bir nəyə, Allahım,
Şahin babanı qaldır yerdən göyə, Allahım,
Adəm babamız düşdü göydən yerə hökmünlə.

25.07.2003

## III

Getdim neçə gündür ki yanından, gözüm ağlar,
Gəldin yanıma, sevgili dilbər, gözüm aydın.
Bildin ki, fəraq içrə kəlamım, sözüm ağlar,
Gəldin yanıma, sevgili dilbər, gözüm aydın.

Dikdim gözümü sahilə, aydınlığı yoxdur,

Şahin kimi bir fazilə aydınlığı yoxdu,
Hətta günəşin bir gilə aydınlığı yoxdur,
Gəldin yanıma, sevgili dilbər, gözüm aydın.

Hicran canı sıxdıqca – sıxırdı gecə-gündüz,
Göz yollara baxdıqca – baxırdı gecə-gündüz,
Göz yaşları yox, qüssə axırdı gecə-gündüz,
Gəldin yanıma, sevgili dilbər, gözüm aydın.

Əfv eylə məni, vəslinə mən şübhəli oldum,
Fikrinlə sənin həzzi atıb qüssəli oldum,
Gəlsəydin əgər gec, görəcəkdin dəli oldum,
Gəldin yanıma, sevgili dilbər, gözüm aydın.

Bilsəydim əgər gəlməyəcəksən, bayılardım,
Hərgah elə olsaydı çətin mən ayılardım,
Yarım, ulu Allah elədi Şahinə yardım,
Gəldin yanıma, sevgili dilbər, gözüm aydın!

15.06.2004

## MÜRƏBBELƏR

Ey qadın, şanı əyan Fatimeyi-Zəhradır,
Sənə şöhrət, sənə şan Fatimeyi-Zəhradır,
Neçə tə'rifə nişan Fatimeyi-Zəhradır,
Etmişəm vəsf, haman Fatimeyi-Zəhradır.

Ürəyi gün kimi parlaq və səhərdən nurlu,
Nəzəri qövsi-qüzeh adlı kəmərdən nurlu,
Üzü, elm əhlinə mə'lum ki, qəmərdən nurlu,
Zöhrətək şö'ləfəşan Fatimeyi-Zəhradır.

O müqəddəs ananın eşqdə qüdsiyyəti çox,
Ülvi peyğəmbərə layiq idi, ülviyyəti çox,
İzzəti, iffəti çox, mə'rifəti, hörməti çox,
Yaşı az, ömrü cavan Fatimeyi-Zəhradır.

İşi həzrət Əlitək şəxsə itaətdə keçib,
Həsən ilə Hüseyn naminə xidmətdə keçib,
O səbəbdən ki, günü Həqqə ibadətdə keçib,
Əməli yadda qalan Fatimeyi-Zəhradır.

Ona cahillik odu gərçi əzab eyləsə də,
Dövrünün zilləti əhvalı xarab eyləsə də,
Məslək uğrunda əziyyətlərə tab eyləsə də,
Etməyən nalə-fəğan Fatimeyi-Zəhradır.

Şahina, surəti mə'nanı işıqlandırdı,
Elə ad qoydu ki, dünyanı işıqlandırdı,
Şöhrəti gün kimi hər yanı işıqlandırdı,
Adı hər yerdə bəyan Fatimeyi-Zəhradır.

26.04.2003

* * *

Mə'lum eylər çox gözəllər halımı görcək məni:
«Zahirimdən batinim keyfiyyəti mə'lumdur»[1].
Ey görənlər, sormayın əhvalımı görcək məni,
«Zahirimdən batinim keyfiyyəti mə'lumdur».

Yox vüsalın müjdəsi, yarəb, yenə hicran gəlir,
Ləhzə-ləhzə dəmbədəm işrət gedir, əfğan gəlir,
Gözlərimdən yaş axır, kipriklərimdən qan gəlir,
«Zahirimdən batinim keyfiyyəti mə'lumdur».

Xatirim gündən-günə xoş günləri yad etmədə,
Ağrısından hər hüceyrəm cismdə dad etmədə,
Çöhrəmi hər kəs görürsə ahü fəryad etmədə,
«Zahirimdən batinim keyfiyyəti mə'lumdur».

Bu mürəbbe' şe'rim ilə ta ki vardır qüvvətim
Ehtiyatı təlqin etməkdir bu gündən niyyətim,
Dustlar bica yerə qoy sormasın keyfiyyətim,
«Zahirimdən batinim keyfiyyəti mə'lumdur».

Öylə ki, oldum qəfildən qəflətin biçarəsi,
Bir sümükdə çat sızıldar, bir sümükdə parəsi,
Şahina, bildim, yaman imiş qabırğa yarəsi,
«Zahirimdən batinim keyfiyyəti mə'lumdur».

18.02.2004
*Qabırğamın sinmasından*
*11 gün sonra*

---

[1] *Misra Məhəmməd Füzulinin «Hədiqətüs-süəda» əsərindəndir.*

*Bakıdakı İran Mədəniyyət Mərkəzinin əməkdaşı cənab Məhəmməd Rza Pakrəvan qardaşımızın Azərbaycan Respublikasından İran İslam Cümhuriyyətinə qayıdışı münasibətilə*

*Gərçe be bərgəştənəş həst goman: Mirəvəd,*
*Pakrəvan mirəvəd, Pakrəvan mirəvəd.*
*Şahini-Fazil, begu ruh ze can mirəvəd,*
*Pakrəvan mirəvəd, pakrəvan mirəvəd.*

Kimdi rəvan olmada ölkəsinə şadimman?
Pakrəvandır gedən, Pakrəvandır gedən.
Gəldiyi yollar rəvan, getdiyi yollar rəvan,
Pakrəvandır gedən, Pakrəvandır gedən.

Yoldaşa yoldaş kimi yoldaş olub mehriban,
Yüksəlişi öndədir, əql rəvan, yaş cavan,
Nitq rəvan, dil rəvan, kəlmə rəvan, söz rəvan,
Pakrəvandır gedən, Pakrəvandır gedən.

Sevgili qardaş kimi gəlmiş idi yurduma,
Dost kimi, sirdaş kimi gəlmiş idi yurduma,
Zər kimi, daş-qaş kimi gəlmiş idi yurduma,
Pakrəvandır gedən, Pakrəvandır gedən.

Qənd kimi, şəkkər kimi şirin olub sözləri,
Dosta baxıbdır müdam ülfət ilə gözləri,
İrana getməkdədir tərk eləyib bizləri,
Pakrəvandır gedən, Pakrəvandır gedən.

Amma, sevindim ki mən qalmada dostlar hələ,
Gülşənimin üstünə yağmayacaq qar hələ,

Seyyid Əli Əkbərin[1] getməyinə var hələ,
Pakrəvandır gedən, Pakrəvandır gedən.

Yad eləyib ehtiram yollayacaqdır Bakı,
Namə yazıb çox kəlam yollayacaqdır Bakı,
Savəyə[2] tez-tez salam yollayacaqdır Bakı,
Pakrəvandır gedən, Pakrəvandır gedən.

Gərçi Bakı-Tehranın yolları həmvardır,
Şahini-Fazildəsə qüssəvü qəm vardır,
Gəlməyinə şad idi, getməyinə zardır,
Pakrəvandır gedən, Pakrəvandır gedən.

14.11.2006

---

[1] *İran Mədəniyyət Mərkəzinin sədri Höccətül-islam və-l müslimin Hacı Seyyid Əli Əkbər Ocaqnejad.*

[2] *İran Azərbaycanında şəhər. Pakrəvan Savədə doğulmuşdur.*

## MÜSƏBBE

Hər hərbə gedən əskərə əskər demək olmur,
Hər sultana sultansa da, Səncər demək olmur,
Hər daşə ki mə'dəndədi, mərmər demək olmur,
Hər gövhərə, mə'lumdu ki, gövhər demək olmur,
Hər rəhbərə, rəhbərsə də, rəhbər demək olmur,
Hər zərgərə zərgər, zərəsə zər demək olmur,
Hər dilbərə bənzərlərə dilbər demək olmur.

Tutdum gecə-gündüz o qədər fərdin əlindən,
Çox dərdi çıxardım neçə həmdərdin əlindən,
Mərdanəliyi aldım ələ mərdin əlindən,
Comərdliyi qapdım neçə comərdin əlindən,
Çəkdim nə əziyyət uduzub nərdin əlindən…
Qəlbim daşa dönmüş deyəsən dərdin əlindən,
Göz yaşlarıma bir daha Tərtər demək olmur.

Gündüz yenə gəldi, mənə axşam nəsibmi?
Heç bilməyirəm bir də dolu cam nəsibmi?
Saqi eləyən əmrü sərəncam nəsibmi?
Damsız o didərginlərimə dam nəsibmi?
Şamsız uyuya bilməyənə şam nəsibmi?
Hər Sabirə Sabirdəki ilham nəsibmi?
Hər mirzəyə Mirzə əli Əkbər demək olmur.

Hər söz yazanın mən kimi «Divan»ı olurmu?
Şairliyə, nasirliyə imkanı olurmu?
İmkanı sübut etməyə meydanı olurmu?
Tab eyləməyə həmlələrə canı olurmu?
Əldə qələmi, xəncəri, qalxanı olurmu?
Xaqanlıq edən hər kişi Xaqani olurmu?
Cabbarlı olan hər kəsə Cəfər demək olmur.

Cövhərsiz olan daşə cəvahir deyilərmi?
Sirr olsa əgər bəlli, məgər «sirr» deyilərmi?
Bir şəxsə ki, yox qüdrəti, qadir deyilərmi?
Mahirliyi mübhəm kəsə mahir deyilərmi?
Qorxaqlıq edən şəxsə bəhadir deyilərmi?
Hər şe'r cızan adəmə şair deyilərmi?
Hər şe'ri olan dəftərə dəftər deməк olmur.

Tər gül gəzirəm bağda sənubər, süsən içrə,
Ətr axtarıram lalə, mixək, yasəmən içrə,
Şeh qətrələrindən içirəm göy çəmən içrə,
Hətta günəş axtarmadayam dağda çən içrə,
İlham pərisi uyğuya dalmır bədən içrə,
Şairlərimiz çoxsa da indi Vətən içrə
Hər sadə yazan şairə Ənvər[1] demək olmur.

Meyxanədə meyxanəçiyə nər deyər idim,
Saqi oturan hər mizə minbər deyər idim,
Hərdən də çaşıb mömünə kafər deyər idim,
Dərk eyləyə bilmirdim axı, şər deyər idim,
Şahin, özümə mən sinədəftər deyər idim,
Yazdıqlarımı şövq ilə əzbər deyər idim,
Şe'rim elə çox ki, daha əzbər demək olmur.

13.07.2004

[1] Qəzəlxan – şair Ənvər Nəzərli

## MÜSTƏZAD

(Şahinanə)

Olsun gözüm aydın – yenə ol yar gəlibdir,
dildar gəlibdir.
Ey eşq, yenə mənzilimə var gəlibdir,
təkrar gəlibdir.

Sevda dəmidir, həzz ilə eyşim taraz oldu,
Billah, oturub-qalxmaq önündə namaz oldu,
Hicranə vəsldən nə gözəl e'tiraz oldu,
Qış fəslidi amma elə sandım ki, yaz oldu,
dildar gəlibdir,
təkrar gəlibdir.

Nurlandı həyatım ki, bu gün nur mənə yardır,
Gülməkdə gözüm, gəldi fərəh… Qüssə kənardır,
Yarəb, ürəyim gör nə gözəl hissə düçardır,
Vardırsa günəş onda-görünmək dəxi vardır,
dildar gəlibdir,
təkrar gəlibdir.

Ağ qar təki parlaq görünür gündüzüm indi,
Qibləmdi, onun səmtinə çönmüş üzüm indi,
Nitqim quruyubdur, kəsilibdir sözüm indi,
Ondan savayı heç kimi görmür gözüm indi,
dildar gəlibdir,
təkrar gəlibdir.

Eşq carçısıyam, eyləyirəm car: Vuruldum,
Əlbəttə, odur eşqimə me'yar, vuruldum,
Şahin eləyərmi bunu inkar, vuruldum,
Təkrar gələn yarıma təkrar vuruldum,

dildar gəlibdir,
təkrar gəlibdir.

7.12.2005

## HAYKULAR (XOKKULAR)[1]

Ürəyimi yaralama,
Yara toxuna bilər
Bıçaq

12.04.2004

Düşdü
Kiminin başına qar, kiminin gül,
Mənimsə daş!..

14.04.2004

Arı, lovğalanma,
Çiçəyə minnətdar ol
Bala görə.

Ayaqlarını çıxarıb
Özünü atdılar,
Maşın qocalmışdı.

Qulağımdan girdi,
Ürəyimdə qaldı
Sevginin səsi.

Dərhal qaytaracağam sənə,
Mənə borc ver
Öpüşünü.

26.04.2004

Tək qalmışam,
Evimə qonaq gəlib təklik

---

[1] 17 hecalı, 3 sətirdən ibarət, qafiyəsiz şe'r janrı (Yaponiya)

Gəlin kimi.

Ağlamaram mən daha,
Axı sən
İçindəsən gözümün.

Boşadım sevinci…
Kədəri də boşasam
Dul qalaram.

Başının üstündə
Baş daşı var.
Qoy daş düşsün başıma!

Mənim sevgim
Sənin sevgindən zəifmiş,
Ölə bilməyir.

29.04.2004

Zəng etdin mənə,
Qulağım sevindi necə də
Səsindən.

Yavaş-yavaş cırdı
Çiçəyin qayçısı
Göy tumurcuğu.

Qucaqlayıb səni
Necə də gecəköynəyin…
Xoşbəxtdir!

19.05.2004

Oynamırdılar
Eşq havasına.
Qocalmışdı ər-arvad…

20.05.2004

Günəbaxan,
Günə baxma,
Gün səni görməyir onsuz da…

22.05.2004

Bir bülbül
Açılan gülə baxırdı,
Böcək yeyəcəkdi.

Oğlan
Elə bərk öpdü ki,
Az qaldı qızın dişi çıxa.

Quru budaq
Ölüdür onsuz da,
Yaşı sındırma, külək.

24.05.2004

Ürəyim
Getdi sənin yanına,
Ayağı var ürəyin.

Kəpənək
Çırpdı qanadlarını,
Qaval səsi eşitdim.

26.05.2004

İki pərini sevdim mən:

Səni
Və ilham pərisni.

Kişi!
Göbələyin başına bax.
Hanı sənin papağın?

Yedilər dəymiş almanı,
Ondan çox yaşadı
Kal alma.

28.05.2004

Soba yandı,
Evi isindirdi
Yanmayan isindirməz.

Külək
Olmasa əsməz, əsməsə görünməz.
Ey Yaradan!

Ayaqlar!
Əllər!
Aşağılar yuxarıları aparır.

1.06.2004

Ey Allah,
Çata bilməyirəm Sənə,
Əlim aşağıdar.

Sən
Qəm yemisənmi?
Yemisənsə ac qalmamısan heç vaxt.

3.06.2004

Bahar…Çiçək yağışı…
Budaqlar
Doğmağa hazırlaşır…

5.06.2004

Qarışqa…
Çörək ovuntusu…
Mən yemədim, o daşıdı…

Qoz qabığı
Verdi mənə ləpəsini,
Mənsə onu sındırdım.

7.06.2004

Bağlama pəncərəni,
Qonaqpərvər ol,
Qoy külək gəlsin.

8.06.2004

Bu yağış
Döyəcləyə-döyəcləyə
Öldürdü küləyi.

- Ağac,
Hanı gəlinlik paltarın?
- Yaz bitdi, hamiləyəm.

13.06.2004

Hər çiynimdə bir yük var,
İki yüngül mələkdir
Həmin yük.

Ağ yağış yağdı,
Sarı buğdadan
Göy sünbüllər ucaldı.

Şəbnəm!
Niyə qondun otun üstünə?
Səni yedi inək…

25.06.2004

Bir əlində qılınc,
Bir əlindəsə gül var
O kişinin.

Sənin yanaqlarında
Lalə çiçəkləyib –
İki lalə.

27.06.2004

Çəliyimə süzülür göz yaşlarım,
Çəlik
Cücərəcək…

1.07.2004

Donmuşam
Şahdağın ətəyində,
Səhra arzulayıram.

Özünü sıx mənə,
Qoyma üşüsün
Divarda kölgəmiz.

3.07.2004

Sudan ayrıla bilmədi

Qalxsa da yuxaryı
Dalğa.

Bağbanın əlini kəsin,
Qolunu kəsin,
Kəsdi gülü.

7.07.2004

Aləmi bəzədi,
Özü isə lüt gəzdi.
Yazıq iynə!..

Pişikdən qorxmadı siçan,
Pişiksə onu tutdu,
Uddu.

11.07.2004

Can rahat olur,
Rahatlığı olmur saçların…
Yay küləyi!..

Qar
Yorğan kimi örtdü damı,
Elə bildi ki, qızdırır…

12.07.2004

Yetişdirək gülləri dibçəklərdə,
Onları
Dərmirlər.

14.07.2004

Arı uçdu,
Qondu çiçək üstünə,

Ballanacaq pətək…

18.07.2004

Göz, göz…
Bulağa göz dəydi və gözü qurudu.
Göz budu!!!

20.07.2004

Ağ araq içib,
Qara gün gördü
Qırmızıburun kişi.

24.07.2004

Əyri yoldasan
Düz yol gedə bilməyən
Qarışqa kimi.

26.07.2004

Zənnimcə
Gözəllik hər yerdə var,
Cəhənnəmdən savayı.

31.07.2004

Çox oxu
Və çox dinlə
Çox bilmək istəyirsənsə əgər.

3.08.2004

Qaça bilməsəydi
Yıxılmazdı ceyran,
İlan yıxılmır.

9.08.2004

Yanırsa da, yandırmır
Gecənin çadrasını
Ulduzlar.

16.08.2004

Səni itirdim,
Məni qazandım –
İtirmişəmmi məgər?

27.08.2004

Qışqırma,
Boğazın cırılar,
Və cərrah ola bilmərəm.

Gəzə bilərəm
Dənizin üstündə,
Əgər dəniz donsa.

29.08.2004

- Əzab nədir?
- Səni sevmək,
Amma sənlə ola bilməmək.

1.08.2004

- Sənin Allahın kimdir?
- Allah!
- Mənimsə Allahım sənsən!

4.09.2004

Eşqim sürgün olundu
Sibirə.
Sibir – sənin ürəyin.

6.09.2004

Tut əlimi,
Əlim çirkli deyil,
Göz yaşımla yumuşam.

8.09.2004

Ey adamlar, İnsan yaradın,
Dünyada çox azdır
İnsan.

13.09.2004

*Tamridaya!*

Səslədim səni,
Cavab vermədin,
Ölülər tərs olurlar.

26.09.2004

Həsrətin qasırğası
Dəniz qasırğasından
Çox güclü.

28.09.2004

Əl-üzümü təmizlədi,
Özüsə çirkli qaldı
Dəsmal.

8.10.2004

Qız,
Ürəyini boşaltma mənə,
Sevgi daxılım dolub.

12.10.2004

Bulud hamilədir,
Qarnında balaları var –
Yağışlar.

17.10.2004

Unutsan Allahı sən hərgah,
Səni də unudar
Allah.

19.10.2004

Dayan! Əllər yuxarı!
Əllər yuxarı –
Allaha doğru!

21.10.2004

Sənə yetsəm
Heyfsilənmərəm –
Yetən kimi ölmək olar.

Ölüləri
Torpağa verirlər –
Qarınqulu torpağa.

23.10.2004

Dumanı
Dağ üstündən qaldırmaq istəyirəm,
Don Kixotam.

25.10.2004

Çox xoşum gəlir
«Diyar» sözündən,
Çünki bu sözdə «yar» var.

27.10.2004

Azərbaycan dilim…və
«Pənbeyi-daği-cünun…»,
Can dilim!..

4.11.2004

Tez-tez
Şipşirin yuxu görürəm
Bu ap-acı dünyada.

14.11.2004

İtirsəm səni,
İtirəcəyəm
Qiymətli şe’rlərimi.

Ehe-yyy,
Həyatını tapdınmı
Həyatı itirən adam?

16.11.2004

Bilməyirlər ayaqlar
Nə çəkdiyini
Ayaqqabının.

29.11.2004

Dağa lal demə,
Eşidərsən səsini
Qışqırsan əgər.

10.12.2004

Yanıma gəlmə daha,
Unutma ki,
Unutmuşam səni.

26.12.2004

«Pul əl çirkidir!
Yarəb, qoy çox olsun bu çirk»
Dedi biri.

27.12.2004

Məncə
Doğulmamaq daha yaxşıdır.
Doğulmayan ölmür.

17.01.2005

Özüm yaşayım deyə
Məhv etdim göz yaşımı,
Yaşadım.

27.01.2005

Getdin.
Nar kimi çatdadım acığımdan.
Qanım qalmadı.

4.02.2005

Sən yeriməsən
Yeriməz kölgəm,
Yeri, ayağım, yeri!

3.04.2005

Ey vaxt, get,
Ey vaxt, get,
Ey yar, gəl ki, vaxt getməsə gəlməzsən.

6.04.2005

Qəlbində daş var,

Dəmir var,
Ey daş və dəmir daşıyan yar.

18.04.2005

Ey dağ, güllənmə,
Dağlığını itirərsən,
Bağ olarsan.

3.05.2005

Qaçma, dayan!
Qaçqın statusu verilmir
Hər qaçana.

31.05.2005

Sənin gözündə od,
Odunda göz var –
Mənim gözüm…

3.06.2005

Buludun gözləri,
Gözlərin buludu
Ağlayır yenə.

5.06.2005

Başlanğıc və son! –
Başlanğıcın sonu
Sonun başlanğıcı.

7.06.2005

Çilikləndi
Şüşə arzularım
Ayaq altdakı buz tək.

9.06.2005

Külək,
Ağacı silkələmə,
Yağış, ağlatma yarpağı.

10.06.2005

- Neçin ağlayırsan?
- Məgər görmürsən
Öldü bir kəpənək?

12.06.2005

Səni sevəcəyəm
Dəli etsə də məni
Sənin sevgin.

14.06.2005

Əsmə, ey külək,
Yağma, ey qar,
Ağac lütdür, üşüyəcək.

16.06.2005

Ərk qalasının
Divarı çatlayıb,
Yoxmu yapışqanı?

18.06.2005

Qaranlıq qaranlığı döyəcək
Günəş
Çıxmasa əgər.

20.06.2005

Ürək bağçamın
Yox quruluğu,

Neçin gülü qurudu?

22.06.2005

Yağ, ey qar,
Bu qara torpağın
Ağartmaq üçün üzünü.

24.06.2005

Qara pişik
Qaranlıqda görünməz
Gözlərini yumsa.

26.02.2005

Ayaq – yeri ayaqlayır.
Baş necə?
Göyü başlayırmı?

3.07.2005

Qısa oldu
Kibritin ömrü
Alışdırdığı ocaqdan.

7.07.2005

Mən yoldayam,
Sən yol ayrıcında.
Düş yola, gəl ardımca.

9.07.2005

Qızartdım divarı qanımla –
Öldürdüm
Ağcaqanadı.

19.07.2005

Bu qədər ağlama,
Sulama üzünü,
Üzün cücərər.

23.07.2005

Bədbəxtdir
Dərilməyən bənövşə,
Gərək deyil heç kimə.

30.07.2005

Dadlı şe'r təamında
Duz miqdarı söz –
Budur hayku!

3.08.2005

Qarabağ qaçqınları –
Köçəri quşlar…
Niyə köçmürlər???

8.08.2005

Sənin gülünü yedi öküz,
Ey bülbül,
Neçin ölmədin?

9.08.2005

Tac və taxt –
Biri oturur,
O birindəsə otururlar.

Çiynimdə mələklər,
Bir də başım.
Mane olmur yük yükə.

14.08.2005

Qəlbimdə bircə yar var,
Görəsən
Neçə yara var orda?

16.08.2005

Sizi orda basdırmışam,
Ölənlərim,
Qəlbim məzardır.

19.08.2005

Əqidəmi
Əynimə geyindim,
Lüt qalaram soyunsam.

23.08.2005

Ölümü
Ölümündən çox-çox əvvəl başlayan
Adam var.

Gül öldü,
Təzəsini dərdim.
Yaxşı ki, eşqim gül deyil.

25.08.2008

Sevgim qəzaya uğradı,
Mən keçindim.
Yaşamıram ki…

27.08.2005

Söz gülləsi atdıq
Bir-birimizə.
Hərbi münaqişə!

3.09.2005

Mən dünən ölmüşəm,
Halımı sorma,
Ərə getmisən.

15.09.2005

Qurudarmı göz yaşımı
Qarsılansam
Günün altında?

18.09.2005

Bu gün qatil olmuşam,
Öldürdüm
İçimdəki dərdimi.

20.09.2005

Yuxum qaçdı.
Köhnə qaçqındır.
Sən qaçma, ey təzə yuxu!

23.09.2005

Canlı heykəllərik,
Heykəltəraşımız –
Allahın özü!

28.09.2005

Balıqçı,
Puşkinə uyma,
Hər bəxtə düşmür qızıl balıq.

1.10.2005

*Tamridaya!*

Bəxtimin rəngi ağdı,
Qaraladın onu
Ölümünlə.

3.10.2005

Eşqimi gilə-gilə
Böldüm güllərə –
Eşq bağbanıyam.

6.10.2005

İşıqsız gecədə
Yandırmıram şam,
Yanar pərvanə.

Sanki rəssam bağbanın
Qəm rənginə boyanıb
Sarı gül.

İçirəm qəmimi
Şərbət kimi.
Bu şərbət çox acıdı.

10.10.2005

Yapışdı
Xoşbəxt qar dənəsi qara…
Mən isə tək-tənha…

Gurladı ildırım.
Bulud qorxdu,
Başladı ağlamağa.

Yumurta

Qayğanaq oldu,
Eh-h, cücə ola bilməyəcək.

12.10.2005

Ağacdələn
Ağac dəlir…
Elə bil ki, dəcəl uşaqdır.

Onu sevmirəm,
Sevməyəcəyəm!
Səni sevməkdən ötrü!!!

Sevgim hələ ölməyib,
Hələ istidir,
Ölü soyuyar.

Ey ruhum,
Get səni mənə verənin yanına –
Allahın.

14.10.2005

*Tamridaya*

Mənsizdir
Qəbrinin yanında bomboş qalan
Qəbir yerim

16.10.2005

Batarsan eşq dəryasında,
Yapış mənim
Qayıq eşqimdən.

Hara qaçırsan qadıntək?

Başdakı
Papaqdır, ya örpək?

Ehtiyat!
Elə yeri ki,
Tez qonmasın çəkmələrinə.

Günə
Sən neçə güllə atsan da dəyməz,
Söz atma mənə!

19.10.2005

«Soyuqsan» dedin,
Necə isti olum,
Saçıma qar yağıb.

22.10.2005

Əksi-səda.
Dağ dediyimi qaytardı,
Dağ neylədi ki?

27.10.2005

*Şərqşünas dostum*
*Valeh Tağıyevə!*

Suda əks olunan aya baxmıram.
Səmada bax
Aya!

29.10.2005

Sevmirəm zirvəni,
Daha bərk ağrıyır
Ordan yıxılan.

İşığı söndürmə,
Söndürər işığını
Xudavənd.

3.11.2005

Gözündə sənin
Yaxşı olmaqdan yaxşıdır
Pis olmağım.

Məndə
Nifrət energetikası var
Əğyarlara qarşı.

5.11.2005

Necə xoşdu!..
Boynuma ilan sarıldı –
Sənin hörüyün.

Tökülür göz yaşın gözümə,
Göz yaşım azdı
Guya ki…

10.11.2005

O qədər zəiflədim ki,
Havaya ilişib
Yıxıldım.

Gözlərimin uşağı var –
Göz yaşı.
Gözüm hərdən doğur.

12.11.2005

Xoşlanmadım bu gecədən,
Ulduzları gizlətdi
Bulud

*Lənkəran-Bakı yolu*

Yoldayıq.
Sözümüz uzun olsun ki,
Yolumuz qısalsın.

- Deyirlər ay batacaq…
- Batsın da.
O qədər batmışıq ki…

Yayın istisi…
Sarı gün
Qarsıladı mən qaragünü.

15.11.2005

- Hambal, yükün hanı bəs?
- Hər göz görə bilməz
Qəm yükünü.

19.11.2005

Nə qul? Nə şah?
Hərə öz yerində olacaq
O dünyada.

Bu gecə
Paxıllıq etdi bulud –
Ayı məndən gizlədi.

21.11.2005

Göz yaşım qalmadı ürəyimdə,
Onu qovladı
Dərdim.

Sən güclü adamsan?
Məncə, güclüsən!
Qorxma zəif yeldən!!!

23.11.2005

Sən olmazdın
Mən olmasaydım,
Mənə minnətdar ol, kölgəm!

25.11.2005

Qəlbimdəsən mənim.
Axtaran səni
Tapmayacaq səni.

Dəlidən qaç,
Dəli öldürər səni.
Eşq dəlisiyəm mən.

27.11.2005

Gül açıldı…
Güllə açıldı…
Biri yaxşıdır, biri pis.

Uşaq eşitmək istər,
Qoca danışmaq səni,
Ey nağıl.

29.11.2005

Qocalmaq

Və əcəl gözləmək nə gərək?
Gözləmə, yaşa!

Girmə
Özün yaratdığın bataqlığa,
Özün batarsan.

Özünə qəsd – eləmə!
İntihar – eləmə!
Ümid – elə!!!

1.12.2005

Guya onu sevirsən.
Sevmirsən.
Aldadırsan özünü.

Gəl bir-birimizi
Başa düşək
Ağrı olmasın başa.

3.12.2005

Balıq və qulağı…
Bəs niyə sahildə
Balıqqulağı?

Mən uduza bilmirəm,
Udmağa cəhd eləmə
Məni sən.

4.12.2005

Yarımı apardı,
Məni tək qoydu Allah
Özü kimi.

6.12.2005

Eşqini sapanda qoyub atdın,
Mənə dəymədi,
Ötdü.

Dünya fırlanır,
Cızığından çıxmır,
Bəs bizə nə düşüb?

Gülləri dərmə,
Mənə göndərmə,
Dərilən güllər ölür.

8.12.2005

Bu günə «salam» dedim,
«Sağ ol» deyə biləcəyəmmi
Sabaha?

Ölüm
Həyata borcludu –
O olmasaydı, bu olmazdı.

Eşqimi
Ərməğan etmirəm sənə,
Ovcuma yerləşmir.

10.12.2005

Alaq, qalxma,
Səni sulamıram,
Gülü sulayıram mən.

14.12.2005

Qışın bu soyuq çağı
Elə istidir ki!
Sən gəlibsən.

17.12.2005

- Dilənçi, torban nə böyükdür?
- İçi doludur
Dərdimlə.

19.12.2005

Tanrıya inanıram,
O, tək olsa da,
Məni tək qoymaz.

21.12.2005

- Nə əkirsən, əkinçi?
- Qəmimi.
- Əkmə, bitəcək yenə.

23.12.2005

Yağış qaval çalır,
Külək – tütək…
Çalhaçaldı bayaqdan.

25.12.2005

İt İli gəldi.
Günümüz it günü olmasın,
İlahi!

31.12.2005,
*gecə saat 12*

«Ac ol, kişi ol!»,
Belə zərbülməsəl var.

Acdan nə kişi?

1.01.2006

Ətirli, ya ətirsiz
Fərqi yox sənə.
Təki gül olsun.

Qəlbimdə mənim
Sevgi yanğını var.
Kül olmuram neçin?

2.01.2006

Güman iflic oldu,
Ümid öldü.
Yaşamaq olmur daha.

5.01.2006

Sarğıla,
Ürəyimi sarğıla,
Dərdlərim çıxa bilər.

8.01.2006

Şuşa getdi,
Laçın əldən çıxdı…
Qeyrət də yuxularmış.

Onu çılpaq dəfn eləməyin,
Köynək –
Şəhidin kəfəni!.

10.01.2006

Bu necə dünya?
Doğumlar eyni cür,

Ölümlər müxtəlif.

Quş üçüb gedər
Qəfəs açılsa.
Aç qəfəsimi, Tanrım.

18.01.2006

Mənə güllə dəydi,
Al bayraq oldu köynəyim,
Şəhidəm.

26.01.2006

Daşlar cücərsəydi
Evlər uçardı,
Yaxşı ki, cücərmir.

28.01.2006

Aç qəlbimin qapısını,
Məhəbbət gəlir
Ürəyimdə.

20.01.2006

Qələmimi
Nizəyə keçirtdim,
Döyüşkən oldu şeirim.

3.02.2006

Gəl al-ver edək:
Eşqimi al, eşqini ver,
Vəssalam!

Sevəcəyəm səni
Cəhənnəmdə də olsam,

Ey Allah!

Mavi səmanın
Qara buludundan
Ağ yağış doğuldu.

9.02.2006

İlgəkli ip
Baş qucmaq istəyir,
Başını qoru, şair!

11.02.2006

Ümid yerimdə daş var,
Göyərməyəcək
Bu daşın altı.

Yuxumu suya dedim,
Eşitdi-eşitmədi
Bilmədim.

20.02.2006

Ürəyimin quluyam,
Qulaq asmışam ona
Həmişə.

26.02.2006

Açarıydım
Sənin qıfılının,
Neçin itirdin məni?

01.03.2006

Cırcırama,

Cırma özünü
Görmürsən bülbül oxuyur?

02.03.2006

Qur'an –
Allahın məkanına çatan nərdivan!
Oxu, çat!!!

04.03.2006

Qatildir hər atıcı –
Ən azı
Yaralayır havanı.

09.03.2006

Sevirəm
Səni sevməməyi –
Məni sevmədiyin üçün.

19.03.2006

*Tamridanın xatirəsinə*

O öldü hamı üçün,
Mənimçinsə ölməyib,
Diridir.

23.02.2006

Əvvəllər «tovariş» deyərdilər
İndi «hacı»,
Mə'tələm.

25.03.2006

Eşq nəhəngiyəm!
Zəhləm gedir mənim

Eşq liliputundan.

28.03.2006

Gül və güllə.
Açılanda
Gül qızarır, güllə qızardır.

3.04.2006

Ağac soyuqda soyunur,
Adam istidə.
Ağac tablı.

9.04.2006

Güzgüyə baxmıram.
Sənə baxıram.
Sənsən mənim güzgüm.

11.04.2006

Yandırma ürəyini,
Kül olar.
Kül nəyə yarayır ki?

19.04.2006

Olmaz qadın kişi
Şalvar geysə də,
Siqaret çəksə də.

26.04.2006

Göz-gözə baxmaqda deyil,
Eyni səmtə baxmaqdadır
Eşq!

2.05.2006

Bir sifəti var
Xəyanətin
Kişdə də, qadında da!

4.05.2006

Əsəndə
Öpür külək Yer kürəsini,
Əsmək istərəm.

23.05.2006

Sabir –
Dərdə gülüşlə dəva istəyən
Vərəmli şair.

2.06.2006

- Nə yaman əyilib
Qəddin?
Təvazö yükü daşıyıram.

7.06.2006

Özgənin yox,
Öz papağımı qoydum başıma,
Mən mənəm!

18.06.2006

Gəl, palçıqlı yolla gəl,
Sonradan
Öpüm ayaq izini.

19.06.2006

Eşq toxumu əkdim qəlbində,
Gözlə,
Toxum dərhal bitmir.

22.06.2006

Eşqim sağdır,
Cəllad deyiləm,
Öldürməyi bacarmıram.

25.06.2006

Qaşıqla pis işləsəm də,
Yaxşı işləyirəm
Qələmlə.

28.06.2006

Gün yenə də yanmayacaq.
Buludlar.
Şəhər islanacaq.

30.07.2006

Ötən gün ölüdü,
Dirilməz!
Gedək sappasağ sabaha!

4.07.2006

Adamlar
Qananda cəmiyyət olur,
Qanmayanda sürü.

9.07.2006

Ucuz olma,
Qədrini bil vaxtın.
Heç nə yoxdur vaxtdan baha.

16.07.2006

Nə gözəlsən!..

Nə həvəslə ölərdim
Sənin qucağında!..

24.07.2006

Balıq tutursan, balıqçı,
Neylərsən
Balıq səni tutsa?

27.07.2006

Qələm məni var edir,
Mənsə qələmi yox.
Yazıq qələm…

29.07.2006

Geniş bir ov yeridir dünya –
Adam ov,
Əzrayıl ovçu.

30.07.2006

Heç kim ölmür,
Hamı öldürülür
Allahın hökmü ilə.

4.08.2006

Soyuqdan qasmalısan
Üşümək istəməsən.
İstiyəm!..

6.08.2006

Ey qızdırma,
Canıma dolub məni qızdırma
Donsam da.

12.08.2006

*Hacı Rafiq Şirvaniyə!*

Molla məscidə çağırır,
Saqi meyxanəyə.
Çaş-başam.

14.08.2006

Dedin alnından öpüm.
Yox, ey yar,
Alın yazın pozular.

23.08.2008

Mən sənə həsrət, sən mənə.
Birləşəcəyikmi?
Ya qismət!

24.09.2006

Ey hey yerə baxan adam,
Günə bax
Günəbaxan kimi.

26.09.2006

Necə olur ki,
Köynəyin alışmır?
Elə istisən ki…

10.10.2006

Bu kibritdi, bu odundu,
Yandır sobanı,
Soba dondu.

13.10.2006

Sanıram ki, mən
Keçən əsrin
Sonuncu romantikiyəm.

26.10.2006

Qocalmışam mən daha,
Çox xəstələnib,
Az yaşayıram.

29.10.2006

Ölüm – bədəni tərk edən həyat,
Həyat ölümmüş,
Heyhat!..

6.11.2006

Gəlib çıxmır ki qucaqlaşaq,
Məni sevə bilmir
Əcəl.

26.11.2006

Çətindir –
Özünü eşitmək
Başqasını eşitməkdən.

3.12.2006

Yaralanır mələklər
Göylərə atılan
Güllələrdən.

7.12.2006

Ürəyim zəmidir,
Toxumu isə – məhəbbət.
Əkdim!

9.12.2006

Dalaşıram kölgəmlə –
Arxama düşüb
İzləyir məni.

15.12.2006

Səhv etməməyi
Səhv edə-edə
Öyrənirlər insanlar.

23.12.2006

Qadın yuvadır,
Həmin yuvadan
Pərvazlanır balalar.

29.12.2006

Qış əsəbiləşir,
Əsəbiləşirik biz də,
Soyuqdur!

30.12.2006

- Ey həkim, ağır bir xəstəliyim var.
- Xərçəng?
- Yox, yox! Eşq!!

2.01.2007

«Bir dəli şeytan deyir…»,
Dəlidir
Dəliyə qulaq asan.

8.01.2007

Yaxşı ki,

Halın yaxşı olmadı,
Ey yamanlıq eləyən.

10.01.2007

Öldürə də bilir,
Yaşada da bilir
Söz enerjisi.

12.01.2007

*Tamridaya!*

Yaddaş –
Başın ən baş funksiyası!
Yaddaşımdasan mənim!!!

21.01.2007

Çoxdandır
Qarət edən yox qəlbimi,
Oğru istəyirəm!

23.01.2007

Səndə qoyub ayrıldım
Sənin ürəyini,
Götürmədim.

2.02.2007

Qiymətlər yenə qalxdı,
Odu sönür
Odlar ölkəsinin.

3.02.2007

Çox kəs olar qəhrəman,
Amma azdır

Adam olan adam.

5.02.2007

Neçin yaşatdın
Yaraladığın eşqimi?
Öldür onu!

7.02.2007

Uzunluq etmə!
Qısadırsa da bu –
Hay-küy deyil hayku!

8.02.2007

Kababımı bişirmək üçün
Yana-yana ölür
Kömür.

11.02.2007

Ulduz axır…
Hara düşür görəsən?
Çiynimə düşməz ki?

12.02.2007

Şərab içirəm,
Dərdimi unutmaq üçün
Müvəqqəti.

13.02.2007

Eh, amansızdır daş –
Başa da dəyir,
Böyrəyə də düşür.

14.02.2007

Başqasını eşidirsən,
Özünü də eşit,
Ey adam!

17.02.2007

On barmağım var.
Nə xeyri yumruğa dönməsə
Barmaqlar?

25.02.2007

Həqiqət toxmağımı
Vurmaq istəyirəm
Yalançıya.

27.02.2007

Həm şirinlik, həm acılıq –
Həm bal verir, həm sancır
Arı.

5.03.2007

Kosmos!
Başqa planetlərçin kosmos deyilmi
Yer Kürəsi?

7.03.2007

Şahinəm,
Amma uça bilmirəm.
Şahinnəmi məgər mən?

11.03.2007

- Ölüm nədir?
- Bilmirəm,
Biləcəyəm ölümümdən sonra.

18.03.2007

Qış getdisə də,
Yaz gəldisə də,
Göyərmədi ümidim.

20.03.2007

Gəlirik getməkçin,
Gedirik qalmaqçın.
Eh, hamı qalmır.

23.03.2007

Ürəyimin içində
Öpürəm səni,
Sən ki, ordasan.

26.03.2007

Quyunu
Dərin qazma,
Ola bilər ki, özün düşəsən.

29.03.2007

Bu gün yatıb
Sabah oyanacaqsan.
Hər yatan oyanmır.

30.03.2007

Gözündə
Məhəbbət və nifrət var,
Çıxart ikincisini.

2.04.2007

Yansa çıraq,

Qaçacaq –
Qaranlığı qovmağa nə var ki?

7.04.2007

Ey dünya, boğazın hanı?
Boğmaq istəyirəm səni
Mən.

12.04.2007

Eşq gələndə ağıl itir,
Ağıl gələndə eşq,
Neyləyək?

17.04.2007

İlantək qıvrılıb yatır,
Sənin ürəyində
Qısqanclıq.

19.04.2007

Yorulmaz qanadları var
Xəyalımın,
Hey uçur, uçur…

20.04.2007

Öldürəcəksən məni sən
Öpə-öpə,
Yaxşı ölümdür.

22.04.2007

Bir nadan gördüm ki,
Yaxşı işləyir
Ayağı başından.

27.04.2007

İnsan insandan cücərdi,
Gül torpaqdan.
Yer özü hardan?

1.05.2007

Cəld ol,
Cır paltarını, ey qönçə,
Gül görmək istəyirəm.

3.05.2007

Məcnun dəli,
Mən divanə,
Varmı əmməlli-başlı aşiq?

5.05.2007

Doymur,
Acgözdür qəbir,
Ağzını açıb adam gözləyir.

6.05.2007

Ayıbdır,
Kəfənimi bürüyün mənə,
Çılpaq ölüyəm.

9.05.2007

Qış bir illiyə yıxıldı,
Onu itələyib
Yaz gəldi.

10.05.2007

Süpürüb atma külümü,
Yığ və qoru,

Qor var içində.

15.05.2007

Daha üşüməzlər,
Əllərim
Əlcək oldu əllərinə.

17.05.2007

Bir gün,
Bir gündür ki, yatır qapım,
Onu bir oyadan yox.

21.05.2007

Bütövəm,
Yarımçıq doğulmamışam,
Ey yarımçıq adam.

23.05.2007

Sən
Nə üzsüz adamsan?
Gözlərim üzünü görməz bir də!

24.05.2007

Ağacı kəsdilər,
Heç kim heyfsilənmədi –
Bar vermirdi.

25.05.2007

*Tamridaya!*

Mənim çarpayımda
Yatan yoxdur məndən başqa.
Sən – yoxsan!

27.05.2007

Əksim gözünə düşüb,
Yum onu
Ki, orda gecələyim.

29.05.2007

Şaxta, gəlmə,
Özüm cəhənnəmə,
Kölgəm üşüyər yerdə.

31.05.2007

Fələk yaşamağa qoymur,
Mələk ölməyə.
Neynim axı?

3.06.2007

Gözün alacalandı,
Önündəki ilandı,
Dolan keç.

5.06.2007

Gənclikdən qaçmaqdı,
Ölümə yaxınlaşmaqdı
Qocalıq.

7.06.2007

*Məmmədbağır Bağırzadəni xatırladım…*

Çarəli dərdinə çarə tapılmadı,
Öldü
Məmmədbağır.

9.06.2007

Bu
Hay-kül şe'ri deyil, haykudu,
Əsl şe'r də budu!

19.06.2007

- Tez tutun onu!
- Niyə?
- Oğrudu, qəlbimi oğurladı.

21.06.2007

Yaxşı ki,
Dəliblər günəşi,
Şüasız qalardıq yoxsa.

21.06.2007

Güllər səssiz açılır,
Dillər hay-küylə.
Xoşdur səssizlik.

25.06.2007

Ey şahinim,
Uç, qon başıma, şah olum,
Şahlıq quşumsan.

28.06.2007

Qızın dodağı qönçə idi,
Busələnib
Çiçəkləndi.

1.07.2007

Ağır Yer Kürəsi

Necə də yüngüldür –
Heç yerə düşmür.

8.07.2007

Kəlləm bərkdən də bərk!
Başımda qoz sındırma,
Qozun sınar.

10.07.2007

Üstümə dərd yağdı,
Yerə qar.
Qar əridi, dərd qaldı.

12.07.2007

Ot çıxdı
At öləndən sonra.
Bu otun ata nə xeyri?

18.07.2007

Bir ağıllı aşiq vardı –
Məcnundu!
Hamımız dəliyik!!!

20.07.2007

Ətəyini kəs,
Əlimi kəsmə,
Məgər qandan qorxmursan?

22.07.2007

Sən elə güzgüsən ki,
Mənə baxırsan,
Görmürsən məni.

27.07.2007

Başqa işi yoxmu?
Yer daim yerində sayır.
Darıxmır?

30.07.2007

*Tamridaya!*

Başım qəmlə dolu,
Ürəyimsə boş…
İtirmişəm səni.

4.08.2007
*Məzarı başında*

Kosmonavtı adamlar,
Şairisə
Yetişdirir Allah.

6.08.2007

Onu aparırlar.
Hara aparırlar bilmir.
Ölü!

12.08.2007

## TƏBRİKNAMƏLƏR

***Şahin Fazil, qocalığın mübarək!***

*İbrahim peyğəmbər bir gün güzgüyə baxanda saqqalında ağ tük görür. Allah-taalaya üz tutub soruşur: «-İlahi, bu nə ağ tükdür mənim saqqalımda?». Ona nida gəlir: «Bu mənim sənə göndərdiyim vüqarındır». Peyğəmbər deyir: «İlahi, mənim vüqarımı çox elə». Bircə gündən sonra onun saqqalı büsbütün ağarır.*
*İbrahim peyğəmbərin hədislərindən.*

Qocalığın bibəri var, qəndi var,
Şahin Fazil, qocalığın mübarək.
Qoca olub cavan qalmaq fəndi var,
Şahin Fazil, qocalığın mübarək.

Göz qoyuram: Bu qocadır, bu qarı…
Zülfə qonub cavanlığın buxarı,
Ağ saç imiş qocalığın vüqarı,
Şahin Fazil, qocalığın mübarək.

Dönə-dönə alqışlayın qocanı,
Mən xoşladım, siz xoşlayan qocanı,
Deyingənsə, bağışlayın qocanı,
Şahin Fazil, qocalığın mübarək.

Hərdən fərəh, hərdən qəmdi qocalıq,
Gözdə olan nurdu, nəmdi qocalıq,
Hər ömürdə bir aləmdi qocalıq,
Şahin Fazil, qocalığın mübarək.

Qocalığı sən ki, fürsət bilirsən,

Hər gününü ömrə ne’mət bilirsən,
Hər adama deyil qismət, bilirsən,
Şahin Fazil, qocalığın mübarək.

Cavan gördüm, vallah sevib qocanı,
Qoca gördüm, billah, sevib qocanı,
Qocalıbsa, Allah sevib qocanı,
Şahin Fazil, qocalığın mübarək.

Saf qəzəlin bayraq tutan əli – sən,
Havalı – sən, divanə – sən, dəli – sən,
Cavanlıqdan əl çəkməyən zəlisən,
Şahin Fazil, qocalığın mübarək.

Seviləni sevib murada çatdın,
Görən varmı məgər munis, yar atdın,
Qoca vaxtı bir «Təzkirə» yaratdın,
Şahin Fazil, qocalığın mübarək.

1.01.2003

## *Qızımın qızı*

*2003-cü il noyabrın 4-də Tamridanın nəvəsi Tamrida dünyaya gəldi. Gözüm aydın olsun!*

Parladı bir qızın tale ulduzu,
Sevdalı bir ömrün yazı doğuldu.
Ülviyyənin qızı, Samirin qızı,
Şahinin qızının qızı doğuldu.

İnsanam quruya, yaşa da yanan,
Cansızdım, gəlmişəm mən cana indi.
Hər iki gözümdən, qoşa dayanan

İki adam baxır cahana indi.

Bir gözüm ağlayır, biri şən mənim,
Birinin həzzi var, kədəri yoxdur.
İki qonşu baxır üzümdən mənim,
Qonşunun qonşudan xəbəri yoxdur.

Əriyirdi ürək, yanırdı sinə,
Həyatım tezliklə sönəsi idi.
İkinci – nəvədir birincisinə,
Birinci – nəvənin nənəsi idi.

Nəhayət yetişdim ülvi niyyətə,
Sanıram başımın tacı gəlibdir.
Birinci – qovuşub əbədiyyətə,
İkinci – bacıya bacı gəlibdir.

Qəlbimə kədər də, həzz də yönəlib,
İki Tamridanın həsrətindəyəm.
Biri gedibsə də, o biri gəlib,
Biri qadınımdı, ikinci-nəvəm.

Bir gözüm ağlayır, biri şən mənim,
Birinin həzzi var, kədəri yoxdur.
İki qonşu baxır üzümdən mənim,
Qonşunun qonşudan xəbəri yoxdur.

11.11.2003

***Qəzəl***

*Bu gün şair Qiymət Məhərrəmlinin 40 yaşı tamam oldu. mübarək!*

Alqış şərəfə! Öylə şərafətlidi Qiymət,
Xalqa, vətənə eşqü məhəbbətlidi Qiymət.

Göyçək Şəkinin ləhcəsi var ixtilatında,
Söz yox ki, şirin sözlüdü, söhbətlidi Qiymət.

Zənginliyi, gizlin ki deyil, hər kəsə bəlli,
Var onda şe'r sərvəti, sərvətlidi Qiymət.

Qüvvət sarıdan bəxti onun öylə gətirmiş,
Hər müşkülə dözməkdədi, qüvvətlidi Qiymət.

«Məcməş-şüəra» məclisinin katibi oldu,
Layiqdi buna, çünki ləyaqətlidi Qiymət.

Elmində və şe'rində kəramət gəzirəm mən,
Söz sahibidir, sözlə kəramətlidi Qiymət.

Çox həsrətə üstün gələ bilmiş bu yaşında,
Amma Qarabağ yurduna həsrətlidi Qiymət.

Zillətlərə tab etməyə dağ taqəti vardır,
Zillət həsəd eylər necə taqətlidi Qiymət.

Ev qayğısı ev boyda təpər-güc tələb eylər,
Çöl qayğısı çöl boyda! Mətanətlidi Qiymət.

Övladına mehrində tərəddüd ola bilməz,
Həvva kimidir, Adəmə diqqətlidi Qiymət.

Artmaqda onun hörməti gündən-günə, çünki
Hörmətli adamlar ilə hörmətlidi Qiymət.

Qiymət verəsi olsa deyər bunları Şahin:
Qiymətlidi, qiymətlidi, qiymətlidi Qiymət!

2.12.2003

### *Qəzəl*

*Alim filoloq Ramiz Fasehin «Əruz vəzninin tədrisi» kitabının təqdimatı münasibətilə*

Qələmi döndəribən xəncərə Ramiz Faseh
Bənzəyir hərbə gedən əskərə Ramiz Faseh.

Üzbəüz cəng eləyir elmi yox insanlarla,
Girməyibdir hələ ki, səngərə Ramiz Faseh.

Qələmin qədrini dəftər qədəri bilmiş ki,
Fikrini verdi qələm-dəftərə Ramiz Faseh.

Sözbəsöz, nöqtəbənöqtə oxuyub Qur'anı,
Söz qoşubdur ulu peyğəmbərə Ramiz Faseh.

Çatan azdır ona irfanü təsəvvüfdə hələ,
Bənzəyir fəlsəfədə sərvərə Ramiz Faseh.

Başına çərxi-fələkdən elə yağmış daşlar
E'tina eyləməyir qənbərə Ramiz Faseh.

Mat edər bir neçə mollanı fəsahətdə bu gün
Çıxası olsa əgər minbərə Ramiz Faseh.

Şah Füzuli babaya səcdə edir hər ləhzə,
Seyyidə, Mirzə Əli Əkbərə Ramiz Faseh.

Şahina, söz zərina öylə olub aludə
Elmdə bənzəmədə zərgərə Ramiz Faseh.

6.12.2003
*Bülbülə kəndi*

### *Qəzəl*

*Həkim Qəninin 85 baharı münasibəti ilə*

«Hər həkim hikməti bilməz» deyə hökm etdi qəni,
Ey həkimlər, eşidin Şahini: Hikmətdi Qəni!

Ötən hər bir günü hərçənd qənimət bildi,
Ötən hər bir günə hər ləhzə qənimətdi Qəni.

Söhbətindən doyan adəm hələ mən görməmişəm,
Oldu şahid eşidənlər ki, kəramətdi Qəni.

Eynəyim olmasa mən kor kimiyəm, ey Rəbbim,
Mən kimi eynəyə möhtaclara ibrətdi Qəni.

O, deyil adi qığılcım ki, alov xəlq etsin,
Oddu, atəşdi təmamən və hərarətdi Qəni.

Birinə verdi fərasət, birinə fəhm Allah,
Amma, başdan-ayağa fəhmü fərasətdi Qəni.

O, Füzuli babanı yad eləyir günlərlə,
Hanı Vahid ki, görəydi, ona həsrətdi Qəni.

Ömrünü qayçılayanlar tapılır hərdənbir,
Qənini hifz eləyək, məclisə ziynətdi Qəni.

Cananın seyri gözündən qaça bilmir əsla,
Cananı seyr elə ömrün boyu, fürsətdi, Qəni!

Tanrısından sənə Şahin azı yüz yaş diləyir,
On beş ildən sora yüz yaş sənə qismətdi, Qəni!

18.02.2003

## *Qəzəl*

*Respublikanın əməkdar rəssamı Adil Rüstəmovun 60 yaşı münasibəti ilə*

Tüstü rəngində görünməkdədi ahın rəngi,
Mən görə bilməyirəm, varmı günahın rəngi?

Aşikardır bu günün rəngi ki, hər gün görürük,
Olacaq bəs nə təhər rəng sabahın rəngi?

Göydə Allahdı pənah, yerdə pənahım – Qur’an,
Mərhəmət rəngidi, əlbəttə pənahın rəngi.

Ey «Segah» aşiqi, «Rast» aşiqi Adil Rüstəm,
Hansı rəngdir görəsən «Rast»ü «Segah»ın rəngi?

Qaramı qır sayağı, qırmızımı lalə kimi –
Neçə rəng olmalıdır səncə silahın rəngi?

Sağı ağ görməyirəm, sol da qaranlıqdı mənə,
Sağ qara, sol da qara, birmi cinahın rəngi?

Şahısan sənətinin, zirvədə gördükdə qulu

Tutular qarə buludlar kimi şahın rəngi.

Fırçanı şahinə ver rəng ilə pozsun günahı,
Mən görə bilməyirəm, varmı günahın rəngi?

9.03.2003

### *Qəzəl*

*İstedadlı me'mar Zərnaza 50 baharı münasibəti ilə*

Azər elinin bir elə dildarıdı Zərnaz,
Dost kəlməsinin bəlkə də me'yarıdı Zərnaz.

Qəlbində Şəki eşqi elə həkk olunub ki,
Dilbər Şəkinin dostu, vəfadarıdı Zərnaz.

«Düzlük» ki deyirlər, onu təsdiq eləyibdir,
«Bədlik» ki deyirlər, onun inkarıdı Zərnaz.

Me'marı demək azdı ona odlu bu xalqın,
Me'marların bəlkə də me'marıdı Zərnaz.

Çox nazəninin nazını şəkk altına almış,
Çox sərvinazın sərvəri, sərdarıdı Zərnaz.

Şahin, onu xoşbəxt eləsin taleyi, bəxti,
Bir gün görərik bir sevənin yarıdı Zərnaz.

5.09.2003

### *Qəzəl*

*Şair, bəstəkar, xanəndə və dərviş dostum Yaşar Cahidin bir musiqi klipinin təqdimatında oxunan şe'r*

Yəqin ki, tək deyil, Yer Kürrəsində xeyli var Cahid,
Buna yoxdur qətiyyən şübhə ki, təkdir Yaşar Cahid.

Mənimlə Məşhədə getdi və oldu məşhədi orda,
Gedib Həccə hacı oldu iki yol əzmkar Cahid.

Bəli, ovqatı keçməkdə səyahətlərdə günlərlə,
Nə var ki çəkməyə həzzi, çəkibdir intizar Cahid.

Baxıb naz ilə, ey saqi, onu meyxanəyə çəkmə,
Sürud ilə, qəzəllərlə olur daim xumar Cahid.

Həmi şair, həmi xanəndə, həm dərviş olan kimdir?
Dilimdən tez səda qopdu: O kəs şəksiz olar Cahid!

Sənin mədhində, ya Allah, sürud etdi bizə təqdim,
İlahinamələr yazdı, İlahi, bəstəkar cahid.

Neçə övladı var ikən yenə olmaqdadır zahir,
Özündən sonra qoymaqda əsərlər yadigar Cahid.

İkinci sətrini təkrar edir Şahin bu şe'rində:
«Buna yoxdur qətiyyən şübhə ki, təkdir Yaşar Cahid!».

31.03.2004

### *Qəzəl*

*Professor Kərim Kərimovun yubileyi münasibəti ilə*

Dağ çayına gör necə bənzər Kərim!..
Bənzəyə bilməz Kərimə hər Kərim.

Öylə seyiddir ki, sədaqətlidir,
Gündə deyir Allaha «əkbər» Kərim.

Söhbəti çoxdur, sözü hədsiz..Ona
Söyləmişəm mən «Sinədəftər Kərim».

Yardım edir bir neçə nazirliyə,
Bir neçə elm əhlinə sərvər Kərim.

Gör nə qədər ölkəyə düşmüş yolu,
Çox səfərə olbu səfərbər Kərim.

Hər sözü, hər söhbəti könlümcədir,
Zər kimi söz söylədi zərgər Kərim.

Şahini hər şahinə oxşatmayın,
Bənzəyə bilməz Kərimə hər Kərim.

16.05.2004

## *Qəzəl*

*Həkim Qəni-85*

Həm təbibdir, həm həkimdir, öylə hikmətdir Qəni,
Hifz edək biz, çünki Vahiddən əmanətdir Qəni.

Heyran olmuşdur Füzuli söyləyən misralərə,
«Heyrət, ey büt!..» söyləmiş şair ki, heyrətdir Qəni.

Şövq ilən gündüz-gecə söz söylər imkan versələr,
Dinməsinlər qeyri şairlər, kifayətdir Qəni.

Dildə «canan» kəlməsi, qəlbində canan eşqi var,
Cananı vəsf eyləyir daim, kəramətdir Qəni.

Öylə kəslər görmüşəm yaş azsa da salim deyil,
Tanrıya olsun şükürlər ki, səlamətdir Qəni.

Hər keçən gün barədə söylər «qənimətdir, keçir»,
100 yaşa 15 qalıbdırsa qənimətdir Qəni.

İstiqamət Vahid idi, indi vahiddir özü,
Şahina, çox şair üçün istiqamətdir Qəni.

6.02.2005

### *Qəzəl*

*Tələbəlik dostum, görkəmli şərqşünas Vasim Məmmədəliyevə!*

Qəflətdə qalıb çox günü vermiş yelə Şahin,
Ömrün gəmisi çatmadadır sahilə, Şahin.

İrfani bulaq oldu nəsib Vasimə, amma,
İrfan bulağından su içib bir gilə Şahin.

Təhsilini Vasim ilə birlikdə alıbdır,
Vasim kimi yetmişmi məgər təhsilə Şahin?

Mən tarixə, Vasim dilə meyl eylədi, ey dil,
Məqsudə yetişdi elə Vasim, belə Şahin.

Gül sözlü, çiçək sözlü gözəllər nə qədər var…
Vasim çiçəyə aşiq olubdur, gülə Şahin.

Eşqin dili Şahindədi, elmin dili – onda,
Yarəb, düşəcəkdir yenə dildən-dilə Şahin.

Mən saqiyə bəndəm, o isə Həccə gedibdir,
Həcc xeyrini, eykaş, onuntək bilə Şahin.

Vasim görəni Şahin, hələ görməyəcəkdir,
Vasim biləni bilməyəcəkdir hələ Şahin.

7.02.2005

### *Qəzəl*

*Bu gün 110 yaşlı Əliağa Vahidin doğum günüdür. Mübarək olsun!*

Qəzələ Əliağa adlı ağa Vahid gəldi,
İstədi şe'rə məhəbbət yağa, Vahid gəldi.

Şir tək basdı qədəm meydanına Şirvanın,
Azər adlı ulu bir torpağa Vahid gəlid.

Sadə söz ahusunu ovlamağın vaxtıydı,
Qələmi etdi silah, ovlağa Vahid gəldi.

Əruzun bağibanı Seyyid idi, ölmüşdü,
Bağda güllər quruyanda bağa Vahid gəldi.

Ədəbiyyatda qəzəl bayrağı bəd haldaydı,
Adını yazmaq üçün bayrağa Vahid gəoli.

Demirəm mən ki, şe'r nehrəsi qaymaqsızdı,
Gəldi, bal qatmaq üçün qaymağa Vahid gəldi.

İstiqamət nə sol oldu, nə də sağ, düz getdi,
Amma, at çapmaq üçün sol-sağa Vahid gəldi.

Deməyin «sadə yazır şe'rini Şahin Fazil»,

Hökmdar sadəliyə Əliağa Vahid gəldi.

18.02.2005

***Qəzəl***

*Şairə Həyat Şəminin və Azər bəyin toyu münasibətilə*

Sevdayə cahanda tələbat olmasa, olmaz!
Eşq əhlinə eşq ilə nicat olmasa, olmaz!

Eşq öylə nabatdır ki, odur mə'nəvi cövhər,
Bir ləhzə həyatda o nabat olmasa, olmaz!

Həvva ilə Adəm yolunu keçməli xilqət,
Eşqsizliyə qarşı hərəkat olmasa, olmaz!

Sevda elə ne'mət ki, edir hər kəsi heyran,
İnsan əgər aşiq ola, mat olmasa, olmaz!

Diz çökməyi vardır arabir hökmdarın da,
Dildarın önündə ikiqat olmasa, olmaz!

Əğyarlərin cismi mərəz çənginə düşsün,
Aşiqlərimizsə salamat olmasa, olmaz!

Hərçənd Füzuli dedi «eşq içrə cəfa var»,
Hərdən qəzəl içrə zarafat olmasa, olmaz!

Gündən-günə qəlb içrə çiçəklənməsi eşqin
Əlbəttə, dəyanət və səbat olmasa, olmaz!

Şahin, biləcək qədrini Azər bu həyatın,
Aşiqdə həyat eşqi Həyat olmasa, olmaz!

15.10.2004

***Qit'ə***
*Böyük şərqşünas alim, akademik Əbdülkərim Əlizadənin qarşıdakı 100 illik yubileyi münasibətilə*

Bir neçə Əbdül, Kərim yaddaşıma həkk olub,
Amma deyil onların heç biri Əbdülkərim.

Zehni iti, qəlbi gen, fikri geniş, hüsnü xoş…
Tərk eləmir heç zaman xatiri Əbdülkərim.

Bədliyi bədxahların etdi xeyirxah onu.
Eylədi bədxahlara tə'siri Əbdülkərim.

Kimdə ki təqsir var, oldusa təqsirkar,
Əfv eləyə bilmədi təqsiri Əbdülkərim.

Öylə ki, monqolların tədqiqinə başladı,
Çəkdi Hülakulara şəmşiri Əbdülkərim.

Elmi kimi şe'ri də qəlbimi ovsunladı,
Sən demə alimlərin şairi – Əbdülkərim!

Mən ona mahir desəm səhv edərəm çox böyük,
Bəlkə də mahirlərin mahiri Əbdülkərim!

Gördü ki, Vaqif kimi ciddi Buduq əhli var,
Etdi rəvan üstünə təqdiri Əbdülkərim.

Mən onu ölməz görən, canlı bilən Şahinəm,
Yox ölü Əbdülkərim, var diri Əbdülkərim!!!

13.03.2005

***Qəzəl***

*«Məcməüş-şüəra»nın ağbirçək üzvü*
*Nəcibə xanım Nəcibə!*

Hə kəsdə şərəf yoxsa şərafətli deyilməz,
Hər bir nəcib insanə nəcabətli deyilməz.

Bil qədrini fürsət dəminin, çox nəsib olmur,
Kim fürsəti fövt etsə fərasətli deyilməz.

Mərd olmayan əskərdə şücaət üzə çıxmaz,
Rəhbər kərəm etməzsə kəramətli deyilməz.

Mədhiyyə yazan şairə məddah deyilərsə,
Fəxriyyə yazan şəxsə fəxarətli deyilməz.

Əğyar «cəsurəm» dedi, əlbəttə deyildir,
Sən böylə cəsur olma, cəsarətli deyilməz.

Naz ilə nəzakət gərək əndazədə olsun,
Naz eyləyən hər şəxsə nəzakətli deyilməz.

Şahin, elə ömr et ki, nəciblik ola zahir,
Hər bir nəcib insanə nəcabətli deyilməz.

29.03.2005

***Qəzəl***

*«Məcməüş-şüəra»nın*
*üzvü Gülarə Munisə!*

Ey Gülarə, eləyib çox kəsi heyran, yazasan,

Gərək hər ləhzə gəlib ilhama, hər an yazasan.

Çünki farsın, ərəbin sözləri tüğyan eləyir,
Eləyib öylə qəzəl mülkünü viran, yazasan.

Söz dilənməkdə zərurət görən insanlar var,
Verməyib öylə qəzəlxanlara imkan, yazasan.

Heç gərəkdirmi ki, «aşiqlər»i «üşşaq» edəsən?
Ehtiyac varmı ki «parlaq»ı «dirəxşan» yazasan?

Ya, nə lazımdı ki, «dana» deyəsən «çoxbilən»ə?
Ya da «ox ucluq»unu sən niyə «peykan» yazasan?

Dilimə xor baxana baxmalısan yad kimi,
Edəsən qeyzə gəlib ol kəsə üsyan, yazasan.

Yazmışam səy eləyib mən neçə «Divan» əsəri,
Gün gələ sən də bu Şahin kimi «Divan» yazasan.
17.04.2005

## *Qəzəl*

*Tarix elmləri doktoru, professor İlyas Babayevin «70» yaşı münasibətilə*

Hər kəsdə cəfa yoxsa, vəfa var isə, gəlsin,
Saf fikri, məramı hamıya car isə, gəlsin.

Əhd ilə, vüsal ilə və peyman ilə şadəm,
İnkar eləyək hicranı, ilqar isə, gəlsin.

Əhsən demişəm çox kəsə, əhsən deyirəm də,
Evlər dağıdan rədd ola, me'mar isə, gəlsin.

Xoş kəsləri görmək necə xoş! Məclisimizdən
Əğyarı kənar eyləməli, yar isə, gəlsin.

Cahildə cəhl var isə, qəddar isə, getsin,
Aqildə əql var isə, hüşyar isə, gəlsin.

Getmiş Qarabağ əllərimizdən neçə ildir,
Kim qarəni ağ etsə, xilaskar isə, gəlsin.

Şah İsmayıla ehtiyacı var bu diyarın,
Kim orduya Babək kimi sərdar isə, gəlsin.

Hər alimə alim deyə bilmirsə bu Şahin,
İlyas kimi alimlik edən var isə, gəlsin.

19.04.2005

### *Qəzəl*

*İranın məşhur rəssamı və xanəndəsi Vədud Müəzzinlə Bakıda «Vahid poeziya evi»ndə görüş münasibətilə*

Yarəb, bu necə nalədi, nalan oluruq biz,
Səs sahibi görmürmü ciyərqan oluruq biz?

Yandırdı bizim qəlbimizi, yaxdı bu nalə,
Yarəb, bu nə zənguladi heyran oluruq biz.

İstəkli Vədud gəldi və mehmanımız oldu,
Amma ki, bu gün mehmana mehman oluruq biz.

Kim saysa bizi gəlsə, qulamıq ona sadiq,
Kim saymasa, getsə, ona sultan oluruq biz.

Gündən-günə hey doğmalaşır doğma adamlar,
Yad – əssə küləktək ona tufan oluruq biz.

Əlbəttə müəzzindi[1] – əzan etməyi varsa,
Rəssamdı o ki, rəsminə heyran oluruq biz.

Ölkəm balaca ölkədi, çox olsa Vədudlar,
Şahin, nə böyük Azəribaycan oluruq biz!

30.05.2004

***Qəzəl***

*Bakıdakı İran Mədəniyyət Mərkəzinin sədri xeyrxah Hacı Seyyid Əli Əkbər Ocaqnejada ithaf*

Coşmaqda bulaqlar kimi Seyyid Əli Əkbər,
Yanmaqda çıraqlar kimi Seyyid Əli Əkbər.

Kəs var əyilibdir yerə vergül kimi qəddi,
Şaxdır uca dağlar kimi Seyyid Əli Əkbər.

Allahə olan eşqi kitab-dəftərə sığmaz,
Dolmaqda varaqlar kimi Seyyid Əli Əkbər.

İlham ağacı aldı su Qur'ani-Kərimdən,
Bar vermədə bağlar kimi Seyyid Əli Əkbər.

Saflıq və təmizlik görə bildim ürəyində,
Mə'sumdu uşaqlar kimi Seyyid Əli Əkbər.

---

[1] *Müəzzin «əzançı» deməkdir. Vədud Müəzzinin atası da xanəndə və əzançıdır.*

Haqsız sözünü naxələf insanın eşitcək,
Əsməkdə qovaqlar kimi Seyyid Əli Əkbər.

Yağdırmada söz gülləsini kafərə qarşı,
Atmaqda qoçaqlar kimi Seyyid Əli Əkbər.

Əlbəttə, nejadında ocaq var deyə, Şahin,
Yanmaqda ocaqlar kimi Seyyid Əli Əkbər.

24.06.2004

## *Qəzəl*

*Bu gün şeyxülislam Hacı Allahşükür Paşazadənin evində İranın məşhur dövlət xadimlərindən cənab Golpayegani başda olmaqla bir dəstə iranlı qonaqla görüşdük. Ərdəbilli şair Əsğər Şahi də onların arasındaydı. Bu qəzəli yazdım:*

Şahi, yenə Şirvanə gəlibsən, gözüm aydın,
Mərd ölkəyə mərdanə gəlibsən, gözüm aydın.

Elmi, ədəbi, mə'rifətli bəlli bu yurdun,
Elmü ədəbistanə gəlibsən, gözüm aydın.

Bir vəqt səmimanə görüşlər keçirib də,
Sən bir də səmimanə gəlibsən, gözüm aydın.

Məşhurdu yanmaq ilə söz şəm'i bu mülkün,
Söz şəm'inə pərvanə gəlibsən, gözüm aydın.

Şairlərimiz şövq ilə meydanə gəliblər,

Xoşdur bu ki, meydanə gəlibsən, gözüm aydın.

Söz gülləri gülzarımızı eylədi əlvan,
Ey dost, gülüstanə gəlibsən, gözüm aydın.

Əvvəlki kimi türfə qəzəllər deyəcəksən,
Şair, təzə imkanə gəlibsən, gözüm aydın.

Atəşli oğullar yaradıbdır qoca İran,
Od vurmağa hicranə gəlibsən, gözüm aydın.

Bir gün deyəcək Şahi dəxi Şahinə böylə:
- Uçdun, yenə İranə gəlibsən, gözüm aydın!

21.06.2004

### ***Qəzəl***

*Mərhum Hacı Mailin 70 illiyi münasibəti ilə*

Yaşadır əqli, əgər ölsə də, aqil yaşayır,
Amma, zənn etməyirəm sağsa da cahil, yaşayır.

Saçlara qar ələyən illərə cansız deməyək,
Səni il gər yaşadırsa, deməli, il yaşayır.

Sağ deyildirmi məgər niskilimiz qəlb içrə?
Ağrıdırsa sevəni cövr ilə, niskil yaşayır.

Axmayır boş yerə, göz yaşlarının var səbəbi,
Silmə göz yaşlarını, qoy yaşasın, bil, yaşayır.

Elə sakit dayanıbsa, deməyin aramdır,
Ram edə bilsə coşan ümmanı, sahil yaşayır.

Yaşayır Cami, Nizami, yaşayır Seyyid Əzim,
Yaşayır Sə'di bu günlərdə də, Bidel yaşayır.

Təzə can verdi kaman alətinə, ellərimiz,
Deyəcək ötsə də min il belə: Habil yaşayır!

Sözü dillərdə gəzirsə, yaşayır, ey Şahin,
Demərəm mən yaşamır, yox, Hacı Mail yaşayır!
20.10.2005

* * *

***Bir gün yazmalıyam «Vasimnamə»ni***

*Sunay Vasimqızının toyunda oxunan şeir*

Bu gün bir sevginin toyu, düyünü!
Mübarək olsun!
Bu gün məhəbbətin təntənə günü!
Mübarək olsun!

Bu gün isti qəlblər əridir buzu,
Bu gün bir sevginin yanır ulduzu,
Bu gün gəlin köçür Vasimin qızı,
Mübarək olsun!

Sevgi! Qeyri sözlər bu söztək olmaz,
Buna şübhə olmaz, buna şəkk olmaz,
Sevgisiz qədəmlər mübarək olmaz.
Mübarək olsun!

Atan da sevilib, anan da sevib,
Məhəbbət oduna yananda sevib.
Valeh də, Tofiq də, Elxan da sevib,
Mübarək olsun!

Eşqi idrak edib şad olmuşuq biz,
Sevgisiz kəslərə yad olmuşuq biz,
Odlar diyarında od olmuşuq biz,
Mübarək olsun!

Sevgisiz insanda kəm-kəsir olur,
Bütün sevgisizlər müqəssir olur,
Bu gün iki ürək sevib bir olur,
Mübarək olsun!

Görmüşəm cahanda çox həngaməni,
Sanıram xatırlar bu dünya məni,
Bir gün yazmalıyam «Vasimnamə»ni,
Mübarək olsun!
Mübarək olsun!!!

19.11.2005

**Əlibala Hacızadənin 70 yaşı münasibətilə iki şe’r**
**I**
**Qəzəl**

Üzməyin olsa əgər batmağa dərya qoymaz,
Kədərin bolsa əgər yatmağa röya qoymaz.

Qopara bilməmişik surəti mə’nadən biz,
Səni rahət neçə surət, məni mə’na qoymaz.

Heç təsəvvür eləyə bilməyirəm dinc səni,

İstəsən dincliyin olsun bunu dünya qoymaz.

Əfqanıstandakı günlər yadıma düşmədədir,
O gözəl ölkəni sakit niyə qovğa qoymaz?

Niyə ilham pərisi əl çəkə bilmir bizdən?
Səni sakit, məni aram bu müəmma qoymaz.

Sənə nasirmi deyim, ya sənə şairmi deyim?
Qələmi atsan əlindən yerə, misra qoymaz.

Yazacaqsan sənə yazmaq qadağan olsa belə,
Yazmamaq hökmünə şair əli imza qoymaz.

Varağı Əlbala ağ qoysa əgər dincəlməz,
Qələmi Şahin əlindən yerə əsla qoymaz.

Əlbala, yaz kitaba ardınca kitab, çap eləyər,
Gülağa adlı o Tənha[1] səni tənha qoymaz.

**II**

***Hərdən gözəllərə baxmağın da var***

Saqi, qabağa gəl, qabağındayam,
Meyi qədəhimə süz, yaşayasan.
Bu gün sanki mən də Xəyyama tayam,
Kuzəni yan-yana düz, yaşayasan.

Bu gün Əlbalanın təbrikinə çat,
Qüssənin, kədərin başına daş at,
Yaşamaq gözəldir, sən bizi yaşat,

---

[1] *Gülağa Tənha – Əlibala Hacızadənin naşiri.*

Səni də yaşadaq biz, yaşayasan.

Yaşın nə yaşdır ki? Müdriklik çağı
Əlbala, qədəm at cavan sayağı,
Əli qoruyursan, qoru ayağı,
Şübhənin başını üz, yaşayasan.

Hərdən şimşək təki çaxmağın da var,
Hərdən lal su kimi axmağın da var,
Hərdən gözəllərə baxmağın da var,
Bax ki, işıqlana göz, yaşayasan.

Elə xidmət elə qələminlə! Və
Nə kəlmə əsirgə, nə söz əsirgə.
Məş'əl yaşamısan tonqalla birgə,
Alov yaşayasan, köz yaşayasan.

Sənə çox görməsin yaşını fələk,
Hər arzun, diləyin açsın gül-çiçək,
Əlbala, o böyük həzrət Əlitək
Doğru yaşayasan, düz yaşayasan.

Nəsrdə açdığın izini qoru,
Nəzmdə dediyin sözünü qoru,
Bizim xətrimizə özünü qoru,
Yetmiş nə yaşdır ki, yüz yaşayasan!

9.12.2005

***Qəzəl***

*Əruzşünas alim Ramiz Fasehlə İncəsənət Universitetində keçirilən görüşdə oxunan şe'r*

Bir fəsahətli adam var, adı: Ramiz Faseh,
Adına məndə inam var, adı: Ramiz Faseh.

Şamı yandır, görəcəksən ki, bir azdan söndü,
Sönməyən, bəlkə də, şam var, adı: Ramiz Faseh.

Ulu peyğəmbərə qul var ki, durub qulluqda,
Ulu Allahə qulam var, adı: Ramiz Faseh.

Elmi tam öyrənən azdırsa da aləmdə, fəqət
Natəmam elmdə tam var, adı: Ramiz Faseh.

Elmiyoxlar görürəm ki, danışır ardınca,
Amma, elm əhli şadam var, adı: Ramiz Faseh.

Ey görənlər onu tez-tez, deyiniz: Şahindən
Bir gözəl şəxsə salam var, adı: Ramiz Faseh!

3.01.2006

### *Qəsidə*

*Professor Ağayar Şükürovun*
*60 baharı münasibətilə*

Aləmə çox Ağayar gəldi, yenə var Ağayar,
Ağayar kimsələri eylədi inkar Ağayar.

O ki, tarixçi idi, oldu filosof amma,
Hər iki elmdə gündən-günə bidar Ağayar.

Hələ şairliyi vardır, hələ nasirliyi də,
Musiqi elminə də oldu giriftar Ağayar.

Hələ me’marlığa da etdi maraq hərdənbir,

Etdi abad sınıq qəlbləri me'mar Ağayar.

Yazdı gündüz və gecə Mirzə Ələkbər sayağı,
«Bədi bəd, əyrini əyri, düzü həmvar» Ağayar.

«Dədə Qorqud» kitabından alıb ilham, bir gün,
Meyli Qorqud Dədəyə saldı inadkar Ağayar.

Nə qədər eşq var imiş bu çevik aşiqdə!..
Sənə eşq oldu həyatın boyu me'yar, Ağayar!

O qədər sevdi ki, aşiqlərə ustad oldu,
Oldu eşq əhlinə Məcnunə dönüb yar Ağayar.

Elə bülbüldü ki, güllər bürüyüb dövrəsini,
Neçə canan, neçə dilbər, neçə dildar – Ağayar!..

Onu yaxşı tanıyan kəslərə gizlin ki deyil
Niyə yağdırdı qara saçlarına qar Ağayar.

Ağayar elmini təkrar eləyənlər çoxdur,
Heç zaman eyləmədi heç kimi təkrar Ağayar.

Lənkəranda, Bakıda tədrisə bərk qurşandı,
Elədi bilməyənə elmini izhar Ağayar.

Bu nə oddur ki, sənin qəlbinə düşmüş, sönmür,
Nə alovdur ki, müdam yanmada par-par, Ağayar?

O qədər qəlbigenişsən ki, sevirsən hamını,
Tanıyanlar sənə ad verdi «Vəfadar Ağayar».

Əlağa[1] dostuna cib telfonu aldın bir gün,
Elədi bə'ziləri həm elə israr, Ağayar.

O Məhərrəm[2] ki, təxəllüs ona «Orxan paşa»dır,
Eləməz sən kimi «Ənvər paşa»nı[3] xar, Ağayar.

Paşa olmaq diləyənlər yenə vardır, biri də
Ramazandır[4] ki, sənə olmadı sərdar, Ağayar.

Dostlarından birinin ki, ləqəbi Dövrandır[5],
Yox bu dövranda onuntək sənə həmkar, Ağayar.

Vaşqa bir dostuna Sakit[6] adını vermişlər,
Məndə sakitliyə ki ondadı, şəkk var, Ağayar.

Biri həm var ki, Mayıldır[7] adı – Şirvanlı Mayıl,
Agah etmiş onu çox sirrə xəbərdar Ağayar.

Səni dərd əhlinə biganə qalan görməmişəm,
Çəkdi hər bir qəmi, hər qəmliyə qəmxar Ağayar.

Sancılandı ürəyi bir neçə ay bundan əzəl,
Ürəyə cövr elədi gör necə qəddar Ağayar.

---

[1] *Əlağa Baxşıyev – Lənkəran Dövlət Universitetinin kafedra müdiri, dosent, tarix elmləri namizədi.*
[2] *Məhərrəm Qasımlı – filologiya elmləri doktoru, professor.*
[3] *«Ənvər paşa» - Ağayarın təxəllüsü*
[4] *Ramazan Qafarlı – APU-nun dosenti, filologiya elmləri namizədi.*
[5] *Məsudi-Dövran – Lənkəran Dövlət Universitetinin professoru, filologiya elmləri doktoru*
[6] *Sakit……………. – AMEA Fəlsəfə və Hüquq İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə elmləri doktoru, professor.*
[7] *Mayıl Alıcanov – tarix elmləri namizədi, dosent*

Ağadır, həm də ki, yardır bu adam, ey Şahin,
Bu səbəbdən də olub çoxlarına yar Ağayar.

Aləmə çox Ağayar gəldi, yenə var Ağayar,
Ağayar kimsələri eylədi inkar Ağayar.

17.02.2006

## *Qəzəl*

*Əkrəm Qaflanoğlunun 55 yaşında oxunan qəzəl*

Arifin həmdəmi dostdur, gəzir həmdəm həmdəm,
Həmdəm olmazsa əgər dostu, ona şəm' həmdəm.

Azəri yurduma hey eşqimi e'lan elədim,
Eləməz sevdiyinə eşqini mübhəm – həmdəm.

Harda həmdəm görürəmsə fərəhim coşmaqda,
Ya İlahi, qoy ola daima xürrəm – həmdəm.

Dilərəm ömrü boyu dərdü bəla əğyarə,
Mübtəla olmaya qoy qüssəyə hər dəm – həmdəm.

Kimə saqi, kimə badə, kimə təsbeh, kimə mey,
Mənəsə «Şur», «Nəva», «Rast» ilə «Dilqəm» - həmdəm.

Görürəm süst elə kəs ki, nədi həmdəm bilmir,
Məni aşiq özünə eylədi möhkəm – həmdəm.

Şahini seyr eləyin, gör nə qürur ilə gəzir,
Gətirib bəxti onun ki ona Əkrəm – həmdəm!

8.04.2006

***Qoca deyən qocadır!***

*Şair-alim Mirhaşim Müsafir – 80*

Özü getsə, qalacaqdır sözü sağ,
İlahidən atəş aldı, köz aldı.
Bir kişidir canı qıvraq, saçı ağ,
Gözəlləri süzür hələ gözaltı.

Qocalığı təsdiqlənmir, danılır,
Kim görmür ki, başı dağ tək ucadır?
Mirhaşimə qoca deyən yanılır,
Mirhaşimə qoca deyən qocadır!

28.04.2006

***Əməli ucadır, işi ucadır***

*Şərqşünas dostum Elxan Əzizovun 60 yaşı tamam oldu. Cavandır!*

Onda Şahdağ boyda ucalıq yaşar,
Əməli ucadır, işi ucadır.
Ey cavan adamlar, qoca adamlar,
Ona qoca deyən özü qocadır.

Yaşın 60-ı ömrün qışımı?
Əgər belədirsə, baxın Elxana.
Doğrudan Elxanın 60-ımı?
Bu rəqəm şəkk-şübhə doldurur cana.

Nikbinlik bəxş edir dəmadəm bizə,
Gözündən eşq odu çaxan bir kişi.
Rəhbərlik eləyir fakültəmizə,
60 yaşında cavan bir kişi.

Baxır eynək altdan sevgi gözüylə,
Dilində məhəbbət, diləyində eşq.
Əməli bir gəlir onun sözüylə,
Əlində qələm var, ürəyində eşq.

Bir savab neçə yüz günahı udur,
Etdiyi savablar onun bəsidir.
O, Hacı Vasimin tapıntısıdır,
O, Hacı Vasimin yetirməsidir.

Elə vurulub ki, ərəb dilinə,
Neçə sərhəd keçib, səmalar yarıb.
Azər ölkəsindən Misir elinə,
Küveyt diyarına salam aparıb.

Nəzm də yaradır, nəsr də yazır,
İlham pərisitək pəri əlində.
Həmişə qələbə arzusundadır,
Nərdi qabağında, zəri əlində.

Onda Şahdağ boyda ucalıq yaşar,
Əməli ucadır, işi ucadır.
Ey cavan adamlar, qoca adamlar,
Ona qoca deyən özü qocadır!

17.11.2006

### *Qəzəl*

*İnstitutumuzun Elmi Katibi Gövhər xanım Məmmədova – 60*

Gövhərdimi, ya lalə-sənubərdi bu Gövhər?
Çox dildə-dodaqda adı əzbərdi bu dilbər.

Tarixçi deyimmi ona, söz yox ki, bu azdır,
Ya, böylə dəqiqlik ilə zərgərdi bu Gövhər?

Çox «Gövhər» olan var adı Şərq ölkələrində,
«Gövhərlər»ə, əlbəttə, bərabərdi bu Gövhər.

Mehmanı olandan bu cahanın onu sevdi,
Sevda ağacından da bəhər dərdi bu Gövhər.

Qiymətli olan hər daşa gövhər demək olmaz,
Yaqutdu deyim, ya ki ona zərdi bu Gövhər?

Şahin, hər adı Gövhər olan Gövhər olurmu?
Gövhərdi bu, Gövhərdi bu, Gövhərdi bu Gövhər!
19.03.2007

### *Qəzəl*

*Gülzar Nənəyə ithaf*

Yenə şadəm ki, çıxıb qış, yerinə yaz gəlib,
Canlanıb bir də təbiət, yenə ecaz gəlib.

Xəzərin göy suları təptəzə ahəng oxuyur,
Dalğalar sahilə bir gör nə sərəfraz gəlib.

Bu fəsil təb'ini artırmalı söz sahibinin,
Küləyin çalğısına xoş yeni avaz gəlib.

Gülzarın ilhamı pərvazlanacaqdır şəksiz,
Sanki, ilhamlı yazar tək ona pərvaz gəlib.

İlbəil artıra bilmişsə kitab sovqatını,
Görünür ilhamı imkanına dəmsaz gəlib.

İşləmək şövqü isə – vergisidir Allahın,
«İşlə az!» hökmü son illərdə ona az gəlib.

Yaşı azdır, ləqəbi yaxşıdı, Şahin Fazil,
Yaşı ilə ləqəbi amma ki, çarpaz gəlib.

11.04.2007

### *Qəzəl*

*Şair-xanəndə-bəstəçi*
*Fazil Qaraxanqızıya!*

Ey Fazilə, təb'in həmişə qoy dilə gəlsin,
Qərq olmasın arzu gəmisi, sahilə gəlsin.

Şe'rində işıq var isə, nəğməndə şəfəq var,
Şe'rinlə və nəğmənlə elə nur çilə, gəlsin.

Mey tə'siri vardır səsinin, tə'siri artır,
Mey tə'siri bəlkə bizə həm bir gilə gəlsin.

Torpaqlarımın bir parası cəng ilə getdi,
Əskərlərimiz qarə bağa cəng ilə gəlsin.

Qatillərimiz qonşular oldu, qana qan var!
Yarəbbi, bəlalər qaniçən qatilə gəlsin.

Bəxtin quşu qoymuş eli bədbəxtliyə mə'ruz,
Mən çox dilədim gəlmədi bəxt, sən dilə, gəlsin.

«Məcməş-şüəra»mız səni görmür neçə vaxtdır,
Gəl çıx, yenə zəngulələrin qoy dilə gəlsin.

Məclisimizə hər yetəni səsləmə, Fazil,
Amma, yenə əvvəlki təki Fazilə gəlsin!

14.04.2007

***Qəzəl***

*Loğman-şair həkim Həşim Qərvəndinin 80 yaşı! Adamın inanmağı gəlmir…*

Elə ki, Qarə bağı andı Həşim Qərvəndi,
Yenə məş'əl sayağı yandı Həşim Qərvəndi.

Son zamanlar gözə dəyməkdə pərişan sayağı,
Neyləsin, indi pərişandı Həşim Qərvəndi.

Üzdə sakit görünür, amma ki, od parçasıdır,
Sanki haqsızlığa üsyandı Həşim Qərvəndi.

Nə sağa döndü, nə sol çəkdi onu, düz getdi,
Düz olub, əyriliyi dandı Həşim Qərvəndi.

Qəlbi pak, sevgisi pak, hər sözü pakdır, özü pak,
Necə də pakizə insandı Həşim Qərvəndi.

O Ərəstu kimi, cansızları sağlam etdi,
Loğman ölmüşsə də Loğmandı Həşim Qərvəndi.

Şəkəri var deyə çox şe'ri şəkərlənmişdir,
Hər şəkər xəstəsinə candı Həşim Qərvəndi.

Təcnisi yazmada şair kimi, şairbazdır,
Neçə təcnis yazana şandı Həşim Qərvəndi.

Dedilər «səksənə çatmış yaşı», səksəndim mən,

Elə bil bir cavan oğlandı Həşim Qərvəndi.

Görmüşəm mən: Gözünə türfə gözəllər dəycək
Yaşını dandı və odlandı Həşim Qərvəndi.

Deməsinlər qocalıbdır daha baxmaz gözələ,
Yenə cananəyə heyrandı Həşim Qərvəndi.

Qocaman iynə-qələm sahibidir, ey Şahin,
Həm həkim, həm də qəzəlxandı Həşim Qərvəndi.

5.05.2007

***Qəzəl***

*Aktyor dostum Əli Nur və Sevda üçün*

Qəmliyəm mən yenə də, ey pəri, dünya təhəri,
Məni dərk eyləməyir kimsə müəmma təhəri.

Görəcəkdirmi gözüm bir də sənin gözlərini?
Heç nə olmaz mənə göyçək bu təmənna təhəri.

Oxuyub ağlamışam «Məcnun ilə Leyla»nı,
Mən o Məcnun kimiyəm, sən isə Leyla təhəri.

Yazıram mən elə misra qovuşur bir-birinə,
Qovuşa bilməyirik biz iki misra təhəri.

Ram edərdim görə bilsəydim əgər rö'yanı,
Dəyməyirsən gözümə sən niyə rö'ya təhəri?

Hanı dərya ki, axıb sirab edə səhranı?
Alışıb yanmadayam mən quru səhra təhəri.

Oldu sevdalı bu şe’rim Əli Nur qəlbi kimi,
Qəlbini zəbt eləyən varmı ki Sevda təhəri?

Mən təkəm, yar isə tənha yenə də…Ey Şahin,
Gəzirəm çölləri yalqız kimi, tənha təhəri.

21.06.2007

***Qəzəl***

*Əməkdar məktəb direktoru Zakir müəllimin 60 yaşına*

Elmiylə böyükdür, elə mahirdi müəllim,
Şagirdlərinin qəlblərinə girdi müəllim.

Söz yox ki, müəllimbaşıdır Gəncəli Yusif,
Əlbəttə, Füzulim kimi şairdi müəllim.

Bir Molla Pənah, Mirzə Cəlildir ki, sevilmiş,
Mirzə Əli Əkbər kimi Sabirdi müəllim.

Möcüzdü, kəramətdi, müəmmalı bir aləm,
E’cazdı, müəmma dolusu sirdi müəllim.

Qiymətsiz olan daş-qaşa sərvət demək olmaz,
Qiymətli olan zərdi, cəvahirdi müəllim.

Kimdir o ki, «mə’şuqəsi məktəbdi» deyirlər –
Zakirdi o, Zakirdi o, Zakirdi – müəllim.

Şahin, deyərəm inciməsəydi əgər Allah:
Allah ilə, peyğəmbər ilə birdi müəllim!

7.07.2007
*Sumqayıt şəhəri*

## TƏƏSSÜFNAMƏLƏR

### *Qit'ə*

*Dostum Əliheydər Talıbın vəfatından kədərlənərək*

Dilə olmuş adı əzbər neçə dilbər getdi,
Ey dilim, neyləyəsən ki, sənə dilbər yoxdur.

Artacaqdır suyu Qudyal çayının, ağlayıram,
Kövsər idi mənə Qəçrəş suyu, Kövsər yoxdur.

Azalıb rayihəsi yasəmənin, reyhanın,
Məni heyran eləyən lalə, sənubər yoxdur.

Neçə ildir ki, yaman günlərə qalmış millət,
Zərgəri çoxsa da yurdun nə xeyir, zər yoxdur.

Şahina, sən gülər idin ki, Əleydər vardır,
İndisə göz yaşı tökdün ki, Əleydər yoxdur.

22.05.2002

### *Tamridaya!*

Həyatımın yanında
həyatın vardı,
Həyatın yaşayardı
canımda, qanımda,
Həyatın getdi,
Ölümün qaldı yanımda.

19.12.2002

***Tamridaya!***

Ölüb gələcəyəm yanına,
ey yar,
bizə xeyir-dua versə mələklər
Səni qucacağım anda,
adamlar
Sümük şaqqıltısı eşidəcəklər.

26.01.2003

***Böyükxan Pərviz üçün elegiya***

*«Həmigoftəm ke Xaqani*
*dəriğaguye-mən başəd,*
*Dəriğa, mən şodəm əknun*
*dəriğaguye-Xaqani»*

*Deyərdim mən ki, Xaqani*
*deyər ağı ölərkən mən,*
*Təəssüflər ki, mən yazdım*
*bugün Xaqaniyə ağı.*
*Nizami Gəncəvi*
*(tərcümə bizimdir)*

Monqol Çingiz xan…
Zəlimxan Yaqub…
Zəlimxan Yandarbiyev…
Aydın Xan…
Böyükxan Pərviz!..
Xanlar çoxdur…
Yerli-yersiz
balasının adının sonuna
«xan» sonluğu artıranlar,
nəvəsinə Xan adı qoyanlar

çoxdur.
Bizim şair də
Böyükxan idi.
Böyükxan idi!
Böyük xan deyildi,
heç kiçik xan da deyildi,
Şair idi.
Kiçik bir kitabı çıxan
böyük bir şair idi,
Nəriman Qəhrəmanlı demişkən
«Ağzında söz diri idi…»
Amma,
dirini basdırdılar,
Kiçik bir ölkənin
kiçik şe’rlər yazan
şairini basdırdılar.
Kiçik şe’rin
böyük şairi idi,
«Ağzında söz diri idi…»

Sözü diri idi.
Getdilər…
Diri sözü basdırmağa getdilər,
Müsəlmanlar kafirlik etdilər,
basdırdılar
sözü diri
şairin birini,
basdırdılar dirini,
Sözü diri insan idi…

Sözü vardı, pulu yoxdu,
Özü vardı, titulu yoxdu,
«Xalq şairi» deyildi,

«Ağzında söz diri idi…»,
Sözü diri insan idi.
Sözü
  üzə şax deməkdən
                    qorxan deyildi,
Böyükxan idi!

Monqol Çingiz xan…
Zəlimxan Yaqub…
Zəlimxan Yandarbiyev…
Aydın Xan…
Böyükxan Pərviz!..
Kiçik şe'rin böyük şairi idi,
«Ağzında söz diri idi…»
Basdırdılar dirini
                    ölü sayağı…
«Deyərdim mən ki, Xaqani deyər ağı ölərkən mən,
Təəssüflər ki, mən yazdım bugün Xaqaniyə ağı»…

18.05.2003

### ***İtdin***

*Tamridaya!*

Köksünü dağıdır dağı, niskili,
Yalvarır «gəl» deyir əcələ dili,
Niyə yetim qoydun Şahin Fazili?
Getdin.

Girinc olan gündən bu fəğanə tək,
Başladı əsməyə ürək nanətək,
Nəğməli dünyamda son təranətək
Bitdin.

Torpaq qısır qaldı dəni itirib,
Dağ duvaqsız oldu çəni itirib,
Mən hicranı tapdım səni itirib,
İtdin!..

14.08.2003

### *Gülcənnət – cənnət gülü*

Çoxdan gəlmirdi yuxuma,
Çoxdan eşitmirdim səsini,
Çoxdan qaldırmırdı
gözümün yuxu pərdəsini,
Anam
bu gecə yuxuma gəldi.

Gözəldi! Mənim anam gözəldi!
Mənim gözümdə
bütün qadınlardan gözəldi,
bütün analar bir yana
o, bir yana idi,
Anam ana idi!!!

Mülayim adam idi,
Sevgisi
hamımıza
Bütöv idi, tam idi,
sülhpərəstdi, amma
arabir ərklə
Əri Fazillə dalaşardı,
Əri – atam idi…

Gülərüzdü,
çəlimsizdi,

arıq idi,
ürəyinin yağını
yedirirdi bizə,
İşıq idi,
gözünün işığını
səpirdi üstümüzə,
Nur idi gözümüzə,
evimizə…

Mənə
Şahdağ boyda,
Quba boyda
sevgisi vardı,
Mən tələbə olanda
Bakıya sovqat,
Mən işləyəndə
Kabula məktub
yollayardı…

Hər sözü,
hər kəlməsi
nəsihətdi, öyüddü…
Səkkiz uşaq böyütdü…

Baharda gəlmişdi dünyaya,
Gedəndəsə
qışdı,
Yaşı çox deyildi,
Hələ qarı olmamışdı.

Bizdən ötrü ölürdü…
Öldü…
Saçı ağappaq ağarmışdı,

Sanki
bir Ağ Güldü…

Görəsən
Cənnət elədimi də’vət gülü?
Anamın adı Gülcənnət idi –
cənnət gülü…

6.09.2003

***Sürud***

*Tamridaya*

Halıma yanmaqda idin təkcə sən,
Bəs niyə getdin məni yalqız qoyub?
Sən də məzar içrə axı təkcəsən,
Bəs niyə getdin məni yalqız qoyub?

Etsəm əgər şərhini əhvalımın,
Qəm demirəm, qəmləri var halımın.
Söndü yanar ulduzu iqbalımın,
Bəs niyə getdin məni yalqız qoyub?

Çulğalayıbdır canımı qəm, kədər…
Mən fağırın dərdi zülümdən betər!
Tək yaşamaqdırsa ölümdən betər,
Bəs niyə getdin məni yalqız qoyub?

Bülbülü azdırsa da, gülşən nə çox!..
Mən kimi tək bəlkə də gülşəndə yox!
Yaxşı bilirdin ki, dözüm məndə yox,
Bəs niyə getdin məni yalqız qoyub?

Göz qoyuram mən, sənə tən görmürəm,

Göz yaşım axmaqda, ləyən görmürəm,
Yalqıza imdad eləyən görmürəm,
Bəs niyə getdin məni yalqız qoyub?

Tərk eləyib mənzilimi həzz mənim,
Varlığım ağlar, daha gülməz mənim,
Dərdimi heç kim çəkə bilməz mənim,
Bəs niyə getdin məni yalqız qoyub?

Gözlərə adəm görünən büt nə çox!..
Yalqıza rəhm eyləməyən cüt nə çox!..
Mərhəmət az, lütf azacıq, fitnə çox,
Bəs niyə getdin məni yalqız qoyub?

Azca qalıb…Tezcə bitər taqətim,
Bir gilə qalmaz və itər taqətim…
Ayrılığa varmı məgər taqətim?
Bəs niyə getdin məni yalqız qoyub?

Çoxsa da dövrəmdə adam, yalqızam,
Sanki adamlarə yadam, yalqızam,
Tərk elədin Şahini, tam yalqızam,
Bəs niyə getdin məni yalqız qoyub?

17.11.2003

## *Tamridaya*

Arxamca gələrdin mənim həmişə,
Həmişə deyərdin «yol kişilərin».
Bəs neçin öləndə qabağa düşdün?
Məni tənha qoyub tərk etdiyin gün
Sayını artırdın dul kişilərin.

20.11.2003

## *Qit'ə*

*Tamridaya!*

Alt-üst ilə üst-altın ziddiyyətinə  bax ki,
Kökdür bağ edən bağı, köklər bağın altında.

Üstümdə günəş varsa, altında qaranlıq var,
Oddan yaranıb aləm, od var dağın altında.

Məndən ötəri indi ağ, qarə – iki rəng var,
Ağ qarənin üstündə, qarə ağın altında.

Məndən xəbər aldım mən tez-tez «niyə yar öldü?»
Qalmış bu adam sanki istintaqın altında.

Getdikcə közərməkdə, sönmür dağı hicranın,
Köksümdə mənim dağ var, köksüm dağın altında.

Üstündü bizə bir vaxt üstü bu yerin, indi,
Mən torpağın üstündə, sən torpağın altında.

24.12.2003

## *Namümkünlük*

*Tamridaya*

Peyğəmbərlər deyiblər:
İnsanlar ölməyirlər,
dəyişirlər dünyanı,
onları başqa yerə
çəkib aparır əcəl…
Elə isə, əzizim,
nə olar, dəyişdiyin

dünyanı dəyişərək
yenə bu dünyaya gəl.
Ya, yenə üzümüzə
İşığını gün yaya,
Ya, məni çəksin əcəl
sən yaşayan dünyaya.

Peyğəmbərlər deyiblər:
İnsanlar ölməyirlər…

27.02.2004

### *Təzmin*

«Getdi ol sərv ki, kami-dili-divanə idi,
Mürği-can nuri-rüxi-şəm'inə pərvanə idi»[1].

Üç bahar ötdü vəfatından onun, tənhayəm[2],
Onu yandırdı odum bəlkə də, pərvanə idi.

Lə'llər çoxsa da gər, lə'li-Bədəxşan azdır,
Dürrlər çox var idi, amma o, dürdanə idi.

Ehtiram eyləmişəm daima mərdanələrə,
Mərdlər var ki qadındır, osa mərdanə idi.

Neçə dilbər mənə biganə deyildi, amma
Gözümün şahini çox dilbərə biganə idi.

Çox pəri var idi dövrəmdə təmənnayə görə,
O pərilər hamı bir yanə, o bir yanə idi.

---

[1] *Beyt Məhəmməd Füzulinin «Hədiqətüs-süəda» əsərindəndir.*
[2] *Mərhumə Tamridanın vəfatı.*

Şahin oldumsa da, şahinliyimi tərk elədim,
Çünki Şahin fəqət ol yar ilə şahanə idi.

21.08.2004

### *Tənhalıq*

*Tamridaya*

Tənhalıq – təhlükəm.
Ölü
  qəbirdə olduğu kimi
    təkəm.
Otağım
  sanki qəbir otağıdır,
Amma qapısı, pəncərəsi var.
Qəm-kədər
    cismimi dağıdar,
Qulağımda
    tənhalıq sədası, səsi var.
Dostlarım çoxsa da,
tənhayam.
Yar-yoldaşdan giley-güzarım yoxsa da,
tənhayam.
Tanış-bilişimin sayı
    həddini aşırsa da,
tənhayam.
Evimdə ruhun gəzib-dolaşırsa da,
tənhayam.
Otağımı tərk etdin,
getdin,
öz qəbir otağına.
Lə'nət bu fani dünyanın
    qarasına, ağına,

Əlbəttə, Allah bilən məsləhətdir.
Amma,
atam Fazilin belindən
anam Gülcənnətin bətninə düşərək
doğulmayaydım mən gərək.
Əgər doğulmasaydım
dünya dağılmazdı ki.
Dünyada olmasaydım
dünya dağılmazdı ki.
Doğulmayaydım mən gərək,
çünki,
təbiətim bam-başqa,
xislətim bam-başqa,
niyyətim bam-başqa,
məhəbbətim bam-başqa,
hər adətim bam-başqa…
Çünki,
hər şey mənə dərddir –
Meyxanədə içdiyim
mey mənə dərddir.
Həccə gedib
hələ içmədiyim
Zəmzəm mənə dərddir.
Rüşvətxorlar və yaltaqlarla dolu
ölkəm mənə dərddir…
Haçansa
ədalət olacaqmı
bu fani dünyada?
Dünyaya sədaqət olacaqmı
bu fani dünyada?
Həqiqi məhəbbət olacaqmı
bu fani dünyada?
Sanıram ki,

mənim məhəbbətim həqiqiydi…
O həqiqi məhəbbətin yerləşdiyi
ünvana nə oldu?
Mənə səadət bəxş etmiş
insana nə oldu?
Niyə məni tərk etdi?
Niyə tez getdi?
Neçin tənha qaldım?
İndi
hər dəmim hicrandır, firqətdir,
Əlbət, Allah bilən məsləhətdir!

Tənhalıq – təhlükəm.
Ölü
qəbirdə olduğu kimi
təkəm.

30.10.2004

### *Tamridaya*

Düzünə qalsa,
ölmək istəmirəm.
Düzünə qalsa,
hələ köçmək istəmirəm
bu dünyadan o dünyaya.
Ölsəm
niskilə batacaq
sənsiz qalan iki balam –
Ülviyyə, Şahanə.
Amma,
ölmək istəyirəm,
bu istək
səni o dünyada görməkçin

Bəhanə.

4.12.2004

***Səni itirəndən sonra***

*Tamridaya!*

Fərəhini
mənə vermişdin,
Sevincim
sənindi.
Cənnətlə cəhənnəm arasındayam
mən indi.

Cənnət bağı əlimdən çıxıb,
Cəhənnəm dağı qabaqda –
Qapının biri bağlanıb…
O biri açılmaqda.

Səni itirəndən sonra
ürəyim dinc deyil.
Fərəhim o fərəh deyil,
Sevincim o sevinc deyil.

Səni itirəndən sonra
işığı azalıb,
çoxalıb gözümün nəmi.
Arxamda –
keçmişin cənnəti,
Önümdə –
gələcəyin cəhənnəmi.

26.01.2005

### *Tamridaya*

Çıxıb getdin uzağa,
Saldın məni fərağa.
Birgə ölə bilmədik,
Bükülmədik bir ağa.

30.01.2005

### *Niyə ölmədim?*

*Tamridaya*

Əlimdən qopardı qənimət kimi,
İtirən mən oldum, qazanan qəbir.
Haçan qazacaqlar mənim qəbrimi,
Nə məndə hal qalıb, nə də güc, səbir,
Mən niyə ölmədim, niyə ölmədim?

Gördüm baş daşını , səni görmürəm,
Yaman qucaqlayıb yeri ölünü.
Bağışla, danışa bilmirəm bu dəm,
Necə danışdırsın diri ölünü,
Mən niyə ölmədim, niyə ölmədim?

12.04.2005

### *Tamridaya*

Dünən vəfatının 4 ili oldu,
Mən sənin şe'rini yazmadım dünən.
Yenə gözlərimin bulağı doldu,
Bağışla, əfv elə bu qocanı sən.

Yanına gəlməyim deyildir uzaq,
Sənin kənarında görünən kimi,

Yenə əzəllərdə olduğu sayaq
Sənə deyəcəyəm şe'rlərimi.

1.05.2005

***Bu gün nə çox su var bulud içində?***

*Tamrida-63*

Bu gün deyən hanı, danışan hanı?
Sözümüz gizlənib sükut içində.
Yenə yağış yağır yuyur məzarıstanı,
Bu gün nə çox su var bulud içində?

Bu gün yaş günündür, hanı təntənə?
Bu gün çox adamın ağlamağı var.
Hanı? Yaş sahibi görünmür yenə,
Təbrikə gələnlər qəbrə baxırlar.

Altda adam başı, üstdə baş daşı,
Bu gün yaş günüdür, yatıb, oyanmır.
Dörd ildir çoxalmır, dayanıb yaşı,
Amma, gözümüzün yaşı dayanmır.

30.10.2005

***Ölü dirini çağırır***

*Bu gecə Tamrida məni çağırırdı…*

Biri yoxdur, biri vardır,
Biri
    birini çağırır.
Gizli deyil, aşikardır,
Biri
    birini çağırır.

Nə çox çəkdi məlal günü…
Uzaqlaşır xəyal günü,
Yaxınlaşır vüsal günü,
Biri
        birini çağırır.

«Çağır səsin titrəməsin!» –
Bir meyli var iki kəsin,
Səs gözləyən iki səsin
Biri
        birini çağırır.

Yaralıyıq xeyli vaxtdır,
Aralıyıq xeyli vaxtdır,
İki olmaq meyli vardır,
Biri
        birini çağırır.

«Gəl, ayağın inciməsin,
Əl-ayağın inciməsin,
Yalqız olmaq daha bəsin!»,
Biri
        birini çağırır.

«Görəcəkdi bu ayrılıq…
Eşqə şəkdi bu ayrılıq…
Nə çox çəkdi bu ayrılıq…»
Biri
        birini çağırır.

Yoxdur tabım əfğanıma,
Çatmır gücüm hicranıma…
Şahin, deyir «gəl yanıma!» -

Ölü
dirini çağırır.

1.11.2005

***Məmmədbağır öldü***

*Mənim onadək şe'rimə («Bağiban», «Xədicə», «Apardı-getdi», «Yaddan çıxıb» və s.) təsnif və mahnı bəstələyən böyük xanəndə və bəstəçi Məmmədbağır Bağırzadənin vəfatı münasibətilə*

*Yaş tökdü fağır bir ata:*
*Məmməd fağır öldü,*
*Məmmədbağır öldü.*

Od tutdu, alovlandı bu gün, yandı muğamat,
Tonqal təki, məş'əl təki odlandı muğamat,
Məmmədbağır öldü.

Yarəb, bu nə qəmdir, nə ələmdir, nə sitəmdir?
Qərq oldu yenə naləyə, nalandı muğamat,
Məmmədbağır öldü.

Yarəb, nə cavandı, nə qoca idi o ustad,
Mat oldu bu cür itkiyə, heyrandı muğamat,
Məmmədbağır öldü.

Məmmədbağırın varlığı şəksiz idi, sanki
Məmmədbağırın yoxluğunu dandı muğamat,
Məmmədbağır öldü.

Gördük ki, bu gün cismi çiyinlərdə gedirdi,
Ruhin də uçub getdiyini andı muğamat,

Məmmədbağır öldü.

Qurban olum Allahıma, amma bu nə işdir?
Sanki o rəhim Allaha üsyandı muğamat,
Məmmədbağır öldü.

Şahin, bu nə yanğındı ki, islansa da sönmür,
Göz yaşlarına qərq olub islandı muğamat,
Məmmədbağır öldü,
Məmmədbağır öldü.

2.11.2005

***Qəzəl***

*Etnoqraf alim professor Qəmərşah Cavadovun xatirəsinə həsr olunan kitab üçün*

Birdən-birə bilməm ki, Qəmərşahə nə oldu?
Xoş dünyanı tərk etdi, o xoşxahə nə oldu?

İmdad eləyən oldu nə loğman, nə də cərrah,
Loğmanə nə gəldi, axı cərrahə nə oldu?

Eylərdi məişət deyilən sahəni tədqiq,
Tədqiq eləyən getdi, həmin sahə nə oldu?

İslah eləyərdi qələmi səhvü xətanı,
Səhv ilə xəta var yenə, islahə nə oldu?

Bir çox tələbə gəzdi o ustadı bu gün də,
Tez-tez soruşurlar «o xeyrxahə nə oldu?».

Alimləri Allah özü çəkməkdə behiştə,

Şəkk eyləməyək heç vədə «Allahə nə oldu».

Şahinsə sual eyləmədə hey öz-özündən:
«Xoş dünyanı tərk etdi, o xoşxahə nə oldu?».

07.03.2006

### ***Yaxşı günlərimi yaman bitirdim***

*Tamridanın vəfatından 5 il keçdi…*

Yaxşı günlərimi yama bitirdim,
Buna tək dağ dözər, məgər dağammı?
Səni bu dünyada tapdım, itirdim,
Səni o dünyada tapacağammı?

Bizi ayırsa da hicranın əli
Evimdə yerin var, yerin görünür.
Mənə uzanmasın loğmanın əli,
Qəlbimin yarası dərin görünür.

5 ildir dağıdır ürəyimi qəm,
5 ildir qoymusan məni tək axı.
5 ildir ölürəm, ölə bilmirəm,
Bəs Şahin nə zaman öləcək axı?

Özümə ad verdim: Niskilli Adam!
Yadımdan çıxmayır bu niskil mənim.
Deyəsən hesabı qarışdırmışam,
5 ilim bəlkə də 50 il mənim.

5 ildir həzzimin qəddi balaca,
5 ildir qəmimin boyu uzanır.
Ölüm toy kimidir mənə – olacaq!
Beş ildir fələyin toyu uzanır.

Neçin yaşayıram? Məndə üz qalıb…
Başa duman çökür, gözə çən gəlir.
Sənin qazanların gərəksiz qalıb,
Xörəyim qızımın evindən gəlir.

Dərvişəm, çox şeydən yoxdur gileyim,
Sanma ki, kimdənsə paya möhtacam.
Hərçənd olmasa da əyər-əksiyim,
Sənin dəmlədiyin çaya möhtacam.

5 ildir həzzim də qəm-kədərdi ki…
5 ildir möhnətin möhnətindəyəm.
Biganə nəfəslər o qədərdi ki…
Sənin nəfəsinin həsrətindəyəm.

Sevinci tərk edib batmışam yasa,
Yoxluq şərbətini içməyim yaxşı.
Qara yer üstündə qalmağımdansa,
Qara yer altına köçməyim yaxşı…

Yaxşı günlərimi yaman bitirdim…

*30 aprel, 2006*

### *Qəbrinin yanında yerim var mənim*

*Tamridaya*

Yenə də gəlmişəm qəbrinin üstə,
Göz yaşım baş daşı üstünə qonub.
Torpaq üstündəki əlimi istə,
Torpaq altındakı əllərin donub.

Gözləyir məni də sonuncu səfər,

Sənsiz bu dünyada yerim dar mənim.
Amma, mənə yersiz söyləməsinlər,
Qəbrinin yanında yerim var mənim.

İndi həmin yeri basıb ot-alaq,
Dərdimin boyutək boyu ucalıb.
O yerdə məzarım haçan olacaq,
Ümidim Tanrının rəhminə qalıb.

Qorxuram az sonra heç kimsənin mən
Gərəyi olmayım, vecə gəlməyim.
Sən mənim yanıma gələn deyilsən,
Mən sənin yanına necə gəlməyim?

Sənsiz neçə kərə ölüb-dirildim,
«Ölüb kənarında yatım» demişəm.
Bu qərib dünyada qərib deyildim,
Bilsən sənsiz necə qəribsəmişəm.

Yoxluğun varlığı məndən yan edib,
Tikanım bol oldu, gülüm gəlmədi.
Qur'an intiharı qadağan edib,
İntihar etməyə əlim gəlmədi.

Yenə də gəlmişəm qəbrinin üstə,
Göz yaşım baş daşı üstünə qonub.
Torpaq üstündəki əlimi istə,
Torpaq altındakı əllərin donub.

12.06.2006

## *Qit'ə*

Məni diltəng eləyirlər hərdən,

Nə deyim, bə’zi filankəslər var.

Hər xoş avaz mənə xoşdur, amma
Qulağı dəng eləyən səslər var.

E’tina eyləyirəm lap itə də,
Yenə arxamca hürən kəslər var.

5.09.2006

### *Qit’ə*

Yuxuda bir yuxu gördüm bu gecə,
Bunu gördüm ki, gəlibsən yanıma.

Təzədən başlamışıq sevdayə,
Son qoyubsan təzədən hicranıma.

İki-üç köhnə qəmi qovduqca
Neçə min nəş’ə dolurdu canıma.

Cəbrayıltək mələk olmuşdum mən,
Uçmadaydım güvənim imkanıma.

Və…oyandım yuxudan, sən yoxsan,
Qanadım düşdü o saat yanıma.

16.09.2006

### *Qəsidə*

*Bu gün Tamridanın doğum günü*

Eşqini qoydu canımda, özü amma getdi,
Əllərimdən, elə sandım ki, bu dünya getdi.

Hanı surət ki, ola tay onun surətinə?
Hanı mə’nası həyatın ki, o mə’na getdi.

Gözü nəmlənməyən aşiq görürəm yüzlərlə,
Gözlərimdənsə mənim bir neçə dərya getdi.

Qürbət ellərdə dözüb möhnətə çəkdim zillət,
Bilmirəm mən ki, qalıbdır o dözüm, ya getdi?

Başıma gəldi hava Qeys ibn Amir tək,
Olmayım bəs necə divanə ki, Leyla getdi.

Ölçmürəm yolları mən bir daha dərviş sayağı,
Yusifin gözləri yol çəkdi, Züleyxa getdi.

İki qız qaldı yetim, mənsə yetimdən də betər,
Eləyib Rəbbimizin hökmünü icra, getdi.

O gedəndən bəri sevda bazarım bağlandı,
Neçə arzu, neçə istək, neçə xülya getdi.

Diləyim heç nədə yoxdur daha bundan sonra,
Nə təmənna eləyim mən ki, təmənna getdi.

Gəldi başlanğıcı hicrin elə ki sən getdin,
Hanı məcrası vüsalın ki, o məcra getdi.

Təb’imin tutisi həlva diləmir çoxdandır,
Hanı şirni? Hanı şəkkər? Hanı həlva? Getdi!

Var səma, amma səmada hanı durna qatarı?
Nə lələk qaldı əlimdə, nə də durna, getdi.

Əvvəl-axır hamımız köçməliyik, əlbəttə,
Hamımız getməliyik, amma o, heyfa, getdi.

İstəyir tərk eləsin Şahini ilham pərisi,
Söylədim «getmə, dayan», qalmadı amma, getdi.

Ad günündür, bu gecə gəlmədi rö'ya gözümə,
Yuxu yoxdur daha gözdə, daha rö'ya getdi.

Ruh ilə can sayağı birgə idik biz, heyhat,
Qoymayan Şahini tənha, özü tənha getdi.

30.10.2006

### *Üç mələk*

*2006-cı ili də Tamridasız başa vururam…*

Üç mələk
Və mən!..
Mələklərin biri öldü,
getdi əlimdən.
Mələklərin birini
əcəl aldı,
ikisi qaldı.
İki mələk, iki çiyin…
İki mələyin
biri ağlayır,
biri gülür –
günahlarım ağladır,
savablarım güldürür.
Dip-diridir mələklər,
Onlar ölməyəcəklər.
Oturublar çiyinlərimdə.

Ölməyəcəklər mən ölənəcən,
Sonra
ölməyəcəklər yenə,
uçub gedəcəklər
qonmağa kiminsə çiynin.

Üç mələk…
Günümü qara edib
biri ağa büküldü
Və tərk elədi məni.
Biri öldü.

31.12.2006
*Gecə yarısı*

***Sən ilə mən***

*Tamridaya!*

İki insan, iki sevən –
Sən ilə mən.
Biz məhəbbət bağçasında
ağac olduq, bircə ağac.
Məhəbbətdi sənə çarə,
Məhəbbətdi mənə əlac.
İki insan ağac oldu –
Cüt buqalı, barlı ağac,
Barı bizim qızlarımız,
Varı bizim qızlarımız,
Varlı ağac.
Bəxtimizi belə yazdı Allahımız,
Belə yazdı tale yazan, tale verən –
Ağac insan –
Sənilə mən.

İndi o ağac yaman günda,
O ağacın kökü indi
məndən gendə –
                    yer altında.
O ağacın özü isə
mən özüməm –
yer üçtündə.
Biz ağacıq yaman gündə.
«Yaşayarmış ağac kökdən aralıqda» -
Belə deyir məni görən.
Kök – ağacdan,
Ağac – kökdən
                    düşüb ayrı –
Mən ilə sən!
Mən ilə sən!

28.04.2007

***Qəzəl***

*Xanım Fatimeyi-Zəhra səlamullahi-əleyhanın şəhadət günü münasibətilə*

Gerçəkdi bu aləmdə, uçdu o pəri, getdi,
Fatimə kimi gəldi, Zəhra təhəri getdi.

Yerlər qalıb heyrətdə, göylər qalıb heyrətdə,
Zərgər qalıb heyrətdə, var idi zəri, getdi.

Matəm, nə təhər matəm!.. Dərd-qəm, nə qədər dərd-qəm!..
«Dürri-Yetimə» ol dəm «getdi» xəbəri getdi.

Üqba əlacı oldu, daş-qaşlı tacı oldu!
Həlva nə acı oldu, qəndi, şəkəri getdi.

Fatimə nə cür bir yar? Fatimə nə cür dildar?
Gənc idi o gülrüxsar, gözdən nəzəri getdi.

Fatimə nə cür bir yar? Saflıqdı ona me'yar!
Amma ki, xanımlar var ömrü hədəri getdi.

İsmətli qadınlardan, izzətli qadınlardan,
İffətli qadınlardan ən mötəbəri getdi.

Şahin, nə səadətdi, hər fərdə deyil qismət –
Fatimə kimi gəldi, Zəhra təhəri getdi.

2.06.2007

### *Tamridanın qəbri üstündə*

Yer altında yatırsan…
Qəbrinin böyründəki
bom-boş qalan yerə ğax…
Allah əmr edən kimi
mənsiz o qəbir yeri
dolub
        mənli olacaq,
Əmrin hanı, İlahi?

Canında istəyi var,
ürəyində təşvişi,
Əmr et, bu qoca kişi
qoy qoyula qəbrinə,
Qurban olum səbrinə,
Əmrin hanı, İlahi?

28.07.2007

# SƏFƏRNAMƏLƏR

## İRANA X SƏFƏR MÜNASİBƏTİLƏ ŞE'RLƏR

## *ŞAHİN, YENƏ İRANƏ YETİŞDİM, GÖZÜM AYDIN*

### *1. Qəzəl*

Elə bəndə görmüşəm ki, dili var, duası yoxdur,
Elə üzlü kəs də var ki, üzü var, həyası yoxdur.

Elə zülmə qail insan görürəm ki, yox günahı,
Elə zülm edən də var ki, hələlik cəzası yoxdur.

Ağa «ağdı» söyləsəm də, qaraya «qara» desəm də,
Sözümün ağı görünmür, gözümün qarası yoxdur.

Səfərə «xətərli» söylər neçə bixəbər səfərdən,
Səfərin səfası çox var, səfərin xətası yoxdur.

Qonağın çox olmuşam mən, gəlirəm yenə, ey İran,
Bu yerin, səlam-əleyküm, belə mübtəlası yoxdur.

Yarı tək qoyub bu aşiq yenə şahin oldu, uçdu,
Gələrəm yenə, «fərağın, - demə, – intəhası yoxdur».

Mənə «Şahinim» desən bəs, demə bir də Qeysü Məcnun,
Gözəlim, hələm başımda dəlilik havası yoxdur!

*Bakı-Astara yolu*
3.05.2004

## *2. MÜRƏBBE*

Ey torpağa acgöz kimi bağlı qoca Şahin,
Torpağını seyr etməyə gəldim bu diyarın.
Yer Kürrəsi torpaq ilə dolmuşsa da, lakin
Torpağını seyr etməyə gəldim bu diyarın.

Dünyadakı çox viranı, abadı da gördüm,
Babildəki sahmanı da, bərbadı da gördüm,
İstanbulu da, Bəlxi də, Bağdadı da gördüm,
Torpağını seyr etməyə gəldim bu diyarın.

Yaylaq ilə, qışlaq ilə orman yada düşdü,
Seyr eylədiyim bağü gülüstan yada düşdü,
Qəzvin ilə, Təbriz ilə Tehran yada düşdü,
Torpağını seyr etməyə gəldim bu diyarın.

Göz çəkməməli, çəkməliyəm baş ona tez-tez,
Minlərlə qonaqlar gələcək qoynuna tez-tez,
Gözmuncuğu lazımdı asım boynuna tez-tez,
Torpağını seyr etməyə gəldim bu diyarın.

Göz var ki, doyub sevdiyi cananı seyrdən,
Göz var ki, bezib hurini, qılmanı seyrdən,
Şahin gözü doymur niyə İranı seyrdən?
Torpağını seyr etməyə gəldim bu diyarın?

*Tehran,*
4.05.2004

## *3. Qəzəl*

Verdim canı, canana yetişdim, gözüm aydın,
Canana yetib cana yetişdim, gözüm aydın.

Çox var idi sultanı hüsn mülkünün, amma
Mən bəndə bu sultana yetişdim, gözüm aydın.

Can təşnəliyin çənginə keçmişdi, dodağım
Çat-çat idi, ümmanə yetişdim, gözüm aydın.

Tə’yin edə bilmirdi mənim dərdimi loğman,
Bir sevgili loğmanə yetişdim, gözüm aydın,

Əl gül sayağı pakizə, pakizə ayaq həm,
Bəh-bəh ki, gülüstanə yetişdim, gözüm aydın.

İmkan ələ düşmürdü alam busə üzündən,
Görcək onu imkanə yetişdim, gözüm aydın.

Zənn eyləməsinlər ki, sənəm tə’rifidir bu,
Şahin, yenə İranə yetişdim, gözüm aydın.

*Tehran*,
4.05.2004

### *4. Qəzəl*

Ömr uzunu çox yanı alqışladım,
Öncə Azərbaycanı alqışladım.

Dərviş olub çıxdım uzaq yollara,
Fars-ərəbi, əfqanı alqışladım.

Oldu varaq dağ-dərə, orman qələm,
Dağ-dərəni, ormanı alqışladım.

Ərdəbilə, Təbrizə «əhsən» dedim,

Urmiyəni, Zəncanı alqışladım.

Qorxu hanı, ey ulu Məmməd Səid?[1]
Qorxusu yox Tehranı alqışladım.

Alqışa layiq bu qəzəl, əl çalın,
Mən təzədən İranı alqışladım.

Sərhədi yox alqışımın, Şahina,
Bir də Azərbaycanı alqışladım.

*Tehran*,
5.05.2004

### *5. Qəzəl*

Şadəm, edirəm mən yenə İran ilə sevda,
Tək dillə deyil, eyləyirəm can ilə sevda.

Divanə deyirlər adıma, eylədiyimçin
Səhra ilə ülfət və gülüstan ilə sevda.

Dəryaya girən gərməlidir dalğaya sinə,
Ümmanə düşən etməli tufan ilə sevda.

Şairlər əcəb xislətə malik, eləyirlər
Gəh vəsl ilə sevda, gəhi hicran ilə sevda.

Şairləri sevdayə görə etmə məzəmmət,
Şairlər edir hurivü qılman ilə sevda.

Məntək yenə varmı verə özbəklərə sevgi,

---

[1] *«Qorxulu Tehran» romanının müəllifi Məmməd Səid Ordubadi*

Fars ilə məhəbbət qura, əfqan ilə sevda?

Dünyamızın aramı üçün saziş edib də,
Hətta edərəm bir neçə şeytan ilə sevda.

İran eləyir gör neçə gündür ki, ürəkdən
Şahin kimi həsrətli qəzəlxan ilə sevda.

*Tehran,*
6.05.2004

## *6. Qəzəl*

Aşiq görürəm ah ilə əfğan – ürəyində,
Aşiq dəxi var gül və gülüstan – ürəyində.

Vardır elə insan onun insanlığı – gözdə,
Vardır elə kəs insana heyran – ürəyində.

Mən öylə kəsəm sidq ilə qurban edərəm can,
Aşiq də var amma yara qurban – ürəyində.

Hərdən düşünürlər ki, adamdır bu qəribə –
Qeyb etdiyi, basdırdığı canan – ürəyində.

Hərdən də deyirlər nə ürək sahibidir bu –
Təbriz ilə, Zəncan ilə Tehran – ürəyində.

Amma ki, bilən yox bunu: Yoxdur canı artıq,
Mən çarəsizin eşqi olub qan – ürəyində.

Çox ölkəni görmüş qoca Şahin və unutmuş,
Tutmuş yerini amma ki, İran ürəyində.

*Tehran,*

6.05.2004

### *7. Yaşıl rəngli saçlar*

Saçlarımın rəngini yaşıl gördüm yuxuda,
Yaşıl da rəng olarmı, İlahi?
Torpaqda qəşəng olur,
Yarpaqda qəşəng olur,
Başda qəşəng olarmı, İlahi?
Görəsən nə deyir
saçlarıma qonan
bu yaşıl rəng mənə?
Yoxsa Tehranda öləcəyəm,
gətirəcəklər yaşıl çələng mənə?
Çöllər, bağlar yaşıllaşıb,
dağlar yaşıllaşıb.
Boz ağaclar, qalın orman yaşıllaşıb,
məzarıstan yaşıllaşıb.
Adama
yaşıl ləzzət verir
yaşıl-yaşıl mənzərələr,
Yaşıl rəngə boyanıb dərələr,
Amma, mənsə
Bitirmişəm ömrümün yaşıl rəngini,
Təbiət yaşıllaşıb,
Mən isə qış rəngindəyəm,
Qış rəngi olan
ağ rəngin çəngindəyəm,
Amma, duyuram ki,
həyatım qaralıb,
Saçlarım kəfən rəngini alıb,
Lakin, kəfən yarımın oldu qisməti,
Üç ildir ki,

çəkirəm kəfən həsrəti.
Dözməyib üç il çəkdiyim
kəfən hicranına,
haçan gedəcəyəm onun yanına?

…Saçlarımın rəngini yaşıl gördüm yuxuda…

*Tehran*,
7.05.2004

### *8. Neçə ildir Şahin qalıb Bakı-Tehran arasında*

Azərbaycan,
uzun illər
vüsal durub, hicran durub,
hərdənbir də şeytan durub
sənlə İran arasında.

Kədər, qüssə
gah bir yanda, gah bir yanda,
Qəm bir yanda, ah bir yanda,
Çar bir yanda, şah bir yanda…
Dərya-dərya qanlar axıb
iki sultan arasında.

Əldən çox imkan vermişik,
Əvəzində
minlərlə qurban vermişik,
Qan vermişik,
Can vermişik
neçə fərman arasında.

Aralıqda
izzətimiz lakin qalıb,

ülfətimiz lakin qalıb,
hörmətimiz lakin qalıb,
Neçə ildir Şahin qalıb
Bakı-Tehran arasında.

*Tehran,*
7.05.2004

### *9. Qit'ə*

*«Baği-Cəmşidiyyə» adlanan dağüstü parkın seyrinə gəldik. Bizi müşayiət edən xanım Məryəm Mədəni sal daşlarla döşənmiş pillələrdən düşərkən yıxıldı. Geri qayıtdığımız zaman maşında zarıyırdısa da, üzündən təbəssüm çəkilmirdi…*

Bu təravət bağının qönçəsini seyr elədim,
Həm gözəllikdə qənirsiz bu gözəl, həm mədəni.

Mədəniyyətli gözəllər məni əfv etsinlər,
Mədəni çoxlu gözəl var, osa möhkəm mədəni.

Danışanda dodağından elə bil bal süzülür,
Həmi xasiyyəti incə, həmi görkəm mədəni.

Ağrısı olsa da, cəhd eylədi bildirməməyə,
Bu qızın gözlərinə çökmüş olan qəm – mədəni.

Üzünə hansı kəsin bəd nəzəri zilləndi?
Sərvtək düşdü qəfildən yerə Məryəm Mədəni.

Bu nəzakət ki var onda, belə fikr eyləyirəm:
Ona tay olmayacaq gər ola aləm mədəni!

*Tehran,*
7.05.2004

### *10. Qəzəl*

Necə işdir ki, bizi çərx müdam aldatdı,
Məni saqi, səni mey, saqini cam aldatdı.

Əyrini əyri yolundan düzə çəkmək – müşkil,
Amma, düzlük gəzəni əyri adam aldatdı.

Hər haram iş görənin qanı halal olmalıdır,
Bir də gördün halalı gəldi haram aldatdı.

Huri xoşdursa da, yox qılmana rəğbət məndə,
Qəznəvi Mahmudu bir adi qulam aldatdı.

İstədim güclü şe'r yazmağı, heyfa ki, məni
Fars şe'rində olan nəzmü nizam aldatdı.

Əqlini vermə əlindən, ayıq ol, ey Leyli,
Bir də gördün ki, səni İbni-Salam aldatdı.

Şahinin şe'ri də irfanileşir, Xəyyamım,
Məni saqi, səni mey, saqini cam aldatdı.

*Tehran*,
8.05.2004

### *11. Dərd bir yana getdi, kədər bir yana*

Bu sevda neçə yol alovlanmadı,
Zər bir yana baxdı, zərgər bir yana.
Gözümüz bir səmtə baxıb yanmadı,
Baxış bir tərəfə, nəzər bir yana.

Budur, xəlvət otaq, bir o, bir də mən,
Çıxdı neçə-neçə şe'r dilimdən…
O, ayağa durdu, düşdü əlimdən
Kitab bir tərəfə, dəftər bir yana.

Şahin, vüsal oxu dəymədi daşa,
Qovuşdu yar yara, sirdaş sirdaşa,
Fərəh sevinc ilə dayandı qoşa,
Dərd bir yana getdi, kədər bir yana.

*Tehran*,
8.05.2004

### *12. Qəzəl*

*Alim Tofiq Cahangirova!*

Xislətim böylədi, zənn etmə günahkar məni,
Məni gah yar çəkir, gah çəkir dar məni.

Hafizəmdə ilişib qalmada Kabul şəhəri,
Bağlayıblar qoca İstanbula aşkar məni.

Bağdadın bir günü min bir gecədən üstünmüş,
Qubadan ayrılığım eyləmədə zar məni.

Gəlirəm, Gəncəni xatırlayıram Təbrizdə,
Gedirəm, Qum şəhəri çəkmədə təkrar məni.

Bakıda diqqəti gülçəkmədə, Təbrizdə çiçək,
Savalanda özünə cəlb eləyir qar məni.

Gəhi surət məni çəkməkdə, çəkir gəh mə'na,
Nə qədər möcüzədən hali edir tar məni.

Günlərin bir günü var qorxu ki, divanə edə
Neçə rəmz ilə müəmma, neçə əsrar məni.

Deməyin bir daha «Şahin qəzəli sadə yazır»,
İttiham eyləməyin bir daha təkrar məni.

Yazıram şe'rimi mən azəribaycanlı üçün,
Qoy zəif eyləməsin zənn Ələmdar məni.

Şahinəm, saf adamam, şe'ri də saf yazmadayam,
Saf əsər eyləyəcəkdir həmişə var məni.

*Tehran,*
9.05.2004

### *13. Yıxılmaq və durmaq*

*Şəfəq Əlibəyli üçün*

Yıxılmaq və durmaq – adi haldı bu,
Yıxılıb duranın yoxdur qorxusu.
Günlərin bir günü qəfil yönəlib
Mənim də başıma bu bəla gəlib.
Yıxıldım Bakıda üç ay öncə mən,
Məşum bir bəlanın çıxdım əlindən.
Dərd elə bildi ki, sevinəcəkdir,
Qəm elə bildi ki, öyünəcəkdir.
Bu il
mən yıxıldım,
Şəfəq yıxıldı,
Məryəm yıxıldı,
Biz ayağa qalxdıq, dərd-qəm yıxıldı.
Yerdə yıxılmağa axı nə var ki?
Zirvədənn yıxılma, zirvədən təki!
Qorxuram zirvədən, bax o səbəbdən

Zirvə həsrətində olmamışam mən.

…Bu il
mən yıxıldım,
Şəfəq yıxıldı,
Məryəm[1] yıxıldı…

*Tehran,*
10.05.2004

### *14. Ey tənha balıq!..*

Tehranda
Mehmansarayın bağçasında
tənha gördüm səni
dibi yaşıl boya ilə rənglənmiş
hovuzda üzən
ey tənha balıq.
Sənin də mən kimi
çox çəkib başın,
Hanı yoldaşın?
Hanı sirdaşın?
Hanı tənhasızlığın, ey tənha balıq?
De görüm, necədir tənhalıq?
Ay yazıq,
Mən yazıq da tənhayam,
Amma, mənim tənhasızlığım
yoxala bilər –
kömək edərəm mən mənə,
Sənsə
məhkumsan
insanların rəhminə,

---

[1] Tehranda bizi müşayiət edən Məryəm Mədəni

özün kimi qırmızı bir balıq tutub
ata bilərlər yanına
səmimi-səmimi,
O zaman həyatın yaşıllaşar
Tehranda,
mehmansarayın bağçasında
dibi yaşıl boya ilə rənglənmiş
bu hovuz kimi.

Ey tənha balıq!..

*Tehran*,
10.05.2004

### *15. Tehranda yazdığım haykular*

Uçdu,
Zəri qaldı əlimdə,
Zər borcluyam kəpənəyə.

* * *

Üzümə ləkə düşdü.
Ürəyimdən qorxuram
Ey ləkə.

* * *

Xoşbəxt idi
Puşkinə dəyən güllə,
Ey bədbəxt Dantes!

* * *

Hicri boşayıb
On gün siğə etdim
Tehranda vüsalla.

*Tehran*,
11.05.2004

## *16. Qəzəl*

Dolmuş təzədən gör neçə mehman ilə İran,
Mehmanına xidmət eləyir can ilə İran.

Tarix boyu çox mə'rəkələrdən ki çıxıbdır,
Dil tapmadadır dövr ilə, dövran ilə İran.

Alimləri, şairləri məşhur cahanda,
Şöhrət qazanıb elm ilə, irfan ilə İran.

Hərgah hücum eyləsələr üstünə, hökmən
Azadlığı hifz etməlidir qan ilə İran.

İllər boyu inşa eləyib ali qəsrlər,
Qiymətlidi Təbriz ilə, Tehran ilə İran.

Qardaşları küsdürməyə cəhd eyləməsinlər,
Qardaşlıq edir Azəribaycan ilə İran.

Şahin eləsin ülfətü ünsiyyəti kimlə?
- İran ilə, İran ilə, İran ilə, İran!!!

*Tehran*,
12.05.2004

## **İRANA XI SƏFƏR MÜNASİBƏTİLƏ ŞE'RLƏR**

## ***BU NƏ HİCRAN Kİ, YETİŞMƏKDƏ VÜSAL ƏTRİ MƏNƏ?***

### ***1. İran, Turan…***

Çoxdu seyri bu diyarın,
Nağıllar aləm kimi
Canda mehri bu diyarın,
Gəlmişəm həmdəmi kimi.

Çox olmuşam Tehranında,
Təbriz kimi məkanında…
Fikrim tarix ümmanında
Üzmədədir gəmi kimi.

İran qanı, Turan qanı…
Yuyub aparmaz qan qanı,
Qurumayır Çaldıranı
Gözlərimin nəmi kimi.

Diləklə doludur sinəm,
Qovsun qəmi o həm, bu həm,
At çapacaq yoxsa ələm
Qəlbimin ələmi kimi.

İran dağı, Turan dağı…
Olarmı uçuran dağı?
Aralıqda duran dağı
Biçmək gərək zəmi kimi.

*Bakı-Tehran,*
*Təyyarə,*
18.12.2004

### *2. Qəzəl*

«Yollarda xətər var» dedilər, gözlərim aydın,
«Sərhəddə çəpər var» dedilər, gözlərim aydın.

«Hicran arabir bal kimi şirin görünürsə,
Bətnində zəhər var» dedilər, gözlərim aydın.

«Şair, bu qədər etmə səfər, qibtə yaratma,
Gözlərdə nəzər var» dedilər, gözlərim aydın.

«Sevdayə düşənlər arabir dərdə düşürlər,
Sevdadə zərər var» dedilər, gözlərim aydın.

«Eşq içrə vəfa gördü, daha gözləri gülmür,
Əğyarə qəhər var» dedilər, gözlərim aydın.

«Tehranı və Təbrizi unutmaqdan uzaqsan,
Minlərlə şəhər var» dedilər, gözlərim aydın.

Bax gözdəki aydınlığa sən, ey qoca Şahin,
«İranə səfər var», dedilər, gözlərim aydın!!!

*Tehran*
18.12.2004

### *3. Qiblə*

Tehranda,
mehmansaraydakı
yeddi günlük,
üç otaqlı mənzilimdə
namaz əhlinə və mənə

qiblənin yönünü göstərən
işarə var,
axı namaz qılarkən
qibləyə üz tutarlar.

Məkkə!
Müqəddəs Kə’bə!
Qiblə!
Qiblə istiqaməti!
Hər müsəlmana zəruri istiqamət!
Uzun müddət
Qibləmin yönünü bilmədim
dinsiz-imansız adamlartək.
Amma,
günlərin bir günü
üzüm qibləyə çevriləcək.
Göndərəcəklər ruhumu göyə,
Döndərəcəklər üzümü qibləyə
O zaman
yəqin ki,
mə’sum-mə’sum yalvaracağam
Yaradana:
«Ya Haqq! Ya Haqq!!.»
Amma,
artıq gec olacaq,
sönəcək ömrümün Günü…
Ey yol göstərənlər,
nə qədər ki gec deyil
göstərin mənə
qiblənin yönünü,
dəstəmaz alım,
durum şəriətin
itaətində,

Vecsiz bir atalar sözümüzdə deyildiyi kimi
«Qaçmaq da igidlikdəndir» deyib
qaçım səhvimdən
və
namaz qılım
qiblə istiqamətində.
Qiblə!..

*Tehran*,
18.12.2004

### *4. Sürud*

Tərk edib vəsli yenə qucmadayam hicranı,
Bu nə hicran ki, yetişməkdə vüsal ətri mənə?
Yenə gəldim, yenidən seyr elədim Tehranı,
Bu nə hicran ki, yetişməkdə vüsal ətri mənə?

Deməsəm mən ona gər sevgili canan, ölləm,
Görməsə göz onu tez-tez, üzülər can, ölləm,
Bu nə hicran ki, desəm gər ona hicran, ölləm,
Bu nə hicran ki, yetişməkdə vüsal ətri mənə?

Verməyin badə ələ, badəpərəst olmadayam.
Qırmayın könlümü ki, könlü şikəst olmadayam…
Bu ətirdən, mey içənlər kimi məst olmadayam,
Bu nə hicran ki, yetişməkdə vüsal ətri mənə?

Demişəm mən ki, səmimanə hər an öz sözümü,
Aldada bilməmişəm zərrə qədər öz-özümü,
Bu nə hicran odudur qarsılamır üz-gözümü?
Bu nə hicran ki, yetişməkdə vüsal ətri mənə?

Duymasa şairi mən İrana İran demərəm,

«Oluram şe’rinə gündüz-gecə heyran» demərəm,
Şahina, mən bu vüsalə daha hicran demərəm,
Bu nə hicran ki, yetişməkdə vüsal ətri mənə?

*Tehran,*
19.12.2004

### *5. Qəzəl*

Yəlda gecəsi[1] gəldi, Tehranda qaranlıq var,
Tehranda deyil təkcə, çox yanda qaranlıq var.

Yəlda – bu gecə, əlbət, tüğyan eləyir sübhə,
Şadəm, elə şadəm ki, tüğyanda qaranlıq var.

Şadəm ki, çox imkanə qismət bu gecə fürsət,
Çünki, deyə bilməm ki, imkanda qaranlıq var.

Şadəm ki, uzun olmuş yəlda saçıtək yarın,
Həzz ümmanı var məndə, ümmanda qaranlıq var.

Yaylıq sənə göndərdim, bağla o qara zülfün,
Qoy söyləməsinlər ki, cananda qaranlıq var.

Gizlətmə, açıq bildir meylin mənə vardırsa,
Pünhan eləmə meyli, pünhanda qaranlıq var.

Sülh arzulayan kəsdə üsyanə maraq olmaz,
Sülh arzulasın qəlbin, üsyanda qaranlıq var.

---

[1] *İlin ən uzun gecəsi, payızla qışın arasındakı son gecədir və sanskrit dilində «milad» («doğulma») deməkdir. Novruzda süfrə açıldığı kimi Yəlda gecəsinin də süfrəsi olur. Qarpız və nar var bu süfrədə. Çünki, nar əgər behişt meyvəsidirsə, qarpız canı yaşadan qanın rəngidir. Əbu Reyhan Biruni bu gecənin İsa peyğəmbərin təvəllüd günü olduğunu bildirir.*

Nikbinliyə müştaqəm, bəxş eylə sevincindən,
Əlbəttə, sevinc azdır, əfğanda qaranlıq var.

Hərçənd qaranlıqda çox mətləb olur hasil,
Meylindəyəm ağ vəslin, hicranda qaranlıq var.

Təkrar elə, ey Şahin, mətlə’dəki misranı:
«Yəlda gecəsi gəldi, Tehranda qaranlıq var».

20.12.2004

## *6. Qəsidə*

Eşq oxları yağdırdın sən canə məhəbbətlə,
Etdin məni, ey zalım, divanə məhəbbətlə.

Heyfa ki, cavanlıqda ifrat elədim eşqi,
Çox gül məni etmişdi məstanə məhəbbətlə.

Meylim elə çoxdur ki… İmkan elə azdır ki…
Yalvarmadayam tez-tez imkanə məhəbbətlə.

Amma, yenə var ümmid imdadına Allahın,
Etsin yenə lütf aciz insanə məhəbbətlə.

Versin canıma qüvvət dərvişi olum ərzin,
Qəvvas olum Eşq adlı ümmanə məhəbbətlə.

Göydə neçə aləm var… Aşiqləri həm çoxdur…
Baş Aşiq olum Yerdə mərdanə məhəbbətlə.

Hərdən dönübən şəm’ə pərvanəyə od vurdum,
Hərdən şamı yandırdım pərvanə məhəbbətlə.

Etdim neçə yol tövbə, çünki günah etmişdim,
Gəldim neçə yol dinə, imanə məhəbbətlə.

Şadəm ki, uzaq oldum töhmət və məzəmmətdən,
Şahanə olub qəddim şahanə məhəbbətlə.

Zənnimcə, cəhənnəmdən üqbadə kənar ollam,
Mən ömrümü sərf etdim hər anə məhəbbətlə.

İzhar eləyən vardır sevdasını üqbadə
Huriyə məhəbbətlə, qılmanə məhəbbətlə.

Saf eşqə məhəbbətlə imdadə gəlib Nofəl,
Hərdən gəlirəm mən həm tüğyanə məhəbbətlə.

Eşqin çölünə düşdüm, çıxdım dağına eşqin,
Məcnunə məhəbbətlə, Sən’anə məhəbbətlə.

Kim görməsə hicranı bilməz dəyərin vəslin,
Hicr içrə vuruldum mən Tehranə məhəbbətlə.

Əlbəttə, əzəllər həm çox mülkə qədəm basdım,
Baxdım ərəbə, türkə, əfqanə məhəbbətlə.

Həssas ola kim mən tək bir ləhzə belə qalmaz,
Ev sahibi baxmazsa mehmanə məhəbbətlə.

Dərviş kimi çox gəzdim, acgöz təki çox baxdım
Rəştə, Quma, Təbrizə, Zəncanə məhəbbətlə.

Yazdım neçə mətləbdən, əlbət, bu qəsidəmdə,
Çıxdım neçə dünyanı seyranə məhəbbətlə.

Əhsən adımı Şahin adlandıran insanə,
Uçdum təzədən quş tək İranə məhəbbətlə.

*Tehran*,
21.12.2004

## *7. Gəldi-gedər*

Bu dünya fani dünyadı,
bu dünya hədəri.
Gəldi-gedəridi,
                gəldi-gedəri.
Neçin gəlmişik,
neçin gedirik,
                bilə bilmirik.
Xilqəti
        gəldi-gedər,
Bəşəri
        gəldi-gedər,
Ne'məti
        gəldi-gedər,
Zəri
        gəldi-gedər,
Axşamı
        gəldi-gedər,
Səhəri
        gəldi-gedər.
Gülü, çiçəyi
        gəldi-gedər,
Hər şeyi
        gəldi-gedər…

Ehe-y, o biri dünya,

Məni indiyəcən
Yerdən
       qopara bilməmisən,
Yanına apara bilməmisən,
çünki
       yüngül olmamışam,
həmişə istəmişəm ağır gəlim,
gəlişim
       gedişimdən ötrüymüş,
                              çağır gəlim,
hələ ki, səsini eşitmirəm,
                              bağır gəlim,
yerdəki həyatımı verim bada,
amma, Tehranda yox, Bakıda!

…Bu dünya fani dünyadı.

*Tehran*,
22.12.2004

### *8. Şahin öz-özünü güllələyəcək*

Tehranda kimsədən qorxum yoxsa da,
Eşitdim qəfildən bir güllə səsi.
Canımı ürpətdi o müdhiş səda,
Görən, kimə dəydi əcəl gülləsi.

Gündə doğuluram, ölürəm gündə,
Özümdə dağ boyda dözüm görürəm.
Mənim qanadım var çiynim üstündə,
Onu kimsə görmür, özüm görürəm.

Hardasa tuşlanan mənə tətik var,
Haçansa edəcək güllə zar məni.

Məndən yayındırır onu qanadlar,
Sanıram qoruyur qanadlar məni.

Yoxdur əzab çəkən şairlər qədər,
Həzz də çəkən yoxdur şairlər təki.
Qəti əminəm ki, bütün şairlər
Qeyri-adilərdir yer üzündəki.

Yataqda ölməyi sanıram hədər,
Haçansa mənə də güllə dəyəcək.
Günlərin bir günü öldürməsələr,
Şahin öz-özünü güllələyəcək.

Qanımı qovacaq canımdan yaram,
Təəccüb etməsin kimsə bu qəsdə.
Yataqda ölməyi arzulamıram,
Ölsəm öləcəyəm mən ayaq üstdə.

*Tehran,*
22.12.2004

### *9. Qit'ə*

*Tehranda professor Yusif Rüstəmovun təsəvvüf barədəki çıxışından ruhlanaraq*

Sanmayın fars-ərəbi bilsəm də,
Qəzəlin mübhəminin şahiniyəm.

Deməyin bəndəsiyəm qüssə-qəmin,
Neçə sevda dəminin şahiniyəm.

Şahina, yoxdu bu aləmlə işim,
Mən ki, ruh aləminin şahiniyəm.

*Tehran,*

22.12.2004

### *10. Qəzəl*

Kim söylədi ki, qol yenə Tehranı qucaqlar,
Eşqim elə artıbdı ki, hər yanı qucaqlar.

Bağbanda məhəbbət görürəm, güldə sədaqət,
Güllər sarılıb boynuna bağbanı qucaqlar.

Mehmanın əgər niyyəti pak, eşqi təmizsə,
Ev sahibi, əlbəttə ki, mehmanı qucaqlar.

Mən meylə müvafiq təzə imkanıma yetdim,
Qollarda meyl çoxdu ki, imkanı qucaqlar.

İqrarı üçün xəstəyə meyl eyləməsinlər,
Əlbəttə ki, ümmid ilə loğmanı qucaqlar.

Heyrətlə deyirlər məni divanə edib zənn:
- Gəh vəsli qucaqlar, gəhi hicranı qucaqlar.

İran mənə şövq ilə qucaq açdı, sevindim,
Şahin yeni ilham ilə İranı qucaqlar.

*Tehran,*
22.12.2004

### *11. Qit'ə*

*Konfransın son iclasında professor Təhminə Rüstəmovanın çıxışını dinlədikdən sonra*

Dünya, səni bezdirdi aşiqlərin əfğanı,
Məcnun eləyir nalə, Fərhad eləyir fəryad.

Gəlmir gözümə rö'ya, yetmir dadıma xülya,
Röya eləmir çarə, xülya eləmir imdad.

Sevdayə könül vercək səhv eyləmişəm, çünki
Sevda neçə müddətdir qovğa eləyir icad.

Rəbbin işini bilmək mümkün deyil insanə,
Abadı edir bərbad, bərbadı edir abad.

Yoxdur buna şəkk əsla: İlham ikiqat artar
Əcdadına bənzərsə əzmində əgər övlad.

Şair neçə gündür ki, Sə'di elinə gəlmiş,
Hər lütfünü İranın daim edəcəkdir yad.

Şagird ilə ustadı Tehranda edir təmsil,
Şahin kimi bir şagird, Təhminə kimi ustad.

*Tehran*,
23.12.2004

### *12. Qəzəl*

Gəh gülüstanə səfər, gəh də biyabanə səfər,
Əvvəl-axır edəcəkdir məni divanə səfər.

Qürbət ellərdə çox oldum, dönürəm yurda tərəf,
Tərk edib vəslimi etdim neçə hicranə səfər.

Arabir qonşularım etmədə rişxənd mənə:
«- Nə həşirdir eləyirsən belə hər yanə səfər?»

Söylərəm: «- Getməliyəm Məkkəyə həm inşallah,

Şövq ilən etməliyəm mən Ərəbistanə səfər».

Amma, çəkməkdə məni indi vətən gülzarı,
İstərəm indi edim doğma gülüstanə səfər.

Eləyibsən məni pərvanə, ey Odlar Yurdum,
Gərək etsin yanına indi bu pərvanə səfər.

Dedilər: - Sanki cavandır qoca Şahin Fazil,
Edəcəkdir hələ çoxmu qoca İranə səfər?

*Kərəc şəhəri*,
24.12.2004

# İRANA XII SƏFƏR MÜNASİBƏTİLƏ ŞE'RLƏR

## *ŞAHİNƏ QİSMƏT OLUBDUR YENƏ İRAN SƏFƏRİ*

### *1. Qəzəl*

Şahinəm, gözləyirəm doğrusu hər an səfəri,
Gəh vüsal əzmi müyəssər, gəhi hicran səfəri.

Səfər ilən səfərin fərqi böyükdür məncə,
Kimə quldur, kimə qul, kimsəyə sultan səfəri.

Sən'anın qisməti Gürcüstana olmaq sakin,
Məcnunun qisməti olmuş Ərəbistan səfəri.

Bisütun çəkdisə Fərhadı dəmadəm özünə,
Cəzb edib Sindbadı şövq ilə ümman səfəri.

Məni Kirman, məni Kaşan və Nişapur çəkdi,
«Gəl» dedi Ənzəlisi, «can» dedi Zəncan səfəri.

Şəhriyar eşqi dolubdur canına Sərrafın[1],
Şahinə qismət olubdur yenə İran səfəri.

24.02.2005
*Bakı,*
*səfərdən 4 gün əvvəl*

---

[1] *Hacı Rza Sərraf Təbrizi. Mənim İrana 12-ci səfərim bu böyük qəzəl və mərsiyə şairinin yubileyi münasibətilə Təbrizdə keçiriləcək tədbirlərdə iştirakla əlaqədardır.*

### *2. Qəzəl*

Ruhi, yarəb, sevinə, şad ola Sərrafımızın,
Qəbri nur ilə, işıqla dola Sərrafımızın.

Tazəvü tər görünür söz gülü, söz bağında,
Gülü, zənn eyləmirəm mən, sola Sərrafımızın.

İstiqamət ona düz getmək olub, düz getmiş,
Qonmamışdır nəzəri sağ-sola Sərrafımızın.

Mən yemək istəyirəm hər qəzəlin, şirindir,
Sözləri sanki qarışmış bala Sərrafımızın.

Qorxuram ki, yıxılam indi, tutun, çünki sözü
Məni salmış yenə haldan-hala Sərrafımızın.

Şe'rinin ətri sərasər yayılb Təbrizə,
Bakıya, Bağdada, İstanbula Sərrafımızın.

Təb'inin zərrəsini Şahinə versin Sərraf,
Bir qulam, rəhmi gələ qoy qula Sərrafımızın

25.02.2005
*Bakı,*
*səfərdən 3 gün əvvəl*

### *3. Hələlik cavabsız suallar*

*26 fevral. Xocalı soyqırımının*
*anım günü.*

Xocalının
xocası vardı,
cavanı vardı,

qocası vardı,
hanı bəs?

Xocalının
evi vardı,
daşı vardı,
damı vardı,
adamı vardı,
hanı bəs?

Xocalının
hasarı vardı, barısı vardı,
qocası vardı, qarısı vardı,
düşmənini sancmağa,
dostuna bal verməyə
arısı vardı,
hanı bəs?

Xocalının
bəyi vardı, gəlini vardı,
gedəni, gələni vardı,
doğulanı, öləni vardı,
hanı bəs?

Xocalının
qoyunu vardı, quzusu vardı,
bərəkəti, ruzusu vardı,
hanı bəs?

Xocalının
daha nəyi vardı?
Düşmən başına endirməyə
dəyənəyi vardı,

hanı bəs?

Xocalının
həmişə oyaq bildiyim,
özümə dayaq bildiyim
Təbrizi vardı,
Tehranı vardı,
İranı vardı,
hanı bəs?

…Biri yoxdu, biri vardı,
Xocalının yeri vardı,
oğlu, qızı vardı,
sazı, sözü vardı,
Xocalının
özü vardı,
hanı bəs,
hanı bəs,
hanı bəs?

26.02.2005
*Bakı, səfərdən 2 gün əvvəl*

### *4. Qəzəl-təzmin*

Kim söyləsə ki, eyşü səfa dövlət iləndir,
Bilsin bunu ki, dövlət isə qismət iləndir.

«Hər kimsə ola rabiteyi-şe'rdə rəbti
Anlar bu qəzəl qaideyi-hikmət iləndir»[1].

Dərdi, kədəri, həsrəti sevdi neçə şair,

[1] *Beyt Hacı Rza Sərraf Təbrizinindir.*

Cəngimsə mənim dərd, kədər, həsrət iləndir.

Ustadların qiymətinə çox həvəs etdim,
Əlbəttə ki, şagird həvəsi qiymət iləndir.

Sərf eyləmişəm ömrümü qiymətli nigarə,
Sərrafın işi gövhər ilən, sərvət iləndir.

Ey Həqq, cavanlıqda əziyyətdən uzaqdım,
İndi qocayam, indi işim külfət iləndir.

Amma, yenə, ey saqi, sənin eşqinə bəndəm,
Görmək o gözəl surətini fürsət iləndir.

Şərbət dilin ilə məni dindir yenə şirin,
Tutinin işi, bilməlisən, şərbət iləndir.

Üç divanı inşa eləyib sə'y ilə Şahin,
Divan ki yazıbdır, nə qədər zəhmət iləndir!..

26.02.2005
*Bakı, səfərdən 2 gün əvvəl*

### *5. Qəzəl-təzmin*

Öylə ki, söhbət dolandı-gəldi canan üstünə,
Sanki loğmanım məni göndərdi loğman üstünə.

Gül dodaqdan şipşirin sözlər dedikcə dilbərim,
Tutiyəm, fikrim qonubdur şəkkəristan üstünə.

«Dilbəra, xəttün çıxıb? Ya, fitnə bərpa etməgə

Ləşkəri-Çingiz olub amadə İran üstünə?»[1].

Sevgi üçün xəlq olub Yer Kürrəsi, şükr etməyir
Naşükürlər qaldırır insanı insan üstünə.

Açmasa güllər, çiçəklər bağ-bağatlar məhv olar,
Diqqəti bülbüllərin qonmaz gülüstan üstünə.

Əğyarı seyr eylədikcə gözlərim, zənn eylərəm
Sanki bir qəssabdır, gəlməkdə qurban üstünə.

Şahina, Sərraf olub sərf eylə ömrü sən’ətə,
Yığ yazıb ömrün boyu divanı divan üstünə.

27.02.2005
*Bakı, səfərdən bir gün əvvəl*

### *6. Dünya*

*«Dünya sizi aldatmasın»*
*İmam Hüseyn*

Hər an gəzir, yaman gəzir,
Dünya sizi aldatmasın.
Şahiddir asiman, gəzir,
Dünya sizi aldatmasın.

Hərdən coşur, hərdən əsir,
Kimsə bilmir onda nə sirr,
Gəzəyən qadın kimidir,
Dünya sizi aldatmasın.

Din uğrunda əsən hanı?

---

[1] *Beyt Hacı Rza Sərraf Təbrizinindir.*

Haqsız kəsi kəsən hanı?
Hüseyn hanı, Həsən hanı?
Dünya sizi aldatmasın.

Gərdişini saya-saya
İşığını qoy Gün yaya…
Bənd olmayın bu dünyaya,
Dünya sizi aldatmasın.

Yer, Göy Rəbbin varı kimi!
Yer Göydə bir darı kimi!
Küpəgirən qarı kimi
Dünya sizi aldatmasın.

Sözüm açıq, deyil gizli,
Sərvaxt olaq sizli-bizli,
Ey Bakılı, ey Təbrizli,
Dünya sizi aldatmasın.

Müvəqqəti güzrərgahdır,
Kimi gəda, kimi şahdır,
Əbədi təkcə Allahdır,
Dünya sizi aldatmasın.

Ərimәyәn qar görmədim,
Yox olmayan var görmədim,
Partlamayan şar görmədim,
Dünya sizi aldatmasın.

Şahin Fazil çox qəm dadıb,
Sitəm görüb, ələm dadıb,
Dünya onu çox aldadıb,
Dünya sizi aldatmasın,

Dünya bizi aldatmasın.

28.02.2005
*Təbriz*

### *7. Qəzəl*

İsmayılzadə Rəsul söylədi «gəl Təbrizə»,
Gəlməyim mən nə təhər bəs bu gözəl Təbrizə?

Çağıran olsa məni yollanaram düz Herata,
Bağdada həm gedərəm, amma əzəl Təbrizə.

Çaxaram başına söz gülləsini əğyarın,
Gər desə «Kə'bəyə get, qoyma mahal Təbrizə».

Bakıya çox qəzəlim var, yazıram indi isə
Ulu Sərrafı anıb türfə qəzəl Təbrizə.

Çağırır gül gülü, bülbül gülü, gül bülbülü, bəh,
Yaraşır böylə məhəbbətli məsəl Təbrizə.

Düşməni səsləməsin gülşənə təbrizlilərim,
Bir gəlindir bəzənib, dəyməyə əl Təbrizə.

Şahinin var Yaradandan diləyi: Ey Rəbbim,
Allahım, qoyma yaxın gəlsin əcəl Təbrizə.

28.02.2005
*Təbriz*

### *8. Qəzəl*

«Ey şanə, o geysuyi-pərişanə dolaşma,

Can riştəsi var orda, çəkil yanə, dolaşma»[1].

Vallah səni yandıracaq üstünə cumsan,
Rəhm et canına, şəm'ə a pərvanə, dolaşma.

Şair, daha saqi yanına getmə, eyibdir,
Məstanə olub, saqiyə məstanə dolaşma.

Bil qədrini şövq ilə vüsalın gecə-gündüz,
Hicran yeyəcək başını, hicranə dolaşma.

Mən şəhri biyabanla əvəz etmərəm, ey Qeys,
Divanəliyin var, mənə, divanə, dolaşma.

Bəhs eyləmə zülfündəki ətriylə nigarın,
Bundan belə zülf ətrinə, ey nanə, dolaşma.

Şahin, ayağın yığ və otur ki, yıxılarsan,
Sərraf təkin duzlu qəzəlxanə dolaşma.

1.03.2005
*Təbriz*

### *9. Qəzəl-təzmin*

Öylə ki, gül çöhrəsindən zülfünü yan eylədi,
Aləmi başdan-başa yarım çıraqban eylədi.

«Çəkmə zəhmət, dərdimin dərmanı yoxdur, ey təbib,
Kim mərizi-eşqə bu aləmdə dərman eylədi?»[2].

---

[1] *Beyt Hacı Rza Sərraf Təbrizinindir.*
[2] *Beyt Hacı Rza Sərraf Təbrizinindir.*

As qulaq tə’limimə şövq ilə, ey tərsa qızı,
Tə’limim çox namüsəlmanı müsəlman eylədi.

Zahida, Məcnunə rişxənd eyləmə, hirsim tutar,
Söyləmə «başdan xarabdır, canı qurban eylədi».

Bir də sən aşiqlərə qarşı bu cür sözlər desən
Bir də gördün asi könlüm əsdi, üsyan eylədi.

Cinsifətlər, minsifətlər var ki, gözdən düşdülər,
Hər nə etdi insana, əlbət ki, şeytan eylədi.

Tanrını dərk eyləmək, mümkün deyildir adəmə,
İrana ad qoydu «İran», şairistan eylədi.

Heç həya etmir, utanmır, görməyir Sərraf var? –
Ortaya Şahin çıxıb ismin qəzəlxan eylədi.

1.03.2005
*Təbriz*

### *10. Qit’ə*

*Təbriz meri (şəhrdarı) cənab Hacipura!*

Bir də gəldim yanına, ey ulu Təbriz, sənin,
Şahini bir də çağır varsa əgər insafın.

Saf adamlar bürüyüb burda bizim dövrəmizi,
Sevirəm «saf» sözünü, vurğunuyam mən «saf»ın.

Şəhrdar sikkə veribdir mənə, şadəm, amma
Ən baha sikkə isə divanıdır Sərrafın!!![1]

[1] *İranda qızıl sikkə ilə mükafatlandırıldım.*

2.03.2005
*Təbriz*

### *11. Qəzəl-təzmin*

«Hər kimsə bəla navəkini canə yetirdi,
Guya özünü çeşməyi-heyvanə yetirdi»[1].

Bağbanlıq edib mən elə təcrübə qazandım,
Tale, gülümü mən təki bağbanə yetirdi.

Bildim ki, sevirmiş məni Allah-taala,
Dürr arizu etdim, mənə dürdanə yetirdi.

Meylim var idi, amma görünmürdü bir imkan,
Şadəm ki, həzin meylimi imkanə yetirdi.

Gürcüstana getdi Ərəbistanı edib tərk,
Sən'an özünü sevdiyi cananə yetirdi.

Sidq ilə edən vəslə ümid yetdi vüsalə,
Şəkk eyləyəni taleyi hicranə yetirdi.

Sərraf kimi mötəbər insanı edib yad
Şahin bu kiçik şe'rini İranə yetirdi.

3.03.2005
*Təbriz*

### *12. Nizaminin büstü*

*Təbrizli jurnalist Seyid Qasim Nazimi «Nəbz» qəzetinin baş redaktoru Qurban*

---

[1] *Beyt Hacı Rza Sərraf Təbrizinindir.*

*Cəbrayıl ilə məni bu gün «Məqbərətüş-şüəra»ya («Şairlər məqbərəsi»nə) də'vət etdi. Getdik.*

Təbriz!
«Məqbərətüş-şüəra»,
yəni «Şairlər məqbərəsi» -
burada dəfn olunub
Əfzələddin Xaqani,
Müciröddin Beyləqani,
Qətran Təbrizi!..
Şahdağ boydadır hərəsi!
Xaqaninin büstü yerindəydi,
amma əvvəllər burada gördüyüm
Nizami yox idi,
büstü yox idi,
büstün altlığı vardı,
üstü yox idi.
Seyid Qasimdən soruşdum səbəbini,
                                        bilmədi,
«Yəqin tə'mirə aparıblar» dedi.
Yəqin ki, kim isə bilir,
bilir səbəbini bunun.
Ey səbəb bilən,
                  hanı büstü
Gəncəli Nizami Yusif oğlunun?
Büstün altlığı var,
hanı bəs üstü?
Məzarı Gəncədə,
heykəli Bakıda,
büstü Təbrizdə.
Məzar durur,
heykəl durur,

altlıq durur,
amma,
boşdur altlığın üstü,
hanı bəs büstü?
Nizami elə şairdir ki,
elə öldüyü gün də dirildi,
Bəs hanı Təbrizdəki büstü?
Seyid Qasimdən soruşdum,
 bilmədi.
Nə sirr?
Xaqaninin büstü yerindədir.

3.03.2005
*Təbriz*

### *13. Qəzəl-təzmin*

«Gözüm yaşin könül qaniylə mərcan etməyim, neylim?
Bu ağ dürri şəbihi-lə'li-canan etməyim, neylim?»[1].

«Mənəm xaqan» deyib üç-dörd qəzəl inşa edənlər var,
Neçə «xaqan»lara Sərrafı xaqan etməyim, neylim?

İşim yoxdur ləvənd ilə, cahanda xudpəsənd ilə,
Tutub namərdi fənd ilə ciyərqan etməyim, neylim?

Ömür çoxdan olub yarı, yağıb başə yaşın qarı,
Çəkib ülgüc və əğyarı müsəlman etməyim, neylim?

Peşiman olsa gər bir gün rəzil qonşum Qərabağda,
Peşimanı peşimandan peşiman etməyim, neylim?

---

[1] *Beyt Hacı Rza Sərraf Təbrizinindir.*

Anıb Seyyidi, Sərrafı, salıb yadə çox ustadı,
Boğub qəlbimdə fəryadı pərişan etməyim, neylim?

Deyirlər Şahinə hərdən «nə çox divan yazırsan sən?»,
Mənəm hər gün yazan şe'ri ki, divan etməyim, neylim?
4.03.2005

### *14. Qəzəl-təzmin*

«Təaləlləh, nə arizdür, belə hüsnü cəmal olmaz,
Belə qaşü gözü rəngü rüx olmaz, xəttü xal olmaz»[1].

Yəqinlik bəlli eşqimdə, yəqinlik varsa hər kimdə
Olar qət'iyyətli zahir, o kəsdə ehtimal olmaz.

Gəlib xəncərlə yox, kiprik oxuyla tök qanım, ey şux,
Əgərçi böylə etməzsən, sənə qanım halal olmaz.

Dodağın qönçətək açsın, gözün gülsün, sözün gülsün,
Sənin əhvalını qəmgin görən aşiqdə hal olmaz.

İşarətdən olar bəlli sözüm məddahə, aqilsə
Əyilmək bilməyən şəxsin əlif qəddi sual olmaz.

Yazanlar var ki, hər şe'ri qəliz yazmaqdadır, Şahin,
Yazan Sərraftək yazsa gər asan, qiylü qal olmaz.
4.03.2005

### *15. Qəzəl-təzmin*

«Naz ilə yarım genə əzmi-gülüstan eyləmiş,

[1] *Beyt Hacı Rza Sərraf Təbrizinindir.*

Gül yüzinə sünbüli-zülfün pərişan eyləmiş»[1].

Söylədim: - Zülfün pərişan, mən pərişan, sənsə şad,
Çək kənarə zülfünü, ey könlümü qan eyləmiş.

Çox çətinlik görmüşəm, üzləşmişəm çox cəbr ilə,
Amma, Allah onları axırda asan eyləmiş.

Hər zaman dildarı xoş dillərlə dilləndirmişəm,
Asi könlüm hər zaman əğyarə üsyan eyləmiş.

Yox, bu təzminim zəif oldu, nə tədbir eyləyim?
Ya könüldən düşmüşəm, ya təb’ nöqsan eyləmiş.

Ya vərəqdən bezmişəm mən, ya qələmdən, neyləyim?
Varmı loğmanım ki, müşkil dərdə dərman eyləmiş?

İstəsən yazmaq əgər Sərraftək yaz, yoxsa yox!
Şahinə ilham pərisi böylə fərman eyləmiş!!!

4.03.2005

---

[1] *Beyt Hacı Rza Sərraf Təbrizinindir.*

## İRANA XIII SƏFƏR MÜNASİBƏTİLƏ ŞE'RLƏR

### *ŞAHİNİN GÖZLƏRİ TƏBRİZDƏ QALIBDIR, GÖZƏLİM*

#### *1. Qəzəl*

Monqolustan qoşunu eylədi çox yanə hücum,
Qoca İranə yürüş başladı, Turanə hücum.

Həmlənin vəhşəti vardır, yürüşün dəhşəti var,
Etdi abad olunan yerləri viranə hücum.

Meşəyə, bağə bəla, gülşənə, gülzarə xəta,
Dərəyə, dağə hücum, bərrü biyabanə hücum.

Sonra başlandı Hülaku və Qazan xan dövrü,
Faidə eyləmədi bir daha ilxanə[1] hücum.

Sonda, məskun ola bildi köçəri monqollar,
Və dayandı neçə vaxt Azəribaycanə hücum.

Edib islamı qəbul, oldu müsəlman – monqol,
Etmədi tazə müsəlman müsəlmanə hücum.

Elə başlandı tərəqqi ki, tənəzzül bitdi,
Olmadı elmü ədəb mülkünə divanə hücum.

Ey Süleyman, eləmə bir də qarışqayə yürüş,
Ey qarışqa, eləmə bir də Süleymanə hücum.

---

[1] *Monqol hökmdarlarının titulu «ilxan», yaxud «elxan» adlanırdı.*

Nə gərəkdir daha həmlə, nəyə lazım basqın?
Olacaq faidəsiz Təbrizə, Tehranə hücum[1].

Şahina, qoy yığışa cövrü cəfa dünyadən,
Gərək insan balası etməyə insanə hücum!

*Bakı*,
17.05.2005

### *2. Qit'ə*

Əssalam, ey ulu Təbriz şəhəri,
Yenə ilhamə gəlibdir Şahin.

Göndəriblər ona də'vətnamə,
Oxuyub namə, gəlibdir Şahin.

Çox üzüb canını hicran dərdi,
Dərdə əncamə gəlibdir Şahin.

Neçə gündə neçə məclis görəcək,
Neçə bayramə gəlibdir Şahin.

Salam olsun bu müsəlmanlarıma,
Salam islamə! Gəlibdir Şahin.

Küfrə qarşı o qızılbaş hanı ki,
Qopa həngamə, gəlibdir Şahin.

Hanı Şeyx Əttara[1] məxsus əba?

---

[1] *Yaxın vaxtlarda İrana ehtimal olunan Amerika hücumuna işarədir. Allah qorusun!*

Hanı əmmamə, gəlibdir Şahin.

Sə'diya, görməliyəm Şirazı,
Camiya, Camə gəlibdir Şahin.

Hanı Firdovsiyə məxsus qələm?
Hanı «Şahnamə»? gəlibdir Şahin.

*Təbriz*,
18.05.2005

### *3. Qala*

Daha söyləmirəm fərağındayam,
Uca bir qalanın qabağındayam.
Bu qala Təbrizin qeyrət timsalı,
Ehtişam timsalı, şöhrət timsalı.
Neçə müxənnəsi yerə səribdir,
Dosta dosta layiq üz göstəribdir.
Qala əsrlərin yadigarıdır,
Qala nəsillərin iftixarıdır.
Bu qala başından əl çıxarıbdır
Göyün sinəsini necə yarıbdır?
Gündüz dəlibdirmi, gecə dəlibdir?
Bu qala bu göyü necə dəlibdir?
Baxıb yerə sarı, torpağa sarı
Qaldıran görmüşəm yıxılanları.
Qaldıran görmüşəm əzilmişləri,
Ağac tək kökündən üzülmüşləri.
Qaldıran görmüşəm fəğanı, ahı,

---

[1] *Fəridəddin Məhəmməd ibn İbrahim Nişaburi – klassik İran şairi (1119 - ?). «Məntiqüt-teyr», «Divan», «Muxtarnamə», «Pəndnamə», «Me'racnamə», «Əsrarnamə», «Təzkirətül-övliya» və s. əsərlərin müəllifi.*

Qaldıran görmüşəm ərşə günahı.
Qaldıran görmüşəm yalanı göyə.
Necə qaldırıblar qalanı göyə?
Təbrizin nə möhkəm, bərk qalası var –
Ərk qalası var,
Ərk qalası var!

*Təbriz, Ərk qalası,*
18.05.2005

### *4. Qəzəl*

Qoca Təbrizlə cavan eşqə giriftar oldum,
Cism ölməkdə idi, mən təzədən var oldum.

Gəldim ilhamə görüb görkəmi Göy Məsciddə,
Bəs, Cahanşahı salıb yadə neçin zar oldum?

Qara Yusif kimi bir şahə gümanım artdı,
Ağqoyunlu Həsənə sanki ümidvar oldum.

Yeni Şah İsmayılın gəlməyinə var ümmid,
Elə bil dalmış idim uyquya, bidar oldum.

Mən Kəleybərdəki Babək qalasın seyr etdim,
Qala viranə idi, dərdə giriftar oldum.

Eşqi inkarə çıxan zahidə tutdum divan,
Eşqi təsdiq eləyib inkara inkar oldum.

Sevgili yar kimi Təbrizi qucdum neçə yol,
Mənə əğyar olana mən dəxi əğyar oldum.

Çevirib Ərkə şe’r mülkümü mən, ey Şahin,

Naxçıvani Əcəmi timsalı me'mar oldum.

*Təbriz,*
19.05.2005

### *5. Qəzəl*

Gətirin çoxlu qələm vəsfə, varağım çoxalır,
Ey Mərağə, sənə baxdıqca marağım çoxalır.

Ney səsi, meh səsi, bülbül səsi… Səs dinləmədən
Elə zənn eyləyirəm mən ki, qulağım çoxalır.

Öpürəm alimi də, arifi də, şairi də,
Cüt dodaq var hamıda, sanki dodağım çoxalır.

Bu qədər gəzmək olarmı, yorula bilməyirəm,
Bəlkə hiss etməyirəm, bəlkə ayağım çoxalır?

Sufiçay, Qırmızı Gümbəz elə cəlb etdi məni,
Marağa şəhrinə getdikcə marağım çoxalır.

Var rəsədxanə, rəsədxanəçi yoxdur amma,
Xacə[1] çoxdan gözünü yumdu, fərağım çoxalır.

Burada «Madər Hülaku»[2] deyilən mə'bəd var,
Deyəsən ağlayıram, gözdə bulağım çoxalır.

«Mehr mə'bədi»nə gəldik, qazılıb dağda oyuq,
Burda Əşkanilər haqqında sorağım çoxalır[1].

---

[1] *Xacə Nəsirəddin Tusi*
[2] *Azərbaycanın monqol hökmdarı Hülaku xan (1217-1265), İlxanilər sülaləsi və dövlətinin banisi, Çingiz xanın nəvəsi. Beytdən göründüyü kimi onun anası Marağada dəfn olunmuşdur.*

Bir çıraq oldu muğamatdə Əbdülqadir[2].
Deyə billəmmi yenə öylə çırağım çoxalır?

«Əvhədi məqbərə»si[3] şairə yüksək qiymət!
Hadiyə bəs hanı qiymət ki, qınağım çoxalır.

Ayrılıq dərdi var öndə, gələrəm bir də bura,
Şahina, hiss edirəm sinədə dağım çoxalır.

*Marağa*,
20.05.2005

### *6. Nə oldu?*

Qıcayıblar diş mənə,
Bıçağıma nə oldu?
Gücüm çatmır düşmənə?
Yarağıma nə oldu?

İtirdim Qarabağı,
İndi gəz, ara bağı…
Ey Koroğlu papağı,
Papağıma nə oldu?

---

[1] *İslamdan əvvəl Xorasan (Part) vilayətinin arilər (arya) irqinə məxsus hökmranları. Miladdan əvvəl 250-ci ildə onlar daha böyük hakimiyyətə çataraq bütün İranda 500 ilədək padşahlıq etmişlər. Bu sülaləni sonralar Sasanilər əvəz etdilər.*

[2] *Əbdülqadir əl-Maraği (1353-1435) – Azərbaycan musiqi nəzəriyyəçisi, bəstəkarı, xanəndəsi. Onun «Cameəl-əlhan» («Melodiyalar külliyyatı»), «Məqasidəl-əlhan» («Melodiyaların məqsədləri»), «Şərhəl-ədvar» (Səfiəddin Urməvinin «Kitabəl ədvar» əsərinə şərh), «Fəvaidi-əşərə» («On fayda»), «Kənz-əl-əlhan» («Melodiyalar xəzinəsi») və s. əsərləri vardır.*

[3] *Rüknəddin Əvhədi Marağeyi – klassik şair (XIII-XIV əsrlər).*

O bağımdı, o dağım,
Hərəsi dağım-dağım…
Şuşa, hanı ocağım?
Ocağıma nə oldu?

Mehrə bax Təbrizdəki…
Tez-tez görüşək təki!
O zaman demərəm ki,
Fərağıma nə oldu?

Getməmişəm uzağa,
«Təbriz üstü Marağa,
Zülfün gəlməz darağa»,
Darağıma nə oldu?

Dostlardır solum, sağım,
Qələmimdir yarağım,
Şahin, hanı varağım,
Varağıma nə oldu?

*Marağa-Təbriz,*
20.05.2005

### *7. Qəzəl*

Yenə könlümdə fərəh nəğmə çalıbdır, gözəlim,
Təzədən göylərə həzzim ucalıbdır, gözəlim.

Təzədən Təbrizə gəldim və cavan oldum mən,
Saçlarım ağ idi, sanki qaralıbdır, gözəlim.

Baxıban ərk ilə Ərk qəl’əsinə fəxr edirəm,
Qəl’ə də mən kimi, heyfa, qocalıbdır, gözəlim.

Səslədim dağı, səsə əksi-səda vermədi dağ,
Bəlkə Heydərbaba həm fikrə dalıbdır, gözəlim.

Burda üzlərdə, nəzərlərdə kədər göz dəlmir,
Kədərim böylə səbəbdən azalıbdır, gözəlim.

Amma, səbrimdən əsər yox ki, neçin sən yoxsan,
Səbrimi fikrü xəyalınmı alıbdır, gözəlim?

Mənə qismətmi görüm bir də sənin gözlərini?
Şahinin gözləri Təbrizdə qalıbdır, gözəlim.

*Təbriz*,
21.05.2005

## İRANA XIV SƏFƏR MÜNASİBƏTİLƏ ŞE'RLƏR

## *URMİYƏ TORPAĞINA HEYRAN OLUBDUR ŞAHİN*

### *1. Yaxın, uzaq…*

*Qiymətli şairə*

İlan kimi
qıvrıla-qıvrıla uzanan
uzun yollarla,
dolambaclarla dolu
Bakı – Urmiyə yolu…
…Nəhayət gəlib çatdıq
«Mirvari» adlanan
çaykənarı otelə.
Adı çox gözəldi.
Yanımızdan axan çay
xoşumuza gəldi,
Amma, bu nəydi başımıza gəldi –
hər zaman
vəsl-vüsal oyunu oynardıq,
Urmiyədəsə
mən hicran,
sən fəraqsan,
Sən mənə nə qədər yaxın,
Sən məndən nə qədər uzaqsan.
Neyləmək,
yol uzun olar,
kəsə olar,
heç düşünüb-eləmirik
bu uzaq yollarda
bizə nəsə olar,

Saçının tellərini
bir-birinə calasam
keçib-gəldiyimiz yoldan
qısa olar.
Şükürlər olsun bu günə.
Gileylənməyək,
Dəyməyək ev sahibinin könlünə,
Axı
mən də, sən də qonaqsan,
Sən mənə nə qədər yaxın,
Sən məndən nə qədər uzaqsan.
Əlimi uzatsam əlinə dəyər,
telim telinə,
Bu gün biz
həmişəki kimi
birgə olsaq da,
danışa bilmədik ürək istəyincə,
həsrət qaldı dilim dilinə.
Çıxarıq əvəzini,
çünki mən – qaynar kürə
sən – yanar ocaqsan,
Sən mənə nə qədər yaxın,
Sən məndən nə qədər uzaqsan.
Sanmıram ki, köməyim yoxdu,
köməyimsən,
Eşqimin yetim-yesir gülüstanında
gülümsən, çiçəyimsən,
Sən mənim əzəli diləyimsən,
Su kimi, hava kimi gərəyimsən,
Bakıda da,
burada da
mənə dayaqsan,
Sən mənə nə qədər yaxın,

Sən məndən nə qədər uzaqsan.
Yenicə girmişik mənzilə,
amma aramızda
sədd var,
divar var.
Qəlbimizdə bir gecəlik,
lap qısa bir gecəlik
intizar var,
qübar var.
Mən oyağam,
Sən də oyaqsan,
Mən bir azdan
oyaq olmayacağam.
Sən bir azdan
uyuyacaqsan.
Sən mənə nə qədər yaxın,
Sən məndən nə qədər uzaqsan.
Uşaqlıq çağımdan bəri
lap ləzgilər kimi
tərsəm,
inadkaram.
Bilirəm ki,
bu xislətimlə,
xasiyyətimlə
həmişəlik varam.
Minnət qoymuram sənə,
Bilirəm ki,
eşqinə minnətdaram.
Amma, düşünürəm hərdən
qədrimi bilməyəcəksən,
«gəl» desəm
gəlməyəcəksən,
«get» desəm

ağlayacaqsan,
Sən mənə nə qədər yaxın,
Sən məndən nə qədər uzaqsan.
Biz elə bu gün
Bakıdan Urmiyəyə yönəlmişik,
Bilirik neçin yönəlmişik,
niyə yönəlmişik,
Xaqani Şirvanini yad etmək üçün
gözəl bir ölkəyə gəlmişik –
Azərbaycandan İrana gəlmişik,
Azərbaycandan Azərbaycana gəlmişik.
Orda da dayaqdın mənə,
Burda da mənə dayaqsan,
Amma
hal-hazırda
Sən mənə nə qədər yaxın,
Sən məndən nə qədər uzaqsan.

*Urmiyə şəhəri*
24.05.2005

### *2. Qəzəl*

Urmiyə, gördüm səni, göz sənə heyrandır,
Türklərin ey məskəni, can sənə qurbandır.

Şərqi nədir, qərbi nə? Şərqi nədir, qərbi nə?
Varmayıram fərqinə, Azəribaycandır!

Düşmən üzə olsa ağ, sinəmizə çəksə dağ,
Əldə qələm, həm varaq xəncərü qalxandır.

Eylə vida, at qəmi, zar eləmə aləmi,
Hər görüşün son dəmi, bəlli ki, hicrandır.

Bax çiçəyə, bax gülə, bax gülə, bax bülbülə,
Urmiyəni seyr elə, bəlkə son imkandır.

Əl «bir olaq biz» deyir, dil «xudahafiz» deyir,
Göz –yaşını gizləyir, göz yenə giryandır.

Lütf eləsən Şahinə, Urmiyə, gəlləm yenə,
Əllərini ver mənə, dost əli İrandır!
Azəribaycandır!

*Urmiyə,*
25.05.2005

### *3. Qəzəl*

Üç gün əvvəl bu diyardan yan olubdur Şahin,
İndisə Urmiyəyə mehman olubdur Şahin.

Zahirən gözlərə sakit dəyirəm göl təhəri,
Püskürür amma alov, vulkan olubdur Şahin.

Bir qələm, bir neçə dəftər və kitab sahibiyəm,
Düşünür bəzi gədalər xan olubdur Şahin.

Xəlqi söz söyləyirəm xəlqə, şe'r bağımda,
Gül-çiçək bəsləyirəm, bağban olubdur Şahin.

Bir yaşıl yarpaq isə töhfəsi dərvişlərin[1],
Siz təsəvvür eləyin sultan olubdur Şahin.

---

[1] *«Bərgi-səbzist tohfeyi-dərviş*
*Çe konəd binəva, həmin darəd»*
*Tərcüməsi: «Dərvişin töhfəsi bir yarpaqdır,*
*Neyləsin binəva, budur olanı».*

Mənə adəmlər içində daha adəm deməyin,
Atıb adəmliyini insan olubdur Şahin.

Adı Beytullah olan Cəfərini axtarıram[1],
Əmin olsun ki, gözü giryan olubdur Şahin.

Şahinin heç nəyə heyranlığı yoxdur, amma
Urmiyə torpağına heyran olubdur Şahin.

*Urmiyə,*
25.05.2005

### *4. Üç gün*

Üç gün bundan qabaq
Üç günüm keçməmişdi,
Bu gün
            üç gün keçdi.
Üç gündə
            bir məsələ:
«Şe’r dünyasının şe’r cahanı –
Xaqani Şirvani!»
Üç gündə
Xaqani söhbəti,
Xaqani şe’riyyəti
və
çoxlu məruzə –
alimlər eşq ilə
öz elm badələrini
təqdim etdilər bizə.
«Eşq» də üç hərf,

---

[1] *Bir neçə ilə əvvəl Tehranda tanış olduğum Urmiyəli şair.*

«Elm»də.
Bu üç gündə
Elmdən başqa,
Eşqdən başqa
gözümüz olmadı heç nədə.
Elm – Eşq!
Eşq – Elm!
Hansı üstündür,
                                    nə bilim?
Onlarla alim,
Onlarla müəllim,
Onlarla şair
söz söylədilər
Elmə dair,
Eşqə dair.
Arada oldu fasilə
Və xanəndə Abbas Nikrəvan
mahnı oxudu eşq ilə –
«Sarı gəlin»,
«Qaragilə».
Amma heç keyfi yoxdu,
Bilmədim ki, nə haldır,
Eşq bəzən qan qaraldır.
Elm eşqi!
Eşq elmi!
Çıxışçılar
Alim kimi,
Aşiq kimi
söz söylədilər
və
«Xaqani Şirvani»,
«Xaqani Şirvani»,
«Xaqani Şirvani»

dedilər.
Elmdə Eşq vardı,
Eşqdə Elm.
Elm – Eşq!
Eşq – Elm!
Hansı üstündür?
Nə bilim,
Nə bilim?..

26.05.2005

***5. Ölümümdən əvvəl ölmüşəm***

Şe'ri qalsa da,
sözü qalsa da,
gözü qalsa da
bu fani dünyada,
Qalmadı Xaqani dünyada.
Vaxtı yetdi,
getdi…
Cənnətə doğru
yolu
müstəqim, düz oldu,
Ölümünü tapıb,
ölümsüz oldu.

O qədər çəkmişəm
dərd,
qüssə,
qəm
Mən
sağ ikən ölmüşəm.
Ey Pərvərdigar,
daha zəhmət çəkməsin ölüm,

gəlməsə də olar,
Mən
ölümümdən əvvəl ölmüşəm.

***Urmiyə***,
26.05.2005

## *6. Qit'ə*

Öylə misralar yazırlar türk sözündən heç nə yox,
Qadir olsunlar təmiz misraya qadirlər gərək.

Fars-ərəbdən söz dilənmək heç də mahirlik deyil,
Çox məharət eyləsinlər indi mahirlər gərək.

Fars dilində söz demək hər türkə qismətmi məgər?
Əfzələddin timsalı fazil bahadirlər gərək!

Yazdığı misraları dərk etməyənlər varmıdır?
Qədrini xəlqi sözün bilməkdə Sabirlər gərək!

Saf alınmaz gər zərə bir qeyri ünsür qatsalar,
Zivər olmaqçın – təmiz olsun həmişə zər gərək.

Köhnə şairlər kimi müşkil qəzəllər yazmıram,
Sadə sözlər söyləsinlər tazə şairlər gərək.

*Urmiyə – Bakı yolu*,
26.05.2005

## İRANA XV SƏFƏR MÜNASİBƏTİLƏ ŞE'RLƏR

### *«ON BEŞİNCİ SƏFƏRİM BAŞLADI İRANƏ MƏNİM»*

### *1. Qit'ə*

Mən dəmir bir quşa mindim necə rahət gəldim,
Bu quşa, tazə zamandır, kəhər üstün gəlməz.

Bu səfər yaxşı səfərdir – yeni İran səfəri!
Edirəm zənn ona heç bir səfər üstün gəlməz.

Çox muradım, diləyim vardı ki, çin olmuşdur,
Qəlbimə bir daha bəlkə qəhər üstün gəlməz.

Gözü tox, qəlbi geniş kəslərə qiymət verirəm,
Tamahı olmayan insanə zər üstün gəlməz.

Bu qədim məmləkəti gəzməliyəm şadlıqla,
Həzzimə, zənn edirəm ki, kədər üstün gəlməz.

Bir xeyrxah kimi çox yerdə xeyrlər tapdım,
Ola hər kim ki xeyrxah, zərər üstün gəlməz.

Neçə günlük bu səfərdən dönərəm inşallah,
Əzmi faidə olan şəxsə zər üstün gəlməz.

Uçuram hər tərəfə quş kimi, şahin quşuyam,
Bülbülə, sərçəyə şahin məgər üstün gəlməz?

13.04.2006
*Tehran şəhəri*

## *2. Qəzəl*

On beşinci səfərim başladı İranə mənim,
Həqq yetirdi yenidən meylimi imkanə mənim.

Əfqanıstanə səfərlər yadıma düşmədədir,
On üç il orda dözübdür canım hicranə mənim.

Sonralar Türkiyə də’vət eləyibdir neçə yol,
Və İraqda qədəmim dəydi gülüstanə mənim.

Hara getdim hara gəldimsə şəfəqqət gördüm,
Və dilim mehr ilə «əhsən» dedi hər yanə mənim.

Deməsinlər ki, bu şair niyə dərvişlik edir?
Deyirəm var həvəsim hətta biyabanə mənim.

Nə işin var haraya əzm edirəm, ey zahid,
Necə məscid sənin olsun, necə meyxanə mənim.

Yanıram-yandırıram ömr uzunu mən kimə nə?
Od mənim, meyl mənim, bir neçə pərvanə mənim.

İstiqamət bu gün İrandı yenə, ey Şahin,
On beşinci səfərim başladı İranə mənim.

13.04.2006
*Tehran*

## *3. Oyandım yuxudan lap səhər erkən*

Oyandım yuxudan lap səhər erkən,
Dəmavənd dağına hey baxa-baxa.
Ömür kitabımı hərisliklə mən

Başladım Tehranda varaqlamağa.

Sanıram gəncliyim Tanrımdan paydı,
Bir vaxtlar gənc yoxdu bəlkə də mən tək.
Bir zaman saçımın ağı qaraydı,
Bir zaman gözümdə yox idi eynək.

At sürür ömrümün qocalıq çağı,
İndi, əvəz edir sevincimi qəm.
Ama, qocalmayır Dəmavənd dağı,
İnsan bu dağ-daşdan əskikdir bəyəm?

Barışa bilmirəm qocalığımla,
Qocalmaq olsa da hamıya məram,
Gəncliyim üz-üzə ahıl çağımla
Biri-digərini edir ittiham.

Sağ qaldım, ölmədim sevgi yolunda,
Həm gənclik, həm ahıl çağım amma sirr.
Məni sevənləri sevmirdim onda,
İndi mən sevənlər məni sevməyir.

14.04.2006
*Tehran*

### *4. Yeddi sualın bir cavabı*

Qələm, ilhamımı ləngitmə, et çarə, tələs, dindir:
- O hansı ölkədir ölkəm təkin parə? Tələs dindir.
- Fələstindir!

- O hansı bölgədir azadlığa eylər həvəs, dindir.
- Fələstindir!

- Nə fəryaddır, nə əfğandır? Nə avazdır, nə səs? Dindir.
- Fələstindir!

- Əzilmişdir, üzülmüşdür, bölünmüşdür əbəs, dindir.
- Fələstindir!

- Nə üsyandır ki, aram olmayır illərlə bəs? Dindir.
- Fələstindir!

- Nə vulkandır ki, sönmür, oddan olmaqda nəfəs? Dindir.
- Fələstindir!

- Nə şahindir ki ram olmur, nədir bilməz qəfəs? Dindir.
- Fələstindir! Fələstindir! Fələstindir! Fələstindir!

14.04.2006
*Tehran*

### *5. Qit'ə*

Neçə ildir ki, şe'rlər yazıram,
Necə təbdir bu ki bəs qurtarmır?

Səsləyir hey məni ilham pərisi,
Qulağımdan hələ səs qurtarmır.

O deməkdir bu ki, şövqüm ölmür,
Şövq vardırsa, həvəs qurtarmır.

Deyirəm öz-özümə «ömr bitir»,
Deyirəm «bəsdi, tələs», qurtarmır.

O deməkdir bu ki, ilham bitmir,
O deməkdir ki, nəfəs qurtarmır.

15.04.2006
*Tehran*

### *6. Qəzəl*

*Alim Tofiq Cahangirova*

Ey ki, eləyən mehmanı heyran, xudahafiz!
Yad eyləyəcək hüsnünü mehman, xudahafiz!

Görcək qoca Tehranı sevincim təzələndi,
Sıxdım əlini şəst ilə, Tehran, xudahafiz!

Hər yanda bu İran kimi ülfət niyə yoxdur –
Bir yan mənə gəl-gəl dedi, bir yan xudahafiz!

Hicr atəşinə tab eləmək-dərdi çoxaldar,
Vəsl oldu bu günlər mənə dərman, xudahafiz!

İlham pərisi hey mənə cananəlik etdi,
Tehrandakı, ey sevgili canan, xudahafiz!

Əlbət, Bakının sevgisi gözlər məni indi,
Burda daha yox qalmağa imkan, xudahafiz!

Mən bir də salam söyləyərəm qoysa Xudavənd,
Ey qarlı Dəmavənd, ulu İran, xudahafiz!

Fürsət var ikən, Şahina, dərviş kimi gəz, gəz –
Bir gün deyəcək cismə həzin can: Xudahafiz!

16.04.2006
*Tehran*

### *7. Ey mələk, qurban olum*

Çiynimdəki ey mələk,
Ol halıma müştərək.
Səyahətim çox olub,
Əziyyətim beşbetər.
Şəfəqqətim çox olub,
Məşəqqətim beşbetər.
Ziyarətim çox olub,
İbadətim beşbetər.
Tehranda iki kərə
Mən qılmışam namaz, yaz,
Amma, günahlarımı
Bir az yazma, bir az yaz.

Hirsimdən ildırımtək
Çaxmışam da arabir.
Qur'anın dediyindən
Çıxmışam da arabir.
Naməhrəm gözəllərə
Baxmışam da arabir.
Özümü Haqq yolunda
Sidq ilə yandırmışam.
Yaxmışam da arabir.
Ey mələk, qurban olum,
Eləmə e'tiraz, yaz,
Amma, günahlarımı
Bir az yazma, bir az yaz.

Bircə-bircə günahım,
Savabım sənə bəlli,
Sevincim sənə bəlli,
Əzabım sənə bəlli.

Anla məni, duy məni,
İnsanam, ürəyimdə
Şeytan yaşayır axı,
Şeytanın ucbatından
Nalə yaşayır axı,
Əfğan yaşayır axı.
Mənim savablarımı
Əməllər ümmanında
Yazsan, özün bilərsən,
Dərin yazma, dayaz yaz.

Ey mələk, qurban olum…

16.04.2006
*Tehran*

### *8. Qəzəl*

Min şükürlər, deyirəm mən yenə dildarə salam
Və yarım Azəribaycandı, gözəl yarə salam.

Ey mənim odlu diyarım, məni odlandırdın,
Vətənim, müntəzirəm səndəki rüxsarə, salam.

Neçə gündür ki, gözüm səndən uzaq olmuşdu,
Tutiya ol gözümə, eylə ona çarə, salam.

Axı, viranə olan qəlbi kim abad eylər?
Onu abad eləyən sevgili me’marə salam.

Şahdağın seyrinə dalmaq diləröm ləzzətlə,
Döşdəki gül-çiçəyə, zirvədəki qarə salam.

Etməyim mən nə təhər eşq Qarabağ torpağıma,

Deməyim mən nə sayaq Qudyala, Qoşqarə salam?

Ey vətən, başə yetirdim salamı, sən də elə
Qoca Şahin kimi bir köhnə vəfadarə salam.

17.04.2006
*Tehran*

## «İKİNCİ NAXÇIVAN SƏFƏRNAMƏSİ» ŞE’RLƏRİ

### *«YENƏ ŞAHİN QUŞUTƏK NAXÇIVANA UÇDUM MƏN»*

### *1. Bayatılar*

Naxçıvan,
Naxçıvan – Nəqşi-cahan!
O gözəlin adına
Ey könül, yaxşıca yan.

Ər gərək Ordubada,
Nər gərək Ordubada,
Elə ordu quraq ki,
Getməsin ordu bada.

Şərura,
Xeyir gəlsin Şərura.
Odlasın xeyir şəri,
Qoy deməsin şər «ura».

Şahbuzu,
Əridərmi şah buzu?
İsti bizi bişirir,
Neylədi Allah buzu?

Sədərək,
Sədərək bu, Sədərək.
Orda busə gülü var,
Üzündən busə dərək.

Dili demir «əlvida»,

Bu Məcnuna çöl fəda.
Yarım Bakıda qalıb,
Özüm isə Culfada.

8.06.2006
*Bakı*

### *2. Qəzəl*

Nəzərim qondusa şövq ilə haçan torpağıma,
Dilim axşamü səhər «can», - «can» torpağıma.

Bu qədim yurda Şah Abbas qədəmi dəymişdir,
Heyranam Ordubada, ordu yaran torpağıma.

O Şərur məskəni şərdən uzaq olsun, yarəb,
Düşməsin bir daha qıpqırmızı qan torpağıma.

Culfanı, Şahbuzu yad eyləməyim vacibdir,
Yaradan bəxş edə qoy tabü təvan torpağıma.

Bu diyar içrə yaşar Babəkimin xatirəsi,
Babəkin ismi olub şöhrətü şan torpağıma.

Kaş xəbis qonşuların niyyəti olsun batil,
Arxayınlıq nəsib olsun nigəran torpağıma.

Yenə şahin quşutək Naxçıvana uçdum mən,
Kaş bir gün də uçaydım İrəvan torpağıma!

8.06.2006
*Bakı*

### *3. Yol həsrəti*

Güman ki, nə cığır, nə də ki yol var,
Özümü günahsız edə bilmirəm.
Hanı Naxçıvana gedən o yollar,
Ora öz yolumla gedə bilmirəm.

Yəqin neçə illik intizarından
Yolum qəribsəyib yoluma baxır
Gedib çıxacağam yoluma haçan?
Yolumun gözləri qoluma baxır.

Yolumla getmirəm çoxdan o yerə,
Edib yol niskili qəlbimi yara.
Gümanım gəlibdir təyyarələrə –
Ümidim qalıbdır dəmir quşlara.

İtib gözümüzdən Göyçə gölümüz,
Çıxıb əlimizdən Zəngəzur, çıxıb.
Neçin açılmayır hələ dilimiz?
Yoxsa yadımızdan «doğra», «vur» çıxıb?

«Qurd basar», - demişlər, - «arxalı köpək»,
Namərdlər qudurub mərdi öldürür.
Dərdimi canımdan çıxarım gərək,
Məni Xudafərin dərdi öldürür.

Bəd qonşu yolu da işğal eləyib,
Qəzəbim daşdırır səbr camımı.
Oğluma, nəvəmə urcah etməyib
Özüm almalıyam intiqamımı.

Yaman qövr eləyir odu sinəmin,

Yandıran mən olum, o – yansın gərək.
Nə dövran həmindir, nə də mən həmin,
Oğuz qan yaddaşım oyansın gərək.

…Güman ki, nə cığır, nə də ki yol var,
Özümü günahsız edə bilmirəm.
Hanı Naxçıvana gedən o yollar,
Ora öz yolumla gedə bilmirəm.

8.06.2006
*Təyyarə*

### *4. İstədi*

Can verməyə hazır olaq Allaha,
Bir də gördün bizdən canı istədi.
Verdiyni almaq üçün bir daha
Yeri, göyü, asimanı istədi.

Mehribandır, fərq qoymayır uluya,
Məhəmmədə, ya Əliyə, Quluya…
Allah üçün nə fərqi var qulu, ya
Bəyi, xanı, hökmranı istədi.

Olsa belə düzü, bağı, dağı qan,
Önü xəta, solu qada, sağı qan,
Qoparmasaq Qarabağı yağıdan,
Bir də gördün Naxçıvanı istədi.

9.06.2006
*Naxçıvan*

### *5. Dördlük*

Yatmaq istəmirəm, yatırma, Allah,

Bəlkə də yuxudan çıxa bilmərəm.
Məni Batabatda batırma, Allah,
Batsam gözəlliyə baxa bilmərəm.

10.06.2006
*Naxçıvan*

### *6. Qəzəl*

Şahinəm, quş deyiləm, təkcə adım var mənim,
Cavidü Mirzə Cəliltək qanadım var mənim.

Və xəyalən edirəm aləmi daim pərvaz,
Hər yeri seyr eləmək tək muradım var mənim.

Məsləkim öylə poladdır yaşayır köksümdə,
Sınar, amma ki əyilməz poladım var mənim.

Ölərəm, amma əqidəmdə dönüklük olmaz,
E'tiqad sahibiyəm, e'tinadım var mənim.

Görməmiştək öpürəm Naxçıvanı ləzzətlə,
Ləzzətim boldu ki, ağzımda dadım var mənim.

Mə'nəvi sərvətimi Nəqşi-cahan artırdı,
Şahina, inci kimi Ordubadım var mənim.

10.06.2006
*Ordubad*

### *7. Qəsidə*

*Naxçıvanda nədənsə birdən-birə akademik Bəkir Nəbiyevi xatırladım*

Bu nə oddur ki, ocaqdan çıxmır?

Nə işıqdır ki, çıraqdan çıxmır?

Asılıbdır qulağımdan sirri,
Sırğadır öylə, qulaqdan çıxmır.

Sözlərim var ki, bulaqtək qaynar,
Söz də var, amma bulaqdan çıxmır.

Darağı çıxdı saçından gülümün,
Saçının ətri daraqdan çıxmır.

Dərviş oldum, o qədər gəzdim ki,
Hələ yorğunluq ayaqdan çıxmır.

Bir-birindən soruşur qonşularım:
Bu nə şairdi otaqdan çıxmır?

Naxçıvan torpağına göz dikilib,
Qara yellər Qarabağdan çıxmır.

Fəraq oldu Qarabağ məsələsi,
Hələ ki, ölkə fəraqdan çıxmır.

Qonşular var ki, girinc etdi bizi,
Səs yaxındadı, uzaqdan çıxmır.

Sürüyə gör nə qədər qurd daraşıb,
Ey çoban, zərbə çomaqdan çıxmır.

Dedilər ip doğanaqdan keçəcək,
Keçir, amma doğanaqdan çıxmır.

Əfqanıstanda, Fələstində bəla,

Əcnəbi qüvvə İraqdan çıxmır.

Bağladım şövqə gəlib dörd divan,
Bağbanam öylə ki, bağdan çıxmır.

Mənə diqqət niyə yoxdur görəsən?
Bu nə bəxtdir ki, sınaqdan çıxmır?

Qəzəlim bakirədir, ey Şahin,
Bir gəlindir ki, duvaqdan çıxmır.

10.06.2006
*Bakı-Naxçıvan-Bakı*

## İRANA XVI SƏFƏR MÜNASİBƏTİLƏ ŞE’RLƏR

## *QOCA DƏRVİŞ, YENƏ İRANƏ SƏFƏR VAR, - DEDİLƏR*

### *1. Qəzəl*

Qoca dərviş, yenə İranə səfər var, - dedilər,
Ləngimə, get, hələ qəlbində təpər var, - dedilər.

On beşinci səfərim gendə qalıb çoxdandır,
Bixəbərsən, gedişin haqda xəbər var, - dedilər.

Oxuyarsan orada şe’rini şövq ilə yenə,
Dikilən yollarına orda nəzər var, - dedilər.

Gedəcəkdir Hacı Qurban[1] da səninlə oraya,
Bilməyirsənmi o şairdə nələr var, - dedilər.

Urmiyə torpağına sevgi müdam vacibdir,
Yolunuz üstdə nə xovf var, nə xətər var, - dedilər.

Ovçuluq həzzi nə müddətdi yadından çıxmış,
Sanki qarşında həmin həzzə çəpər var, - dedilər.

Sən ki, şahinliyi tərk eyləmisən, indi isə
Tutisən, tutiyə Təbrizdə şəkər var, - dedilər.

19.11.2006
*Bakı*

[1] *Hacı Qurban Cəbrayıl – şair, «Nəbz» qəzetinin baş redaktoru.*

### *2. Qəzəl*

Qışıdır ömrümün, əlbət, mənə yaz vacibdir,
Qocanı dinc eləyən ali cihaz vacibdir.

Səfərim olsa müyəssər həmişə Təbrizimə,
Mənə nə Bağdada getmək, nə Hicaz vacibdir.

Nə Fərat istəyirəm mən, nə Süveyşü Dəclə,
Mənə Kür nəhri gərəkdir və Araz vacibdir.

Harada qaldı o üçtelli sazın avazı?
Halı saz eyləmək üçün mənə saz vacibdir.

İstərəm uçmağı Urmiyyə təkin gülzarə,
Gər uçan xalça tapılmazsa, palaz vacibdir.

Ey canım Azəribaycan eli, Odlar Yurdum,
Seyr edim hər yerini gündə bir az, vacibdir.

Gündə yüz dəf'ə bu Şahin əyilir qarşında,
Neyləsin, çünki müsəlmanə namaz vacibdir.

20.11.2006
*Bakı-Astara yolu*

### *3. Qəzəl*

Mənə həm cövr eləyir dövr, edir canan həm,
Çəkməyir dərdimi biganələşən loğman həm.

Qarabağ mülkü yad əllərdə, əlimdən nə gəlir?
Deyiləm mən nə xəlifə, deyiləm sultan həm.

Getmirəm Kabula, Bağdadə haçandır, amma
Məni də’vət eləyir Ankara həm, Tehran həm.

Əfqanıstan ilə İranə könül bağlamışam,
Əfqanıstan da əzizdir bu kəsə, İran həm.

Ürəyimdən gileyim var bu axır vaxtlarda,
Ürəyim bir yana, qəmdən üzülübdür can həm.

Mənə dərman içirir gərçi mənim loğmanım,
Hələ təsir eləmir dərdlərimə dərman həm.

Olacaqmı görəsən Yer Kürəsində elə gün
Ki, kədər qeyb ola, ardınca itə əfğan həm?

O qədər kəsməyə, öldürməyə vardır qeyzim,
Şahina, kəsməyirəm bayrama mən qurban həm.

21.11.2006
*Astara-Təbriz yolu.*

### *4. Qəzəl*

Ey Rzavü Rezəvi adlanan insan, əhsən,
Şə’ninə həsr olunubdur neçə dastan, əhsən.

Daima yad eləyir ismini islam əhli,
Sənə məclis qurubdur yenə İran, əhsən.

Böyük işlər ki edibsən hamıya mə’lumdur,
Hamıya örnək olubsan, şərəfü şan, əhsən.

Sənə yox söyləmək olmaz ki, həmişə varsan,
Eləyir fəxr adınla Ərəbistan, əhsən.

Səni hərçənd didərgin eləmişlər, amma
Bəndə olmuş qabağında neçə xaqan, əhsən.

Səni alqışlayıram vəcd ilə mən, ey imamım,
Adını yad eləyir sidq ilə Qurban, əhsən.

Sözünün əvvəlinə bir də qayıtdı Şahin:
Ey Rzavü Rezəvi adlanan insan, əhsən.

22.11.2006
*Urmiyə şəhəri*

### *5. Qəzəl*

Şəninə salam, ya İmam Rza!
İzzü ehtiram, ya İmam Rza!

Şöhrəti böyük, ehtişamı bol,
Ehtiramı tam, ya İmam Rza!

Ey ki mə'nəvi padişahımız,
Biz sənə qulam, ya İmam Rza!

Zülmə dözməyən qəhrəman kimi
Eylədin qiyam, ya İmam Rza!

İslamın gücü olmasın zəif,
Bəxş et ehtişam, ya İmam Rza!

Eylə kafərin əzmini əbəs,
Böylədir kəlam, ya İmam Rza!

Tapmasın zaval inqilabımız,

Eyləsin davam, ya İmam Rza?

Ali ey cənab, arta qoy savab,
Qalmaya haram, ya İmam Rza!

Eylə bir əlac intizam ola,
Getməsin nizam, ya İmam Rza!

Qoyma Şahinin ilhamı sönə,
Ya imam, imam, ya İmam Rza!

23.11.2006
*Urmiyə*

### *6. E'tiraf*

Mən
hər insana
ani sığınacaq olan
fani cahana
cavankən ölməyə gəlmişdim.
Axı, bu adam
pud-pud dərd uddu,
batman-batman qəm çəkdi,
Axı, dərdlərimə, qəmlərimə
ürəyim dözməyəcəkdi.
Amma, ölmədim,
qocalıq meylinə düşdüm,
cavnlığım arxada qaldı.
Cavankən ölməyə gəlmişdim,
Heyhat, ölümüm
qocalığıma qaldı.
Başımın üstünü qış aldı,
Yaşım altmış altı.

Mən
Yer Kürəsinə
cavankən ölməyə gəlmişdim.

Deyirdim ki, Allah yoxdu,
Allah məni öldürmədi.
Günahlarım
Adda-budda savabımdan
vallah çoxdu, billah çoxdu,
Allah məni öldürmədi.

Bir zamanlar pionerdim,
Bir zamanlar komsomoldum,
Yeri, göyü yaradana
qafillikdən,
cahillikdən
yaği oldum,
asi oldum,
Allah məni öldürmədi.

Məscid vardı –
gedən azdı,
Ayaqlarım
Haqq yolundan
cavanlıqda yaman azdı.
«Sovet»lərdən savad alan
korazehin ağlım mənim
peyğəmbərə, imamlara
inanmazdı,
Allah mənim öldürmədi.

Dəli idi –
Ölkəmizdə dövran dəli,

zaman dəli,
insan dəli.
O səbirli, hövsələli
Allah məni öldürmədi.

Neçə günlər,
neçə aylar,
neçə illər
cavan sinndə,
gənc yaşımda
dərk etmədən günahımı,
hafizəmdə, yaddaşımda
mən öldürdüm Allahımı,
Allah məni öldürmədi.

Nəhayət ki, ahıl yaşda
qurdalandı ağıl başda,
Mən Tehranda,
Mə Təbrizdə,
Urmiyyədə
«Sübhanallah» deyə-deyə
Hacı Qurban Cəbrayılla
 namaz qıldım,
amma Allah demədi ki,
dəstəmazı nə gec aldın,
namazını nə gec qıldın?
Allah məni öldürmədi.

Amma, sonra,
                sonra isə
Ölkəmizdən
qırağa da gedib çıxdım,
yaxına da gedib çıxdım,

uzağa da gedib çıxdım,
Əfqanıstan ölkəsinə,
mən İrana,
Türkiyəyə,
İraqa da gedib çıxdım,
Allah məni öldürmədi.

Mən
hər insana
ani sığınacaq olan
fani cahana
cavankən ölməyə gəlmişdim…

24.11.2006
*Təbriz-Astara yolu*

## İRANA XVII SƏFƏR MÜNASİBƏTİLƏ ŞE'RLƏR

### *«VAXTIN ƏTƏYİNDƏN TUTUB İRANƏ TƏLƏSDİM»*

### *1. Qəzəl*

Mən gedirəm İrana, Urmiyədir, Urmiyə!
Qərbi Azərbaycana – Urmiyədir, Urmiyə!

Varlığını var edən, yar ilə ilqar edən,
Düşmənini zar edən Urmiyədir, Urmiyə.

Aşiqə heyran yeri, can yeri, canan yeri,
Əhd ilə peyman yeri Urmiyədir, Urmiyə.

Aşiqə üsyan yeri, yağıya meydan yeri,
Din yeri, iman yeri, Urmiyədir, Urmiyə.

Bir qaladır hər yeri, hər küçə səngər yeri,
Urmiyə əskər yeri, Urmiyədir, Urmiyə.

Fəxrü şərəf-şan yeri, kafərə tüğyan yeri,
Urmiyədə qan yeri, Urmiyədir, Urmiyə.

Yerdəki cənnət yeri, şan yeri, şöhrət yeri,
Namusü qeyrət yeri Urmiyədir, Urmiyə.

Urmiyə ər yurdudur, Urmiyə zər yurdudur,
Urməvilər yurdudur, Urmiyədir, Urmiyə.

Sevgisi alqışlanır, eşq oxuna tuşlanır,
Şahinə bax, xoşlanır… Urmiyədir, Urmiyə!

11.06.2007
*Bakı*

### *2. Qəzəl*

Vaxt ötdü və Şahin, yenə seyranə tələsdim,
Vaxtın ətəyindən tutub İranə tələsdim.

Mən Ərdəbili, Təbrizi, Urmiyyəni görmək
Şövqüylə iki Azəribaycanə tələsdim.

Əlbəttə, vüsal qədrini artırmada hicran,
Üç günlüyə, beş günlüyə hicranə tələsdim.

Göz yaşı göz ümmanını hərçənd eləyir tərk,
Bir qətrə kimi mən isə ümmanə tələsdim.

Görmək dilədim Şirini Fərhad misalı,
Leyla yanına gör necə divanə tələsdim.

Şəm'in alovundan ki alovlanmada cismim,
Şəm' atəşinə yanmağa, pərvanə, tələsdim.

Mən şövq ilə, Şahin, yenə şahin kimi uçdum,
Gülşəndən olub ayrı, gülüsanə tələsdim.

12.06.2006
*Bakı-Astara yolu,*
*qatar, sübh çağı*

### *3. Saxlayıb məni*

*Onunla Urmiyənin məşhur «Mirvari» otelində görüşdük. Şəhərin «Bənd» adlanan istirahət guşəsində şərəfimizə təşkil olunmuş*

*ziyafət zamanı d-r Cəlil Təclil mənə dedi ki, saç-saqqalın büsbütün ağarıbsa da, maşallah, qıvraqsan. Bu şe'ri yazdım:*

Qəlbimi incitməyən
Ellər saxlayıb məni.
Qarğışımı etməyən
Dillər saxlayıb məni.

Dərvişəm – Əfqanıstan,
Türkiyə, İraq, İran…
Ayaqlarımdan tutan
Əllər saxlayıb məni.

Divanə şairəm mən,
Məcnuna «gəl» söyləyən,
Mənəsə «gəlmə» deyən
Çöllər saxlayıb məni.

Qürbət yükü daşıdım,
Həsrət yükü daşıdım…
Bu qədər ki, yaşadım,
İllər saxlayıb məni.

Ey verən adı mənə,
Bu qol-qanadı mənə,
Bülbül deyin Şahinə,
Güllər saxlayıb məni.

12.06.2007
*Urmiyə*

### *4. Qəzəl*

Məni Urmiyyəyə Urmiyyəyə rəğbət çəkdi,
Qardaşın qardaşa göndərdiyi də’vət çəkdi.

Bağibanlar neçə müddət barışa bilmədilər,
Bağlər öylə səbəbdən neçə zillət çəkdi.

Amma, mümkünmü vüsal həsrəti xəlvət qalsın,
Xoş vüsal həsrətini hər biri xəlvət çəkdi.

Yada Urmiyyədə heyrətli Füzulim düşdü,
«Heyrət, ey büt!..» deyə şair niyə heyrət çəkdi?

Sonu «Şura» deyilən səltənətin görsəndi,
Neçə il gözlərimiz Təbrizə həsrət çəkdi.

Uzun illər boyu ülfətli olub ellərimiz,
Bizi İran ilə ünsiyyətə ülfət çəkdi.

Ayrılıq tufanı rədd olmalıdır, ey Şahin,
Üzərindən qələmim ayrılığın xətt çəkdi.

13.06.2007
*Urmiyə*

### *5. Qəzəl*

Yarəb, qocalıb-getdim, gözlərdə ziya yoxdur,
Dərd ilə bəla vardır, zövq ilə səfa yoxdur.

Əlbəttə, mənim fikrim yalnız mənə məxsusdur,
Əsla deməərəm mən ki, mehr ilə vəfa yoxdur.

Dünyadəki ağ gündən çoxdur qara gün məncə,
Zənn eyləyirəm öylə fikrimdə xəta yoxdur.

Tez-tez qalıram heyran, çox vaxt oluram mə'yus,
Aləmdə qəra çoxdur, zülfümdə qəra yoxdur.

Qəlbim ki pərişandır yoxluq səsi var onda,
Əvvəlki səda yoxdur, əvvəlki nəva yoxdur.

Dördüncü olan sayda «Divan» yarımçıqdır,
İlham pərisi gəlmir, neyçün, əcəba, yoxdur?

Xaqani də yazmışdır, yazmış o Füzulim də,
Şahin də qəzəl yazdı, Şahində həya yoxdur.

13.06.2007
*Urmiyə*

### *6. Qit'ə*

Bitdi bu günlük gözümün mürgüsü,
Başladı mənlə ürəyin söhbəti.

Bir neçə gündür Bakıdan ayrıyam,
Baş-başayam, mən – fələyin söhbəti:

«Orda da var idi gülüstanımız,
Burda da var gül-çiçəyin söhbəti».

Urmiyəli dostları görməkdəyəm,
Arzuya təndir diləyin söhbəti.

Amma, düşüb xatirə sirdaşlarım,
Gəldi-yetişdi gileyin söhbəti.

Çəkmədə yurdum məni cənnət kimi,
Sanki yetişdi mələyin söhbəti.

Gendə qalıbdır Xəzərin xəzrisi,
Hardadır, ayə, küləyin söhbəti?

14.06.2007
*Urmiyə*

### *7. Qanad istəyi*

Həyatı yaşayırıq
qolsuz-qanadsız kimi.
Qanad ambarlarında
qanad tükənmişdimi
İlahi?
Milçəyə qanad verdin,
Sərçəyə qanad verdin,
Qartala qanad verdin,
Tərlana qanad verdin,
Bizə niyə vermədin,
İlahi?
Cüllütə qanad verdin…
Heç olası işdimi?
Qanad ambarlarında
qanad tükənmişdimi,
İlahi?
Hey baxıram, baxıram
şahinə, sara sarı,
O qoşa qanadları
Bizə niyə vermədin,
İlahi?

15.06.2007

*Urmiyə*

### *8. Ağa Məhəmməd şah Qacar*

Taleyə bax, işə bax,
Fərəhi qübar oldu,
axtalandı bir uşaq
axta – hökmüdar oldu.

İddiasız şairəm,
Şahin adi sayın.
Şah olmaq istəmirəm,
Məni axtalamayın.

15.06.2007
*Urmiyə, iskələyə (limana)*
*gedən yol*

### *9. Bayatı*

Səhəndin qarlı başı,
Qarlı, vüqarlı başı,
Şahininsə Səhənddən
Var intizarlı başı.

15.06.2007
*Təbriz-Sərab yolu*

### *10. Bayatı*

Savalandır,
Zirvəsi övc alandır.
İlhamım, yetiş dada
Şahini havalandır.

15.06.2007

*Sərab-Ərdəbil yolu*

### *11. Qəzəl*

Gedirəm Şahi[1] olan Ərdəbilə,
Elə bir dahi olan Ərdəbilə.

Neçə sultanı olan Heydərtək[2],
Neçə padşahı olan Ərdəbilə.

Gedirəm şeyxi olan bir yurda,
İsmayıl şahı olan Ərdəbilə.

Gedirəm Seyyid Əli Əkbərtək[3]
Bir xeyrxahı olan Ərdəbilə.

Gedirəm Adili-Mövlayi[4] kimi
Neçə xoşxahı olan Ərdəbilə.

Gedirəm Şahi kimi, ey şahin,
Şe'r Allahı olan Ərdəbilə.

15.06.2007
*Səreyn*

### *12. Mürşidi-kamil*

«Şah İsmayıl» kimi bir ad sahibi
Mürşidi-kamil.
Təriqət sahibi, irşad sahibi,

---

[1] *Ərdəbilli şair dostum Əsğər Şahi*
[2] *Şah İsmayıl Səfəvinin atası Şeyx Heydər*
[3] *Ocaqnejad ağa*
[4] *Ərdəbilli şair və filosof dostum*

Mürşidi-kamil,
Nə oldu sənə?

Ulu əcdadların yatır yanaşı,
Ayrı bir hücrəsə sənin «diyar»ın.
Sinəmi ağrıtdı sinənin daşı,
Gözümü qaraltdı qara məzarın,
Mürşidi-kamil,
Nə oldu sənə?

Şeyx idin, adına «şah» deyə-deyə,
Sən ki, sığışmırdın yerlərə, göyə,
Bəs necə sığışdın kiçik hücrənə,
Nə oldu sənə,
Mürşidi-kamil?

Şə'ninə pərəstiş eləyərdilər,
Adına «ən böyük şah» deyərdilər.
Biçmişdi bu fələk sənin əyninə
Murad ülgüsüylə böyüklük donu,
İtirdin onu,
Nə oldu sənə,
Mürşidi-kamil?

Ey İraq sahibi, İran sahibi,
Ulu Azərbaycan doğma vətənin.
Ey şövkət sahibi, divan sahibi,
Kitablar yazılır şə'ninə sənin,
Nə oldu sənə,
Mürşidi-kamil?

Səni bundan sonra düşündüyüm dəm,
Ərdəbil mülkünün ey iftixarı,

Bir daha «nə oldu» deməyəcəyəm,
Elə şah olub ki, yoxdur məzarı,
Mürşidi-kamil,
Mürşidi-kamil!

16.06.2007
*Ərdəbil*

## RÜBAİLƏR

Hər ləhzə həqiqəti ara, ey saqi,
Yaddan çıxa bəlkə macəra, ey saqi.
Mey süz ki, ola dərdə dəva aləmdə,
Vardırmı mənə qeyri dəva, ey saqi?

14.06.2002

Ahim ki çıxır, müqəddəsimdir, yarəb,
Aşiq səsidir, mənim səsimdir, yarəb.
Uğrunda o dilbərin cövrlər çəkdim,
Bir dəm deмədim cövr bəsimdir, yarəb.

26.07.2002

Hər çay dəniz, hər təpə dağ olmur ki…
Hər ömr edənin ovqatı çağ olmur ki…
Ağsaqqal olub sonra verən can – xoşbəxt!
Hər bir ölənin saqqalı ağ olmur ki…

19.08.2002

Dilbər, məni bir möhtərəm öldürmüşdü,
Etmişdi cəfavü sitəm, öldürmüşdü.
Şadəm ki, səni şad eləyib şad oldum,
Yoxsa, bizi, billah, qəm öldürmüşdü.

9.10.2002

*Tamridaya*

Getdin sən əlimdən, gözəlim, tez getdin,
Qoydu səni qəbrə öz əlim, tez getdin.
Allahı görüb söylə çağırsın məni də,
Allahə de ki, mən də gəlim, tez getdin.

8.11.2004

Səhv eyləyibən əllərimə cam aldım,
Meydən camı sındırmaq ilən kam aldım,
İlham pərisi ki söyləyirlər, sənsən,
Yarım, sənə baxmaq ilə ilham aldım.

19.11.2004

İfrat eləyirsən, yaramaz, ey zahid,
Gəl mən kimi şəxsi qına az, ey zahid,
Var səndə də, var məndə də, əlbəttə, günah,
Yox səndə savab, məndə namaz, ey zahid.

21.11.2004

«Rahətliyə çatmışmı böyük Xaqani?»,
«Aram ola bilmişmi Əzim Şirvani?»,
Bəzən gözümün yox yuxusu illərlə,
Allah ilə söhbətləşirəm pünhani

1.12.2004

Ramazandırsa da, oldum yenə məst, ey saqi,
Niyə etdin məni sən badəpərəst, ey saqi.
Hanı əvvəlki o qamət ki, uzaqdım meydən,
Hanı qəddimdəki əvvəlki o şəst, ey saqi?

14.09.2006

## DÖRDLÜKLƏR

Şe’r sənətindən elə uzaqsan,
Sözün tükənməkdə sənin get-gedə.
Mənim qabağımda hələ uşaqsan,
Burnundan süd iyi gəlir hələ də.

20.06.2002

* * *

Qürbətdə ömr edən qürbətdə qalar,
Oba məhəbbətin yoxmudur sənin?
Vətənsiz nə qədər yaşamaq olar,
Sən külək kimisən, yoxdur vətənin.

23.06.2002

* * *

Üsyan eləyirsən gündən-günə sən
Ulu Allaha.
Göyün altındasan, eləmə göydən
Şikayət daha.

25.06.2002

* * *

Deyil uzaq asimanla yolu torpağın,
Düşünmə ki, aralıqda çox məsafə var.
O dünyayla bu dünyanın yolu çox yaxın,
O dünyaya bircə anda yetişmək olar.

28.06.2002

* * *

Ümidim tükənib mənim sabaha,
Əl verdi bir nadan əlimi yudum.
Cahanda yaxşı kəs görmürəm daha,

Hər iki dünyadan əlimi yudum.
30.06.2002

* * *

Aşiq görməyirəm bugün mən kimi,
Bu qədər əzaba dözən tapılmaz.
Sənin ətəyindən mənim əlimi
Heç qılınc ilə də üzən tapılmaz.
1.07.2002

* * *

Dərviş elə ustaddı ki, məktəbi yoxdur,
Zər-zivərə qəlbində onun mətləbi yoxdur.
Müslim nəzərində nədi sünni, nədi şiə?
Var dini də, var qibləsi də, məzhəbi yoxdur.
7.07.2002

* * *

Şahinə olan-oldu,
Qorxu düşməyir cana.
Zəlzələdən nə qorxu
Evi viran olana?
19.07.2002

* * *

İstəyirmi doğrudan
Yaman məni, İlahi –
Qocaltdı zaman-zaman
Zaman məni, İlahi.
24.07.2002

* * *

Üç-beş qəzəlini sipər eləyib

Döyüşmək fikrinə düşdün əbəs sən.
Yüz-yüz qəzəlimdən sənə ox dəyib,
Bir gör ki, kim ilə döyüşməkdəsən!..

12.08.2002

* * *

Gözüm yenə baxır oyuncaq sarı,
Doğru deyilibdir «qoca - uşaqdır»,
Yanıma gətirin oyuncaqları,
Qoca oyuncaqla oynayacaqdır.

15.08.2002

* * *

Gözüm açıqsa da, Rəbbim, seyri yox,
Məni bu cahandan sən ayır daha.
Yüz qələm versən də mənə, xeyri yox,
Bəxtimin qələmi yazmayır daha.

22.08.2002

* * *

Mənə də edəcək vida ömür, gün…
Vida edəcəyəm dünyaya mən həm.
Əcəlim çatanda, yaşamaq üçün
Özümü özümdən tərk edəcəyəm.

25.08.2002

* * *

Etdi hücum kədər, qəm,
Gözdə yuxu qalmadı.
Üzüm suyu içmişəm,
Üzümdə su qalmadı.

1.09.2002

* * *

Rəbbin hər bürcündə, səyyarəsində
Əvvəlin öz yeri, sonun öz yeri.
Ey şeyx, hökm eləmə mey barəsində,
Sənin öz yerin var, onun öz yeri.

11.09.2002

* * *

Girib ürəyimə qovladın qəmi,
Sən olan ürəkdə qəmin yox yeri.
Hicrana edibsən elə sitəmi
Ki, daha gözümdə nəmin yox yeri.

15.09.2002

* * *

Sevdanın yolu bağlı,
Yol gələcəksən haçan?
Bülbülün dili bağlı
Qönçə açmayanacan.

4.10.2002

* * *

Gəl yenə görüşək, darıxmışam çox,
Sənsiz pərişanam, səninlə şadam.
Gözəlim, azca da adamlığın yox,
Çünki sən mələksən, deyilsən adam.

13.10.2002

* * *

*Tamridaya*

Gülüm, o gündən ki, sənsiz olmuşam,
O gündən ki, mənə cövr edib fələk,

Kimsə görməyibdir belə böyük şam,
Yanıram qəbrinin üstündə şam tək.

15.10.2002

* * *

Ey dilim, «hicrana sinə gər» demə,
«Xoş gəldin» deyirəm hicranıma mən.
Əlac eləmədi sevgi dərdimə,
Təşəkkür edirəm loğmanıma mən.

16.10.2002

* * *

Gözlərimdə heçdi cahan, ay aman,
Birdən-birə üzüldü can, ay aman.
Öləcəyəm, dərman yoxdu dərdimə,
Eşq dərdidir, vüsal – dərman, ay aman.

19.10.2002

* * *

Bu balta, bu kötük, bu can, bu da sən,
Canımı verərəm sirdaşdan ötrü.
İstəsən başımı kəs, səninlə mən
Davamı eləyim bir başdan ötrü?

25.10.2002

* * *

Nə görün gözümə, nə göndər salam,
Nə də ağlayaraq məni ara, gəz.
Mən yağışlar görən bir qoca qurdam,
Mənə hər göz yaşı tə’sir eləməz.

26.10.2002

* * *

Ah-vayla ötəcək, gülüm, həşrədək
Şahinin gecəsi, Şahinin günü.
Elə bağlayıb ki, bəxtimi fələk
Kimsə aça bilməz həmin düyünü.

27.10.2005

* * *

At acgözə çatsın, üzəngi mənə,
İlahi, bilirəm ifrat əbəsdir.
Dəryanı şaha ver, səhəngi mənə,
Bir səhəngin suyu Şahinə bəsdir.

29.10.2002

* * *

*Tamridaya*

Ey yarım, getmisən gedər-gəlməzə,
Ürkək göyərçintək uçub getmisən.
Vüsal qapısını bağlayıb üzə,
Hicran qapısını açıb getmisən.

8.11.2002

* * *

Sirri hifz eləyək elə sirr kimi,
Sirdaşdan uzağa düşsə nə fayda?
Heç kimə söyləmə mənim sirrimi,
Sirr dildən dodağa düşsə nə fayda?

16.11.2002

* * *

Qabıqdan çıxırlar şöhrət-şan üçün,
Taca çevirirlər papaqlarını.

Adam var əlini öpdürür bu gün,
Sabah öpdürəcək ayaqlarını.

21.11.2002

* * *

Qəlbində tutubdur yaltaqlıq qərar,
Allah tanımırsan sən şahdan özgə.
Yalandan deyirsən əbədiyyət var,
Əbədi heç nə yox Allahdan özgə!

25.11.2002

* * *

Ey saqi, ömür-gün qısadır yaman,
Fərəhi görəndə kədəri unut.
Sənin meyxanənə gəldiyim zaman
Şərabı mən süzüm, qədəhi sən tut.

26.11.2002

* * *

Ürəyim yoxsa da, sözümü dinlə,
Eh, nə qədər bəlam, qadam var imiş.
Ürək məndən çıxıb gedib səninlə,
Ürəksiz sağ qalan adam var imiş.

29.11.2002

* * *

Qeyrətlə qərq olmaq nicatdan üstün,
Mənim qəmginliyim büsatdan üstün.
Peyğəmbər kəlamı hər kəlama baş,
İsanın eşşəyi min atdan üstün.

2.12.2002

* * *

Əzizim, Allaha çatacaq ahım,
Dözmək oğurluğa deyildir asan.
Sənə oğru desəm varmı günahım,
Sən mənim qəlbimi oğurlamısan.

2.12.2002

* * *

Bəli, sevməmişəm mən hədər səni,
Hədər deməmişəm sənə «sevgilim».
Tə'rif edirəm ki o qədər səni,
Axırda ağzıma sığışmır dilim.

21.12.2002

* * *

Dedin qəbristana gəldiyim gündə:
«Necə dolanırsan, ey evi bərbad?
Qəmgin dayanıbsan qəbrim önündə,
Sənin qəmginliyin məni etdi şad».

22.12.2002

* * *

Çoxalır dünyada riya, fitnə, şər…
Bu kürənin ipi möhkəm görünmür.
Adəmin dövründən ötüb çox illər,
Adamlığı olan Adəm görünmür.

31.12.2002

* * *

Qaldırma əl «vurum» deyə,
Gəl eyləmə cəngə maraq.
Şahin, fəqət əli göyə
Dua zamanı qaldıraq.

9.01.2003

* * *

Mən zərgərə dönnəm, gözəlim, zər sənin olsa,
Hətta olaram molla da minbər sənin olsa.
Mən razı buna, ey pəri, könlüm hədəf olsun
Bir xəncərə, hərgah o xəncər sənin olsa.

11.01.2003

* * *

*Sə'diyanə*

Piltə kimi, şam təki qovruluram, ey pəri,
Saldın alov qəlbimə, indi muradın nədi?
Köynəyimi kəssə də qaşlarının xəncəri,
Kipriyinin iynəsi köynəyimi tikmədi.

12.01.2003

* * *

Gözüm qəbr evimə bir intizar ki!..
Haçan gedəcəyəm evə, bilmirəm.
Dünya məni sevmir, nə eybi var ki,
Mən də bu dünyanı sevə bilmirəm.

15.01.2003

* * *

Məni göy niskili, qübarə çəkir,
Allahım, döy məni, döy yuxarıda.
Məni aşağı yox, yuxarı çəkir,
Yer aşağıdadır, göy yuxarıda.

19.01.2003

* * *

Eşqim bir qönçədir, çiçəkləyəcək,
Sərməst olacağıq onun ətrindən.
Qəlbimi açıram indi düymətək,
Tələs ki, düyməni bağlamayım mən.

27.01.2003

* * *

Yenə də titrəyir şair əlləri,
Yazmaq istəyirəm qatilliyimdən:
Özümə gəlmirəm dünəndən bəri,
Dünən bir kəpənək öldürmüşəm mən.

16.02.2003

* * *

Sənin hər inadın qəlbimi didir,
Taxsırkar küsdürən, yoxsa küsənmi?
Dedin ki, qulağın yaxşı eşidir,
Ürəyim dad edir, eşitmisənmi?

24.02.2003

* * *

*Arif dostum Hacı Rafiq Şirvaniyə!*

Ehtiram görsə də zəmanəsindən,
Hərdən tə'nə oxu tuşdur arifə.
Çox söhbət etmişəm ariflərlə mən,
Təsbeh də, badə də xoşdur arifə.

10.03.2003

* * *

Sənin axtardığın qapı – bu deyil,
Yaxınlıq arama, ol məndən uzaq.

Ürəyim məscidin qapısı deyil,
Hər kəsin üzünə açılmayacaq!

12.03.2003

* * *

*Hacı Maili və onun yaratdığı*
*«Füzuli ədəbi məclisi»ni anaraq*

Üççə il yaşadı, ömrü az imiş,
Məclisin nizamı nə pis pozuldu.
Məclis də ölümə e'tiraz imiş,
Hacı Mail öldü, məclis pozuldu.

14.03.2003

* * *

Dünya məskənidir müsafirlərin,
Kimi sevda, kimi vuruş tutmada.
Kimi qarnındadır anamız yerin,
Kimisə üstündə duruş tutmada.

19.03.2003

* * *

Gülüm, qısqanclığın artır get-gedə,
Sinəmdə qövr edir neçə söz yeri.
İlham pərisini sevirəmsə də,
Sənin öz yerin var, onun öz yeri.

22.03.2003

* * *

Qəm məni öldürür, çətin sağ qalam,
Neyləyim, sevdama çata bilmirəm.
Qəm yükü daşıyan elə hambalam,
Bu yükü çiynimdən ata bilmirəm.

31.03.2003

* * *

Heç sənə qaba söz demişəm məgər?
İsmət pərdəsi var sözümdə, ey yar.
Pərdəyə toxunsam söz ləkələnər,
Pərdəni götürsəm ismət pozular.

4.04.2003

* * *

O qədər şövqü çəkibdir məni meyxanəmizin,
Məskənimdir əbədi məskəni meyxanəmizin.
Qoymayın mollanı meyxanəyə girsin, çünki
Məscidin dostu – olar düşməni meyxanəmizin.

10.04.2003

* * *

Necə tənzimləyim baqi ömrümü?
Necə hifz eləyim mən məni, necə?
Mey verib qısaldır saqi ömrümü,
Sevməyim bu gözəl düşməni necə?

11.04.2003

* * *

Gəlməkdə uzaqdan yenə gül yarımın ətri,
Bihuş eləyibdir məni dildarımın ətri.
Gülzarıma bax gör nə şe'r gülləri vardır,
Böylə qalacaq daima gülzarımın ətri.

22.04.2003

* * *

Bəxtim pis günə düşüb,
Axtarıram açanı.

Yaman düyünə düşüb,
Düyünü açan hanı?

28.04.2003

* * *

Artdı yüküm, ay aman,
Qəm – yükümü artırıb.
Ağır gəlirəm yaman,
Dərd – çəkimi artırıb.

29.05.2003

* * *

Yerə ucalıqdan baxmaq istərəm,
Şahinə uçmamaq axı yaramaz.
Günəşin üstünə çıxmaq istərəm,
Qalsın aşağıda günəş də bir az.

5.06.2003

* * *

Əgər Eşq anlamını hafizədən silmişdin,
Bəs məni eşqinə layiq nə təhər bilmişdin?
Qapılıb qalmısan, ey gül, yenə öz kəndində,
Şəhərə gəlməyəcəksənsə, neçin gəlmişdin?

3.09.2003

* * *

Sevindir bu sevəni
Tərtəmiz çiçək kimi.
Qüsursuz görüm səni,
Şəffaf ol külək kimi.

27.10.2003

* * *

Gül məni cəlb etməyəcək bir daha,
Söyləmərəm bir də çiçəkdən danış.
Məndə ürək qalmadı, ey bivəfa,
Səndə ürək varsa, ürəkdən danış.

31.10.2003

* * *

Yanıram, axmırsan su tək sahilə,
Təşnəyəm dirilik suyuna, ay qız,
Məhəbbətdə insaf yoxmuş bir gilə,
Səni dəli edib, məni ağılsız.

9.11.2003

* * *

Deyirsən ki, mələksən sən,
Mələyim var, mələk, əl çək.
Mənim hər çiynim üstündə
Oturmuş bir mələk göyçək.

23.01.2004

* * *

Gözlərin içində bulud yoxdusa
O yaş qətrələri haradan gəlir?
Təəccüb etməyin üzü qan yusa,
Ürəyim yaradır, yaradan gəlir.

25.01.2004

* * *

Gülüm, yerə salma dilim deyəni,
Şadlığım, sevincim yoxdur bir gilə.
Tut ağacı kimi gəlib çırp məni,
Bəlkə qəm canımdan tut tək tökülə.

17.02.2004

* * *

Mən ikilikdən uzaq, sən ikilikdən kənar,
Sən Günəşimsən mənim, Göy birdir, Günəş də bir.
Sevgi asimanımda sənə bərabərmi var?
Bir Göydə iki Günəş hələ görünməyibdir.

26.02.2004

* * *

Göylərdə qaranlıqdı, şəfəq yoxdu üfüqdə,
Allahə şükürlər ki, şəfəq doğdu üfüqdə.
Əlbəttə, səmadə şəfəqin olması vacib,
Zülmətləri, bir anda doğub, boğdu üfüqdə.

5.03.2004

* * *

Görmək diləsən, get, demə Şahdağə «uzaqdır»,
Qorxmazə yaxın olsa da qorxağə uzaqdır.
Gər varsa vəsl niyyəti, Çin şəxsə yaxındır,
Gər yoxsa vüsal istəyi Məştağə uzaqdır.

10.03.2004

* * *

Ömür yolu insanın dəqiq müəyyən olub,
Fərqi yoxdur ömrüdür rəiyyətin, ya şahın.
Ömür arabasına zaman atı qoşulub,
Qamçı isə həmişə əlindədir Allahın.

18.03.2004

* * *

*Əsgər Şahi Ərdəbiliyə*

Arxın sayı çoxdur elə, çaydan xəbərim yox,
Ulduzları gördüm yenə, aydan xəbərim yox.
Bir torpağımız gör neçə vaxtdır ikitaydır,
Mən burdayam, ey Şahi, o taydan xəbərim yox.

21.03.2004

* * *

Məhəbbəti qəbul elə səmimi,
Yerə salma, ne'mətidir Allahın.
Məhəbbətin şahı var Şahin kimi,
Qəzəbinə tuş gələcəksən şahın.

3.04.2004

* * *

Mələklər bizi görür,
Biz görmürük onları.
Mələklərdən utansın
Üryan olanlar barı!..

7.04.2004

* * *

Canımda o qədər ağrı, acı var,
Bilə bilməyirəm çıxacaq haçan.
Sən qapımı açsan bəxtim açılar,
Niyə gəlməyirsən, ay qapı açan?

10.04.2004

* * *

Naşı adam əksə gül,
Yerində tikan bitər.
Eşq bağımda, ey könül,
Eşq gülü haçan bitər?

13.04.2004

* * *

Deməyin ki yazma, sevgidən əl çək…
Yazıram, yazmışam dünənə kimi.
Sözüm sevgi haqda tükənməyəcək,
Həyatım gözümdə sönənə kimi.

22.04.2004

* * *

Söylədin seyr edib bəyaz saçları:
Yığılıb başına Şahdağın qarı.
Sən qar daşıyırsan, təki qəlbində
Şahdağın soyuğu olmasın barı!..

2.05.2004

* * *

Gül bülbülə aşiqdir,
Bülbül gülə aşiqdir,
Şahin isə Allaha!
Şahin belə aşiqdir!!!

11.06.2004

* * *

Düzgünmü etdi ol yar mən yarı üzgün etdi,
Sevdanı bir gün etdi, qovğanı yüz gün etdi.
Mənsur darə qurban, Şahinsə yarə qurban,
Mənsurmu düzgün etdi, Şahinmi düzgün etdi?

18.06.2004

* * *

Şahi[1] gəlibdir deyə bir daha Şirvanıma,

---

[1] *Ərdəbil şairi Əsgər Şahi.*

Sinədəki mən kəsin ahi gedibdir yenə.
Şahini evləndirək, qoy deməsinlər daha
«Şahi gəlibdir yenə», «Şahi gedibdir yenə».

23.06.2004

* * *

Yerdəyəm, səmanı quca bilmirəm,
Deyirlər cünunluq məndə aşikar.
Necə şahinəm ki, uça bilmirəm,
Necə dəliyəm ki, hüşyarlığım var.

29.06.2004

* * *

«Gəl» deyirsən sən mənə, çox-çox de, israrın şirin,
«Get» sözün gərçi acı, amma ki, rəftarın şirin.
Bir sözü bir yol deyərlər, amma sən çox yol dedin,
Eylədin təkrar «Eşq! Eşq!», eylə, təkrarın şirin.

27.07.2004

* * *

Əlaman edirəm qəmin əlindən,
Qara hücum çəkir, çara qalmayıb.
Mənim qara günüm başlayan gündən
Qara saçlarımda qara qalmayıb.

17.09.2004

* * *

*İran İslam Respublikasının Bakıdakı Mədəniyyət Mərkəzinin əməkdaşı cənab Pakrəvana*

Bir ölkədə ki, elm ilə idrak rəvandır,
Düz getməlidir hər işi, çün pak, rəvandır.

İran deyilən məmləkətin arifi çoxdur,
Əlbət, biri də qardaşımız Pakrəvandır.

7.08.2004

* * *

Yaxşı öyrədiblər mənə hesabı,
Əyri yol əyrinin, düz yol mənimdir.
Pəncərə açıqsa, bağlısa qapı,
Pəncərədən girmə, qapını aç gir.

24.09.2004

* * *

Köksüm arzuların məzarı kimi!..
Orada kədər var, qəm var, qübar var.
Saçlarım ağarır dağ qarı kimi,
Duman, yer ver günə, başımda qar var.

9.01.2005

* * *

«Qayıt» demirəm sənə,
«Buyur» söyləmək olmur.
Çağrılmayan qonağa
«Xoş gəldin» demək olmur.

12.03.2005

* * *

Şe'rim dönür «Divan»a,
Ölərəm bu olmasa.
Su çevrilməz ümmana
Qətrələr su olmasa.

19.03.2005

* * *

Zülfüqar deyilməz hər bir qılınca,
Hər qılınc çalana Əli demirlər.
Mənim də Məcnuntək dəliliyim var,
Neçin bəs adıma dəli demirlər?

23.03.2005

* * *

Qanımı axıtdın hicran cücərdi,
Əlin daha vüsal gülünü dərmir.
Mənim göz yaşımdan qamış göyərdi,
Qəlbimdə məhəbbət gülü göyərmir..

13.05.2005

* * *

Qamətimin ucalığı ötübdür,
Ey cavanlar, mənə cavan deyər kim?
Gəncliyimin qocalığı ötübdür,
Qocalığın gəncliyinə yetişdim.

15.05.2005

* * *

*İrandan dünən dönmüşəm, amma Ərk qalasının viranlığı hələ də gözlərimin önündən getmir*

Mənim qala babam, ey Ərk qalası,
Sənə nəvə ərki eləyirəm mən –
Qocaldın, Təbrizin ey bərk qalası,
Səni gəncləşdirmək gəlmir əlimdən.

22.05.2005

* * *

Səsim Sənə çatan səs deyilmidir?
Allahım, çox görmə mənə dözümü.
Ürəyimi yedim, bəs deyilmidir?
Yemək istəmirəm özüm özümü.

29.05.2005

* * *

*Cinas*

Xəlq olunub sən boyda var tapdım mən,
Söyləmərəm tapdığım vara xırda.
Bir deyilsən, sən ikisən, ey vətən,
Qəbir adlı vətənim var axırda.

12.07.2005

* * *

Neçə gün bağü gülüstanıma gəldin-getdin,
Gözəlim, sonra isə yanıma gəldin-getdin.
İmkanım var idi Məcnunə dönüb ad eləyim,
Olmadı. Sən mənim imkanıma gəldin-getdin.

16.07.2005

* * *

Könülsüz-könülsüz «sevirəm» demə,
Yarını könülsüz sevirsənsə sən.
«Əlvida» dedinsə «salam» söyləmə,
«Əlvida»nı unut «salam» söyləsən.

6.08.2005

* * *

Qaçır qovulan da, qaçır qovan da,
Bu dünya qaçhaqaç, qovhaqov yeri.
Dünyanı yaradıb Rəbb yaradanda

Cənab Əzrayıldan ötrü ov yeri.

24.09.2005

* * *

Heç kimi yuxudan ahım oyatmır,
Ürəyim aləmin qəmini çəkmiş.
Hər gün uzadıram əlimi, çatmır,
Allahın ətəyi necə gödəkmiş…

7.10.2005

* * *

Sevincim azalıb, canı sarıb qəm,
Ey ulu Allahım, sultanım, ağam,
Mən ağır xəstəyəm, çünki aşiqəm,
Eşqim qurtaranda sağalacağam.

17.05.2006

* * *

Dedilər Məcnuna: Aç gözlərini,
Səndə görməməkmi meyli görünür?
Dedi: Gözü açsam, sizi görərəm,
Açmıram, gözümə Leyli görünür.

30.05.2006

* * *

Gözlər ki zəif oldu çəmən seyri görünməz,
Ya da qocanın gözlərinə qeyri görünməz.
Şahin, qıçını qatla, otur, qaçma cavantək,
Çünki, qocanın qaçmağının xeyri görünməz.

21.07.2006

* * *

Qələmim, borcluyam alın tərimə,

Axı, hər şairin «Divan»ı olmur.
Mənim divan-divan şe’rlərimə
Tənqidçi divanı hələ tutulmur.

22.09.2006

* * *

Bu gün it gözümdən, qalma sabaha,
Qovmaq istəyirəm ordan səni mən.
Gözümün nəmində yaşama daha,
Sətəlcəm olarsan, çıx gözlərimdən.

12.10.2006

* * *

Deyəsən özünü cavan sanıbdır,
Həvəsi ürəkdə, xülyası başda.
Ona hava çalın, havalanıbdır,
Oynamaq istəyir Şahin bu yaşda.

20.10.2006

* * *

Faidən yoxdu, ziyanlıq eləyirsən, Şahin,
Özünə sən ki, yamanlıq eləyirsən, Şahin.
Dizini qatla otur çək gözünü sevdadən,
Qocalıqda nə cavanlıq eləyirsən Şahin?!

22.10.2006

* * *

Barmaq qabar çalıb qələm tutmaqdan,
Bağlıyam qələmə candan, könüldən.
Əgər barmağımdan açılsa da qan,
Müdam yazacağam, yazacağam mən.

23.10.2006

* * *

Canda tab gərəkdir iztirab üçün,
«İztirab» ilə «tab» qafiyələnib.
Təsadüfi deyil yəqin ki, Şahin,
«Şərab» ilə «xərab» qafiyələnib.

5.11.2006

* * *

Nə tab qalıb canda, qalıb nə təvan,
Yananı bir də gəl yandırma, Allah,
Ayağımda qalıb sınan hər tikan,
Barı tikanımı sındırma, Allah.

7.11.2006

* * *

*Tamridanı xatırladım…*

O, torpaq altında, mən torpaq üstdə…
Əgər yoxdursa da özü yanımda.
Məndən o nakama məhəbbət istə,
Adı dodağımda, eşqi canımda.

19.11.2006

* * *

Qəlbim gəncliyimin şux həvəsində,
Yadımdan çıxmayır cavanlıq bir an.
Firdovsi demişkən «Şahnamə»sində:
«Ağılda qocayam, söhbətdə cavan».

13.01.2007

* * *

Gəlmə, alınmayır sevgi səninlə,
Bizim aramızda yoxdu sirr daha.

Qəlbin qapısını qapadım elə,
Açmaq istəmirəm onu bir daha.

25.01.2007

* * *

Əlində titrəyir çomağı onun,
Yığsın ölənəcən, belə andı var.
Başında papağı yoxsa da onun,
Papaqlar dolusu brilyantı var.

27.01.2007

* * *

Gözüm olduğuntək görməyir səni,
Sənə yaxın gəlim, məni yaxın san.
Gözümü gözünün üstünə qoy ki,
Gözünün içini görüm yaxından.

9.03.2007

* * *

Düşməsin sözümüz dilə, dodağa,
Bizim eşqimizi o-bu bilməsin.
Qıymıram gözünə yad gözlər baxa,
Elə gəl, elə get, qonşu bilməsin.

14.03.2007

* * *

Bir bulaq timsalı mən çağlayıram gizlincə,
Sən gülürsən, gözəlim, ağlayıram gizlincə.
E’tiraf eyləyirəm çox kədərim var, amma
Sənə qəlbimdə fərəh saxlayıram gizlincə.

25.03.2007

* * *

Ürəyim sevginlə sənin yaralı,
Sevgin – ürəyimi sevincək edən.
Yaşaya bilmirəm səndən aralı,
Yaşaya bilmirəm səninlə də mən.

5.04.2007

* * *

O qədər xoşlamışam yar kimi mən qələmi,
Almasın son günədək Tanrı əlimdən qələmi.
Qələmim eyləməsə vəsf səni, ey dilbər,
Mil kimi çək gözümə ləngimədən sən qələmi.

23.04.2007

* * *

İlhamıma, ey Şahin, qüvvəm hərəkət versin,
Layiqli olan şəxsə tale əzəmət versin.
Minlərlə qəzəl yazdım, xeyli kitab, üç divan,
Zənnimcə kifayətdir, Allah bərəkət versin.

17.06.2007

* * *

Bu günün havası ağırdan ağır,
Bu günün səması betər, nə betər!..
Elə bil havadan zəhrmar yağır,
Göyə çıxıblarmı ilanlar məgər?

2.08.2007

* * *

Hicranın zülmüylə, məşəqqətiylə
Başımdan eşqimin buxarı çıxdı.
O qədər ağladım yar həsrətiylə,
Göz yaşım başımdan yuxarı çıxdı.

13.08.2007

* * *

Sevgi zəncirini biləklərimdən
Nə gəda açacaq, nə şah açacaq.
Üzümə qapını bağlasan da sən,
Əgər rəhm eləsə Allah açacaq.

14.08.2007

## SƏKKİZLİKLƏR

Batdı sevda gəmim ümmanda sənsiz,
Gəldi məhşər günü, qopdu qiyamət.
Elə sanıram ki, cahanda sənsiz
Eşqdən qalmayıb əsər-əlamət.

Sənsiz yarımçığam, hanı bütövlük?
Günü-güzəranı para adamam.
Hövsələsi kiçik, kədəri böyük,
Saçı ağ, qanısa qara adamam.

22.11.2002

Vurdu aramızı bizim, söylə, kim?
Varmıdır bu işdən xəbərin sənin?
Sənə yetişmədi mənim sevincim,
Mənə zülm elədi kədərin sənin.

Bizimki tutmadı nəsə, ey pəri,
Məni qüssə qucdu, səni intizar.
Mənim sevincimin yoxdur əlləri,
Sənin kədərinin ayaqları var.

10.12.2002

Eləyər mədhini məntək kim sənin?
Zərgərəm, zərgərə, ey pəri, sən – zər.
Görə bilmədiyi hələ kimsənin
Eşqim gülə bənzər, qönçəyə bənzər.

Gəl ki, qəlbimizi süfrətək açaq,
Ümid buludundan bərəkət yağdır.
Bu gül nə zamansa ətir yayacaq,
Bu qönçə haçansa açılacaqdır.

24.01.2003

Qəribə yuxular görürəm yenə –
Hər gecə uçuram günəşə sarı…
Yuxuda ənginlik qismətsə mənə,
İqbalım çin etmir bu yuxuları.

Şahinəm, pərvaza həvəs var canda,
İstərəm həvəsim birə min olsun.
Yuxum çin olmayır Azərbaycanda,
Gərək Çinə gedəm yuxum çin olsun.

22.02.2003

*Cinaslar*

Yenə eşq oxuna mən tuş olmuşam,
Daha qara görmə, gözüm, say ağı.
Təzə uğurumdan sərxoş olmuşam,
Yenə də uçuram şahin sayağı.

Kimi sevgidən məst, kimi şərabdan,
Nigarım əlində baltamı gəlir?
Kimi baldan razı, kimi doşabdan,
Aldığım doşabdan bal tamı gəlir.

16.05.2003

Dağa yaxın idim körpəlik çağı,
Şahdağa dəyərdi nəzərim müdam.
Səyahətə çıxan səyyah sayağı,
Çoxdan o çağlardan uzaqlaşmışam.

Çox illər ötüşüb o günlərimdən,
Sevincə əl çatmır, fərəhə ayaq.

Daha görməyirəm yaxını da mən,
Körpəlik də uzaq, o dağ da uzaq.

8.07.2003

*Bu gün Buzovnada «Əli ayağı»*
*ziyarətgahına gedən gözələ!*

Zülfüm ağarmaqda hey birər-birər,
Daha saçlarımda qara qalmayır.
«Əli ayağı»na gedən o dilbər
Aşiqin başına nəzər salmayır.

«Əli ayağı»na gedən gözəli
Etməyir narahat gözümün yaşı.
Sənin ayağının tozuyam, Əli,
Yanında nədir ki, Şahinin başı?

8.07.2004

Vəslimiz bu gün də güləsi idi,
Hicran şilləsiylə amma vuruldum.
O, bu gün yanıma gələsi idi,
Mən isə Qubaya gedəsi oldum.

Nə onda təqsir var, nə məndə günah,
Amma, o da təkdir bu gün, mən də tək.
Bu gün onu məndən ayırdı Allah,
Yəqin sabah bizi birləşdirəcək.

18.09.2004

Məzəmmət eləmə qətiyyən məni,
Arada əhd olub, peyman olubmu?
Günahkar etmə zənn, gülüm, sən məni,
Allahın hökmündən qaçan olubmu?

Nə mən cəhd elədim olaq qüssəsiz,
Nə sən fikir verdin çəkdiyim aha.
Səninlə dost ola bilməsək də biz,
Düşmən də olmadıq, şükür Allaha!

22.11.2004

Mənim qəmlənməyim ötəri deyil,
Elə gəlibdir ki, gedəri deyil.
Gülər görsənməyim hədəri deyil,
Qəhərim səni də qəhərləndirər.

Kimdir bu halıma verən sərəncam?
İztirab acı mey, canım isə cam.
Belə kədərlənsəm, Şahin, qorxuram
Kədərim Allahı kədərləndirər.

2.01.2005

Bitəcək mənim də fani həyatım,
Məzarım açacaq cismimə qucaq.
İndi kitablarda yazılır adım,
Sonra bir daş üstdə həkk olunacaq.

Sonra çıxaracaq vaxt öz hökmünü,
Nə məzar qalacaq, nə iz yazıda.
Silinib gedəcək günün bir günü
Daşın üstündəki həmin yazı da.

7.01.2005

Yenə qırıb-çatır adamı adam,
Bəşərin gedəni, gələni bizik.
«Mənimdir, sənindir» deyirik müdam,
Hər şey Allahındır, böləni bizik.

Qaya ölməyəcək, dağ yaşayacaq,
Ağacı qaldıqca bağ yaşayacaq.
Dünya milyon illər sağ yaşayacaq,
Dünya öldürəndir, öləni bizik.

5.08.2007

## TƏKBEYTLƏR

Gah gülü qoxlayıram, gah da nigarın telini,
Bağiban, gəlmə hələ, qoy bizi tək gülşəndə.

12.06.2002

Dərmanın yoxdursa dərdini göndər,
Dərdin də gərəkdir dərmanın kimi.

16.06.2002

Şahina, hər yoxuşun var enişi,
Çox uca uçma göyə, enməlisən!

18.06.2002

Möhtəşəm eşq aləmində yoxdu cinsiyyət-filan,
Leyli həm məcnun deyilmi, Məcnunun məcnunudur.

21.06.2002

Heyrətlə göz dikmə uca ağaca,
Ağac uca deyil, bizik balaca.

*Quba*, 27.06.2002

Mütləq sakitlik yoxdur, əbədi nigəranlıq,
Qaranlıqda işıq var, işıqdasa qaranlıq.

3.07.2002

Ey xanəxarab, iynəni gizlət,
Görmürmü gözün, məndə qıyıq var.

5.07.2002

Məndən inciməyin, nəyəmsə buyam:
Şənliyin düşməni, qəmin dostuyam.

9.07.2002

Mən bu müşkil işi kimə deyim bəs –
Dərman var, dərd yoxdur, nə eləyim bəs?

11.07.2002

Aşiqə bax sən fəqət, əğyarə yox,
Güzgü kimi hər kəsi əks eyləmə.

13.07.2002

Gülüm, əyilməzsə önündə başım,
Qoy dar ağacının meyvəsi olsun.

15.07.2002

Ürəkdən ürəyə yollar görünür,
Bizim ürəyimiz yol həsrətində.

17.07.2002

Ayağıma tikan batdı,
O gündən iynədən qorxdum.

22.07.2002

Öldürüldü. Əlitək həzrəti bəs hardan alım?
Zülfüqar tapmaq olar, qüvvəti bəs hardan alım?

27.07.2002

İsa kimi peyğəmbərə çarmıx nə edər ki?
Çarmıxə çəkənlər yerə, İsa göyə getdi.

30.07.2002

Qalmışsa gözüm səndə,
Qalmışmı dözüm məndə?

Quba, 1.08.2002

Bizim dostluğumuz heç zaman tutmaz,
Sənin söhbətin çox, mənim səbrim az.

3.08.2002

Ey Molla Füzuli, sənə bənzər hanı molla?
Dərsində oturdumsa da, qayib mənə yazdı.

Quba, 5.08.2002

Dost munisiyəm mən, o qədər dostpərəstəm,
Dost düşmənə dönsə, edərəm düşməni dostum.

8.08.2002

Aşiqin xəmiri qəmlə yoğrulub,
Aşiqin xörəyi qüssə xörəyi.

10.08.2002

Necə şahin idim bilənlər bilir,
O gülü görəndən bülbül olmuşam.

17.08.2002

Özünü çəkirsən kənarə məndən,
Məgər görməyirsən işarə məndən?

21.08.2002

Göz yaşım çay isə atəş neyləsin?
Ulduzum sönübsə günəş neyləsin?

24.08.2002

Söyləyirsən bizə ki, hər səsi Allah eşidir,
Qışqırırsan ucadan bəs niyə ey molla belə?

30.08.2002

Badənin qədrini bil, nuş eləmə çox həddən,

Meyi hörmətsiz içib salma onu hörmətdən.
5.09.2002

Aşiqlə söyüdün bənzəyişi var,
Qeys də məcnundur, söyüd də məcnun.
7.09.2002

Torpağın üstdə var güclü adamlar,
Torpağın altdasa gücsüzlər yaşar.
9.09.2002

Çiynim üstdə oturub qeyd eləyir gündə günah,
Nə deyim mən ona, insanlığı yoxmuş mələyin.
17.09.2002

Gözünü görməməyim gözlərimi ağlatdı,
Mənə üz verdi, əzizim, üzünü görməməyim.
25.09.2002

Almaq əlimə bir də qədəh istəmirəm mən,
Şahin, qədəhim var idi, məsciddə qırıldı.
29.09.2002

Əcəli gələndə hər adam ölür,
Ölmək istəyirəm əcəl gəlməmiş.
1.10.2002

Dərman necə oldu, ey dərd verənim,
Dərman da ver mənə, dərdim var mənim.
23.10.2002

Yaxşını da gördüm, yamanı da mən,
Gülü də sevirəm, tikanı da mən.

7.11.2002

Böyüyün sözünü kəsən nakəsin
Özünü kəssələr mane olmayın.

7.11.2002

Biri xəncərə baxır, biri təxtü tacına,
Biri minbərə çıxır, biri dar ağacına.

11.11.2002

Laləni sevmirəm, bağrı qaradır,
Qəlbi qaralardan gəlməyir xoşum.

15.11.2002

Allahdan, ey sadəlövh, göz yaşını axıdıb
Uzun ömür istəmə, əbədi ömür istə.

23.11.2002

Hüsnün zəbt eləyib yuxu yerini,
Yuxusu olmazmış vurğun gözlərin.

28.11.2002

Yaxşılıqdan başqa yaxşı nə var ki?
Yaxşının gördüyü iş yaxşı olar.

1.12.2002

Dedim: - Ey ayüzlüm, busə ver mənə,
Dedi: - Ay sarıdır, qızarar axı.

6.12.2002

Həyat şamdanımda tez əriyib şam,
Zirvəyə gec çatıb, tez yıxılmışam.

11.12.2002

Xırda insanlara yan almayıb, ey can, aralan,
Sən böyüksənsə əgər, xırdaçılıqdan aralan.

15.12.2002

Ovcumun içində beş barmağım var,
Barmaqlar ayrılsa ovuc yox olar.

20.01.2003

Əlim ətəyinə dəyə bilməyir,
Əlimmi qısadır, yoxsa ətəyin?

12.02.2003

Saqini xoşladım, mey verir mənə,
Mən öz düşmənimi xoşlamışammış.

17.02.2003

Mə'şəl görməmişəm mən yana o yanan kimi,
Ağlım başımdan çıxır eşqim oyanan kimi.

26.02.2003

Məndən nigəran olma qətiyyən, uyu rahət,
Ac qalmayıram, qüssə içib, qəm yeyirəm mən.

2.04.2003

İstəsən gər yenə bağçan, gözəlim, güllənsin,
Məni ağlat ki, gözüm yaşı yenə sellənsin.

13.05.2003

Məddah adama yerdəki hər şah yar olsun,
Amma mənəsə göydəki Allah yar olsun.

3.06.2003

Gülüm, rayihənlə nanə kimisən,
Həmişə ətir saç nanə kimi sən.

6.06.2003

Düşə bilməz aralı, cananıma arxayınam,
Onu qaynaq eləyiblər canıma, arxayınam.

8.06.2003

Ürəyimin cibi dolu, şalvarımın cibi boş…
Nə zamansa dağılacaq, bu dünyanın dibi boş.

10.06.2003

Sözlərin kəsdi qılınctək, ürəyim yaralənib,
Ürəyi kipriyin ilə tikə bilsən, sağalar.

15.06.2003

Gözəlim, bil ki, xəbis çəkməyəcək göz bizdən,
Verme imkan ona boş-boş danışa söz bizdən.

17.06.2003

Hərçənd adım Şahin, özüm şahinəm, amma
Gülşəndə görüb sən gülü bülbülləşirəm mən.

19.06.2003

Ayaq yerdən üzülsə də,
Üzülməsin əl göylərdən.

11.07.2003

Getməz idi əqli olsaydı şəhərdən heç yerə,
Qeystək səhrada Şahin indi sərgərdan olub.

14.09.2003

Dar ağacı qurub ürəyimdə mən,

Asaydım hicranı kaş o ağacdan.

5.11.2003

Yenə fəğan edir qıraqda bülbül,
O bağda qızılgül, bu bağda bülbül.

14.11.2003

Biz yaşaya bilsək əgər şahsız,
Bilmərik əsla olaq Allahsız!

28.11.2003

Yerdəki mə'mur kimi göydə də mə'mur var,
Rüşvət alırmı görən göydəki mə'murlar?

28.12.2003

Küləklər Tanrının sözüdü bəlkə?
Ulduzların Allahın gözüdü bəlkə?

6.01.2004

Əsli, nəcabəti olmayan kəsin
Meymundan nə fərqi ola bilər ki?

8.01.2004

Şəkkərsevənəm, olmasa qismət mənə bir gün,
Şəkkər ki dodağındadı, heç kimsəyə vermə.

28.01.2004

*Ərdəbilli şair Əsgər Şahi bir neçə günlük Bakı görüşündən sonra yenə Ərdəbilə qayıtdı*

Bir də gər qoysa yaxın Şahi hicr bədxahi
Şahina, onda gərək ya mən olüm, ya Şahi.

5.02.2004

Çəkib Adəm qabırğa ağrısı Həvvayə yar oldu,
Bu Şahinsə qabırğa ağrısından böylə zar oldu.

22.02.2004

*Qabırğamın sınmasının*
*15-ci günü*

«Aydır» dedilər ayə baxanlar, deyirəm mən:
Hindu qızıdır, şövq ilə Yerdən Göyə çıxmış.

19.03.2004

Ey yar, yanından qırağa qoyma qaçım mən,
Qaçmaq diləyən dustağı zəncirə çəkərlər.

20.03.2004

Mənzilində tapmayan kəs Şahini, bilmirdi ki,
Mənzilimdə yar ki yoxdur, mənzilim qəbrindədir.

22.03.2004

Yerdə bezmişdir bu Şahin, Allahım, öldür məni,
Asimanə getmək üçnü torpağa girmək gərək!

21.04.2004

Çəkmə dərd öylə ki, elan edələr «dərd çəkir»,
Dərdi çək öylə ki, qoy söyləyələr «mərd çəkir».

14.06.2004

Çox sirrini sirr mücrüsünün bilmədim, amma
Bildim ki, mənim qədrimi sən bilməyəcəksən.

5.07.2004

Üzün qənd kimi ağdır,

Sözün bibər kimi acı.
29.07.2004

Deyəcəyəm mən sənə yas tutduğun məqamda:
«Məni öldürdüyün nə, yas tutduğun nədir bəs?».
10.09.2004

Yerdəki adamlar darıxdırıcı,
Göydəki adamlar görəsən necə?
22.09.2004

Qürbətdə içərsəm əcəl meyini,
Cənnətə düşsəm də yanacağam mən.
20.11.2004

Qapımı kitab tək varaqlayıram,
Mən onu çox açıb, az bağlayıram.
5.01.2005

Bir qeyrisini sevməyirəm məmləkətimdə,
Qəlbimdə səbət var ki, yerin var səbətimdə.
5.02.2005

Yataqdan qorxuram qocalıqda mən:
Çarpayım tabutdur, mələfəm kəfən.
10.09.2005

O qədər dağ çəkibsən mənə ki, göz çaşdı,
Sən mənim sinədəki dağıma bax, dağ daşdı.
30.09.2005

Mənim ürəyimdə qəm yükü vardır,
Qəmdən də ağır yük çətin ki ola.

8.10.2005

Göylərin qucağı ulduzla dolu,
Çiynimə düşəsi ulduz tapılmır.

23.10.2005

Vaxt vardı vüsalla qucaqlaşardım,
İndi hicran ilə qolboyunam mən.

26.10.2005

Çoxdur vurğunluğum, bircədir sevgim,
Min dəfə vuruldum, bir dəfə sevdim.

6.05.2006

Yandırıblar məni dünyadə, İlahi, o qədər,
Daha heç varmı bir hacət ki, cəhənnəmdə yanım?

9.05.2006

Eykaş, adımı adqoyanım qarğa qoyaydı,
Şahindir adım, amma nə fayda, uçuşum yox.

19.05.2006

Ovunu yeyərkən timsah ağlayır,
Onun göz yaşının ova nə xeyri?

24.06.2006

Təsəvvür etmirsən necə uzanır…
Sənsiz olduğum vaxt gecə uzanır.

5.07.2006

Söyləmə «havalandım, Allah insafa gəlməz»,
Məcnunluq eləməsən başına hava gəlməz!

8.07.2006

Saxlamasa əllərimi Allahım
Çəkmərəm əl bir də əlindən yana.

18.07.2006

Mən sənə səadət verə bilmərəm,
Sən mənə məhəbbət bağışlamasan.

30.08.2006

Qələmim əlimdə əl ağacıdır,
Tutmasam yıxıllam əlillər kimi.

4.09.2006

Kuzəmi sındırıban qəlbimi sındırdın sən,
Gör nəyi zay elədin, gör kimi sındırdın sən.

21.09.2006

Başıma öylə giribdir ki, çıxarmaq müşkil,
Kəssələr də başımı eşq başımdan getməz.

29.09.2006

Tək şe'r yox, arabir mən də hədis söyləyirəm,
Sanmıram qeyri hədisdən onu pis söyləyirəm.

1.10.2006

Kövsər dedilər göydədi, amma ki, yox görən,
Zəmzəm dedilər yerdədi, zəvvarlar görür.

3.10.2006

*Tamridaya*

Mən səndən əlimi üzmüşəm daha,
Təzədən dirilən ölü olmayıb.

6.10.2006

Gələcəkdir başını tərk eləyən huş, səbr et,
Dönəcəkir yuvaya bir də uçan quş, səbr et.

15.10.2006

Murada yetməyir bizim arzumuz,
Gözəlim, yaşayaq daha arzusuz.

17.10.2006

İşimə qarışma, mənim hər işim
Saçıntək qarışıb biri-birinə.

24.10.2006

Lap dolsa da yer Rüstəmi-Zallarla sərasər,
Heç kim bacara bilməyəcək çərxi-fələklə.

8.11.2006

Çəkmə eylər giley ayaqlardan,
Dəfin şikayəti əllərdəndir.

10.11.2006

Elə aşağı ki, İlahi, əlim,
Uca dərgahına çata bilməyir.

16.11.2006

Necə də şad eləyibdir o gözəl bəd halımı,
Bir əli zülfümü oxşar, bir əli saqqalımı.

28.11.2006

Qarə fərağın günü bir də qiyam eyləsə,
Şahin üçün zənn elə gəldi qiyamət günü.

29.11.2006

Dilbərləri görcək gecə-gündüz baxıram mən,
Zahid kimi xəlvətcə deyil, düz baxıram mən.

1.12.2006

O qəzəlxan ki, vətən sözlərinə laqeyddir,
Ona layiqli vətəndaş nə təhər söyləməli?

11.12.2006

Loğman dedi: Sağlamdı vücudun sənin, amma
Qəmdən ciyərin gözlərimə parə göründü.

13.12.2006

Məcnun, daha qalma, yığışıb qaç bu şəhərdən,
Divanə sananlar səni zəncirləyəcəklər.

14.01.2007

Mən adam söyləyə bilməm sənə, ey sevdiciyim,
Sən mələksən ki, doğulmuşsan adam şəklində.

20.02.2007

Şərab içdim şərə düşdüm, şərab şərlə dolu suymuş,
Çaxır məni yerə çaxır, nuş etmərəm daha çaxır.

23.02.2007

Dedilər Şahinə: Pərvanəni yandırdın sən,
Dedi: Şəm'əm, o gəlib öz-özünü yandırdı.

1.03.2007

Sevda atəşinə yandır özünü,
Çiy olma, atəşdə bişməyən də var.

3.03.2007

Gözümdən yaş çıxır, ürəyimdən od,

Deməyək odla su yanaşı olmaz.

13.03.2007

Göy niyə yerə düşmür?
Göyün dirəyi hanı?

21.03.2007

Yetmişə qaldı üç il, yetmişə yetsəm bəsdir,
Mənə dünya evi sənsiz, gözəlim, məhbəsdir!

27.03.2007
*Mənim doğum günüm*

Güclü zəif ilə döyüşsə əgər,
Zəif zəifləşər, güclü gücləşər.

4.04.2007

Xəncəri yoxsa da dilbər məni öldürmüşdür,
Elə zənn etmə ki, xəncər məni öldürmüşdür.

9.04.2007

Meyxanəyə getmə, - dedi bir molla, dedim ki,
Məsciddə əgər saqi olarsa, ora gəlləm.

15.04.2007

Mən elə çətinlik içindəyəm ki,
Deməmək də çətin, demək də çətin.

16.04.2007

Susuzun yadından su çıxsın gərək,
Suyu fikirləşsə susuz, öləcək.

14.07.2007

Qönçədən çıxardır bükülmüş gülü

Gülün təmənnası, bülbülün dili.
16.07.2007

Dedim ki, xəstəyəm, gəl qucum səni,
Söylədi: Xəstədə belə güc olmaz!
24.07.2007

Qoy deməsinlər mənə «səmti hanı qiblənin?»,
Yar olan səmti mən qiblə bilən Şahinəm.
9.08.2007

Şahin, ayağımda tikanı qalıb,
Əl çəkən deyiləm mən bu bağçadan.
10.08.2007

Dəli olmuram ki, dəli çoxalar,
Yoxsa ki, mən çoxdan dəli olardım.
11.08.2007

«Gecə qurtardı, - dedi, - get» dedi canan, dedim:
Gecə qurtarsa da eşqim, həvəsim qurtarmır.
15.08.2007

Doludur eşq ilə baş, ey dəli, əl çək məndən,
Daş da vursan başıma eşq başımdan çıxmaz.
17.08.2007

## BAYATILAR, VARSAĞILAR

Gəncəni,
Qoru zər tək Gəncəni.
Adı ilə bərabər
Hifz eləyək Gəncəni.

Gəncə zaval bilməsin,
Qüssə məlal bilməsin,
Gəncənin gözəl adı
Bir də dəyişilməsin.

30.09.2003
*Gəncə*

Su gətir,
Gəncə dolusu gətir.
Nizami təşnəsiyəm,
Yanmadayam, su gətir.

Gözümün suyu yandı,
Can alışdı, su yandı,.
Tərtər, suyun azalıb,
Bu Şahin su sayandı.

31.09.2003
*Gəncə*

Gəncə var,
Gəncə sərvət, Gəncə var.
Gedəcəyəm, ıŞahinə
Gəncəsiz işgəncə var.

Gəncəni,
Tunc eləyib pəncəni

Qovaq Gəncə üstündən
Sən – dumanı, mən – çəni.

Gəncəsiz,
Gəncəvi yox Gəncəsiz.
Gəncə mənəm, Gəncə sən,
Gəncə bizik, Gəncə siz!

1.10.2003
*Gəncə*

Mən şahinəm, Gəncə – dən,
Doymayıram Gəncədən.
Gəncənə qurban olum
Ey Şahini dinc edən.

Yox mənə qəm Gəncədə,
Gəncləşirəm Gəncədə.
Tanrı qoy mənim kimi
Hər qocanı gənc edə!

3.10.2003
*Gəncə*

Görünməz mənim daha
Toyum, düyünüm daha.
Saçım qartək ağardı,
Ağarmaz günüm daha

17.12.2003

Yaşatdı.
Məni sevgi yaşatdı.
Yaşamasın o kəs ki,
Vətənimə daş atdı.

7.05.2005

Yanağın dodaqlandı,
Dodağın dodaqlandı,
Sənə mən nə dedim ki,
Gözlərin bulaqlandı?

9.05.2005

Yadlıq – var olmaz sənə,
E'tibar olmaz sənə.
Qədrini özgə bilməz,
Yaddan yar olmaz sənə.

29.12.2005

Qız qalası… Qaz qala…
Qız qala… Oğuz qala…
Məni sevməyən o qız
Ömrü boyu qız qala!

4.10.2006

Qaradı,
Qışdı, qanım qaradı.
Yayda da üşüyürəm
Yada düşcək qar adı.

29.12.2006

Gülə batdı,
Qədəmi gülə batdı.
Daş atardı yar mənə,
İndisə gülab atdı.

5.01.2007

Yar aşa,
Qəm dağını yar aşa.

Yar sevincə yar ola,
Sevinc yara yaraşa.

6.01.2007

Yar sızlar,
Yar öləndə yar sızlar.
Yarsızlığın dərdini
Yalnız bilər yarsızlar.

16.01.2007

Qan çıxdı
«Ləzgi gəldi, qan çıxdı»[1].
Yar, hardasan, di gəl çıx,
Bir də gördün can çıxdı.

15.03.2007

---

[1] *Zərbülməsəl*

## XATİMƏ

Möhtərəm oxucu! Allah-taalanın mənə iltifatı sayəsində «Üçüncü Divan», daha dəqiq desəm, onun «Xatimə» adlanan son hissəsi də bitmək üzdədir.

Şe’rim dönür divana,
Ölərəm bu olmasa.
Su çevrilməz ümmana
Qətrələr su olmasa.

Bəli, elə indicə divanımın son sözləri üzərində işləyirəm. Əvvəlki divanların dibaçə və xatimələrində siz möhtərəm oxuculara demək istədiyimi artıq demişəm. Sizdən nə gizlədim, bəzən təkrarçılığım da olub. İndisə fikrim söz möhtərəmləri uzun-uzadı fikirlərimlə yormamaq olduğundan «Xatimə»ni tez xətm etmək məqsədində və sadəcə olaraq sizə və Allahıma bir neçə söz demək niyyətindəyəm.

Sevinirəm ki, üçüncü divanım bitir. Elə ömrümün üçüncü fəslini də bitirmişəm, qışdayam.

Gəlmişsə də ömrün qışı yox qorxusu qışdan,
Şahin kimi bir qəlbibahar var cahanda.

Qışdayamsa da, baharıma, yayıma, xəzanıma alqışdayam. Çünki, həyatımın hər mövsümü mənə «yaşa» dedi, vaxtım hədər ötmədi, yazıb-yaratdım, müəyyən uğura çatdım. İndi isə:

Mən qocalıb öylə zəif olmuşam,
Verməyin əl, əllər əlimdən düşür.

Gül gətirirlər yanıma, almıram,

Xoşladığım güllər əlimdən düşür.

Ortaya nərdtaxta gəlir, əllərim
Zər tuta bilmir, zər əlimdən düşür.

Çıxmamışam döyüşə, savaşa. Baxmamışam silaha, yarağa. Bağlanmışam, kitaba, dəftərə. Sıxmışam əlimi qələmə. Dikimşəm gözümü varağa.

Dünyada, dünyanın malında, dövlətində gözüm yoxdur. Əslində həmişə gözü-könlü tox olmuşam. Amma, yığımcıl adamam. Yaşamışam elm, bilik sərvəti yığa-yığa.

At acgözə çatsın, üzəngi mənə,
İlahi, bilirəm ifrat əbəsdir.
Dəryanı şaha ver, səhəngi mənə,
Bir səhəngin suyu Şahinə bəsdir.

Vəzifəpərəst olmamışam. Vəzifəpərəstlik meyi ilə məst olmamışam. Həmişə orta məqamda dayanmışam. Təvazökarlıq olub işim-peşəm. Yuxarı qalxmağa meyllənməmişəm. Hal-hazırda isə:

Yerdəyəm, səmanı quca bilmirəm,
Deyirlər cünunluq məndə aşikar.
Necə şahinəm ki, uça bilmirəm,
Necə dəliyəm ki, hüşyarlığım var?

Məni göy niskili, qübarı çəkir,
Allahım, döy məni, döy yuxarıda.
Məni aşağı yox, yuxarı çəkir,
Yer aşağıdadır, göy yuxarıda.

Yerə ucalıqdan baxmaq istərəm,

Şahinə uçmamaq axı yaramaz.
Günəşin üstünə çıxmaq istərəm,
Qalsın aşağıda günəş də bir az.

Vətəndə də qaldım, qürbətə də düşdüm, vüsalla da, hicranla da görüşdüm, həzz də, iztirab da çəkdim, keyf də, əzab da çəkdim. Yer Kürəsi adlanan böyük vətənimdə tədricən həyatın hər üzünü gördüm. Adamların arasında ara-sıra adam gördüm, Allahım. Amma, Səni müdam gördüm, Allahım:

Çöhrəsi yoxsa qəmin mən qəmi neyçün görürəm?
Var imiş surəti ahın ki, gözüm ahı görür.

Görünüş yoxsa muğamatımın avazında,
Nəzərim bəs niyə «Şahnaz»ı, «Çahargah»ı görür?

Deməsinlər mənə «Allahı görən göz yoxdur»,
Qəlbimin gözləri gündüz-gecə Allahı görür.

Yaşım 70-ə yaxınlaşır. Amma, həyat eşqim çağlayan bulaq kimi hələ də aşıb-daşır. Ömrümün sonunadək əldən düşən qocalar tək qocalmamaq istəyirəm. Cavan olmaq istəyirəm. Aşiqliyimdə qalmaq, qalmaq, qalmaq istəyirəm. Amma, bir sədayi-qaibanə deyir mənə:

Gözlər ki zəif oldu çəmən seyri görünməz,
Ya da qocanın gözlərinə qeyri görünməz.
Şahin, qıçını qatla, otur, qaçma cavantək,
Çünki, qocanın qaçmağının xeyri görünməz.

Ey dünyanı çəkib fırladan, hərəkətə gətirən və dünyadakıları yaşadan İlahi:

Dedilər Şahinə dünya hərəkət etməkdə!
Çəkəni olmasa, əlbəttə ki, dünya getməz!!!

İlahi, çək, çək bu dünyanı, fırlat onu, qoy yaşasın özü üçün, bizim üçün. Dünyadan gözünü çəkmə, amma çək bu dünyadakı bəd əməllərin ipini. Hərçənd «Qur'ani-Kərim»də Sənin verdiyin məsləhətlərə, nəsihətlərə qulaq asmayanlar var, amma təəssüflər ki, başqa yol yoxdur, insanlar sülh etməlidirlər və Sənin buyurduğun yolla getməlidirlər:

Əlbəttə ki, dünya evi bərbad olacaqdır
Sülh olmasa Allah ilə dünya arasında.

Yoxsa,

Misra: Bir gün görəcəklər ki, bu dünya göyə uçdu.

Xülasə, «Xatimə» bitməkdədir. «Üçüncü Divan» kitabında minacat, nə't, xəzaniyyə, qəsidələr, mərsiyələr, qəzəllər, müxtəlif vəznli şe'rlər, qit'ələr, təzminlər, təxmislər, sürudlar, mürəbbe'lər, müsəbbe', müstəzad, haykular, təbriknamələr, təəssüfnamələr, səfərnamələr, rübailər, dörlüklər, səkkizliklər, təkbeytlər, bayatılardan ibarət şe'rlərim vardır və həsrətli gözlərim onların çapına intizardır. Bu divana əlavə kimi Ölüm poeması, yaxud «Qardaş, ölüm nəmənədi?» və «Dünyanın dağılması, yaxud Yaxşı oldu dağıldı» adlı poemalarımı da möhtərəm oxucularıma təqdim etmişəm və zənn edirəm ki, qarşıma qoyduğum məqsədimə yetmişəm:

Ey varlığı var edən İlahi,
Ey yoxluğu xar edən İlahi,
Şadəm ki, yeri, göyü yaratdın,
Şadəm ki, məni həyatə atdın.

Şadəm ki, cocuqluğum yetişdi,
Şadəm ki, cavanlığım da keçdi.
Şadəm ki, o dövrdən uzağəm,
Şadəm ki, ahıl çağımda sağəm.
Şadəm hələ ömrümə davam var,
Şadəm ki, ömür yolumda davamdar.
Şadəm iki divanı bitirdim,
Həm tazəsini başa yetirdim.
Şadəm ki, üçüncü qismət oldu,
Şadəm ki, bəyanə fürsət oldu.
Əlbəttə, müəllifi özünsən,
Sən söyləmisən, köçürmüşəm mən.
Şadəm qəbul eyləsən duamı,
Sənsən mənə yazdıran kəlamı.
Sənsən mənə yazdıran minacat,
Sənsən əlimə qələm verən zat.
Sənsən mənə bəxş edən bu tabı,
Sənsən mənə yazdıran kitabı.

Qiymətli oxucular, qocanın dili uzun, əli gödək olar. Diliuzun olmaq, sizi yormaq istəmirəm. Buna görə də «Üçüncü Divan»ın xatiməsini aşağıdakı qit'əmlə xitama yetirmək, zənn edirəm ki, kifayət edər. Gəlmişik – gedəcəyik. Gedəcəyik – gələcəklər.

Dünya yaranandan bəri get-gəldədi hər şey,
Bir gün də görərlər ki, onun gərdişi getdi.

Fir'onlarının ömrü tamam oldu, tükəndi,
Sultanı, xanı, rövzəxanı, dərvişi getdi.

Hicr ilə vüsalın üçü getdi, beşi qaldı,
Vəsl ilə fərağın üçü gəldi, beşi getdi.

Şair, elə ömr eylə ki, öldükdə desinlər:
Dünyayə bu şair kişi gəldi, kişi getdi!

Əlhəmdü lillahi Rəbbül-aləmin!!!

13 yanvar, 2008

## ÖLÜM POEMASI,
## YAXUD «QARDAŞ ÖLÜM NƏMƏNƏDİ?»

*«Qardaş, ölüm nəmənədi?»*
*Akif Səməd*

*«Bizə gələndə görmüşəm,*
*Üzə güləndə görmüşəm,*
*Atam öləndə görmüşəm,*
*Qardaş, ölüm nəmənədi?»*
*Ələmdar Cabbarlı*

Mən qardaşımdan balacayam. Qardaşım məndən böyükdü. Böyük olmaq böyük yükdü. Böyük – balacanın dərdini çəkir. Balaca isə yetimdi. Elə böyük qardaş da yetimdi. Bu boyda dünyada tək qalmışıq. Dirilərimiz öldülər. Vallah, özüm eşitmişəm, Molla Yəhyabala deyirdi ki, adam bu dünyada ölür, o biri dünyada dirilir. Və diriləndən sonra Allah-təalanın əmriylə kimi cəhənnəmə, kimisə cənnətə gedir. Qardaş, görəsən Molla Yəhyabala düz deyirdi? Görəsən Molla Yəhyabalanın özü dirildi? Dirilibsə, hara gedib? Yəqin ki, cənnətə. Babam demişkən, Allah adamıydı, yəni ömrü boyu Allah babaya dua oxuyub Molla Yəhyabala.

Bis bizim ölülərimiz dirildilərmi? Allah babanın yanında oldularmı? Cənnətə getdilərmi? O cəhənnəmlik əmim də cənnətə getdimi? Cənnət varmı, cəhənnəm varmı? Cənnət varsa, haradadır? Hansı torpağın üstündədir? Göydə torpaq varmı?

Qardaş, sənə nə deyim, özün yaxşı bilirsən, nağıllar belə başlar: «Biri vardı, biri yoxdu…». Vaxt vardı ki, babam vardı, atam vardı, anam vardı, bacım vardı. Ölüm gəldi, hamısını apardı. Dirilərimiz öldülər. Sappasağ dirilər ölü oldular. Göydə diri çoxaldı, amma yerdə ölü çoxaldı, diri azaldı.

*Biri vardı, biri yoxdu…*
*Qardaş, ölüm nəmənədi?*
*Ölü çoxdu, diri çoxdu?*
*Qardaş, ölüm nəmənədi?*

Göydə Allah baba, yerdə biz. Göydə Allah baba – tək, yerdə biz – ikimiz. Qardaş, tək çoxdur, yoxsa iki? Tək hər şey bacarır, iki isə heç nə bacarmır, bizim kimi.

Allah baba hamıya pay verir, özü də havayı. Qardaş, havayı heç nə vermirlər, illah ki, bu zamanada. Allah baba ölümü də havayı paylayır.

Ölüm… Özü də havayı. Vallah, mən havayı heç nə istəmirəm, illah ki, ölümü.

*Allah babadan savayı*
*Var hamının ölüm payı.*
*O pay paylanır havayı,*
*Qardaş, ölüm nəmənədi?*

Bayaq qonşu uşaq öldu. Cavidi deyirəm. Deyirlər ki, «cavid» ərəb sözüdür, gəlib biz azərbaycanlılara qismət olub. «Cavid» ölməz deməkdir. Ölməz – öldü. Ölməzə də gəldi ölüm payı. Payını götürüb getdi. Sağdı, öldü. Sağdı, vardı. Ölüm gəlib apardı. Ölüm ölməzi apardı. Ölüm ölməzi apardı haqq yerə, haqlı yerə. Babam deyərdi ki, ölüm haqdı. İndi, ölməz haqq yerdədi. Qardaş, indi onun yeri haqdımı? Məgər onun yerdə qalması nahaqdımı? Ölməz – öldü. Onun ölümü haqq idimi? Bu dünyada o, nahaq idimi?

*İndi ölən bayaq sağdı…*
*Deyirlər ki, ölüm haqdı,*
*Ölüm haqsa, nə nahaqdı?*
*Qardaş, ölüm nəmənədi?*

Səhər gəlir, axşam gəlir, gündüz gəlir, gecə gəlir… Ölüm necə gəlir? Qardaş, babam deyərdi ki, Əzrayıl adlı bir mələk var, o gətirir ölümü. Özü də adambaşı, inəkbaşı… inəyimizi də öldürdü, qardaş… Ağlamağım gəlir, ay qardaş. İnəyimizi də öldürmədimi? Əzrayıl ölümü aşıq kimi doldurur ciblərinə, gətirir göydən yerə, sonrasa verir adama, inəyə. Əzrayıl həm verir, həm alır. Əzrayıl ölüm verir, can alır. Səhər alır, axşam alır, gündüz alır, gecə alır. Fərqi yoxdur haçan alır. Ölüm verir, can alır.

*Ölüm adambaşı gəlir,*
*Gözlərimin yaşı gəlir…*
*Əzrayılın xoşu gəlir,*
*Qardaş, ölüm nəmənədi?*

Yadıma tez-tez ölülərimiz düşür. Ölülərimizin hamısı düşür yadıma, hətta əmim də. Əmimi bir dəfə yuxuda da gördüm. Öləndən sonra gördüm, amma sağ vaxtı heç görmək istəmirdim onu. Bir dəfə atamı döymüşdü. Sənin yadındamı? Atam da onu döymək istədi. Amma, əlini qaldırsa da, vurmadı. Əmim atamdan böyükdü. Kiçik böyüyün hörmətini saxladı. Amma, əmim atamın yasını saxlamadı. Heç üç-dörd gün keçməmiş qırxdı saqqalını. Qırxmasaydı da olardı. Kosasaqqaldı.

Ölüm gələndən sonra atamı yuyub, üzünü qibləyə sarı qoymuşdular. Bir şivən vardı ki. Hamımız ağlayırdıq, əmimdən savayı. Bibim saçını yoldu, üzünü cırdı. Bir ağlaşma vardı ki…

*Üzünü yusun mürdəşir,*
*Adından ətim ürpəşir,*
*Gəlib salır haray-həşir,*
*Qardaş, ölüm nəmənədi?*

Qonşumuzdakı Qulu dayı yadındamı? Qulu dayı. Qulu. Kimin qulu? Adının mə’nasını elə özü bir dəfə tarix müəllimimizdən soruşdu. Cavab verdi ki, sənin adın quldarlıq dövründən qalma addır. Qardaş, biz azərbaycanlılar quldarlıq dövründə də vardıq, hələ ondan əvvəl də. Biz azərbaycanlılar çox qədim xalqıq. Biz Cavanşirlər, Babəklər, Koroğlular, Nəbilər nəsliyik. Cavan-qoca şirlərimiz o qədərdir ki. Nə olsun ki, hələlik erməniyə uduzmuşuq. Udarıq inşallah. Bizim qabağımızda erməni nəmənədir, qardaş. Nə olsun ki, urusunköməyilə Qarabağı aldılar. Məgər ağ günə çıxdılar, qardaş? Acından ölürlər. Bizsə, onlara baxanda, çox yaxşı yaşayırıq, qardaş. Göydələn-göydələn evlər tikilir, qardaş. Az qalıb, göyü gəlib qurtarandan sonra tezliklə ermənilərin ürəklərini dələrik, inşallah!

Hə-ə-ə, adı quldarlıqdan qalan Qulu dayı elə tez öldü ki. Atamla dost idi. Dostundan sonra yaşamadı. Məsciddə işləyirdi. Atamı o yumuşdu. Yuya-yuya demişdi ki, məni qoyub hara getdin? Atam elə bil ki, eşitdi Qulu dayının sualını. Bir gün sonra keçindi. Qulu dayının arvadı anama dedi ki, ərimi sənin kişin apardı. Yazıq atam, yazıq Qulu dayı. Qulu dayıya min rəhmət düşür, yaxşı adamdı.

Qardaş, amma İflic Qardaşağa gec öldü. Ölmək istəyirdi, ölə bilmirdi. Deyirdi ki, məni Sədr Musmus Mustafa bu günə saldı. Sədr ona nə demişdisə, iflic oldu kişi. Görəsən Sədr Mustafa kimi pis adamlar yenə var? Hamı söyləyirdi ki, tez öləcək Qardaşağa. Amma sappasağ atam da öldü, Qulu dayı da öldü. İflic Qardaşağa çox yaşadı. Ölümü gəlmirdi ki, gəlmirdi. Əzrayıl çağırışa baxmır ha. Könüldən ölüm istəyən kişi təkcə İflici gördüm, amma onun səsini o dünyada gec eşitdilər. Lap canbəsər olmuşdu, ölmürdü ki, ölmürdü.

*Bəzən gəlir sür’ət ilə,*

*Bəzən qalır ildən-ilə.*
*Heç bilmirəm neçin belə?*
*Qardaş, ölüm nəmənədi?*

Atamın dostu vardı ha, Alı. Onlara qonaq getmişdik. Əcəb yerdi Xocalı. Elə bizim Ağdam da gözəldi. Dünyada Azərbaycandan gözəl yer yoxdu. Xocalını bir dəfə gördüm, amma ölsəm də yadımdan çıxmaz. Balaca yerdisə də, hamı tanıyırdı biri-birini. Ölüm ora gələndə biz çıxıb getmişdik. Bakıya gəlmişdik. Sonra Sumqayıtda yer verdilər bizə. Bir mahnı var ha, qardaş: «Canlanır hər qarış yer Sumqayıtda». Düzdür, gül-çiçəyi var, amma hər qarışında yox. Şairlər niyə yalan yazırlar, qardaş? Yaltaqlardan heç xoşum gəlmir, illah ki, yaltaq şairlərdən.

Hə-ə-ə, Xocalıdakıların, o yerlərdə qalanların çoxu öldü. Bizsə ölmədik, çünki o yerlərdə qalmamışdıq. Qalanlar şəhid oldular. Qardaş, şəhid nədir? Bir şair var, adı Şahin Fazil. Deyir ki, «şəhid» sözü «igid» sözüylə həmqafiyədi. Həmqafiyə nəmənədi, qardaş?

«Vahid evi» var ha, bağın içində. Həkim Qəni var ha, «Vahid evi»nin içində. Arabir mən də gedirəm ora. Həkim Qəni hər bazar günü orada şe’r məclisi qurur. «Tərəşşöh» sözünün mənasını ondan eşitdim. Sən bilirsən «tərəşşöh» nədir? «Tərəşşöh», yəni istəkanın təri. Deyirlər ki, ərəb sözüdü. Yəqin ki, ərəblər bu sözü biz azərbaycanlılardan oğurlayıblar. «Tər» - tərdi, bəs «əşşöh» nəmənədi, qardaş? Mə’nasını gedib Vasim Məmmədəliyevdən soruşacağam. Televiziyada «Haqqın dərgahı» verilişini aparır ha. Ondan soruşacağam. Bəlkə, «əşşöh»ün də mə’nasını bildi. O bilməsə, heç kim bilməz ki «əşşöh» nədi?

Bazar günləri Həkim Qəninin yanına o qədər arvad gəlir ki, qardaş. Kişidən çox arvad gəlir. Özü də hər bazar günü. Yazıq evdəki kişilər. Buraxırlar arvadlarını, onlar da biş-

düşlərini ərlərinin üstünə qoyub gedirlər Həkim Qəninin yanına. Rəhmətlik anam şe'r yazsaydı belə, atam qoymazdı onu Həkim Qəninin yanına. Həkim Qəni arvadlara şe'r oxutdurur.

Bir gün mən Saraylı meyxanası Həsənağaya qoşulub getmişdim həmin şe'r məclisinə. Şahin Fazil bir şe'r oxudu. Şe'rdə tez-tez soruşurdu ki, görəsən Əzrayıl necə nəfərdi? Çox yerini anlamasam da, şe'rdən xoşum gəldi. Amma Hacı Rafiq Şirvani adlı bir jurnalist dedi ki, bu şe'rdə küfr var. Küfr nəmənədi, qardaş? Gərək Həkim Qənidən soruşum. «Tərəşşöh» sözünü nə gözəl açdı: «Tərəşşöh», yəni istəkanın təri. Kim nə deyir-desin, tərtəmiz Azərbaycan sözüdür «tərəşşöh».

Qayıdıram bayaqkı sözümə. Şahin Fazil şe'r oxudu və mən də üzümə salıb şe'rini ondan istədim. Verdi. Qardaş, oxuyum sənə? Şe'rin adı da qəribədi: «Cavabsız sual». Doğrudanmı onun sualına cavab yoxdur. Görəsən onun şe'rinin adında küfr yoxdur ki, qardaş? Şe'rin çox yerini mən bilmədim, bəlkə sən biləsən, qardaş? Doğrudanmı onun sualına cavab yoxdur? Molla Yəhyabala sağ olsaydı, soruşardım. Qardaş, qulaq tut, oxuyuram:

*Cavabsız sual*

*Görəsən Əzrayıl*
*neçə nəfərdi?*
*O Əcəl Mələyi neçə nəfərdi?*
*Əgər*
*bir nəfərsə,*
*bəs minlərlə adamı*
*bir anda*
*necə yerə sərdi?*
*Görəsən*
*Əzrayıl bir saniyədə*

*neçə milyon kilometr yol gedir?*
*O Əcəl Mələyinin əliylə*
*baş biçilir,*
*əl üzülür,*
*qol gedir.*
*Bir anda*
*çox-çox adamın*
*birini boğdu,*
*birini kəsdi,*
*birini üzdü,*
*birini əzdi,*
*birini*
*onlarla adamla*
*bir sıraya düzdü,*
*güllələdi,*
*minini kül elədi,*
*yüzünü*
*fəna silləsiylə*
*şillələdi.*
*Hamısı da bir anda*
*Özü də çox tərəfdə,*
*çox yanda…*
*Görəsən Əzrayılın*
*neçə əli var ki?*
*Naqasaki,*
*Osventsim,*
*Xatın,*
*Xocalı…*
*Əzrayılın*
*əli uzalı, uzalı, uzalı…*
*Hicrana çevirir vüsalı…*
*Hey təkrarlanır dönə-dönə*
*Şahinin sualı:*

*Gəlişi*
*minlərin gedişi.*
*Necə icra edir bu qədər işi?*

Görəsən Əzrayıl
neçə nəfərdi?

Qardaş, bəlkə də düz deyir Şahin Fazil. Görəsən Əzrayıl neçə nəfərdi? Bir nəfərdi? Bəs bir nəfər necə alır min nəfərin canını, özü də bir anda? Sən-mən bilən şey deyil. Molla Yəhyabala ölməsəydi, soruşardım.

*Deməmişdi «gəlim», gəldi.*
*Bir anda min ölüm gəldi.*
*Xocalıya zülüm gəldi…*
*Qardaş, ölüm nəmənədi?*

Anam deyərdi ki, maşallah, atanın canı buz baltasıdı. Buz baltası nəmənədi, qardaş? Balta hara, can hara, qardaş? Bir dəfə baltamız sınmışdı. Balta almağa atamın pulu yoxdu. Atama dedim ki, baltanı neynirsən, maşallah, özün elə buz baltasısan. Atam da güldü, anam da. Sən də güldün, qardaş. Eh, bir gün anam da, bacım da, sən də, mən də ağladıq. Ölüm gəlib bizim buz baltamızı sındırmışdı… atadan sonra baba da öldü. Elə-beləcə, yatdığı yerdə. Xəstələnib-eləmədi. Elə o da buz baltasıydı. Amma, buz kimi soyuq bir gündə öldü. Axşam yatdı, səhər durmadı. Ölüm canını aldı-apardı. Molla Yəhyabala dedi «xoşbəxt ölümdü». Ölümün də xoşbəxti olur, qardaş?

*Ata salamatdı, öldü,*
*Ölüm gəldi-çatdı, öldü…*
*Babamızsa yatdı öldü,*
*Qardaş, ölüm nəmənədi?*

İnanırsan inan, inanmırsan inanma, qardaş. Mən ölümü gördüm. Ölüm ilandı. Sürünə-sürünə gəldi, anamı çaldı.

Yadındamı inəyimiz, qardaş? Ağ inək! Biz onu otarardıq. İnəyimizin əmcəyinə süd dolardı. Anam qatıq çalardı. Bacım satardı qatığı. İnək bizi yaşadardı. Tərslikdən inək də öldü. Ölüm inəyi də apardı. Deyirlə ki, indi ölü heyvanlardan kalbasa qayırırlar. Biz onu sürüyə-sürüyə aparıb basdırdıq. Əzrayıl inəyi qəfil apardı. Kəsə bilmədik ki, ətini sataq.

Anam qatıq çalardı ağappaq. İnəyimizin rəngi ağ olduğu üçün südü də ağ olardı. Ağappaq olardı Ağ inəyin südü. Qardaş, rəngin südə dəxli var?

Anam qatıq çalardı. Qatıq çalanı ilan çaldı. Yazıq anam. Yazıq Ağ inək. Qaragün anam. Saçları çaldığı qatığın rəngindən ağdı.

Anamı çalan ilanı tapıb öldürdüm. Lap yaxşı elədim. Qisas aldım. Qisas yerdə qalmaz. Öldürməsəydi ölməzdi.

Sonra ölüm yenə gəldi. Amma, ölüm bu dəfə ilan deyildi. Əqrəb də deyildi. Nəydisə bilmədim. Gəldi, aldı, apardı. Ölüm apardı bacımızı da, qardaş.

*Ölümü ilanda gördüm,*
*Anamı çalanda gördüm,*
*Bacımı alanda gördüm,*
*Qardaş, ölüm nəmənədi?*

Ölüm gəldi, atam getdi, əmim getdi, babam getdi, anam getdi, Molla Yəhyabala getdi, Qulu dayı getdi, İflic Qardaşağa getdi, Sədr Musmus getdi, Xocalılı Alı getdi, Xocalıdakılar getdilər, igidlər şəhid oldular. Bayaq dediyim həmqafiyə sözlər yadında qaldımı, qardaş? Şəhid – İgid. Şəhidlər getdilər. İgidlər getdilər. Ölüm bizi yetim qoydu, qardaş.

*Yaman aldı üstümüzü,*
*Gəldi, aldı, soydu bizi,*
*Ölüm yetim qoydu bizi,*
*Qardaş, ölüm nəmənədi?*

Biz də öləcəyik, qardaş. Öləcəyik! Yaşı yüzü ötənlər kimi, qurdla qiyamətə qalmayacağıq ki… Bu nə sözdü, qardaş: Qurdla qiyamət! Qurd qiyamətə qalacaq, qardaş? Qiyamət nəmənədi, qardaş?

Heç ürəyini sıxma. Biz hələm-hələm ölməyəcəyik. İkimiz də. Qurdla qiyamətə də qalmayacağıq. Yuxuda görmüşəm. Gördüm ki, qocalmışıq. Əllərimizdə əsa var. Əsanın başı – ilan başı. İşdi-şayəd, əsa əgər ilana dönməsə, ölməyəcəyik, qardaş. İlan pisdi. İlan çalandı. Anamızı çaldı. Əgər bir də o yuxunu görsəm, əsanın başındakı ilanın başını sındıracağam.

Vaxt gələr, əcəl gələr, biz də ölərik. Gedib görərik qohumlarımızı. Gedib öpərəm anamın ilan çalan ayağını. Qardaş, o dünyada öpüşmək var? Olmamış olmaz. Gedib örəcəyəm anamızın ilan çalan ayağını. Molla Yəhyabala sağ olsaydı, soruşardım.

Babam deyərdi ki, bu dünya fani dünyadı, hamı öləcək.

*Amma, yuxu görmüşəm ki,*
*Hələ ölüm nə sənədi,*
*Hələ ölüm nə mənədi.*
*Qardaş, ölüm nəmənədi?*

Yaman qırılır adamlar. Babam demişkən, «kimi zəlzələdən, kimi vəlvələdən». Sunami də bu yandan. O yerin adı nəmənədi, qardaş? İndoneziya? Hə-ə-ə, orada su ölümə döndü, neçə canı aldı-apardı. Ölüm öldürür, qardaş. Görəsən ölüm öləcəkmi?

*Bu qədər ki, öləni var*
*Dünya ölülərlə dolar…*
*Ölümü öldürmək olar?*
*Qardaş, ölüm nəmənədi?*
*Qardaş, ölüm nəmənədi?*

27.05.2006

## «ÜÇÜNCÜ DİVAN»A ƏLAVƏ

### *DÜNYANIN DAĞILMASI, YAXUD YAXŞI OLDU DAĞILDI (POEMA)*

*Yer Kürəsi dağılandan sonra onun cənnət və cəhənnəmdəki sabiq sakinlərinin dilindən*

Bu gecə uzun bir gecə oldu. Bu gecə uzun bir yuxu gördüm. Bu uzun gecənin uzun-uzun söhbətləri başlandı. Danışanlar çoxdu. Allah danışdı, peyğəmbər salavatullah danışdı, İmadəddin Nəsimi danışdı, Şah İsmayıl Xətai danışdı, Məhəmməd Füzuli danışdı, Kopernik danışdı, Bruno danışdı, Qaliley danışdı, Volter danışdı, Kant danışdı, Hegel danışdı, Didro danışdı, Abbasqulu ağa Bakıxanov danışdı, Mirzə Fətəli Axundov danışdı, Seyid Əzim Şirvani danışdı, Həsən bəy Zərdabi danışdı, Mirzə Ələkbər Sabir danışdı, Məhəmməd Hadi danışdı, Cəlil Məmmədquluzadə danışdı, Üzeyir bəy Hacıbəyli danışdı… və Molla Yəhyabala Qübbəli danışdı. Elə bu günahkar bəndə də qədim ərəb, fars və türk tarixçilərinin təbiri ilə desək Şahin Fazil ibn Fazil ibn Babay ibn Fərzəli də danışdı. Mən öz fikrimi, təbii ki, sonda bildirəcəyəm. Əvvəl Allahındır. Amma, çox-çox bundan əvvəl yazdığım bir minacatımda Allah-taalaya üzümü tutub o zati-şərifin sərhədsiz bacarıq və imkanı barədə belə demişəm:

Əfv et məni, qafil olmuşam mən,
İllər boyu cahil olmuşam mən.
Qalmaq diləməm xəta yolunda,
Olsun bu canım fəda – yolunda!

Heyf, indi bilir bu bəxtiqarə
Dünyanı Sən etmisən idarə.
Sənsən bizə bəxş edən həyatı,
Sənsən həyata verən büsatı.
Bir yanda səadətin əyandır,
Bir yanda müsibətin bəyandır.
Bir bəndəni bəndə salmağın var,
Bir bəndəyə həzzi etdin iqrar.
Bir bəndəni bəxtiyar edirsən,
Bir başqasını bezar edirsən.
Bir bəndənə iztirab verirsən,
Bir başqasına gülab verirsən.
Hər fərdə cəza verən də Sənsən,
Hər dərdə dəva edən də Sənsən.
İdrak da verən, kamal da Sənsən,
Hicran da verən, vüsal da Sənsən.
Sən – Xaliqimiz, qərar Sənindir,
Biz bəndənik, ixtiyar Sənindir.
Tanrım, baxıb hər yanı görürsən,
İnsandakı şeytanı görürsən,
Şeytandakı nöqsanı görürsən,
Nöqsandakı tüğyanı görürsən,
Tüğyandakı meydanı görürsən,
Meydandakı cövlanı görürsən,
Cövlandakı imkanı görürsən,
İmkandakı hər anı görürsən,
Hər andakı imkanı görürsən.
…Sənsən Yaradan ki, mən əyanəm,
Allah, Sənə göz dikən cavanəm.
Əfv eylə ki, bədbinəm, zaram mən,
Səhv eyləmişəm, günahkaram mən.
Əfv eyləməsən müdam qəmim var,
Əfv eyləməsən cəhənnəmim var.

Hərçənd babam namaz qılardı,
Pak isminə e’tiqadı vardı.
Yaddır mənə dəstəmaz, əfsus,
Mən qılmamışam namaz, əfsus,
Mən tutmamışam oruc, əfsus,
Ömrüm belə oldu puç, əfsus.
Bais buna mənmi, ya zamanmı?
Bais buna düşdüyüm məkanmı?
Bais buna mətləbimmi olmuş?
Bais buna məktəbimmi olmuş?
Bais buna aldığım ədəbmi?
Var çox səbəbi desəm, səbəbmi?

…Sən Allahsan, kərimsən,
Allah, bağışla məni.
«…ər-rəhmani rəhim»sən,
La ilahə illəllah,
Allah, bağışla məni.

Vəhmin qılınc tək kəsir,
Əlim, ayağım əsir,
Qüsurum az olsa da,
Dilim, dodağım əsir,
Allah, bağışla məni.

Ötməyib ömrüm hədər,
Savabım ulduz qədər.
Günahlarım da olub,
Üzr günahdan betər,
Allah, bağışla məni.

Özümü öymüşəm də,
Özümü döymüşəm də,

Bəzən söyüşçülər tək
Kimisə söymüşəm də,
Allah, bağışla məni.

Bəzən əfvə başladım,
Hicranı bağışladım,
Çox cahili, alçağı,
Nadanı bağışladım,
Allah, bağışla məni.

Ən pis günü də gördüm,
Kipriklə od götürdüm,
Ağ bəxtim qara oldu,
Qarabağı itirdim,
Allah, bağışla məni.

Yaşım son həddə çatır,
Ömür o səddə çatır,
Ata minə bilmirəm,
Düşmənlər at oynadır,
Allah, bağışla məni.

Gəldi kədər, cumdu qəm,
Gözlərimi tutdu nəm.
Özüm öz günahımı
Bağışlaya bilmirəm,
Allah, bağışla məni.
Allah, bağışla məni.

Bəli, ey Xudavəndi-dünya və dünyalar, günəşlər və aylar, səyyarələr və ulduzlar, ey Qibleyi-aləm, mən Sənə müxtəsər söylədiyim bu uzun minacatımı yazdığım vaxtdan çox sular

axıb, çox tufanlar qopubdur, lakin Sənin köməyinlə Qarabağı düşmənlərdən geri aldıq, hətta Göyçə-Zəngəzurumuzu da.

Bunlar çoxdan, lap çoxdan baş verib. Sən öz yaratdığın dünyanı dağıtmısan. Sən dünyanı bizim qəbahətli əməllərimiz üzündən dağıtmısan. Sən Yer boyda nəhəng bir kütləni bapbalaca şar kimi partlatmısan. Əcəb eləmisən, ya İlahi. Çox əcəb eləmisən, ya Haqq.

İndi Səni dinləyirəm, ya Rəbb. Səni eşidirəm, ya Xudavənd. Sənə qulaq asıram, ya Pərvərdigar!!! Səndən əvvəl heç nə yoxdu. Səndən əvvəl Sən vardın. Sən dünyanı yaratdın və dağıtdın. Hamı Sənin – Xudavəndi – aləmin Yer Kürəsinə cəzasını təqdir edərək deyirdi: Yaxşı oldu dağıldı! Yaxşı oldu dağıldı!

***SÖZ ALLAHINDIR:***

*«Bizlər nəçiyik, Aşiq özün, Yar özünsən,*
*Hər ne'məti yoxdan eləyən var özünsən.*

*İllətli edən hər şeyi, əlbəttə, səbəbdir,*
*Hər illətə, ey Tanrı, səbəbkar özünsən.*

*Canlandı yox ikən canı, torpaq idi Adəm,*
*Kamil yaradıbsan bizi, Pərgar özünsən.*

*Hər fərdi özün xəlq eləyibsən, ulu Tanrı,*
*Hər fərdə şərafət bu ki, sərdar özünsən.*

*Şəkk eyləsə hər kim Sənə insan deyil əlbət,*
*Əlbəttə ki, insanlara me'yar özünsən.*

*Məzlumların əlləri hər dəm Sənə doğru,*
*Qəddarı edən dərdə giriftar özünsən.*

*Səbr ilə əlac olmalı hər dərdinə fərdin,*
*Səbr etməyi vəhy ilə edən car özünsən.*

*Hərçənd könül mülkünü Şahin bəzəyibdir,*
*Hər mülkə yəqindir bu ki, me'mar özünsən!»*

*Şahin Fazil. Divan,*
*Bakı, 1996, s.10-11*

Ey insan, sən hələ az şey bilirdin. Sən mənim nazil etdiyim müqəddəs Qur'ani-Kərimin hər sözünü, hər cümləsini, hər surəsini, hər ayəsini yüksək səviyyədə mənimsəməmişdin. Sənin bu səhlənkarlığın sənin iflasının əsas səbəbi oldu. Mən o müqəddəs kitabın «Təkbir» surəsində aşkar bildirmişdim: «Günəş söndüyü zaman və ulduzlar tökülən zaman və dəvələr özbaşına buraxılan zaman və vəhşi heyvanlar toplanılan zaman və dənizlər od tutan zaman və ruhlar bədənlərə yaxınlaşan zaman və göy öz yerindən qopan zaman və cəhənnəm alışıb-yanan zaman və cənnəti yaxınlaşdırdıqları zaman hər kəs qabaqcadan özünə nə hazırladığını bilər…Göy yarılan zaman və ulduzlar doğulan zaman və dənizlər bir-birinə qoşulan zaman və qəbirlər alt-üst olan zaman hər kəs bilər ki, öncədən nə yollamış və nə buraxmışdır…Şübhəsiz, yaxşı əməl sahibləri ne'mətdə olarlar. Və fisqü fücur əhli cəhənnəmdədir. Sən hesab gününün nə olduğunu haradan biləcəksən?.. Elə bir gündür ki, heç kəs başqası üçün heç bir iş görə bilməz və o gün buyruq Allah buyruğudur».

Bilin, siz insanlara,
Qədirsiz insanlara
Olum nahaqdı – gəldi,
Ölüm uzaqdı – gəldi.
Yerin
tədbir gözləyən

Gözlərinin yaşları
Çaydı, bulaqdı – gəldi,
Qəlbinin odu isə
Cismini yaxdı – gəldi,
Yerin də vaxtı gəldi,
Yaxşı oldu dağıldı.

Yə'ni mən bircə anda elə zəlzələ dalğaları yaratdım ki, Yer dağıldı. Necə ki, «Zəlzələ» surəsində demişdim: «Onda ki, Yer ən şiddətli zəlzələləri ilə tərpənər və öz ağır yüklərini bayıra atar və insan deyər: «Yerə nə olub?». Ey insan, o gün Yer öz xəbərlərini söylər o şeydən ki, Pərvərdigarın ona vəhy etmişdir. O gün insanlar pərakəndə halda qəbirlərdən çıxarlar…Onda hər kim zərrəcə yaxşılıq etmiş olsa onu görər. Və hər kim zərrəcə pislik etmiş olsa onu görər».

Özüm yaratdığım Yer
Yaxşı oldu dağıldı.
Fəzaya atdığım Yer
Yaxşı oldu dağıldı.

Çox şeyi hədər etdi,
Özünə zərər etdi,
Yaxşılığı əritdi,
Yaman əməllər etdi,
Yaxşı oldu dağıldı.

Mən Xudavəndi-aləm,
Mən ki, Pərvərdigardım.
Bədlik müqabilində
Onun bağrını yardım,
Yaxşı oldu dağıldı.

Mən «Təlaq» surəsinin on ikinci ayəsində buyurmuşam, ey insan: «Allahdır ki, yeddi göyü və onlara tay yeri yaratdı. Onu hökmü göylərlə yer arasında rəvandır». Bəli, mən hökmümü yerə və yerdəkilərə göstərdim:

O böyük Yer Kürəsi
Günəş sistemindəki
Bütün səyyarələrin
Naxşı oldu,
dağıtdım,
Yaxşı oldu dağıtdım,
Yaxşı oldu dağıldı.

Mən yaxşı cəzalandırdım Yeri. Yer getdi yerdəkilərin badi-fənasına. İnsanlar məgər bilmirdilər ki, göylərdə və yerdə nə varsa Allahındır.

Bişərəf qoy bunu bilsin, şərəf-Allahındar,
Əzrayıl hökm eşidəndir, hədəf-Allahındır.
«Bu mənimdir, o sənindir» deyilir hər yerdə,
Bilməyirlərmi məgər hər tərəf Allahındır?

Bilməyirlərmi məgər ki, Allah istədiyi kimsəni bağışlar, istədiyi hər kimsəni əzaba düçar edər?

Marsa vermədim həyat,
Venera həyatsızdır,
Merkuri də eləcə.
Yerdə isə qədrimi
Anlamadılar necə!..
Yaxşı oldu dağıldı.

Mən Qur'ani-Kərimin bir surəsində (Hədid, ayələr 1-3) axı insanlara xatırlatmışdım: «Yerdə və göylərdə olan hər bir şey Allaha ibadət etdi. O, əziz və hikmətlidir, yerin və göylərin hakimiyyəti onundur, diriləldər və öldürər və o, hər bir şeyə qadirdir, o, əvvəl və axirdir, zahirdi və batindir və hər şeydən agahdır» (Mən günahkar bəndə, söhbətin bu yerində qəlbimin səsini eşitdim. Səsim deyirdi: «Görəsən cənab Allah-taala Qur'ani-Kərimdə və indiki sözlərində niyə həmişə «Yer»i tək, «Göy»ü cəm halda söyləyir? Məgər kainatda yerlərin sayı sonsuz deyilmi? Günahkar qəlbimə şəkk girdi. Allah şeytana lə'nət eləsin. Ya Xudavəndi-aləm, özün bilən yaxşıdır. Allah hər şeyi bilən və yaradandır»).

Cənab Yaradan bu an mənim dalğınlığımı görüb buyurdu: «Fikrin və qulağın məndə olsun ey Şahin Fazil ibn Fazil, ibn Babay ibn Fərzəli!».

Sonsuzdur imkanlarım,
Hər vədə yaradıram,
Dəvə də yaradıram,
Güvə də yaradıram,
Atom da yaradıram,
Nüvə də yaradıram…
Yaxşı oldu dağıtdım,
Yaxşı oldu dağıldı!!!

***Söz Məhəmməd (s) peyğəmbərindir:***

*«Ey müslimə şan olan Məhəmməd,*
*Ey hökmü rəvan olan Məhəmməd,*
*Ey əqli əyan olan Məhəmməd,*
*Ey fəzli bəyan olan Məhəmməd*
*Ey qəlbə şəfa olan Məhəmməd,*
*Ey dərdə dəva olan Məhəmməd!*

*Qur'an ki, bir kitabdı nədir,*
*Qur'an ilə Allah oldu zahir.*
*Qur'anı qiraət eyləyən çox,*
*Qur'anə «səmavidir» deyən çox*
*Hər rəmzə cavabdır bu Qur'an,*
*Ən ülvi kitbadır bu Qur'an,*
*İdrakını bildirir cahanə,*
*Fazilliyinə odur nişanə,*
*Kamilliyinə odur nişanə,*
*Aqilliyinə odur nişanə,*
*Qabilliyinə odur nişanə,*
*Adilliyinə odur nişanə».*

*Şahin Fazil. İkinci Divan,*
*Bakı, 2005, s.32*

Bismillahir-rəhmanir-rəhim!!! O, yeganə Allahdır, ehtiyacsız Allahdır, doğmamışdır və doğulmamışdır, kimsə ona tay ola bilməz. Mən isə insanam! («İxlas» surəsi, ayələr 1-4).

Mən isə doğuldum. Yaz fəslində doğuldum. Mən hələ anamın bətnində ikən atam dünyadan getdi. Atamdan sonra ərə getmədi anam. Beşcə il yaşayıb öldü anam. Məni əvvəlcə atamın atası, sonrasa onun oğlu böyütdü. Böyüklərə sonsuz izzət və ehtiramım var. Özümdən on beş yaş böyük olan qadınla evləndim. Böyüksevənəm! Allahın hökmünə əməl edənəm!

Peşəm çobanlıq və ticarətdi. Məktəbə getməmişəm. Dərs oxumamışam. Amma mələklər oxudublar məni. Uşaqlıqdan məni izləyirdilər mələklər, məni müşahidə edirdilər mələklər. Öyrənirdilər məni. Öyrədirdilər mənə. Bəzən salam səsi eşidirdim, kimsə mənə «Əssəlamu əleykə, ya Məhəmməd» deyərdi. Mən baxıb kimsəni görməzdim. Bəzən öz-özümə «olmaya mənə salam verən bu daş, bu ağacdır» deyərdim. Yox, mənə salam verən mələklər mələyi idi. İlahi mələkdi. Sonralar başa düşdüm.

Risalətim yaxınlaşmaqdaydı. Qüss ibn Saidə də sonuncu peyğəmbərin, yəni Məhəmməd ibn Abdullahın, yəni mənim risalətimin vaxtının yaxınlaşdığını xəbər verənlərdən idi. Ərəblərin məşhur bazarı Suki-Ukazda bir qızıl dəvə üzərində söylənən xütbəni mən özüm gəncliyimdə dinləmişdim. Amma, hələ bilmirdim ki, o, mənəm. Xütbə beləydi:

«Ey insanlar, gəlin, dinləyin, unutmayın, ibrət alın. Yaşayanlar ölür, ölən yox olur. Olacaq olur. Yağış yağar, otlar bitər. Cocuqlar doğular, anaların, ataların yerini tutar. Sonra hamısı məhv olub gedər. Hadisələrin, həyatın ardı-arası kəsilməz, zaman-zaman bir-birini qovarlar. Qulaq asın. Diqqət edin. Göydə xəbər var. Yerdə ibrət alacaq şeylər var. Yer üzü bir geniş eyvandır. Göy üzü bir yüksək tavandır. Ulduzlar sayrışır. Dənizlər durur. Gələn qalmaz. Gedən gəlməz… Əmin edirəm: Allahın hüzurunda bir din vardır ki, indi inandığımız dindən daha əzizdir. Və Allahın bir gələcək peyğəmbəri vardır ki, gəlməsi çox yaxındadır. Kölgəsi başınızın üstündədir. Nə xoşbəxtdir o şəxs ki, ona iman gətirə, o da ona hidayət eləyə. Vay o bədbəxtə ki, ona qarşı üsyan və müxalifətdə ola. Yazıqlar olsun ömürləri qəflətdə keçən ümmətlərə!» (Bax: Şahin Fazil. İkinci Divan, s.20-21).

Mənim risalətimin yaxınlaşdığını sonralar həzrət əmirəlmöminin Əli ibn Əbu Talib «Nəhcül-bəlağə»də xəbər vermişdi və buyurmuşdu: «Və bilirəm, bildirirəm ki, Mühəmməd Onun (Allahın – Ş.F.) bəndəsidir, rəsuludur. O, Mühəmmədi tanınmış bir din ilə göndərdi. Atəşlər içərisində yollarını azanlara onu dağ kimi nişan verdi. Şübhələri dağıtmaq üçün hökmlü bir kitab nazil elədi. İnsanlar imtahan içində idilər. Din ipi qırılmaq üzrə idi. Doğru inanc dirəkləri yıxılırdı. Dinin əslinə qarışıqlıq düşmüşdü, nicat yolu daraldıqca daralırdı. Vahimələrdən xilas olmaq üçün gözlər kor olmuşdu. Doğru yolun ad-sanı qalmamışdı. Allaha qarşı üsyan edirdilər. İman dayaqları çürümüşdü. Dünya məhv olmuş, nişanələri tanınmaz hala düşmüşdü. İnsan-

lar şeytana itaət edir və onun yolunu tuturdular. Hər yerdə şeytanın bayrağı dalğalanırdı. İnsanlar elə bir vəziyyətdə idilər ki, fitnə-fəsad onları dabanları ilə əzirdi. Allah onu (Mühəmmədi – Ş.F.) ən xeyirli yerdə, ən şər qonşular arasından göndərdi. İnsanlar bir halda idilər ki, onların yuxuları yuxusuzluq, sürmələri göz yaşları, elmləri cəhalət idi» (bax: Həzrət əmirəl-möminin Əli ibn Əbu Talib. Nəhcül-bəlağə, Tehran, 1995, s.32-33).

Mənim risalətimin yaxınlaşdığını çox-çox əvvəllər Məryəm oğlu İsa da demişdi: «Onu da xatırla ki, bir vaxt Məryəm oğlu İsa belə demişdi: «Ey İzrail oğulları! Mən özümdn əvvəl nazil olmuş Tövratı təsdiq edən və məndən sonra gələcək Əhməd adlı bir peyğəmbərlə sizə müjdə verən Allahın elçisiyəm»» (Bax: Qur’ani-Kərim, əs-Səff surəsi, ayə 6).

Bəli, risalətim yaxınlaşmaqdaydı. Mən dan yerinin işığı kimi doğru və aydın yuxular görürdüm. Rəngarəng yuxular…

Sonra Hərra dağı, yaxud Cəbəlün-nur, yəni Nur dağı. Ramazan ayı gələndə mən gedərdim o dağa. Bu ayı keçirərdim xəlvəti. Dağdan enməz və Allaha ibadət edərdim. Və mənə Allahdan vəhylər gələrdi. Nəhayət peyğəmbər (rəsul, nəbi, elçi) oldum.

Məndən çoxlu hədislər qalmışdır. Məsələn: «Hamının Pərvərdigarı birdir və atası birdir, hamınız Adəm övladısınız və Adəm (ə) torpaqdandır»; «Yaltaqların üzünə torpaq səpin»; «İgid odur ki, öz nəfsinə qələbə çalsın»; «Adamlar daraq dişləri kimi bir-birləri ilə bərabərdirlər»; «Gizli günah günah edənə, aşkar günah isə cəmiyyətə ziyan vurar»; «Ağıllı adam üç şeyə diqqət yetirməlidir: güzəranını yaxşılaşdırmağa, axirət gününə hazırlıq görməyə və halal eyş-işrətə»; «Xoş olsun malının çoxunu başqalarına bağışlayan və sözün çoxunu özünə saxlayan kimsənin halına»; «Qarğış olsun öz yükünü başqalarının çiyninə qoyan kimsəyə»; «Pozğun alim ən pis adamdır»; «Hər qövm malik olduğu hökumətə layiqdir»; «Başqalarından hətta bir diş çöpü belə istəməyin» və sair və il-axir.

Amma, insanların çoxu Qur’ani-kərim ayə və surələrinin və mənim hədislərimin çoxuna əməl etmədilər.

Duymadı məni adəm,
İşi məhşərə qaldı.
Acgözdü bəni-Adəm,
Az veribən çox aldı.
Qəzəbləri coşan dəm
Sevgiləri yoxaldı…
Dözmədi Yer bu hala,
Yaxşı oldu dağıldı.

İnsanlar neçin unutdular «Fürqan» surəsində gələn ayələri? Aya, o mübarək surələr unudulmaq üçünmü nazil olunmuşdu? Aya, onlar sizlərə xəbərdarlıq deyildimi? «O gündə ki, göy bulud kimi parçalanacaq və mələklər yerə göndərilməyəcəklər, o gündə hökmranlıq doğrudan rəhman Allahındır və göylər üçün ağır günlər olacaq. O gün kafər insan peşimançılıq əlini dişləyib deyəcək: «Kaş rəsulun göstərdiyi yolun ardınca gedəydim»» (ayə 24-27).

Bədliyi var etdilər,
Zülmü şüar etdilər.
Bəzi-bəzi adamlar
Qur’ani-Kərimdəki
Yaxşılığı öyrənib,
Pisliyi öyrətdilər.
Yaxşı oldu dağıldı!

***Söz İmadəddin Nəsimінindir:***

Əsl adım Seyid Əlidir. Miladın XIV əsrinin son rübünə yaxın Şamaxıda doğulmuşam, XV əsrin birinci rübünün sonuna

yaxın isə Hələb şəhərində dərimdən məhrum edib öldürdülər məni. Gənclik illərim Şamaxıda dövrün dünyəvi və dini elmlərinə, dinlərin tarixinə, məntiq, riyaziyyat və nücuma sərf olundu. Böyük arif Mənsur Həllac Hüseyninin şərəfinə ilk şe'rlərimi «Hüseyni» təxəllüsüylə yaşmışam. Həllac sufi idi. Ürəkli kişiydi. Elə onun özünü də öldürdülər. Bu məndən dörd əsr əvvəl olmuşdu. Bağdadda dara çəkildi Mənsur Həllac. Dar sonuncu yarı oldu Həllacın.

Hürufiçiyəm («hüruf» «hərf»in cəmidir). Ustadım Fəzlullah Nəimi olub. O, bizim təriqətin banisiydi. Əqidəmizə görə Allahın yaratdığı dünya daim dövr edir və bu, görünən dəyişiklərin səbəbidir, yəni dünya dövr etməsə, hərəkətdə olmasa dəyişməz. Biz bu fikirdəyik ki, Allah iki yolla təzahür edir: Allahın özünəbənzər yaratdığı insanda və Allahın nitqində – Qur'anda və şeylərin adında. Allahın insanda təzahürü qurtuluş pillələrindən ibarət üç mərhələyə ayrılır: peyğəmbərlik (nübüvvət), ilahi himayədarlıq (vəlayət), ilahilik (üluhiyyət). Bizim əqidəmizə görə peyğəmbərlik Məhəmmədlə başa çatmışdır, ondan sonra ilahi himayədarlar – şiə imamları gəlir. Nəimi isə axırıncı himayədar və həm də birinci canlı Allahdır (Xuda). Allahın ikinci təzahür yolu səsdə, nitqdə, hərfdədir. Hərf irfanı (hərf mistikası – Ş.F.) yeni pifaqorçuluqda, ismaililikdə də olub. Əqidəmizcə, şeylərin adı nəinki şeylərdən əvvəl mövcuddur, hətta şeylərin öz mahiyyətidir. Şeyləri addan məhrum etmək, onların varlığını yox etməkdir. Şeylərin şüurda mövcudluğu yeganə varlıq formasıdır. Deməli, Allahın nitqi – yəni Qur'an bütün şeylərin varlığını səbəbidir.

Mən ustadım Nəiminin təxəllüsü ilə həmahəng səslənən Nəsimi təxəllüsünü götürüb hürufi təriqətini təbliğ edən şe'rlər yazmağa başladım. Məsələn:

«Aləm yüzinə saldı ziya ali-Mühəmməd,
Nadan nə bilir, dana bilir xali-Mühəmməd».

Çox keçmədi ki, ustadımı e'dam etdilər və mən Təbrizə, oradan Anadoluya getdim, hürufiçi fikirlərimi yaydığım üçün dəfələrlə zindana salındım. Sonra isə Suriya. Elə orada da «kafər», «dinsiz» elan edildim, Misir sultanının əmri və ruhanilərin fitvası ilə diri-diri soyuldum, öldüm.

Niyə soydular məni? Adəm oğlunu «ənəlhəqq» deyərək Allahla eyniləşdirdiyimə görə. Niyə soydular məni? «Həqq mənəm, Həqq məndədir, həqq söylərəm» söylədiyimə görə. Niyə soydular məni? «Məndə sığar iki cahan mən bu cahanə sığmazam» dediyimə görə. Niyə soydular məni? «Ey xəstə könül, dərdinə dərman tələb eylə, // Gər can dilər isən, yeri, canan tələb eylə» kimi və ya bu qəbildən olan fikirlərimə görə.

Adəmdə Həqq nəfəsi,
Adəmdə Həqq səsi var.
Adəmdə Tanrı şanı,
Tanrı təntənəsi var.
Allah mənim yazımda,
Məndə Allah sözü var.
Mən Xudanın özündə,
Məndə Xuda özü var.
Yeri Həqq, ya adəm yox,
Cahillər dağıtdılar,
Yaxşı oldu dağıldı.

Gözümdə göy boyda nəm,
Üzümdə yer boyda qəm.
Allah Qibleyi-aləm,
Həm Allaham özüm həm,
Ənəlhəqəm, deyirəm:
Yaxşı oldu dağıldı.

Adəm idim, ismimi
«Müşrik», «kafər» qoydular,
Cəhalətə uydular,
Xurafata uydular.
İnsan idim, dərimi
Qoyun kimi soydular,
Yaxşı oldu dağıldı.

***Söz Şah İsmayıl Xətainindir:***

*«Səfi nəsli Cüneydü Heydər oğlu,*
*Əliyyül-Mürtəzaidir Xətai.*
*Mənim adım vəli Şah İsmayıldır,*
*Təxəllüsüm Xətaidir, Xətai».*
*Şah İsmayıl Xətai*

Mən doğulanda barmaqlarım bükülü və qanlıydı. Atam məni görən kimi «o, hökmən pis adam olacaq» dedi, öldürülməyimi həvalə etdi. Amma, öldürmədilər, rəhm etdilər. Bu sirri atam üç yaşımdan sonra bildi, həvaləçiləri əfv etdi.

On yaşımdan İncili, Tövratı və Qur'anı öyrəndim. On dörd yaşımda Təbrizdə taxta cülus edib Azərbaycan padşahı oldum və Səfəviyyə dövlətini qurdum. Çox savaşda bulundum. Ömrümün sonuna azca qalmış Şirvana getdim, qızım Pərixanı şirvanşaha verib, qızını aldım, yolda ikən ömrüm başa yetdi, dünya taxtından düşüb üqba tabutuna girdim.

Ulu babam Firuzşah Zərrinkülah, babalarım Səlahəddin Rəşid, Şeyx Saleh, Əminəddin Cəbrayıl, Şeyx Səfiəddin Yaqub, Sədrəddin Əbu Səid, Xacə Əli, İbrahim Şeyxşah və Şeyx Cüneyd olmuşlar. Atam Şeyx Heydər idi.

Sufi təriqətinin «səfəviyyə» qolundanıq. Şeyx Səfi babam da, mən də panteizmə inandıq, aləmi Allahla eyniləşdirən fəlsəfi tə'limə etiqad bəslədik, panteist olduq. Düşünür-

düm ki, yeri, göyü, kainatı və Adəmi Allah yaratmışdır. Deyirdim ki, Adəmə nəfəsi Allah vermişdir və Adəmdə və adamlarda Allah nəfəsi vardır və adam «ənəlhəqq», yəni «mən Həqqəm, Allaham» desə yanılmaz. Doğrusunu Allah bilir!

Mən dini (məzhəbi yox, dini!) ayrıseçkiliyin ziddinəyəm. Mən «İsəviyəm, Musəviyəm, Davudiyəm, Əhmədi» dedim. Mən «Hər nəyə baxdınsa onda əzzəli Allahı gör, // Hancarı kim, əzm qılsan, şəm'i-vəchullahi gör» dedim. «Həqq kəlamı sevmişəm, surayi-Yasindən mədəd, // Kim mənə İncilü Fürqanın duasindən mədəd» dedim. «Pir birdir, sirr bir, iqrar bir, göftar bir, // İkilik sığmaz bu yolda, sirr ilə sirdar bir» dedim. Ən nəhayət

«Yer yox ikən, gög yox ikən ta əzəldən var idim,
Cövhərin yekdanəsindən iləri pərgar idim.

Cöhəri ab eylədim, tutdu cahanı sərbəsər,
Yeri, gögi, ərşü kürsi yarədən səttar idim.

Girdim Adəm cisminə, kimsənə bilməz sirrimi,
Mən də Beytullah içində ta əzəldən var idim…

Mən Xətaiyəm, Həqi həq tanımışım bigüman,
Onun üçün ol yaratdı, mən ona dərkar idim»
dedim, dedim, dedim…

Mən «vəhdəti-vücudda» «vəhdəti-üqud», yəni əqidələr birliyini gördüm. Gördüm və yazdım. Yazdım və gördüm.

Hürufi tə'liminə rəğbət bəslədim. Düşündüm ki, Allahın üluhiyyəti (ilahiliyi) hər şeydə zahir olmaqdadır:

«Həqqə məzhərdürür Adəm, sücud et, uyma iblisə,
Ki, Adəm doninə girmiş Xuda gəldi, Xuda gəldi».

Mən də Mənsur Həllac, İmadəddin Nəsimi sayağı «ənəlhəqq» demişəm və Allahın insanda təcəlla etdiyinə inanmışam. Bəlkə də səhv etmişəm. Doğrusunu Allah bilir.

«Öldürsəm, öldürməzlər»,
Çox baş fənaya getdi.
Sünni-şiə savaşı,
Savaş fənaya getdi.
Nəqş etdi məfkurəsin,
Nəqqaş fənaya getdi.
Ağır cənglər, yürüşlər…
Daş-qaş fənaya getdi.
Sirdaş fənaya getdi,
Qardaş fənaya getdi.
Yoldaşa da vardı şəkk,
Yoldaş fənaya getdi,
Yaxşı oldu dağıldı!

***Söz Məhəmməd Füzulinindir:***

Şah İsmayıl Xətaidən sonra doğulmuş və sonra da ölmüşəm. O, şah və şair idi, mən şair və şairəm! Amma, Allah-taala hər kəsdən və hər şeydən üstündür, çünki «aləmdə nişanı binişandır».

«Ey varı yox eyləyən, yoxu var,
Yox varlığında zənnü inkar…
Əşyayə çox etmişəm təhəyyür,
Səndən yanadır həmin təfəkkür.
Əşya əcəb olmaz olsa zahir,
Çün var sənin kimi məzahir…
Əndişeyi-zat qilmək olmaz,

Bilmək bu yetər ki, bilmək olmaz!..
Torpaq idim, eylədin bir insan,
Müstövcibi-əqlü qabili-can…
Həm var ki, laf edim özümdən,
Məhv eylə məni mənim gözümdən…
Doğru yola getmədim, nə hasil?
Bir mənzilə yetmədim, nə hasil?
Hər ərsədə bir əsər ki, gördüm,
Sənsən deyib ol əsər, yügürdüm…
Dünya nədirü təəllüqatı,
Əndişeyi-mövtdür həyatı…
Nə dairədir bu dövrü əflak?
Nə zabitədir bu mərkəzi-xak?
Hər xilqətə gərçi bir səbəb var,
Aya, səbəbi kim etdi izhar?
Gər kaf ilə nundan oldu aləm,
Aya, nədən oldu kafü nun həm?..
Hər riştə ki, Həqq əyan edibdir,
Sərriştəsini nihan edibdir».

Mən Adəm əleyhüssəlamı düşünüb bütün adamlara dedim: «Bilmək gərəkdir ki, möhnətsərayi-xilqət və darüllbəlayi-fitrətdə müsibətzadələr pişvası və dilşüdələr müqtədası Adəmi-Səfidir». Və rübaimdə də yazdım ki:

«Adəm ki, fəzayi aləmə basdı qədəm,
Ənduhü bəlayə əvvəl oldu həmdəm,
Məhşurdur Adəmə bəlayi-aləm,
Aləmdə bəla çəkməyən olmaz Adəm».

Sonra Həvva barədə yazdım. Adəmin Həvvaya eşqindən danışdım. Onların behiştdən çıxmalırandan dedim və bunun səbəbini eşqlə bağladım. Və ağladım. Və dedim: «Adəm behişt-

dən ixrac olduğuna səbəb bu idi ki, mütəərrizi eşq oldu və eşq iqtizayi-darülməlam edib mülazimi-ərbabi-məlamətdir ki, ona darüs-səlam münasib olmaz və əhli-səlamət ehtiyatilə rövnəq bulmaz».

Sonra Habilin qətlindən xəbər verdim, Qabilin cəzasından danışdım, həzrəti-izzətdən (Allahdan) gələn nida əsasında «nisfi-əzabi-duzəxin» («cəhənnəm əzabının yarısının») əbədi olaraq Qabilə mənsub olacağını bildirdim və belə qənaətə gəldim:

«Əşrəfi-xəlqi-cahanın əksəri-övladını
Qətl edən, dünyadəvü üqbadə olmaz bəhrəvər».

Ya İlahi, Füzuliyi-xar yer və yerdəkilər barədə çox düşündü, çox daşındı və dedi ki, yerdə fisqü fücur həddən ziyadədir və «dağılacaqmı?», «dağılmayacaqmı?» suallarının cavabı olduqca sadədir: «Dağılacaq!».

«Yoxdur bu vücudin e'tibarı,
Həqq ayinədir, cahan qübarı…
Faş oldu ki, sirri-Həqq nişandır,
Aləmdə nişanı binişandır…
Cəhd eylə əzabi-gur yığma,
Sə'y eylə mətai-mur yığma.
Alma ələ sağəri-meyi-nab,
Kim, qərqə edə səni bu girdab…
Təhqiqi-vəsileyi vüsul et,
Təqlidi-şəriəti – rəsul et».

Yerdəkilər «əzabi-gur» yığdılar və gor evinə «mətaimur» topladılar. Yerdəkilər əllərinə «sağəri-meyi-nab» alıb nə «təhqiqi-vəsileyi-vüsul» etdilər, nə də «təqlidi-şəriəti-rəsul» elədilər. Yerdəkilər nəsihətə qulaq vermədilər, etdikləri səhv və

xətaları görmədilər. Yerdəkilərin əməlləri baisi-nifrət oldu və yerin dağılması zərurət oldu:

Gələcəyi gümandı,
Gedəcəyi – əyandı.
Dağılası cahandı!
Nə alışdı! Nə yandı!..
Yaxşı oldu dağıldı.

Tamah – adamlarında,
Günah – adamlarında,
Savab – mələklərində!
Vardısa bir sevinci,
Min ah adamlarında…
Yaxşı oldu dağıldı.

Ağ yox idi qarəsiz,
Yer yox idi yarəsiz…
Xəstə idi çarəsiz,
Eyləmədik çarə biz,
Yaxşı oldu dağıldı!

### *Söz Nikolay Kopernikindir:*

Miladın XV əsrinin son qərinəsinin əvvəllərində Lehistanda (Polşada – Ş.F.) doğuldum. Astronomiya reformatoru oldum. «Heliosentrik sistem», yəni «Günəşdənkənar sistem» anlayışı və nəzəriyyəsinin banisi mən özüməm! Ailəmizdə hamı tacir və dindardı. Dayım yepiskopdu. Gəncliyimdə yepiskop dayımın katibi və həkimi oldum.

Dörd universitetdə dörd elmi əməlli-başlı mənimsədim: Astronomiya, iqtisadiyyat, tibb və hüquq.

Kainat barədə çox düşündüm və dedim: Yer heç də dünyanın mərkəzi deyil, adi bir planetdir! Göy və Yer eyni qanuna tabedirlər ki, o qanun Təbiət qanunudur!!!

Göy fəzalarının dolanmaları haqda eyni adlı bir əsər yazdım. Kitabı ölümümdən sonra inkivizisiyanın (katolik kilsə məhkəməsi – Ş.F.) xüsusi dekreti ilə qadağan etdilər.

Əsrlər ötdü. Haqqımı özümə qaytardılar. Beynəlxalq Astronomiya İttifaqının 15-ci Fövqəladə Ümumi İclası mənim 500 illik yubileyimi xüsusi qeyd etdi. Qiymətimi ölümümdən 5 əsr sonra aldım.

Nəhayət ki verildi,
Qiymətimin qiyməti.
Ölmüş idi, dirildi
Şöhrətimin qiyməti.
Güclü çıxdım, görüldü
Qüdrətimin qiyməti.
Beş yüz il itirildi
Vüsətimin qiyməti;
Ölümümdən sonrasa
Zəhmətimin qiyməti.
Ey Rəbbim, Yer Kürəsi
Yaxşı oldu dağıldı!

***Söz Cordano Brunonundur:***

Miladın XVI əsrində 52 il yaşadım. Yandım, çünki yandırıldım. Dövrümdəki katolisizm dini cəhalətini görüb alışdım-yandım, nəticədə iə həqiqətən yandım və yandırıldım. Panteizmə – aləmi Allahla eyniləşdirən fəlsəfi tə'limin düzgün-lüyünə ürəkdən inandım… Yandırıldım və yandım. Teizmə

(Allahçılığa) zidd olan naturalist meylim, yəni Allahı təbiətdə, insanda axtarmaq meylim cismimin yandırılmasına səbəb oldu. Təbiəti Allahda «əritməyə» səy etdim və qurğuşun kimi əridim. Bu, sonralar baş verdi…

Kilsə məni daim tə'qib edirdi. İtaliyanı tərk etməyə məcbur oldum, Fransa, İngiltərə və Almaniyada yaşadım və təzədən tə'qib olunduğum yerə – vətənim İtaliyaya qayıtdım. Bid'ətçilik (hakim dinin əsas ehkamlarını qəbul etməyən tə'lim) və azad fikirlilikdə təqsirləndirildim. 8 il həbs cəzası. Sonrasa kilsə məhkəməsinin cəzası – tonqal cəzası. Diri-diri yandırıldım.

Mənim panteist fikrim təkcə mənə aid deyildi. Mən Empedokl, Anaksaqor, Demokrit, Epikür və Lukretsidən bəhrələnmişdim. Amma, onların heç birini yandırmamışdılar. Tonqal cəzası mənə qismət oldu. Mən yandırıldım.

Nə demişdim ki? Demişdim ki, materiya (maddə) bütün şeylərin (əşya) substansiyasıdır (mahiyyətidir). Bu tə'lim «şeylərdə Allah» olan təbiətin dərk edilməsi tə'limi idi. Tə'limi dərk etmədilər, sağ qaldılar, dərk edənisə yandırdılar. Mən Yeri sevirdim. Ölürdüm Yer Kürəsindən ötrü. Torpaqla müstəqim təmasda olmaqdan ötrü ayaqyalın gəzməyi xoşlardım. Məni tonqalın üst-üstə qalaqlanmış odunlarının üstünə apardıqları vaxt dedim: Çəkin çəkmələrimi, çıxarın corablarımı. Qoyun ayaqlarım dəysin Yer Kürəsinə!

Nə demişdim ki? Demişdim ki, sevirəm Yer planetini. Əlavə edib demişdim ki, amma heliosentrik sistemdə, yəni Günəş sistemindən kənarda saysız-hesabsız məskun planetlər yerləşir, Yer isə hüdudsuz aləmin bir zərrəciyidir, buna görə də o, kainatın mərkəzi ola bilməz. Bu fikrimə görə məni tonqalın mərkəzinə qoyub yandırdılar.

Ne demişdim ki? Demişdim ki, polyak Kopernik günəşi kainatın mərkəzi hesab edir, mənsə günəşi Günəş sisteminin mərkəzi hesab edirəm. Demişdim ki, kainatda günəşlər çoxdur

və ulduzlar öz oxları ətrafında fırlanırlar. Məni möhkəm bir dirəyə bağlayıb heç fırlanmağa belə qoymadılar. Fırlanmaqdan danışanı fırlanmaqdan məhrum edib yandırdılar:

«Bid’ətçisən» söyləyib,
«Məlun» qoyub ismimi,
«Odlanmalısan» deyib
Yandırdılar cismimi
Odda yanacaq kimi…
Yaxşı oldu dağıldı!

***Söz Qalileo Qalileyindir:***

1564-1642. Doğulduğum və öldüyüm illər. Fizikəm. Mexanikəm. Astronomam. Filosofam. Təbiətşünasam. Çox olmadımı? Qoy olsun. Mən fərd olsam da çox olmuşam. Bir-iki elmlə kifayətlənməmişəm. Hələ musiqini demirəm.

Atam musiqiçiydi. Məndə də musiqi şövqü vardı.

Pizada məktəbə getdim, oradan Florensiyaya apardılar, sonrasa Vallombros monastırı. Nəsə, mənim monastır həyatım heç musiqiçi atamın da xoşuna gəlmədi. Gözümün xəstəliyini bəhanə gətirib məni monastırdan çıxardı. Yenə Piza şəhəri. Universitet. Təbabət fakültəsi. Evklid və Arximedin əsərləri ilə tanışlıq. Həndəsə. Mexanika. Piza Universitetindən Florensiyaya gediş. Florensiyada təzədən elmi axtarışlar məşğuliyyəti. Yenə Piza. Sonra Padua. Sonrasa, hər ikisinin professoru cənab Qalileo Qaliley!

Cismlərə, cismlərdəki ağırlıq mərkəzlərinə, cismlərin ətalət qüvvəsinə, cismlərin nisbi hərəkətinə dair çoxsaylı əsərlər yazdım. Cismşünas oldum. Hərəkətin nisbiliyi ideyasını ilk dəfə mən söylədim. Teleskoplar qurdum. Yupiterin 4 peykini, Ay səthindəki dağları, Günəşin fırlanmasını, Günəşdəki ləkələri, Veneranın səfhələrini kəşf etdim. Və müəyyənləşdirdim ki,

Qalaktika «Südlü yol» deməkdir. Ağ yol, Süd yolu, Kəhkəşan – Günəş sisteminin daxil olduğu ulduzlar sistemidir. Günəşin Qalaktika ətrafına bir dövr müddəti təqribən 180 milyon ildir və dedim ki, Qalaktika külli miqdar ulduzlardan ibarətdir. Mən beləliklə Aristotelin «ideal qüvvə» nəzəriyyəsini alt-üst etdim. Və kəşflərim məni Roma Elmlər Akademiyasının üzvü etdi.

Faciəm sonra başlandı. Kopernik nəzəriyyəsini müdafiə etdiyimə görə din xadimləri tərəfindən tə'qiblər. «İsa cəmiyyəti» üzvləri – yezuitlər. Məqsədləri katolik dinini yaymaqdı. Yaydılar. Hindistana, Çinə, Yaponiyaya da gedib çıxdılar. Hətta bir əsr sonra Paraqvayda dövlət də qurdular.

Demək, yezuitlər və mən. Çox və az. Az olsam da çox idim. Mən onlardan çox idim. Buna görə də mənə qarşı çıxdılar. İkinci çoxdan (bəlkə də birinci çoxdan) – Kopernikdən əl çəkməyimi tapşırdılar. Tapşırığa əməl etmədim. Yeni bir əsər yazdım: «Dünyanın iki ən mühüm sistemi – Ptolomey və Kopernik sistemləri haqqında dialoq» kitabı. Yandırdılar. Cordano Brunonun özünü, Qalileo Qalileyinsə əsərini yandırdılar. Buna da şükür! Axı mən dünyanın Günəşdən kənar heliosentrik sistemini işıqlandırmış və işıqlanmamı əsaslandırmışdım. Az qala onlar məni də tonqala atıb, yandırıb işığımın altında rişxəndlə rəqs edəcəkdilər.

Məni Romaya çağırdılar. İnkivizisiya məhkəməsi. Qorxdum. Qalileydən Cordano, Qalileodan Bruno olmadı (düzünə qalsa, heç Cordano Bruno da Qalileo Qaliley deyildi). Qorxdum və tə'limimdən imtina etdim. Axı, mən ayağımı kilsə düşüncə dairəsindən kənara çıxarmışdım. Dairə! Yəni Yer şarı. Yəni Yer Kürəsi. Yəni Yer Dairəsi. Mən dairəni sevirəm. Kvadratdan xoşum gəlmir. Kvadratın 4 küncünün hər biri sivri ox ucluğuna bənzəyir. Dairəninsə yoxdur ucluğu. Dairəyə yumruq vursan əlini kəsməz. Bəlkə elə buna görə də Yer Kürəsi, günəş, ay, ulduzlar və sonsuz kainatın qeyri planetləri dairəvi formadadırlar. Mən dairəni sevə-sevə dairədən kənara

çıxdım, əsrlərdən bəri formalaşmış, insanların şüuruna nüfuz etmiş kilsə tə'liminin ziddinə getdim, «dünyalar sonsuzdur» dedim və hirslənib yumruğumu qarşıdakı kvadrat mizin sivri ucluğuna elə çırpdım ki, əlimi qan apardı. Əgər miz dairəvi olsaydı əlimə heç nə olmayacaqdı. Əlimi qanadıb, ayağımı dairədən kənara çıxarmışdım və ayağımı az qala sındıracaqdılar, «dünyalar sonsuzdur» dediyimə görə sonuma çıxacaqdılar.

Dörd il sonra kor oldum. Bəli, mexanikanın əsasını qoyan, dünyanın sonsuz, materiyanın əbədi, təbiətin vahid olduğunu görən adam kor oldu, görmədi.

Dandım sözümü gerçək,
Haqsız idim, ya haqdım?
Cordano Bruno tək
Mən də odlanacaqdım…
Yaxşı oldu dağıldı.

Mən ki, car eləmişdim,
Eləyirəm car yenə:
Dünya çoxdur demişdim,
Başqaları var yenə!
Yaxşı oldu dağıldı!

***Söz Volterindir:***

Əsl adım və soyadım: Mari Fransua Aruye. Miladın 18-ci əsrinə 6 il qalmış doğuldum. Fransadanam. Yezuit kollecini bitirmişəm.

Əvvəllər məni alman idealist filosofu, riyaziyyatçısı, hüquqşünası, tarixçisi və dilçisi Qotfrid Vilhelm Leybnitsin irəli sürdüyü «ümumdünya harmoniyası» adlanan ideya özünə bərk cəlb edirdi. O, çox böyük şəxsiyyət olmuşdur və Berlin Elm Cəmiyyətinin (sonralar Elmlər Akademiyası) ilk prezidenti

oldu. Ondan çox şey öyrənib bəşəriyyətin tərəqqisi fikrimi irəli sürdüm. Bəli-bəli, bəşəriyyətin tərəqqisi. O vaxtlar mən nə biləydim ki, tərəqqinin sonu tənəzzül olacaqmış.

Mən Russonun utopik ideyalarını qəbul edə bilmədim və dedim ki, xoş gələcəyə ümid maarifçi və xeyrxah hökmdarın fəaliyyəti və liberal (azad, azad fikirli) burjua islahatlarına bağlıdır. Xeyrxah hökmdar, liberal burjua islahatları… Əlbəttə, maarifçilik hər şeydər üstündür zənn edirəm.

Mənim fəlsəfi fikirlərim Dekartın rasionalizm (zəkanı insan idrakı və davranışının əsası sayan fəlsəfi bir cərəyandır), Lokkun materializmi (idealizmə zidd cərəyandır və maddiyyatı əsas götürür) və Nyutonun təbiətşünaslığının tə’siri ilə formalaşdı.

Bəli, mən tə’sir altına düşən (yaxşı tə’sir!) və öz sözünü deməyi bacaran adam olmuşam.

Uzun müddət dinlərə və kilsəyə qarşı mübarizə etdim, amma deizm (latınca «Allahçılıq» deməkdir) mövqeyində durdum. Deizm nədir? Allaha, ayinlərə və hər hansı bir dinə inamı inkar edən, lakin Allahı aləmin ilk səbəbi və yaradıcısı hesab edən tə’limdir. Bizim fikrimizcə, Allah peyda olur, aləmi yaradır və sonra bir kənara çəkilib-durur, təbiət və cəmiyyət hadisələrinin qanunauyğun gedişinə müdaxilə etmir. Deizm – teizmin (Allah ilə insanın daimi ünsiyyəti haqqında təsəvvür), panteizmin (Allah və təbiəti eyniləşdirən təsəvvür) və ateizmin (Allahın mövcudluğunu inkar edən təsəvvür) tam əksinədi. İngilis lord Çerberidir bu «izm»in, yəni deizmin banisi. Mən isə onun davamçısı oldum. Russo, Lokk, Toland, Radişşev də mənim kimi deist olmuşlar.

Qənaətimə görə, Allah təbiətdən ayrılmazdır. Mənim bu barədəki bir deyimim hər yerdə məşhur idi: «Əgər Allah olmasaydı onu uydurmaq lazım gələrdi». Diqqət yetirdinizmi? «Əgər Allah olmasaydı…». Deməli var və uydurmaq lazım gəlmir!

Mən demişəm ki, ateizm zəkanın ən böyük yanılmasıdır. Mən demişəm ki, elmin vəzifəsi təbiəti tədqiq etmək və obyektiv səbəbiyyəti öyrənməkdir. Mən demişəm ki, mütləq həqiqət yeganə həqiqətdir. Nə demişəm ki? Məgər düz deməmişəm? Mən demişəm ki, cəmiyyət hökmdarların idarə etdikləri insan – atomlardan ibarətdir. Mən demişəm ki, tarix xeyir və şər, maarif və cəhalət arasındakı mübarizə meydanıdır. Mən demişəm ki, ictimai bəlaların səbəbi ayrı-ayrı şəxslərin səhvlərində və özbaşınalıqlarındadır. Nə demişəm ki? Məgər düz deməmişəm? Özbaşınalıq dedim, az qala öz başım gedəcəkdi.

«Tarix fəlsəfəsi» istilahını da elmi dövriyyəyə ilk dəfə mən gətirmişəm.

Şe’r, poema, novella, povest, dram əsərləri yazmışam. Din və ruhanilər əleyhinə yazdığım və Janna d,Ark adlı məşhur qadına həsr etdiyim poemam («Orlean qızı») məşhurdur. «Brut», «Zaira», «Sezarın ölümü» və «Fanatizm, yaxud Məhəmməd peyğəmbər» adlı əsərlərimdə istibdadı, dini fanatizmi tənqidə mə’ruz qoymuşam. Müsəlmanların peyğəmbərinə, Allahın peyğəmbərinə görə Allah bağışlasın məni.

Edirəm bir də təkrar:
Allahçıyam, Allah var,
Hələ deizm də var.
Deizm – o teizmin,
Deizm – panteizmin,
Deizm – ateizmin
Əksinə tutdu qərar,
Allahçıyam, Allah var.
Amma, məncə «izm»lər
Dünyanı dağıtdılar.
Məndən sonra çox «izm»
Gəldi,
məgər azdımı?

«İzm»lər olmasaydı
Yaşamaq olmazdımı?
Yaxşı oldu dağıldı!

***Soz Kantındır:***

Miladın 1724-cü ilində Köniqsberq şəhərində doğuldum və 80 il ömür sürdüm. Alman klassik fəlsəfəsinin banisiyəm. Universiteti bitirib uzun illər oranın dosenti və professoru vəzifələrində işlədim.

Mən Günəş sisteminin ilkin «dumanlıqdan» yaranması haqqında fərziyə irəli sürdüm, Yer Kürəsinin sutkalıq hərəkətinin qabarma nəticəsində yavaşıdığını sübut etdim və bununla da metafizikaya (fizikadan sonrakı elm, şeylər haqqında elm, fövqəlhissi prinsiplərdən bəhs edən elm) ilk zərbəni mən endirdim və təbiətşünaslığa inkişaf ideyasını mən gətirdim. Dedim ki, kainatda bizim qalaktikadan başqa qalaktikalar da var. Dedim ki, hərəkət də nisbidir, sükunət də nisbidir. Mən həm də tənqidçi olmuşam. Açıq-aşkar, heç kimdən və heç nədən çəkinmədən tənqidə geniş meydan vermişəm. Tənqidimə məxfilik libası geydirmədən tənqid etmişəm. Tənqidlərimin hamısı elmi xarakter daşımışdır. «Xalis zəkanın tənqidi», «Praktik zəkanın tənqidi», «Mühakimə qabiliyyətinin tənqidi» adlı üç qiymətli kitab da yazmışam ki, qiymətlərini məndən yaxşı bilən yoxdur.

Mən hadisə və olduğu kimi mövcud olan şeylər – «özündəşeylər» haqqında tə’lim yaratdım, yəni «şüurumuzdan asılı olmayan şeylər aləmi var» dedim, amma mənə inanmadılar. O inamsızlar guya məni məsxərəyə qoyur və arabir soruşurdular: «Ey İmmanuil, özündəşeylər nədir?» Onlara deyirdim ki, əsərlərimi təkrar-təkrar oxusunlar, bir də oxusunlar, iki də oxusunlar, üç də oxusunlar, yüz də oxusunlar, nəhayət dərk edəcəklər ki, özündə şey, yaxud şeyözündə elə mən dediyim şeydir.

Hər şeyin əsası təcrübədir. Mən hesab etmişəm ki, Allahı təcrübədə aşkar etmək mümkün olmadığı üçün onu nə sübut, nə də inkar etmək olur, yəni Allah təcrübə fövqündədir. Onun varlığına inanmağı bizim praktik zəkamız, yəni əxlaqi şüurumuz tələb edir.

Poeziyaya çox böyük qiymət vermişəm. Demişəm ki, poeziya incəsənətin adi növüdür, çünki o, idealı ifadə etmək səviyyəsinə yüksələ bilir.

Mən Kantam. Məndən sonra neokantçılıq adlandırılan idealizm sistemi yaratmağa cəhdlər edildi. Ruhum mənə deyirdi ki, mənimlə Marks və Lenin də maraqlanmışlar. Lenin deyib ki, Kant bizdən xaricdə təsəvvürümüzə uyğun «özündəşey» olduğunu zənn edəndə materialistdir, amma bu «özündəşey»i dərkedilməz və başqa aləmə məxsus adlandıranda isə idealist olur.

Şeylər aləmi mövcud!
«Özündəşey» var dedim.
Mənə inanmadılar,
Dediyimi dandılar.
Mənim fikirlərimlə
Vuruşub-əlləşdilər,
Sonra başa düşdülər.
Allahı isbat – çətin,
Allahı inkar – çətin.
Arasında qalmışıq
Yalanla həqiqətin.
Yaxşı oldu dağıldı.

Yüz sözümü əydilər,
Düz sözümü əydilər.
Elmi kaş mənim kimi
Əməlli biləydilər.

Yaxşı oldu dağıldı.

Çox-çox illər sonra da
Çox fikrimi dandılar,
İnandılar Marksa,
Leninə inandılar
Və inancları ilə
Amma ki, aldandılar,
Aldanıb da yandılar.
Yaxşı oldu dağıldı!

***Söz Hegelindir:***

1770-1831-ci illər arasında yaşamışam.

Biz almanlarda, adətən, iki ad olur. Məsələn, mənim adım Georq Vilhelmdir. Soyadımsa Hegeldir!!! Filosofam. Obyektiv idealistəm. Alman klassik fəlsəfəsinin ən məşhur nümayəndəsiyəm. Xahiş edirəm mənə «lovğa» deməsinlər. Mən məşhur şəxsiyyət olduğuma tam əminəm. Mən Hegeləm!!!

Beş il Teologiya İnstitutunun İlahiyyat fakültəsində «Allahşünaslıq» oxudum. Bern və Frankfurt-Mayn şəhərlərində ev müəllimi kimi fəaliyyət göstərdim, Bamberqdə qəzet redaktoru işlədim, Heydelberq və Berlin Universitetlərində professorluq etdim. Mən Hegeləm!!!

Gəncliyimdən radikal təfəkkürümlə fərqlənmişəm. Mən Fransa inqilabını alqışlamışam, Prussiya monarxiyasının feodal qayda-qanununa qarşı çıxmışam. Mən Hegeləm!!!

Mən substansiyanı (mahiyyət, obyektiv varlıq, materiya) subyekt, fəal başlanğıc kimi təfsir etmişəm. Mənim fikrimcə varlıqla təfəkkür eyniyyət təşkil edir, yəni əgər sadə dillə desəm, real aləm ideyanın, anlayışın, ruhun təzahürüdür. Mən Hegeləm!!!

Mən Kantın aqnostisizminə (maddi aləmi dərk etməyin mümkünsüzlüyünü, mütləq həqiqəti, biliyin səhihliyini inkar edən fəlsəfi tə'lim) qarşı çıxmışam. Çünki mən dialektik (mübahisə etmək qabiliyyətinə malik adam) idim. Mən dialektikanın (təbiət, cəmiyyət və təfəkkürün inkişafının ən ümumi qanunauyğunluqları haqqında tə'lim) əsas qanunlarını və kateqoriyalarını ətraflı, hamıdan geniş və əhatəli işlədim. Mən Hegeləm!!!

Mən dialektika, məntiq və idrak nəzəriyyəsinin vəhdətini əsaslandıra bildim, fəlsəfə tarixində ilk dəfə dialektik məntiq sistemini geniş izah etməyi bacardım. Mən Hegeləm!!!

Mən Kantın «şeyözündə»sini tənqid etdim. Mən mistikaya (irfana) inanan şəxs idim.

Məndən sonra sağ hegelçilər, sol hegelçilər (yaxud gənc hegelçilər), ortodoksal hegelçilər mənim yazdıqlarımı özlərinin arzu etdikləri kimi araşdırmağa başladılar. Amma, onların heç biri mən ola bilmədilər. Mən Hegeləm!!!

Həqiqətdən danışdım
Həqiqətdən bezdilər,
Ədalətdən danışdım
Ədaləti əzdilər.
Sağ hegelçi olanlar,
Sol hegelçi olanlar,
Ortodoksal şüurda,
Təfəkkürdə qalanlar
Bir-birinə zidd çıxıb
Bir-birini qırdılar,
Doğradılar, kəsdilər,
Mən kimi qalmağa yox,
Ölməyə tələsdilər,
Yaxşı oldu dağıldı!

### *Söz Didronundur:*

Miladın 18-ci əsrində yaşamışam. Fransanın və dünyanın ən böyük maarifçi filosoflarındanam. Biliyim çoxsahəlidir. Ensiklopedistəm. Ensiklopediyaçıyam – «İzahlı lüğət» müəllifiyəm.

Yezuit kollecində oxumuşam. Yezuitlərin məqsədi katolik dinini müdafiə etmək və yaymaq, papalığın hakimiyyətini möhkəmləndirmək olub. Elə islam dininin də, sair dinlərin də məqsədləri mahiyyətcə öz dinlərini və hakimiyyətlərini müdafiə etmək, yaymaq və himayə etmək olmuşdur.

Mən xalq adamı olmuşam, vaxtı ilə dvoryanlara və kral hakimiyyətinə qarşı baş verən xalq hərəkatına qoşulmuşam.

İlk fəlsəfi əsərim «Fəlsəfi fikirlər»imdir. Amma fikirlərimi başımdan çıxara bilmədilərsə də, Fransa Parlamentinin qərarıyla «Fəlsəfi fikirlər»imi yandırdılar. Kitab yandırılanda Cordano Brunonun ağrısını hiss etdim, sanki başım yanırdı, gözüm yanırdı, başdan-ayağa özüm yanırdım.

Mən sırf deistəm. Keçdiyim yolun istiqaməti belə olub: deizm – materializm – ateizm.

Düşünürdüm ki, materiya əsasən üç üsulla – müşahidə, təfəkkür və təcrübə ilə dərk edilir.

Gözəllik aşiqiyəm. «Gözəllik haqqında traktat» yazdım. Bir neçə pyesim də var, romanım da.

Rusiya çariçəsi II Yekaterinanın xahişi ilə 1775-ci milad ilində silsilə pedaqoji əsərlər yazdım, məsələn «Qız məktəbi haqqında» və s.

Hər sonun sonu vardır,
Hər əvvəlin əvvəli.
Həyat qanunu vardır –
Hər yaranan ölməli.
Bəli, bilsəm də dünya

Oxşamalı, sevməli,
Amma, yenə deyirəm
Mən ağılsız, mən dəli:
Yaxşı oldu dağıldı!

***Söz Abbasqulu ağa Bakıxanovundur:***

Soyadım sübut edir ki, xan nəslindənəm. Miladın 1794-cü ilində Bakının Əmir Hacan kəndində doğulmuşam.

Günahım çox olduğu üçün az yaşadım, cəmi 53 il. Bu barədə sonra…

Azərbaycan tarixşünaslığının əsasını qoydum. «Gülüstani-İrəm» adlandırdığım kitabımda yazmışam: 7 yaşımdan məni oxumağa qoydular və bir neçə ildə bir neçə dil öyrəndim. Qafqaz ordusu və vilayətlərinin fərmanfərması general Yermolov məni Tiflisə də’vət etdi. Getdim. Orada rus yazısı və dilini öyrəndim. Vəzifə işlərimlə əlaqədar Şimali və Cənubi Qafqazın bir sıra ölkələrində, həmçinin İran və Rum (Osmanlı) məmləkətlərində general Paskeviçin yaxın adamlarından birinə çevrildim. Rus ordusunda polkovnik rütbəsinədək yüksəldim, Rusiya-İran sülh danışıqlarında (Türkmənçay) iştirak etdim. Səyahət məqsədilə iki il Don ölkəsini, Malorossiyanı, Velikorossiyanı, Liflandiyanı, Litvanı və Lehistanı (Polşa) dolaşdım. Yavaş-yavaş xəyalat və təsəvvüratımın puçluğu aydınlaşdı və gördüm ki, dünyanın yüksək mənsəbləri çox alçaqdır və bizim əziz saydığımız tədbirlər bir sərxoşun ağıl sınamasına bənzər, çünki mal və dövlət hər halda puç olacaq, ixtiyar və iqtidar əldən gedəcəkdir… E’tibar ediləcək və arxalanacaq bir dövlət varsa, o da hər halda elm və adabdan ibarətdir. Bu elm və adab da zahirpərəst adamların boşboğazlıq edib, özləri üçün fəzilət sandıqları mənzum kəlmələrdən və mövhumi qaydalardan ibarət deyildir.

Çoxlu kitab yazdım: «Riyazül-qüds», «Təhzibül-əxlaq», «Kitabi-nəsayeh», «Eynül-mizan», «Mişkatül-ənvar» və s. Bəzi əsərlərimdə əsasən Şərq ilahiyyatçılarına əsaslandım və islam dininin ehkamlarını müdafiə etdim. Özümdən bir əsr əvvəlki metafiziklər kimi mən də fəlsəfənin predmetini elmin predmetindən tamamilə fərqləndirdim və fəlsəfəni varlığın fövqəlhissi prinsipləri haqqında elm hesab etdim. Mənə görə Allah əvvəlcə üç əbədi başlanğıc – ağıl, qələm və nur yaratmışdır ki, bunların birincisi genişlik və əhatəliyin, ikincisi nizam və ahəngin, üçüncüyü «yaranma və qayıtma»nın rəmzidir.

Mən «vəhdəti-vücudçu» olmuşam. Demişəm ki, varlığı mümkün olan gerçək dünya, varlığı zəruri olan isə Allahdır və «mümkün varlıq» «zəruri varlıq»dan, yəni çoxluq təkdən yaranmışdır, yaranma və məhvolma ancaq gerçək dünyaya aiddir, çünki hərəkət «mümkün varlığın» ayrılmaz sifətidir.

Mənim fəlsəfi fikirlərimdə dünyanı naturalist mövqedən izah da yox deyildir. Demişəm ki, bütün cisimlər və şeylər dörd ünsürün – hava, od, torpaq və suyun qatışığından ibarətdir, burada təbii «nizam», «müvazinət» və səbəbiyyət var.

Koperniki, Nyutonu, Qalileonu, Kepleri oxudum və dünyanın heliosentrik sistemi tə’limini müdafiə edən «Əsrarül-mələkut» kitabını yazdım.

Ömrümün son illərində bir sıra Şərq ölkələrində oldum və Həcc ziyarətinə getmək fikrinə düşdüm. Yuxarıda dedim ki, günahım çox olduğu üçün az yaşadım. Günahımı, ən böyük günahımı ruslara xidmətimlə əlaqələndirirəm. Azərbaycanı iki yerə ayıran Türkmənçay sülh müqaviləsinin hazırlanmasında mənim də iştirakım olmuşdur. Günahımı yumaq və elə Məkkədə də ölmək niyyəti ilə Ərəbistana yollandım. Allah-taala səsimi eşitdi və ziyarətdən qayıdarkən yolda öldüm.

Dünyanı çox düşündüm,
Üzbəüzdük, mən – dünya.

Yadlara xidmət etdim
Ey bəyi nökərliyə
Vadar eləyən dünya.

Yəqin ki, əməlimi
Allah günaha yazdı
Və yəqin o günahı
Türkmənçay da yumazdı,
Yaxşı ki, yaman dünya
Yaxşı oldu dağıldı.

Sanırdım Yer Kürəsi
Gülüstani-İrəmdir.
Sonra əmin odum ki,
Dərddir, qüssədir, qəmdir.
Yaxşı oldu dağıldı.

Yetişdi məhşər günü!
O gün
olmadı fərqi
Nökərin, bəyin, şahın.
Yəqin ki, məsləhəti
Belə imiş Allahın,
Yaxşı oldu dağıldı!

***Söz Mirzə Fətəli Axundovundur:***

Yazıçı, materialist, filosof, ateist, ictimai xadim, şair və yazıçı olmuşam. Realist Azərbaycan ədəbiyyatının banisiyəm desəm bunu lovğalıq sanmayın.

Doğuluşumdan iki il sonra atam Mirzə Məhəmmədtağı və anam Nanə xanımla Şəkidən Təbriz yaxınlığındakı Xamnə qəsəbəsinə gəlmiş, 13 yaşımadək İranın müxtəlif yerlərində

yaşamış, 1825-ci ildə yenidən anamla Nuxaya qayıtmışam. Anamın əmisi oğlu Axund Hacı Ələsgər məni özü kimi ruhani görmək istəyirdi. Gəncəyə gəldik. Şair Mirzə Şəfi Vazehdən nəstə'liq xəttini, başqa alimlərdənsə məntiq və fiqh (müsəlman qanunçuluğu) elmlərini öyrəndim, Nuxaya qayıdıb rus məktəbində oxudum, bir il sonra Tiflisə getdim, Qafqaz canişininin Baş Dəftərxanasında Şərq dilləri üzrə mütərcim oldum. Xidmətlərim müqabilində mənə polkovnik rütbəsi verildi.

Tiflisdə Qafqazın məşhur ziyalıları Abbasqulu ağa Bakıxanov, İsmayıl bəy Qutqaşınlı və Qafqaza sürgün edilmiş dekabrist-yazıçı Bestujev-Marlinski ilə tanış oldum, onlardan çox şey öyrəndim.

Bədii yaradıcılığa şe'rlə başladım, «Zəmanədən şikayət» şe'rimlə zəmanədən o ki var şikayətləndim. Sonralar komediyalar qələmə aldım, 5 ildə 6 səhnə əsəri yaratdım.

Realist Azərbaycan nəsrinin ilk nümunəsini də mən qələmə aldım,

İskəndər bəy Münşinin «Tarixi-aləmarayi-Abbasi» əsərindəki bir mə'lumatdan istifadə edib «Aldanmış kəvakib»i yazdım.

Mən Azərbaycanda materialist estetik fikrin də banisiyəm.

Əlifba məsələsi ilə də məşğul olub, ərəb əlifbasını Şərqin mədəni inkişafı və xalqın savadlanması üçün ciddi maneə hesab etdim, bu barədə İstanbulda – «Cəmiyyəti-Elmiyyəyi-Osmaniyyə»də mə'ruzə oxudum.

Mənə 18-ci əsrin fransız materialistləri və 19-cu əsrin rus inqilabçı demokratları müsbət tə'sir göstərdilər, bəzi mistik baxışlara qarşı çıxdım, yaramaz dini təriqətləri kəskin tənqid etdim. Dedim ki, təbiət əbədi və sonsuzdur. Dedim ki, təbiətdəki keyfiyyətcə müxtəlif cism və hadisə vahid, qadir və kamil varlığın müxtəlif təzahürüdür. Dedim ki, mən külli-ədyanı

(dinləri) puç və əfsanə hesab edirəm. Amma, bunu da dedim ki, yenə islam dini sair dinlərdən yaxşı və mənim üçün məqbuldur.

Dünya və dünyadakılar haqqında, habelə gün və ay barədə çox demişlər. Məsələn, hər şeydən əvvəl biz bu dünyanın mövcud olduğunu gözümüzlə görürük. Biz də Budda (Buddizm dininin banisi. Miladdan 500 il əvvəl doğulmuşdur), Əbdürrəhman Cami, Şeyx Mahmud Şəbüstəri, yunan Ksenofan, italyan Petrark, fransız Volter kimi bir qrup alimlərlə həmfikir olaraq deyirik ki, bütün kainat bir vahid, qadir, kamil və əhatəli varlıqdan ibarətdir ki, saysız-hesabsız varlıqlar müxtəlif şəkillər və şərtlər əsasında vücuda gəlmişdir. Məsələn bu təbii qanundur ki, kişi gərək qadınla yaxınlıq edə, onun nütfəsi qadının rəhimində yer tuta, uşaq doqquz ay ananın rəhimində nəbati həyat keçirə və sonra doğularaq heyvani həyata başlaya, hava ilə tənəffüs edə, süd əmə, bəslənib-böyüyə, cavan ola, qocala, sonra da məhv ola ki, biz buna ölüm deyirik, bununla da cansızlar aləminə qovuşa. Canlılar üçün qanun belədir, yəni şərt belədir, yəni torpağa gedəndən sonra qayıtmağın yoxdur, yəni:

«Geriyə dönməyin olmaz bu gedər-gəlməzdən».

Bizdən əvvəlkilər bu dünyanın vücuda gəlməsini 7 min il sayırdılar. Amma, bu gün qəti dəlillərlə dünyanın vücuda gəlməsinin tarixinin min milyon (milyard – Ş.F.) ildən də çox olduğu bizə isbat edilmişdir.

Mən bu qənaətdəyəm!

İnsanlar arasında
Bərabərlik yox idi.
Qop-qoca Yer Kürəsi
Yaxşı oldu dağıldı.
Qanunlar sırasında
Ziddiyyətlər çox idi,

Yerin kəsildi səsi,
Yaxşı oldu dağıldı.

Mən Yerdə olan maddi bərabərsizlik mühitində maddi bərabərlikdən də danışmışam. Məsələn, demişəm: «Zahirdə ağılabatan budur ki, bu dünya başqa dəyişiklik tapmasa və insan övladı başqa təbiət və xilqət əldə etməsə millətlərin bu vəziyyət və tərkibləri, insanların bu əxlaq və təbiəti ilə maddi bərabərliyi mümkün deyildir!». Demişəm ki, padşahlığın əsası gərək qanunlar üzərində qurulsun. Demişəm ki, ancaq belə olduqda səltənət davam edə bilər və xalq elə padşahın məmləkətini zavaldan qorumaq yolunda fədakarlıq nümunələri göstərər. Demişəm ki, dünyanı cahillik bürüyüb. Cahillik, əlbəttə, düşüncəsizlikdən zahir olur. Cahilliyin sonu puçluğa aparıbçıxarır. Vəfatımdan təxminən yüz il sonra bir neçə cahil adam (lənkəranlı idilər) Bakıda mənim heykəlimi yerindən qoparıb yerə yıxmışdı. Nədi, nədi, mənim yüz il əvvəl yazdığım «Vəziri-xani-Lənkəran» adlı komediyam Lənkəran xanının vəzirini tənqidə mə’ruz qoyub. Məgər bu cahillik deyildimi? Yeri cahillik yıxdı, mənim heykəlim kimi. Lakin, heykəlimi təzədən qaldırıb qoydular öz daşının üstünə. Yerdə isə daş-daş üstdə qalmadı.

Zülmət işıqlanmasa
Məş’əlin nə günahı?
Lənkəranın xanının
Vəziri vəzir kimi
Düz sözü düz qanmasa
Heykəlin nə günahı?
Yaxşı oldu dağıldı!

### *Söz Seyid Əzim Şirvaninindir:*

Şamaxıda doğulub Şamaxıda da öldüm. Mən doğulanda miladın 19-cu əsrindən 35 il ötmüş, öləndə isə həmin əsrin sonuna 12 il qalmışdı. 7 yaşım olanda atam Seyid Məhəmməd vəfat etdi və anamla Dağıstanın Yaqsay kəndində yaşayan babam Molla Hüseynin yanına getdim. Atam seiyd, babam molla… Elə ilk təhsilimi də babamdan aldım, ərəbi, farsı və Dağıstan dillərindən bir neçəsini öyrənim. 10-11 il sonra qayıtdım Şamaxıya və daha iki il sonrasa getdim Dəməşqə dini təhsil almağa. Daha iki il sonra oradan çıxıb Qahirəyə gəldim. Sonra yönəldim yenidən Şamaxıya. Məktəbdar oldum, yeni üsulla «Üsuli-cədid» məktəbi açdım. Mirzə Ələkbər Sabir mənim məktəbimdən çıxan ən sevimli şagirdim olub.

İllər ötdü. Tənqidi realizm ənənələrindən bəhrələnib lirik və satirik şe'rlər yazdım, din xadimlərinin bəd əməllərini pislədim və sonradan elə onlar mənim axırıma çıxdılar. Bu haqda sonra.

«Təzkirə» yazdım. «Tarixi-Şirvannamə» yazdım, uşaqlar üçün «Rəbiül-ətfal» («Uşaqların baharı») adlı dərslik hazırladım, lakin çar senzoru axırıncı kitabımın çapına izn vermədi.

Nə isə…Maarif uğrunda az iş görmədim, molla məktəblərində – mədrəsələrdə tədris olunan dərslərin gerçək həyatı əks etdirmədiyini görüb bir sıra həcvlər yazdım. Arabir bəzi şairləri də həcv edirdim. Məsələn Şüai və Bixudla öz haqq-hesabım vardı. Şüai haqda belə demişəm:

«Hərgiz yox imiş təb'i Şüaidə şüa,<br>
Bihudə qılır şe'r məzaqində niza.<br>
Nəzmindən onun yaxşıdı bir dəstə kəvər,<br>
Nəsrindən onun yaxşıdı bir kol nə'na».

Ondan xoşum gəlmədiyi üçün adını heç «Təzkirə»mə də daxil etmədim. Amma, Bixud başqa məsələ. Onu söyürdüm də, sevirdim də. Məsələn onun həcvində demişdim:

«Rəsmü rəhi-əş'ari tə'lim tapıb məndən,
İndi özünü Bixud ustad sanır əmda.
Bir ayda təmam olmaz tək bir qəzəli hərgiz,
Bir fərdi bu gün yazsa, bir fərdi yazar fərda.
Əfsus o gündən kim, it sahibinə hürsün,
İt olsa quduz yoxdur dərmanı onun, dərda!
Ey Bixudi-kəmhimmət, bu misrəi vird eylə:
Mən əlləməni hərfən, qəd səyyərəni əbda»,

Yəni «Kim sənə bir söz öyrətsə, mən ona qul olaram».

Amma, Bixud yaxşı şair idi. «Təzkirə»mdə onu xeyli tə'rifləmişəm: «Müstəğrəqi-müşahideyi-dəryayi-cəmal və məhvi-mütalieyi-səhifeyi-rüxsarü xəttü xal, sevdayi-məhəbbətin aşiqi-rüsvası və səhbayi-məvəddətin bixudi-şeydası, məhbubi-gülüzarlar sinəfikarı və mə'şuqi-lalərüxsarlar dağdarı, suxteyi-atəşi-fəraq və güdaxteyi-buteyi-iştiyaq Molla Ağa Bixud təxəllüs ibn Hacı Molla Təqi Şirvani».

Bəh-bəh, siz mənim nəsr dilmin rəngarəngliyinə və xoşagəlimliliyinə diqqət yetirdinizmi? Amma, neçə yüz min il bundan əvvəl Şahin Fazil adlı 4 divan sahibi vardı. Məzkur Şahin vaqeən şe'rlərini dövrün ədəbi dilinə müvafiq olaraq asan dildə yazırdı. Məsələn:

«Elə ki, seyr eləyir göz o gözəl cananı,
Cavanın səbri çatışmır, qocanın imkanı».

Amma, əlinə imkan düşən kimi cür'ət edib bizi – yəni Molla Məhəmməd Füzulini, məni və başqalarını tənqid də edərdi. Amma, fərqinə varmırdı ki, elə biz də öz dövrümüzün

ədəbi dilində yazırdıq. Məsələn, Füzuli «Leyli və Məcnun»un dibaçəsində bir görün necə gözəl kəlamlar söyləyir: «İlahi, Leyliyi-sirri-həqiqət sərapərdeyi-vəhdətdən iqtizayi-zühur edib sərgəşteyi-badieyi-ğəflətdə ikən ol şəşəəyi-cəmali görüb, inani-ixtiyarı əldən getdikdə əgər əlaqeyi-abayi-ülvi və rabiteyi-ümməhati süfli ol ləzzəti-canfəzayə və məsərrəti-dilguşəyə vaqif olmayıb, firibi-məvaizgunə və hiyleyi-nəsayehnümunə ilə mühərriki-silsileyi-inqitayi-peyvəndi-visal və müdəbbiri-vəsileyi-infisali-iqti-ittisal olmaq etsələr, təvəqqə oldur ki, nə ol Leyliyi-aləmarayə bu təqrir rəf'i-hicabi-cismanidə mövcibi-tə'xir ola və nə ol Məcnuni-cahanpeymayə bu təqdir nəfyi-təsəvvürati-nəfsanidə baisi-təqsir». Mən də elə həmin dillə «Təzkirə»min dibaçəsində yazıram: «Fəlihaza, bu bəndeyi-qəlilül-bəzaə və bu şərməndeyi-ədimül-istitaə, mühibbil-ürəfa» xadimüş-şüəra Hacı Seyyid Əzim ibn Seyyid Məhəmməd Şirvani, «Seyyid» təxəllüs ki, əsli-tinətim məhəbbət torpağından müxəmmər və eyni-fitrətim məvəddət keyfiyyətindən müsəvvər olmuşdur ta kim, kətmi-ədəmdən qədəm ərseyi-vücudə qoydum, bir ləhzə badeyi-məhəbbətdən bixumar və bir ləmhə nəş'eyi-məvəddətdən huşyar olmayıb, ruzu şəb özümü xublər zülfü rüxsari xəyalilə sərgəştəvü pərişan və gah-bigah kəndimi məhbublar çeşmü əbrusu həvasilə navəki-dilduzi-bəlayə nişan bulub, təbimi qayətdə maili-əş'ar və qəlbimi nəhayətdə şaiqi-əbyati-vəcdasar tapdım». Bu mövzun kəlamların nəyi anlaşılmır, ey Şahin Fazil?

İndisə keçirəm Yerin dağılması məsələsinə. Mən Qur'ani-Kərim və sonuncu rəsulumuz barədə buyurmuşam: «Qur'ani-Əzim kim, mənbəi-bəlağət və mədəni-fəsahətdir, həzrəti-rəsulun möcüzəsi oldu. Amma, Qur'an ki, kəlami-səfabəxşi-sübhanidir, mübtili-müzəxrəfati-şeytani oldu». Bax, Yerin dağılmasının səbəbi də elə budur!

Ölümümün səbəbinə gəldikdəsə, ərz etməliyəm ki, məni məsciddə sıxıb öldürdülər. Bir basabas saldılar ki, xurd-xəşil oldum. Ax mollalar, mollalar!..

Mollalar mən deyənə
Gəlmədilər təbii.
Qiymətimi, qədrimi
Bilmədilər təbii.
Dağılması gərəkdi,
Dağıldı Yer təbii,
Yaxşı oldu dağıldı.

Məsciddən çıxan zaman
Mollalar axırıma
Çıxdılar, öldürdülar,
Sıxdılar, öldürdülər,
Yıxdılar, öldürdülər.
Yaxşı oldu dağıldı!

***Söz Həsən bəy Zərdabinindir:***

Mən Həsən bəy Səlim bəy oğlu Zərdabi maarifçi-demokrat, materialist-təbiətşünas, darvinist-alim, publisist və pedaqoq olmuşam. Tiflis qəza gimnaziyasını və Moskva Universitetinin Fizika-riyaziyyat fakültəsini bitirmiş, bir müddət Tiflis «Mərz palatası»nda, Bakı Quberniya İdarəsində və Quba məhkəməsində işləmişəm. Sonra Bakıda müəllim oldum. 1873-cü ildə Mirzə Fətəlinin «Hacı Qara» komediyasının tamaşaya qoyulmasında iştirak etdim. «Əkinçi» qəzetinin nəşrinə başlayıb Azərbaycan demokratik mətbuatının banisi sayıldım. Çar hökuməti iki il sonra «Əkinçi»ni bağladı, bekar qalıb Zərdaba köçdüm. 1896-cı ilədək orada yaşadım, sonra

Bakıya gəldim, on bir ildən sonra dünyamı dəyişdim, mollalar demişkən axirətə yolandım.

Mən üzvi aləmə uzun sürən tarixi inkişafın məhsulu kimi baxmışam. Dini ehkamlara, dünyanın Allah tərəfindən yaranması və ruhanilərin qeyri-ruhani ideyalarına qarşı çıxmışam. Kainatda əbədi hərəkət və dəyişkənlik fikrini qəbul etmişəm.

Həmişə xurafatın əleyhinə oldum. Həmişə elmi dəlillərə əsaslanmışam. Bizim mollalar deyirdilər ki, göydə hər adamın öz ulduzu var. Nə qədər boş bir cəfəngiyyat! Göy cismlərinin yer üzərində ayrı-ayrı adamların taleyinə heç bir dəxli yoxdur! Dəqiq elmlər Yerdə həyat hadisələrinin bilavasitə günəşin istiliyindən və onun işığından asılı olduğunu sübut etməklə astrologiyanı bir elm kimi dəfn etdi. Elm müəyyən etmişdir ki, Yer üzərində həyatın vüs'əti müəyyən obyektiv şəraitdə və insan iradəsindən kənarda olan qanunauyğunluqlardan asılıdır.

Bir insan kimi deyirəm: İnsan da heyvandır! Amma ağlı artıq olmaq səbəbinə tamam heyvanların padşahıdır. İnsanın heyvan olması xüsusda şəkk yoxdur. Hər bir insanda olan əcza (üzvlər) heyvanda həm var. İnsan da heyvanlar kimi yeyir, içir və onlar kimi tələf olur.

Adları insandılar,
Amma ki, heyvandılar.
Özləri yaxdıqları
Oda düşüb yandılar.
Yaxşı oldu dağıldı.

Mən ölüm yatağında ikən dedim: «Sizdən xahiş edirəm: təntənəli dəfn mərasimi düzəltməyin, məni çox sadə dəfn edin. Dəfn üçün xərclənməsi lazım gələn vəsaiti müsəlmanlar arasında savad yayan cəmiyyətə verin. Bu mənim başı bəlalar çəkmiş xalqım üçün daha faydalı olar».

Yer dağıldı. Mən bilirəm niyə dağıldı. Kainatda belə dağılmalar labüd proseslərdir. O qədər yerlər dağılıb ki…

Qocalmaq zərurəti
Hər bir cismin xisləti.
Yaxşı oldu dağıldı.

Yeri dağıtmayıbdır
Zəlzələ, ya vəlvələ.
Olmasaydı adamlar
Çox yaşayardı hələ.
Yaxşı oldu dağıldı.

Bombalar da atdılar,
Raketlər də atdılar,
Dağ-daşı oynatdılar,
Yaxşı oldu dağıldı.

İnsanların əlindən
Çəkdi ağrı – çatdadı,
Yerin bağrı çatdadı,
Yaxşı oldu dağıldı!

***Söz Mirzə Ələkbər Sabirindir:***

Atam Zeynalabdin xırda alverçi idi. Pis dolanırdıq. Xırdaçılıqdan xoşum gəlmədi və böyük şair oldum.

Bir neçə il mollaxanada, sonrasa Seyid Əzim Şirvaninin «Üsuli-cədid» məktəbində dərs oxudum. Atam məni ruhani, yaxud tacir görmək istəyirdi, amma görə bilmədi, çünki şair oldum. O zamanın şairləri ruhanilik, tacirlik etməzdilər.

Səyahətə başladım. Aşxabad, Buxara, Səmərqənd, Mərv, Səbzvar və Xorasanda oldum, ziyalı müsəlmanlarla

dostlaşdım, bilik və mə'lumatım artdı, amma maddi vəziyyətim mə'nəviyyatımdan geridə qalırdı. Düşünürdüm, maddiyyat da gərəkdir, amma mə'nəviyyat daha zəruridir.

Xalqın sürətli oyanışına ümid edib, Şamaxıda «Ümid» adlı məktəb açdım. Açdım və bağladım. Köhnəpərəstlər qoymadılar.

«Viranə Şamaxidə mənə gənc tapılmaz,
Bir gənc bu viranədə birənc tapılmaz» -

deyib Bakıya köçdüm, bir il sonrasa öldüm.

Gəncliyimdə əsasən mədhiyyə, mərsiyə, növhə yazardım, sonra yolumu dəyişdim, realist oldum, «bədi bəd, əyrini əyri, düzü həmvar» yazmağa başladım, məddahlıqdan qaçdım, yaltaq şairləri «əxlaqsız» adlandırdım.

Şarlatan mollalara, zahidlərə qarşı həmişə sərt olmuşam, çünki onlar ziyalılara qarşı sərt idilər. Ölümümdən bir il əvvəl yazdığım şeirimdə demişəm:

«Zahid ölməkdən qabaq məqsudinə çatmaq dilər,
Cənnətə uyqu ipiylə bir kəmənd atmaq dilər.

E'tiqadınca, yatar-yatmaz qucar qılmanları,
Ol səbəbdəndir nəmaz üstündə də yatmaq dilər.

Əbləhin fikrincə cənnət bir Buxara şəhridir,
Beççə tək qılmanları bulduqca oynatmaq dilər.

Məqsədi sövmü səlatindən bu imişkən, yazıq
Həm Xudanı, həm də məxluqatı aldatmaq dilər».

Bəli, onlar min-bir oyunbazlıq edib həm Allahı, həm də bizi aldadırdılar. Bir tərəfdən də geriliyimiz, elmi geriliyimiz,

texniki geriliyimiz, sivilizasyon geriliyimiz məni üzürdü. Bə'zi inkişaf etmiş ölkə adamları quş kimi göydə uçurdular, bizi isə minbərlərdəki mollalar yerə soxurdular:

«Dindirir əsr bizi dinməyiriz,
Açılan toplara diksinməyiriz.
Əcnəbi seyrə balonlarla çıxır,
Biz hələ aftomobil minməyiriz.
Quş kimi göydə uçur yerdəkilər,
Bizi gömmüş yer minbərdəkilər».

Hələ tamahkarlıq və rüşvətxorluq! Ah tamah, ah rüşvət!..

«Kimdir arif? – deyə sordum, dedilər əsrə görə:
Arifin indi nə dini, nə də imanı olur.
Bunu bildim, tanıdım, zahidi sordum, dedilər:
- Zahidin heç nəyi olmazsa, cibişdanı olur».

Mən zahidləri haqlı tənqid etməkdən heç zaman qaçmadım. Bir para bivec inteligentlərimiz məni təngə gətirmişdi:

«Arif çalışır ki, millət azad olsun,
Zahid çağırır ki, məscid abad olsun.
Söz boynu qraxmallılarındır ki, deyir:
- Bir madmazel olsun ki, pərizad olsun».

Mənim kədərim, xalqımın dərd-səri məni sürətlə öldürməkdəydi:

«Bir tərəfdən təvərrümi-cigərim,
Bir tərəfdən ürəkdəki kədərim».

Ölümüm sür’ətlə yaxınlaşırdısa da, canım yavaş-yavaş, mənə əziyyət verə-verə çıxır, əcəlim qız kimi naz ilə gəlirdi. Deyirdim:

«İstərəm ölməyi mən, leyk qaçır məndən əcəl,
Gör nə bədbəxtəm, əcəldən də gərək naz çəkəm».

Bəzən dünyanın dağılmasını arzulayırdım. Bir gün dözməyib Allahdan soruşdum:

«Bilməm nə zaman qəhrin edər aləmi bərbad?
Səbr etdiyin avanlarına şükr, Xudaya!»

Yenə Allahdan soruşmuşam ki:

«Daş qəlbli insanları neylərdin, İlahi?
Bizdə bu soyuq qanları neylərdin, İlahi?..
Bir dövrdə ki, sidqü səfa qalmayacaqmış,
Bilməm belə dövranları neylərdin, İlahi?
Məzlumlərin gözləri dərya olacaqmış,
Dəryaləri, ümmanları neylərdin, İlahi?»

Və Allah-taala nəhayət ki, dəryanı dağıtdı, ümmanı dağıtdı, dünyanı dağıtdı:

Təməli xoş təməldi,
Əməli xoş əməldi…
Elə bildi gözəldi,
Dağılmaq vaxtı gəldi,
Yaxşı oldu dağıldı.

Aldanıban şeytana,

Başladılar tüğyana…
Ağ oldular Qur'ana,
Öldülər yana-yana,
Yaxşı oldu dağıldı.

Çox şeyi bilməliydi,
Düz yola gəlməliydi…
O cahan ölməliydi,
Ağıllısı dəliydi,
Yaxşı oldu dağıldı!

***Söz Məhəmməd Hadinindir:***

Şamaxıda dünyaya gətirdi anam məni. Erkən yaşımdan atadan yetim qaldım. Bir tacirə ərə getdi anam. Məni və iki bacımı atıb ərə getdi. Bu nə od idi ki, bacılarım və mən düşdüm? Cilayi-vətən düşdüm. Həştərxana getdim, Bakıya gəldim, İstanbula baş vurdum, yenə Bakıya döndüm…

Əmim qızını sevirdim. Onu vermədilər mənə. Kasıb idim. Qız varlı bir tacirə ərə getdi. Anam kimi.

Birinci Dünya müharibəsi. Üç il sürən cəbhə dövrüm: Karpatlarda, Polşa torpağında qaldım, Qaliça əyalətində Lemberqdə (sonra Lvov adlandı), Stanislavoda yaşadım. Çoxlu qürbət şe'rləri yazdım. Yazdım və vuruşdum. Yazdım və savaşdım. Yazdım və döyüşdüm. Şe'rlərimdə Şərq ilə Qərbi müqayisə etdim. Cismən vətəndən ayrı, fikrən vətəndə oldum…

Müharibədən qayıtdım, Gəncəyə getdim. Bacımgildə qaldım bir neçə ay. Üz göstərmədilər. Bakıya gəldim.

Müsavat hakimiyyəti. Azərbaycan Xalq Cümhuriyyəti. Xeyli şe'r yazdım. Əvvəllər yazdıqlarımı toplayıb kitabçalara çevirdim və… satdım. Şair tacirləşdi. Kitabça şairi etdilər kitabsız şairi.

Sonra… Sonrasa «qeyb» oldum, yəni itkin düşdüm, öldürüldüm. Məni öldürənlər bolşeviklərə oxşayırdılar. Tutdular və dərhal öldürdülər.

Cavanlıq çağımda Allahpərəst idim. Vəhşətdən, müsibətdən, fəlakətdən yazırdım və ümidimi «dəsti-qüdrətə» («qadir ələ», yəni Allaha) bağlayırdım. «Allah» deyə-deyə ağlayırdım…

«Qaldıq əlində bir sürü ərbabi-vəhşətin,
Olduq əsiri pənceyi-qəhrü müsibətin.
Hər səmtdən atılmadadır tiri-cangüdaz,
Yoxdur önün alan bu xədəngi-fəlakətin…
Minlərcə binəva quru yerlərdə can verir,
Beş-on ləim naili - dəryayi-ne'mətin…
Hər kəs gərək bərabər ola hər hüquqdə,
Ehsanıdır bu ərz bizə dəsti-qüdərtin».

Diqqət yetirdinizmi? «Ərz», yəni Yer Kürəsi. Yəni ərz bizə dəsti-qüdrətdəndi. Elə dəsti-qüdrət də aldı bizdən ərzi, ona görə ki, insanlar

Savabı atmışdılar,
Günaha batmışdılar,
Bomba yaratmışdılar,
Yoxluğa çatmışdılar,
Yaxşı oldu dağıldı.

Məqalələrimin birində «sə'y və qeyrət hər müşkili açar» dedim, amma nə yazıqlar ki, sə'y və qeyrətimiz var idisə də müşkilimiz açılmadı, çünki aramızda qeyrətsizlərimiz çoxdu, yaman çoxdu.

«Düşündükcə tüklərim ürpərir» deyib Hamletvari düşüncələrə dalırdım. Bu qənaətə gəldim ki, axirətdə, yəni axır dünyada, o biri dünyada, yəni üqbada səadət, lətafət, məlahət,

ləzzət və həqiqət axtarmaq ancaq və ancaq axmaqların işidir. Əslində axirət elə bir yerdir ki, ölən insanın kəlləsi həşərata aşiyan olacaqdır. Düşündükcə tüklərim ürpərir!

«Həyatın səsləri guşimdə həp fəryad şəklində,
Bu insanlar ki qardaşdır və lakin yad şəklində,
Bu torpaq qanlı avlaqdır, bəşər səyyad şəklində,
Bəni-adəm yerin üstündə həp cəllad şəklində,
Ədavət daima vardır, məhəbbət ad şəklində,
Bu dünya əskidəndir səhneyi-bidad şəklində,
Cahan başdan-başa meydani-matəmzad şəklində,
Fərəhlər həbs olunmuş, hüznlər azad şəklində,
Müsibətlər, bəlalər, qüssələr abad şəklində,
Ürəklər qəm oduyla hər zaman bərbad şəklində,
Baxışlar kölgəli, üzlər bütün naşad şəklində,
Bu matəmgahı kim görmüş sürurabad şəklində?»

Bəli, yerdə, yer mülkündə həmişə qan-qada gördüm, çarpışdım, vuruşdum, yazıb-pozdum, axırda da «qeyb» oldum. İndisə

«Fikrim yaşayor məniyi-rənalər içində,
Ruhim uçuyor cənnəti-ülyalər içində».

Amma, bununla belə, filosoflar demişkən maddiyyat dəmi fanidir. Yer fani idi. İfnaya uğradı və dağıldı.

Bədliyə əl atmadım,
Kimsəni aldatmadım,
Məsləkimi satmadım,
Ağlamağım çox olub,
Kimsəni ağlatmadım,
Əmiqızım ərə getdi,

Sevdiyimə çatmadım,
Məni «qeyb» elədilər,
«İtkin» yazıldı adım.
Tale bəla yeritdi,
Yaxşı oldu yer itdi,
Yaxşı oldu dağıldı.

Artıraraq cəbrini
Bitirdilər səbrini,
İtirdilər qəbrini…
Ürəkdə Hadi kini…
Yaxşı oldu dağıldı!

***Söz Cəlil Məmmədquluzadənindir:***

Hüseynqulunun oğluyam. Məmmədquluzadəyəm. Yəni Məhəmmədqulu Hüseynqulu oğluyam. Adqoyanlarımız bizi dünyaya göz açar-açmaz «qul» adlandırdılar. Amma, mən qul olmaq istəmədim.

Adım Cəlildir. Yaxşı ki, Cəlilqulu qoymadılar adımı. Cəlil! Nə gözəl! («Cəlil» elə ərəbcə «gözəl» deməkdir»).

Ədəbi təxəllüsüm «Molla Nəsrəddin» oldu. İlk təhsilimi əvvəlcə mollaxanda, sonra Naxçıvan şəhər məktəbində aldım. Sonrasa Qori seminariyasını bitirib müəllim oldum.

İlk bədii yazım «Çay dəstgahı» adlandırdığım pyes oldu. 5 il sonrasa, XX əsrə 6 il qalmış «Danabaş kəndinin əhvalatları» adlandırdığım povestimi yazdım.

Tiflisdə «Şərqi-Rus» («Rus Şərqi») qəzetində işləyirdim. Peşəm yazmaq və redaktə etməkdi. 1905-ci ildə «Şərqi-Rus» bağlandı. Qəzet bəzi-bəzi fikirli məqalələrinə görə rusun xoşuna gəlməmişdi. Dostum Faiq Nemanzadə ilə birləşib «Şərqi-Rus»un mətbəəsini aldıq və adını «Qeyrət» qoyduq ki, qeyrətlənək bəlkə.

Azərbaycanlı cocuqlar üçün məktəb və pansion da açdım.

Bir il keçdi. «Molla Nəsrəddin» jurnalı. Yaxın Şərqdə əsasını mən qoydum satirik jurnalistikanın. Mənim «Molla Nəsrəddin»imin hətta, Rusiya, Asiya, Avropa və Amerikada da abunəçiləri vardı. Millətim jurnalı oxuyub gülür, gülüb ağlayırdı.

Amma, Rusiya «Molla Nəsrəddin»dən də narazı qaldı. Mənə hücumlar oldu, məhkəmələrə verildim…

İnqilab gəldi, «Musavat» getdi, sovet gəldi və mən Təbrizə getdim. Orada da dinc oturmadım, rusun və sovetlərin acığına «Molla Nəsrəddin»in 8 sayını çap elədim. Bir qədər sonra Sovet Azərbaycanı məni İran Azərbaycanından də’vət etdi Bakıya. Qayıtdım, amma tutduğum yoldan qayıtmadım, yenə realizmə sadiq qaldım, nağıl-mağıl yazmadım və yenə acı həqiqətləri qara mürəkkəblə ağ varaqlara köçürdüm.

«Ölülər». Canlı ölülər. Yoldaş Nəriman Nərimanov demişkən «ideyası inqilabi bir əsər».

Ömrüm boyu cəhalət və nadanlığın düşməni oldum. Qərb imperializmi, Şərq istibdadı əleyhinə, felyetonlar, satirik miniatürlər, məqalələr yazdım. İkinci Nikolaya, Məhəmmədəli şah Qacara, Sultan Əbdülhəmidə, hətta Almaniya imperatoru Vilhelmə ay sataşmışam ha… Elə sataşılmalı adamlardı onlar!

Materialist və ateist olmuşam. Təbiətin heç bir ilahi qüvvəyə bağlı olmadığını və Allahın insanlar tərəfindən uydurulduğunu demişəm. Mənim gülüş hədəfim Allah, peyğəmbər və digər «müqəddəslər» olub. Axı mən də sovet rejiminin yaratdığı «Allahsızlar Cəmiyyəti»nin üzvlərindəndim.

«Dünyalar titrədi, aləmlər mayallaq aşdı, fələklər bir-birinə qarışdı». Mən belə demişəm adını «Azərbaycan» qoyduğum məqaləmdə. Deməli, mən hələ yüz minlərlə illər əvvəl bu günü – Yer Kürəsinin bomba kimi partlayıb dağıldığı günü irəlicədən görmüşdüm. Mənim fırıldaqçı və lotu Şeyx

Nəsrullahım ətrafdakı avam adamlara nə deyirdi? Deyirdi ki: «Bu nədir, vələdüzzina? Nə uymusunuz bu dünyaya? İnnə dünyakum indi lalövlə min vərəqətin fi xümmi cəradətin, yəni ki sizin dünyanız mənim yanımda çəyirtkə ayağında olan yarpaqdan da alçaqdır».

Bəli, lotu mollalar dünya haqqında belə-belə sözlər danışırdılar və dünya eşidirdi həmin sözləri.

Yer-təbiətin yeri,
Torpaq onun torpağı.
Axı o yaradıbdır
Dağı, bağçanı, bağı…
Torpağın qulağı var –
Təbiətin qulağı!
Təbiət dünyamızın
İşlərindən halıydı
Yeri yaratmış idi,
Yeri dağıtmalıydı,
Yaxşı oldu dağıldı,
Yaxşı oldu dağıldı.

Bəli, təbiətin qulağı eşitdi və Yerin ömrü bitdi. Yer kürəsini onu yaradan dağıtmadı, yaradılanlar dağıtdılar. Həyasız və riyalı şeyxlər, acgöz və padoşüz mollalar, qarınqulu varlılar, özlərini Allah sanan hökmdarlar, yırtıcı generallar dağıtdılar. Dünya pis dünya deyildi. Əgər ağıl hissə qalib gəlsəydi dözəcəkdi bu dünya, amma onu pis günə qoydular.

Bu da mə'lumdur ki, Yer üzündə yüzlərlə, bəlkə də minlərlə elm peşə, sənət yaranmışdı, əgər xırdalasam onların sayı bəlkə də on minlərlə idi. Amma, elmdən bixəbər, lakin özünü elmli göstərmək istəyən Şeyx Nəsrullah guya özünün yazdığı «Kəşfül-kəşşafi-hikməti-ric'ət» kitabında özündən uydurduğu dəxi bir neçə elmin adını həyasızlıqla belə sadalayır:

«İn fəqir Nəsrüllah ibni-Cə’fərül-vaizül İsfahani…in risalə ra…bər pənc məqsəd məbni saxt. Əvvəl elmi-simiya, dövvüm elmi-rimiya, sevvüm elmi-kimiya, çəharüm elmi-limiya, pəncüm elmi-himiya».

Ey cəhənnəm sakini Şeyx Nəsrullah,

Elm ilə dünya dolub,
Elmi-kimya olub,
Elmi simiya nədi?
Elmi-rimiya nədi?
Elmi-limiya nədi?
Elmi himiya nədi?
Şeyxin əməli kimi
Elmi dəxi hiylədi.
Yaxşı oldu dağıldı.

Mən Naxçıvanın Nehrəm kəndindənəm. Nehrəmlilərim uzun müddət sevmədilər məni. Çünki mən kəndimin adını məşhur bir əsərimdə «Danabaş» adlandırmışdım. Danabaş, yəni pis qavrayan, kütbeyin, korazehin. Neyləməli, mənim kəndimin adamları çox şeyi gec qavrayırdılar. Əşi, mollalar və cəhaət-xurafat qoyurdu ki tez qavrasınlar? Amma, get-gedə dəyişildilər. Çünki Nehrəmə də maarif ayaq açmışdı. Maarif gəlmiş və gəlişiylə mədəniyyət gətirmişdi. Bəli, nehrəmlilər savadlandılar. Axırı nə oldu? Dağılmaq! Axırı dağılmaq oldu.

Adıma qədirbilməz
Jurnalist demişdilər,
Publisist demişdilər.
Nehrəmli qardaşlarım
Sağlam düşüncəm ilə
İncitdiyimə görə
Məndən incimişdilər.

Əsla gəlmədi uyğun
Təbiət təbiətə.
Təbiəti adamlar
Saldılar nə halətə?!.
Yer Kürəsi dözmədi
Nəhayət cəhalətə,
Yaxşı oldu dağıldı!

***Söz Üzeyir bəy Hacıbəylinindir:***

XX əsrə 15 il qalmış doğuldum. 1899-1904-cü illərdə Qori Müəllimlər Seminariyasında oxudum. Oxumağına oxudum, diplom da aldım, amma gözümü «Molla Nəsrəddin» açdı, Mirzə Cəlilin «Molla Nəsrəddin»i. Həmkarlıq etdim Mirzə ilə. Bir neçə məqalə yazdım «Molla Nəsrəddin»çin.

Sonra özümü musiqidə sınamağa başladım. Bir neçə kiçik musiqi əsərimdən sonra böyük bir opera yazmaq istədim. İstədim və yazdım. «Leyli və Məcnun» operası. Yazdım və müsəlman Şərqində opera sənətinin əsasını qoydum. Dalbadal opera yazmağa başladım: «Şeyx Sən'an», «Rüstəm və Söhrab», «Şah Abbas və Xurşidbanu», «Əsli və Kərəm», «Harun və Leyla».

Azərbaycanda musiqili komediya janrının yaradıcısı da: «Ər və arvad», «O olmasın, bu olsun», «Arşın mal alan».

Əllərim dinc durmurdu (ömrümün sonunda əllərim iflic oldu). Felyeton janrına da əl atdım. Əleyhdarlarımın biri belə dedi: «Üzeyirin felyetonlarından bir özgə iy gəlir». Ona dedim: «Əfəndim, xahiş edirəm bundan sonra mənim yazılarımı iyləməyəsiniz».

Siyasi fəaliyyətim də olub. «Musavat» partiyasının ideoloqlarından və ilk üzvlərindən biri mən olmuşam.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra bolşeviklərin yaratdıqları Fövqəladə Komissiya mənim güllələnməyim barədə sənəd də hazırladı, lakin yoldaş Nərimanov bu əməlin qarşısını aldı.

Sonralar «Koroğlu» operası, «Stalin» kantatası yazıldı. Xalqların rəhbəri operamı çox bəyənmişdi.

Sonra vəfat etdim. Bu xəbəri mühacirətdə eşidən Məmmədəmin Rəsulzadə demişdi: «Başda bir həvəskar olaraq işə başlayan Hacıbəyli, sonra kəndi-kəndini yetişdirmiş, musiqi təhsilini tamamlamış, nəticədə sözün Avropayi formasıyla otoritesini hər kəsə tanıtmış bir kompozitor olmuşdur. Yazıq ki, bolşevik rejimi Azərbaycanın bu müstəsna zəkasını da kəndi diktatorluğu altına almış və onu bayağı mənfəətləri üçün sömürə bulduqca sömürmüş və verdiyi bir takım rəsmi və siyasi vəzifə və ünvanlarla onu «mənimsəmişdir». Fəqət, beyhuda, dəmir pərdənin arxasında kəndisinə süni marşlar yazdırılsa da, Moskvada omuzu diktatorun əliylə oxşadılsa da, tabutu başında Azərbaycan mə'nəviyyatı ilə ilgələri olmayan komissarlar növbədə dursalar da, Hacıbəyli Üzeyiri Azərbaycandan, Azərbaycan kültüründən və Azəri Türk tarixindən kimsə ayıramaz» (Bu cümlələri Anarın Üzeyir Hacıbəyov haqqında yazdığı məqaləsindən əxz etmişəm – Ş.F.).

Məni sələflərim və xələflərim həmişə düşündürürdü. Necə ki, «Gələcəyi unutmayalım» adlı bir məqaləmdə yazmışam: «Biz indi görürük ki, bizim sələflərimiz bizdən ötrü nə tövr gələcək hazırlayıblar. İçimizdə olan müxtəlif əməllər, fəna rəftarlar, axırımıza çıxacaq qədər bizi bezar edən pis-pis hərəkətlər hamısı sələflərimizin adətləri imiş ki, bu günə qədər içimizdə davam edib, tərəqqi və təalimiz üçün böyük sədd olmuşdur. Əgər sələflərimizin işlərinə dürüst diqqət edərsək, belə bir nəticəyə gələ bilərik ki, sələflərimiz bizi yox etmək, yer üzündən götürmək istəyirmişlər. Biz dəxi, əlbəttə, sələflərimizə iqtida edərsək, gələcək xələflərimiz üçün çox bir əsəfli (təəssüfləndirici)

istiqlal hazırlarıq ki, bəqası məşkuk (şəkkli) və davamı iştibahlı (səhvli) olar».

Həqiqətən də mənim irəlicədən gördüyüm bəqa məşkuk, davam isə iştibahlı oldu və Yer Kürəsi dağıldı.

Soldu gülü, gülzarı,
Batdı sərvəti, varı,
Zahir oldu inkarı,
Yıxdı dini dindarı,
Qalmadı xoş rəftarı,
Olmayacaq me'marı,
Ə'lahəzrət Yer şarı
Yaxşı oldu dağıldı.

Halətini gör indi,
Qismətini gör indi,
Səpələnən göylərə
Sərvətini gör indi,
Namusunu, arını,
İsmətini gör indi.
Var donunu itirib
Yox donuna büründü,
Yerində çox süründü,
Dağılması göründü,
Yaxşı oldu dağıldı.

Mən «İrşad» adlı qəzetdə yazmışdım: «İtaliya münəccimlərinin deməyinə görə beş-altı gündən sonra dünyanın axırıdır. Görünür ki, bu xəbər çox adamlara bərk əsər (tə'sir) eləyibdir. Ona görə də yamanca əl-ayağa düşüblər».

Dünya italyan münəccimlərin söylədikləri vaxt dağılmadı, amma nəhayət ki, dünyanın axırı gəlib çatdı.

Xalqımın təşəkkürü –
Təltifim, ödüllərim…
Avaz gülüstanında
Əsərlərim – güllərim.
Bəlli idi Tanrıya
Xeyirxah əməllərim.
Ömrümün axırında
İflic oldu əllərim…
Yaxşı oldu dağıldı.

Söylədilər gün qara –
Qara gərək ağ olsun,
Bir əli gül bəzəsin,
Bir əldə yaraq olsun.
Gah dedilər hər tərəf
Bağça olsun, bağ olsun,
Gah dedilər dağılsın,
Sinəsi dağ-dağ olsun…
Bu sözləri eşidən
Allahımız sağ olsun,
Yaxşı oldu dağıtdı,
Yaxşı oldu dağıldı!

***Söz Hacı Molla Yəhyabala Qübbəlinindir:***

1906-cı ildə Qubada doğuldum və düz 80 ildən sonra elə Qubada da Allah-taalanın rəhmətinə qovuşdum.

Mədrəsədə oxumuşam. Müəllimim Hacı Molla Şeyx Hüseyn olub ki, Pərvərdigarımız onu ğəriqi-rəhmət eləsin.

İxtisas sənədimdə «əməleyi-mövta» («ölüm işləri ilə məşğul olan mütəxəssis») yazılmışdır və uzun illər Qubada Hacı Cə’fər məscidinin (Axund Hacıbaba cümə məscidinin) rövzə-

xanı olmuşam. Mərsiyəxanlıq da etmişəm, muğam da oxumuşam, hələ bir neçə qəzəl də yazmışam.

Mən muğamatı həmişə odda yanan səməndər quşu kimi yana-yana oxumuşam. Yanıqlı avazımla yandırmışam öz vücudumu. Ən çox ibrətnamə-vücudnamələrdən bəhs edən qəsidə və nə'tlər oxumuşam. Oxumuşam, özü də başqa mərsiyəxan və rövzəxanların oxumadıqları «Bayatı-İsfahan», «Bayatı-kürd», «Xavəran» kimi həzin və ağlamalı muğamlar üstündə oxumuşam.

Mən mərhum şair Dilsuzun «Bax» rədifli qəsidəsini dillər əzbəri etdim. Mən elə uşaqlığımdan Dilsuzun özü kimi daim cahanı, zamanı və asimanı öz bəsirət gözümlə seyr etmişəm, yana-yana gözəl bir qəsidənin mətləsində (ilk beytində) öz-özümə belə nəsihət vermişəm:

«Ey dil, nə yatmısan, gözün aç, bir cəhanə bax,
Səthi-zəmani seyr eləyib asimanə bax».

1978-ci ildə Məkkeyi-mükərrəməni ziyarət etdim və ateizm təbliğatının tüğyan etdiyi vaxtlarda heç kimdən qorxub-çəkinmədən öz şəxsi evimdə gənclərə Qur'ani-Kərimdən dərs dedim, qabil mollalar yetişdirdim. Ümumiyyətlə, mən mollalara, o cümlədən də özümə, öz şəxsiyyətimə hörmət edən adam olmuşam. Mollasız nə cəmiyyət, nə bəşəriyyət? Amma, hətta böyük şairlər də, yazıçılar da tez-tez biz mollalara sataşıblar. Məsələn Seyid Əzim Şirvani. Məsələn Mirzə Ələkbər Sabir. Məsələn Cəlil Məmmədquluzadə. Neçə yüz min il bundan əvvəl «Molla Nəsrəddin» adlı bir jurnal çap olunardı. Sonra onun nəşrini dayandırdılar. Bir neçə il sonrasa «Molla Nəsrəddin»i «Kirpi» əvəz elədi, yəni insanı heyvan əvəzlədi. Ax «Kirpi», «Kirpi»! Ax heyvan, heyvan! Başladı ona-buna, hətta mənə də iynələrini sancmağa. Nömrələrinin birində millətə nömrə gəldi, barəmdə yazdı ki, Qubalı Molla Yəhyabala bir yas yerində

başladı ağlamağa və gözlərindən yaş əvəzinə başladı konyak qətrələri axmağa. Nə deyim mən o axmağa? Əşi, nə konyak? Nə araq? Nə pivə? Vallah-billah, mən Qur'an adamıyam və o müqəddəs kitabda məkruh buyurulan əməllərdən uzağam. Şərbət başqa məsələ. O qədər nuş etmişəm ki!.. Ax kafərlər, kafərlər! Onlar çox adamı, hətta biz əməlesaleh mollaları da şantaj eləyirdilər ki, günlərin bir günü mən də şantaj olundum. Amma, zənnimcə içkini içirdi məsələtün Seyid Əzim Şirvani. Elə özü də bu əməlini etiraf edib bir qəzəlində yazmışdı:

«İçib hər şam mey yar ilə, etdim səhər tövbə,
Sınar saatbəsaət, şişeyi-meydir məgər tövbə?

Su içməkdən mənə asandı, saqi, tövbə sındırmaq,
Əlim tut, dur əyağə, cam ver, verməz zərər tövbə.

Xəyali-lə'li-yar ilə həmişə məstəm, ey vaiz,
Nədir vermək mənə meydən dəmadəm bisəmər tövbə?»

Hətta həmin Seyid Əzim şəhri-Tiflisdə, üzr istəyirəm, mə'şuqəbazlıq edən vaxt utanmaz-utanmaz belə yazmışdı:

«Tiflisdə bir sərvqədü siməndam,
Mehmanım olub bir gecə içdi neçə cam.
Sordum ləbini, güldü dedi: - Ey Seyyid,
Şər' ilə məgər deyil sizə badə haram?»

Bu da bizim içkibaz və mə'şuqəbaz şairimiz Seyid Əzim Şirvani! Amma camaatımız içində əməlisalehlər də çoxdu. Məsələtün mən özüm!

Ax dünya, dünya! Hanı yoldaş Mir Cəfər Bağırov? Hanı onun Qübbədəki qohum-qardaşı? Hanı Mirzə Ələkbər Sabirin, Üzeyir Hacıbəylinin tənqidanə tərzdə adını zikr etdikləri Axund

Hacıbaba Lənkərani? Hanı Molla Nəcəfqulu Qübbəli? Hanı o mömün zatın kürəkəni Həsən Əmioğlu? Hanı Kəblə Həmdullah Talıbov? Hanı Qəçrəşli Fazil kişi? Hanı Susaylı Sultan müəllim? Hanı Əlhadi Kərimov? Hanı Qübbənin aşağı məhlə, yuxarı məhlə camaatı? Hanı Bakı əhalisi? Hanı dünya sakinləri? Yoxdur! Yoxdurlar! Amma cismən yoxlarsa da ruhları var! Mən onların ruhlarına xitabən deyirəm:

Qübbəlilər var idi,
İndisə batdı-getdi.
Kəndçi də batdı-getdi,
Fəhlə də batdı-getdi.
«Aşağı», «Yuxarı» adlanan
Məhlə də batdı-getdi.
Mədinə də, Məkkə də,
Kə'bə də batdı-getdi.
Batanların içində
Qübbə də batdı-getdi.
Sonsuz kainat içrə
Yer Kürəsi adlanan
Zərrə də batdı-getdi,
Yaxşı oldu dağıldı.

Elə dağılmalıydı da. Bəzi şair-mairlər kimlərisə peyğəmbərə, hətta Allaha bənzətməyə başlamışdılar. Küfr aşıb-daşmışdı. Adi bir çobana bir görün eşqindən Məcnuna dönən Ağaməhəmməd Məxmur adli bir şaircığaz nə deyir:

«Ey sözləri dərdimin dəvası,
Canım bu qoyunların fədası.
İsa kimi sözlərində yox şəkk,
Musa da çoban idi sənin tək».

Əşi, müqayisəyə baxın: Adi bir çoban Məxmur və əksinə ali bir çoban Musa peyğəmbər. Hələ İsa peyğəmbəri demirəm.

Dinə inanmırdılar,
Cinə inanmırdılar,
Cəngdən usanmırdılar,
Düz sözü qanmırdılar,
Qur'anı anmırdılar,
Məndən utanmırdılar,
İçkini danmırdılar,
Yaxşı oldu yandılar,
Yaxşı oldu dağıldı.

İnsanlar azğınolmuşdular, çaşğın olmuşdular, sanki bihuşdular, dinsiz ləinlərin kitablarını oxuyub coşdular, bir-birləriylə hey vuruşdular. Başladılar Allah-taalaya, peyğəmbərə, imamlarımıza şəkk gətirməyə, qiyamət gününə, cənnətə, cəhənnəmə inanmamağa. Çünki bilmirdilər ki, həqiqəti yazan mollalar da var. Məsələn, Şah Abbas dövrünün savadlı mollalarından olan Axund Molla Məhəmməd Bağır Məclisi və onun kitabı «Həqqül-yəqin». Cənab axund-molla yazır: «Əvvəla, inanmalısınız ki, Sirat haqdır, o da cəhənnəmin üstündən keçən bir körpüdür ki, qiyamətin günündə bütün məxluqat onun üstündən keçəcəkdir. Bu körpü tükdən nazik, qılıncdan iti və oddan istidir». Xalis mömünlər, məsələn mən, Axund Molla Hacıbaba Lənkərani, Kəblə Həmdullah Talıbov və bizim kimi başqa möhtərəmlər bu körpünün üstündən büdrəmədən, sür'ətlə və çox asanlıqla keçəcəklər. Lakin günahkarlar Sirat körpüsünün üstündə titrəyəcəklər və dərhal sürüşüb cəhənnəmə düşəcəklər.

Bəli-bəli, həmin cəhənnəmliklər dağıtdılar dünyanı:

Təlx oldu həyat dadı,

İtdi salavat dadı…
Uçuşunu qatdadı,
Yaxşı oldu çatdadı,
Yaxşı oldu dağıldı.

İndicə özünün və kitabının adını ehtiramla çəkdiyim cənab Axund Molla Məhəmməd Bağır Məclisi cəhənnəm barədə bir görün daha nə buyurur: «Cəhənnəmin yeddi təbəqəsi vardır: birincisi – cəhənnəm, ikincisi – səir, üçüncüsü – səqər, dördüncüsü – cəhim, beşincisi – ləza, altıncısı – hətəmə, yeddincisi – haviyə adlanır».

Gördünüzmü? Bildinizmi cəhənnəmin təbəqələrinin adlarını? Amma insanlar göyün təbəqələrini insaf-zad bilmədən dəlik-dəlik etmişdilər, hətta əmrikayilər (amerikanlar) və şurəvilər Məhəmməd peyğəmbərimizin barmaqla «şəqqülqəmər» («ayın şaqqalanması, iki yerə ayrılması») etdiyi ayı da özləri və gorbagor övladları üçün bölmüşdülər:

Səmanı dəlmişdilər,
Fəzanı dəlmişdilər,
Tanrıya gülmüşdülər,
Ayı da bölmüşdülər…
Yaxşı oldu dağıldı.

Nə isə!.. Axund Molla Məhəmməd Bağır əleyhüssalam və-r rəhmə öz mübarək kitabında yenə buyurur: «Cəhənnəmin şərabı isti həmim və qətrandan, təamı isə zəqqumdan ibarətdir. İsti həmim irin və çirk deməkdir. Bu isti həmim deyilən elə bir şeydir ki, əgər ondan bircə qətrə dünyanın sularına qarışsa yer üzündə olan bütün insanlar onun qorxusundan həlak olarlar». Bəli cəhənnəmliklərin çoxu indi həmim içməyə məruzdurlar:

Lə’nət ola onlara,

Günləri qırdan qara.
İndi kədər biçirlər,
İsti həmim içirlər.
Həmim çirk, həmim irin.
Baxmadılar sözünə
Xudavəndi-qadirin.
Yaxşı oldu dağıldı.

Mən həzrət Molla Məhəmməd Bağır Məclisidən ona görə misallar gətirirəm ki, cəhənnəm barədə o cənabdan ətraflı mə'lumat verən başqa bəni-adəm yoxdur. Cəhənnəmin nə kimi yer olduğunu insanlarımız yaxşı təsəvvür etmirlər. Elə mən özüm də bilmirdim. Mən cənnətdəyəm!

Cənab axund yenə buyurur: «Cəhənnəmdə bir dərə vardır ki, onun içində yetmiş min ev vardır. Hər evin içində yetmiş min otaq və hər otağın içində yetmiş min qara əf'i ilan, hər ilanın qarnında isə zəhərlə dolu yetmiş min kuzə vardır. Cəhənnəmin istiliyi bu dünyadakı odun istiliyindən yetmiş qat artıqdır».

Danıb qəza-qədəri
Yaşadınız hədəri.
Düşmədiniz cənnətə,
İçmədiniz Kövsəri.
İndisə cəhənnəmdə
İçin ilan zəhəri –
Yaxşı oldu dağıldı.

Cənab mollanın dedikləri beyninizə batdımı? Bu hələ harasıdır? Görün həzrət molla daha nə buyurur: «Bunlardan başqa cəhənnəmdə qırx bucaq vardır, hər bucaqda bir ilan, hər ilanın qarnında üç yüz otuz əqrəb, hər əqrəbin neştərində üç yüz otuz kuzə vardır»:

Ey cəhənnəm uşağı,
Bildinmi qırx bucağı?
Üstündə Ana Yerin
Düşünmədiniz dərin.
Hamısı sizinkiydi
Kuzədəki zəhərin.
Yaxşı oldu dağıldı.

Allahın şəriətini, şəriətin təriqətini, dünyanın qədir-qiymətini, övliyaların xətir-hörmətini, biz mollaların hidayətini bilməyən ey bədbəxt insanlar. Qulaq asın. Cənab axund yenə buyurur: «Cəhənnəmdə bir quyu vardır ki, onun ağzını açanda cəhənnəm alovlanır. Süud adlı misdən bir dağ vardır ki, ətəklərindən ərinmiş mis çayı axır. Bu dağın hərarəti, kəsafəti və üfunəti o qədər şiddətlidir ki, cəhənnəm əhli onun əzabından daima fəryad edərlər»:

Cənnət imtina etdi
Adamların pisindən,
İçdilər cəhənnəmin
Kəsif süud misindən,
Yaxşı oldu dağıldı.

Cənab mövla Molla Məhəmməd Bağır ağa yenə buyurur: «Ölüm cəhənnəm əhlinə nəsib olmaz ki, bununla əzabdan xilas olsunlar. Cəhənnəm günlərinin hər birinin uzunluğu bu dünyanın min ilinə bərabərdir. Cəhənnəmdə yananlar fəryad edib yalvarırlar ki, «Ey Allah, bizi cəhənnəmdən çıxart ki, sənə layiq olan əməllərlə məşğul olaq». O zaman Allahdan xitab gələr ki, «Məgər dünyada sizə həyat bağışlamamışdım ki, mənə ibadət edəsiniz, aqibətinizi düşünəsiniz? Məgər sizə hər işdə xə-

bərdar edən və sizi qorxudan peyğəmbərlər göndərməmişdim? İndi çəkin bu əzabı. Öz cəzanızdır və sizə əsla nicat yoxdur»»».

Mən hal-hazırda cənab Axund Molla Məhəmməd Bağır ağa ilə birlikdəyəm. Biz cənnətdəyik! Söhbəti çox uzatmaq istəmirəm. Mə'lumdur ki, mən sovetlərin tüğyan etdiyi bir dövrdə yerdə yaşamışam. İndisə göydəyəm, cənnətdəyəm. Şurəvi, yəni sovet cəmiyyəti dini dövlətdən ayırmışdı. Allah şurəvilərin əksəriyyəti üçün cəhənnəm müəyyən etdi, inşallah.

Onlar hardan çıxdılar?
Onlar hardan gəldilər?
Əvvəl yeri dəldilər,
Sonra göyü dəldilər.
Yaman bəd əməldilər,
Yaxşı oldu öldülər,
Yaxşı oldu dağıldı.

Mən Axund Molla Yəhyabala Yəhyayev Yusif oğlu Qübbəli artıq öz sözümü bitirirəm. Əsasən sovet dövründə yaşasam da, sovetizmə həmişə nifrət etmişəm:

Sovetlərin işləri
Ağlamalı, gülməli.
İş başına gəlirdi
Bir də gördün bir dəli.
Ölməlisi qalırdı,
Qalmayırdı ölməli.
Yenə də zülm edirdi
Qüvvəsizə qüvvəli.
Bir daha elan edir
Yəhyabala Qübbəli:
Yaxşı oldu dağıldı!
Yaxşı oldu dağıldı!!!

### *Söz Şahin Fazilindir:*

Mən Kərbəlayi Məşədi Şahin Faziləm və mən də Axund Molla Yəhyabala Qübbəli kimi sovet dövründə yaşayanlardanam. Dövrümüz, dövranımız olduqca təzadlı idi. Özümün özümə verdiyim cürbəcür sullar içərisində çaş-baş qalmışdım: «Əcəba, varlıq nədir, yoxluq nə» deyə-deyə heyrət içərisində idim. Bir gün varlıq və yoxluq barədə belə bir şe’r yazdım:

Cəlb etmədədir fikrimi daim
Varlıq ilə Yoxluq!..
Yoxluq ilə Varlıq!..
Bilməm bu iki anlayışı izah edər kim?
Təsdiq eləyər kim?
İnkar eləyər kim?
Varlıq ilə Yoxluq!..
Yoxluq ilə Varlıq!..
Varlıq Yoxa uymuş,
Yoxluq Vara uymuş,
Varlıq ilə Yoxluq arasında
Vardırmı uyarlıq?
Varlıq ilə Yoxluq!..
Yoxluq ilə Varlıq!..

Varlıqmı zərurət?
Yoxluqmu zərurət?
Bilməm ki, bunun hansı yalan, hansı həqiqət?
Sonsuz nədi, sonsuzluğu izah eləyər kim?
Sonsuzluğu təsbit eləyib xəlqə deyər kim?
Cəlb etmədədir fikrimi daim
Göylərdəki hikmət,
Yerlərdəki xilqət,
Göylərdəki qüdrət,

Yerlərdəki qüvvət,
Göylərdəki cənnət,
Yerlərdəki heyrət,
Göylərdəki ne’mət,
Yerlərdəki ləzzət.
Bundan bizi agah eləyər kim?
Cəlb etmədədir fikrimi daim
Surətdəki mə’na,
Mə’nadakı surət…
Surət nə deməkdir?
Mə’na nə deməkdir?
Varlıq ilə Yoxluq arasında
Də’va nə deməkdir?
Məcnun nə deməkdir?
Leyla nə deməkdir?
Naçar eləyən onları sevda nə deməkdir?
Gerçək nə deməkdir?
Xülya nə deməkdir?
Həm Varlığı, həm Yoxluğu ey xəlq eləyən Kəs,
Heç bilməyirəm ki,
Dünya nə deməkdir?
Gülzar nə deməkdir?
Səhra nə deməkdir?
Atəş nə deməkdir?
Dərya nə deməkdir?
Dinclik nə deməkdir?
Qovğa nə deməkdir?

Hərdən verilibdir bu suallarə cavablar,
Minlərlə sual var,
Yüzlərlə cavab var,
Cayizmi suallar?
Düzgünmü cavablar?

Məşğul eləyir fikrimi hər dəm
Cənnət və cəhənnəm –
Cənnətdəki gülşən və cəhənnəmdəki atəş,
Atəş – neçə aləmdəki atəş,
Dünyadəki atəş,
Üqbadəki atəş…

Varlıq ilə Yoxluq!..
Yoxluq ilə Varlıq!..
Yarəb, bu iki kəlməyə vardırmı uyarlıq?
Yoxdurmu uyarlıq?
Düzgün cavabı tapmaq üçün kim,
Kimlər edəcəkdir mənə yarlıq?

Məşğul eləyir fikrimi daim
Varlıqda olan var ilə Yoxluqda olan var,
Varlıqda olanlar ilə Yoxluqda olanlar…

Mən bu şe'ri miladın 19 sentyabr 2003-cü ilində yazmışam. İndi həmin tarixdən yüz min illər ötmüş və Yer Kürəsi dağılmışdır. Biz var idik, yoxmu olmuşuq? Axı varıq! Necə yox ola bilərik? Şükür Sənə, Sənin əzəmət və qüdrətinə, ey Yaradan!

Ey qibleyi-aləm və aləmlər! Ey Allah, Xuda, Tanrı, Pərvərdigar, İzəd, Yəzdan və Yaradan! Bu nəsr və nəzmlə qələmə aldığım poemadakı bütün surətlər – Sən özün də, cənab peyğəmbər də, İmadəddin Nəsimi də, Şah İsmayıl Xətai də, Məhəmməd Füzuli də, Kopernik də, Bruno da, Qaliley də, Volter də, Kant da, Hegel də, Didro da, Bakıxanov da, Mirzə Fətəli də, Seyid Əzim də, Zərdabi də, Sabir də, Hadi də, Məmmədquluzadə də, Hacıbəyli də, Molla Yəhyabala da Yerin dağılması xüsusunda «Yaxşı oldu dağıldı» dedilər. Başqalarını deyə bilmirəm, amma Sənə və peyğəmbərimizə əsla şəkk

gətirmirəmsə də, yenə də şübhələr məni didir. Doğrudanmı Yer Kürəsi yaxşı oldu dağıldı?

Heyrətdəydim onda mən:
Varlıq vardı, yox varmı?
Yoxluq vardı, var varmı?
Yerdən yaxşı Yer varmı?
Ey Xudavəndi-aləm,
Belə demək olarmı
Yaxşı oldu dağıldı?

*Bakı-Mərdəkan-Bakı*
*21 avqust – 18 dekabr*,
2007-ci il

## MÜNDƏRİCAT


Redaktordan....................................................................................səh. 3
Şe’rimi Qur’an oxuyub yazmışam..................................................səh. 9
**DİBAÇƏ**........................................................................................səh. 10
Minacat.............................................................................................səh. 24
Nə’t...................................................................................................səh. 31
Xəzaniyyə..........................................................................................səh. 36
Qəsidələr.......................................................................................səh. 38-61
Mərsiyələr......................................................................................səh. 62-67
**QƏZƏLLƏR**
Həm yar yaşar, həm də ki, əğyar cahanda.....................................səh. 68
Qüvvəm tükənib, tabü təvan yoxdu canımda..................................səh. 68
Lal oldu dilim bir neçə təqsir qabağında.......................................səh. 69
Cismimizdə üzülüb can sən öləndən sonra.....................................səh. 70
İllərlə düşündüm ki, zəfər var qabaqda.........................................səh. 71
Mənə öz lütfünü ol şah edər Allah qoysa.......................................səh. 71
Vəsl üçün səndə, gülüm, olmadı imkan quruca...............................səh. 72
Eşq vardı ki Adəm ilə Həvva arasında............................................səh. 73
Gənclik tütəyin ki, füləyirsən qocalıqda........................................səh. 73
Gənclik tütəyin ki, füləyirsən qocalıqda........................................səh. 74
Ayrılıq atəşinə yanmada canım, yarəb...........................................səh. 75
Ey pəri, naləm də yadımdan çıxıb...................................................səh. 76
Sözünü söyləyə bilmirsə əgər dil, qocalıb....................................... səh. 77
O gündən ki, vətən torpağı içrə nalə, qəm qalxıb..........................səh. 77
Qabırğa ağrısın çəkdim, onu var eyləmə, yarəb..............................səh. 78
İstəyim yoxdu daha, söyləməyin var… Gedib.................................səh. 79
İstinad etməyə yer yoxdu, dayağım dağılıb....................................səh. 79
Düşünürdüm qısalıbdır, yenə imkan uzanıb....................................səh. 80
Eyvah, sarıbdır yenə cananı tərəddüd............................................səh. 81
Aşiqlərə çəkdin elə bir dağ bu şəhərdə..........................................səh. 82
Elə ki, gözlərini dikmədi sirdaş üzümə...........................................səh. 82
Almaqla canı sevgili canənə nişanə................................................səh. 83
Qismətsə vüsal aşiqə hicran ilə birgə.............................................səh. 84
Qismət olsan Şahinə, qismət – vüsal olsun sənə.............................səh. 84
Bu bağın meyvəsi bir cür, o bağın başqa cürə................................səh. 85
Xoş gəliblər yurduma istəkli qarlaşlar yenə....................................səh. 86
Ölkəmizə Şahi gəlibdir yenə...........................................................səh. 86
İstəsə bir də fələk aləmə Leyla gətirə.............................................səh. 87
Yarəb, nə qədər arzu, dilək var ürəyimdə.......................................səh. 88

Səhvim hanı, islah oluram Şahi gələndə…………………………….....səh. 89
Cismim, düşünürdür ola rahət qəbir içrə……………………………….səh. 90
Olmuşam orda ölüb, burda giriftar, anacan…………………………səh. 91
Sevda alovu öylə işıqlandı gözündə……………………………………..səh. 92
Tərk oldu sədəf, yox daha, ümmanını gəzmə………………………….səh. 93
Üç ildir ki, qoyub getdin məni, ey yar, təklikdə……………………….səh. 93
Çoxdursa gözəllər, gözəlim, gər yer üzündə…………………………səh. 94
Bu nə həzzdir ki, yığılmış bu qədər qəm məndə……………………….səh. 95
Yarım, üzünü seyr edirəm, yanə çevirmə……………………………….səh. 96
Şirinim, getməyirəm mən daha ovlağlərə………………………………səh. 97
Ayağım badə qabağında, əlim dəftərdə………………………………..səh. 97
Bir zərrə azalmır kədərü qəm, belə getsə……………………………….səh. 98
Yol gözləyirəm, ey pəri, zarəm, xəbər eylə……………………………..səh. 99
Vardırmı səmimi o səmimanədən özgə…………………………….....səh. 100
Çərx əlindən o qədər zərbə dəyib başlərə……………………………...səh. 100
Sən ki məni qoydun bu qədər xiffət içində…………………………….səh. 101
Qorxuram tazə məhəbbət mənə dərd-qəm gətirə……………………..səh. 102
Dərd fırlanır ətrafıma dildar əvəzində…………………………………səh. 103
Neçə gündür ki, o cananə görünmür gözümə………………………….səh. 103
Mən duman-çən görürəm Şahdağın üstündə yenə…………………….səh. 104
Varsa iki sevgi bir baş içrə…………………………………………….....səh. 105
Mey nuş edirəmsə yenə canan ilə birgə………………………………..səh. 106
Gəldin yanıma getdi fərağım, daha getmə……………………………..səh. 106
Olmaz mənə həmdəm biganə içində……………………………….......səh. 108
Gər qova şənliyi Rəbbim bu pərişanə tərəf……………………………səh. 108
Eşidən vəqt həmən «La ilahə illəllah» ……………………………….....səh. 109
Yazmışam «Divan»ımı, zəhmət olubdur yaxşı……………………….....səh. 110
Dedilər gərçi şəfa cövrü cəfadən yaxşı…………………………………səh. 111
Ah eylədi sevdayə düşüb, dad ilə yandı………………………………...səh. 111
Gəl yanıma ləğv elə hicranımı…………………………………………...səh. 112
Özün getdin, gözümdə cilvələndi surətin qaldı……………………......səh. 113
Elə yaxşı tanıdım mən o qədər cananı………………………………….səh. 114
Gəlməyirsən, yad ilə mən işrət etsəm, yaxşımı………………………....səh. 114
Aşiqlər içində yenə biçarə tapıldı………………….……………………..səh. 115
Misgər dedilər zərgərə, zərgər yaralandı……………………………….səh. 116
Hiddətlə döyüşmək yerinə düşmənə qarşı……………………………...səh. 116
Yarım ki, yar oldu yaxşı-yaxşı…………………………………………...səh. 117
Eyvah, neçin küsdü o dilbər aralandı……………………………………səh. 118
Verələr gər cahanı aşiqə canan əvəzi…………………………………...səh. 118
Vardırsa da aləmdə əgər çox kərəm əhli……………………………….səh. 119

Görüş üçün elə ki oldu nigarın meyli……………………………….səh. 120
Getmişdi uçub, durna qatarım yenə gəldi…………………………….səh. 121
İtirib faydanı gördüm zərərin ləzzətini……………………………….səh. 121
Eşq eyləməyə şəm’ə pərvanə gəlib Şahi……………………………….səh. 122
Tutub ox əldə şövq ilə çəkəndə yayi Movlayi……………………….səh. 123
Saxlasın Pərvərdigar əqlin bəlasından məni………………………….səh. 124
Cəhli görcək öylə çəkdi ah Əli……………………………………….səh. 125
Qədim İran diyarında keçirdi yayi, xoş gəldi………………………..səh. 125
Gəncə ona şöhrət, ora şan oldu Nizami……………………………..səh. 126
Əzməyə cəhd eləyibdirsə də çox pəncə məni………………………..səh. 127
Şah olmaq üçün şe’rə dövranə gəlib Şahi…………………………...səh. 128
Şəm’tək ağlar bu Şahin, sən gülürsən gül kimi………………………səh. 129
Fəryadə salan aşiqi hicran deyilmi……………………………………səh. 129
Eşqi başa düşmürdüm, Adəm mənə öyrətdi………………………….səh. 130
Əlimi sıxsa da illər boyu mərdanə əli…………………………………səh. 131
Öyrədənlər bizə qəm, qüssə, qubar öyrətdi…………………………..səh. 132
Faidəm yoxdu bu dünyadə zərərdən qeyri…………………………….səh. 133
Kim ki, qapına gəldi, fəğan eylədi – getdi…………………………….səh. 133
Yarım gözünü yumdu, fəğan oldu, İlahi……………………………….səh. 134
Busəndi, - dedim, - dərdimə dərman, nə dedim ki…………………….səh. 135
Bizi tərk eyləyər bir gün kədər vallahi-billahi………………………..səh. 136
Gətirən yoxdu bu aləmdə neçin halə məni……………………………səh. 136
Görsənməli idi, niyə dildar gecikdi…………………………………….səh. 137
Məhəbbət rəsmini insanlara əfsanə göstərdi…………………………..səh. 138
Cam sındı və Cəm də keçdi – getdi……………………………………səh. 139
Ramazan gəldi, nə xoş gəldi, orucluq gəldi……………………………səh. 139
Elə ki gəldi şirin vəsl, acı hicran getdi…………………………………səh. 140
Aranı, mən demirəm ki, yenə hicran kəsdi…………………………….səh. 141
Öyrədilmişsə də az-çox o namaz məs’ələsi…………………………….səh. 142
Arazın bir tərəfində vətənin bir tərəfi………………………………….səh. 142
Məclisdə nigar olmasa, cam olsa nə xeyri……………………………..səh. 143
Məni, ey qəlb, nə tənə, nə silah öldürəcək……………………………..səh. 144
Ey məlahətli, mətanətli mələk…………………………………………səh. 144
Pakizə olsun deyə yarım kimi gülşən, gərək…………………………..səh. 145
Diqqətlə baxıb gör var xülyadə dəyişkənlik…………………………...səh. 146
Ey dil, mənə vacibdir dildar ilə dil tapmaq……………………………səh. 147
Bürüyübdür elə mən xəstəni yorğanə soyuq…………………………..səh. 147
Çoxdursa yaman, yaxşı adamdır Hacı Rafiq…………………………..səh. 148
Getsə vəslin dəmi, ey yar, fəğan başlayacaq…………………………..səh. 149
Elə bir gün gələcəkdirmi kədər qalmayacaq…………………………..səh. 150

Bildirirsən meylini sözlə, xətadır, söz deyil……………………………səh. 151
Şah olan bir yerdə fərman eyləmək mümkün deyil…………………...səh. 152
Ey atəş yurdum, od yurdum, alov yurdum, ocaq yurdum…………...səh. 153
Məni tək qoymamısan heç də, qəmim var mənim…………………….səh. 153
Yaşadım ki, yaşamaq ləzzətini bəlkə görüm………………………...səh. 154
Üstümə tullama daş, dava-dalaş istəmədim…………………………...səh. 155
Etdin elə ki aşiqi inkar, yıxıldım………………………………………səh. 156
Şe’rimi Qur’an oxuyub yazmışam……………………………………..səh. 157
Sanmasınlar ürəyimdə əsir olmuş sevgim……………………………...səh. 157
Əhvalımı zikrinlə xumar etməyə gəldim……………………………….səh. 158
Çatdı növbəm, təzə cəmiyyətə getmək lazım…………………………..səh. 159
Yox mən təhəri hüsnünə heyran, yenə gəldim………………………...səh. 160
Müasir bir qəzəlxanəm, özüm billəm, özüm billəm……………………səh. 160
Daha meyxanəyə qaçmaqda çətinlik çəkirəm………………………….səh. 161
Eşq dərdi şirindir və şirindir mənə dərdim…………………………….səh. 162
Dərdi fəqət həmdəmə bildirmişəm……………………………………...səh. 163
Nə gözəl saqi, nə badə, nə də cam istəyirəm…………………………..səh. 163
Şadlığa biganə olan Şahinəm……………………………………………..səh. 164
Yağdı qar, bağlar ağardı, qara bağ istəyirəm………………………….səh. 165
Heç bilməyirəm indi həyatım necə olsun………………………………səh. 166
İstəmir heç də geniş yer, bucaq istər Şahin……………………………...səh. 167
Sən ki vəslin yolunu indi hamar eyləmisən…………………………….səh. 168
Kim şe’r yazsa əgər Fatimeyi-Zəhradən………………………………səh. 168
Saqi, mey süz, gözə göylərdə nə var görsənsin………………………...səh. 169
Həddən aşıbdır kədəri Şahinin…………………………………………..səh. 170
Bilirəm mən o qədər qədrini meyxanələrin…………………………….səh. 171
Sən ki, zənginliyi, ey qəlb, hədər bilmişsən…………………………….səh. 171
Mən ki yanıram şamtək, pərvanə də kaş olsun………………………..səh. 172
Cismimi eyləsə də dərdü aləm darmadağın…………………………….səh. 173
Üsyan eləyib qüssə-qəmə, şən gələcəksən……………………………...səh. 174
Şahina, şirin canımdan gərçi bizarəm bu gün………………………….səh. 175
Qum qədəri yarəsi var Şahinin…………………………………………..səh. 176
Var deyən «Bir neçə İskəndər olub məndə əyan……………………….səh. 176
Mehrabına eşqin qara bağlar qoca Şahin……………………………….səh. 177
Bilmirəm çox şeyi, Allah, nədən indiyəcən…………………………….səh. 178
Eşqini eyləyərəm car sənin……………………………………………...səh. 179
Sil göz yaşını yarın, dəsmalına od düşsün………………………………səh. 179
Pünhan elədin dərdini, yarım, nə səbəbdən…………………………….səh. 180
Sən mənimtək ahü əfğan eyləyən görmüşmüsən……………………….səh. 181
Demirəm ovqatını şad eləyənlər gəlsin…………………………………..səh. 181

Elə ki çıxdı küsüb nazlı Züleyxa qapıdan....................................səh. 182
Qürbətə əzm elədikdə məni zar içrə bilin....................................səh. 183
Yarım gələcəkdir yenə, dünya, gözüm aydın.............................səh. 184
Hicranı qoyub gendə gələn yarıma əhsən.................................səh. 184
Masazır kəndi ki, tapmış belə şan Vahiddən...............................səh. 185
Ey sevgili canana, qəm etmə, gələrəm mən...............................səh. 186
Canıma xəta yetişdi xətərin əta əlindən......................................səh. 186
Demişəm: Birləşəcək Azəribaycan bir gün.................................səh. 187
Gəncliyin təntənəsi şövqünə yardır Həkimin...............................səh. 188
Elə boldur ki, şanı Fatimeyi-Zəhranın.........................................səh. 189
Sən harda qalıbsan ki, soraqlar yenə Şahin.................................səh. 189
İmdad elədin çox kəsə, imdadına əhsən.......................................səh. 190
Vəsfini mən o qədər eyləmişəm dildarın.......................................səh. 191
Ayrıyıq bir-birimizdən necə də canan – mən...............................səh. 192
Nəyəsə bir daha nail olasan müşkildir.........................................səh. 192
Yandım o təhər eşqə, səməndər dedi: Bəsdir...............................səh. 193
Qəlbim elə dağlandı ki, dağ içrə qalıbdır....................................səh. 194
Şahinə duzlu yarın hər sözü şəkkər kimidir.................................səh. 194
Müsəlman ki sevər «Allahu əkbər» ..........................................səh. 195

**EYNİ VƏZN, QAFİYƏ VƏ RƏDİFLİ İKİ QƏZƏL**

Sən kimi xoşxəbərə xoş da xəbər vacibdir (I qəzəl) ......................səh. 196
Bizə göz nuri kimi indi zəfər vacibdir (II qəzəl) ...........................səh. 197
Qələmim var mənim, indi bıçaq lazımdır.....................................səh. 197
Dən böyüyüb sünbülə dönməkdədir..............................................səh. 198
Daralır hövsələ, ey dil, yenə dilbər gecikir..................................səh. 199
Yar getmək niyyətində... Ortaya hicran düşür.............................səh. 200
Nə saqi varımdır, nə də qarşımda meyim var...............................səh. 201
Sülh eşqi ürəklərdəsə, qovğa nə deməkdir...................................səh. 201
Küskündü gözəllər, qışı yaz eyləməyirlər....................................səh. 202
Gəlmiş elə bir qətrə dərya kimi getmişdir...................................səh. 203
Sağ qalmağıma yoxdu gümanım, tükənibdir...............................səh. 203
Getsə əgər hicranı canlandırar....................................................səh. 204
Nə savabım bitir, ey gül, nə günahım kəsilir...............................səh. 205
Yaş əllini aşdı, hələ çox yaş gərəkdir..........................................səh. 206
Kim var deyə sevdadə mənimtək dəli vardır...............................səh. 206
Ey xoş ol günlər ki, yarı bəxtiyar eylərdi yar...............................səh. 207
Səcdəyə gərçi müsəlman yerə min-min əyilir...............................səh. 208
Gələcəkdir yanıma şövq ilə ol yar səhər.......................................səh. 208
Nə zaman ki gözümüz bir gözüşəhlayə dəyər...............................səh. 209
Gah sülh izhar edir, hərdən də qovğa göstərir..............................səh. 210

Onda ki, oxdanda ox, əldə kaman görsənər..............................səh. 211
Var elə eşq atəşi qüvvət verir..............................................səh. 212
Yarəb, yenə də gözlərimə yar görünmür....................................səh. 213
Elə söz söyləmişəm göz görə əğyar əriyir..................................səh. 214
Sən ki yoxsan, donuram, çünki otaq odlanmır..........................səh. 214
Ey şux, üfüqdə qızaran dan yeri vardır......................................səh. 215
Kədərim azca idi, indi müsəlsəl görünür....................................səh. 216
Canıma cövr eylədi, canan əlindən əlhəzər................................səh. 217
Kim bilməsə eşqi ona sevda qadağandır....................................səh. 218
Ömrümün illəri hərçənd ələklənmədədir....................................səh. 219
Şamı pərvanə və pərvanəni şam yaxşı bilir................................səh. 219
Yarədir könlüm mənim, gündüz-gecə yar istəyir..........................səh. 220
Yerdə, zənn eyləyirəm, indi müqəddəs yoxdur ...........................səh. 221
Yarəb, niyə sultanlar kaşanədən əl çəkmir..................................səh. 222
Ürəyimdə üzünün xiffəti başlanmışdır.........................................səh. 222
Çoxalıbdırsa da ulduz qədəri gər dilbər......................................səh. 223
Nə oyağəm, nə ayıq mən, nə gözə rö’ya var................................səh. 224
Nə təzad oldu belə: Vamiqi Əzra aparır......................................səh. 225
Qaranı gər qova bilsək, qara ağ olmalıdır...................................səh. 225
Bağiban, bağ-bağatından yenə yar ətri gəlir................................səh. 226
Xanəm məzar oldu altı ildir.......................................................səh. 227
Dünyayə məhəbbət mənə yar ilə gəlibmiş...................................səh. 228
Bir çoxları tədric ilə canana vurulmuş.........................................səh. 228
Kim söyləsə eşq aləmi zillətli olurmuş........................................səh. 229
Eşq oxları bir-bir bata qoy canə, gözəlmiş..................................səh. 230
Şe’rimin zövqü səfası mənə olmuş qismət...................................səh. 231
Şadəm, yığışıbdır o qədər canə məhəbbət...................................səh. 232
Qışdan uzadıbdır əlini yazə məhəbbət........................................səh. 233
Heç kəs deyə bilməz ki, nə hikmətdi bəsirət................................səh. 233
Mey süzüb büllur qədəhdən eyləyirlər yarı məst..........................səh. 234
Sanmaqda könül təkcə o dildarı kifayət......................................səh. 236
Hərdən soruşan olsa «Nə adətdi ibadət» ...................................səh. 236
Qalxır su göyə, dalğanı ümman eləyir məst.................................səh. 237
Dildar deyil o, mənə dildar budur, bu.........................................səh. 238
Gördüm dilini dilim tutuldu.......................................................səh. 239
Hamını tərk eləyib qəm mənə mehman oldu................................səh. 239
Olmayacaqsa alağın qorxusu.....................................................səh. 240
Beynimdə neçin qalmadı xülya, göyə uçdu..................................səh. 241
Qəlb içrə sevinc var idi, lakin necə oldu.....................................səh. 242
Dil yarı soraqlar yenə, sevdayə nə oldu......................................səh. 242

Torpağın altı qızıl qanlara qəltan oldu....................................səh. 243
Sənsən ki, sevəndən məni qəm-qüssə yan oldu............................səh. 244
Deməyin «eyləmə tə’rif kədər üstünlüyünü»...............................səh. 245
Nə üçün düşmənə qarşı yeni qovğa olmaz...................................səh. 245
Kim deyir «şəm’» yazılsın qəzələ, «şam» olmaz..........................səh. 246
İnsanə cəza gəlsə, kədərdən qaça bilməz.....................................səh. 247
Ey Eşq, camalın üzə gülsün gecə-gündüz.....................................səh. 247
Mən nələr yazmadayam!.. Eh, bu camaət bilməz..........................səh. 248
Ölmüşsə də gər yar, ürəyim yarı unutmaz.....................................səh. 249
Qocayam, amma başımdan hələ sevda getməz...............................səh. 249

**MÜXTƏLİF VƏZNLİ ŞE’RLƏR**

Ağac.........................................................................................səh. 251
Açılmayan qönçə.....................................................................səh. 251
Düyün.......................................................................................səh. 253
Bir əğyar deyirdi.....................................................................səh. 253
Təklik.......................................................................................səh. 254
Hər od məgər su sayandı.........................................................səh. 254
Mən..........................................................................................səh. 255
Düşməni olmuşam özüm özümün..............................................səh. 255
Məndə mənlər yaşar, neçə mən mənəm......................................səh. 256
Ağardır üzümə gözlərini qəm....................................................səh. 257
Ümid.........................................................................................səh. 258
Bəhər verən quru ağac.............................................................səh. 258
Qara da yaxşı rəngdir..............................................................səh. 258
Aça bilməyəcəksən..................................................................səh. 259
Həssaslıq.................................................................................səh. 260
Qəm..........................................................................................səh. 260
Sual.........................................................................................səh. 260
Çörəkyapan qarı......................................................................səh. 261
Qan və su.................................................................................səh. 261
Nəyimə gərək...........................................................................səh. 261
Ona! .........................................................................................səh. 262
Sevgi çəməni və ümid suyu......................................................səh. 262
Xəbərdarlıq..............................................................................səh. 263
Yarəb, göz dəyməsin bu məhəbbətə..........................................səh. 263
Pərvanə yandı, öldü.................................................................səh. 264
Kül...........................................................................................səh. 264
Kül və külək.............................................................................səh. 265
Haçansa bir güllə dəyəcək mənə..............................................səh. 265
Ağlayır.....................................................................................səh. 266

Ya Allah! ..........................................................................səh. 267
Çağırış.............................................................................səh. 268
Allah bilir! ........................................................................səh. 268
Dəliyə marağın olsa.........................................................səh. 268
Daşlar və adamlar...........................................................səh. 269
Ecazkar sirr......................................................................səh. 269
Səsini eşidirəm.................................................................səh. 270
Ağlayacağam....................................................................səh. 272
Çətinlik..............................................................................səh. 272
Arı......................................................................................səh. 273
Qüvvədən düşüb...............................................................səh. 274
Əlimi çəksəm də mən bu dünyadan...................................səh. 274
Ustad.................................................................................səh. 275
İstək...................................................................................səh. 275
Çubuq və nağara................................................................səh. 276
Divardan tuta-tuta............................................................səh. 276
Son köynək........................................................................səh. 277
Belə ki uçuram...................................................................səh. 278
Necə öyrədim....................................................................səh. 279
Əkinçi................................................................................səh. 280
Qoca Odun.........................................................................səh. 281
Ona. ..................................................................................səh. 281
Tamridaya.........................................................................səh. 282
Bağlı qəbir qapım..............................................................səh. 282
Alın yazım haqqında yazı..................................................səh. 283
Cənnət...............................................................................səh. 283
Mən niyə çağırdım, sən niyə gəldin....................................səh. 284
Oynaya-oynaya..................................................................səh. 285
Narahatlıq.........................................................................səh. 285
Tar, dəf, nağara.................................................................səh. 287
Soyuq adam.......................................................................səh. 287
Allaha................................................................................səh. 288
Mələk ağırlığı....................................................................səh. 288
Tamridaya.........................................................................səh. 289
Aşağı, yuxarı, yaxud mövzusuzluq....................................səh. 289
Vəfasızlıq..........................................................................səh. 290
Külək və kül.......................................................................səh. 290
Şeytan, kələk ver mənə.......................................................səh. 291
Necə..................................................................................səh. 291
Qeyrətin ətəyi hanı............................................................səh. 292

Həyat və ölüm……………………………………………………………..səh. 293
Ürəkyeyən……………………………………………………………səh. 293
Bu gül niyə qurudu…………………………………………………..səh. 294
Sandıq, qapı, pərdə…………………………………………………..səh. 295
Oldu…………………………………………………………………..səh. 296
Bir zaman evimdə sevgi yaşardı……………………………………..səh. 296
Nəsimi………………………………………………………………..səh. 297
Amin! ………………………………………………………………..səh. 297
Yer və biz…………………………………………………………….səh. 298
Doğuş…………………………………………………………………səh. 298
Canavar, quzu və şair…………………………………………………səh. 298
Asılılıq………………………………………………………………..səh. 299
Qeyri-dəqiqlik…………………………………………………………səh. 299
Ey vətən! ……………………………………………………………..səh. 300
«Tək səbir» …………………………………………………………..səh. 300
Cəza…………………………………………………………………..səh. 302
Nəvəm Püstəxanım deyir…………………………………………….səh. 303
Əgər…………………………………………………………………..səh. 303
Diri daşlar……………………………………………………………..səh. 304
Bu gecə………………………………………………………………..səh. 305
Nə sünni, nə şiə? ……………………………………………………..səh. 306
Xəzəri əyninə geyinən Şahin………………………………………….səh. 308
Yorğan və torpaq………………………………………………………səh. 308
Yehayedi dünyada……………………………………………………..səh. 309
Bir durna bəyəndim göy üzündə mən…………………………………səh. 309
Allahım, bu əyri dünyanı düzəlt………………………………………..səh. 310
Başlandı təzə bir sevgi nağılı…………………………………………..səh. 311
Şah İsmayıl və mən…………………………………………………….səh. 313
Yanıq Kərəm, bir «Kərəmi» çal, şirin…………………………………səh. 313
Mələk daşıyan hamballar………………………………………………səh. 314
Ayı parçalayıb düşmüsən yerə…………………………………………səh. 314
Hətta sükutumda səsim olacaq…………………………………………səh. 315
Səndən sonra……………………………………………………………səh. 316
Xitab…………………………………………………………………….səh. 316
Sənsizliyim………………………………………………………………səh. 317
Üzük elə girsin barmağınıza……………………………………………səh. 318
Qocalmışam……………………………………………………………..səh. 318
Allahı var………………………………………………………………..səh. 320
Dərd, şəkər, qaşıq, su……………………………………………………səh. 321
Qızıl və söz………………………………………………………………səh. 322

Yazığım gəlir……………………………………………………….səh. 322
Vəfasızlar………………………………………………………….səh. 323
Hədə-qorxu…………………………………………………………səh. 324
Gözlərimiz güzgüdür………………………………………………səh. 324
Bax mənə, işıqlanım……………………………………………….səh. 325
İki şe’r…………………………………………………………….səh. 325
Qəm…………………………………………………………………səh. 326
Yalan de mənə……………………………………………………..səh. 326
Bu dünya – dəlixana………………………………………………səh. 328
Yazılacaqmı...………………………………………………………səh. 332
Şam və pərvanə…………………………………………………….səh. 332
Bahar………………………………………………………………..səh. 333
Keçmiş – Gələcək………………………………………………….səh. 333
Yetim eşq…………………………………………………………..səh. 335
Gəl, səni bağlayıb qanadlarıma……………………………………səh. 335
İtmiş məhəbbət külçəsi……………………………………………səh. 336
Toxum kimi…………………………………………………………səh. 337
Sevişdik……………………………………………………………səh. 337
Əl öpüşü……………………………………………………………səh. 338
Qaranlıq……………………………………………………………səh. 338
Nəvəm Püstəxanım bacısı Fəxriyyəyə deyirdi ……………………səh. 339
Bədənini satan qadına! ……………………………………………səh. 339
Dağdan xahiş………………………………………………………səh. 340
Göz yağışı…………………………………………………………..səh. 341
Dərdlər……………………………………………………………..səh. 341
Tənasüx nəzəriyyəsi………………………………………………..səh. 342
Harda qalmısan? …………………………………………………..səh. 343
Şəfqət bacısına……………………………………………………..səh. 344
Güllənəcəkmi………………………………………………………səh. 345
Allah eləsin…………………………………………………………səh. 345
Soyuq, isti, işıq……………………………………………………..səh. 346
Böyüklərin kiçikliyi………………………………………………..səh. 347
Yaşım eşqimdən yaşlıdı……………………………………………səh. 349
İstək…………………………………………………………………səh. 350
Qaçqın………………………………………………………………səh. 351
İki təsbeh dənəsi……………………………………………………səh. 352
Deyiblər, deyirlər, deyəcəklər……………………………………..səh. 353
Gündüzün saçı……………………………………………………..səh. 353
Nəyimə gərəkdir bu sevgi mənim………………………………….səh. 355
Öz-özümə sual……………………………………………………...səh. 355

Mən səni heç zaman bağışlamaram……………………………………sәh. 356
Allahsız………………………………………………………………..səh. 357
Sağ ölülər, ölü sağlar………………………………………………səh. 358
Əridi getdi……………………………………………………………səh. 359
Yandırma məni………………………………………………………səh. 359
Nəzər…………………………………………………………………..səh. 360
Öz-özümə sual………………………………………………………..səh. 361
Bilməzlik………………………………………………………………səh. 361
Yol……………………………………………………………………..səh. 362
Tək……………………………………………………………………..səh. 362
Bu şe’ri yazdım bu gün………………………………………………səh. 363
Biri yaxşı, biri yaman………………………………………………..səh. 364
Qədəm…………………………………………………………………..səh. 365
İnsan və torpaq………………………………………………………səh. 366
Görünmür! ……………………………………………………………səh. 367
Şübhə…………………………………………………………………..səh. 368
Adəm balası…………………………………………………………..səh. 369
Yer kürəsi – bir çimdik torpaq……………………………………səh. 370
Necə tapım……………………………………………………………səh. 371
Söyüş…………………………………………………………………..səh. 371
İki od…………………………………………………………………..səh. 372
Xahiş…………………………………………………………………..səh. 373
Haradasan……………………………………………………………səh. 375
Bütöv idim, tam idim………………………………………………səh. 379
Göylər izləyir səni…………………………………………………səh. 379
Sənin yanında…………………………………………………………səh. 380
Yaşa, Adəm!.. ………………………………………………………..səh. 381
Adəm ilə Həvva………………………………………………………səh. 382
Ölməz dörd qardaş…………………………………………………..səh. 382
Daha bəsdi, İlahi……………………………………………………..səh. 383
Çomaq hayanda qaldı………………………………………………..səh. 384
Sən harada qalmısan…………………………………………………səh. 385
Sükut əzabı……………………………………………………………səh. 386
Yarəb…………………………………………………………………..səh. 387
Cütün təkdən nə xəbəri……………………………………………səh. 388
Üstümə gəlir………………………………………………………….səh. 389
Çatdadı…………………………………………………………………səh. 390
Sən – mən……………………………………………………………..səh. 390
Gəlmə…………………………………………………………………..səh. 391
Varlıq və Yoxluq……………………………………………………..səh. 392

Qur'anı oxuyandan sonra……………………………………………………səh. 394
İşıq…………………………………………………………………………səh. 397
Dəli mənimdir…………………………………………………………...səh. 398
Zəifləyib……………………………………………………………………səh. 398
Danışanda…………………………………………………………………səh. 399
İzn ver öpüm………………………………………………………………səh. 400
Borcluyuq…………………………………………………………………..səh. 400
Haçan gələcəksən, müntəzirik biz……………………………………...səh. 401
Əli Rza Xələfli……………………………………………………………..səh. 402
Əli Rza Xələfli yardan asılı………………………………………………səh. 404
Amanlardan aman-aman…………………………………………………..səh. 405
Babəkin qolu hanı…………………………………………………………...səh. 406
Bıçağı neylədiniz...……………………………………………………………səh. 407
Çox-tək…………………………………………………………………………..səh. 408
Ana və uşaq……………………………………………………………………..səh. 408
Görünməyən görən…………………………………………………………...səh. 410
Bildim ki, bilmədim mən…………………………………………………...səh. 411
Giley-güzar……………………………………………………………………səh. 411
Biçinçiyəm, biçindəyəm, İlahi…………………………………………...səh. 413
Səxavət……………………………………………………………………….səh. 414
Qəribə…………………………………………………………………………..səh. 414
Bəsirət gözü……………………………………………………………………..səh. 415
Məhəmməd peyğəmbərə…………………………………………………….səh. 416
Daş ilə danışıram……………………………………………………………..səh. 416
Torpaq və qabırğa…………………………………………………………….səh. 417
Nəvəm Püstəxanım nəvəm Fəxriyyəyə deyir…………………………...səh. 418
Hara qaçır bu qoca……………………………………………………………..səh. 418
Son sevgi……………………………………………………………………….səh. 421
Qeyrət…………………………………………………………………………...səh. 421
**BİR GECƏNİN ŞE'RLƏRİ**
Mən……………………………………………………………………………...səh. 422
Birinci qadın…………………………………………………………………..səh. 423
«Adamlar»ın müəllifi Həyat Şəmiyə…………………………………...səh. 424
Gözümü ver, çıxım-gedim……………………………………………………səh. 426
Dostlar…………………………………………………………………………..səh. 427
Soyun, sevdiyim, soyun……………………………………………………...səh. 427
Mən quru ağacam……………………………………………………………..səh. 428
Başı papaqlılar………………………………………………………………….səh. 429
Şairə atılan gülləni tutun…………………………………………………….səh. 429
İndicə döşəmə güllənəcəkdir………………………………………………səh. 431

Cücərdi……………………………………………………………..səh. 432
Sevgi………………………………………………………………..səh. 433
Qara bulud…………………………………………………………səh. 433
Gül…………………………………………………………………..səh. 434
Baş tutmayan vüsal………………………………………………..səh. 434
Röya quşu…………………………………………………………..səh. 435
Deyəsən bu dünya düzələn deyil………………………………..səh. 436
Bir daha mən cavan olmayacağam………………………………səh. 437
Tələsmirəm…………………………………………………………səh. 438
Kəsilmiş qollar……………………………………………………..səh. 439
Tikan güllənəcək…………………………………………………..səh. 442
Yad et, məni yanə-yanə yad et…………………………………..səh. 442
Gələcəyəm yanına…………………………………………………..səh. 443
Mənsur Həllac sayağı……………………………………………...səh. 444
Söhbət……………………………………………………………….səh. 445
Təmənna…………………………………………………………….səh. 446
Mirvari boyda……………………………………………………...səh. 446
Bir söhbətə qulaq asdım…………………………………………..səh. 447
Məhrəm günah……………………………………………………..səh. 448
Həyat Şəmiyə sual…………………………………………………səh. 448
Yolsuz padşah………………………………………………………səh. 449
Yazır, qələmimin başı aşağı……………………………………...səh. 450
Qaçqına……………………………………………………………..səh. 450
Ay adamlar!.. ……………………………………………………...səh. 451
Gül…………………………………………………………………..səh. 451
Tamridaya…………………………………………………………..səh. 452
Əmanətə xəyanət…………………………………………………...səh. 452
Ürək………………………………………………………………….səh. 453
Şəlalə………………………………………………………………...səh. 454
İçində………………………………………………………………...səh. 454
İş……………………………………………………………………...səh. 455
Sözüm nə əyri imiş!.. ……………………………………………...səh. 455
Neçin? ……………………………………………………………….səh. 456
Gətirir………………………………………………………………..səh. 456
Gələn görüşə kimi…………………………………………………..səh. 457
Danışan mənzil……………………………………………………..səh. 458
Quşun yuxusu gəlir………………………………………………...səh. 459
Çıxır………………………………………………………………….səh. 460
Ayaqqabı……………………………………………………………..səh. 460
Gerçəklik və yuxu………………………………………………….səh. 461

7 fevral.....................................................................səh. 462
Həvvalaşan qabırğa.............................................səh. 463
Ağac dözümü, insan dözümsüzlüyü......................səh. 463
Adamlar və çiçəklər..............................................səh. 464
Yağma, ey yağış.. .................................................səh. 465
Öz-özümdən sual....................................................səh. 465
Mələk üstəgəl qanadları.......................................səh. 466
Ölüm, yaxud daimi həbs cəzası............................səh. 466
«Təmənna» adlı şe’rimi xatırladım.......................səh. 467
Məhəmməd Füzuliyə sözüm....................................səh. 468
Laməkan.................................................................səh. 468
Tələsmə barı..........................................................səh. 469
Gəlir.......................................................................səh. 470
«Əl-leylətu hublə» ................................................səh. 470
İztirab.....................................................................səh. 471
Həyat və ölüm.........................................................səh. 471
Səbəbkar.................................................................səh. 472
Gözəllərə.................................................................səh. 473
Telefon qabı.............................................................səh. 473
Rica.........................................................................səh. 474
Baxmaq və görmək..................................................səh. 474
Söyüşçü....................................................................səh. 474
Bu şe’ri oxuma mən olmayanda..............................səh. 475
Səndən xəbərsiz.......................................................səh. 477
Göndərən.................................................................səh. 477
Gəldin… Getdin.......................................................səh. 478
Oyaqlıq və yuxu.......................................................səh. 480
Səni görmək üçün qayıdacağam...............................səh. 481
Nəvəm Püstəxanımın şe’r boğçası üçün: Mənə nə olub..................səh. 482
Bürüyün kəfənə diləklərimi......................................səh. 482
Nur...........................................................................səh. 483
Sınaq........................................................................səh. 484
Qabağımda...............................................................səh. 485
Dalımca gəlir............................................................səh. 485
Getmək istəyirəm dağlara doğru..............................səh. 486
Mənim qocalığım......................................................səh. 487
Tut ağacı...................................................................səh. 488
Sual...........................................................................səh. 489
Göyərçin kimi.............................................................səh. 490
Kaş............................................................................səh. 491

Gözləyəcəyəm……………………………………………………..səh. 491
İki şahin……………………………………………………………səh. 492
Hesab dərsi…………………………………………………………səh. 493
Necə birləşək ki, görən olmasın…………………………………..səh. 494
Dil səni bir daha səsləməyəcək……………………………………səh. 494
Məddah bir şairin yığcam portreti…………………………………səh. 495
Allahdan xahiş………………………………………………………səh. 496
Allah ağlayır…………………………………………………………səh. 496
Aşağı…………………………………………………………………səh. 497
Bəşəri arzu…………………………………………………………səh. 498
Acmışam……………………………………………………………..səh. 498
Kafər…………………………………………………………………səh. 499
Qonaq………………………………………………………………..səh. 499
Gəlmə………………………………………………………………..səh. 500
Bənd olduğuma iki bənd söz……………………………………...səh. 500
Altmış dörd yaşlı küsəyən kişi……………………………………səh. 501
Ağladı……………………………………………………………….səh. 502
Rəng…………………………………………………………………səh. 502
Çətin sual…………………………………………………………...səh. 504
Qara libaslı gözəlin gəlişi və romantik əhvali-ruhiyyə……………….səh. 505
O dünya, bu dünya…………………………………………………...səh. 506
Əcələ…………………………………………………………………səh. 506
Ölümüm üçün nostalgiya……………………………………………səh. 507
İmtina, sənin xətrinə…………………………………………………səh. 507
İynə……………………………………………………………………səh. 508
Gəl…………………………………………………………………….səh. 508
Qeyri-adi dilənçi……………………………………………………...səh. 509
Subay…………………………………………………………………..səh. 510
Diplom………………………………………………………………...səh. 511
Ayaqlar…Yollar……………………………………………………...səh. 511
Kinli Şahin…………………………………………………………..səh. 512
Qurtdayan qar………………………………………………………..səh. 512
Toy……………………………………………………………………..səh. 515
Sonsuz və sonsuz……………………………………………………..səh. 519
Məsafə…………………………………………………………………..səh. 519
Kölgə və gün………………………………………………………….səh. 521
Dəri……………………………………………………………………..səh. 521
Ölə bilmir………………………………………………………………səh. 521
Qurd ürəyi………………………………………………………………səh. 524
Güc……………………………………………………………………..səh. 526

Hambal……………………………………………………….səh. 526
Kölgə………………………………………………………..səh. 527
Dünənə qədər……………………………………………….səh. 528
Yuxu…………………………………………………………..səh. 529
Səhv…………………………………………………………..səh. 529
İşıq və qaranlıq…………………………………………….səh. 530
Şairə Güləmailə…………………………………………….səh. 531
Sürgün………………………………………………………..səh. 531
Ürək açarı……………………………………………………..səh. 532
Darıxdırıcı dünya…………………………………………..səh. 533
Allah…………………………………………………………..səh. 534
Uğur…………………………………………………………..səh. 535
Cəllad…………………………………………………………səh. 536
Tük……………………………………………………………səh. 537
Mənə tez-tez zəng edən tanımadığım adama…………səh. 537
Səs…………………………………………………………….səh. 538
Soyqırım………………………………………………………səh. 539
Bəla……………………………………………………………səh. 539
Quyruq………………………………………………………..səh. 540
Örpək…………………………………………………………səh. 541
Haraya gedir…………………………………………………səh. 542
Divar…………………………………………………………..səh. 542
Ruh……………………………………………………………səh. 544
Mənsur Həllacın sözləri…………………………………..səh. 545
Əbədi Tanrı…………………………………………………..səh. 546
Yeni il qabağı düşüncəm…………………………………..səh. 547
Gördüm……………………………………………………….səh. 547
Heç……………………………………………………………..səh. 548
Qoca……………………………………………………………səh. 549
Hiss…………………………………………………………….səh. 550
Boyaqçı……………………………………………………….səh. 551
Yuxu…………………………………………………………..səh. 552
Etinasızlıq……………………………………………………səh. 553
Kəpək…………………………………………………………səh. 554
Ona……………………………………………………………səh. 554
Tozlu güzgü………………………………………………….səh. 555
Qara qan……………………………………………………..səh. 556
Buluda…………………………………………………………səh. 557
Mən səni özümdə öldürəcəyəm………………………….səh. 557
Allah ola bilsəydim…………………………………………səh. 559

«Təzkireyi-Şahin» ....................................................................səh. 560
Xəyal....................................................................................səh. 562
Yaşıl ümidimin gülləri qara..............................................................səh. 563
Təklif...................................................................................səh. 564
Ona......................................................................................səh. 565
Qırğı....................................................................................səh. 565
Ona......................................................................................səh. 566
Uçan adam................................................................................səh. 567
Mən qocanın arzusu.......................................................................səh. 569
Pişiyin əlinə girəvə düşüb...............................................................səh. 570
Qələmə...................................................................................səh. 572
Gözəl bir nağıl, gerçəksizlik və ağılsızlıq barədə qısa bir şe’r...........səh. 573
Çətin məsələ.............................................................................səh. 573
Neytral mövqe............................................................................səh. 574
Mən......................................................................................səh. 576
Çətin adam...............................................................................səh. 577
Qaranlıqda çıraqsız......................................................................səh. 579
Nostalgiya...............................................................................səh. 579
Yerə yerləşmirəm.........................................................................səh. 580
Təzə nağıl...............................................................................səh. 580
Sözlü qoca...............................................................................səh. 582
Novruzun birinci günü, ikinci görüş, yaxud ağ rəng fırçası..............səh. 582
O gün şe’r yaza bilmədim sənə............................................................səh. 585
Don və od................................................................................səh. 585
Donuram..................................................................................səh. 586
65.......................................................................................səh. 586
Qoca şahin...............................................................................səh. 589
Yol ayrıcı...............................................................................səh. 589
Dərin yuxu...............................................................................səh. 590
Mən......................................................................................səh. 591
Gələcək planım...........................................................................səh. 592
Sevgi yükü...............................................................................səh. 593
Müəmma...................................................................................səh. 593
Şeş qoşa.................................................................................səh. 594
«Bəxtsiz cavan» müəllifinə...............................................................səh. 594
Elə yaxşı hava var ki....................................................................səh. 595
Mənim bacım..............................................................................səh. 596
Acgöz sürücüyə...........................................................................səh. 597
«Dava-dava» .............................................................................səh. 598
Daş......................................................................................səh. 599

Əl kəsmək
istəyirəm……………………………………………………………sәh. 600
Qoca kişidə…………………………………………………………sәh. 602
Libas…………………………………………………………………sәh. 602
Söz və səs……………………………………………………………sәh. 603
Şair……………………………………………………………………sәh. 604
Qış gəldi axı…………………………………………………………sәh. 605
Müqəddəs od…………………………………………………………sәh. 606
Məsləhətləşmə………………………………………………………sәh. 606
Şair……………………………………………………………………sәh. 607
Şair-kamikadze………………………………………………………sәh. 608
Ömrümün kəhəri………………………………………………………sәh. 608
Soyuq söhbət…………………………………………………………sәh. 609
Ətəyin nə uzaqda……………………………………………………sәh. 610
Ölümümdən sonra……………………………………………………sәh. 611
Qurd ürəyi gətirin……………………………………………………sәh. 612
O taylı qardaşıma……………………………………………………sәh. 613
Yayda qar……………………………………………………………sәh. 613
Mənim dərdim…………………………………………………………sәh. 614
Təklif…………………………………………………………………sәh. 617
Ölümqabağı……………………………………………………………sәh. 618
Giley…………………………………………………………………sәh. 619
Anna Karenina………………………………………………………sәh. 619
Gedək qar yeyək……………………………………………………sәh. 620
Mən……………………………………………………………………sәh. 622
Başsız adam…………………………………………………………sәh. 624
Fələk, baş və baş daşı………………………………………………sәh. 625
Açıq qapını döymə……………………………………………………sәh. 625
Gəlir…………………………………………………………………sәh. 626
Nizam və nizamsızlıq………………………………………………sәh. 627
Tarix və şaşqınlıq……………………………………………………sәh. 628
İşıq……………………………………………………………………sәh. 628
Cəhənnəmə ki…………………………………………………………sәh. 629
Canavar kimi…………………………………………………………sәh. 631
Bir dəfə………………………………………………………………sәh. 632
Yasin…………………………………………………………………sәh. 632
Vəziyyətim……………………………………………………………sәh. 634
Dövlət çevrilişi………………………………………………………sәh. 634
Gözlədiyim qadın……………………………………………………sәh. 636
Məhəbbət və toz………………………………………………………sәh. 637

Mərmi eşq……………………………………………………………səh. 637
Qayçılama şəlaləni……………………………………………………səh. 638
Möcüzə………………………………………………………………səh. 639
Allah balası və adam balası…………………………………………səh. 640
Əməliyyat……………………………………………………………səh. 640
Utanmaz………………………………………………………………səh. 640
Bir qəbirlik……………………………………………………………səh. 641
Allaha sual……………………………………………………………səh. 643
Tamridaya……………………………………………………………səh. 645
Heç nə yerləşmir ürəyimə……………………………………………səh. 645
Məktub göndərdim sənə………………………………………………səh. 646
Bədbin əhvali-ruhiyyə…………………………………………………səh. 647
Cinas…………………………………………………………………səh. 647
Ölülər ölü deyil…………………………………………………………səh. 648
İtirmək və tapmamaq……………………………………………………səh. 649
Çıxım gedim……………………………………………………………səh. 650
Acizanə rica……………………………………………………………səh. 651
Təsvir…………………………………………………………………səh. 651
Üşüntü…………………………………………………………………səh. 652
Səhər sənə oxuyacağım məhrəmanə şe’r………………………………səh. 653
Cavabsız sual……………………………………………………………səh. 654
Biri dedi…………………………………………………………………səh. 656
Öz-özümlə söhbət………………………………………………………səh. 656
Şe’r aşiqi kimi…………………………………………………………səh. 657
Mən belə istəyirdim……………………………………………………səh. 658
Mübarək olsun…………………………………………………………səh. 659
Ayaq səsi…………………………………………………………………səh. 660
Sınıq qəlbin dedikləri……………………………………………………səh. 662
Adsız şe’r, yaxud adsız uşaq……………………………………………səh. 662
Allahıma…………………………………………………………………səh. 663
Soyuq, isti…………………………………………………………………səh. 664
Qəddar aşiq………………………………………………………………səh. 665
Qocaldı məhəbbətim……………………………………………………səh. 666
Özümün özümə sözü……………………………………………………səh. 666
Şərab ver…………………………………………………………………səh. 667
Dərd………………………………………………………………………səh. 668
Demokratiya………………………………………………………………səh. 668
Qafiyə……………………………………………………………………səh. 669
Danışsam…………………………………………………………………səh. 669
Əzrayıla……………………………………………………………………səh. 670

İnsan və zaman……………………………………………………sәh. 671
İpək yolu……………………………………………………………sәh. 672
Bu gün və sabah……………………………………………………sәh. 673
Bilmirəm, bilirəm…………………………………………………sәh. 674
Azərbaycandan rica………………………………………………sәh. 674
Mən……………………………………………………………………sәh. 675
İsti söhbət…………………………………………………………sәh. 676
Turan oğlu…………………………………………………………sәh. 677
İnsan-şeytan………………………………………………………sәh. 678
Həsrət………………………………………………………………sәh. 679
İki yox, bir………………………………………………………sәh. 680
Tərəziçi……………………………………………………………sәh. 680
Ətək…………………………………………………………………sәh. 681
Balıqqulağı…………………………………………………………sәh. 682
Kişi ağlayışı………………………………………………………sәh. 682
Qubada………………………………………………………………sәh. 683
«Quş qripi» ………………………………………………………sәh. 683
Yaxan düymələ……………………………………………………sәh. 684
Utanc hiss…………………………………………………………sәh. 685
İki səhər……………………………………………………………sәh. 686
Mənim ürəyimdə ölü uşaq
var……………………………………………………………………sәh. 688
Soyuqluq……………………………………………………………sәh. 690
Məni qızdır…………………………………………………………sәh. 690
Təsəvvürümdə……………………………………………………sәh. 691
Adsız şe’r…………………………………………………………sәh. 691
Zəlzələ vaxtı………………………………………………………sәh. 692
Kasıblıq……………………………………………………………sәh. 692
Yanıq yeri…………………………………………………………sәh. 693
Getmisən……………………………………………………………sәh. 693
İnsanov………………………………………………………………sәh. 693
Zülmətin cəzası……………………………………………………sәh. 694
Ey yağış qətrəsi……………………………………………………sәh. 694
İnansın inanmayan………………………………………………sәh. 697
Qorxma………………………………………………………………sәh. 698
Çiçək kimi…………………………………………………………sәh. 698
Göyün yeddinci qatı………………………………………………sәh. 699
Şimal küləyi………………………………………………………sәh. 700
Bu uşaq niyə ağlamır……………………………………………sәh. 700
İskəndərin buynuzu………………………………………………sәh. 701

Nadinc istək……………………………………………………………sәh. 702
İt ili………………………………………………………………………sәh. 703
«Mələk günü» ……………………………………………………………sәh. 705
Gülmə, həşrə qədər ağlamağım var……………………………………sәh. 706
Qərar………………………………………………………………………sәh. 707
Quraqlıqm…………………………………………………………………sәh. 708
Kuzə və xəlbir……………………………………………………………sәh. 708
Kitabın kitabı bağlanan deyil……………………………………………sәh. 709
Gecə və gündüz…………………………………………………………sәh. 710
Sancı………………………………………………………………………sәh. 710
Gördün neylədin…………………………………………………………sәh. 711
Yanğı………………………………………………………………………sәh. 712
Məni mənə ver……………………………………………………………sәh. 713
Badamgöz…………………………………………………………………sәh. 713
Suri-İsrafil, yaxud İsrafil tütəyi…………………………………………sәh. 715
Xahiş………………………………………………………………………sәh. 715
Şəksiz………………………………………………………………………sәh. 715
Çağıran deyiləm səni bir daha…………………………………………sәh. 717
Bizim aramızda iti qılınc var……………………………………………sәh. 717
Şe’rə şe’r…………………………………………………………………sәh. 719
Mücərrəd şe’r……………………………………………………………sәh. 721
Sarı gəlin…………………………………………………………………sәh. 722
Darısqal……………………………………………………………………sәh. 723
Özümü itirmişəm…………………………………………………………sәh. 724
Əl……………………………………………………………………………sәh. 725
Niyə gəlmisən……………………………………………………………sәh. 726
Haçan gəlirsən……………………………………………………………sәh. 727
Rəmzlər……………………………………………………………………sәh. 727
Darıxdım……………………………………………………………………sәh. 728
Qərar………………………………………………………………………sәh. 728
Adsız şe’r…………………………………………………………………sәh. 729
Bölünmə……………………………………………………………………sәh. 729
Təzad………………………………………………………………………sәh. 731
Saman, batmağa qoyma…………………………………………………sәh. 731
Göy arzusu…………………………………………………………………sәh. 732
Danışır………………………………………………………………………sәh. 733
Şübhəli qocalıq……………………………………………………………sәh. 733
Sevgi…………………………………………………………………………sәh. 734
**«FƏLƏSTİNNAMƏ» SİLSİLƏSİNDƏN ŞE’RLƏR**
Dərdin dərdi………………………………………………………………sәh. 734

Fələstin……………………………………………………………..səh. 735
Ümid…………………………………………………………………səh. 737
Gündüzün üzü………………………………………………………səh. 738
Dünya qadınlaşır……………………………………………………səh. 740
Məndən sonra………………………………………………………..səh. 740
Gecəni yanında keçirdim sənin……………………………………səh. 741
Mən səni həmişə axtaracağam……………………………………səh. 742
Mənlə sən arasında……………………………………………….səh. 743
Qalıbdır……………………………………………………………..səh. 744
Aman Gülgəz, yarım hanı…………………………………………səh. 744
Pəncərədən daş gəlir……………………………………………….səh. 745
Göydə cığır…………………………………………………………səh. 745
Evlənəcəyəm………………………………………………………..səh. 746
Çərçivə………………………………………………………………səh. 746
Dərdlər……………………………………………………………….səh. 747
Pəncərədən keçən şüa………………………………………………səh. 748
Ona…………………………………………………………………...səh. 748
Qaraca Çobanın çomağı…………………………………………….səh. 749
Xəstə gün……………………………………………………………səh. 750
Düz və dağ, yaxud eqoist şair……………………………………..səh. 751
Allah qoymadı………………………………………………………səh. 752
Çağır…………………………………………………………………səh. 753
Yarımçıq……………………………………………………………..səh. 753
Seyr…………………………………………………………………..səh. 754
Asi və narahat……………………………………………………….səh. 754
Əlin ayağı……………………………………………………………səh. 756
Yanıma gəlmə……………………………………………………….səh. 757
Naz eləmə…………………………………………………………….səh. 758
İlğım………………………………………………………………….səh. 758
Mələk…………………………………………………………………səh. 759
Röya…………………………………………………………………..səh. 760
Uçuş………………………………………………………………….səh. 760
Su və sahil……………………………………………………………səh. 761
Qardaş, öülm nəmənədi……………………………………………..səh. 762
Gəlmə…………………………………………………………………səh. 764
«Sonuncu zəng»dən sonrakı zənglər………………………………səh. 766
Qaçqınlarımıza……………………………………………………….səh. 768
Tamridaya…………………………………………………………….səh. 768
Yaxşıdır……………………………………………………………….səh. 769
Ağrıyır………………………………………………………………..səh. 769

Nə günahı……………………………………………………………..səh. 770
Nə boyda………………………………………………………………..səh. 770
Nə günahı……………………………………………………………...səh. 771
Məni……………………………………………………………………..səh. 771
Əzrayıla…………………………………………………………………səh. 772
«Tərcüman-sahib, necəsən?» …………………………………..səh. 772
Son istək…………………………………………………………………səh. 775
Çılğın şe’r……………………………………………………………..səh. 776
Xəbərdarlıq…………………………………………………………...səh. 777
Yalan söylə, sən canın……………………………………………..səh. 777
Öldürəcək……………………………………………………………..səh. 778
Kasıb qızcığaz………………………………………………………...səh. 779
24 saat…………………………………………………………………..səh. 780
İstəyirəm dəli olum…………………………………………………..səh. 781
Şahinin qədrini bilən yox daha………………………………….səh. 782
Dar ağacı………………………………………………………………..səh. 783
Ağla………………………………………………………………………..səh. 784
Köhnə şairlərin didaktik şe’rlərinə bənzər şe’r………………………səh. 785
Yeni postmodernist məzmunlu şe’r………………………………səh. 786
Ölünün yanına niyə gəlibsən……………………………………səh. 787
İki yol ayrıcında……………………………………………………..səh. 789
Qışı kim göndərib mənim yanıma…………………………………..səh. 790
Səninlə görüşdük su içdiyin dəm………………………………səh. 791
Məni oxuyanlara…………………………………………………...səh. 793
Yazıçılar………………………………………………………………..səh. 793
Öldüm…………………………………………………………………..səh. 794
Sönet……………………………………………………………………..səh. 795
Hambala………………………………………………………………….səh. 796
Məhəbbət kitabı……………………………………………………...səh. 797
Sağ həkim Qəninin qəbri………………………………………….səh. 898
Kölgəmi qılınclayana……………………………………………….səh. 800
Dənizlər………………………………………………………………….səh. 801
Əlvida……………………………………………………………………..səh. 801
Cavabını tapa bilmədiyim sual………………………………………səh. 802
Qubada sənsiz………………………………………………………...səh. 802
Hələ ki…………………………………………………………………...səh. 803
Qubada yazdığım cızmaqara…………………………………….səh. 804
Heyhat…………………………………………………………………...səh. 805
Dəli………………………………………………………………………..səh. 805
İki dəli………………………………………………………………………səh. 805

Təzad…………………………………………………………………səh. 806
Gecənin ayağı………………………………………………………...səh. 807
Mübarək olsun…………………………………………………………səh. 807
Bir şaircığaza……………………………………………………………səh. 808
Allah olmaq çətindir…………………………………………………...səh. 808
«Fatma şikəstə» ……………………………………………………...səh. 810
İstəməm…………………………………………………………………səh. 811
İtirdim…………………………………………………………………...səh. 812
Bilmirsən ki, bilmirsən…………………………………………………səh. 812
Torpaq…………………………………………………………………..səh. 813
Qubada yağış……………………………………………………………səh. 814
Nağıl və ağıl…………………………………………………………….səh. 815
Qoca dəyirmançı, köhnə dəyirman……………………………………səh. 815
Sual………………………………………………………………………səh. 816
Sənəm Səbayel haqqında şe’r…………………………………………..səh. 816
«Ay Allah!..» ……………………………………………………………səh. 818
«Qışqırma» deməyin mənə……………………………………………..səh. 819
Öləndən sonra…………………………………………………………...səh. 821
Mən elə təkcəyəm ki…………………………………………………….səh. 821
Yol……………………………………………………………………….səh. 822
Yapışıb…………………………………………………………………..səh. 823
Ayağımı…………………………………………………………………..səh. 824
Kimidir…………………………………………………………………...səh. 824
Bəla………………………………………………………………………səh. 826
Tənha kəsin saatdan ricası……………………………………………..səh. 826
Danışmayaq……………………………………………………………...səh. 827
Yenə göyərmişəm………………………………………………………..səh. 828
Yol………………………………………………………………………..səh. 828
Özümə…………………………………………………………………….səh. 829
Göy………………………………………………………………………..səh. 829
Soyuq adam……………………………………………………………...səh. 830
Ey kişi……………………………………………………………………..səh. 830
Təsadüf və zərurət………………………………………………………..səh. 831
Rica………………………………………………………………………...səh. 831
Allahsıza……………………………………………………………………səh. 832
Təmənnalı dünya…………………………………………………………..səh. 832
Təkcə sənin…………………………………………………………………səh. 833
Öldür………………………………………………………………………..səh. 833
Kitab təqdimatı, yaxud «Sakit Don» ……………………………………..səh. 834
Dəli………………………………………………………………………….səh. 837

Bənövşə yağışı yağır üstümə……………………………………………səh. 838
Qismət……………………………………………………………………..səh. 840
Donuz ili…………………………………………………………………səh. 840
Məndəki ikinci «Mən»ə! ………………………………………………..səh. 841
Üç medal…………………………………………………………………səh. 842
Əl çalırıq…………………………………………………………………səh. 844
Xülya……………………………………………………………………..səh. 845
Ey əğyar…………………………………………………………………..səh. 846
Müqəddəs rəqəm…………………………………………………………səh. 846
Ölməz istək………………………………………………………………səh. 847
Bədbin şe’r……………………………………………………………….səh. 848
Yanğın……………………………………………………………………..səh. 849
İkiürəkli…………………………………………………………………..səh. 850
Açılan qapı……………………………………………………………….səh. 850
Ən ülvi müəllim…………………………………………………………səh. 851
Kim………………………………………………………………………..səh. 852
Sən mənim yanıma qayıdacaqsan………………………………………..səh. 853
Diriləri öldürürlər, ay Allah……………………………………………..səh. 854
Öldürüb yaşadan…………………………………………………………səh. 855
Bədbin şe’r……………………………………………………………….səh. 855
Ay Nənə…………………………………………………………………..səh. 856
Mən………………………………………………………………………..səh. 857
İki qapı…………………………………………………………………….səh. 857
Ölümsüz…………………………………………………………………..səh. 858
İt və it uşağı……………………………………………………………….səh. 858
Oğrular…………………………………………………………………….səh. 859
İki paltarlı Yer Kürəsi……………………………………………………..səh. 859
Alın yazısı…………………………………………………………………səh. 860
Dəli…………………………………………………………………………səh. 860
Günəş……………………………………………………………………….səh. 861
Hər şey və heç nə!.. ………………………………………………………..səh. 861
Məni öldürənə……………………………………………………………..səh. 863
Köz…………………………………………………………………………səh. 864
Yoxdur ölüm……………………………………………………………….səh. 864
Laylay……………………………………………………………………..səh. 865
Düz ürək…………………………………………………………………..səh. 866
Olmasın «Sonuncu zəng» sonuncu zəng…………………………………səh. 866
Yağla su kimi………………………………………………………………səh. 867
Üzsüz adam………………………………………………………………..səh. 868
Gözümün yaşı……………………………………………………………..səh. 868

Ürək xörəyi……………………………………………………………sәh. 869
Asın məni………………………………………………………………səh. 870
Qollarım qanada dönsəydi əgər………………………………………səh. 870
Yamaqsız…………………………………………………………………səh. 872
Söz və qətrə……………………………………………………………səh. 872
Baş daşı…………………………………………………………………səh. 873
Ömür………………………………………………………………………səh. 873
Məlum sual………………………………………………………………səh. 873
Alatoran…………………………………………………………………səh. 874
Dünya……………………………………………………………………səh. 874
Ölümümdən sonra özüm haqda adsız şe’r…………………………səh. 875
Müraciət…………………………………………………………………səh. 875
Ağlar, müt’i, oğru dünya………………………………………………səh. 876
Hələ sağam, sağam hələ………………………………………………səh. 876
Sonuncu otaq……………………………………………………………səh. 877
Həyat……………………………………………………………………səh. 878
Baş və kök………………………………………………………………səh. 879
Bizə gəlmisən……………………………………………………………səh. 880
Donuram…………………………………………………………………səh. 881
Dəvəquşuya……………………………………………………………səh. 882
Mənim bu dünyayla işim yox daha…………………………………səh. 883
Lütfizadə…………………………………………………………………səh. 884
Müvəqqəti və qəti………………………………………………………səh. 885
Güllələr…………………………………………………………………səh. 885
**QİT’ƏLƏR**………………………………………………………səh. 887-906
**TƏZMİNLƏR**
Bəsdi, həzz əyyamı bitdi, indi qəm çəkmək gərək…………………səh. 907
Hanı Məcnun – bilə səhra çəkəni? …………………………………səh. 907
Meylim olmuşdur dəli, əqlimlə qovğa eyləyir………………………səh. 908
Qəlbimin fani cahanda o qədər niskili var……………………………səh. 909
Qəlb içrə fərəh dönüb qəm oldu………………………………………səh. 909
Dərdinə yoxdursa gər yar, var olan bir yar tap………………………səh. 910
Bir pərisurət, mələkxislət təmənnasındayam…………………………səh. 911
Bu cahan yurdu əzəldən məzarıstan yeridir…………………………səh. 912
Ey var edən intizarı, dinlə……………………………………………səh. 913
Dərdim-ürəyimdə, yenə dərmanım-əlində……………………………səh. 914
Məhəbbət gər bəladırsa məhəbbətdən nədir fayda? …………………səh. 915
Aldanma, cahan fanidir, ey şənlik edən kəs…………………………səh. 916
Ya İlahi, gözümüz qoyma ki səngər görsün…………………………səh. 916
Gəlmisən sən yenə, həsrət yoxdur……………………………………səh. 917

Sağala bilməsə gər yarəsi biçarələrin……………………………….səh. 918
Aşiqin məskəni çöldür, dağdır……………………………………….səh. 919
Aşiqlərə iztirab edibsən……………………………………………səh. 920
Getdin, məni kimsəsiz buraxdın……………………………………səh. 921
Ya İlahi, bizə tövfiqini göndər…Amin……………………………...səh. 921
Leylidən sonra gözəllərdə sədaqət varmı…………………………səh. 922
Gərçi var üstündə yerin yer varı…………………………………...səh. 923
Könlüm neçə müddətdi ki, işrət nədi bilmir……………………….səh. 924
Hərçənd ki, çox ahü nəva eyləmişəm mən ………………………..səh. 925
Qəmi-eşqə düşdün, ey dil, bu qəmin mübarək olsun………………..səh. 926
Həqbin nəzəri yoxsa, görməz məni hər kimsə……………………..səh. 926
Mən nə məscid, nə rövzə, nə də minbər tanıdım…………………..səh. 927
Səsləməkdən o gülü oldu yenə dil yarə……………………………..səh. 928
Çoxdandı mənim yanıma, ey can, səfərin yox……………………...səh. 929
Məst etdi məni yar, özü məstanəyə döndü…………………………səh. 930
Məst etdi məni yar, özü məstanəyə döndü…………………………səh. 930
Ölkə var qul sultanından yaxşıdır…………………………………...səh. 931
Neçin, Rəbbim, bu aləmdə bugün xoş halımız yoxdur……………..səh. 932
Olur göz yaşlarım, yarəb, şərab ahəstə-ahəstə……………………...səh. 933
Gecənin çadrasını cırmadasan ay təki……………………………..səh. 934
**Əbülqasim Firdovsiyə təzminlər**…………………………………...səh. 935-936
Qeyrəti canda əgər olsa səfərbər kişinin……………………………səh. 936
Yenə naşad könlüm buldu yüz yerdən məlal, ağlar………………...səh. 937
Ey aşiq, eşqi tərk eylə, bu sevdadən nə istərsən…………………..səh. 938
Eyb etməgilən sən kimi cananə yanında……………………………səh. 939
Bircə yol gəlmisən, ey sevgili dilbər, yenə gəl……………………..səh. 940
Gözümün üstünü yarım ki qədəmgah bilir…………………………səh. 940
İçən eşqin meyini biz elə məstanələrik……………………………..səh. 941
Təmənna etdiyim sözlər neçin canandən çıxmaz…………………..səh. 942
Qılmış məni eşq atəşi rüsva, xəbərim yox…………………………...səh. 943
Ey dil, yenə həsrət rüxi-dildarə qalıbsan…………………………..səh. 944
Mən sevməmişəm sevgili cananımı birdən…………………………səh. 944
Can dolubdur eşqin ilə, cananım, candan xoşam…………………...səh. 945
Dəryayə baxıb, sevgili yarım, səni görrəm…………………………səh. 946
Çəkməzəm qəm töksə qanım tiği-bürranın sənin…………………...səh. 947
Birdən düşüb öldüm, bunu dildar nə bilsin…………………………səh. 948
Ol gülyanağın zülfi-pərişanı uzundur………………………………səh. 948
Hicranı unutdun niyə? Ey can, tələb eylə…………………………...səh. 949
Yaxşılıq eyləməsən sanma yaman ollam mən……………………..səh. 950
Eşq meydanında can vermək deyil ar, ey könül ……………………səh. 951

Tökmə rüxsarına zülfü, çək onu yanə bu gün……………………….səh. 952
Xəbərə uyma, «xəbər xəstəliyi» çox yayılıb……………………………səh. 953
Görmürəm ağ rəngini, gərçi günüm qarədir……………………………..səh. 953
Heç zaman fikr eyləməzdim mən ki yar əldən gedər…………………..səh. 954
Səndən özgə bir pəri həm var ki, heyrandır mənə……………………..səh. 955
Aşiqin yanmağına, yarım, inandım sənsiz……………………………..səh. 956
Yarsız olmazsa nicatım mənim…………………………………………..səh. 956
Kimdə zər varsa, əql yoxsa, o zər var deyil……………………………səh. 957
Həsrətinlə, sənəma, sinəmə dağlar çəkilib……………………………..səh. 958
Biganələşib əhd ilə peymanə, - deyirlər………………………………..səh. 959
Səba, lütf etdin, əhli-dərdə dərmandan xəbər verdin…………………..səh. 960
Xatiri-yar əgər aşiqə azar istər………………………………………….səh. 961
Təni-zarın damarından dili-bimar asılıb………………………………..səh. 962
Verməyin siz mənə qəm, mən qəmi az-çox bilirəm……………………səh. 962
**Əfzələddin Xaqaninin şe'rlərinə təzminlər** ……………………….səh. 963-969
Məşuqədə çün işvəvü naz olmasa olmaz……………………………….səh. 970
Get, ey viran olan könlüm, daha viranədən əl çək……………………..səh. 971
Yar ki, heyran olmasıyla yarı heyran eyləmiş………………………….səh. 971
Bihünərlər çünki meydanda sürür dövran bugün……………………...səh. 972
Tanrı bilsin, hicr bizar eyləyib candan məni…………………………...səh. 973
Sənsiz ürəyim qəmlə dodaqlanmadadır, gəl…………………………...səh. 974
Qeysin ahı yandırmasa, səhra yana bilməz……………………………səh. 975
Zar edəndən o sənəm qəlbi, pərişanəm mən…………………………..səh. 975
Səni yad eyləyirik şamü səhər, ey Seyyid………………………………səh. 976
Sevgitək sərvətü var səndə də var, məndə də var……………………..səh. 977
Varmıdır rəhmin sənin, ey nazlı canan, varmıdır……………………..səh. 978
Bu onun surətidir, gör necədir yar hələ………………………………..səh. 979
İnqilablar ölkənin dərhal dayağın titrədər……………………………..səh. 979
Neylərəm əhvalımı istəkli canan bilməsə………………………………səh. 980
Xəlq o gülçün əl-ayaqdan gedir…………………………………………..səh. 981
İstərəm dincələ can, mümkünmü…………………………………………səh. 982
Aşiqa, məhzun deyildi gərçi əhvalın sənin……………………………..səh. 983
Yenə təsdiq özümündür, yenə inkar sənin……………………………..səh. 983
Şair, həzzin sonu var, amma qübarın bitmir…………………………...səh. 984
Sədaqət olsa hər insanda xislət………………………………………….səh. 985
Ömr bir cuyi-abdır guya…………………………………………………..səh. 986
Nə bəla gəldi, İlahi, bu Azərbaycanə……………………………………səh. 987
Gözün oğrun baxıb hər ləhzə canə qəsdi-can eylər…………………...səh. 988
Bu qədər ki, çoxalır fitnəvü şər dünyadə………………………………səh. 989
Yazmağa başlamamışdan sözü «Bismillah» et…………………………səh. 990

Bəndələr zillər çəkirlər şahlərdən, ey könül……………………………səh. 990
Bu nə dəhşətli zəmanə, bu nə dövran oldu……………………………..səh. 991
Artırma, gülüm, qüssə-qübarı, səni Tarı………………………………səh. 992
Yarəb, bu nə qəmdü çarə olmaz………………………………………səh. 993
Dəysə Məcnun nəzərim bir də o Leyla əlinə…………………………..səh. 994
Dilbərim, qəmzə oxun at bu şirin canə dəgə…………………………..səh. 995
Ürəyim öylə bezibdir ki, qəhər gizlətməz………………………………səh. 995
Cansız idim, dedilər səndə yenə can görünür…………………………səh. 996
Çox başımız ağrıtma, bizə baş gərəkdir………………………………..səh. 997
Nakam olsa yenə Qeys, vaxta təəccüblənərəm………………………..səh. 998
Sevgini inkar elədin, bəs deyil…………………………………………səh. 999
Gülər tək, ağlayar tənha, yatar tənha, gəzər tənha…………………səh. 1000
Rahatlıq görməyib dövran içində……………………………………səh. 1001
Şəm'in şərəfi olsa pərvanəni yandırmaz……………………………...səh. 1002
**TƏXMİSLƏR**
Ələkbər Şahidin qəzəlinə təxmis……………………………………...səh. 1003
Hacı Rza Sərrafın qəzəlinə təxmis……………………………………səh. 1004
**SÜRUDLAR**
Sürud…………………………………………………………………...səh. 1007
Sürud…………………………………………………………………...səh. 1007
Sürud…………………………………………………………………...səh. 1008
**MÜRƏBBELƏR**
Mürəbbe………………………………………………………………..səh. 1010
Mürəbbe………………………………………………………………..səh. 1011
Mürəbbe………………………………………………………………..səh. 1012
**MÜSƏBBE**……………………………………………………………səh. 1014
**MÜSTƏZAD**………………………………………………………….səh. 1016
**HAYKULAR (XOKKULAR)**……………………………………..səh. 1018-1067
**TƏBRİKNAMƏLƏR**
Şahin Fazil, qocalığın mübarək………………………………………səh. 1068
Qızımın qızı……………………………………………………………səh. 1069
**QƏZƏLLƏR**
Alqış şərəfə! Öylə şərafətlidi Qiymət…………………………………səh. 1071
Qələmi döndəribən xəncərə Ramiz Faseh……………………………səh. 1072
«Hər həkim hikməti bilməz» deyə hökm etdi Qəni…………………..səh. 1073
Tüstü rəngində görünməkdədi ahın rəngi……………………………səh. 1074
Azər elinin bir elə dildarıdı Zərnaz…………………………………...səh. 1075
Yəqin ki, tək deyil, Yer Kürrəsində xeyli var Cahid………………...səh. 1075
Dağ çayına gör necə bənzər Kərim!.. ………………………………...səh. 1076
Həm təbibdir, həm həkimdir, öylə hikmətdir Qəni…………………səh. 1077

Qəflətdə qalıb çox günü vermiş yelə Şahin…………………………..səh. 1078
Qəzələ Əliağa adlı ağa Vahid gəldi…………………………………...səh. 1079
Sevdayə cahanda tələbat olmasa, olmaz……………………………..səh. 1080
Qit'ə……………………………………………………………………səh. 1081
Qəzəl…………………………………………………………………..səh. 1082
Qəzəl…………………………………………………………………..səh. 1082
Qəzəl…………………………………………………………………..səh. 1083
Qəzəl…………………………………………………………………..səh. 1084
Qəzəl…………………………………………………………………..səh. 1085
Qəzəl…………………………………………………………………..səh. 1086
Qəzəl…………………………………………………………………..səh. 1087
Bir gün yazmalıyam «Vasimnamə»ni………………………………..səh. 1088
**Əlibala Hacızadənin 70 yaşı münasibətilə iki şe'r**
I. Qəzəl…………………………………………………………………səh. 1089
II. Hərdən gözəllərə baxmağın da var………………………………..səh. 1090
Qəzəl…………………………………………………………………..səh. 1091
Qəsidə………………………………………………………………….səh. 1092
Qəzəl…………………………………………………………………..səh. 1095
Qoca deyən qocadır…………………………………………………….səh. 1096
Əməli ucadır, işi ucadır………………………………………………..səh. 1096
Qəzəl…………………………………………………………………..səh. 1097
Qəzəl…………………………………………………………………..səh. 1098
Qəzəl…………………………………………………………………..səh. 1099
Qəzəl…………………………………………………………………..səh. 1100
Qəzəl…………………………………………………………………..səh. 1101
Qəzəl…………………………………………………………………..səh. 1102
**TƏƏSSÜFNAMƏLƏR**
Qit'ə……………………………………………………………………səh. 1103
Tamridaya……………………………………………………………...səh. 1103
Tamridaya……………………………………………………………...səh. 1104
Böyükxan Pərviz üçün elegiya………………………………………..səh. 1104
İtdin……………………………………………………………………səh. 1106
Gülcənnət – cənnət gülü………………………………………………səh. 1107
Sürud…………………………………………………………………...səh. 1109
Tamridaya……………………………………………………………..səh. 1110
Qit'ə……………………………………………………………………səh. 1111
Namümkünlük…………………………………………………………səh. 1111
Təzmin…………………………………………………………………səh. 1112
Tənhalıq………………………………………………………………..səh. 1113
Tamridaya……………………………………………………………...səh. 1115

Səni itirəndən sonra……………………………………………səh. 1116
Tamridaya……………………………………………………...səh. 1117
Niyə ölmədim……………………………………………….səh. 1117
Tamridaya……………………………………………………...səh. 1117
Bu gün nə çox su var bulud içində…………………………səh. 1118
Ölü dirini çağırır……………………………………………səh. 1118
Məmmədbağır öldü…………………………………………səh. 1120
Qəzəl…………………………………………………………səh. 1121
Yaxşı günlərimi yaman bitirdim…………………………...səh. 1122
Qəbrinin yanında yerim var mənim………………………..səh. 1123
Qit’ə…………………………………………………………səh. 1124
Qit’ə…………………………………………………………səh. 1125
Qəsidə………………………………………………………..səh. 1125
Üç mələk……………………………………………………..səh. 1127
Sən ilə mən…………………………………………………..səh. 1128
Qəzəl…………………………………………………………səh. 1129
Tamridanın qəbri üstündə…………………………………səh. 1130
**SƏFƏRNAMƏLƏR (İRANA X SƏFƏR MÜNASİBƏTİLƏ ŞE’RLƏR). ŞAHİN, YENƏ İRANƏ YETİŞDİM, GÖZÜM AYDIN**
Qəzəl…………………………………………………………səh. 1131
Mürəbbe……………………………………………………..səh. 1132
Qəzəl…………………………………………………………səh. 1132
Qəzəl…………………………………………………………səh. 1133
Qəzəl…………………………………………………………səh. 1134
Qəzəl…………………………………………………………səh. 1135
Yaşıl rəngli saçlar…………………………………………..səh. 1136
Neçə ildir Şahin qalıb Bakı-Tehran arasında……………….səh. 1137
Qit’ə…………………………………………………………səh. 1138
Qəzəl…………………………………………………………səh. 1139
Dərd bir yana getdi, kədər bir yana………………………..səh. 1139
Qəzəl…………………………………………………………səh. 1140
Yıxılmaq və durmaq………………………………………...səh. 1141
Ey tənha balıq……………………………………………….səh. 1142
Tehranda yazdığım haykular……………………………….səh. 1143
Qəzəl…………………………………………………………səh. 1144
**İRANA XI SƏFƏR MÜNASİBƏTİLƏ ŞE’RLƏR. BU NƏ HİCRAN Kİ, YETİŞMƏKDƏ VÜSAL ƏTRİ MƏNƏ?**
İran, Turan…………………………………………………..səh. 1145
Qəzəl…………………………………………………………səh. 1146
Qiblə…………………………………………………………səh. 1146

Sürud……………………………………………………………..səh. 1148
Qəzəl……………………………………………………………səh. 1149
Qəsidə…………………………………………………………..səh. 1150
Gəldi-gedər…………………………………………………….səh. 1152
Şahin öz-özünü güllələyəcək…………………………………..səh. 1153
Qit'ə……………………………………………………………səh. 1154
Qəzəl……………………………………………………………səh. 1155
Qit'ə……………………………………………………………səh. 1155
Qəzəl……………………………………………………………səh. 1156
**İRANA XII SƏFƏR MÜNASİBƏTİLƏ ŞE'RLƏR. ŞAHİNƏ QİSMƏT OLUBDUR YENƏ İRAN SƏFƏRİ**
Qəzəl……………………………………………………………səh. 1158
Qəzəl……………………………………………………………səh. 1159
Hələlik cavabsız suallar……………………………………….səh. 1159
Qəzəl-təzmin…………………………………………………...səh. 1161
Qəzəl-təzmin…………………………………………………...səh. 1162
Dünya…………………………………………………………..səh. 1163
Qəzəl……………………………………………………………səh. 1165
Qəzəl……………………………………………………………səh. 1165
Qəzəl-təzmin…………………………………………………...səh. 1166
Qit'ə……………………………………………………………səh. 1167
Qəzəl-təzmin…………………………………………………...səh. 1168
Nizaminin büstü……………………………………………….səh. 1168
Qəzəl-təzmin…………………………………………………...səh. 1170
Qəzəl-təzmin…………………………………………………...səh. 1171
Qəzəl-təzmin…………………………………………………...səh. 1171
**İRANA XIII SƏFƏR MÜNASİBƏTİLƏ ŞE'RLƏR. ŞAHİNİN GÖZLƏRİ TƏBRİZDƏ QALIBDIR, GÖZƏLİM**
Qəzəl……………………………………………………………səh. 1173
Qit'ə……………………………………………………………səh. 1174
Qala…………………………………………………………….səh. 1175
Qəzəl……………………………………………………………səh. 1176
Qəzəl……………………………………………………………səh. 1177
Nə oldu…………………………………………………………səh. 1178
Qəzəl……………………………………………………………səh. 1179
**İRANA XIV SƏFƏR MÜNASİBƏTİLƏ ŞE'RLƏR. URMİYƏ TORPAĞINA HEYRAN OLUBDUR ŞAHİN**
Yaxın, uzaq…………………………………………………….səh. 1181
Qəzəl……………………………………………………………səh. 1184
Qəzəl……………………………………………………………səh. 1185

Üç gün……………………………………………………………..səh. 1186
Ölümümdən əvvəl ölmüşəm………………………………………..səh. 1188
Qit’ə………………………………………………………………səh. 1189
**İRANA XV SƏFƏR MÜNASİBƏTİLƏ ŞE’RLƏR. «ON BEŞİNCİ SƏFƏRİM BAŞLADI İRANƏ MƏNİM»**
Qit’ə………………………………………………………………səh. 1190
Qəzəl………………………………………………………………səh. 1191
Oyandım yuxudan lap səhər erkən………………………………..səh. 1191
Yeddi sualın bir cavabı…………………………………………….səh. 1192
Qit’ə………………………………………………………………səh. 1193
Qəzəl………………………………………………………………səh. 1194
Ey mələk, qurban olum…………………………………………….səh. 1195
Qəzəl………………………………………………………………səh. 1196
**«İKİNCİ NAXÇIVAN SƏFƏRNAMƏSİ» ŞE’RLƏRİ. «YENƏ ŞAHİN QUŞUTƏK NAXÇIVANA UÇDUM MƏN»**
Bayatılar…………………………………………………………..səh. 1198
Qəzəl………………………………………………………………səh. 1199
Yol həsrəti…………………………………………………………..səh. 1200
İstədi………………………………………………………………səh. 1201
Dördlük……………………………………………………………..səh. 1201
Qəzəl………………………………………………………………səh. 1202
Qəsidə……………………………………………………………..səh. 1202
**İRANA XVI SƏFƏR MÜNASİBƏTİLƏ ŞE’RLƏR. QOCA DƏRVİŞ, YENƏ İRANƏ SƏFƏR VAR, - DEDİLƏR**
Qəzəl………………………………………………………………səh. 1205
Qəzəl………………………………………………………………səh. 1206
Qəzəl………………………………………………………………səh. 1206
Qəzəl………………………………………………………………səh. 1207
Qəzəl………………………………………………………………səh. 1208
E’tiraf……………………………………………………………..səh. 1209
**İRANA XVII SƏFƏR MÜNASİBƏTİLƏ ŞE’RLƏR. «VAXTIN ƏTƏYİNDƏN TUTUB İRANƏ TƏLƏSDİM»**
Qəzəl………………………………………………………………səh. 1213
Qəzəl………………………………………………………………səh. 1214
Saxlayıb məni……………………………………………………..səh. 1214
Qəzəl………………………………………………………………səh. 1216
Qəzəl………………………………………………………………səh. 1216
Qit’ə………………………………………………………………səh. 1217
Qanad istəyi……………………………………………………….səh. 1218
Ağa Məhəmməd şah Qacar………………………………………..səh. 1219

Bayatı……………………………………………………………….səh. 1219
Bayatı……………………………………………………………….səh. 1219
Qəzəl……………………………………………………………….səh. 1220
Mürşidi-kamil……………………………………………………….səh. 1220
**RÜBAİLƏR** …………………………………………………səh. 1223-1224
**DÖRDLÜKLƏR**…………………………………………………...səh. 1225-1251
**SƏKKİZLİKLƏR**…………………………………………………səh. 1252-1256
**TƏKBEYTLƏR**……………………………………………………səh. 1257-1272
**BAYATILAR, VARSAĞILAR**……………………………….....səh. 1273-1276
**XATİMƏ**……………………………………………………………...səh. 1277-1282
**ÖLÜM POEMASI, YAXUD «QARDAŞ ÖLÜM NƏMƏNƏDİ?»**…………………………………………………səh. 1283-1293
**«ÜÇÜNCÜ DİVAN»A ƏLAVƏ. DÜNYANIN DAĞILMASI, YAXUD YAXŞI OLDU DAĞILDI (POEMA)** …………………………səh. 1294-1364
**MÜNDƏRİCAT**…………………………………………………...səh. 1365-1398

**KORREKTOR:** ***Nazilə Fazil***

**KOMPYUTER YIĞIMI:** ***Aliyə Ələsgərova***
**TEXNİKİ REDAKTOR:** ***Aliyə Ələsgərova***

Təknur mətbəəsində çap edilib